AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# BORÇALI FOLKOR ÖRNƏKLƏRİ

**(Dastanlar)**

**II KİTAB**

BAKI – 2013

**Tərtib edəni və**
**çapa hazırlayanı:** **Elxan MƏMMƏDLİ**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Əməkdar Mədəniyyət işçisi*

**Redaktoru:** **Mahmud ALLAHMANLI**
*filologiya üzrə elmlər doktoru,*
*professor*

**Rəyçilər:** **Seyfəddin QƏNİYEV**
*filologiya üzrə elmlər doktoru*
**Seyfəddin RZASOY**
*filologiya üzrə elmlər doktoru*

**Borçalı folklor örnəkləri, II kitab (Dastanlar).** Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013.

AMEA Folklor İnstitutunun nəşr etdirdiyi bu cildə Azərbaycanın tarixi mahallarından olan Borçalının ayrı-ayrı aşıq və el şairlərinin vaxtilə yaratdıqları dastanlar daxil edilmişdir. Klassik dastan yaradıcılığı ənənələrini özündə sənətkarlıqla əks etdirən bu nümunələrin geniş oxucu kütləsi üçün də maraq doğuracağına əminik.

B $\frac{3202050000}{098 - 2013}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2013.

# TƏRTİBÇİDƏN

Qədim Borçalı torpağı zəngin təbiəti, rəngarəng relyefi, əsrarəngiz gözəlliyi ilə diqqəti cəlb etdiyi kimi, ibrətamiz folkloru, çoxşaxəli ağız ədəbiyyatı ilə də əlamətdardır. İqlim baxımdan şərti olaraq üç coğrafi məqamı özündə əks etdirən Borçalı ərazisi mövcud ədəbiyyatda – Dağ Borçalı, Bağ Borçalı və Aran Borçalı kimi təqdim olunur. Və bu ərazidə yaşayan insanların yaratdığı ağız ədəbiyyatı da çoxçeşidlidir. Hələ ötən əsrin ortalarından bu ərazidə fəaliyyət göstərmiş folklor ekspediyalarından da məlum olur ki, bu torpaqdakı folklor örnəkləri sakinlərinin tarixi qədər qədimdir. Vaxtilə Borçalıdan toplanmış bayatılar, atalar sözləri və məsəllər, əfsanə və rəvayətlər, xüsusən də dastanlar zaman-zaman nəşr olunmuş folklor kitablarına daxil edilmiş ümumxalq yaradıcılıq məhsulu kimi təqdim edilmişdir. Bu da şübhəsiz, sonrakı nəsillərə regionun folklor həqiqətini çatdırmağa imkan verməmişdir. Lakin son illər AMEA Folklor İnstitutunun toplama, nəşr və tədqiqat sahəsində həyata keçirdiyi iş üslubu hər bir regionun folklor örnəklərini xarakterizə edərək özünəməxsusluğunu üzə çıxrtmaq üçün böyük imkanlar yaradır. Bu baxımdan institut rəhbərliyinin ayrı-ayrı regionların folklor örnəklərinin əsaslı şəkildə toplanıb nəşr etdirilməsində göstərdiyi səylər neçə illərdir öz bəhrəsini verməkdədir. Geniş oxucu kütləsinə, xüsusən də elmi ictimaiyyətə təqdim etdiyimiz bu kitab da qarşıda qoyulmuş məqsədlərə xidmət etməkdədir.

Adından da bəlli olduğu kimi, topluya daxil etdiyimiz dastanlar Borçalıda yaşayıb-yaratmış ustadlar tərəfindən yaradılmış dastanlardır. Bu dastanları yaradanlar haqqında kitabın sonunda məlumat verdiyimizdən bu məqamda onlar haqqında danışmağı lazım bilmirik. Ancaq onu nəzərə çatdırmaq istəyirik ki, “Borçalı folklor örnəkləri” seriyasından nəşr olunan kitablarımız bununla və bundan əvvəlki nəşrlərlə məhdudlaşmayacaq. Bizə institut rəhbərliyi səviyyəsində yaradılmış şəraitə uyğun

olaraq gələcəkdə də Borçalıdan topladığımız folklor örnəklərimizi kitab şəklində nəşr etdirəcəyik. Bu sahədə üz ağardan işlərimiz az deyildir. Xüsusən nəşrini gələn il nəzərdə tutduğumuz iki cildlik “Borçalı aşıqları və el şairləri” kitablarını Borçalıda yaşayan ziyalı dostumuz şair Bəhram Mehdi ilə birlikdə nəşrə hazırlayırıq. Uzun illərdən bəri istər Bəhram müəllimin, istərsə də özümün topladığımız yüzdən çox el sənətkarının poetik irsini bir araya gətirmişik və bu işimiz bu gün də davam etməkdədir. Yaxın gələcəkdə Borçalı folkloru ilə bağlı bir sıra işlər nəzərdə tutmuşuq; bunlardan biri, bəlkə də birincisi ayrı-ayrı janrlar üzrə yeni toplular hazırlamaqdır. Düşünürük ki, Borçalıdan toplanmış ayrıca “Bayatı”, “Rəvayət”, “Əfsanə”, “Lətifə”, “Qaravəlli”, “Əmək nəğmələri” və s. adda kitablar tərtib edib nəşr etməklə nənə-babalarımızdan qalan zəngin sərvətimizi bugünkü nəslə layiqincə çatdıra biləcəyik. Qeyd edim ki, bu sahədə bizə kömək olacaq ziyalılarımız, alim və jurnalistlərimiz nəzərə çarpacaq qədər işlər görmüşlər. Xüsusən də mərhum tədqiqatçı alim, professor Valeh Hacılar, Nəriman Əbdürrahmanlı, Fərhad Xubanov, professor Şurəddin Məmmədli, Süleyman Əfəndi, professor Mədət Çobanov, Müşfiq Çobanlı, Rafiq Hümbət, Bəhram Mehdiyev, Rəşid Faxralı, Əli Abbasov, Mirzə Maşov, Osman Dərviş, professor Mahmud Kamal oğlu, Vahid Ömərli, Əsəd Əliyev, Nizami Məmmədov və Əlxan Yəhya oğlunun bu sahədəki xidmətlərini xüsusi qeyd etmək istərdim. Elə bilirəm “Borçalı folklor örnəkləri”ni daha səmərəli, daha keyfiyyətli və daha effektli toplayıb nəşr etmək üçün yuxarıda adlarını çəkdiyim Borçalı ziyalıları bütün güclərini bir yerə cəmləyib bu işə səfərbər olmağı şərəf işi hesab edəcəklər.

Bu şərəfli və xeyirxah işimizdə hamımıza uğurlar olsun!

*REDAKTORDAN*

# ZƏNGİN BORÇALI FOLKLOR MÜHİTİ VƏ FOLKLORŞÜNAS ELXAN MƏMMƏDLİ

Türk xalqlarının genetik yaddaşı bütünlükdə mənəvi düşüncənin zənginliyinə, ruhun qorunuşuna hesablanır. Bunu zəngin şifahi yaradıcılığımız, məişətimiz, mərasimlərimiz, tariximiz və nəyimiz varsa hamısı bir tərəf, bir istiqamət kimi göstərməkdədi. Ən müqəddəs və savab iş isə bir borc kimi həmin zənginliyə sahib çıxmaqdır. Dünyanın müasir gedişi, qloballaşmanın doğurduğu problemlər bunu zərurət kimi qarşıya qoyur. Son dövrün olayları, xaricdən və daxildən məqsədli müdaxilələr, respublikamızın müharibə şəraitində olması, bitib-tükənməyən Qarabağ müharibəsi, Qərbi Azərbaycan, Göyçə, Zəngəzur itkisi və s. də göstərmədədir. Məsələ təkcə bununla da bitmir. Bunların arxasınca maddi və mənəvi mədəniyyətin aşınması, mədəniyyət ocaqlarının sıradan çıxması kimi məsələlər gəlir. Məmləkətimiz böyükdən-kiçiyə həmin ağrıları yaşamağa məcbur edilir. Xalqın zəngin şifahi yaradıcılığı da belə bir taleni yaşamaq məcburiyyətində qalır. Bütünlükdə bunlar və bu kimi digər məsələlər müxtəlif istiqamətli işlərin aparılmasını günün vacib məsələləri sırasına çıxarır. Belə bir vəziyyətdə daha görülməli olanlardan biri, bəlkə də birincisi məhz folklor örnəklərinin toplanıb gələcək nəsillərə çatdırılmasıdır. Bizdən əvvəlkilər, müdriklərimiz bu sahədə gərəkli addımlar atıblar. Xalq yaradıcılığının toplanması, nəşri və tədqiqi sahəsində ləyaqətli işlər görüblər. Ə.Qaradağinin, M.Mahmudbəyovun, T.Bayraməlibəyovun, E.Sultanovun, Y.V.Çəmənzəminlinin, H.Zeynallının S.Mümtazın, H.Əlizadənin, V.Xuluflunun, M.H.Təhmasibin və başqalarının gördükləri böyük işlər var. Etiraf edək ki, bu işlər bütünlükdə folklorşünaslığımız üçün bir məktəbdi, açılmış yoldu. Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu

indi həmin işlərə sahiblik edir. Onun başında durur. Müasir günümüzdə həmin yolu uğurla davam etdirənlər, qoruyub saxlayanlar var. Onlardan biri, bəlkə də birincilərdən biri folklorşünas Elxan Məmmədlidir. «Azərbaycan folkloru külliyyatı» seriyasından çap olunmuş «Dastanlar» (XXX kitab, Bakı, Elm və təhsil, 2012) kitabını, yenicə nəşrə hazırladığı «Borçalı folkloru örnəkləri», «Borçalıda yaranan dastanlar» toplusunun əlyazmasını oxuduqdan sonra bu qənaətə gəldim. Yadıma prof. P.Əfəndiyevin bir neçə il əvvəl Elxan Məmmədli haqqında dediyi fikirlər düşdü. Orada bir məqam var və xüsusi olaraq vurğulanır: «Elxan Məmmədlinin bir ayağı Azərbaycanın rayon və kəndlərində olmuşdur. Bu, onun bütün yaradıcılığı dövrünə aiddir. Hər dəfə də rayonlardan necə deyərlər, bir xurcun el sərvəti ilə qayıdır. Elxan aşıqdır, özü də böyük aşıqdır. Mən son zamanlar ona yarızarafat belə müraciət edirəm. Aşıq sənətində haqq aşığı termini var. Son dövrün yazılarında göstərilir ki, haqq aşığı haqqa, Tanrıya aşiq deməkdir. Ancaq mənim şəxsi qənaətimə görə bu belə deyildir. Haqq aşığı haqdan, Tanrıdan vergi almış sənətkardır… Elxan Məmmədli də Haqdan belə vergi almış insandır. Haqq aşıqlarımız bu vergi ilə şeir, dastan yaradıb. Elxan Məmmədli isə həmin bu vergi ilə onların sənətlərini inci, mirvari kimi yığıb, toplayıb, çap eləyib, doğma xalqına qaytarmışdır». Doğurdan da, folklorşünas Elxan Məmmədli xalqın zəngin yaradıcılığını, haqq vergisi almış sənətkarlarının yaratdıqlarını elə həmin sevgi, haqq vergisi ilə toplayıb xalqa çatdıranlardan, onu öyrənənlərdəndi.

Elxan Məmmədli aşıq yaradıcılığının tədqiqatçısıdır. Ustad sənətkarların ədəbi irsinin, zəngin yaradıcılıqlarının toplanması, nəşri, tədqiqi sahəsində gördüyü əvəzsiz işlər var. Hmin işlərin dəyəri bir illə, beş illə ölçülə bilməz, onları bütünlkdə xalqın tarixinə hesablamaq gərəyi yaranır. Çünki bu zəngin irsin özünün kökləri çox dərinliklərə işləyir. Orada işarələnən hər hansı fakt, fikir, simvol, hadisə özlüyündə yeni axtarışlara yol açır.

Təcnis sənətkarlığı ilə bağlı araşdırması bunun bariz nümunəsidir. Onu da əlavə edək ki, aşıq yaradıcılığı E.Məmmədlinin bütünlükdə düşüncəsinin, fəaliyyətinin, hiss və duyğularının mühüm bir hissəsini əhatə edir. Daha doğrusu, ruhunda dayanır. Bəlkə də bu ruh onun yaşamına, fəaliyyətinə, düşüncəsinə, hiss və duyğularının hərəkətinə yardımçı olur.

Folklorşünas alimimizin zəngin yaradıcılığında mühüm bir hissəni, bəlkə də aparıcı xəttini Borçalı folklor mühitinin öyrənilməsi təşkil edir. Bunu təkrar qeyd edək ki, həmin regiondan apardığı toplamalar, tərtiblər, kitablara yazdığı ön söz, şərhlər də aydınlığı ilə göstərir. Həmin işlər həmişə artan istiqamətdə getmişdir. Haqqında danışmaq istədiyimiz «Borçalıda yaranan dastanlar» da bunun bariz nümunəsidir. Bir qədər əvvəl E.Məmmədlinin mühitin görkəmli sənətkarlarından olan Aşıq Aslan Kosalının repertuarından yazıya aldığı dastanları oxumuşdum. Həmin toplama içimdə sevinc doğurmuşdu. Və belə düşünmüşdüm ki, əgər bir ustadın repertuarından bu qədər dastan nümunəsi yazıya almaq mümkündürsə, onda hələ yazıya alınmalı nə qədər dastanlarımız, xalq yaradıcılığı nümunələrimiz var. Onların toplanmasına tələsmək lazımdı. Bu kitab həm də məndə o hissi də yaratmışdı ki, son dövrün toplama işlərində kifayət qədər ləyaqətlə görülən işlər var. E.Məmmədlinin bu toplusunu ləyaqət nümunəsi kimi başa düşmüşdüm. Çünki folklor haram, ruhuna uyğun olmayan qatışıqlıqları sevmir. Folklorşünasın işi nə varsa onu təbiiliklə toplayıb xalqa çatdırmaqdı. Son dövrün toplama işlərində bu müqəddəs işə əllər uzanmada idi. O isə bütün tərəfləri ilə görünürdü və bir qədər məyusluğa, təəssüf etməyə gətirib çıxarırdı. Elxan Məmmədlinin gördüyü bu böyük işlər, fikrimizcə, son dövrün folklorşünaslığına nümunədi. Məsuliyyət hissinin, cavabdehliyin nə demək olmasıdı. Bunun üçün isə ilk öncə böyük sevgi, için təmizliyi, onunla yaşamaq, yaşamağı bacarmaq duyğusu lazımdı.

«Borçalıda yaranan dastanlar» bir toplu olaraq böyük dəyər qazanır. Onun dəyəri ilk öncə dastan ənənəsini, bu ənənənin yaşarlığını öyrənmək baxımından əhəmiyyətlidir. Çünki türk xalqlarının düşüncəsində ən aparıcı xətlərdən birini dastan yaradıcılığı tutur. Burada xalqın məişəti, tarixi, qayğıları, mübarizəsi, həyat, dünya sevgisi və s. hamısı toplaşır. Və öyrənilmə ehtiyacında görünür. Bu dastanlar bir istiqamətdə bədii fakt, dastan hadisəsi kimi əhəmiyyət daşıyırsa, digər istiqamətdə tarixə çevrilir. Bizim ulularımızın, keçmişimizin hansı zənginliklərdən sevinc və ağrılardan, mübarizədən keçib gəldiyini və haraya getmək yollarını göstərir. Eyni zamanda keçmişlə, ilkin təsəvvürlərlə bu gün arasındakı zamanı, keçilmiş əlaqəni bərpa edir. «Yaradılış», «Şu», «Ərqənəkon», «Boz qurd», «Köç» və s. kimi dastanlarımız var ki, onlardan ancaq və ancaq parçalar gəlib çatıbdı. Halbuki onlar böyük bir dastanın bir epizodu, kiçik bir hissəsi təsiri bağışlayır. Böyük şairimiz S.Vurğun «Tomris» əfsanəsini məhz bu anlamda çox doğru olaraq böyük bir dastanın kiçik parçası kimi qeyd edirdi. Bundan əlavə türk xalqlarının mükəmməlliklə gəlib çatan dastan nümunələri də vardır. «Kitabi-Dədə Qorqud», «Oğuz Kağan», «Manas», «Alpamış», «Corabatır», «Edige», «Canqar», «Maday Kara», «Koroğlu» və s. kimi dastan nümunələrini göstərə bilərik. Biz burada yalnız qəhrəmanlığa hesablanan dastan nümunələrinin adlarını çəkdik. Bizim bir-birindən maraqlı «Qurbani», «Abbas və Gülgəz», «Tahir və Zöhrə», «Aşıq Qərib» və s. kimi məhəbbət dastanlarımız da var. Həm qəhrəmanlıq, həm də məhəbbət dastanları uzun illər boyu və bu gün də xalqın ruhunun, düşüncəsinin aparıcı hissəsi kimi qorunmaqda, məclislərdə söylənməkdədir. Kitabda özünə yer alan “Mehdi bəy”, “Səlim bəy”, «Cahangir-Mələksima», «Mehralı bəy», «İsmayıl və Qızyetər», «Yetim oğlu Məhəmməd», «Qul Əhməd», «Zərqam şah», «Qaçaq İsaxan», “Qaçaq Mahmud”, «Piri-Hürü», «Sam Şahzadə», «Koroğlu» dastanından “Ağcaquzu qolu» (Aslan Kosalıdan ya-

zıya alınmış üçüncü variant) dastanlarını da buraya əlavə etdikdə bu ənənənin masştabı, mahiyyəti daha da böyüyür. Və bizdə belə qənaət yaranır ki, bu nümunələr sözün həqiqi mənasında türkün həyat kitabıdır.

Elxan Məmmədlinin toplayıb ədəbi ictimaiyyətə təqdim etdiyi dastanlar varislik ənənəsinə hesablanır. Qəhrəmanlıq və məhəbbət anlamında özündə çox məsələləri ehtiva edir. Məlum olduğu kimi, türk xalqlarının dastan yaradıcılığında mühüm bir hissəni qəhrəmanlıq dastanları tutur. Və bu dastanlar sadəcə olaraq hansısa bir təfəkkürün, düşüncənin hadisəsi kimi maraq doğurmur. Orada xalqın bütünlükdə mübarizəsi, düşmənə qarşı apardığı qanlı savaşlar, vətən, yurd sevgisinə hesablanan ideallar dayanır. Xan Qazandan, Manasdan, Canqardan, Çorabatırdan, Edigedən, Koroğludan başlayan bu yol bizə yaxın zamanın hadisələri olan Mehralı bəydə, Səməd bəydə, Qaçaq İsaxanda və bu silsilədən olan qəhrəmanlarda davam etidrilir. Məlum olduğu kimi, qaçaq hərəkatı Qafqazda, onun bir hissəsi olan Azərbaycanda müəyyən bir mərhələdir. Xalqın azadlıq mübarizəsi, zülmə, istibdada qarşı savaşıdır, qəhrəmanlığının davamıdır. El-obanın igid, cəsur oğlanları baş verən haqsızlıqlara dözməyərək silaha sarılıb mübarizə yolunu seçmişlər. Və onların haqqında yaranan dastanlar həmin qəhrəmanların şücaətinin, göstərdikləri igidliklərin bir hissəsi kimi dastanlara yol tapmışıdır. Dastana gəlib çıxma isə nəğmədən, əhvalatdan, hekayətdən, rəvayətdən keçərək baş vermişdir. Aşıqların sazında dastanlaşmışdır. Son dövrün dastan ənənəsi göstərir ki, aşıq repertuarından keçməyən dastan yaşarılıq qazana bilmir. Yarımçıqlıqla, qüsurlarla xarakterizə olunur. Daha dəqiq desək, dastanın həyat vəsiqəsi, yaşarılığı sazdan keçir. Məhz Elxan Məmmədli də kitabda qaçaq hərəkatı ilə bağlı «Mehralı bəy», «Qaçaq İsaxan» dastanlarını verir. Bu qəhrəmanlar Borçalıda yetişmiş igidlərdi. Tarixi mənbələr, xalq arasındakı rəvayətlər onların necə qəhrəmanlıq göstərdiyini, hansı amal uğrunda savaşdığını çox aydınlıqla

ifadə etmədədi. Xalq onların şəninə bir-birindən maraqlı nəğmələr düzmüş, həmin qəhrəmanların sağlığında onların igidliyinə öz sevgilərini ifadə etməyə başlamışlar. Elə dastanın yaranma başlanğıcı da həmin vaxtdan qoyulmuşdur. «Mehralı bəy», «Səməd bəy», «Qaçaq İsaxan», «Qaçaq Kərəm», "Qaçaq Tanrıverdi», «Qandal Nağı», «Qaçaq İsmayıl» və bu silsilədən olan digərləri xalqın qəhrəmanlıq tarixidi, onun yaşarlığına hasablanıbdır. Bu qəhrəmanlar xalqın sevgisindən qoparaq dastanlaşmışdır. Bütünlükdə dastançılıq baxımından qəhrəmanlığa hesablanır və dastan komponentlərini (başlanğıc, son, zaman, məkan təhkiyyə formulları) özündə ehtiva edir. Məsələn, «Mehralı bəy» dastanında Mehralı bəyin qəhrəmanlığının başlanğıc kimi maraqlı təqdimi var. «Bəli, sizə hardan, kimdən xəbər verim, xəbəri sizə göydə qartalı gözündən vuran, yağıların-yadların anasını ağladan, gavurlara qəbir qazan, Alosmanda, Qafqazda ad-san alıb, paşalara-sultanlara Anadolu ağzında süfrə açıb məclis quran Borçalının – qarapapaxların şir-aslan balası Darvazlı Mehralı bəydən deyim». Və yaxud da «Qaçaq İsaxan» dastanında oxuyuruq. «Əzizlərim, sizə xəbər verim Gürcüstandan, Qarayazı mahalının Dəmirçihasanlı kəndindən. Dəmirçihasanlı hal-hazırda Kosalı, Nazarlı kəndləridir. Hər iki kənddə varlı-dövlətli kişilər çox olub. Bu var-dövlət sahibləri çox imanlı, vicdanldı olublar. Hər il tutulan Oruc bayramında, Qurbanlıqda, Novruz bayramında dolanacaqdan çətinlik çəkən kasıblara yardım edib, var əllərini uzadarmışlar. Danəndə kişilər əziz bayramlardan bir-iki gün əvvəl erkəklər kəsdirər, arabalarda qapı-qapı düyü, yağ payladarlarmış. Özləri də deyərlərmiş ki, qoy kasıbların da qazanları qaynasın». Bunlar («Mehralı bəy», «Qaçaq İsaxan» dastanından verilənlər) dastanın başlanğıc epizodudur və qəhrəman və mühit haqqında müfəssəl məlumat verir. Qalanlar demək olar ki, həmin epizodun, qəhrəmanlığın açımına xidmət edir. Elə sonluq da ənəvilikdə həmin başlanğıca bağlanır. Məsələn, «Mehralı bəy» dastanında deyilir: «Sadaxlı Aşıq

Məhəmməd qoşdu bu dastanı deyim». Və yaxud da «Qaçaq İsa-xan» oxuyuruq: «Dünyagörmüş nənə-babalardan çox şey götürən, bu dastanı yaradan Zahid Ələmpaşalı illər uzunu zamanın çirkin əməlləri ilə barışmadı, öz elinin-obasının şənliklərində sevinib, yaslarında qəm çəkdi». Onu da əlavə edək ki, bu dastanlardakı hadisələrin, eləcə də qaçaq hərəkatı ilə bağlı olan digər dastanların hamısı bu və ya digər dərəcədə çarizmə, sovetlər dönəmininin ilkin onilliklərində baş verənlərə bağlanır. Həmin zamanın hadisəsi kimi dastanlaşır. Və dastan ənənəsində daha yaxın zamanın nümunələri kimi maraqlı qənaətlərə gəlməyə imkan yaradır.

Burada digər məsələ bizim dünya şöhrətli «Koroğlu» dastanımızla bağlı olanlardı. Belə ki, kitabda «Koroğlu» dastanının «Ağcaquzu qolu» verilmişdir. Və xüsusi olaraq vurğulanır ki, «Aşıq Aslan Kosalının ifasında üçüncü variant». Son dövrlərdə «Koroğlu» dastanı ilə bağlı müxtəlif səpkili müsbət işlər görülmədədi. Ancaq bu dastanla əlaqədər görülənlərin sırasında bir sıra uğursuzluqlarla səciyyələnən işlər də var. Necə gəldi «Koroğlu» adına yozumlar, təhlillər, şərhlər aparılır. Bir növ bunların mühüm bir hissəsi onun sarsıdılması, xalqın yaddaşında olanların zədələnməsi, sıradan çıxarılması məqsədi daşıyır. Bir qədər dərinə getdikdə mənəvi dəyərlərin sındırılması tendensiyasını da ortaya qoyur. Ancaq unutmaq olmaz ki, «Koroğlu» Azərbaycan xalqının şah əsəridir. Ondakı hər bir epizod, mətn, şeir nümunələri xalqın ürəyinin parçalarıdır. Qiyməti heç nə ilə ödənilməyənlərdi. Folklorşünas E.Məmmədli müxtəlif illərdə Borçalı mahalının ustad sənətkarı Aşıq Aslan Kosalıdan «Koroğlu dastanının Ağcaquzu qolu»nu yazıya alması təqdirəlayiqdir və bu tip işlər foklorşünaslıqda son dövrün ən uğurlu hadisəsidi. Və belə yazıya almalara bir tarix kimi böyük ehtiyacımız var. Bunun dəyəri isə sabahlar üçün daha böyükdü.

Kitabda verilən dastanların mühüm bir hissəsi məhəbbət dastanlarıdı. «Cahangir-Mələksima», «İsmayıl və Qızyetər»,

«Yetim oğlu Məhəmməd», «Qul Əhməd», «Zərqam şah», «Piri-Hürü», "Səlim bəy", "Mehdi bəy", «Sam Şahzadə» dastan ənənəsində bizim zəngin şifahi yaradıcılığımızı bir qədər də zənginləşdirmişdi. Onu da etiraf edək ki, bu dastanlar mükəmməllik baxımından klassik dastan nümunələri ilə birləşir. Buradakı epik təhkiyyə, şeirlərin mükəmməlliyi, yüksək sənət nümunəsi kimi maraq doğurması, dastan formullarına əməl olunması və s. məsələlər aşıq repertuarında hələ diqqət yetirilməli çox məsələlərin olmasını göstərir. Maraqlıdı ki, bu dastanların böyük əksəriyyətində hadisələrin başlanması uzaq şəhərlərlə bağlanır. Qəhrəmanın başına gələnlər, qarşılaşdıqları çətinliklər, baş verənlər axıra qədər təhkiyə hadisəsi olmaqla bitmir. Açılmalı olanlar bir istiqamətdə bunların mahiyyəti ilə bağlananlardı. Rellıqlara nə dərəcədə gedib çıxması hadisəsidi. Çünki bunlar bütünlükdə bədii düşüncənin məhsulu olmadan əlavə, xalqın tarixinə, keçmişinə bağlanmalarla da səciyyələnə bilər. Məsələn, «Cahangir-Mələksima» dastanında «Misir şəhərinin padşahı Ədil şahın övladı olmurdu», «Zərqam şah» dastanında «Sizə kimdən danışım, nədən söyləyim, Səmənğan şəhərindən və onun hökmdarı Xarəzm şahdan», «Sam Şahzadə» dastanında «Keçmiş zamanda Qəndilqala şəhərində ədalətli bir şah varmış. Bu şahın adına Tərkiman deyirlərmiş» başlanğıcları bir formul kimi özündə heç şübhəsiz maraqlı gizlinləri ehtiva edir. Və onu da əlavə edək ki, bütünlükdə təsadüfi fakt kimi dastanlarımıza gəlib düşməmişdi. Çünki bu dastanların mühüm bir hissəsində məhz toplandığı regionla bağlanmalar da var. Məsələn, «İsmayıl və Qızyetər» dastanında «Sizə hardan söhbət eliyək, kimdən söz açax, keçənnərdə Borçalı mahalının Faxralı şenliyində yaşayan İsmayıl Oruc oğlunnan». Və yaxud da «Piri-Hürü» dastanında oxuyuruq: «Ustadlar belə nağıl eliyirlər ki, bir vaxt Gürcüstan diyarının adı «Başaçıx olub». Bütün bunlar və bu kimi faktlar dastan ənənəsini, eləcə də məhəbbət dastanlarımızda yaşanan gizlinləri açmağa, haqqında bizləri düşünməyə səsləyir. Və daha

ciddi araşdırmaları aktuallaşdırır. Folklorşünas E.Məmmədlinin topladığı dastanlar da bütün komponentləri ilə bunu gərəkli edir. Dastanların sonunda verilən informasiyalar göstərir ki, E.Məmmədli uzun illərdi bu toplama işi ilə məşğul olmuşdu. Və onların bir regiondan – Borçalıdan toplanması digər regionlarda da toplama işinin zəruriliyini ortaya qoyur. Folklorşünaslığın bu istiqamətdə düşünməsini aktuallaşdırır. Tiflis məlum olduğu kimi, Qafqazın mədəniyyət mərkəzlərindən olubdu. On doqquzuncu əsrdə demək olar Tiflis ədəbi, mədəni mühiti Qafqazın düşünən beyni idi. Bu məsələnin bir tərəfidir və bu istiqamətdə də kifayət qədər tədqiqatlar aparılıbdı. Ancaq folklor mühitinin öyrənilməsi sahəsində nə qədər işlər görülsə də E.Məmmədlinin bu toplusu hələ görülməli çox işlərin olmasından xəbər verir. Birmənalı olaraq etiraf edək ki, Borçalı türk xalqlarının ruhunun dolaşdığı, mənəvi dəyərlərinin daha çox qorunduğu ocaqlardandı. Bu dəyərlər içərisində sazın yeri əlahiddəlikdi. Xalq min illikləri sazla, nəğməylə, sözlə, qara zurnanın sədaları altında gəlmişdi. Bir növ ilhamını ondan almışdı, sevincini, kədərini onunla ovundurmuşdu. Məclislərinin bəzəyinə çevrilmişdi. Xalq şairimiz O.Sarıvəlli «aşıq eldən alar öz nəfəsini» söyləyirdi. Elə Borçalı mühitinin ustadları da, folklorşünas, aşıq yaradıcılığının bilicisi Elxan Məmmədli də öz nəfəsini eldən almışdı. Keçən əsrin səksəninci illərindən bəri ustadların dilindən yazıya aldıqlarını, eldən topladıqlarını bu gün təzədən kitab kimi bağlayıb elə qaytarır. Fikrimizcə, el sevgisi, elə sevgi budur.

**Mahmud ALLAHMANLI**
*filologiya elmləri doktoru, professor*

## MEHDİ BƏY

*(Aşıq Hüseyn Saraclının dilindən yazılıb)*

Bəli, keçmiş ustaddara rəhmət. Ustaddar söhbətdən qavax bir neçə nəsihətlər deyir, onnan sonra dastanı başlayır. Bizim xeyrimiz-bəhrəmiz də ustaddara rəhmət dedirtməhdi. Bəli, görəh ustad burada nə deyif:

Doğrudan, yalannan dərs verdin bizə,
İşdərin çıxmadı bir yana, dünya.
Nə mənzilin bəlli, nə də məkanın,
Cadalar tüşüfdü hər yana, dünya.

Gələnnər gəlincə bir səni bildi,
Çoxunda ağladı, azında güldü;
Nə gedənnər gəldi, nə gələn qaldı,
Budu etivarın insana, dünya.

Bir gün olar əsər məhşər yelləri,
Göyərdirsən, çürüdürsən gülləri.
Pünhan olur murğuların dilləri,
Sultan Süleymannan bu yana, dünya.

Əzəli görəndə eylədin rəftar,
Binəsif[1] olmadı yapdığın tufar,
De görüm nejoldu verdiyin ilqar,
Onnardan bizə bir nişana, dünya.

Ağır səltənətdi, təxdi-divannar,
Övliya[2], əmbiya[3], dini-imannar,

---

[1] Binəsif – münasib, uyğun
[2] Övliya - müqəddəs pirlər.
[3] Əmbiya - qara camaat, xalq kütləsi.

Turaba[1] qarışdı neçə min cannar,
Xakə bülənd oldu yeksana, dünya.

Rüzquda bəllidi fəsildə yaylar,
Ömrümüzdən keçir günnərnən aylar,
Gəlir xəyalıma əlvan saraylar,
Dönüfsən qızıla, mərcana, dünya.

Murazı mətləbdə tərtibi-atdı,
Axır körpülərin qıldan siratdı.
Qılıncın qınsızdı, qolun qüvvətdi,
Baxmadın qojuya, cavana, dünya.

Şair Nəvi cəhd eylədi cafana,
Ömür keçdi sarınmadı safana,
İnnən belə inanmaram bafana,
Sıdıqınan sığınnam sübhana, dünya.

Bəli, ustaddar bir demir, iki deyir. Biz də dəək[2] iki olsun, namərdin də ömrü gül təki solsun.

İnsan oğlu yetişəndə həddinə,
Cavannıx bir işdi qönçə-gül oldu.
Eləsi var xoş nişanı Xudadan,
Eləsi var başı keçəl-gil olu.

Eləsi var ibadətdi zikiri,
Eləsi var bijdihdədi fikiri.
Eləsi var dildən qoymaz şükürü,
Yavan çörəh dəhanında bal olu.

Eləsi var onnan olur bədnəzər,
Eləsi var oxuyuf dərsin yazar.

---

[1] Turab - torpaq.
[2] dəək – deyək

Eləsi var çəhi-çöürə dözər,
İşi-güjü qazma, külüng, bel olu.

Eləsi var el içində öyünü,
Eləsi var bəd xavara söyünü.
Eləsi var uca görüf boyunu,
Pəhlivantək qol-qolada fil olu.

Eləsi var el içində söyülər[1],
Eləsi var öz-özünə öyülər,
Eləsi var baltasını bülöylər,
Fəryad çəkən ormannarda kol olu.

Eləsi var töylədən çəkər atı,
Eləsi var nura bənzər sufatı.
Eləsi var cəhd edər getməz baxtı,
Vurar baxtı qara dövlət sel olu.

...Eləsi var yer üzünün astanı,
Eləsi var işə getməz, pastanı.
Şair Nəvi tamam etdi dastanı,
Görün adamlıxda necə yol olu.

Bəli, ustaddar üçətən deyif. Birini də deyim olsun üç, namərdin də ömrü qoy olsun puç.

Ağılnan eşq hər adamda var, çünki ağıl insanı düz yola çəkir, eşq həmişə uçuruma aparır.

Bir gün eşq ağıla dedi:

- Ağıl, daha mən sənin sözünə baxmıram, çünki mana zaral elliyir. Ağıl dedi:

- Bə, neyliyəh?

Eşq dedi:

[1] söyülər – sevilər

- Deyişərik, əyər sən bağlasan, mən sana tabe olaram, mən bağlasam, sən mana.

Ağılnan eşq meydana girdilər. Ağıl dedi:

- Bə bizim sözümüzü kim təsdiq edəjək?

Eşq dedi ki, gə bir şair çağırax, o təsdiq elləsin.

Ağıl dedi:

- Yaxşı, Eşq, de görüm fırsant sənindimi, mənimdimi?

Eşq dedi:

- Biz fırsantı tüşmənə verrik.

**Aldı Ağıl:**

Ağıl dedi, doğru sözün kökü var,
Şəcarında[1] necə pudax yaxşıdı?
Sərrafı çağırax, dürdana seçək,
Yamanı içinnən atax, yaxşıdı.

**Aldı Eşq:**

Eşq dedi ki, bəyənmədim sözünü,
Rəyasət elmini tapax, yaxşıdı.
Yanımda gərəkdi neçə növcavan,
Cəhd edif dünyəni çapax, yaxşıdı.

**Aldı Ağıl:**

Ağıl dedi, eşq, gəl həddini tanı,
Məhşər günü yaman üzdər utanı.
Koroğlu, Rüstəm-Zal qəhrəman hanı?
Nə üçün günaha batax yaxşıdı?!

**Aldı Eşq:**

Eşq dedi, nəfsimizdən söylüyək,
Pünhan-pünhan yara qaş-göz eyliyək.
Yol vermiyək, gözəlləri əyliyək,
Üç-doqquz üzünnən öpək yaxşıdı.

---

[1] Səcər – ağac

**Aldı Ağıl:**

Axı, yoxdü, bu işdərin binəsi,
Yaxşı oldu ömürrərin sənəsi.
Həqiqətdən ləli-gövhər dənəsi,
Qədir bilənlərə satax yaxşıdı.

**Aldı Eşq:**

Altımda gərəkdi narınc, bədöy at,
Haramnan qazanam, aləm qala mat;
Yellənə qapımda malınan döylət,
Qoyun, quzu, çənbər köpək yaxşıdı.

**Aldı Ağıl:**

Ağıl dedi, niyə oda düşəlim?
Riya üçün cəbəlləri[1] aşalım.
Yaz olanda əyri kotan qoşalım,
Qış olanda əlvan otax yaxşıdı.

**Aldı Eşq:**

Mən istərəm bu dünyədən bac alam,
Bu doğrudu, qorxum budu qojalam.
Heç kəs də bilmiyə qarnı ac olam,
Əlvan silah, qırım papax yaxşıdı.

**Aldı Ağıl:**

Ağıl dedi, ağlar yazıx canımız,
Azreil gələndə gedər qanımız.
Rəhm elliyər genə ol sübhanımız,
Mövlam karvanına çatax yaxşıdı!

**Şair Nəbi:**

Şair Nəvi, var bu sözün bir əsili;
Tarix yetər, ruh bədənnən kəsili.

---

[1] Cəbəl - dağ

Saxla təharəti[1] unutma qüslü,
Oruc tutax, namaz qılax yaxşıdı!

Xoşbaxt olun, ustaddara da min rəhmət. İndi sizə "Mehdi bəyin dastanı"nı çatdıracam.

Bəli, sizə hardan xavar verim - Qalaça şəhərinnən. Qalaça şəhərində Nejdi Məmməd adlı bir xan varıydı. Həmən xanın baş taciri Söyün adlı bir kişiydi. Söyünün öylad sarıdan varı-yoxu Mehdi bəy addı oğluydu. Tacir ölənə yaxın oğlunu yanına çağırtdırıf dedi:

- Oğul, dünyada nə qədər istəsən döylətim var. Özünə də bəsdi, nəticənə də. Özün də mədrəsəyi qurtarıfsan. Bircə murazım qalır ki, səni öyləndirməmişəm. İndi vəsiyyətim budu ki, sən də xanın yanında mənim kimi etibarrı baş tacir olasan. Oğul, onsuz da öylənəssən, amma siftə yoxluyarsan, əsli-nəcabətdi yerdən qız alarsan ki, adımıza-sanımıza yaraşsın. Bir də cümədən cüməyə qavırımın üstündə quran oxuyarsan. Yadında saxla ki, bir alverə, bir də oyçuluğa qoşulan adam gej qojalar. Oğul, mən dünyadan köçürəm, axırıncı bir vəsiyyətim də budu ki, anayın sözünə qulaq as, çünki sənin əziyyətini mənnən çox o çəkif.

Bəli, tacir ömrünü sizə bağışladı. Onu urvattı götürdülər, dəfn ellədilər. Oğlu da hər cümə axşamı onun qavırı üstündə Quran oxudu. Aradan bir il keçdi. Oğlan iyirmi iki-iyirmi üç yaşa çatdı. Bir gün anasına dedi:

- Ana, atamın vəsiyyətidi, baş tacir ola bilməsəm də, heç olmasa balaca tacir olum. İndi mən səfərə çıxmalıyam. Anası dedi:

- Oğul, o ki, belədi, onda de görüm hası vilayətə getmək istiyirsən?

Mehdi bəy dedi:

- Ana, bu gün karvansarıya getmişdim, drxaxtında[1] Gürcüstan tacirləri varıydı. Oraları elə gözəl söylədilər. Gürcüstana səfər elliyərdim.

---

[1] Təharət - təmizlik

- Ay bala, doğrudu, Gürcüstanı elə tərifliyillər, amma oranın bir ayrı işi də var.

- Nə olajax, ana?

- Oğul, eşitdiyimə görə oralar gözəllər məskənidi. Nə ki, burdan gedən oluf hamı orda əylənif qalıf. Gözümün ağı-qarası bir oğlumsan, səni nejə buraxım orya?!

- Ana, and içirəm Qurana ki, bir ilə gedif qayıdajam.

Oğlu çox dedi, ancaq anası razılıq vermədi. Axırı oğlunun xətrini qırmaq istəmədi. Dedi:

- Oğul, and iç ki, bir ilə gedif gələjəhsən.

Bəli, oğlan bir ilə qayıdajağına and içif, qəflə-qatır hazırratdırdı. Tirməyi şaldan, aldan-yaşıldan, qəvliqortdan[2], Hindistan yaqutundan yeddi dəvə yühlətdi. Anasınnan halal-hümmət elliyif, qəflə-qatırnan yola tüşdü. O zaman aynan, ilnən, indi müxtəsər dilnən tüşərgələr keçdilər, gəlif Gəncə şəhərinə yaxınnaşdılar. Baxdılar ki, bağlı-bağatdı bir gözəl şəhərdi. Bir sərin bulağın üstündə sarvannara əmr ellədi ki, dayanın, qəflə-qatır bir az dincəlsin. Yeməh hazırrıyın, savax burda nahar elliyək. İndi dincəlin, mən atdanıf gedim, görüm, bu nejə şəhərdi. Bəlkə bir az mal-mətah satax. Mehdi bəy atdanıf, gəldi şəərə. Baxdı ki, bir oğlan bağ bejərir. Dönüf salam verdi:

- Qardaş, allah quat versin! Salamını əlyek aldı.

- Bu hası şəhərdi belə, qardaş?

- Qardaş, bura Gəncədi, dəəsən qarıv adamsan, özün də tacirə oxşuyursan?

- Bəli, tacirəm, mal-mətahım var. Burda elə dam-daş olarmı mal-mətahımı yerrəşdirəm. Nejə bilirsən - burda sata bilərəmmi? Bu şəhər yaman xoşuma gəldi.

- Hə, eləmi satarsan, lap yaxşı.

- Bə, dam-daş məsələsi nejə olar?

- Çoxdumu, qardaş, malın-mətahın?

---

[1] drxaxdın – çayxana
[2] qəvliqort – parça növüdür.

- Yeddi dəvə yüküdü.

- Düzü, mənim dam-daşım var, amma bir özgəsinə vermişəm. Elə yüz manat peşman pulu verərsən, sana verrəm.

- Baş üstə, adını bağışda?

- Adım Məhəmmədəlidi. Sizin adınız nədir?

- Mana da tacir Mehdi bəy deyillər.

- Di, buyurun gedəh.

Gedif dama-daşa baxdılar. Şəhərin içi Mehdi bəyin daha çox xoşuna gəldi. Çıxardıf yüz manat peşman pulu verdi. Atını sürüf, qayıtdı geri. Sarvannara əmr edif dedi ki, qəflə-qatırı çəkin gedəh, yer-yurd tapmışam. Gətirif malı-mətahı boşaltdılar satmağa. Parçanın arşını o şəhərdə bir abbasıya satılırdısa, bunnar iki şahıya satırdılar. Mehdi bəy Məhəmmədəli tacirin çox xoşuna gəldi və onnan soruşdu:

- Qardaş, sənin qardaşın-zadın varmı?

- Xeyr, təkəm.

- Elə, mən də təkəm, gəlsən qardaş olax?

- Yaxşı, olax.

- Amma gərəh bir molla çağırasan ki, siğə qardaşı olax.

- Baş üstə, bu saat molla Cabbarı çağırram. Bəli, molla Cabbar gəlif, siğə oxudu. Bunnar da şəhadət barmağını qanadıf, bir-birinin qanını sordular. Beləjə siğə qardaşı oldular. Başdadı tükənnəri çağbacağ işdəməyə. Şəhərdə bütün tükənnər dayanmışdı, bircə bunnarınkı işdiyirdi.

Mehdi bəy burda alverindəydi. Məhəmmədəli bazara çıxmışdı. Baxdı ki, bəylərdən bir neçəsi danışır ki, əyə, İranın bir tatı gəlsin bizim tükənnəri bağlatsın? Ona bir tələ qurmax lazımdı.

Məhəmmədəli bunu eşidən kimi özünü Mehdi bəyin yanına saldı:

- Əyə, qardaş, iş yaman ayrı cürdü.

- Əyə, nə təhər, qardaş, nə oluf?

- Ə, ağaların, bəylərin tükənnəri bağlanıf, xavarın varmı? Sana tələ qurmax isdiyillər.

- Bə, nağayrax, nə təhər eliyəh?

- Qardaş, çörəh kəsmiyəni, qılınc kəsməz. Gəl belə eliyəh. Gündə beş bəy, üç ağa çağırax, qonaxlıyax, bunnarnan dostdux elliyəh, bəlkə işimiz yaxşı ola, yoxsa səni xaraf eliyəllər.

- Baş üstə, qardaş, xarc mənnən, çağırmax sənnən.

Elə də başladılar, gündə bəylərdən, ağalardan beş-bir, üç-bir çağırıf, yedirdif-içirdif dostdux elləməyə başdadılar. Bir gün Məhəmmədəli gəlif dedi ki, savağa on dörd ağa, bəy qonax çağırmışam.

- Çox yaxşı, tezdən əmr ver, xörəh-mörəh hazırransın. Mən də hamama gedif gələjəm. Çünki savax cümə günüdü.

Savax tezdən Mehdi bəy hamama getdi. Gedəndə nə görsə yaxşıdı - hamamnan bir dünya gözəli çıxıf, faytona doğru gəlirdi, yanında da kənizi. Amma qız deyirəm, qızdırma demirəm, ağız püstə, burun fındıx, göz piyalə kimi yanır. Qədəminnən yer xof çəkir. Elə bil ki, qəfil qızın iki qaşının arasınnan bir ox çatıldı, Mehdi bəyin sinəsindən dəydi, ürəyinin başında düyün bağladı. Yeri də başladı dolama kimi zoqquldamağa. Elə bu vaxt oğlanın da qaşınnan bir ox çıxdı düz qızın iki məməsinin arasına dəydi. Sizə məmə deyirəm - Gəncənin narı, baxçanın barı, cavannarın ilqarı. Yalan deyənin də öyü yıxılsın, inanmayanın da. Baharın çiçək-çəmən bir-birini çağıran vaxtıydı, bülbül öz gülünü tərif edən vaxtıydı. Qız da Mehdi bəyə bir könüldən min konula aşiq olmuşdu. Əlində bir dəstə gül varıydı. Barmağından üzüyünü çıxarıdıf həmən gülün birinə sancdı, faytona minəndə oğlana tulladı. Fayton getdi. Elə bil ki, oğlanın ürəyi də onnan baravar getdi. Ağıl başdan çıxdı. Xeyli donuf qaldı. Birdən əlindəki gülə baxdı, üzüyün qaşını oxudu ki, "Nazdı xanım" yazılıf. Daa hamama da getməyif, qayıtdı geri.

Hər şey hazırıydı, bəylər də gəlmişdi. Amma Məhəmmədəli baxdı ki, Mehdinin rəngi dəyişif.

- Ə, qardaş, rəngin niyə belə oluf, özün də tez gəldin hamamnan, bu nətəər işdi, xeyir ola?

- Qardaş, dəəjəm, amma hələ falımı açma. Qoy bəylərnən görüşüm, gəlirəm. İçəri girif bəylərnən təmannaşıf çıxdı.

- Aya, bir de görüm nə oluf, qardaş, ürəyim yerinə gəlsin.

- Qardaş, məni yaman vurdular.

- Əyə, nejə?

Çıxartdı üzüyü göstərdi. Deməzsənmi bir qız faytona mindi, bu gülü də mana atdı, üstündə də üzüh, adı da yazılıf, amma bilmirəm kimin qızıdı.

- Qardaş, qorxma, qardaşın ölmüyüf. İçəri girəjəm, bəylərin içində dəəjəm. Əyər qızın atası bunnarın içindədisə, elə burda elçiliyəh. Yoxdusa, bu on dörd ağadan, bəydən xaiş elliyəjəm, özüm də başda, kimin qızı olduğun biləh, elçi düşəh.

Məhəmmədəli içəri girif başdadı söyləməyə.

- Əziz bəylər, Mehdi bəyin başına bir iş gəlif. Bu qız kimin qızı olar, adı da "Nazlı xanım".

Biri dedi Alının qızıdı, biri dedi Vəlinin qızıdı, biri dedi Pirqulunun qızıdı, tapa bilmədilər. Amma əyaxlıxda bir qoja pirani oturmuşdu, ağa-zad da döyüldü, qonşudan gəlmişdi. Dedi: - Tapa bilmədiniz, o, Qara xanın qızıdı, Gəncə xanının.

- Əyə, doğrumu deyirsən? Dedi:

- Bəli.

Ağalardan, bəylərdən xaiş elədi ki, durun elçi gedəh. Hamısı bir yerdə elçi getdilər.

Qara xan qonaxları xoş-beşnən qavıl ellədi. Nə yaxşı bəylər gəlif, buyurun deyif xoş üz görkəzdi. Oturdular, çay-çörəh tökdülər.

Qara xan dedi:

- Di buyurun.

- Xeyir, yemiyəjiyih.

- Niyə?

- Biz mətləvə gəlmişik, düzəldərsən, çörəyini kəsərih.

- Xoş gəlifsiniz, məndə tapılan şeydimi?

- Bəli, sizdə tapılan şeydi.

- Onda elə bilin ki, civinizdədi.

O saat bəylər dedi: - Əyə, aldıx, buyurun. Başdadılar yeməyə. Amma bu söz Qara xanın ürəyini dəlirdi. Öz-özünə dedi:

- Bunlar nəyə gəlmiş olar. Hamısı varlı adamlardı. Vara gəlməz, pula gəlməz, nəyə gəlmiş olallar? Qızıma gəliflərsə, bunnarın yeddisinin də öylənəsi oğlu yoxdu, qalan yeddisininki də öylənif. Qara xan üzünü onnara tutuf dedi:

- Əyə, bəyax söz sizin qarnınızı dəlirdi, indi də mənim qarınımı dəlir, deyin görüm nə işə gəlifsiniz, təmənnanız nədi?

- Allahın əmrinnən, peyğəmbərin şəriətinnən qızın Nazdı xanımı, tacir Mehdi bəyə diləyirih.

- Əyə, o İrannı Mehdi bəyəmi?

- Bəli, bəli o Mehdi bəyə.

Fikirrəşdi ki, indi qızımı buradan İrannı tacirəmi verim. Gəl elə bir şey istə ki, onu başarmasın.

- Noolar - dedi: - Çox gözəl, mənim qızımın bir kəlmə sözü yüz tümən qızıl puldu. Əyər cürdəyi çıxardırsa, yaxın gəlsin.

Deyəndə, bəylər başını aşağı saldı ki, bu qədər haqq-hesavın qavağında durmax olmaz. Amma Məhəmmədəli işin içindən halıyıdı, bilirdi ki, bunu Mehdi bəy başarar. Oydu ki, dedi:

- Xan sağ olsun, mana yarım saat möhlət verərsənmi, cavaf gətirim?

Dedi:

- İki saat möhlət verrəm.

Məhəmmədəli özünü yetirdi Mehdi bəyə ki, əyə, qardaş, əhvalat belədi. Amma Mehdi bəyin bir kalça dərisi ləli-cavahiratı varıydı. Bir hambal çağırıf belinə yıxdı, dedi, apar. Yox olsun yoxsulluğu - var olsun kərəm əli, yox olsun vərəm əli. Məhəmmədəli hambalı qavaxlıyıf gətirdi kalça dərisi dolu cavahiratı Qara xanın öyünə. Saya bilərsən, - dedi. Xan görən kimi gözü təpəsinə çıxdı. Götürdü ayrı otağa apartdırdı. Açdırdı, baxdı ki, hamısı ləli-cavahiratdı. Tez ağzını bağlıyıf, bəylərin yanına gəldi. Amma Məhəmmədəli bəylərə göz ellədi ki, gətirmişəm. Bəylərin irəngi açıldı. Qara xan içəri girdi, dedi:

- Əyə, mən zarafatnan bir söz dedim, siz də inanıf o qədər haqq-hesaf gətirifsiniz.

- Xan sağ olsun, sənin bir sözün iki olmaz ki, gətirməliydih.

- Onda, nişanı da onun içindədi, toyu da. Bunnan qurtardıx.

Nişan ellədilər, toya da vaxt qoydular. Amma gəl gör ki, Mehdi bəy fikrə düşüf nagüman olmuşdu: “Ayə, olmuya bu işi pozalar, xəzinə də gedə, qız da. Burda da elə bir arxam yoxdu”. Hər savax qalxanda Qara xanın bağına tərəf baxır. Hərdən qızı orada görürdü. Bir savax Mehdi bəy gördü ki, Nazdı xanım yeddi qələmnən özünə sığal verif saçını darıyır. Savax yeli də yavaş-yavaş qoğalıyır. Məhəmmədəliyi çağırdı:

- Əyə, Məhəmmədəli, burya gəl. Amma yeddi telli bir tavar sazı da varıydı. Hərdən otağında çalırdı.

- Əyə, qardaş, bir qələm, kağız götür. Mən dəəjəm, sən yaz.

- Əyə, de görüm nə görüfsən?

- Qulaq as deyim. Aldı Mehdi görəh nə dedi:

Bağ tərəfdən qəfləm istər nigarın,
Gözdərəm yolların amandı, aman.
Badi-səba mənim üçün yağıdı,
Dağıdar tellərin, amandı, aman.

O boy ki, səndədi, səlmim[1], amandı,
Tərk eylə yerişi, öldüm, amandı;
Zülfünü tez dara, başa dolandır,
İncidər bellərin amandı, aman.

Söyda Mehdi sənnən qaldı begüman,
Kətan köynək belin qucar hər zaman.
İnnabı yanağın, mirvari məmən,
Əməllər ləblərin, amandı, aman.

Kağızı yazıf, Nazdı xanıma göndərdi. Nazdı xanım oxuyuf çox qəmgin oldu. Dedi ki, dəəsən bu işin pozulmasınnan qorxur. Götürüf on dörd siyah teldən birini çəkdi, nar məmənin üstünə. Sonra kənizinə dedi:

- Ağız, qələm hazırla, mən dəəjəm, sən yaz.

---

[1] sərvim – sərv boylu mənasındadır.

- Götürüf nə dedi:

Başına döndüyüm, vəfalı yarım,
Ah çəkmə, ay oğlan, səninəm, sənin.
Seyrəqiflər pozmaz, vardı ilqarım,
Ah çəkmə, ay oğlan, səninəm, sənin!

İnanma ki, namusumu ataram,
Beilqar tək özgəsini tutaram;
İnşallah ki, mətləbimə çataram,
Ah çəkmə, ay oğlan, səninəm sənin!

Nazdı xanım deyər, ilahi haqdı,
Atam hökmdardı, varı da çoxdu.
Demə mühacirəm, kimsəm yoxdu,
Ah çəkmə, ay oğlan səninəm, sənin.

Bəli, bu namiyi alannan sonra Mehdi bəyin ürəyi dincəldi. Toy hazırrığı görüldü. Təmtəraxnan toy eliyif gəlini gətirdilər. Nolajax, oğlan cavan, qız cavan, var-hal da ki, çox; beləjə anası yaddan çıxdı.

Deyillər üç il tamam olmağa bir on-on bir gün qalmışdı. Bir gejə yuxusunda anasını gördü. Baxdı ki, anası deyir: “Oğul, Qurana and içdin, andı pozdun, Quranı əyəxlədın, adam ilqara xilaf çıxarmı? Bə o dunyədə mana nə cavaf verəssən?”

- Ana, ağlama, ana, ağlama, - dəə-dəə Mehdi bəy höyləki yuxudan oyandı. Nazdı xanım özünü yetirif soruşdu:

- Mehdi bəy, Mehdi bəy, sana nə oldu?

- Nazdı xanım, mən buraya gələli neçə vaxtdı?

- Nə bilim, toyumuzu eliyəndə dedin yeddi aydı İrannan gəlmişəm. Toydan bəriyi də hesafladılar. Baxdılar ki, üç il tamam olmağa on bir gün var. Dedi:

- Xanım, öyümü yıxmışam.

- Nə təər?

- Qulaq as deyim. Mehdi bəy höykürüf ağladı, dedi:

Nə müddətdi bu qürbətə düşmüşəm,
Əziz anam yada düşüf, ağlaram.
Bir ilə and içif yola düşmüşəm,
Əziz anam yada düşüf, ağlaram.

Varıydı atamın cahı-calalı,
Dağılmaz qalası, döyləti, malı.
Neçə ildi bu diyarda qalalı,
Əziz anam yada düşüf, ağlaram.

Mehdi bəyəm, bu qürbətdə qalmışam,
Qohumnan, qardaşdan, eldən olmuşam.
Saralıbam, yarpaq kimi solmuşam,
Əziz anam yada düşüf ağlaram.

Nazdı xanım dedi:

- Mehdi bəy, olmuya elə fikirləşirsən ki, xan qızıdı, mənnən getməz. Arvad dediyin kişinin dəvəsidi, oysarınnan tutuf harya desən, aparar.

- Nazdı xanım, bə indi neyniyək?

- Gedəh, atamnan icazə alax. İcazə versə də gedəjəm, verməsə də. Amma deməh yaxşıdı.

Oydu ki, Mehdi bəy fayton çağırdı. Layıxlı töhfəynən Qara xana qonax getdilər. Qız əhvalatı belə danışdı:

- Ateyi-mehriban, Mehdi bəyin bircə anası var, icazə ver gedəh onu yoxluyax.

Qara xan gördü ki, daha Mehdi bəy qalası döy. Onnarı layıxlı yola saldı, xeyir-dua dilədi.

Nazdı xanımnan Mehdi bəy İrana yola düşdülər. Gəlif Qalaça şəhərinə yaxınnaşdılar. Qəflə-qatır gəlməhdə olsun, Mehdi bəy atdanıf Nazdı xanımnan irəlilədi. Anasına müjdə getdi ki, oğlun gəlir. Anası yeddi cöngə kəsdirif, oğluynan gəlinini onların arasından keçirdi. Cəmi - həsrətdər bir-birinə yetişsin. Oğul-ana bir-birinə qoyuşdu və yeddi gün, yeddi gejə toy vuruldu. Mehdi bəy anasına üzürxahlıx ellədi, anası da günahınnan

keçdi. Ancaq daa Mehdi bəyi qırax eldə tacirlik eləməyə buraxmadı... O da çox gəzmiş, görmüş adam olduğundan öydə darıxırdı. Axırı anasına dedi:

- Ana, məni qırağa, tacirriyə getməyə qoymursan, bə mən neyniyim ki, darıxmıyım.

- Oğul, atayın məsləhəti yadındadımı?

- Ana, vallah, dəəsən yadımdan çıxıf.

- Atan deyərdi ki, oyçulux adamı qojaltmaz.

- Doğru deyirsən, ana, rəhmətdik atam onu mana demişdi. Oydu ki, Mehdi bəy bir tarlan quş, bir yay-oxu, iki dənə də tazı aldı, yaraxlanıf-yasaxlanıf oya çıxdı. Gündüzlər gedif oyluyıf, quşduyur, axşamlar öyə qayıdırdı. Həmişə də Nazdı xanım külənfirəkdə duruf onun yolunu gözdüyürdü. Mehdi bəy darvazaya yaxınlaşanda, nökər-naifdən qavax özü düşüf onu qarşılıyır, qolboyun imarətə girirdilər. Bir neçə vaxt bu ədəbnən, bu şirinnihnən dolanmaxda olsunlar, sizə kimdən xavar verim, şəhərin xanı - Nejdi Məmməddən. O da öz vəzirinnən səyahətdən gəlirdi. Belə baxanda Mehdi bəyin imarətində bir dünya gözəli gördü, elə bil ki, on dörd gejəlih aydı, buluddan çıxmışdı. Xudavəndi-aləmin boş vaxtına düşüf, bircə bunun qəddi-qamətinə qələm çəkif.

- Vəzir, öyün yıxılsın, bu kimdi belə, məni yay-oxuynan vurdu?

- Xan sağ olsun, tacir Söyün bəyin oğlu Mehdi bəyin Gəncədən gətirdiyi dünya gözəlidi.

Kirimiş gəldidər divanxanıya. Xan dedi:

- Vəzir!

- Bəli.

- Anasını satdığım, bu işə bir dava elədin - elədin, eləmədin - dərini davanından çıxardajam.

Vəzir düşdü azara. Fikirrəşdi: - Nağayrım? Özünü qazının yanına yetirdi.

- Qazı, aman günüdü, başım cəlladdadı, bu işə bir çara qıl, xannan da böyük ənamın var.

- Qazı çox yaşamış, dünya görmüş bir qarı tafdı, dedi:

- Nənə, bir belə əhvalat var, əlinnən nə gəlir?

- Ziyankarlıxdan savayı əlimnən heç nə gəlməz. Gündə yeddi öy yıxıram, heç birini də tikəmmərəm. Amma sənin baxtınnan üç gündü tova demişəm. Vəzir qazıya lazımi qədər qızıl vermişdi. Oydu ki, genə bir ovuc qızılı qarının oycuna basdı. Qarının gözü qırxillik qəssaf pişiyinin gözünə döndü. Dedi:

- Üç gündü tova demişdim, onnan keçməy olar, amma haja gedəjəm, bə onu neyliyəh?

Qazı bir oyuc da qızıl verdi.

- Bu da haj pulun. Qarı dedi:

- Əşşi, mən ölmürəm, haj köçmür; bu il olmaz, yenidə gedərəm. İndi de görüm - o kimdi?

- Gərəh tacir Söyün bəyin oğlu Mehdi bəyin arvadı Nazdı xanımı Nejdi Məmməd xana düzəldəsən.

- Hə, elə işdər, - dedi, - mənim oycumun içində. Mana Tülfənsə qarı dəəllər, bir qazana çalası töksəm, qırxı uyuşar, oyusnnanıf bir küpüyə girsəm, qırxı onun dalınnan göyə çıxar. Arxeyin ol - deyif işə başdadı. Qarı qulançar qoması kimi - yüz dənə çuvux kəsdi. Bir sini gətirif, səbzəvad doldurdu. Bir qoma çuvuğu da onun içinə qoydu. Bir küpə oysunnadı, özü də sininin içinə mindi, Mehdi bəyin qapısına girdi. Orda düşüf, sinini aldı başına. Nazdı xanım eyvandaydı, Mehdi bəyi yenijə yola salmışdı. Baxdı bir qarı "Nazdı xanım" - deyə başında da bir sini töhfə qışqırır. Kənizlərdən soruşdu:

- O kimdi məni çağıran?

Kənizlər baxdı ki, bir qarıdı.

- Nə buyurursan, ay nənə?

- Kor olsun nənəyin gözü, Nazdı xanım hardadı, a bala, onu istiyirəm.

Kəniz qayıtdı ki, Nazdı xanım, bir qarıdı, səni soruşur. Dedi:

- Buraxın, gəlsin. Qarı özünü yetirdi. Nazdı xanımın yanına, töhvüyü verdi kənizdərə ki, yuxarı çıxartsınnar. Qarı Nazdı xanımı qucaxladı:

- Nənən ölsün, ay bala, gəldiyini yenijə eşitmişəm.

Nazdı xanım qarıyı öz otağına çıxartdı. Qarı nənə başdadı ağlamağa ki, ay bala, bilirsənmi mən kiməm? Qara xanın mamasıyam[1]. O vaxtdan burya düşmüşəm. Mana dedilər ki, gələn Qara xanın qızıdı. Qara xan da ölmüş qardaşımın oğludu. O, etivarsız heç gəlib məni yoxlamır. Xannıx da belədi dana, ay bala, baş qarışır, yaddan çıxırıx.

Kənizdər nahar gətirdi. Qarı dilinin altında bir surə oxudu. Fırsat tapıf Nazdı xanımın çaynıa üfürdü. Qarı çayı içən kimi başdadı ağlamağa.

- Nənə, niyə ağlıyırsan?

- Səni ağlıyıram.

- Məni niyə ağlıyırsan, ay nənə?

- Kor olaydı gözlərim, səni görmüyəydim.

- Niyə?

- Nejə ağlamıyım, Qara xan kimi bir xanın qızı bir quş qoyluyana ərə gəlif. Sən padşaha, xana layıxsan, gözəlsən. Deyəsən, oysunnu su öz işini görmüşdü. Qız dedi:

- Nağayrım, ay nənə, məni ona yazanın qələmi qırılaydı. Qız da başdadı ağlamağa.

- Ağlama, qızım, ağlama. Nənən ölmüyüf.

- Nənə, bə mən neyniyim, bu işə nə çara qılırsan?

- Nə çara olajax, gənə deyirəm, nənən ölmüyüf, səni şəhərin xanına verəjəm.

- Bə nağayrım, burdan nejə çıxım?

- Yolunu öyrədəjəm, burda yüz çuvux var. Bunun birini çıxardıf qoyajam bu sininin üstünə. Mehdi bəy gələndə qarşısına çıxmazsan, qara bulud kimi oturarsan. Çuvuğu alıf səni qurdalıyajax ki, dur, o saat dinməz-söyləməz düz məscidin qavağına gəl, səni orda gözdüyəjəm. Mehdi bəy o günü nəysə axşamüstü gəlif çıxdı. Eyvana baxdı ki, Nazdı xanım görünmür. Öz-özünə dedi: Görəsən nə işdi, büyün eyvana çıxmıyıf. Tez atdan tüşüf yuxarı çıxdı. Nazdı xanım fikirrəşdi ki, ay allah, kor

[1] mama – bibi

oluydu gözlərim, Mehdi bəyi görmüyüydü. Mehdi bəy içəri girdi, baxdı ki, Nazdı xanım bahar buludu kimi elə doluf ki, deyirsən bu saat yağajax.

- Qadan alım, Nazdı xanım, sana nooluf, olmuya naxoşduyufsan. İstədi üzünnən bir busə alsın, Nazdı xanım onu itələyif, üzünü o tərəfə çöördü. Mehdi bəy belə baxdı ki, bir sini, içində bir bağlama çuvux var; Çuvuxnan Nazdı xanımı qurdaladı ki. – "Əşi, sana nooluf, niyə dərdini mana demirsən?" Nazdı xanım fıral qalxıf qapıdan çıxdı. Düz gəldi qarı dediyi yerə. Mehdi bəy fikirrəşdi ki, yağın mənnən küsüf. Elə bildi o biri otağa keçdi. Qarı da qızı götürüf qazının yanna apardı.

- Qazı əfəndi, - dedi, - bu mənim qohumumun qızıdı. Əri ağzına söyüf, yüz dənə də çuvux vuruf. Bu şərəitdə varmı?

Dedi:

- Yox, kim ellif onu?

- Tacir Söyün bəyin oğlu Mehdi bəy.

Qazı o saat işi başa tüşdü, iki fərraş çağırıf göndərdi ki, gedin Mehdi bəyi gətirin. Mehdi bəyi gətirdilər qazının yanna. Qıznan qarı da pərdənin dalına girdi. Mehdi bəy gəlif salam verdi: Qazı əfəndi, - dedi, - buyurun, məni qulluğunuza niyə çağırıfsınız?

- Oğul, eşitdiyimə görə quranı oxumuş oğlansan.

- Bəli, oxumuşam.

- Şəriətdən halısanmı?

- Bəli, qazı əfəndi, halıyam.

- Çox gözəl, oğlum, arvadı bir dönüşə yüz çuvuxnan döyüf, ağzına söysən, onun kəbini boşdu, ya dolu?

- Əlbəttə, qazı əfəndi, boşdu.

- Onda, oğul, öz əlinnən burya yaz ki, arvadı yüz çuvuxnan döyüf, ağzına söysən, onun kəbini boşdu.

Mehdi bəy bunnarı yazıf, qol çəkdi.

- Qazı əfəndi, kim olar o adam?

- Mən?

- Bəli, sən.

- Mən elə iş eləməmişəm, bu nə sözdü?
- Az, a bala, burya gəl.

Nazdı xanım pərdənin dalınnan çıxdı.

- Bala, əhvalat nejə oluf?

Qız başladı söyləməyə.

- Qazı əfəndi, bu məni yüz çuvuxnan döydü, ağzıma da söydü. İnanmırsansa, çuvuxlar öydədi, fərraşı göndər, gətirsin.

Qazı fərraşı göndərif çuvuxları gətirtdirdi. Mehdi bəy qaldı mat-mətəl. Qazı onun kəbinini geri oxuyuf dedi:

- Gedə bilərsən.

Mehdi bəy kor-peşman düz anasının yanına qayıtdı. Anası gördü ki, heç özündə döylü. Soruşdu:

- Oğul, nooluf?
- Ana, öyün yıxılsın, hanı gəlinin?
- Oğul, otağında, nədi ki?
- Gəlinin, odu, qazının yanında. Buralara gələn-gedən olufmu?
- Mənim xavarım yoxdu. Kənizdərdən soruşdular. Kənizdər dedi ki, bir qarı gəlmişdi. Mehdi bəy bildi ki, elə o qarı yıxıf bunnarın öyünü. Dərinnən bir ah çəkif, aldı görəh nə dedi:

Ah çəkmədən ahım dala yetişdi,
Nejə tav gətirim bu ah-vaya mən?
Hövsəliynən hərcayinin yolunda,
Ömrümü vermişəm xub fənaya mən.

Bu gün oldu halım yaman pərişan,
Yarəbb, özün eylə, dərdimə dərman.
Mən dönərəm, könül dönməz canannan,
Mat qalmışam indi bu söydaya mən.

Bəd gəldi bu günüm, çəkirəm fəriyad,
Qəmli konlum olmaz hicrannan azad.
Mən Mehdiyəm, kimsədən yoxdu imdad,
Üz tutub yalvardım ol Xudaya mən.

Savax açıldı, vəzir gəlif, qızı apardı Nejdi Məmmədxanın hüzuruna. Qazı da, qarı da öz ənamını almışdı. Xan başdadı cah-cəlalnan toy elləməyə. Hər yerə səs yayıldı ki, xan təzə arvadnan toy elliyir. Bu xavarı Mehdi bəy də eşitdi. Dedi:

- Ana, bu işə bir çara? Divanxanalarda heç qohum-əqrəbam varmı? Bə burda qohumlarım kimdi?

- Oğul, burda bir əmin varıydı, o da öldü. Üç nəfər yetim əmin oğlannarı var. Onnar da hələ uşaxdılar. Onnardan sana nə köməh?

- Bə hası divanxanıya gedim, kimnən imdad istiyim?

- Oğul, bir qohumun da var, amma uzaxdadı. Əşi, neynirsən bu işin dalına tüşüf, sana onnan da yaxşı qız alajam.

- Yox, ana. Hası divanxanada qohumum varsa de.

- Oğul, Tehranda Mustafa vəzir mənim ana qardaşımdı. Nə bilim o köməy elliyə-elləmiyə.

- Ana, nə qədər yol olar burdan Tehrana?

- Oğul, yəəx[1] bir aylıx yoldu, atnan on-on beş günnüh.

- Ana, mən getməliyəm Tehrana.

Mehdi bəyin Tehrana getmək xavarı əmiuşaxlarına da çatdı. Onnar da ağlaşıf yalvardılar ki, getmə uzax yoldu, - noolar, noolmaz. Mehdi bəy dedi:

- Əmiuşaxları, getməliyəm, amma Nazdı xanıma bir qarğış verəjəm. Siz "amin" deyin, salavat çöörün. Çünki siz yetimsiniz, yetimin duası tez qavıl olur. Götürüf Mehdi bəy burda nə dedi:

Bihəya arvadı bu günnən belə,
Konlumdakı qəməfxara tafşırdım.
Şədidi-cədidə qıldım halımı,
Şahlar şahı hökmdara tafşırdım.

Tavalı bəladan həsrət gətirən,
Həcəri vəsfinə namə yetirən,

---

[1] Yəəx – piyadə

Cəbrayıl şanına vəhy gətirən,
Üç yüz on dörd peyğəmbərə tafşırdım.

Qərq oldum dəryaya, qərq oldum selə,
Bülbülüydüm, həsrət qaldım mən gülə.
Həzrəti Eyyuba yetirən bala,
Mənsuru zar edən dara tafşırdım.

Mehdi bəy, şanına düşərmi zulüm,
Xudam versin ona sərvəsər ölüm.
Yarəbbi, yanında günahkar qulam,
Aşiqlərə yetən pirə tafşırdım.

Yetimlər "amin" deyif, salavat çöördülər. Mehdi bəy bunnarnan halal-hümbət elliyif, yola tüşdü. O zaman aynan, ilnən indi aşıxların müxtəsəri dilnən gedif çatdı Tehrana, dayısının hüzuruna. Amma dayısı onu tanımadı. Çünki dayısı onu iki yaşında qoyuf getmişdi. Həm də gedənə kimi dərddən Mehdi bəyin irəngi saralmışdı, başının tükü ağarmışdı. Dayısı soruşdu:

- Oğul, sən kimsən?

- Dayı mehriban, bə məni tanımırsanmı? Tacir Söyün bəyin oğlu döyləmmi?

- Əyə, olmaya Pürzə xanımın oğlusan?

- Bəli, dayı.

- Əyə, bə niyə belə olufsan, a bala, özün cavan oğlansan, amma irəngin solğun, başıyın tükü də dümağ?

- Dayı mehriban, qulaq as deyim:

Üzü qara, iki dilli hərcayı,
Keçən günü heç yadına salmazmı?
Fərzəndə ayrılıx olsa da müqər,
Adam öz yarını xavar almazmı?

- Ayə, nooluf, bir açıx de görüm?

Dedi, qulaq as deyim:

Günü-gündən məni dərdə salarsan,
Gündə bir dərdimi artıx qılarsan.

Əbəs əhvalımı xavar alarsan,
Hicran çəkən saralıban-solmazmı?

Mehdi bəyəm, ulusumnan avara,
Baş götürüb gəldim qürvət diyara.
Öz əlimnən yarı verdim əğyara,
Bə qocalıf başa küllər olmazmı?

Mehdi bəy əhvalatı danışdı. Dayısı bütün söhbəti dinləyənnən sonra dedi:

- Oğul, daa burdan bir yana tərpənmə. Mən şahın yanına gedif, əmr götürüf qayıdajam. Gərəh onun başına bir od əliyəm ki, qıyamata qədər yadınnan çıxmıya.

Dayısı birbaşa getdi şahın yanna. Amma Mehdi bəy dözə bilmədi. Baş götürüf geri, Qalaçıya qayıtdı. Gənə də Nazdı xanımnan ürəyi dönmürdü. O, gəlməhdə olsun, sizə xavar verim Nazdı xanımnan. Nejdi Məmmədxan tələsik toy ellədi. Gəlini gərdəy otağına apardılar. Elə bu vaxt gəlinin göydəsində yara əmələ gəldi, qurt tüşdü. Gejə oldu, Nejdi Məmməd gərdəy otağına qədəm basdı. İçəri girəndə nə görsə yaxşıdı. Baxdı ki, qızın halı hal döylü. Göydəsini yara bürüyüf, iy verir. Əmr elədi ki, həkim, loğman, cərrah gəlsin. Amma bunnarın xeyri olmadı, günü-günnən yara çoxaldı. Gəlinin yeddi qədəm həndəvərinə hərrənməh olmurdu. Axırı əmr verdi ki, götürün atın küçüyə. Mehdi bəyin əmisi uşaxları, əhvalatı onun anasına xavar verdilər. Mehdi bəyin anası Pürzə xanım namısına sığışdırmayıf, qul-qaravaşa tafşırdı ki, Nazdı xanımı öyə gətirin, Nazdı xanımı gətirif bir bağçıya qoydurdu. İki kənizə əmr verdi ki, ona yaxşı baxsın. Amma Nazdı xanım gejə-gündüz ağlıya-ağıya Mehdi bəyi diliyirdi. Nazdı xanım beləjə burda qalmaxda olsun, sizə xavar verim Mehdi bəydən. Mehdi bəy Qalaça bağlarının arasınnan gələndə Nazdı xanım yadına düşdü: Ah çəkdi, götürüf dərdli-dərdli nə dedi:

Bir qasid yox, yar yanına göndərəm,
Əlim yar əlinnən üzüldü, haray.

Nə əl çəkə billəm, nə üz döndərə,
Bağrım qəm əlinnən əzildi, haray.

Dan yelləri sinəm üstə əsəndə,
Dal qılınclar başım üstün kəsəndə,
Nazdı dilbər bizə qədəm basanda,
Çuğullar arıya düzüldü, haray.

Mehdi bəyəm, bezar oldum canımnan,
Cəsədim boyanıf əlvan qanımnan.
O zaman ki, Nazdı getdi yanımnan,
Gör nejə növrağım pozuldu, haray.

Mehdi bəyin bu nalası Nazdı xanıma ayan oldu. Kənizdəri çağırdı ki, Mehdi bəyin səsini eşitdim. Onnar inanmadı ki, belə şey olmaz. Nazdı xanım birtəhər dirsəhlənif aldı görəh nə dedi:

Bir səda yetişdi mənim guşuma,
Gedin, baxın, Mehdidimi bu gələn?!
Öz əlimnən zəhər qatdım aşıma,
Gedin, baxın, Mehdidimi bu gələn?!

Əzəlinnən qarı gəldi yanıma,
Bir söz dedi, tufan düşdü canıma,
Nejə çıxım mən yarımın önünə,
Gedin, baxın, Mehdidimi bu gələn?!

Mən Nazdıyam azdırmışam yolumu,
Fələk qırdı qanadımı, qolumu.
Yar yanında gödək etdi dilimi,
Gedin, baxın, Mehdidimi bu gələn?!

Uşaxlar, yanı, həmən yetimlər yüyürüf, Tehran yoluna çıxdılar. Baxdılar ki, doğurdan da Mehdi bəy atnan gəlir. Mehdiynən qucaqlaşıf öpüşdülər və dedilər: gözün aydın olsun, duamız qavıl oluf. Nazdı xanım bir haldadı ki, yeddi qədəm hən-

dəvərinə hərrənmək olmur. Əhvalatı olduğu kimi Mehdi bəyə danışdılar. Mehdi bəy söyünüf dedi:

- Uşaxlar, Allaha şükür olsun, heç olmasa, nəfəsi varmı?

- Nəfəsi olmaxnan heç yanna yaxın getməy olmur. Öyə çatmamış əvvəl draxdına getdilər. Camaat tökülüf, gəldi. Baxdılar ki, Mehdi bəyin irəngi saralıf, saçdarı da dümağ. Mehdi bəy ah çəkif dilləndi:

- Niyə məni qınıyırsınız, qulaq asın, deyim:

Ey ariflər, niyə məni qınarsız,
Nə zamandı mən o yarı görmərəm.
Eşqə düşənnəri mən də qınardım,
Eşq əhlində indi karı görmərəm.

Al-yaşıl geyinif seyrə çıxasan,
Baxannarı yandırıban yaxasan.
Kor ol gözüm, özgəsinə baxasan,
Tarlan duran yerdə sarı görmərəm.

Mehdiyəm, ürəkdə qaldı bu zədə,
Haq bilir ki, gözüm yoxdu kimsədə.
Dili məndə oldu, qəlbi özgədə,
O səbəbdən biilqarı görmərəm.

Çünki ona da ayan olmuşdu ki, Nazdı xanım gejə-gündüz Mehdi deyif, Mehdi eşidir.

Bəli, oydu ki, yetimlərin biri öyə muştulux apardı ki, Mehdi bəy gəldi. Nazdı xanım adam göndərif dedi ki, Allahı istiyirsə yanıma gəlsin, bircə yanıma gəlsin, bircə dəfə üzünü görüm, daa heç nə istəmirəm.

Mehdi bəyi gətirdilər Nazdı xanımın qarşısına. Nazdı xanım kənizdərə dedi ki, sizi and verrəm allaha, məni bir az qaldırın. Ağlaya-ağlaya götürüf Mehdi bəyə nə dedi, Mehdi bəy ona cavab verdi. Özü də "Kərəmi" üstə. Tərəfindən ərz eliyim, xoşbaxt olun:

Ey ariflər, bu gün məhşər günüdü,
Nə müddətdi əlim yardan üzgündü.

Gündə beş yol dindirdiyim cananı,
Görəmmirəm xeyli vaxtdı – yüz gündü.

Nazdı xanımın ağlamağına Mehdinin ürəyi yandı. Nazdı xanım da fikirləşdi ki, ay allah, görən ürəyi mənnən təmiz dönüfmü? Götürüf burda Mehdi bəy nə dedi:

Qan ağlaram qara baxtın əlinnən,
Mən bülbüləm gülşanımnan olmuşam.
Bir gülüydü, tüşdü nadan əlinə,
Ayrılıx mədəni kannan olmuşam.

**Nazdı xanım:**

Düz deyillər, heç əyri qəlb düz olmaz,
İblis tova qılsa gəlif düz olmaz.
Sözü qavıl olmaz, mətləb düz olmaz,
Namərd qapısında qalıf yüz gündü.

**Mehdi bəy:**

Varmı mənim kimi qəmlər paşalı,
Əli dəstə güllü, tər bənövşəli,
Nazdı dilbər, səndən ayrı düşəli,
Vallah, tamam din-imannan olmuşam.

**Nazdı xanım:**

Eh, Nazdıyam, susamışam dərdə mən,
Gör ki, şəfa bulmamışam dərdə mən.
Eyyub kimi tuş olmuşam dərdə mən,
Heç deyən yox, Mehdi gəlif, üzgündü.

**Mehdi bəy:**

Mehdiyəm, rast gəldim müşkül bir işə,
Fələk yaman çaldı, qayıya, daşa.
Qorxuram bu söyda gəlməsin başa,
Heyva kimi saralıban solmuşam.

Söz tamama yetdi, deyillər, Nazdı xanımı hamama apardılar. İsti suynan çimizdirdilər, yaxşı kisə çəkdilər. Bir həftənin

içində anadangəlmə oldu. Gözəlliyi yeddiydisə, indi doqquz oldu. Xavar çıxdı ki, Mehdi bəyin dayısı Mustafa vəzir doqquz yüz sarvaznan Qalaçanın dörd yanını kəsif. Nejdi Məmmədxan, vəzir-vəkili qaça bilmir. Mustafa vəzir hökmranlığı ələ alıf, çarmıx qurudurdu. Mehdi bəyi çağırtdırdı. Nejdi Məmmədxanı, vəzirini, qazı əfəndiyi, Türfənsə qarıyı də gətizdirdi.

Nejdi Məmmədxanı çarmıxa çəkdirif tafşırdı ki, gündə bunnan bir tikə ət kəsin. Vəzirnən, qazı əfəndiyi də gərgiyə verdi. Dedi, bunnarın əyəxlərinnən soyun. Gündə Nejdi Məmmədxannan kəsdiyiniz ət boyda soyun. Qaldı qarı, yeddi illik bir xam qatır gətizdirdi. Qarıyı da qatırın quyruğuna bağlatdı ki, bunun havasını da qatır çəksin.

Mustafa vəzir bajısınnan görüşdü, Mehdi bəyə təzədən qırx gün, qırx gejə toy çaldırdı. Xanın, vəzirin əti, gönü qurtaran vaxt Mehdi bəyin toyu da qurtardı.

Mustafa vəzir camaatı yığıf, Mehdi bəyi xan qoydu. Amma o vaxtıydı ki, bu tərəfdən Qara xan arvadıynan, o tərəfdən qardaşı Məhəmmədəli Gəncədən gəlirdilər. Mehdi bəy qardaşı Məhəmmədəliyi özünə vəzir qoydu. Əmisi uşaxlarını da kəmərbəstə. Məhəmmədəli Gəncədən burya köçdü. Bir aşıx tafdılar, bir də məclis qurdular. Aşıx bunnarın toyunu belə tutdu:

Xəstə konlum səhət buldu,
Sevdijiyim, sən gələndə.
Açılıf bulut zülflərin,
Qamətinə tən gələndə.
Gözdərim düşdü gözünə,
Mən oldum heyran gələndə.
Havalandı konlum quşu,
Hürüynən-qılman gələndə.
Baharın tər bənöyşəsi,
Ey bağı gülşən gələndə.
Şikəst konlum şafa buldu,
Bir belə cavan gələndə.

Çoxları ziynət verif,
Tüşüf gözəllik bəhsinə.
Yaqutdan irəng alıf,
O cəvahir düyməsinə.
Yaxasınnan zər işdənif,
Qıfıllanıf sinəsinə.
Xavar aldım əhvalını,
Yetik oldum binəsinə.
Dil-dil ötən kəhliyidin,
Oyçular duruf səsinə.
Kirpikləri müjgan oxu,
Qaşdarı kaman gələndə.

Nəvinin oylağıdı,
Əzm edər mahallara.
Xubların qaydasıdı,
Karvanı çıxar yollara.
Sərində sığal verər,
Əbrişim-siyah tellərə.
Durna kimi qatarranıf,
Sonalar üzür göllərə.
Tərifinə dastan dedim,
Tüşsün dillərdən-dillərə.
Şairlərin qaydasıdı,
Tərif deyər gözəllərə.
Ün tüşər biyavana,
Cütünnən ceyran gələndə.

**Dastanın yaradıcısı Şair Nəbi Borçalıdır.**
**Söyləyəni: Hüseyn Saraclı**
**Yazıya alanı: Süleyman Əfəndi**

## CAHANGİR-MƏLƏKSUMA

Misir şəhərinin padşahı Ədil şahın övladı olmurdu. Əmbə onun bir yaxşı tədbirçi vəziri varıydı. Bir gün Ədil şah dedi:

– Vəzir, mən artıx qocalıram, mənim var-dövlətimə, taxtı-tacıma, bu cahcalallı səltənətimə sahib olajax bir öyladım yoxdu.

Vəzir dedi:

– Qibleyialəm, mən o iş üçün nə tədbir eliyə bilərəm? Bir az da gözdə, bəlkə də Allahdan sənə bir öylad kəramət ola.

Ancax deyillər padşahın bir bərbəri var idi. Padşah həmişə üz-başını ona təraş etdirərdi. Bir gün padşah üz-başını təraş eləməkdən ötrü bərbərin qarşısında əyləşdi. Öz əksini aynada çox pərişan görüf dərinnən bir ah çəkdi. Baxdı gördü ey diliqafil, üzü-başı tamam ağarıf. Fikirrəşdi ki, hə... qojalıx məni yaman yerdə haxladı. Bərbər padşahın bu halını duydu. Dedi:

– Qibleyi-aləm, bu yer üzündə böyüklük sizdə, ad-san sizdə, taxt-tac, dövlət-var, səltənət sizdə, axı nə dərdiniz ola bilər ki, belə ürəkdən ah çəkdiniz?

Padşah dedi:

– Bərbər, mane olma, işinnən məşğul ol.

Bərbər dedi:

– Padşahım, dərdini deməsən öldürsən də üzünü təraş eləmijəm.

Şah nə elədisə mümkün olmadı. Nəhayət Padşah cana gəldi, dərdini bərbərə söylədi. Bərbər dedi:

– Şah sağ olsun, siz şahsınız, əmbə kəramətsiz şahsınız.

İndi mən sizə bir söz deyim, göstəriş verim, siz mən dediyimə əməl eliyin. Mənim məsləhətimnən sonra sənin öyladın olmasa onda başımı vurdurarsan.

Padşah nalac qalıf bərbəri dinləməyə məcbur oldu.

Bərbər dedi:

– Ey şahım, döylətiyin üçdə iki hissəsini öznə əylə, bir hissəsini fağıra-fuğaraya, yetimə-yesirə, əlsizə-əyaxsıza payla. Onda sənə haxdan kəramət olar.

Bərbərxanadan qayıdannan sonra padşah bərbər dediyi kimi də hərəkət elədi. Xəznədarı yanına çağırıf xəznənin üçdən bir hissəsini fağır-fuğaraya, yetimə-yesirə paylatmağı tapşırdı.

Deyillər aşıx dili yüyrək olar. Aradan düz bir müddət keşdi. Doqquz ay, doqquz gün, doqquz gejədən sonra Ədil şahın bir oğlu dünyaya gəldi. Camahat gözaydınlığına axışdı, böyük şənnik-şadyanalıx quruldu, uşağın adını Cahangir qoydular.

Padşahlarda qayda beləydi; uşax dünyaya gələndə ona dayələr tutardılar. Dayə də hökmən qadın olardı, o, həm uşağı böyüdər, həm də öz südüynən qidalandırardı. Uşax süddən kəsilənnən sonra ona dünya görmüş bir qoja tutardılar, bunun da adına Ləle deyərdilər. Lələ körpənin təlim-tərbiyəsiynən məşğul olardı.

Cahangir 6-7 yaşına çatanda ona bir qoja kişiyi Lələ tutdular. Həmən vaxtdan Cahangir 18 yaşına çatana kimi bu Lələnin tərbiyəsində böyüdü.

Deyillər bir gejə oğlan yuxusunda Hindistan padşahının, yanı İzzət bəyin bacısı Məlәksuma xanıma aşiq oldu. Həmən səhəri Cahangir yuxudan çox gec oyandı. Əyanlar adam göndərif oğlanı yoxluyanda gördülər əhvalı ayrı cürdü. Odu ki, belə işlərdən baş tapanı axtarıf tafdılar. Müxtəsər, bir qarı çağırdılar. Həmən qarı yaxşı xəsyət qarılardan idi. Oğlana baxan kimi dedi:

– Qorxulu bir şey yoxdu, ayılanda öz dərdini deyər.

Odu ki, çox keçmədi, Cahangir yuxudan ayıldı. Dərdini demək üçün bir saz istədi. Məxləs, bir saz tapıb gətirdilər. Oğlan sazın bəmini-bəm, zilini zil eliyif aldı sinəsi üstünə müstəkəm elədi, götürdü görək nə dedi, sizdərə cansağlığı:

İbtida xəlq elədi, ol Adəm insanı Ərəb,
Qüdrətinnən xoş nişanı o verdi lisanı[1] Ərəb.
Axşam-sabah duva qıllam onun gül camalına,
Bəxş elədi bəndəsinə dini, həm imanı Ərəb.

[1] Lisan – dil

Cismi insan o mövladır, hökm edir qafdan-qafa,
Xəstə düşdüm təbib gəldi, dərdimə verdi şəfa.
O gün ki, müşkülə yetdi, münkirə verdi cəfa,
Çox şükürlər xaliqimə buldum inamı Ərəb.

Cahangir də eşq oduna yar haqqında yanandı,
Bu gecə bir röya gördüm könlüm şəhri talandı.
Uzax eldən sorax etdim özü cavan tərlandı
Həm abınnan nuş eylədim, həm yedim nanı Ərəb.

Söz tamama yetdi. Cahangirin anası irəli yeriyif oğluna üz tutdu, ay oğul, dedi, başına nə müsübət gəlif ki, sən belə dağdan-dərədən oxuyursan. Mən ananam, oğul, bəlkə dərdini mana deyəsən.

Cahangir üzünü anasına tutuf görək onu işdən nejə halı elədi?

**Aldı Cahangir:**

Ana, dur get şah babamdan izin al,
Gedirəm yola sal, ay ana, məni.
Misir eli indi olar qeyli-qal,
Salmaynan dillərə bəyana məni.

**Ana:**

Oğul, nə deyirsən divana kimi,
Eşidən nə deyər qoyana səni.
Gözəl sevsən bizim eldən sev barı,
Qoymaram gedəsən o yana səni.

**Cahangir:**

İndi özüm yar elinə yetirrəm,
Qəhramantək cəngi liba götürrəm.
Ya can verrəm, ya sevgimi gətirrəm,
Canım qurban ola qoy, ana, məni.

**Ana:**

Oğul, uzun çəkər bu qeylü-qalın,
Qürbət el gəzməyə varmıdır halın?

Fərasətin olsun, əqlin, kamalın,
Qoymaram gedəsən o yana səni.

**Cahangir:**

Cahangir sözünü yazan olarmı?
Dərdini dəftərə düzən olarmı?
Allah sövdasını pozan olarmı?
Canım qurban ola qoy, ana, məni.

**Ana:**

Nələr gəldi bu Zeynəbin dilinə,
Həsrət qalma ulusuna, elinə.
Əlin çatsa gözəl yarın əlinə
Qorxuram qoymaya bu yana səni.

Söz tamama yetişəndə hamı başa düşdü ki, oğlan eşq soydasına tüşüf. Cahangir saznan dediklərini söznən də dedi:

– Əziz ata-anam, qohum-əqrəbam. Bu gejə mana bir ağ əbalı nurani qoja Hindistan padşahının bajısı Mələksuma xanımı buta verif, yolunu da göstərif. Gərək söygülümün dalıncan gedəm. Bu işdə tavaqqı eliyirəm heç kim qarşımı kəsməsin. Onu da deyək ki, Cahangir bu söydasını əvvəlcə Lələsinə danışmışdı. Demişdi, Lələ, mən sana örgəşmiş adamam, bu səfərə də sənnən çıxajam.

Bəli, Lələ əhvalatı nejə var, eləjə də Cahangirin valideyinlərinə, qohum-əqrəbasına danışdı.

Əziz şah çox fikirləşif vəzirə üz tutdu:

– Vəzir, amandı bu işə bir tədbir gör, mən burdan Yəmən şəhərinə oğlumu tək-tənha buraxa bilmərəm.

Vəzir dedi:

– Qibleyi aləm sağ olsun, əgər mənə qalsa mənim tədbirim buduku xeyli zərrin mətahlar, bir qəflə qatırnan ver mana mən oğlunu da götürüm bir bəzirgan kimi həmən Hindistan şəhərinə gedim. Qoşun-ləşkər töküf camahatı qırğına verməkdənsə icazə ver gedək, Cahangirnən bir yerdə orda tükan açax, alverimizi

eliyək, bu minvalnan da saraya yol tapax. Bu yolnan oğluyun vüsala yetməsi daha hasand olar.

Bəli, Əziz şah bu söhbətin savaxsı vəzirnən Cahangiri bəzirgan libas elədi, bir qəflə zərrin-tac, al-qumaş yüklətdirif bunnarı Yəmən şəhərinə yola saldı.

Aşıxlar dili yüyrək olar, o zaman aynan-ilnən, bu zaman müxtəsər dilnən bir neçə günnən sonra vəzirnən Cahangir Hindistan şəhərinin yaxınlığına, yəni şəhərin bir kənarına çatanda vəzir dedi:

– Oğlum, indi mən gərək şaha layıx bir xon[1] bəziyəm, aparam həm özümüzə bir yer alax, həm də mallarımızı neçiyə satasıyıx qiymətini öyrənim.

Bəli, vəzir bir avırrı xon bəzədi, gəlif oturdu İzzət şahın elçi daşının üstündə. Daşın üstünə oturan kimi qul-qaravaş gəlif onu İzzət şahın hüzuruna apardı. O vaxtın irəhbərrəri indikilər kimi saymazdıx bilməzdilər. Elçi daşına əyləşəni bir baş aparardılar. Nəsə... vəzir soyqatını şaha təqdim elədi. Vəzir qaldıxları yerə qayıdıf Cahangiri də, mətahları da götürüf bir baş şahın nişan verdiyi məhliyə köçdü. Mənzillərinə çatdılar, yetirən kimi vəzir dəvələri dəyər-dəyməzinə satıf yüklərini tükana boşaltdırdı. Həmən günnən mallarını satmağa başladılar.

Deyəllər Mələksumuyu Cahangirə göstərən nurənin qoja Mələksumuya da Cahangiri göstərmişdi. Oydu ku şəhərə səs düşdü kü, bəs deməzsənmi, Misir vilayətinnən şəhərə bir tacir gəlif yanında bir cavan var, rüzgarın gözü belə gözəl oğlan görmüyüf. Bu xəvəri eşidən Mələksuma səhərisi 40 incəbel qıznan bütün şəhəri dolanıf oğlanın tükənini tapıf uzaxdan Cahangiri seyr elədi, əmbə gözünə görünmədi. Hicab etmiş kimi qayıdıf mənzilinə gəldi. Yaxın kənizdərini yanına çağırıf tapşırdı ki, bütün şəhərə car çəkin nə ki, qız-gəlin var bizim güllü bağa qonax

---

[1] Xon – xonça, layiqli hədiyyə

gəlsinlər. Doğrusu belə də oldu. Aşıx, sazandar, toy[1], zurna-qaval bir-birinə qarışdı. Hamı dedi, güldü, oynadı. Növbə Mələksuma xanıma gələndə minnət elədilər, oynamadı. Dedi, bir şərtəən oynuyaram ki, şəhərimizə təzə gələn bəzirgan oğlu bura gəlsin, saz çalsın, mən oynuyum. Deyillər o cavan oğlan çox yaxşı saz çalır.

Qızdarın arasında xanımın bir lotu kənizi varıydı. Bu lotu kəniz işi başa düşdü. Yerinnən hövləng duruf davana tüpürdü bir baş bəzirganın tükəninə üz qoydu. Gəldi tükənin qavağında qapının qənşərində bir müddət dayandı. Vəzir baxdı ki, bu qız bayaxdan duruf tamaşa eliyir, əmbə heç şey alımır. Yaxınlaşıf dedi:

– Qızım, niyə bu qədər dayanıf-durursan, utanma hası maldan istəyirsən seç-bəyən.

Qız dedi:

– Əmi, mənim alacağım çoxdu. Şahın qardaşı qızı Mələksuma xanım bu gün gülşən bağında şəhərin qızdarına qonaxlıx verir. İstəyirəm ki, həmən qızdara xanımın tafşırığıynan bu parçalardan alım. Əmbə bilmirəm kimin hasından xoşu gələcək?

Vəzir dedi:

– Qızım, onda sən bu parçaların hərəsinnən 2-3 top götür apar, qızdarın hasınnan xoşdarı gələr onnan da kəsif verərsən.

Lotu kəniz dedi:

– Əmi, yadımnan çıxıf pulları unutmuşam, özümnən götürməmişəm. Əgər mümkünsə bu cavan oğlan da mənnən getsin, həm mana kömək eləsin, həm də pulları verim gətirsin.

Vəzir dedi:

– Qızım, o gedə bilməz, onun tükəndə işi çoxdu. Yaxşısı budu sən get pulunu gəti, mallarını da sonra apararsan.

Cahangir nəsə elə bil işdən duyux düşmüşdü. Ürəyinə damdı ki, bu qızda bir xeyirri kələk var. Odu ku üzünü vəzirə tutuf dedi:

---

[1] Toy – Borçalıda toy dedikdə həm də nağara aləti nəzərdə tutulur

– Ata, sən mənnən nigaran qalma, bu qız düz deyir, həm buna kömək eliyim, həm də gedim bir dünya pul gətirim gəlim.

Vəzir Cahangirin bu sözünnən sora bir şey deмədi.

Cahangirnən qız bir neçə top parça götürüf yola düşdülər. Gəlif çıxdılar Mələksumanın güllü bağına. Bağa yetişən kimi kəniz Cahangirə dedi:

– Oğlan, bu qızdar, bu da sənin mətahın, daha mənnən əl çək, malını nejə istəyirsən bunnara sat.

Cahangir baxdı ki, qız aradan çıxdı, bu boyda mətahı da təkcə geri aparmax mümkün olmayajax. Əlacı kəsildi. Əlini ağaşdarın birinə atıf bir düz çuvux kəsdi. Başdadı arşın əvəzinə bu çuvuxnan parçaları qızdara satmağa. Bu vaxt Cahangirin vəziyyətini Mələksuma uzaxdan seyr eliyirdi. Gördü ki, parçaları satıf qurtarır, yavaş-yavaş Cahangirə tərəf gəldi, siyah zülflərinnən üç tel ayırdı, sinəsində müstəkəm elədi görək söygülüsünə nə dedi:

**Mələksuma:**

Başına döndüyüm bəzirgan oğlu,
Əbrüşümdü malın xara satırsan.
Gizlindi sirrimiz demə yadlara,
Gəlib burda sən aşkara satırsan.

**Cahangir:**

Başına dolanım bafalı[1] dilbər,
Əbrüşmdü malım, xara satıram.
Əgər xəbər alsan onun qiymətin,
Arşınını bir cüt nara satıram.

**Mələksuma:**

Taynan gətirmisən tirməni, şalı,
Sevgi-sevgilisindən dönməz xəyalı.
Nə üçün gəlibsən tez eylə halı,
Təbibsən dərdimə çara satırsan.

---

[1] bafalı – vəfalı

**Cahangir:**

Taynan gətirmişəm tirməni-şalı,
Nə gözəl görürəm Mələksumanı.
Könül istər al yanaxdan busanı,
Dərdinə bir dərman-çara satıram.

**Mələksuma:**

Nə müddətdi gözüm yolda qoymusan,
Mən yazığın bağrın başın oymusan.
Mələksuma deyər mənnən soymusan,
Laf çəkirsən məni dara satırsan.

**Cahangir:**

Bil ki, səni bu diyarda qoymaram,
Yüz il baxsam baxışından doymaram,
Sənnən özgə bircə gözəl saymaram,
Gəlmişəm dərdinə çara satıram.

Söz tamama yetişən kimi qaş-göz işarəsiynən Mələksumadan icazə alıf axşam üstü öz tükənnərinə gəldi.

Vəzir Cahangirin gej gəlməyinnən yaman narahat olmuşdu. Elə bil qara bulut, göy şüyüt olmuşdu. Cahangir içəri gələn kimi ona möhkəmcə ajıxlandı. dedi:

-Oğulum, mən sana nə müddətdi öyüd -nəsiyət verirəm. Bu nə oyundu mənim başıma açırsan?! Bala, bir qızın sözüynən səhərdən çıxıf gedifsən, demirsənmi gözdərim yoldadı. Demirsənmi qərif yerdi, başına bir iş gətirəllər, sora Əziz şaha nə cavaf verərəm?

Cahangir dedi:

-Vəzir, başına dönüm, mənim dərdim alver dərdi döylü, alverdən də gəlmirəm. Bilmək istəyirsən, onda qulağ as.

Aldı görək Cahangir nə dedi:

Vəzir, vardım güllü bağa,
Orda bir cananı gördüm.

Yüz əzmi-möhnət cəfaynan,
Sanki Nuh tufanı gördüm.

Gümüş kəmər var belində,
Qızıl qotaz var telində.
Həmən Hindistan elində,
Sevdiyim cananı gördüm.

Cahangirə etdi nazı,
Şirin dili, xoş avazı,
Hindistan şahının qızı,
Ol Mələksumanı gördüm.

Mələksuma adını eşidəndə vəzir dedi:

– Oğul, səni görüm qanına bələnəsən. Sən hər yerdə belə açıq-aşkar Mələksumanın adını çəksən, biz sağ başı gora apara bilmərik.

Nəsə... Vəzir Cahangirə genə də öyüt-nəsiyyət verməyində olsun, sizə kimnən danışım Yəmən şəhərində Heydər xannan. Heydər xan eşitmişdi ki, İzzət şahın elə bir bajısı var ki, hələ ruzikarın gözü belə gözəl görmüyüf. Qızın bu tərifini eşidənnən sora Heydər xan yaman işdahlanmışdı. Öz-özünə söz verdi ki, nə olur-olsun həmən gözəli yerin deşiyində də olsa gətirməlidi. Oydu ki, qoşun sərkərdəsi Baxtiyar adında qəvi bir pəhlivanı varıydı. Onu yanına çağırıf dedi:

– Bəxtiyar, doğrudu sən mənim qoşunumun başçısısan, özü də güjdü pəhlivansan. Əmbə mən səni hələ düz əməlli sınamamışam. Onda sana əsil pəhlivan deyərəm ki, gedif Hindistan padşahı Heydər şahın bajısı Mələksuma xanımı mana gətirsən. Onda bilərəm nejə pəhlivan olduğunu. Get qoşunnan ürəyin istiyən iyitdəri də götür, özgə nəyə ehtiyacın var söylə, əmbə tezliknən o qızı mana yetirməlisən. İnan bir allaha ki, bu işi başa varsan səni dünya malınnan sirab eliyəjəm.

Belə deyən kimi Baxtiyar pəhlivan əlini gözünün üstünə qoyuf xanın dediklərinə əməl eləyəcəyinə möhkəm söz verdi. Odu ku, böyük ehtiyat görüldü, güjdü qoşunnan Hindistana yol başdadılar.

Əlqərəz, gəlif mənzil başına çatdılar. Pəhlivan meydanına doluşdular. İzzət bəyə xəvər göndərdilər ki, öz xoşunnan bajın Mələksumanın başını bəzətdir, aparırıx Heydər xana. İşdi sözümüzü yerə salsan, onda zora əl atmalı olajıyıx.

İşi belə görən İzzət şah vəzir-vəkilini başına cəm elədi, dünya görmüş adamlardan çağırdı bir qədər məşvərət elədi. Ağıl-ağıldan üstün olar deyillər, hərənin ağzınnan bir fikir çıxdı. Əmbə axırda hamı bir sözə gəldi ki, zora-zor işdətmək lazımdı. Xoşduxnan Mələksumuyu bulara versək onda gərək hamı başına papax əvəzinə ləçək örtsün. Məsləhət verənnərdən biri dedi:

- Şah sağ olsun, onnar vuranda qan çıxer, biz vuranda sumu çıxajax. Qana-qan olmalıdı-vəssalam!

Nəsə qərara gəldilər ki, savaxdan qoşunun say-seçmələrinnən bu çağırılmamış qonaxların qarşısına çıxartmax lazımdı...

Sabah açıldı, üstünüzə xeyirli savaxlar açılsın, İzzət şah bir dəstə döyüşçü göndərdi Bəxtiyar pəhlivanın üstünə. Axşamatan vuruşdular, axşam həmən dəstədən bir nəfər də olsun salamat qayıtmadı, Bəxtiyar hamısını qılıncdan keçirtdi. Beləjə bu dava bir neçə gün uzanası oldu. Şəhərə haray düşdü, hamı işdən halı oldu. Xavar gəlif vəzirə çatmışdı, əmbə Cahangirə deməmişdi.

Nəhayət, İzzət şahın qoşun sərkərdələri qırılıf tükəndi. Şah naəlaş qalıf camahatı səfərbərriyə çağırdı.

Sizə kimnən deyim, Cahangirdən. Cahangir bu şəhərə gələnnən bir nəfər cavan oğlannan möhkəm dostaşmışdı. Bir axşam həmən oğlan gəlif Cahangirə dedi:

- Qardaş, məyər xəbərin yoxdu, Yəmən padşahının pəhlivanı neçə gündü kü gəlif İzzət şahın bajısını zornan aparmax istiyir. Neçə gündü meydanda qırğındı. Bəxtiyar pəhlivan hər gün İzzət şahın qoşununu qırıf-tökür. Daha sərkərdə, pəhlivan

qalmadı. Savah bir tədbir görülməsə şahın işi şuluxdu. Kişinin başını aşağı eliyif Məlksuma xanımı zornan aparajaxlar.

Bu sözdəri eşidən Cahangir doluxsunmuş halda vəzirin yanına gəlif əhvalatı biz bildiyimiz kimi ona danışdı. Əlavə elədi ki, ey mənim əziz himayadarım, biz mənim atamın zərrin mətahını gətirif heç-puç eliyirik, özümüzü qürbətliyə salmışıx. Məgər bu işdən halı döyülmüsən. Mana deməlisən. Vəzir gördü yox, desəm ki, bilirdim, onda yaxşı olmuyajax. Axırı Cahangirdən danıf dedi, oğul, sən dedin, mən də eşitdim, mənim bu işdən heç xəvərım olmuyuf.

Cahangir dedi:

- Vəzir, bağlamalarımızın arasında mənim pəhlivan libasım var, onnarı çıxart. Özün də get İzzət bəyin hüzuruna de ki, savax meydan mənimdi. Mana bir yəhərri-yüyənni at, bir də döyüş əməsilahı[1] hazırratsın.

Vəzir üz qoydu İzzət bəyin hüzuruna gəldi. Əhvalatı ona danışdı. İzzət bəy Cahangirə bir döyüş atı, bir də döyüş əməsalahı göndərdi.

Bəxtiyara xavar göndərdilər ki, savax sənin meydanına Misirdən gəlmiş bir bəzirganın balaca bir oğlu çıxajax.

Bəxtiyar fikirrəşdi ki, o ki, qaldı uşax-muşağa daha bizim işimiz düzələn təhərdi.

Gejəni yatdılar, səhərrəriniz xeyirriknən açılsın hamılıxnan. Elə ki, səhər açıldı, Cahangir döyüş livasını geyinif ata suvar oldu, üz qoydu döyüş meydanına.

Bu işdən xavar tutan qoja-cavan, böyük-kiçik, arvad-uşax bir söznən "məmə"-deyənnən "pəpə" deyənə kimi hamı meydana axışdı.

Bəxtiyar pəhlivan çadırdan baxıf gördü bir cavan oğlandı. Onun qarşısına çıxmağı, öz-özünə ar elədi. Əmbə bir qədər zəndnən fikir verənnən sora baxıf gördü ki, nə qədər döyüşdərdə oluf, belə gözəl at oynadıf, qılınc qaldıran görmüyüf. Dedi, yox,

---

[1] Əməsalah – silah-sursat, alət

bu hərifdən heç gözüm su içmir, beləsinnən hər şey gözdəmək olar. Naəlaş qalıf livasını geyif, atdanıf meydana gəldi.

Meydana gələn kimi Cahangirə dedi:

- Oğul, sənin ağzınnan süd iyi gəlir. İkidən birdən belə meydan görüfsənmi?

Cahangir dedi:

- İyid dilinə güj verməz, əlinə güj verər. Mən bu meydana gəlmişəm ya öləm, ya öldürəm.

Bəxtiyar dedi:

- Oğul, pəhlivannarda qaydadı, əvvəl deyişmə, sora vuruşma, üçüncü güləşmə. Sən bulara hazırsanmı?

Cahangir cavaf verdi:

- Hansı olur olsun, əmbə tez olsun, gözdüyən döyləm.

Odu ku əvvəlcə deyişməyə keşdilər. Götürdü Bəxtiyar pəhlivan:

Gəl sana söylüyüm, ay cavan oğlan,
Tərlanın yerində heç vaxt sar olmaz.
Sən uşaxsan, sənnən böyük kimsələr,
Əl açsa mənimnən bərabər olmaz.

**Cahangir:**

Sənə də mən deyim, duran pəhlivan,
Mən bilirəm tərlan yerin sar olmaz.
Eşqə düşüb bu meydana gəlibsən
Haqq çağıran bu meydanda xar olmaz.

**Bəxtiyar:**

Aç gözünü bir yaxşı bax üzümə,
Pəhlivanam gümanım var özümə.
Ayaxlayıf batıraram tozuma,
Mənim kimi ilan olmaz, mar olmaz.

**Cahangir:**

Gəl sənə mən deyim qaç[1] xana dastan,
Qarğadan qaz olmaz, tülküdən aslan.
Qurtdan çoban olmaz, gədədən sultan,
Qara daşı boyamaxnan zər olmaz.

**Bəxtiyar:**

Məyər tanımadın bu Bəxtiyarı,
O sözlərin heç olmadı uyarı.
Bağışlaram sən tək günahkarları,
Getsən geniş dünya sənə dar olmaz.

**Cahangir:**

Cahangirəm, yaxşı bildim halını
Hər tərəfdən kəsdirərəm yolunu.
Əyif qamətini, qırram qolunu,
Mələksuma özgələrə yar olmaz.

Söz tamama yetəndə Bəxtiyar dedi:

- Bu deyişmədən bir murad hasil olmadı, indi, oğlan, keçək vuruşmağa. De görüm, növbə sənindi, ya mənim.

Cahangir dedi:

- Fursatı sana verirəm.

Vuruşmada qayda belədi: pəhlivanın biri yerində durardı, o biri əvvəl ona ya qılınc, ya da əmud endirərdi. Odu ki, Cahangir əl bağladı, Bəxtiyar ona bir qılınc endirdi. Cahangir bu vaxt qolundakı qalxannan qolçağını qılıncın qavağına tutdu. Özünü xilas elədi. Növbə Cahangirə çatdı. Baxdı gördü kü Bəxtiyarın əyni başdan-ayağa polad geyimdədi, yüz gün qılınc vursa da bir şey qoparda bilməyəjək. Əmbə nəzər saldı, gördü qollarını yuxarı qaldıranda qoltuğunun altınnan açıx yer görünür.

Bəli, Bəxtiyar qolunu qaldırar-qaldırmaz Cahangir bir aldadıcı fəndnən qılıncı sağ qolunun altınnan elə saldı ki, düz sol

---

[1] qaç xana – bir neçə bənd

qolunun altınnan çıxdı. Bəxtiyar üzü üstə atdan yerə yıxıldı. Qoşun hər tərəfdən töküldü. Ancax başçı ölənnən sora bunun heç bir faydası yoxuydu. Müharibənin də öz qanunları vardı qavaxlar. Əvvəl sərkərdə vuruşardı, əgər basılsaydı qoşun da məğlub hesab olunardı. Elə ki, Bəxtiyar o dünyalıx oldu, qoşun üz qoydu Yəmən şəhərinə qaçmağa, "asta qaçan namərtdi"-deyif davannarına tüpürdülər. Onnar qaçmaxda olsun sizə ərz eliyim Mələksumadan. Mələksuma da camahatın içində bu döyüşə tamaşa eliyirdi. İzzət şah da öz əsabalarınnan bir tərəfdə əyləşmişdi. Cahangirin bu iyitdiyi şahı çox xoşhal elədi. Üzünü camahata tutuf dedi:

- Məni istiyən bu cavana xələt versin, kimin bacarığı var onu təcrifləsin.

Hərə bir tərəfdən xələt tökdü Cahangirin başınnan. Mələksuma irəli yeriyif qardaşına dedi:

- Qardaş, icazə ver bu cavan oğlanın tərifini özüm deyim. İzzət şah izin verdi, Mələksuma götürdü görək nə dedi:

Ey şahzadam, bu diyarda ad aldın,
Yazallar adına dastan deyəllər.
Arıyallar, bu diyarda bulmazdar,
Ya ərəbdən gəlif, farsdan deyəllər.

Sandım ki, dəryadan çıxıbsan nəhəng,
Bir nərə çəkəndə təmsili pələng.
Çərmənib çıxanda, eyləyəndə cəng,
Qılınc vurmağına aslan deyəllər.

Mələksuma deyər, sən bir cavansan,
Teymur, Cahanbaxış ya qəhrəmansan?!
Dünyada seçilmiş bir pəhlivansan,
Bəyim, Zal oğlusan, Rüstam deyəllər.

Söz tamama yetəndə İzzət şah Cahangirə dedi:

- Sizin hörmətinizdən çıxmaxdan ötrü mana bir neçə gün möhlət verin. Sizi bir gün çağırıf könlünüz nə istəsə verəjəm.

Bunnan da hər kəs öz öyünə dağılışdı.

İndi sizə hardan xavar verim, Heydər xannan. Heydər xan gördü ki, qoşun sərkərdəsi məğlub oluf, gerdə qalannar da qaçıf gəlif bir xeyli fikrə getdi. Öz-özünə dedi: – ölən ölüf, qalan qalıf, mənə nə var, dədəm oğlu qardaşdarım ölmüyüf kü. Gəl indi İzzət xana ayrı kələk işdət. Bəlkə bu dəfə heç olmasa iş baş tuta. Bəli, Heydər xanın şəhərində ustad bir aşıx var idi. Adına da Hafiz əfəndi deyərdilər. Fikirrəşdi ki, şahların arasında möcüzə-möcüzədi. Gəl bu aşığı İzzət bəyin üstünə göndər. Onsuz da onun qarşısına çıxardası aşığı olmuyajax. Bu halda bəlkə qızı ələ keçirdə bildi. Belə fikirləşdi ki, əyər Hafiz əfəndinin qarşısına aşıx çıxarda bilməsə, onda Hafiz əfəndi şərtə görə Mələksumanı tələb eliyəcək. Belə də oldu. Səhərisi Hafiz əfəndi şəyirdərini də yanına çağırıf əhvalatı onnara danışdı. Dedi:

- Sabahdan Hindistana yola düşürük. Əgər İzzət bəyin bizim qarşımıza çıxardası aşığı olmasa, onda biz Mələksumanı onnan tələb eliyərik. Deyərik ki, bizim nəmərimiz Mələksuma xanımdı.

Beləjə söydələşif yola tüşdülər.

Sizə hardan deyək, İzzət bəydən. İzzət bəyə xəvər gətirdilər ki, Yəmən padşahı Hafiz əfəndi adında bir aşıx göndərif. Tələbi də budu ki, ya o aşığın qavağına layıxlı aşıx çıxart, onu bağlatdır, ya da Mələksuma xanımı öz xoşuna onun yanına qat mənim hüzuruma göndər.

İzzət bəy vəziri, vəkili yanına çağırıf məsləhət, məşvərət elədilər. Qərara gəldilər ki, şəhərə car çəkif aşıxları toplasınnar.

Bir neçə sahat keçənnən sonra iki, üç aşıq tapıf gətirdilər. Meydan quruldu. Əmbə Hafiz əfəndinin qarşısında bu aşıxlar aciz qaldılar.

Birdən İzzət bəyin yadına Cahangir tüşdü. Nəsə umudu ona gəldi. Fikirrəşdi ki, demək olmaz, bəlkə bu işdə də sərişdəsi oldu. Odu ku xəbər göndərif əvvəlcə vəziri çağırtdı. Onu da deyək ki, vəziri hamı Cahangirin Lələsi kimi tanıyırdı.

Lələ gəldi, ədəfnən təzim elədi. İzzət bəy niyyətini ona çatdırdı. Lələ dedi:

- İzzət bəy, icazə ver gedim Cahangirin özünnən soruşum. Əgər razılıx versə götürüf özümnən gətirrəm.

Bir azdan vəzir Cahangirnən İzzət şahın hüzuruna yetişdi. Bildirdi ki bəy sağ olsun, hansı üzünə desək Hafiz əfəndiyə cavaf verəsi dilim var.

Əlqərəz, bunu deyif Cahangir bəy sazını da götürüf bir baş məclisə daxil oldu. Meydanın ortasına gəlif Hafiz əfəndiyi yarışa dəvət elədi. Bəli, məclis başdadı.

Hafiz əfəndi dedi:

- Oğul, əvvəlcə urusğat[1] sənindi, ya mənim?

Cahangir bəy cavab verdi:

- Hafiz əfəndi, qərib kimsənəsən, özü də ağsaqqal ustadsan, söz sənindi.

Bu məqamda Hafiz əfəndi götürdü görək nə dedi:

Sən bir bəzirganın cavan oğlusan,
Malı-mətahını satıb gedərsən.
Öz-özünü salma mənim cəngimə,
Axırında peşman olub gedərsən.

**Cahangir bəy:**

O doğrudu, mən bəzirgan oğluyam,
Malı-mətahımı satıb gedərəm.
Çoxdu mənim satın alma qullarım,
Səni də onlara qatıb gedərəm.

**Hafiz əfəndi:**

İnanginən yeminimə, andıma,
Qocalsam da, gümanım var kəndimə.
Hafizsən, düşməynən feli-fəndimə,
Kəndini kəməndə salıb gedərsən.

---

[1] urusğat – növbə, icazə

**Cahangir bəy:**

Qoca, andın qənim olsun canına,
Şəyirdləri nə düzüfsən yanına.
Ağ saqqalın batıraram qanına,
Başın bədənnən atıb gedərsən.

**Hafiz əfəndi:**

Hafiz əfəndiyəm, gəl məni tanı,
Çoxları qarşımda sındı, usandı.
Ellər görür baş-bədəndən atanı,
Bir cana borclusan, ölüb gedərsən.

**Cahangir bəy:**

Adım Cahangirdi, özüm şahzadə,
Mən ümman, dəryayam, sənsən bir ada.
Bir aşıq qoymaram cəmi dünyada,
Cəmisin qol-qola çatıb gedərəm.

Söz tamama yetişdi, bu dəfə növbə Cahangir bəyə çatdı. Götürdü görək nə dedi, nejə dedi:

Ay usta, mən o səhranı gəzəndə,
İrast gəldim əmbiyalar beşinə.
İyirmi kəlmə gördüm bir varaq üstə,
On firudin, beş Sulidin, beşi nə?

Hafiz əfəndi gördü ki, giriləsi kol döylü. Baş qarışmaxdan ötrü dedi:

- Oğul, sən hamısını birdən de, mən hamısına birdən cavaf verərəm. Götürdü Cahangir bəy:

Usta, mən gəlirəm dağ ilə daşdan,
Kimə səda gəlif səhər o başdan?
Bəs sənin xəbərin varmı on beşdən,
Beş mələkdi, beş kitabdı, beşi nə?

Hafiz əfəndi genə möhlət istədi. Götürdü Cahangir bəy:

Cahangir sanını endirdi ona,
Geyinib keçindim bir ayrı dona.

İftida kim idi gəldi cahana,
Beşi pəncəlabdı, beşi nə?

Hafiz əfəndi yenə də cavaf verə bilmədi. Cahangir Hafiz əfəndinin də, şəyirdlərinin də sazdarını əllərindən alıf özdərini də üzü qara yola saldı.

İzzət bəy Ləlani də, Cahangir bəyi də yanına çağırıf dedi:

- Siz mənim hər iki çətin vaxtımda qolumnan tutdunuz. İndi deyin görüm ürəyiniz nə istəsə yerinə yetirəjəm. Lələ İzzət bəyin bu sözünnən sonra üzünü Cahangirə tutuf dedi:

- Oğlum, indi məqamdı, utanıf-çəkinmə, istəyini bildir. Cahangir sazı sinəsinə basıf üz tutdu İzzət bəyə tərəf görək nə dedi:

Bir adı Diləpruz, bir adı Pəri,
Bir adı da onun var-Mələksuma.
İzzət bəy bacısı, padşahın qızı,
Versən mənə olar yar-Mələksuma.

Elləri var İsvahanın dağında,
Hindistanın baxçasında, bağında.
Gəlsə bahar son zimistan çağında,
Bülbülə yağıdı xar, Mələksuma.

İzzət bəy fikrə getdi, işi başa düşdü. Dedi:

- Oğul, mənnən ötəri hər şey aydındı. Mənə qalsa mən irazı. Ancax bizim atamızın da irazılığı lazımdı. Atam qojaldığınnan şahlığı mənə təhvil verib. İndi gedif onuynan da məsləhətləşək. İşi belə görəndə Cahangir bəy götürdü sözün möhürbəndini nejə tamamladı:

Cahangir də qönçə gülün dərməsə,
Cəllad gəlib bu boynumu vurmasa,
Qardaşın razıdı, atan verməsə,
Bir ayrı xəyalım var, Mələksuma.

Cahangir sözünü qurtarar-qurtarmaz Lələ İzzət bəyə üz tutuf dedi:

- İzzət bəy, bu oğlan əslində Misir padşahı Ədil şahın oğludu. Biz Ədil şahın razılığıynan nə müddətdi bəzirgan libasında gəlif burda

ticarətnən məşğuluq. Məqsədimiz nə ticarətdi, nə də başqa bir şey. Mən özüm də Ədil şahın vəziriyəm, Cahangiri tək buraxmamışam. İndi özün bil, bir qızdı, verərsən ədalət elərsən, verməzsən zülüm.

Lələnin bu sözünnən sonra İzzət bəy dedi:

- O ki belə oldu, onda atamın da əvəzinnən irazılıx verirəm. Ancax bir şərtim var ki, gərək yaza kimi gözdüyəsiniz. Qızın toy tədarükünü görmək, cehizini, mehri-müsəmmasını hazırramax vaxt tələb eliyir. Yaza kimi dözməlisiniz, bu günnənsə hamıya məlum olsun ki, Mələksuma Cahangir bəyin nişanlısı sayılır. Balaca bir məclis qurdular, araya şirinlik gətirdilər. Mələksumanı Cahangir bəyə ad eliyif hər kəs öz öyünə dağıldı.

Aradan bir neçə vaxt keçdi. İzzət bəyin fikrinə qara-qura fikirlər gəldi. Öz-özünə dedi: "Ay zalım, bəlkə bu Lələ məni aldadıf qızı Cahangirə almağ istiyir. Bəlkə bu heç şah oğlu döylü. Şah oğlu olsa gəlif mənim şəhərimdə bəzirgannığ eliyərdimi?"

Bu fikir başınnan açılmadı ki, açılmadı. Axırda belə qərara gəldi ki, bir qasidnən Yəmən şahına bir məktub göndərsin ki, gecənin bir aləmi gəlif Mələksumanı oğurratsın. İzzət bəy belə fikirləşdi ki, Yəmən şahının qohumu olsam, əvvəlki düşmançılığımız da aradan qalxar.

Bəli, əzizdərim, İzzət bəy bir qasidnən Heydər xana namə yazıf göndərdi ki, nə vaxt istəsən keçmiş ədavətdəri aradan götürmək şərtiynən bir gecə gəlif Mələksumanı aparsın.

Deyəllər namə gəlif Heydər bəyə çatan kimi əhvalı dəyişdi. Bütün arada olan ədavəti unutdu. Tez yola tədarük görməyə başdadı. Qasidi də özüynən götürüf, bir qədər də qoşun düzəldif Hindistana yol aldı.

Gəlif mənzil başına çatdılar. Qasid gəlif İzzət bəyi məsələdən agah elədi. İzzət bəy belə məsləhət gördü ki, gejənin bir aləmi Heydər bəy bir neçə qolu güjdü oğlannardan göndərsin, Mələksuma xanımı yatağınnan götürüf qaçsınnar.

İzzət bəy deyən kimi də oldu. Həmən qasidin bələdçiliyiynən gejənin bir aləmi Heydər bəyin adamları Mələksuma xanı-

mın otağına girif ona bihuşdarı verif aradan çıxartdılar, üz qoydular Yəmən şəhərinə.

Həmən gejə məsələ Cahangirə yuxuda əyan oldu. Yuxudan hövləng duruf Ləməsinə görək nə dedi, sizi də xoşbəxt olun:

Yatmış idim xabi-qəflət içində,
Yetişdi guşuma sədalar indi.
Gör necə kül oldu aslan başına,
Alıbdı meydanım gədalar indi.

Lələ, dərdim əllidimi, yüzdümü,
Pərişan görmüşəm ala gözlümü.
Bir büllur buxaxlı, gülər üzlümü
Məgər mən ölümşəm, yad alar indi?!

Cahangirəm, çağıraram bir ağa,
Mələksuma deyə düşdüm sorağa.
Lələ, vallah, Əslim getdi uzağa,
Kərəm kimi canım od olar indi.

Lələ dedi:

- Ay oğul, sənə nə oluf, o kişi bizə yaza kimi söz verif həmən vaxta da az qalıf. Bu nə fikirdi ağlına gəlif?

Cahangir dedi:

– Lələ, mən nə deyirəm, yaxşı bilirəm. Məlksumanın başında bir iş var. Tez dur şəhərə çıx, gör camahat nə danışır?

Lələ şəhəri çıxıf dolaşdı. Öyrəndi ki, bəs deməzsənmi, bu gejə Yəmən şahının adamları saraya basqın eliyif Mələksuma xanımı qaçırdıf aparıfdı.

Lələ başı yaloylu[1] Cahangirin yanına döndü, məsələdən onu da agah elədi. Dedi, oğlum, vayğan[2] əyan oldu, gördüyün yuxu düzüymüş. Mələksuma xanımı Heydər bəyin adamları gejə gəlif qaçırdıflar.

Cahangir bəy dedi:

---

[1] Yaloy – alov
[2] vağya – yuxu

– Lələ, tez ol mənə bir yaxşı at tap mən söydüyümü darda qoya bilmərəm.

Əlqərəz, Lələ gedif bir yəhərri, yüyənni gözəl bir at alıf gətirdi. Cahangir bəy altdan güyinif üstdən qıfıllanıf ata suvar oldu. Ləlsiynən Heydər bəyin adamlarının dalıncan çapdı.

Cahangir bəy yol getməkdə olsun, sizə Mələksuma xanımnan xəbər verək. Mələksuma xanım xeyli yol gələnnən sonra bihuşdarının təsiri gedif yuxudan ayılmışdı. Kəcavə gözəl bir mənzərəli yerdə əyləşmişdi. Mələksuma işdən halı oldu. Əmbə onu da deyək ki, İzzət bəy bacısının yanına kənizdərinnən iki nəfərini də qoşmuşdu. Mələksuma Heydər bəyə xəbər göndərdi ki, ürəyim yaman darıxır, icazə ver bu həndəvərdə qızdarnan bir qədər dolaşım. Heydər bəy icazə verdi. Mələksuma qızdarnan çadırın yanınnan ayrılanda onda gördü ki, ağacdarın başında bir neçə göyərçin ötüşür. Bu quşdarı görəndə Mələksuma xanımın ürəyi tüğyan elədi. Götürdü bu quşdarınan qaynatasına, həm də Cahangirə görək necə bir namə yazıf göndərdi:

Üz-üzə, dil-dilə ötən murğular,
Gəlin özünüzü mana yetirin.
Göz yaşımnan yazdım ərzi-halımı,
Misirdəki qaynatama yetirin.

Alışdı ürəyin közü qırmızı,
Qələm qana döndü yazı qırmızı.
Ağam Əli kimi gözü qırmızı,
Şahı Mərdan ol İmama yetirin.

Xəbər alsaz adım Mələksumadı,
Gündüzdərim ay qarannıx gejədi.
Ərzi-halım bir şikayət namədi,
Günortaya, ya axşama yetirin.

Bəli, əzizdərim, deyəllər göyərçinnər bu naməni götürüf Misir şəhərinə uçdular. Şəhərə çatıf məktubu Ədil şahın həyətinə atdılar.

Quşdan düşən naməni qarabaşdardan biri götürüf Ədil şaha çatdırdı. Ədil şah namənin məzmunuynan tanış oluf başa düşdü ki, Cahangirin başında qarannıx var. Odur ki, taxtı-tacı inandığı adamlardan birinə tapşırıf, bir qədər də qoşun götürüf Hindistana yola düşdü.

Sizə deyək Cahangir bəydən. Cahangir bəy az getdi, çox getdi. Çapa-çapa gəlif özünü yetirdi Heydər xanın qoşununa.

O vaxtı yetişdi ki, qoşun tamam tərkisilah olub, kef məclisinə əyləşmişdi. Bu məqamda Cahangir bəy atını bir qədər aralıda saxlayıf bu kef məclisindəkilərə görək nə dedi:

Yəmənin sultanı, hindistan xanı,
Sizdən ötrü namus olsun, ar olsun.
İnsafdan uzaxsız, insaf eləyin,
Mən bir qərib, ölkənizdə xar olsun.

Cavannarı qan içində üzdürrəm,
Çox başları nizələrə düzdürrəm.
Cümlənizi əsir edib gəzdirrəm,
Görən desin bu əllərin var olsun.

Cahangir əl çəkməz, heç olmaz qara,
Doğrayıb tökərəm mən para-para.
Yəmənin şəhrini sallam hasara,
Bu gen dünya sizin üçün dar olsun.

Cahangir bəy sözünü tamam eliyif tərkisilah qoşuna hücum elədi. Birinci Heydər xanın başını bədəninnən üzdü. Heydər xanın qoşunu Heydər xanın öldüyümü görüf Cahangir bəyə tabe oldular. Cahangir bəy Mələksuma xanımnan görüşdü, hal-əhval elədu. Kəcavə yola düzəldi, Cahangir bəy Heydər xanın qoşununu da qabağına qatıf Hindistana üz tutdu.

Az gəldilər, çox gəldilər, bir müddətdən sonra gəlif bir dörd yol ayrıcına çatdılar. Cahangir bəy baxıb gördü ki, uzaxdan bunnara tərəf bir qoşun gəlir. Bir qədər gözdüyənnən sonra qoşun gəlif yaxınlaşdı. Cahangir qoşunun qabağında gələn atası Ədil şahı

tanıdı. Əmbə Ədil şah Cahangiri tanımadı. Ata-oğul bir-birinə yaxınnaşdı, bu dəfə Ədil şah oğlunu genə də tanımadı. Cahangir bəy bu yerdə götürdü atasına görək nə dedi, özünü nejə tanıtdı:

Ol zaman ki, gəldim Hindin elinə,
Müşdəri cəm oldu malıma, baba.
Bəxtiyar tək pəhlivana tuş oldum,
Bircə qılınc vurdum zalıma, baba.

İrast oldum bir aşığın fəndinə,
Bir neçə həqiqət dedim kəndinə.
Çarə bulammadı qıfılbəndimə,
Tabe oldu qədim quluma, baba.

Cahangirəm, Hindistanda dayandım,
Donnan dona girdim, bəzirgan oldum.
Heydəri öldürdüm, qoşunun qırdım,
Şükür əlin çatdı əlimə, baba.

Söz tamama yetəndə kişi oğlunu tanıdı, bir az ağlı başınnan çıxdı, qəşş elədi, özünnən getdi. Hərə bir tərəfdən bunun üzünə su vurdular, bir təhər özünə gətirdilər. Cümlənizin həsrəti bir-birinə qovuşsun, necə ki, onnar qovuşdu. Ədil şah Mələksumanın göyərçinnən göndərdiyi məktubu Cahangirə oxuyuf, hamısı barabar Hindistana İzzət bəyin yanına gəldilər.

Səhərisi gün Ədil şah Lələni də, bir neçə başqa ağsaqqalı da götürüf İzzət bəyin hüzuruna elçiliyə getdilər. Əmbə rəvayətə görə İzzət bəyin Ədil şahnan əvvəllər səmimi dostluğu var imiş. İzzət bəy Ədil şahı görən kimi çox xoşhal oldu. Arada heç bir şey olmamış kimi gəlməyinin səbəbini soruşdu. Ədil şahı da bütün məsələlərdən halı eləmişdilər. Düzü Ədil şah da İzzət bəyin pisdiklərini üzünə vurmadı. Birbaşa məqsədini bəyan elədi. Bildirdi ki, sənin bajın Mələksuma xanımı oğlum Cahangirə ad eləməyə gəlmişəm. İndi ixtiyar sənindi. İzzət bəy canı dildən "allah mübarək eləsin" deyif xeyir işə irazılığını bildirdi.

Toy tədarükü başdandı. Neçə gün, neçə gejə toy çaldırıf Mələksuma xanımı Cahangir bəyə tafşırdılar.

Toy başa çatdı, Ədil şah Cahangiri də, Mələksuma xanımı da götürüf vətənə yola düşdü. Gəldilər Misirə çatdılar, toy-düyün təzdən başdadı. Həməşə toyda-düyündə olasınız, istəylilər. Məclisin sonunda bir aşıx gəlif bu toyu görək nejə tamamladı:

Sənə nejə bel bağlayım, ey vəfasız fani dünya,
Mənnən artıq bəndələrin itib adı-sanı dünya,
Biədəbsən, tanımırsan, nə sultanı, xanı dünya,
Çox yığıbsan gərdəninə belə nahaq qanı dünya,
Qubarlanma öz-özünə, gəl yolunu tanı, dünya,
Özünnən baqi qoymadın, mülkü Süleymanı, dünya.

Gündə neçə min işləri keçirirsən xəyalınnan,
Döy başına ağlaginən, qiyamatın zavalınnan.
Gündə min biri oluban minin dəyirsən dalınnan,
Əzrayılla əl bir olub qurtardın insanı dünya,
Özündən bağı qoymadın neçə pəhlivanı dünya.

Ululardan xəbər aldım bilən olmadı yaşını,
Kimsəyə bağlı döysən qandırdılar hər işini.
Bir səcərsən[1], bar verəndə vurub tökdün dəymişini
Axırında mələkəlmovt bir-bir üzər yemişini,
Qürrələnmə, öz-özünə gəl yolunu tanı, dünya.
Özündən baqı qoymadın bir çox qəhrəmanı dünya!

Mövlud qurana yazıldı neçə-neçə surasında,
İskəndər dilək istədi girdi zülmət qalasında,
Loğman-həkim aciz oldu bu ölümün çarasında,
Adəmnən Məhəmmədəl Mustafanın arasında,
Yüz iyirmi dörd min nəbi göstər, görüm hanı, dünya,
Özündən baqi qoymadın o Rüstəmi-Zalı, dünya!

[1] Səcər – ağac budağı

Ey ağılsız türk bəndələr, aldanmayax bu dünyaya,
Dünya bir fani dünyadı, dönübdü qəddi minaya.
Eşitdim cənnət yapdırdı şiddətli əleyin naya,
Edərik fitnə qeyrəti, gedərik qəmli zünnaya,
Hayıf yoldan çıxarıbdı bu Molla Cumanı, dünya,
Özündən baqi qoymadın Əli tək Aslanı, dünya!

**Yaradıcısı: Aşıq-şair Ağacan**
**Söyləyəni: Aşıq Əmrah Gülməmmədov**
**Toplayanı: Elxan Məmmədli**

**12.06.1980**

## SAM ŞAHZADƏ

Keçmiş zamanda Qəndilqala şəhərində ədalətli bir şah varmış. Bu şahın adına Tərkiman şah deyirlərmiş. O, olduqca ədalətli və səxavətli bir şah imiş. Ona görə bütün şəhər əhli hər vaxt onun ömrünə dua edirlərmiş. Çünki o şah olandan bəri camaatı vergi verməkdən azad edibmiş. Bu cəhətini də ərz eləyim ki, bu şahın heç bir fərzəndi yox imiş. Bu işdən həm şah, həm də xalq çox narahat olurmuş. Ağıllı kişilərdən biri deyir ki:

– Gəlin bir tədbir görək.

Biri soruşur ki:

– Bu işə nə tədbir olar?

O biri deyir ki:

– Niyə olmaz, gəlin bir elə tədbir eyləyək ki, həm Allaha, həm şaha, həm də camaata xoş gəlsin. Gəlin bir neçə yerdə körpü, məscid, və dəyirman saldıraq, şəhərimizdə nə qədər kasıb varsa, ona kömək edək. Bir də kim harada yetim görsə, onu öz xərciynən saxlasın. Bu tədbirə hamı razı oldu, dedikləri işə əməl etdilər. Onlar burada qalmaqda olsunlar, indi sizə bir az şahdan danışım.

Tərkiman şah günlərin birində arvadı Dilaramiçəng ilə oturub söhbət edən zamanı birdən arvadının boğazındakı bir padşahın yeddi ilinin xərcindən əmələ gəlmiş boyunbağıda öz əksini gördü. Bir qədər fikrə gedib dərindən bir ah çəkdi. O saat öz mehribanı işi başa düşüb qolunu şahın boynuna salıb dedi:

– Ey ədalətli şahım, niyə belə dərindən ah çəkirsən, nə olub, allaha şükür, camaat ki, bizdən çox razıdır.

Tərkiman şah dedi:

– Ey məhbubum, dərdin birini bilirsən birini bilmirsən. Elə mənim də çəkdiyim xalqın dərdidir. Mən indi başa düşdüm ki, çox qocalmışam. Mənim bir neçə illik ömrüm qalıb. Bir övladımız olsaydı, bizdən sonra o xalqı dolandırardı. Arvad dedi:

– Kişi, allah kərimdi, istəsə olar.

Onlar burda qalmaqda olsunlar, indi də sizə bir az şahın bağbanından danışım.

Bu bağban ömrünün çoxunu şahın gülşən bağçasında keçirmişdi. Buna görə də şah onun xətrini çox istəyirdi. Bağban da çox qocalmışdı ona baxmayaraq yenə də bağa baxan o idi. Günlərin birində bağban gecə yatdığı zaman gördü ki, bir adam başının üstünü kəsib deyir:

– Qoca kişi, hasarın dibində bir alma ağacı bitib, onu oradan çıxart, apar çarhovuzun sol tərəfində basdır, ona yaxşı qulluq et, o alma ağacı mətləbrüzyədir. Çox keçməz o alma ağacı yekələnər və bir alma gətirər. O almanı dər apar şaha ver.

Qoca kişi sərsəm qalxıb heç kəsi görmədi və bir qədər fikrə gedib yuxusu dağıldı, durub alma ağacını axtarmağa başladı və tapıb deyilən kimi əməl etdi. Çox çəkmədi, ağac böyüyüb bir dənə alma gətirdi. Qoca bağban şükür-sənasını yerinə yetirib almanı budaqdan üzüb, gətirib şahın imarətinə daxil olub başına gələn əhvalatı şaha nağıl edib almanı təqdim etdi. Şah almanı götürüb bağbana bir qədər qızıl ənam etdi. Bağban razılıq edib çıxıb getməkdə oldu. O saat şah arvadını hüzuruna çağırıb almanı iki yerə bölüb bir hissəsini özü, bir hissəsinin də arvada verib mətləbini söylədi. Müxtəsəri deyək ki, bir qədər vaxt keçəndən sonra Dilaramiçəng hamilə oldu. 9 ay, 9 gün, 9 saat, 9 dədqiqə, 9 saniyə tamam olan kimi qadın yükünü yerə qoydu. Bir oğlan uşağı oldu. Bütün şəhər əhli toplanıb şaha gözaydınlığına gəldilər. Şah da həmin gün şah sarayında böyük bir ziyafət düzəldib xalqı qonaqlığa çağırdı. Nə ki şəhərdə dükan, bazar, yeməkxana və çayxana var idi orada yeməklər pulsuz satıldı. Bir neçə gündən sonra camaat yığılıb uşağa ad qoymağa gəldilər. Çox söhbətdən sonra uşağın adını Sam qoydular. Uşaq dayəyə verildi. Belə-belə uşaq böyüməyə başladı. Müxtəsəri deyək ki, uşağın 8 yaşı tamam olan kimi onu mollaxanaya qoydular. Bir neçə bilici molla uşağa dərs deməyə başladı. Vaxt gəldi keçdi Sam on yeddi yaşa doldu. O çox bilici, çox güclü oğlan idi.

Günlərin birində uşağın əlindən mollalar şaha şikayətə getdilər ki, Sam daha bizim sözümüzə baxmır. Şah o saat Samı hüzuruna çağırıb oğluna nəsihət verməyə başladı. Sam şahın qarşısında diz üstə çöküb atasına cavab verdi:

– Atayi-mehriban, mənə mollalıq əl vermir, çünki bizim şəhərdən başqa, sarayda 40 molla var. Bir iş olsa bunların özünə düşməz, bəs mən nə edərəm?

Şah soruşdu:

– Oğul, bəs sənə nə iş, nə sənət əl verər?

Sam cavab verdi:

– Mənə pəhlivanlıq xeyirli sənət olar. Bu sənət xeyirlidir.

Şah oğlunun sözünü yerə salmayıb, o dəm əmr elədi ki, ona pəhlivanlıq dərsi keçilsin. Bəli, bir neçə vaxt da ona pəhlivanlıq dərsi keçdilər, ta ki Sam 19 yaşa çatdı. Günlərin bir günündə Sam gəzə-gəzə gəlib gülşən bağına çıxdı. Orda bir qədər dolanıb alma ağacının altında dincəldi. Yatıb yuxuya getdi. Bir qədər yatandan sonra bir də gördü ki, başının üstündə bir nurani dərviş durub deyir:

– Oğul, dur bu badəni nuş elə.

Sam deyir:

– Dərviş baba, o badə bizə layiq deyil. Atamız icazə vermir içək.

Dərviş dedi:

– Oğul, bu badə o badələrdən deyil. Bu sevgini sevgiyə yetirən badələrdəndi.

Oğlan, badəni alıb nuş elədi, dedi:

– Ağa dərviş, yandım bir çarə.

Dərviş şəhadət barmağının arasını göstərdi.

– Oğul nə görürsən?

Sam dedi:

– Uzaq yollar, bir şəhər.

Dərviş dedi:

– Oğul, daha nə dörürsən?

Oğlan dedi:

– Bir imarət, içində də bir gözəl qız görürəm.

Dərviş dedi:

– Oğul, o qızı sənə buta verirəm, səni də ona. Çox keçməz ona yetişərsən. O qız Cəm şəhərinin padşahı Cəmşidin qızı Məsləhət xanımdı. Çox çəkməz ki, sevgilinə yetərsən.

Oğlan bihuş üzü üstə yerə yıxıldı. Oğlan yatmaqda olsun, sizə xəbər verim bağbandan. Qoca bağban yavaş-yavaş gəlib oğlanı bu halda gördü. Bağban öz-özünə düşünür: "Şükür sənə ya rəbbi, bədbəxt bu almanı özü verdi, özü də aldı." – deyib birbaşa getdi şahın hüzuruna, əhvalatdan şahı hali eylədi. O dəm oğlanı özü halda imarətə gətirdilər. Nə ki, molla, həkim varsa ora toplandılar. Biri dedi dəli olub, biri dedi qudurub. Biri dedi bunun duası məndədi. Bu vaxt bir təbib gəlib dedi:

– Bunun xəstəliyini məndən başqa heç kim başa düşməz.

Təbib oğlanın vəznindən bərk sıxan kimi oğlan gözünü açıb gördü ki, nə ki molla, təbib varsa, hamısı bura toplanıb. O saat təbib dedi:

– Oğul, haran çox bərk ağrıyır, mənə de, mən müalicə edərəm.

Bu sözddən sonra Sam bir saz istədi. O saat ona bir saz tapıb verdilər. Sam götürüb gərək təbibə nə dedi:

Ay təbib, əl vurma, haqqı sevərsən,  
Nə xəstəyəm, nə də yaralıyam mən.  
Bir ala gözlünün fərağındayam,  
Pünhanı eşqindən saralıyam mən.

Təbib dedi:

– Oğul, mən ki, sənin sözündən bir şey başa düşmürəm, nə demək istəyirsən? Sən ki, xəstəsən.

Sam dedi:

– Təbib haqq ilə danış, mən xəstə deyiləm. Qulaq as gör nə deyirəm.

Oldum bir gözəlin payi-bəstəsi,  
Həm yar ənisuru, dil şikəstəsi.

Qəmin barkeşi hicran xəstəsi,
Nə qədər vətəndən aralıyam mən.

Təbib dedi:

– Oğul, başa düşmürəm, açıq de.

Bir tərəfdən günü keçmiş bir qarı dedi:

– Doğrudu, siz həkimsiz, mollasız, siz başa düşməzsiz, amma mən yaxşı başa düşürəm. Rəhmətlik kişi ilə mən də belə olmuşdum. Oğul, sən de görüm harada gördün qızı və nə təhər rücah oldun?

Mənə rücah oldu aləm-vağyadə,
Pirimin dəstindən nuş etdim badə,
Məsləhət ərz etdi, ey Sam şahzadə,
Diyari-Cəmşidin maralıyam mən.

Söz tamama yetdi. Bütün camaat Samın dərdindən hali oldu. Bir neçə gün qalandan sonra Samın ürəyində eşqin dəryası təlatüm elədi, o dözə bilməyib yola düşməyi qərara aldı, anasının hüzuruna gəlib getmək üçün görək necə icazə istədi:

Ana, Cəm şəhərinə qılıram güzar,
Tərk edib ölkələr, ellər gedirəm.
Fələyin tədbiri beləymiş mənə,
Qürbət vilayətə yollar gedirəm.

Anası Dilaramiçəng oğlunun getməsinə razı olmayıb dedi:

– Oğul, bəyəm baban sənin getməyinə razıdırmı?

Sam anasının cavabında dedi:

Böyük şah babamnan qıllam iltimas
Əfv etsin, hüzrundan oluram xilas.
Zənburun şanına meyl etsə məkəs,
Od tutar ahundan çöllər, gedirəm.

Anası dedi:

– Oğul, bu qədər Məcnun kimi nalə çəkmə, bizə yazığın gəlsin.

Anasının cavabında Sam görək nə dedi:

Ana, Samın dərdi əllilər, yüzlər,
Sinəmdə alovlar, atəşlər, közlər.
Sevdiyim Məsləhət yolumu gözlər,
Car edər çeşmimdən yollar, gedirəm.

Söz tamam oldu, anası ilə öpüşüb görüşdü. Anası izin verib dedi:

– Oğul, get uğurlar olsun.

Sam vidalaşıb babasının hüzuruna gəldi, görək babasına nə dedi:

Ey şahi-ədalət, hakim-vilayət,
Abad olmuş ölkən, el şən qalasan.
Ağ-eyvan otaqlar, yanı bağçalar,
Həsrətin çəkdiyim gülşən qalasan.

Seyrangahım olan dağınan daşlar,
Yanır sinəm üstə narı-atəşlər.
Nigaran qoyduğum yarı, yoldaşlar
Həftələr, həm aylar, il şən qalasan.

Tərkiman şah dedi:

– Oğul, hara getmək istəyirsən və kimin yanına gedirsən?

Atasının cavabında görək Sam nə dedi:

Təklif etmiş Samı bir mələkzadə,
Cəmşidin şəhrinə o hökmü badə,
Dəmadəm sevdiyim gələndə yada,
Odur göz yaşım da sel, şən qalasan.

Sam sözlə dediyim kimi, atasına dillə də dedi, getməyinə icazə istədi. Şah bir qədər fikirdən sonra oğlunu yaxına çağırıb üz-gözündən öpüb icazə verdi və bir neçə nəsihət verdi:

– Oğul, bu uzaq yoldu, nə qədər istəyirsən, qoşun, qızıl götür, sənə lazım olar.

Sam razı olmayıb bircə at istədi, bir də pəhlivanlıq libası. O dəm şah əmr eylədi ilxıdan bir yaxşı at, bir də polad libas gətirdilər. Sam göy polada qərq oldu, atın zilkətini yeddi yerdən bər-

kidib ata süvar oldu, babası ilə vidalaşıb yola düşməkdə olsun, bütün şəhər əhli, at minməyi bacaran atına süvar olub hamısı Samın başına toplandı. Şeypur, balaban çala-çala Samı yola salmağa başladılar. O qədər getdilər ki, az qaldılar sərhəddən çıxsınlar. Sonra hamısı bir-bir Samnan öpüşüb-görüşüb dedilər:

– Get, Sam, yaxşı yol, uğurlar olsun.

Sam tək tənha yola düşdü, o qədər at sürdü ki, Qeys dağı deyilən dağı aşdı, atasının torpağından çıxdı. Atın başını çəkib əyləndi. Duman, çiskin hər tərəfini bürüyən zaman aldı görək Qeys dağına nə dedi:

Yazın mövsümündə bahar əyyamı,
Müntəzir gözləyir mahalı dağlar.
Açılan bənövşən, gülün, nərgizin,
Şəbnəmlər çəkibən mahalı dağlar.

Hər dağdan ucadı Qeyisin dağı,
Mərdlər məskənidi sol ilə sağı.
Abi-zəmzəm suyu, kövsər bulağı
Dərdlərə dərmandı bahalı dağlar.

Səndə hasil olur iyidlər kanı,
Səngərlər, qalalar onun məramı.
Nəçün incidirsən şahzadə Samı,
Sinəm yaralı bəy halı dağlar.

Sözünü tamama yetirib Sam yenə yoluna davam etməkdə oldu. O qədər at sürdü ki, bir də gördü tamam ayrı bir qəribə yerə çıxıb. O zaman Sam çox qəmginləşdi. Aclıq-susuzluq yavaş-yavaş ona kar elədi. Bir düz ilə gedirdi, amma bilmirdi həyana gedir. Müxtəsəri, bir gün gedib, günbatan zaman bir şəhərin kənarına çıxdı. Bilmədi neyləsin və harada axşamlasın. Çox gəzib dolanandan sonra gəlib dörd yanı böyük hasarla çəkilən bağın kənarına çıxdı. Öz-özünə fikir elədi ki, elə yaxşı oldu gəl bu bağın içinə bir təhər yol tap, gir bu gecə burada gecələ, həm də

at acdı, özüm cəhənnəmə at ac qalmasın. Nə qədər dolandısa, yol tapa bilmədi. Axırı atı cövlana gətirdi hasardan at quş kimi sıçradı, bağın o tərəfinə düşdü. Gördü ki, bu bağ çox qəşəngdi. Özü də gülşən bağdı. Qərəz, atdan sıçrayıb düşdü. Atın yəhərini belindən alıb, atı bağa buraxdı. Yəhəri başının altına qoyub yatan zaman bağban atın hay-harayına özünü yetirdi. Gördü ki, bir cavan oğlan ağayana dirsəklənib. Salam vermədən: – Əyə, balam, məyər bu bağ sənin dədəndən qalıb? Bu yekə nər heyvanı da güllərin içinə buraxıb xarab edirsən, – deyib bağban istədi ki, ata yaxın getsin.

Sam şahzadə dedi:

– A kişi bura bax, dəymə o allahın heyvanına. Qoy bir az otlasın.

Bağban istədi yenə atı tutsun. Sam cəld yerindən qalxıb bağbanın qolundan tutub elə sıxdı ki, bir də baxıb gördü ki, bağbanın süysünü sllanır. Tez əlindən yerə qoydu. Bağban özünə gələn kimi yalvardı, oğlanın əlinə, ayağına düşdü.

– Məni öldürmə, dədəmin baxçası ki, deyil, istəyirsən bir ay da burda qal.

Sam dedi:

– Ədə səsini kəs, çox uzunçuluq eləmə, başım ağrıyır. Ataların bir misalı var. Hələ eşitməyibsən? Atalar deyir ki, ac adamla əcəli yetişmiş danışar. Rədd ol mənim gözümdən oyana.

Bağban dalı-dalı çəkilib bir təhər özünə bir siçan yolu tapıb qaçdı. Özünü yetirdi bağ sahibinin yanına. Birinin üstə beşini də qoyub xəbər verdi.

Sam o yerə gəlib çıxmışdı ki, həmin şəhərin adına Enzənkan şəhəri deyirdilər. Enzankan şəhərinin hökmdarının adına Kavə deyirdilər. Kavə padşahın gözünün ağı-qarası bircə qızı var idi. Qızın adı isə Nəzakət xanım idi. Nəzakət xanımın imarəti bir az atasından aralı idi. İmarətin qabağında böyük bir gülşən bağça salınmışdı. Baxçanın ətrafı hündür və möhkəm hasar idi. Ancaq bircə qapısı var idi. Qapının açarı bağın bağbanında olar-

dı. Bağbandan başqa heç kəsin həddi yox idi ora getsin. Həmin bağban idi ki, Sama rast olmuşdu. Bağban özünü yetirdi qızın yanına. Başına gələn əhvalatı qıza nəql elədi.

Nəzakət xanım dedi:

– A qızlar, gəlin bir gedək görək o adam kimdi, nə işin sahibidir ki, cürət edib bağa girib?

Nəzakət xanımın başında qırx kəniz sona kəklik kimi cilvələnmiş bağa daxil oldu, bağbana dedi:

– A kişi, bəs hanı o adam?

Bağban dedi:

– Xanım, başına dönüm, bax o tərəfdədi.

Qız dedi:

– Kişi, bəs hansı tərəfi deyirsən?

Bağban dedi:

– Xanım, mən ora gedə bilmərəm, çünki xasiyyətinə bələdəm. Odu bax Səlim ocağı tərəfdə.

Qızlar bu sözə gülüşüb ocağa tərəf getməyə başladılar. Gördülər ki, bir oğlan yatıb, elə bil xudavəndi-aləm ilk qələmini bu oğlana çəkib. Qızların hamısı bir-birinin üzünə baxdılar. Xanım da baxdı, bir balaca özündə ağırlıq hiss etdi. Qızların hamısı onu başa düşdülər. Qızlardan biri dedi:

– Xanım, deyəsən bu oğlan şahzadədi ha.

Xanım dedi:

– Qızlar,mən də elə hiss edirəm.

Sonra isə o biri qız dedi:

– Xanım, gəlsənə onu oyadaq, görək bu oğlan nəçidi, kimdi?

Xanım dedi:

– Qızlar, yazıqdı qoy yatsın, ancaq bir kağız yazıb yanında qoyaq ki, bilsin, bu bağ sahibisiz deyil.

Qızlardan biri dedi:

– Xanım, nə yazaq ki, bu oğlana xoş gəlsin?

Nəzakət xanım görək nə yazmaq istəyir:

Xab içində yatan cavan şahzadə,
Gəl bizim ellərə, sor asta-asta.
Mən olum bir ahu, sən də ol səyyad,
Düşüb də peşimə var asta-asta.

Sən məni yandırdın eşqin dağına,
Hicran atəşinə, qəm fərağına.
Nə olar, bağban ol, könlüm bağına,
Dər sinəm üstünnən nar asta-asta.

Qızlardan biri dedi:

– Xanım belə sözdən bir şey çıxmaz, nə bilir sən kimsən, kimin qızısan?

Xanım dedi:

– Qızlar, yəni deyirsiz ki, məsələ aydın olsun. Yaxşı, deyərəm, ancaq bu sirr aramızda qalsın.

Hamısı söz verdi. Xanım arxayın oldu. Aldı xanım:

Şəhri-Enzankandı mənim məkanım,
Babamdı, hökmdar ey mehribanım.
Sənə qurban olsun Nəzakət xanım.
Sevmə məndən qeyri yar, asta-asta.

Söz tamam olub, kağızı oğlanın yaxasını açıb sinəsinin üstünə qoydular. Ancaq oğlanın heç xəbəri olmadı. Sonra isə qızlar getməkdə oldular. Nəzakət xanım qızların hamısına icazə verib dedi:

– Qızlar çıxıb getdilər dincəlməyə, ancaq Nəzakət xanım bir itiyi itmiş kimi dəli-divanə olub bilmirdi neyləsin. Öz-özünə fikir eyləyirdi, yarəbbi, mən nə eyləyim, mənim dərdimə kim əlac eyləyər. Sonra özgəyə deyərəm işin üstü açılar. Deməsəm səbri-qərarım tamamilə kəsilər. Ax, yarəb, sevgi dözülməz dərddir. Mən necə dayana bilərəm – deyib, yenə tək-tənha gəzməyə çıxdı.

Nəzakət xanım gəzməkdə olsun, indi bir az Sam şahzadədən qulluğunuza ərz eyləyim.

Samın nə qədər yatdığını deyə bilmərik. Amma sübhün meh küləyi yavaş-yavaş üzünə dəyib, oğlanı ayıltdı. Sam ayılan zaman əl atdı yaxasının düyməsini açdı. Balaca bir kağız əlinə keçdi. Oxuyub məzmunundan hali olub fikir elədi. Yarəb, bu kim ola bilər, məni bədbəxtlikmi tutub, yoxsa xoşbəxtlikmi, – deyib cəld durdu və atı yadına düşdü. İstəyirdi ki, atını axtarsın, gördü vəfalı atı başının üstünü kəsib ayağını yerə döyür. Cəld atı tutub, gözlərini sığallayıb, sonra isə öpdü:

– Atalar deyib ki, atnan arvada etibar olmaz. Ancaq mənim atım o atlardan deyil, çox etibarlı heyvandı, – deyib yenə gözündən öpdü, sonra isə ziltəngini yeddi yerdən bərkidib, yavaş-yavaş getdi. İstədi ki, bağdan çıxsın. Qulağına astadan səs gəldi. Ayağını saxlayan zaman nə gördü? Gördü ki, bir qızdı, amma nə qız, misilsiz bir gözəl. Seçmək olmaz, huridirmi, qılmandımı, yoxsa məlякdimi, tovuzdumu, on dörd gecəlik ay kimi şölə verir. Bu qızın hilal qaşları can almaqdadı. Bu qaşlardan bir ox açılıb Samın ürəyini xırda-xırda oymağa başlayan zaman eşq dəryası coşa gəldi, atın başını çəkib, aldı görək qızın belə dəli-dövran gəzməsinə nə deyir:

Səyahət eyləyən Nəzakət xanım,
Seyrangah sizindi, gəz qayıt indi.
Sən məni gətirdin xaki-payına,
Gəzib sinəm üstə, əz, qayıt indi.

Geymisən əyninə yaşıllar, allar,
Tər köynək altında tax hamayıllar.
Vurdun ürəyimə həbaşi xallar
Görsənir yaramdan vəz, qayıt indi.

Sənə qurban olsun Sami-beçara,
Tərahüm etginən mən tək naçara.
Olginən təbibim, qılginən çara,
Çək sinəm dağına xəz, qayıt indi.

Söz tamam olan zaman qız gördü ki, həmin oğlandı bu sözləri oxuyan. Oğlanın bu sözündən və zəhmindən qız yerində donub qaldı, çox həyalandı. Ancaq oğlan da həyalanırdı, həm iki cavanın ürəyində bir ovçudan ürkmüş quş kimi çırpınırdı. Ancaq oğlan qızın o hilal qaşlarından gözünü çəkmirdi. Bir qədər sükutdan sonra az qaldı ki, qızın ürəyi çatlasın. Özündən ixtiyarsız olaraq qız birdən dilləndi:

– Ay şahzadə, siz bizim baxçaya xoş gəlmisiniz. Ancaq icazəsiz bağa girdiyinizə görə günahkarsınız. O günahınızdan keçmək üçün gərək xanımdan üzr istəyəsiniz, – deyən zaman şahzadə Sam irəli yeriyib dedi:

– Xanım, mən bu yerə nabələd olduğuma görə sizdən üzr istəyirəm.

Hər iki cavan bir-birinə yaxınlaşıb əl tutdular, görüşdülər. Sonra isə hər ikisi utana-utana söhbətə başladılar. Bir qədər söhbətdən sonra qız bağbanı çağırıb dedi:

– Qonağın atını tut, sahmana sal, amma heç kəs bilməsin. Bağban Samın atını tutdu, amma gözünün altından oğlana çox baxırdı: öz-özünə dedi:

– "Bu nə hesabdır."

Qız dedi:

– Ədə, nə fikir edirsən? Sənə mən nə deyirəm yerinə yetir.

Bağban dedi:

– Xanım, mən bağbanam axı, mehtər ki, deyiləm.

Xanım dedi:

– Ədə, uzunçuluq eləmə, başa düşürəm ki, nə demək istəyirsən, səni razı edərəm, ancaq heç kəs bilməsin.

Bağban dedi:

– Xanım, nə işimə, dəvə gördün, izini də yox.

Atı çəkib apardı. Xanım isə Samın qolunu tutub öz imarətinə apardı. O saat kənizin birini çağırıb yemək şeyləri əmr etdi. Tez yemək hazır oldu. Süfrə layiqincə düzəldi. Samı Nəzakət xanım yeməyə dəvət etdi. Süfrədə Sam və bir neçə cavan qız, bir

də xanım əyləşdi, yemək-içmək başlandı, bağban özünü içəri verib süfrənin bir tərəfində əyləşdi. Bağbanın bu hərəkətinə xanım hirslənib dedi:

– Ədə, bağban, sənə kim icazə verdi ki, bura gəldin? Bağban dedi:

– Xanım, məni bağışlayın, mən o səbəbə gəldim ki, bizim qonaq deməzdi ki, bura nə təhər məmləkətdi ki, burada heç bir başı papaqlı kişi yoxdu elə hamısı qızdı.

Bağbanın bu sözündən hamı gülüşdü. Sonra yeyib-içib hərə öz işinə getdi. Bircə oğlanla qız qaldı. Yenə bir az söhbət elədilər, sonra axşam araya gəldi. Nəzakət xanım iki yer saldı, sonra isə araya pərdə tutdu. Oğlan pərdənin bu üzündən qız isə o biri üzündə yatağa girdilər. Ancaq ilan vuran yatdı, bunlar yatmadılar. Müxtəsər, ərz eliyim ki, bir neçə gün belə qaldılar. Hər cavanın üzündə bir həya pərdəsi var idi. Heç kim istəmirdi ki, bu həya pərdəsini üzündən götürsün. Bunların bu məsələsi belə qalmaqda olsun, indi keçək ayrı bir məsələyə.

Günlərin bir günündə Sam ilə Nəzakət xanım imarətin yeddinci qatında oturub, şəhərin mənzərəsinə baxırdılar, şirin-şirin söhbət edirdilər. Söhbət arasında qız soruşdu:

– Ey Sam şahzadəsi, sizin şəhərin mənzərəsi yaxşı olar, yoxsa bizim?

Sam bu suala cavab verməyib bir qədər də mənzərəyə təzədən baxdı. Gördü ki, bu şəhərin bir tərəfi böyük meşədi. Meşənin ətəyi ilə bir çay axır. Bir tərəfi isə dağdı. Dağın ən hündür yerində böyük bir qalaça tikilib. Çox gözəl və böyük qalaçadı. Əgər qalaçadan adam baxsa, bütün dünya insannarın ayağının altında görünər. Sam Nəzakət xanımın sualına cavab verdi:

– Xanım, sizin şəhər də yaxşıdı. Ancaq bizim şəhər də pis deyil.

Qız bir balaca gülümsəyib dedi:

– Siz hər halda öz şəhərinizə pis deməzsiniz. Şahzadə dedi:

– Əlbəttə, xanım, çünki hansı torpaq adamı yetirib, gərək adam o tor-torpağa nankorluq eləməyə. Xanım, bu söhbət öz yerində. Sən mənə de görüm o qalaça sənin babanınmı əlindədi? Bütün bu şəhəri gözəl göstərən bax o qalaçadı.

Qız fikrə gedib dərindən bir ah çəkdi, sonra başladı.

– Ey şahzadə, o qalaçanın tarixi çox uzundu. Söz ki, düşdü, mən söyləyim sən də qulaq as.

Şahzadə dedi:

– Hə, xanım söylə görək nə təhər, yəni uzundu?

Nəzakət başladı söhbətə.

– Ey şahzadə, o qalanın sahibinə Keyxan haramı deyillər. O haramı başına yüzlərlə minlərlə haramı yığıb orada məskən salıb. Onlar xalqa çox ziyan vururlar. Kimin malı, atı o dağın bir qulağına gedib düşsə, ondan yiyəsinə xeyir olmur. Bir də görürsən ki, gecə-gündüz şəhərə basqın eləyirlər. Əllərinə keçən şeyi buraxmırlar, evləri talayırlar. Nə ki yaxşı şey olsa götürüb aparırlar. Şəhərin ən yaxşı göyçək qızlarını şəhərdə qoymurlar. Hamısını aparıb o qalaya doldururlar. Gündüzlər dərviş, sail paltarında şəhəri gəzib, yeri bələdliyirlər, gecə isə oranı dağıdıb talan eliyirlər. Şahzadə dedi:

– Bəs baban bu işə nə deyir?

Qız dedi:

– Babam nə qədər qoşun çəkdirib, bir mümkün olmur.

Sam dedi:

– Hərgah mən oranı dağıtsam baban mənə nə verər?

Qız gülüb dedi:

– Nə istəsən?

Sonra dedi:

– Babam o haqda elə qərar çıxarıb ki, kim o haramını öldürsə, gözünün ağı-qarası bircə qızı... – utanıb başını yerə dikdi, sözün dalını demədi.

Oğlan dedi:

– Hə, xanım, utanmayın, sözünüzün dalını deyin görək.

– Sözümün dalını da siz başa düşün-deyib qız özünü ixtiyarsız oğlana söykədi.

Oğlan isə utana-utana qızın başını sığalladı dedi:

– Xanım, siz mənim ürəyimi xarab elədiniz. Mən sabah onun meydanına gedəcəm. Allah ya ona verər, ya mənə.

O gecəni də başa verdilər. Sabah açılan kimi Sam atını tələb elədi. Atı gətirdilər. Atın ziltəkini yeddi yerdən bərkitdi. Tərlan kimi ata sıçrayıb sonra üzünü Nəzakət xanıma tutub...

– Xanım, siz salamat qalın. Mən bu meydandan bəlkə qayıtmadım. Əməyinizi mənə halal edin – deyib, ata bir tazyana çəkdi. At yeldən yeyin, sudan iti getdi. Sam bir də gözünü açıb gördü ki, həmin qalanın meydanındadı. Atın başını çəkib əylədi.

İndi sizə xəbər verim, Keyxan haramıdan. Haramı gördü ki, meydanda bir cavan pəhlivan dayanıb, elə bil başına hava gəldi. Cəld atını minib meydana girdi. Hər iki pəhlivan meydanda üzbəüz dayandı.

Haramı dedi:

– Oğul, sən mənim adımı eşitmədinmi bura gəldin?

Şahzadə dedi:

– Elə sənin adını eşidib bura gəlmişəm.

Haramı dedi:

– Oğul, meydanın şərtini bilirsənmi?

Sam dedi:

– Nə şərtdi? Bu sən, bu da mən, ya allah sənə verər, ya mənə.

Haramı öz-özünə dedi: "Gəl bu cavan oğlana hərbə-zorba gəl: bəlkə qorxa, gedə, hayıfdı belə cavana qılınc vurmaq".

Sonra haramı qılıncı saz əvəzinə sinəsinə basıb dedi:

– Oğlan, hələ de görüm, sən haralısan və nəçisən?

**Aldı Sam şahzadə:**

Şəhri Qəndilqala mənim məkanım,
Səfərim Camədi, Keyxan haramı.
Bəhləmisən Qeysi hərə dağların,
Sanırmısan kəndin, bəyxan haramı.

**Aldı haramı:**

Kəndinə güvənib laf eləməynən,
Ey Qəndilqaladan gələn şahzadə.
İçərsən dəsdimdən əcəl şərbətin,
Ağlar əhvalına gələn şahzadə.

**Aldı şahzadə:**

Küsüb də kəndindən et məni dərkuş,
Ey sarsaq divana, kəndi kərəm huş,
Cəhənnəm mərgini sənə qıllam nuş.
Fayda verməz sənə qəvi xan, haramı.

**Aldı haramı:**

Mənim yurdum dağlar, daşlar bələnlər,
Saysız-hesabsızdı burda ölənlər.
Danışallar, söyləyəllər, biləllər,
Tarixdə ad qoydum əlan, şahzadə.

**Aldı şahzadə:**

Samın sədasından dağlar titrəşir,
Zərbi-sulətindən tab etməz bəşər.
Dünyanı səninçün mən qıllam məhşər,
Yazallar tarixdə duyxan, haramı.

**Aldı haramı:**

Sənin tək cocuqlar nə bilər cəngi,
Xofumnan unudar tiri-xədəngi.
Keyxan sınıdırıbdı hindi, firəngi,
Bivaris əlimdə ölən, şahzadə.

Söz tamama yetişdi, hər iki pəhlivan meydanda atlarını cövlana gətirib qarşı-qarşıya dayandılar. Keyxan haramı bir nərə çəkib dedi:

– Ey cavan oğlan, növbət sənindi, ya mənim?

Şahzadə dedi:

– Bizlərdə qayda budu, əvvəlcə növbəni düşmənə veririk.

Haramı dedi:

– Onda qalxanı çək başına.

Əmud endi Samın başına. Sam əmudu göydəykən vurub yerə saldı. Keyxan gördü əmuddan bir murad hasid olmadı, yenə bir dəli nərə çəkib dedi:

– Cavan, budu gürz gəldi.

Gürzdən də murad hasil olmadı. Qərəz, növbə gəldi Sama.

Hər iki qəhrəman silahlarından o silah qalmadı ki, işlətməsin. Müxtəsəri deyək ki, ustadın dediyinə görə səhər tezdən dava gedirdi. Elə bil ki, göyün üzünü bulud tutmuşdu. Hər tərəfi duman, toz bürümüşdü. Nərə səsindən, atların kişnəməsindən bir gurultu var idi ki, qulaq tutulurdu. Əmud, qalxan, gürz, qılınc, nizə bir-birinə dəydikcə göydən qığılcım, od tökülürdü. Sam az qaldı ki, haramının əlində həlak olsun. O, qılıncı Keyxanın harasından vururdu, polada dəyirdi. Gördü ki, olmayacaq, odur ki, haramının qolu yuxarı qalxanda qoltuğunun altından Rüstəmyana bir nərə çəkib elə bir qılınc vurdu ki, Keyxanın sağ qolu tamam bir saat göydə fırlandı yerə düşdü. Dalınca da elə bir qılınc vurdu ki, başı bədənindən beş qələm aralı düşdü, sonra isə geri dönüb qalan haramıların dağıntısını dağnan bir eləyib qalaçaya daxil oldu. Nə gördü? Gördü ki tamam iki padşahın xəzinəsinin qızılı buraya yığılıb. Sam burada qalmaqda olsun, indi sizə ərz eləyim şəhər əhlindən:

Bu şadlıq xəbəri bütün aləmə yayıldı. Enzingan şəhərində nə ki ayağı tutan vardısa, hərə bir xurcun, ya çuval götürüb özlərini qalaçaya yetirdilər. Bu qalaçada nə ki, qızıl, gümüş başqa şey var idisə, birini də qoymadılar. Çünki Samın belə əhdi vardı ki, əgər mən o qalaçanı alsam, orada nə olsa xalqa paylayacam. Elə də elədi:

İndi sizə kimnən xəbər verim, bu şəhərin padşahından. Padşah bu əhvalatı eşidən kimi əmr etdi öz imarətindən qalaçaya qədər nayandaz düzüldü, sonra dedi:

– O haramını kim öldürüb gərək mənim yanıma payandazın üstü ilə gəlsin.

Qərəz, elə də elədilər. Sam ta gəlib padşahın yanına çıxdı. Padşah Samı görcək durub alnından öpüb yanında əyləşdirdi. O saat şadlıq məclisi düzəldi. Bir neçə gün yeyib-içəndən sonra Samdan soruşdu:

– Oğul, indi bir de görüm sən kimsən və haralısan? Haradan gəlib hara gedirsən?

Sam haralı olduğunu, haraya gedəcəyini başdan-ayağa padşaha nağıl elədi. Şah məzmundan hali olan kimi bir adam göndərib qızını hüzuruna çağırdı. Nəzakət xanım yüz işvə-nazla imarətə daxil oldu. Ona yer göstərdilər. Xanım oturandan sonra şah Sama dedi:

– Oğul, bu mənim gözümün ağı-qarası bircə qızımdı. Qızımı bura çağırmaqda məqsədim budur ki, sən də məsələdən hali olasan.

Sam soruşdu:

– Ey qibleyi-aləm, ixtiyar sizindi, buyurun.

Padşah dedi:

– Oğul, mən belə əhd etmişdim ki, kim o haramını öldürsə, qızımı ona verсəyəm. İndi bu qızım, bu da sən.

Sam razı qaldı. Həmin gündən toy tədarükü görülməyə başlanıldı. Ustadın deməyinə görə qırx gün, qırx gecə toy oldu, qızı verdilər oğlana. Bir neçə gün Sam Nəzakət xanımın yanında qaldı. Ancaq Sam onunla bacı-qardaş kimi rəftar edirdi. Qız məsələni başa düşə bilmirdi. Bilmirdi ki, bu nə işdi.

Günlərin birində Nəzakət xanım imarətdə oturub qəmgin halda gəmisi dəryaya qərq olan kimi fikrə getmişdi. Sam Nəzakət xanımı bu halda görüb eşq dəryası cuşa gəldi, aldı görək nə dedi:

Gəldim mehman oldum, səni şad edim,
Oyan bu qəflətdən dur, ala gözlüm.
Peykan kipriklərin tökər qanımı,
Çək sinəm üstündən vur, ala gözlüm.

Sənin gül camalın dağlar laləsi,
Tökülən dəstindən dost piyaləsi,
Camalın şöləsi, gözün alası,
Salıbdı aləmə şur, ala gözlüm.

Samı bənd elədi zülfü muyuncan,
Sərv də olmaz qamətincə, boyunca.
Saxlaram nişanə dünya durunca,
İsrafil çalınca sur, ala gözlüm.

Söz tamam oldu. Nəzakət xanımın könlünü alıb, məsələdən hali elədi. Sonra isə dedi:

– Əziz mehribanım, mən öz sevgilimin dalınca gedirəm. Əgər bu yoldan sağ-salamat qayıdaramsa, onda gəlib səni də apararam.

Qız razı olub dedi:

– Sam şahzadə, indi ki, gedirsən, babamnan icazə al, ondan sonra get. Sənə uğurlar olsun. Mən ölənə kimi səni gözləyib, sənin günlərini sanayacam.

Sam həmin gün durub gəldi Kavə şahının yanına. Bir qədər söz-söhbətdən sonra məsələdən onu hali elədi, getməyə icazə istədi.

Kavə şah bir qədər fikrə gedib dedi:

– Oğul, Cəm şəhəri çox uzaq uoldadı, çox da uzaqdadı və qorxuludu. Çünki o şəhərnən bizim şəhərin arasında böyük bir təhlükə var. O təhlükə həm bizə ziyan verər, həm də Cəm padşahına. O elə bir şeydi ki, ona güc çatmaz, çünki o tilsim kimi bir işdi. İndi ona görə mən sənin getməyini məsləhət görmürəm.

Sam gördü ki, şah ona icazə vermək istəmir. Sam işi belə görəndə şaha dedi:

– Ədalətli şah icazə ver, sinəmə bir xanə gəlib deyim, siz qulaq asın.

Şah icazə verdi. Sam götürüb görək nə dedi:

Başına döndüyüm ədalət şahım,
Belə itaətdə yalan deyiləm.
Əhdi-peyman etdim nazlı yar ilə.
Mən ki ilqarıma yalan deyiləm.

İraqdı yollarım, rahımdı[1] uzaq,
Canansız bu cahan mənimçün duzaq.
Bəndə işi deyil, bəs necə pozaq,
Peymanıma xilaf olan deyiləm.

Belədi Sam üçün haqqın ətası,
Mövlamın dəstindən nuş etdim tası.
Şahi-Cəmşid Nazlı yarın atası,
Unudub eşqindən solan deyiləm.

Şah gördü ki, istər-istəməz şahzadə gedəsidi, dedi:

– Oğul, gedirsən get, mən bir şey demirəm, ancaq mən belə məsləhət görürəm ki, sən tək-tənha getməyəsən. Özünnən bir neçə min qoşun və sərkərdə aparasan, çünki yol çox qoruxuludu.

Sam şahzadə şahın cavabında dedi:

– Ədalətli şah, əgər qoşun götürsəydim, atamın sərkərdələrindən güclü qoşun götürərdim. Çünki bu əziyyəti gərək tək mən çəkəm: qoşunun günahı nədi ki, mənimlə bərabər əziyyət çəksin? Mənə sən yalnız icazə ver, gedim.

Şah dedi:

– Oğul, get, sənə yaxşı yollar olsun, ancaq Nəzakət xanımdan da izin al.

Sam şahla öpüşüb görüşdü, sonra Nəzakət xanımın yanına getdi. Yol tədarükü gördülər. Yola düşən zaman Nəzakət xanım dedi:

– Əzizim şahzadə, uzaq səfərə gedirsən, ola bilsin ki, deyiləsi sözün olar. Ancaq məndən gizlətmə. Çünki mənim ürəyim sənə bağlıdı. Mənim borcumdu sənin sözlərini yadımda saxlayım.

Nəzakət xanım bir balaca yana çevrildi, ala gözlərindən yaş tökdü. Şahzadə Nəzakət xanımı belə dözülməz dərddə qoyub getməyə peşimançılıq çəkirdi. Ancaq nə çarə. Üzünü Nəzakət xanıma çevirib.

---

[1] rah – yol

– Mənim məhbubum, ağlamaqdan keçib, bir neçə söz demək istəyirəm. Bu sözlərimi yadından çıxartma. Hərdənbir məni yadına sal – deyən zaman Nəzakət xanım gözələrini silib dedi:

– Hə, şahzadə, de görüm nə demək istəyirsən?

Nəzakət xanımın cavabında Sam dedi:

– Sənə bir neçə söz tapşırıb gedirəm.

Götürdü görək nə dedi:

Sağın seyrəqibdən alagöz sonam,
Var olsun ellərin, aman, əl aman!
Həsrətindən didarını görməyə,
Qurbanı dillərin, aman, əl aman!

Sən eşqə müntəxibsən, mənə məhbub,
Yaraşır zər-ziba tər əndama xub.
Ayda bir, ildə bir yazginən məktub,
Var olsun ellərin, aman, əl aman!

Yad eylə hərdənbir, bəzən də Samı,
Kövhəri qəflətdən süzəndə Samı,
Məcnun tək divanə gəzəndə Samı,
Öldürür tellərin, məni əl aman!

Söz tamam oldu. Nəzakət xanımla vidalaşıb tək-tənha yola düşdü. Gecə-gündüz at sürdü, neçə ay, gün, yol gedib axırı gəlib bir düzə çıxdı. Bir də gördü ki, at əyləndi. Başını qaldıran saat nə gördü? Gördü ki, böyük qalaça kimi yerdə bir künbəz var, ancaq bunun üsdə böyük adama bənzər ifritə durub. Seçə bilmədi ki, bu pəhlivandı, ya İfritə. İstədi ki, atını sürüb getsin, həmin İfritə səsləndi:

– Ey pəhlivan, hara gedirsən?

O, bir at minib şahzadənin qabağını kəsib dedi:

– Əgər mənim əlimdən salamat qurtarsan, gedərsən.

Sam nə qədər yalvarıb-yaxardısa olmadı. Axırı məcbur oldu ki, dava eləsin.

Öz-özünə fikirləşdi ki, ölməyə də mərdlik lazımdı – deyib öz atını cövlana gətirdi. Meydanda onunla üzbəüz dayandı, dedi:

– Növbə sənindi, ya mənim?

Həmin İfritə pəhlivan dedi:

– Ey cavan oğlan, meydanın şərtini bilirsənmi, yoxsa elə-belə davaya başlayaq.

Sam şahzadə dedi:

– O ki, meydanın şərtini xəbər alırsan, indi qulaq as, gör nə deyirəm?

Aldı Sam şahzadə görək nə dedi:

Kim mənim cəngimə etsə ictinab,
Ruzigarı siyah tiri-tar olar.
Ya Əli, deyibən nərə çəkəndə,
Surəti zərbimdən o, bimar olar.

Aldı cavabında İfritə:

Anla sözüm adam oğlu, dər güzəşt,
Səndə bir nəsiyyət yadigar olar.
Məğrurluq eyləmə, zor düşər sənə,
Xoş xəyal dərrakə dağıdar olar.

**Aldı Sam:**

Səceyi-Rüstəməm, etməm ictinab,
Sahibi-nizəyəm, mən Əfrasiyab.
Pirim imamətdi, o şiri ərəb,
Ziynəti dilimdə aşikar olar.

**Aldı İfritə:**

Mənə gəlmə hərbə-zoru, bilmişəm,
Rüstəmi ləngahari bilmişəm.
Cəmi cümlə hər məşhuri bilmişəm.
Çağır kimlər sənə pərəskar olar.

**Aldı Sam:**

Mənə qüdrət verib xaliqi-sübhan,
Müxənnət kimsəni kor eyləsin nan.
Sam da rəzmidə cəhl edən zaman
Heybətimdən şəmşir abidar olar.

**Aldı İfritə:**

Canda bir sahiridi cahan içində,
Yanarsan alovda, suzan[1] içində.
Bir baği-bağçada üryan içində,
Əgər sağ qalasan, iftixar olar.

Söz tamam oldu. Hərbə-zorbadan sonra hər iki pəhlivan əl atdı qılınc-qalxana. Bir qədər vuruşmadan sonra Sam gözünü açıb gördü ki, bir bağın içində üryan yatıb. Cəld durub hərləndi ki, yol tapsın, ancaq mümükün olmadı.

Müxtəsəri deyək ki, otuz doqquz gün bağda üryan hərləndi. Nə ki ürəyi istəyir, bu bağda tapılırdı. Qırxıncı gün gördü ki, həmin meydanda o İfritəylə dava eliyir. Qırx gün də keçən kimi yenə gözünü açıb özünü bağda gördü. Bir neçə belə qırx günlər gəlib keçməkdə olsun. Sam get-gedə zəfəran kimi saraldı. Sonra isə xəstə düşüb yatan zaman öz-özünə fikir elədi. Mən ki özbaşına bu azara düşməmişdim. Məni bu yola dəlalət eləyən kişi var, gəl o kişini çağır, bəlkə sənə köməyi dəydi. Həmin vağyasında gördüyü kişini görək necə çağırdı və nə dedi:

Sən gördün məni qəflətdə,
Aşikar ol, ərən bir gəl.
Mərd igidlər ağasısan,
Dilələri verən bil gəl.

Ərənlərin şahı sənsən,
Yerin, göyün mahi sənsən.

---

[1] suzan – alov, od

Şahın qərərgahı sənsən,
Camalı xoş vuran, bir gəl.

Sam cidadı xanasından,
Yağmur qarın havasından.
Olmamışdan anasından,
Lalə, nərgiz dərəm, bir gəl.

Söz tamam olan kimi Sam gördü ki, həmin qoca kişi başının üstündə durub. Sonra Sama dedi:

– Oğul, məni nə üçün çağırdın? Özünə agahdı. Səni tilsimə salıblar. Sənin bu tilsimdən çıxmağının bircə əlacı var, o da öz fərasətindən asılıdır. Bu gün otuz doqquzuncu gündü. Səhər yenə səni İfritə öz meydanına aparacaq, onda sən bacar onun əlindəki qılıncı vur yerə sal, cəld o qılıncı götür, öz qılıncı ilə onu vur. Əgər öz qılıncı olmasa ona ölüm yoxdu. Sonra isə al, sənə bir lələk verim. O lələyi yandıran kimi bir quş gələr sənin yanına. Həmin quş sənin sözündən çıxmaz. Nə istəsən, o yerinə yetirər. Oğul, daha mən getdim, ancaq dediklərim yadından çıxmasın.

Sam daha qoca kişini görmədi. Öz-özünə "Əcaba, mən başa düşmürəm bu möcüzədi, ya yuxudu, yoxsa bu bir sirdi, ya rəb nə ola səhər fürsət əlimə keçə, mən bu zindandan qurtaram" – deyə fikirləşdi, bir də gördü yenə öz atının belində həmin İfritəynən üz-üzə meydanda dayanıb. Öz-özünə ürək verib, cəld İfritənin qılıncını vurub əlindən yerə saldı. Tez həmin qılıncı götürdü. İfritəyə elə bir qılınc endirdi ki, başından dəyən qılınc bir qədər də torpağa işlədi. İfritəyə dedi:

– Ey məlun, bir hərəkət elə görüm.

İfritə istədi ki, hərəkət eləsin, bacarmadı, ondan bir inilti, gurultu qopdu ki, gəl görəsən. Yıxılan zaman Sam gördü ki, ifritə iki şaqqadı, çəksən bir-birindən oyan-buyan olmaz. Sam başını qaldırıb gördü əyə, burada nə bağ var, nə baxça, nə hasar, heç bir şey yoxdu. Elə hamısı bu İfritəynən yox olub.

Müxtəsəri deyək. Sam yenə yoluna davam etməkdə oldu. Bir neçə gün at sürdü. Gəlib bir yaxşı mənzərəli yerə çıxdı, dedi:

– Burada bir az dincəlim, atın da yorğunluğu çıxsın. Sonra gedərəm.

Atdan düşdü, atı ota buraxıb özü dincələn zaman, həmin qoca kişinin verdiyi lələk yadına düşdü. Tez lələyi yandıran zaman bir murğu quşu güllə kimi özünü yetirib onun yanına düşdü. Sam quşu əlinə alıb başını sığalladı. Sonra öz-özünə fikir eləyirdi ki, yaxşısı budu gecə-gündüz yolunu gözləyən sevgilisi Məsləhət xanıma bir məktub yazım, gəlməyimi bilsin, həm də başıma gələn əhvalatdan da hali olsun. Kağız-qələm götürüb görək murğu quşu ilə nə demək istəyir:

Murğu, yetir mənim ərzi-halımı,
Nazlı Məsləhətə bir xəbər eylə.
Aylar, illər həsrətini çəkdiyim,
O yarı afətə, bir xəbər eylə.

Sonra görək başına gələn əhvalatdan daha nə yazdı:

Şəruru can ilə oğradım cəngə,
Məğlub eyləyibən gətirdim təngə.
Güc verdim şəmşirə, tiri-xədəngə
Qoşuldum höcətə bir xəbər eylə.

Qələm, davat olar mahir əlində,
Çox çəkdim zalımın qahir əlində.
Sam da sarsışmadı sahir əlində
Zor gəldim zillətə, bir xəbər elə.

Söz tamam oldu. Məktubu qatlayıb sanlı murğunun ayağına bərk bağladı. Murğunu əldən buraxdı. Sonra durub atın ziltəngini bərkidib yola düşdü.

Sam gecə-gündüz yol getməkdə olsun, indi sizə bir balaca Məsləhət xanımdan nağıl eləyim. Məsləhət xanım gecə-gündüz sevgilisi Samın yolunu gözləyirdi. Qız fikrə getdi. Samı necə röyada görmüşdü, gözünün qabağına gəldi. Az qaldı ki, dəli-divanə olsun. Bilmirdi ki, nə eləsin. Sonra durub öz baxçasına gəzməyə çıxdı. Baxçada tək-tənha elə gəzirdi ki, elə bil bir itiyi

itirib onu axtarır. Hər gülün, hər çiçəyin, hər ağacın yanından ötən zaman elə bil ki, otlar da baş qaldırıb onun ürəyinə təsəlli verirdi ki, ey nazəndə, az dərd çək, yaman günün ömrü az olar. Tezliklə sevgilin Samla görüşərsən. Bu fikirləri elədikcə yavaş-yavaş onun ürək döyüntüsü azalır, təsəlli tapırdı. Bu xəyal içində hərlənən zaman bir də gördü ki, başının üstündə bir şaqqıltı qopdu. Məsləhət xanım ovcundan hürkmüş ahu kimi hürküb bağın açıq bir yerinə çəkilmişdi. Birdən bir quş ona sarı uçub onun çiyninə qondu. Qız istədi ki, quşu əliynənə vurub yerə salsın, bir də gördü ki, bu quşun ayağına bir kağız bağlanıb. Kağızı quşun ayağından açıb oxudu, az qaldı ağlı başından çıxsın. Sonra öz-özünə təsəlli verib, məktubu bir də oxuyub məzmunundan hali oldu. Quşun gözlərindən öpüb bağrına basdı. Quşu götürüb imarətinə gəldi. Dərin fikrə gedib dedi:

– Tutalım ki, bir neçə günə Sam şahzadə gəldi, mən onu necə qarşılayım? Mən bu işi bacara bilmərəm. Özgə də onu kim tanıyır, kim bilir ki, şahzadədirmi, yoxsa Rüstəm-Zala nisbət bir pəhləvandımı. Yalnız bir sirdən bircə mən haliyam, heç kəs bilmir. Elə yaxşısı budu ki, götürüb şah babama bir məktub yazım. Bu sirri bilmir, həm sirr açılsın, həm də məsələdən hali olsun, görək axırı nə təhər olar. Məsləhət xanım qələm-kağız götürüb Cəmşid şaha bir məktub yazdı, qasidə verib tapşırdı ki, babamın özünə verirsən. Qasid "bə çeşm" deyib yola düşməkdə olsun, indi sizə ərz eləyim Cəmşid şahdan.

Cəmşid şah vəzirini yanına çağırıb dedi:

– Qoca vəzir, sən bir ağıllı adamsan. Bu işə bir tədbir tək.

Qoca vəzir diz üstə çöküb dedi:

– Qibleyi-aləm, ixtiyar sizindi, buyurun görək mənim üçün nə qulluq. Mən sizin əmrinizə hazıram.

Şah dedi:

– Vəzir, əgər bir neçə günə bir tədbir görməsək, o tilsimli İfritə şəhərin altını üstünə çevirib, qızı aparacaq.

Qoca vəzir dedi:

– Ədalətli şahım, o haqda biz bir il bundan əvvəl bütün şəhər əhlinə elan etmişdik ki, kim ifritənin tilsimini qırıb, onu öldürərsə, qız onunkudu.

Bu zaman qasid içəri daxil olub naməni padşaha təqdim etdi, getməyinə icazə istədi. Şah icazə verdi. Qasid baş əyib çıxıb getdi. Şah məktubu açıb oxuyan zaman gördü ki, birinci beytdə qız yazıb Ədalətli şah, birinci sizə gözaydınlılığı verirəm. İkincisi isə qulaq asın, görün nə demək istəyirəm.

Şah baba, təşəkkür haqqı xudaya,
Arzusun çəkdiyim yar bizə gəldi.
Gövhər xəcil olmuş nadan əlində,
Bulundu sərrafı var bizə gəldi.

Cəmşid şah məktubu yarımçıq qoydu, üzünü vəzirə tutub dedi:

– Qoca vəzir, mən bir şeyi başa düşmürəm. Mənim qızım dəli olub, yoxsa divanə? Onun sözündən belə gəlir ki, onun uzaq yerdən yarı gəlib. Bir də mənim qızım uzaq yarı nə görüb ki, özünə yar tapsın.

Vəzir dedi:

– Ey şahım, səbr eylə, bir kağızın dalını oxu, görək nə demək istəyir. Şah yenə oxumağa başladı.

Qəvvas çəkər dəryaların dürrünü,
Bilmək olmaz yaradanın sirrini.
Dəf etmiş başından Camın şirini,
Bulundu sərrafı, var bizə gəldi.

Şah sevindiyindən ayaq üstə qalxıb qoca vəzirin yanına gəldi, dedi:

– Tarix elə qəhrəman yetirdi ki, İfritəyə qalib gəldi.

Qoca vəzir dedi:

– Ey şahım, qız uşağı çox şeytan olar. Bizim qanuna görə o pəhlivan kimsə, ona yar deyir.

Şah namənin gerisini oxudu:

Butamın dəstindən yazılmış namə,
Didəm vadar olmuş selinə namə,

Məsləhət qurbandı belə həmdəmə,
Çəkdir aləmlərə car, bizə gəldi.

Şah məktubun məzmunundan hali olan kimi dedi:

– Vəzir, durmağın yeri deyil. Bu saat hər yerə xəbər elə ki, şəhərin hər bir küçəsinə, hər yerinə elan yazıb vursunlar ki, uzaq yerdən bir pəhlivan gələcək. O pəhlivan İfritəni öldürüb bizim şəhərə gəlir. Bütün nə ki, şəhərdə ayağı yer tutan varsa hərə bir at minib həmin pəhlivanı qarşılamağa getsin. Özümüz də gedək.

Qoca vəzir "baş üstə" – deyib çıxdı. Müxtəsər deyək ki, bir neçə saata şahın əmri yerinə yetirildi. Nə ki, ayağı yer tutan varsa hərə bir ata süvar olub şəhərin kənarına toplandılar. Qoşun əyləndi, onların dalınca padşah, vəzir, vəkil hamı birdən yola düşüb xalq Samı qarşılamağa getdilər. Şəhərdən bir qədər kənar getmişdilər bir də gördülər ki, bir pəhlivan gəlir, gəl ki, görəsən. Elə bil Rüstəm-Zaldı, iyirmi yaşında bir cavandı. Gözəllikdə Yusifə taydı. Oğlan bunları görən kimi atdan sıçrayıb yerə düşdü. Ədəb-ərkanla padşaha – bütün camaata salam verdi.

Padşah qoca vəzirə dedi:

– Vəzir, deyəsən bu oğlan şahzadədi.

Vəzir dedi:

– Elə görünür.

Sonra şah dedi:

– Vəzir, bir soruş görək həmin oğlandımı?

Vəzir dedi:

– Oğul, hansı şəhərdənsən? Səfərin haradı?

Sam dedi:

– Qəndilqala şəhərinnənəm. Cəm şəhərinə gedirəm.

Vəzir dedi:

– Oğul, Cəm şəhərinə kimin yanına gedirsən?

Şahzadə dedi:

– Cəmşid şahın.

Qoca vəzir dedi:

– Oğul, həmin Cəmşid şah budu.

Sam şahzadə o saat əllərini döşünə qoyub diz üstə çökdü. Şah onu tez yerindən qaldırıb alnından öpdü. Sonra isə ata minib bərabər şəhərə yola düşdülər. O saat şadlıq məclisi quruldu. Bir neçə gün yeyib içməkdə oldular. Kef məclisində Sam öz dərdini qoca vəzirə açıb nağıl etdi.

– Qoca vəzir, mən Qəndilqala şəhərindən qılınc vura-vura ta ki Cəm şəhərinə Məsləhət xanımdan ötrü gəlmişəm. İndi sən bilirsən nə etmək lazımdır?

Qoca vəzir dedi:

– Oğul, sən arxayın ol, mən tezliklə işi sahmana salaram.

Qoca vəzir işi sahmana saldı, toy tədarükü görüldü. Cəmşid şah qırx gün, qırx gecə toy vurudurub Məsləhət xanımı Sam şahzadəyə verdi. Sam bir neçə ay burada qaldı. Günlərin birində Cəmşid şahla söhbət edən zaman atası Tərkiman şah yadına düşdü. Bütün imarət başına hərləndi. Şah onu bu halda görüb yaxın gəldi, soruşdu:

– Oğul, olmaya xəstələnmisən? Rəngin qaçıb.

Sam dedi:

– Xeyr, qibleyi-aləm, əgər icazə versəniz deyərəm.

Şah dedi:

– Oğul, de görüm.

Sam götürüb görək nə dedi:

On səkkiz ay qürbət ellər içində
Üzür qıl şah baba, Kana gedim mən.
Gözü yolda ata-ana qoymuşam,
Yad edib intizar xana gedim mən.

Mərd igid qürbətdə olarmı xəstə,
Nə eşqi-damaqda, nə də həvəsdə.
Nə danışmaz, gülməz, sanki şikəstə,
Əhv elə, çatmışam cana gedim mən.

Samın həsrətidi tamamən ellər,
Çəkəllər arzumu, aylar və illər.

Dağlarda ruzigar, dərədə sellər,
Üz çevirib bir ümmana gedim mən.

Söz tamam oldu. Sam diz üstə çöküb dedi:

– Qibleyi-aləm, mən vətəndən çıxalı on səkkiz aydı. On səkkiz ayda bilmirəm atam, anam necə dolanırlar. Atam çox qocadı. Mən istəmirəm qoca vaxtı mənim dərdimi çəksin. O səbəbdən gərək mənə izin verəsən.

Şah bir qədər fikrə gedib dedi:

– Oğul, mən də razı deyiləm sənin bu qədər burada qalmağına. Çünki sən elə yersiz adam deyilsən, özün bir şahzadəsən. Madam ki, şahzadəsən, öz vətəninə getməyə razılıq verirəm. Ancaq oğul, bir neçə gün də qal, sənin getmək tədarükünü görüm.

Elə də razılaşdılar. Tədarük görülüb hazır olan zaman şah Samı hüzuruna çağırıb dedi:

– Oğul, mən səni tək buraxmayacağam, bir neçə sərkərdə qoşunla getməlisən.

Buna Sam da razılaşdı. O gün qırx qatır, dəvəyə Məsləhət xanımın cehizi yükləndi. Cəm şəhərindən gəlib Enzengah şəhərinə çatdılar. Sam sərkərdələri hüzuruna çağırıb dedi:

– Qoşunu burada dayandırmaq lazımdı.

Şəhərin kənarında çadırlar quruldu, qoşun əhli dincəlməkdə oldu. Sam öz sevgilisi Məsləhət xanımın yanına gəlib bir gün icazə aldı.

Məsləhət xanım dedi:

– Mən bilirəm sən Nəzakət xanımı gətirməyə gedirsən. Əgər o qız məndən gözəl olsa, məni qafilə qatır ilə geri qaytararsan.

Sam bir söz demədi. Başladı getməyə. Sam getməkdə olsun. O yerə gəldi ki, Nəzakət xanımı orada görmüşdü. Baxdı ki, qız yoxdu. Bağbandan Nəzakət xanımı soruşdu:

Bağban dedi:

– Əhd eliyib ki, Sam gəlməyincə mən öz imarətimdən çölə çıxmayacağam.

Sam Nəzakət xanımın imarətinə getdi, qız onu görəndə qəşş eləyib yerə yıxıldı. Nəzakət xanımın üzünə Sam şahzadənin göz

yaşı düşəndə ayıldı, gördü başı Sam şahzadənin dizi üstündədi. Hər iki cavan görüşdü, öpüşdü.

Sam dedi:

– Ey mehribanım, niyə zəfəran kimi saralmısan?

Nəzakət xanım aldı görək ona nə cavab verdi:

On səkkiz ay, şamsız xanə içində,
Ağlayıb qalardım, zar səndən ötrü.
Leyli-nahar həsrətini etdiyim,
Arzular çəkirdim yar, səndən ötrü.

**Aldı Sam şahzadə:**

O ala gözlümün gözü yoldadı,
Bağda heyva, nar var, yar səndən ötrü.
Əhsən bağbana olsun afərin,
Becərib bəsləmiş bar, səndən ötrü.

**Aldı Nəzakət:**

Geyib sarmanıbdı tirmə atlası,
Dərdin həvəskarı, gözəllər xası.
Könlümün istəyi, dil təmannası
Oturdum qeyrətlə, ar səndən ötrü.

**Aldı Sam şahzadə:**

Xeylidi vəsmindən mənəm aralı,
Hicrinə baş əyən əlbət saralı.
Qəlbimin ceyranı, könlüm maralı,
Kəs məni qurbana yar, səndən ötrü.

**Aldı Nəzakət:**

Baxmadım kimsənin qəddi-qamına.
Çünki dalmış idim Leyli halına.
Nəzakət xanımın xoş iqbalına,
Günəş sayə saldı kar, səndən ötrü.

**Aldı Sam şahzadə:**

Qüdrətdən sürməni gözə yetirən,
Büküb tellərini üzə yetirən,
Hicranlı cismini gözə yetirən,
Şahzadə Sam kimi var, səndən ötrü.

Söz tamam oldu. Müjdə getdi qızın atası Kavə şaha ki, gözün aydın olsun. Sam şahzadə gəldi. Şah qızı Nəzakət xanımı və Sam şahzadəni yanına çağırıb dedi:

– Oğul, başına gələn əhvalatı nağıl elə.

Sam başına gələn əhvalatı ona nağıl elədi. Sonra dedi:

– İcazə verin biz gedək.

Həmin gün tədarük görüldü, yüz qatar dəvəyə cehiz yükləndi. Nəzakət xanımı gətirdilər Məsləhət xanımın yanına. Hər iki gözəl öpüşdü, görüşdü. Sam şahzadə sərkərdələri çağırıb yola düşmək əmri verdi. Qaflə-qatırı yükləyib Qəndilqala şəhərinə yola düşdülər.

Qəndilqala şəhərinin iki yolu vardı. Biriynən altı aya getmək olardı, biriynən üç aya. Sam üç aylıq yolunan gedirdi. Atasının torpağına az qalmışdı çata. Bir böyük qalaçaya rast gəldi. Onların qabağını bir pəhlivan kəsdi, adına Təhri deyərdilər. Soruşdular:

– Nə üçün yolu kəsmisən?

Dedi:

– Burdan keçən torpaqbasdı verib keçməlidi.

Sam dedi:

– Ey ərəb, gəl incitmə, bir qədər qızıl, gümüş verim, izin ver gedək.

Ərəb cavab verdi:

– Mana uzunçuluq lazım deyil, ya hamısını qıracayam, ya da adambaşına torpaqbasdı verəcəksiniz.

Müxtəsəri, hər iki pəhlivan meydana atıldı. Axırda belə qərara gəldilər ki, kim məqlub olsa, cah-cəlal onun olsun.

Sam dedi:

Ey ərəb, güvənmə hərbə-zoruna
Sana fayda verməz fellər ağlarsan.
Bir gəliş gələrəm ruzigarına
Yanar əhvalına ellər, ağlarsan.

**Aldı Təhri:**
Ey cocuq, üz qıl mənəm bir əzab,
Düşübdü payıma qullar ağlarsan.
Mən oldum anadan o şiri əzab,
Salaram gözünə tellər, ağlarsan.

**Sam dedi:**
Mənəm bir mövlanın kəmər bəstəsi,
İsminə can fəda dil şikəstəsi.
Arasti səfərlərlə keflər dəstəsi,
Keçibən qılıncdan illər, ağlarsan.

**Aldı Təhri:**
Duyurlar ismimi ürəkdə xali,
Baş qoyub qarşımda olasan hali.
Görən igidlərin artar zavalı
Qərq oldu ümmana sellər, ağlarsan.

**Sam dedi:**
Sama mövla nəzər barı çəkildi,
Qüdrətindən yadigarı çəkildi.
Uzun illər ahı-zarı çəkildi,
Ey yazıq, başına küllər ağlarsan,

**Aldı Təhri:**
Təhrinin tərifin alimlər bilir,
Duymasan isminə qəlbindən dilir.
Gəl, olsa sənin tək neçə min dəlir,
Sanaram dağlarda yerlər, ağlarsan.

Söz tamam oldu, hər iki pəhlivan əl atdı qılınca. Təhri qışqırdı, növbət Sama yetişəndə qoltuğunun altından bir qılınc vurub öldürdü. Qoşun cah-cəlalla Sama yetişdi. Sərkarın biri açarları Sama verdi. Sam bir-bir qapıları açdı, nə qədər ləli-cəvahir var idisə qoşuna payladı.

Təhrinin sərkərdələrindən biri dedi:

– İki qoca zindandadır. Onları burax.

Sam gördü zindanda olan qocalar öz atasıynan onun vəziridi. Üz-gözləri tüklənib. Sam onlarla görüşüb öpüşdü.

Sam soruşdu:

– Atayi-mehriban, nə səbəbə təxti-tacı buraxıb zindana düşmüsən?

Atası dedi:

– Səni axtarmağa çıxmışdım. Birdən hər yeri duman basdı, bizi tutub bu qalaçaya gətirdilər.

Atası ilə vəziri götürüb öz şəhərlərinə gəldilər. Şadyanalıq keçirildi. Sam şahzadəyə qırx gün, qırx gecə toy oldu. Onlar murad hasil elədilər.

**Yaradıcısı: El şairi Təhlə Novruz**
**Söyləyəni: Aşıq Ülfət**

## ZƏRQAM ŞAH

Sizə kimdən danışım, nədən söyləyim, Səməngan şəhərindən və onun hökümdarı Xarəzm şahdan. Bu şahın o qədər var-dövləti var idi ki, dəryalar mürəkkəb olsa meşələr qələm, yenə də onun hesabına çatmazdı. Amma övlad sarıdan Allah ona kəm baxmışdı. Ömrünün çoxunu keçirsə də özündən sonra var-dövlətinə sahiblik edəcək bir varisi yox idi. Şah qocaldıqca bu dərd onu əyir, fikir, qəm-qüssə ona rahatlıq vermirdi.

Şah bir dəfə arvadı Bənzərbanunu yanına çağırıb taleyindən şikayətlənir və dərdini onunla bölmək istəyir. Bu vaxt şahın otağına bir dərviş daxil olur. Şah dərvişi görüb çox qəzəblənir və onu buraya kimin buraxdığını soruşur. Dərviş cavab verir ki, özüm gəlmişəm, həm də xeyrxahlığa gəlmişəm.

Şah deyir:

– Mən şah, sənsə qapı-qapı gəzən dərviş, mənə nə xeyr verə bilərsən?

Cavabında dərviş deyir:

– Mən sənin çatışmayan payını verməyə gəlmişəm.

Şah bu sözləri eşidən kimi dərvişə deyir ki, əgər sözlərin doğru olsa, səni dünya malınnan qane edərəm.

Dərviş gülümsünüb cavab verdi ki, mənə heç bir dünya malı lazım deyil, mən pay alan yox, pay verən dərvişlərdənəm. – Bundan sonra əlini cibinə atıb bir alma çıxartdı və şaha uzadıb dedi: - Al bu almanın qabığını soy, ilxındakı kəhər madyana ver, özünü də iki yerə böl, yarısını özünə götür, yarısını da Bənzərbanu xanıma ver. Axşam araya gələndə hər ikiniz almanı yeyib baş yastığa qoyarsınız. Sizin bir oğlunuz, almanın qabığını yeyən madyanın isə gözəl bir qulunu doğulacaq. Uşağa Zərqam, madyanın qulununa isə Taryel (Tanrı yel) adı verərsiniz. O quluna yaxşı qulluq edərsiniz, çünki Zərqamı ondan başqa heç bir at gəzdirə bilməz.

Bunu dedikdən sonra dərviş şahdan soruşur:

– Bəs, o yandan gələn adamı otağa kim buraxdı?

Xarəzmşah tez dönüb dərvişin göstərdiyi tərəfə baxır, heç kəsi görmür. O geri çevrilənə qədər dərviş qeyb olur. Şahla arvadı təəssüflə əllərini dizlərinə vururlar. Ancaq iş-işdən keçmiş, olan olmuşdu.

Hökmdarla arvadı dərvişin dediklərinə əməl edirlər. Aylar keçir, günlər dolanır, Bənzərbanunun gözəl bir oğlu olur. Sarayda şadlıq başlanır. Uşağın adını Zərqam qoyurlar. Qulunluqda olan madyanın da gözəl bir qulunu doğulur. Zərqamın tərbiyəsini dayələrə, quluna qulluq etməyi isə xüsusi mehtərlərə tapşırdılar.

Zərqamı dayə tərbiyəsindən sonra məktəbə qoydular. O, on beş yaşına qədər məktəbdə təlim-tərbiyə aldı. Onun ağlına, gözəlliyinə hamı heyran qalmışdı.

Günlərin birində Zərqam bağda gəzmək üçün atasından icazə alır. Bağda o qədər gəzir ki, yorulur və gəlib bulaqda əl-üzünü yuyub dincəlir. Burada onu yuxu aparır. Zərqam bir az yatandan sonra onu yuxudan oyadırlar. Oğlan görür ki, qarşısında göy əmmaməli, nurani bir dərviş dayanmışdır.

– Oğul, nə yatmısan, aç gözünü, bax , gör nə görürsən?

Zərqam cavab verir ki, uzaq yollar.

– Daha nə görürsən?

– Bir şəhər, şəhərdə böyük bir ev və güləfirəngidə dayanmış bir qız.

– O qız Seystan hökmdarı Əmir Sultanın qızı Əfruzu Cahandır. Onu sənə, səni ona göstərdim, get, inşallah taparsan.

– Oğul, o gələnlər səninmi yoldaşlarındır?

Zərqam dönüb dərvişin göstərdiyi tərəfə baxdı, ancaq heç kəsi görmədi. Bu tərəfdən də dərviş yoxa çıxdı. Bunu görən Zərqamın ah-naləsi göyə ucaldı, sinəsi alışıb yandı. Təsəlli üçün Ənbiyaya görək götürüb nə dedi:

Əzizməşşan küllü kanı yaratdı,
Necə xəlq eylədi "Yasin- Əmməni".
Arif məclisində qoyaq araya,
Ya imtahana çək, ya sına məni.

İcad oldu iki dürrülə məkan,
Camalın şövqündən buldu lamə kan.
Vadeyi-səhrada edən laməkan,
Ya pirim, ya birim, ya sinəm məni.

Anlasan, sözümün var a mayağı,
Baş alıb sinəmdən vərəm ayağı.
Görüm ürcah olsun vərəmə yağı,
Etməsin, Zərqamam, yası nəm məni.

Söz tamama yetdi. Zərqamın ağlı başından çıxdı. Huşunu itirib bulaq başında yerə uzandı. Üç gün ağzından köpük daşdandı, ancaq özünə gəlmədi.

Gəl eşit bu tərəfdən Xarəzm şahdan və Bənzərbanudan. Bunlar Zərqamın yox olmasını eşitdikdə elə bil ki, başlarına od ələndi, ah-nalələri ərşə dayandı. Şah əmr etdi ki, hamı tökülüb onun oğlunu axtarsın. Hər tərəfə adam göndərildi. Nəhayət, qulluqçular Zərqamı bağdakı bulağın üstündə yatmış gördülər və şaha xəbər apardılar. Oğlunun tapıldığını eşidən kimi anası özünü bulağın üstünə yetirdi. Zərqamın dünyadan xəbərsiz yatmasını görəndə elə bil ki, başına od ələndi. Saçından üç tel ayırıb sinəsinə basdı və görək Zərqamı necə oyatdı.

Kimlər çaldı layla yatdın,
Dur qəflətdən oyan, Zərqam.
Könlümdə qəmlər oyatdın,
Dur qəflətdən oyan, Zərqam.

Çeşmim yaşı axar hər an,
Misali seli firavan.
Gözün aç, mən sənə qurban,
Dur qəflətdən oyan, Zərqam.

Bənzərbanu könlü qəmli,
Ürəyim dərdli, ələmli.

Sinəm yara, gözüm nəmli,
Dur qəflətdən oyan, Zərqam.

Anasının belə qəmli-qəmli oxuması elə bil ki, Zərqama yeni bir qüvvət verdi. O, gözlərini açıb ətrafına baxdı. Başının üstündə gözü yaşlı anasını gürdükdə sinəsi alışıb yandı, göz yaşı yüz yerdən töküldü. Hamı onun başına nə iş gəldiyini öyrənməyə çalışdı. Zərqam anasına cavab verdi ki, sözlə desəm dilim yanar, dərdim böyükdü, mənə bir saz gətirin. Tez Zərqama bir saz gətirdilər. Zərqam sazı alıb görək anasına necə cavab verdi:

Başına döndüyüm mehriban ana,
Arzu edib Seystan deyə gedirəm.
Atası hakimdi küllü İrana,
Bir Əmiri - Sultan deyə gedirəm.

Siz bilirsiz əlif qəddim bükdüyüm,
Ceyhun kimi çeşmim yaşın tökdüyüm.
Leyli-nahar həsrətini çəkdiyim,
Nazlı yara qurban deyə gedirəm.

Butamın camalı olmuş ayına,
Tən edir səmanın doğmuş ayına.
Zərqam şah ümidvar olmuş ayına,
Bir Əfruzu Cahan deyə gedirəm.

Söz tamama yetişdi. Bildilər ki, onunku sevgidi. Şahzadəni götürüb evə gətirdilər. Bənzərbanu xanım bildi ki, nə olur-olsun oğlu butasının dalınca gedəcəkdir. Arada ayrılıq, uzaq yollar, yad ölkə var, ölüm-itim ola bilər. Oğlunu bu uzaq və qorxulu səfərdən saxlamaq üçün çarələr axtarmağa başladı. Lakin bir qərara gələ bilmədi. Bənzərbanunun qaravaşları içərisində çox təcrübəli və ağıllı bir qulluqçu var idi. Ana həmin qulluqçunu yanına çağırtdırdı, dərdini ona açdı və tədbir istədi. Qulluqçu çox götür-qoydan sonra belə bir qərara gəlib dedi:

– Zərqam şahzadənin ən çox sevdiyi onun atı Taryeldir. O, səfərə mütləq öz atı ilə çıxacaq. Xanım, sən özünü xəstəliyə qoy və həkimə əvvəlcədən tapşır ki, guya həmin atın ürəyindən çəkilən kababdan başqa sənin dərdinin əlacı olmadığını söyləsin. Bundan sonra sən atı kəsdir. O, atsız heç yana getməz. Məsələni mən əvvəlcədən həkimə anladaram. Sən Zərqamın özünü həkim dalınca göndər. Çalış ki, həkim məsləhət verən vaxt Zərqam sizin yanınızda olsun, həkimin dediklərini özü eşitsin.

Qulluqçunun məsləhəti Bənzərbanunun çox xoşuna gəldi, ona ənam verdi. Sonra yatağa düşüb özünü xəstəliyə vurdu. Zərqam anasının xəstələnməsini eşidib tez onun yanına gəldi. Bənzərbanu oğlunu görüb daha da zarıdı və onu həkim dalınca göndərdi. Tezliklə həkim gəldi və görülmüş tədbir əsasında bildirdi ki, Taryel kəsilməlidir. Elə bil ki, Zərqam yatmışdı, oyandı. Ona bir nida endi ki, bunlar hamısı bəhanədi, onu yoldan saxlamaq üçündür. Lakin hələlik üstünü vurmadı.

Xarəzmşah əhvalatdan xəbər tutdu. Əmr etdi ki, atı meydana çəkib boğazlasınlar. Tez nökərlər atı meydana çəkdilər, yıxıb ayaqlarını bağladılar. Sanki at dil bilirdi, onun gözlərindən yaş axmağa başladı. Bunu görən Zərqamın ürəyi dözmədi. Atasından xahiş etdi ki, ciyərparəsi olan Taryellə vidalaşmağa ona icazə versin. Şah oğlunun sözünü yerə salmadı. Zərqam atın ayaqlarını açdı, onu yəhərləyib belinə atıldı və atasından getmək üçün halallıq istədi. Zərqam sözlə dediyini atasına yaxşı anlatmaq üçün aldı görək sazla üç kəlmə nə dedi:

Babacan, lütf eylə saxla əlini,
Səfəri-səmənd et səvarə məni.
Fələk qoymur muradıma yetişəm,
Yenidən eylədi avarə məni.

Minib də Taryeli düşdüm iraha[1],
Əzbərdi fikrimdə o fikri taha.

[1] irah, əslində rahdır, farsca mənası "yol" deməkdir.

Dərdimi söylədim bir adil şaha,
Dedi gəl dərmana, gəz, ara məni.

Zərqam da sığınmış şahı- xubana,
Çeşmim yaşı döndü dərya-ümmana.
Abadan könlümü etmə virana,
Yaradan kəm yazmış güzara məni.

Söz tamama çatdı. Şah anladı ki, Zərqamı heç nə yoldan döndərə blməz, bu saat atı sürüb gedəcək sevgilisinin arxasınca. Əlacı hər tərəfdən kəsildi. Şəri vəziri Zərqamın üstünə iltimasa göndərdi. Vəzir şahzadənin yanına gəldi, çoxlu nəsihətlər etdi, lakin bu nəsihətlərin Zərqama heç bir təsiri olmadı. Şahzadə atın başını götürüb getmək istəyir. Bunu görən vəzir görək ona nə deyir, cavabında Zərqam nə söyləyir:

**Vəzir:**

Başına döndüyüm, şahzadə Zərqam,
Səfər etmə Seystanın şəhrinə.
Ora bir diyardı gedən qayıtmaz,
Tamamən qərq olur qəmin bəhrinə.

**Zərqam:**

Başına döndüyüm, ay Şəri vəzir,
Vacib budu Seystana gedim mən.
Doğrasalar parə-parə sərbəsər,
Eyləsələr şanə-şanə gedim mən.

**Vəzir:**

Yaxarlar atəşə, nara əl-aman,
Doğrayarlar hazar para əl-aman,
Mənsur tək çəkərlər dara əl-aman,
Uğrayarsan sahirlərin sehrinə.

**Zərqam:**

Pasiban sanaram bu icadı mən,
Güvəndiyim minbir ismi, adı mən.

Axtarmıram sehri-tilsim, cadu mən,
Həsrət olan nigarana gedim mən.

**Vəzir:**

Şəri vəzir sənə söylər sözünü,
Yandırma cismimdə eşqin közünü.
Əmr edibən oydurarlar gözünü,
Həvəs olma bu şeytanın dəhrinə.

**Zərqam:**

Zərqamın sinəsi qəm ilə avər,
Tər-təzə sevdiyim misali nobər.
Telləri müsəlsəl, qəddi sənubər,
Bu müəttər ol reyhana gedirəm.

Söz tamama çatır, düşmənin ömrü tamama çatsın. Zərqam atını sürüb anasının yanına gəlir, südünü ona halal etməsini anasından iltimas edir. Ananın gözləri yaz buludu kimi dolur, əlləri əsə-əsə oğlunun boynunu qucaqlayıb deyir:

– Oğul, get, südümü sənə halal edirəm, xeyirli uğurlar diləyirəm, muradına çatasan.

Zərqam şah anası ilə vidalaşıb düşdü yolun turabına. O günaxşama qədər at sürdü. Axşamüstü bir laləzarlığa çatıb atdan endi. İstədi ki, bir az atı otlasın, özü də dincəlsin. Bura elə bir çəmənlikdi ki, hər tərəf yamyaşıl, gül bülbülə, bülbül gülə sevgi oxuyurdu. Bu laləzarlıq Zərqamın yadına öz tərəflərinin çəmənliklərini saldı. Dönüb arxaya – gəldiyi yollara baxdı. Uzaqdan vətən dağlarını gördü, dərin bir ah çəkdi. Götürüb üç kəlmə sözlə vətəni belə yad elədi:

Tifilkən vətəndən oldum dərbədər,
Yandı əhvalıma ellər, ağladı.
Anamın qəlbində qəhr ilə kədər,
Car etdi çeşmindən sellər, ağladı.

Bağban olan lətif bəslər bağları,
Alma, heyva, qönçə tər budaqları.
Gözdən itdi bizim yerin dağları,
Seyrangah səhralar, çöllər ağladı.

Mənim dərdim hamı dərddən ziyada,
Məcnunam Leyliyə, gəzim səhrada.
Pirimin əlindən içmişəm badə,
Zərqam Seystana, yollar ağladı.

Şahzadə təzəcə sözünü bitirib qəmgin halda oturmuşdu ki, yol ilə bir tacir karvanının Səməngana tərəf gəldiyini gördü. Yavaş-yavaş karvana doğru getdi. Gördü ki, karvan başçısı öz həmyerlisi, adlı-sanlı tacir Xoca Səyyaddır. Xoca da Zərqamı tanıyıb hal-əhval tutdu. Görək Xoca üç kəlmə sözlə şahzadədən səfərini necə soruşur və Zərqam cavabında nə deyir:

**Xoca Səyyad:**

Başına döndüyüm, şahzadə Zərqam,
Oğul, nə yanadı güzarın sənin.
Sinəm şan-şan oldu, didələrim nəm,
Oğul, nə yanadı güzarın sənin.

**Zərqam:**

Ərz edim dərdimi, ay Xoca Səyyad,
Şəhri-Seyistandı güzarım mənim.
Sinəm qəm bazarı, könlümdü bərbad,
Xəzanda laleyi üzarım mənim.

**Xoca Səyyad:**

Səbəb nədi Seystana vararsan?
Ağlayıb da yana-yana vararsan.
Ya təbibə, ya loğmana vararsan,
Oğul, nə yanadı güzarın sənin.

**Zərqam:**

Könlüm bir şüşədi,qəlbim ayinə,
Əfruzi Cahandı mələk sayinə.
Əmiri sultanın düşüm payinə,
Belə qət olubdu bazarım mənim.

**Xoca Səyyad:**

Səyyad da yol çəkməz qaradan sənə,
Yanıram betərin Saradan sənə.
Getginən yar olsun yaradan sənə,
Oğul, nə yanadır güzarın sənin.

**Zərqam:**

Üzüm ərənlərin xakı turabı,
Eşqilən nuş etdim şərabı, abı.
Yarın şahmar zülfü, qulac tənabı,
Zərqamam, əhatə ehzarım mənim.

Söz tamama yetdi. Zərqam sazla dediyi kimi sözlə də Xoca Səyyadı başa salır ki, öz butasının dalınca Seystana gedir. Xoca Səyyad ona uğur diləyir, halal-hümbət eləyib ayrılırlar. Hərə öz yoluna davam edir. Zərqam şah o gecəni səhərə kimi at sürür, işıqlaşanda bir dağın ətəyinə çatır, amma yolu itirir. Dağı qatı bir duman bürümüşdü, göz-gözü görmürdü. Bir tərəfdən yorğunluq və aclıq, bir tərəfdən də dağın qara dumanı Zərqama imkan vermir ki, yolu tapsın. Şahzadənin əli hər yandan üzülür, burada götürüb dağa üç kəlmə görək nə deyir:

Səfərim uzaqdı, yolumdu iraq,
Sərbəsər sərində duman, a dağlar.
Belə gördüm, əl götürdüm dünyadan,
Gəlmir sağlığıma güman, a dağlar.

Sənin tər sinəndi gözəl yaylağı,
Marallar binəsi, mərdlər oylağı.
Şərabən təhridi Zəmzəm bulağı,
Gətirir xəstəni həm cana dağlar.

Zərqamın sinəsi yardan yaralı,
Kəsilər qərarı düşsə aralı.
Sürmə ceyranları, dəstə maralı,
Ahulara məskən, məkan, a dağlar.

Zərqam şah sözünü bitirdi, ağasının adını çağırdı və yarın eşqilə atını mahmızladı. Elə bu vaxt duman çəkildi. Zərqam şah yolu tapdı. O, bir xeyli gedəndən sonra gözəl bir çəmənliyə çatdı. Yazın bu çağında çəmənlikdə hər şey oxuyurdu. Gül bülbülü, bülbül gülü səsləyirdi. Çəmənlikdə cənnət suyu kimi saf bir bulaq poqquldayırdı. Zərqam şah həmin bulağın üstündə atdan düşdü. Bulaqda əl-üzünü yuyub həm özü su içdi, həm də atını suvardı. Atı otlamaq üçün çəmənliyə buraxdı, özü isə bulağın yanında uzanıb dincəlməyə başladı.

Zərqam şah dincəlməkdə olsun, gəl eşit büt şahının kürəkəni Şəmmasdan. Həmin gözəl çəmənlik Şəmmasın yağı qoruğu idi. Şəmmas güləfirəngidə oturub ətrafı seyr edirdi. Bir də gözü yağı qoruğunda otlayan ata sataşdı. Bildi ki, at sahibsiz deyil, atın sahibi hər kimdisə bulağın üstə olacaq. Öz cəlladlarından ikisinə əmr etdi ki, gedib atı və onun sahibinin başını gətirsinlər. Cəlladlar Zərqam şahın başının üstünü aldılar. Zərqam şah soruşdu ki, onlara nə lazımdı. Cəlladlar ona hücum çəkib qışqırdılar ki, sən nə cürətlə Şəmmasın qoruğuna girmisən. Şahzadə işi belə görüncə tez cəlladların hər ikisini tutub qulaqlarını qopardı və Şəmmasın yanına qayıtmalarını tapşırdı. Şəmmas cəlladları bu vəziyyətdə görəndə cəhənnəm maliki kimi zəbanə çəkdi. Əmr etdi ki, onun döyüş filini gətirsinlər. Özü başdan-ayağa polad libas geyinib filə süvar oldu. Öz qoşunu ilə bərabər yağı qoruğuna doğru hərəkət etdi. Zərqam şaha çatan kimi hərbə-zorba gəlməyə başladı. Şahzadə də ona hərbə-zorba ilə cvab verdi. Görək Şəmmas Zərqama necə hərbə-zorba gəlir, Zərqam ona necə cavab verir:

**Şəmmas:**

Uzaq yerdən gələn növcavan oğlan,
Nuş elə dəstimdən ağı məndə var.

Rüzigarın siyah oldu tamamən,
Ömrünə dəhşətli yağı məndə var.

**Zərqam:**

Ey ərəb, gəl düşmə mənim peşimə,
Ərənlərin var növrağı məndə var.
Güclü mal verərəm, gələr xoşuna,
Eyləyərsən gər sorağı, məndə var.

**Şəmmas:**

Çox görmüşəm sənin kimi nadanı,
Dəstimdən nuş edib mərgi-badamı.
Baş gedər cəsəddən, qalar bədəni,
Yığılan leşlərin dağı məndə var.

**Zərqam:**

Çox da laf eyləmə çək dabanını,
Mənə vermə zavallılar sanını.
İçənlər görmədin insan qanını,
Paylayan şərbət tək saqi məndə var.

**Şəmmas:**

Şəmmasın əlinə düşmüsən yaman,
Qurtarsan cəngindən yaşarsan haman.
Çəkər həsrətini, ağlayar anan...
Bir xəzanam, vurar bağı məndə var.

**Zərqam:**

Zərqam bağ becərib yetər bağına,
Sığınmış ərənə, girdigarına.
Yaxar cismin cəhənnəmin narına,
Od-alovun min sayağı məndə var.

Söz tamama yetişdi, hər ikisi də başa düşdü ki, sözdən bir kar hasil olmayacaq. Əl atdılar qılınca, qalxana, gürzə. Yenə də bir şey olmadı. Hər ikisi yorulmuşdu, dincəlməyi qərara aldılar. Qət etdilər ki, qalibi güləşlə müəyyən etsinlər. Zərqam bir tərəfdə, Şəmmas da öz qoşunu ilə başqa tərəfdə dincəlirdi. Şəmmas başa düşürdü ki, Zərqamla güləşə bilməyəcək, yıxılacaq. Buna görə öz qoşununa tapşırdı ki, mən Zərqamla güləşə başlayanda hamınız birdən tökülərsiniz üstünə və qollarını bağlayarsınız. Bir qədər dincəldikdən sonra Şəmmas əmr etdi ki, cənk təbili çalınsın. Hər iki hünərvər meydana yeridi, bellərindəki zəncirlərdən yapışdılar. Şəmmasın bir işarəsi ilə qoşun Zərqamın üstünə töküldü, əllərini zən- cirlə bağladılar və arabanın üstünə uzatdılar.

Bu tərəfdən Şəmmas büt şahına xəbər göndərdi ki, o məndən xudapərəst[1] başı istəmişdi, mən bütöv özünü gətirmişəm, toy tədarükünü görsün. Padşaha xəbər çatan kimi çox xoşhal oldu, məclis düzəltdi və padşahlıq taxtını da meydana gətirtdi. Padşah istəyirdi ki, xudapərəstin ölüm qabağı keçirdiyi halları görsün və bundan nəşə alsın. Eşit büt padşahının qızı Qeysər Pəridən. O da bir xudapərəst tutulduğunu eşitmişdi və onun necə bir məxluq olduğunu görmək istəyirdi. Buna görə Qeysər Pəri də camaat toplaşan meydana gəldi. Qız Zərqam şahı gördükdə bir könüldən min könülə ona aşiq oldu. Zərqam da Qeysər Pərini gördü, başa düşdü ki, qızdan ona kömək ola bilər. Şah cəllada əmr etdi ki, xudapərəstin boynunu vursun. Zərqam bir anlığa cəlladdan aman istədi və görək öz halını Qeysər Pəriyə necə işarə etdi:

Necə ağlamasın yaralı könlüm,
İşim-gücüm ahu-zara bağlandı.
Səyyadam, tərlanım qürbət diyarda,
Qalmışam tək-tənha ara bağlandı.

[1] Xudapərəs – Allahı sevən, müsəlman

Nə bir munisim var, nə bir həmdəmim,
Qəmin girdabında qərq olmuş gəmim.
Əyyub kimi sızıldaşır əndamım,
Küllü cəsədimə yara bağlandı.

Zərqamam bədyığval, mən beygüzaram,
Dəvasız dərdim var, candan bezaram.
Düşüb sorağına ellər gəzərəm,
Çünki meylim Leyli yara bağlandı.

Söz tamama yetişdi. Cəllad əmri icra etməyə hazırlaşdı. Zərqam başa düşdü ki, əlacı hər yerdən kəsilmişdir, nakam öləcək, ata-anasına, sevgisinə qovuşa bilməyəcək. Gözlərindən tökülən yaş yanağı ilə süzülməyə başladı. Zərqamın bu halını görən Qeysər Pərinin az qaldı ürəyi yerindən çıxsın, o da gözlərindən yaş axıtdı. Bu yerdə qız üzünü cəllada tutub görək nə xahiş edir, zavabında Zərqam ona nə deyir:

**Qeysər Pəri:**

Qoca cəllad, ol Buddanı sevərsən,
Vurma bu cavana yara, heyifdi.
Babamın əmrini eyləmə əta,
Çəkmə rüzgarına qara, heyifdi.

**Zərqam:**

Yazığam, növrəstə, yandırma məni,
Ağlama, ağrıyar yara, ağlama.
Sızıldarsan, yaralarım sızıldar,
Sinəm oldu hazar para, ağlama.

**Qeysər Pəri:**

Anlamışam, nədir babamın qəsdi,
Qərəzi ənbiya, fikri əbəsdi.
Bu qədər zülmlər insana bəsdi,
Rəva deyil girdigara, heyifdi.

**Zərqam:**

Nə üçün belədi fələyin fəndi,
Düşübdür boynuma eşqin kəməndi.
Allahdandı, bəndədəndi, nədəndi
Saldı məni ahu-zara, ağlama.

**Qeysər Pəri:**

Qoy dolsun kərmi-huş babamın səri,
Açıbdı sinəmdə dərdi, dəftəri.
İltimas eyləyir bu Qeysər Pəri,
Sənə qurban, bəxti qara heyifdi.

**Zərqam:**

Mənim pirim, şahım şahlar şahıdır,
Ərş üzünün günəşidi, mahıdı.
Zərqamın pənahı haqq pənahıdı,
Qalanma hicrimdə nara, ağlama.

Söz tamam oldu, qoca cəllad qaldı iki suyun arasında; bilmədi neyləsin. Həm oğlana yazığı gəlirdi, həm də şahın əmrindən çıxa bilməzdi. Vəziyyəti belə görən Qeysər Pəri atasının qarşısına gəlib baş əydi. Atası qızının sözlü olduğunu görüb soruşdu ki, ona nə lazımdı. Qeysər Pəri cavab verdi ki, ata, bu adi xudapərəst deyil, biz onu öldürsək bir şey qazanmarıq. Çalışıb belə ağıllı və qoçaq oğlanı bütpərəst etsək çox şey qazanarıq. Bu işi mən öhdəmə götürürəm, onu mənə ver. Şahın ağlına gəlməzdi ki, bütpərəst qızı xudapərəstə vurula bilər. Ona görə də qızın dediyi sözlər şahın ağlına batdı. Əmr etdi ki, Zərqamı azad edib Qeysər Pəriyə versinlər. Qeysər Pəri Zərqamı götürüb öz sarayına apardı. Əmr etdi ki, onun atını tövləyə çəkib yaxşı baxsınlar, şahzadənin hüzurunda isə özü durdu. Ancaq qız başa düşürdü ki, Zərqam öz əqidəsindən dönən deyil və gec-tez atası oğlanı məhv edəcəkdir. Buna görə də onu başa saldı ki, minlərlə günahsız insanın qanını tökmüş şahdan qisas almaq

vaxtıdır. Həm də Qeysər Pərinin Şəmmasdan da zəhləsi gedir, ona ərə gedəcəyini fikirləşəndə bədəni əsirdi. Buna görə də bir gecə Zərqam və Qeysəp Pəri döyüş libası geyinib silahlandılar və saraya hücuma keçdilər. Şahı, Şəmması və onların yaxın adamlarını öldürdülər, qalanlarını özlərinə tabe etdilər. Səhər Qeysər Pəri ölkənin şahı elan olundu.

Zərqam bir neçə gün Qeysər Pərinin yanında qalır, ancaq qıza yaxınlıq vermir. Qız bundan inciyir və səbəbini soruşur. Zərqam onu başa salır ki, Seystanda gözləyəni var, ona qovuşmamış heç kimə əl vura bilməz. Qeysər Pəri başa düşür ki, Zərqam sevgilisinin dalınca gedəcək, ürəyində ona əhsən deyir. Bir neçə gündən sonra Zərqam şah Pəriyə bildirir ki, o sevgilisinin dalınca getməlidir. Qız onu saxlamaq istəsə də mümkün olmur. Zərqamın getmək istəməsini görən Qeysər Pəri saçlarından üç tel ayırıb sinəsinə basır və görək Zərqama nə deyir, cavabında oğlan nə söyləyir:

**Qeysər Pəri:**

Gedirsən get oğlan, allah bilincə,
Unutma bizləri, tez qayıt indi.
Dərdim olur günbəgündən ziyada,
Eyləmə sinəmdə yüz, qayıt indi.

**Zərqam:**

Ağlama, sızlama növrəstə Pərim,
Ay Pərim gedərəm, gələrəm yenə.
Sənə qurban olsun can ilə sərim,
Ay Pərim, gedərəm, gələrəm yenə.

**Qeysər Pəri:**

Əlif qəddim şərt götürdü ol nunu,
Neylərəm sərimdə atlas gülgunu.

Çeşmim yaşı batil etdi Ceyhunu[1],
Əgər qəvvas isən üz, qayıt indi.

**Zərqam:**

Qürbət eldə qəm karvanım keçməsə,
Xəstə könül əcəl camı içməsə,
Mürği-ruhum gər bədəndən uçmasa,
Ay Pərim, gedərəm, gələrəm yenə.

**Qeysər Pəri:**

Bu Qeysər Pərinin var iltiması,
Bülbülün köksündə gülün cəfası.
Yaxşı olmaz qürbət elin səfası,
Varırsan, vargilən gəz, qayıt indi.

**Zərqam:**

Zərqamın sinəsi yardan yaralı,
Canandan aralı, candan aralı.
Kamil ovçu heç keçirməz maralı,
Ay Pərim, gedirəm, gələrəm yenə.

Söz tamama yetişdi. Zərqam şah Qeysər Pərilə halal-hümbət eləyib yola düşdü Seystan səmtə. Bir neşə gün at sürdükdən sonra gəlib çıxdı bir dəryanın kənarına. Dəryanı necə keçəcəyi barədə düşünürdü. Elə bu vaxt sahilə bir gəmi yaxınlaşdı. Zərqam gəmiçidən xahiş etdi ki, onu və atını gəmiyə mindirsin. Bir qədər danışdıqdan sonra gəmiçi onu yerdən gəmisinə götürməyə razılıq verdi. Gəmi dəryanın o biri sahilinə yaxınlaşan vaxt dəryada bərk fırtına başlandı. Fırtına yedək gəmisini əsas gəmiyə çırpıb qırıq-qırıq elədi. Zərqam atı ilə qaldı taxta parçaların üstündə, əsas gəmi isə çıxıb getdi. Zərqam başa düşdü ki, hər dəqiqə məhv ola bilər, əlləri hər yerdən üzüldü. Öz-özünə

---

[1] çay adıdır

dedi: ”Gəl səni bu çöllərə salanı köməyə çağır, bəlkə bu bəladan xilas olasan”.

Görək bu fırtınalı dəryanın üzündə Zərqam öz ağasını necə köməyə çağırır, xilas ola bilir, ya yox?!

Ərənlər sərvəri, şahi-mürtəza,
Qalmışam daməndə, ya mövla-mövla.
Kəmtale qulunam,bəxti qarayam,
Yaranmış insanda, ya mövla-mövla.

Gəzginən ümmanda giriftarımı,
Əcəl meydanında can bazarımı.
İntizar qoymuşam nazlı yarımı,
Olmuşam şərməndə, ya mövla-mövla.

Əcəl oldu Zərqam şahın vurğunu,
Çox dolandım bir gözəlin yorğunu.
Sərə-pay cismimdə şonqar qırğını,
Təng etmə bədəndə, ya mövla-mövla.

Söz tamama yetən kimi böyük bir dalğa vurub taxta parçasını Zərqamı Taryellə bərabər sahilə zıxardır. Zərqam bir qədər özünə gəldikdən sonra atına süvar olub yoluna davam edir. Bir qədər at sürdükdən sonra qarşısına bir tacir karvanı çıxır. Sən demə bu karvanın başçısı öz həmyerlisi, məşhur tacir Saleh Sövdəgər imiş. Saleh Sövdəgər neçə vaxtdan bəri itkin düşmüş Zərqamı görəndə çox sevindi, onu dilə tutdu ki, bu qorxulu yollarda itə-bata bilər, geri qayıtsın. Zərqam Saleh Sövdəgərin cavabını üç kəlmə sözlə görək necə verdi.

Ay Saleh Sövdəgər, qanlar ağlaram,
Seystanda qalıb növrəstəm mənim.
Araqçın altinda müsəlsəl tellim,
Üzündə kakili mürəstəm mənim.

Tab etmək çətindi yarın qəhrinə,
Yaxşıdı qərq olmaq qəmin bəhrinə.

Durub varım öz butamın şəhrinə,
Çünki intizardı ol kəstəm mənim.

Yerim Səməngandır, babam tacidar,
Mən isə qəmavər, cəsədimdi nar.
Zərqamın "qatili" o nazlı nigar,
Daşındı qəlbimdə şikəstəm mənim.

Söz tamama yetişdi. Saleh Sövdəgər bildi ki, Zərqam geri qayıdan deyil, sevgilisinin dalınca gedəcəkdir. Onlar bir-biri ilə halal-hümbət eləyib ayrıldılar. Hər ikisi öz yoluna davam etdi. Zərqam şah atını uzaqdan görünən dağa doğru sürdü. Yol həmin dağın dibindən keçirdi. Zərqam dağın dibinə çatanda gördü ki, yol uzanıb bir qalaçaya gedir. Şahzadə nə qədər baxdısa da başqa yol görə bilmədi. Başa düşdü ki, yol bu qalaçanın içindən keçir, ancaq bu qalaçanın sahibinin kim olduğunu, onun başına burada nə gələcəyini bilmirdi. Zərqam burada düşünməkdə olsun, sizə xəbər verim bu qalaçanın sahibindən.

Bu qalaçada Əsfəndiyar adlı çox güclü bir pəhləvan yaşayırdı. Onun qorxusundan bu tərəflərə heç kim gəlmirdi. Çünki Əsfəndiyar buradan keçən hər bir adamla güləşir, yıxdığını öldürürdü. Onun kürəyi isə hələ yerə dəyməmişdi.

İndi eşit Zərqamdan. Zərqam atını yavaş-yavaş qalaçaya doğru sürdü. Bu vaxt Əsfəndiyar güləfirəngidən Zərqamı görüb, adamlarından ikisini göndərdi ki, gedib o atlının bura necə gəlib çıxdığını, kim olduğunu öyrənsinlər. Zərqam da at sürüb qalanın başına dolanır, qalaya yol axtarırdı. Əsfəndiyarın adamları qəflətən Zərqamın qarşısına çıxdılar və üstünə qışqırdılar ki, sən nejə qorxmayıb Əsfəndiyarın qalasına yaxınlaşmısan, bu saat bizimlə getməlisən. Zərqam istədi üstünə gələnləri cəzalandırsın, lakin onları başa saldı ki, əl-ayaqları sağkən öz Əsfəndiyarlarının yanına qayıtsalar yaxşıdır. Hər ikisi işi belə görüb qalaya qayıtdılar, əhvalatı Əsvəndiyara çatdırdılar.

Eşit Əsvəndiyardan. O, bu xəbəri eşidib bir nərə çəkdi, altdan geyib üstən qıfıllandı, döyüş filinə süvar olub Zərqamın qarşısına çıxdı. Zərqam qarşısındakı pəhləvanı, onun filini görüb əvvəlcə bir qədər özünü itirdi, lakin tez də özünü ələ aldı. Əsfəndiyar Zərqamın qamətini, üzünün gözəlliyini, cavanlığını görüb ürəyində arzu etdi ki, kaş bu oğlanın qoçaqlığı da xarici gözəlliyinə uyğun gələ. Lakin o öz hisslərini üzə vurmadı. Tez öz rəqibini üstələmək üçün ona hərbə-zorba gəldi. İndi görək Əsfəndiyar Zərqama necə hərbə-zorba gəlir, Zərqam ona necə cavab verir.

**Əsfəndiyar:**

Ay növcavan, var sərində
Nə xəyallar, gəlirsən sən.
Bu qaladan keçmək olmaz,
Tapıb yollar gəlirsən sən.

**Zərqam:**

Əsfəndiyar bəy, qulaq as,
Qoşa yollar gəlirəm mən.
Qeyçihəra dağlarını,
Aşa yollar gəlirəm mən.

**Əsfəndiyar:**

Ay dilavər, en atından,
Mən öyrənim qiymətindən.
Söylə kəndi qeyrətindən,
Qeyli-qallar gəlirsən sən.

**Zərqam:**

Qeyli-qaldı mənim işim,
Həm sənətim, həm gərdişim.
Yoxdur, düşünmə təftişim,
Haşa yollar, gəlirəm mən.

**Əsfəndiyar:**

Əsfəndiyar mənəm, tanı,
Saymaram sultanı, xanı.

Əlimdən aman imkanı,
Yaşa illər, gəlirəm mən.

**Zərqam:**

Zərqamdı dərya nəhəngi,
Onunla etməzlər həngi.
Düşəndə görərsən cəngi,
Coşa yollar gəlirəm mən.

Söz tamama yetişdi. Hər iki hünərvər əl atdılar qılınca, qalxana, əmuda. Bunların silahının səsindən qulaq tutulurdu. Lakin heç biri üstün gələ bilmədi. Nəhayət, əlac qaldı güləşməyə. Qızmış nər kimi girişdilər bir-birilərinə. Yorulduqca arada bir dincəlir, yenə də davam edirdilər, lakin heç biri üstün gələ bilmirdi. Nəhayət, Zərqam ağasını yadına saldı, dəli bir nərə çəkib Əsfəndiyarı yerə vurdu, çıxıb sinəsinin üstündə oturdu. Qılıncını çəkdi ki, Əsfəndiyarın başını kəssin, ondan dərin bir səs çıxdı. Bunu eşidən Zərqam əlini saxladı və Əsfəndiyardan soruşdu ki, igid də bir qaşıq qanından qorxarmı? Əgər qorxurdunsa onda nə üçün döyüş meydanına çıxırdın?

Əsfəndiyar cavab verib dedi:

– Mən qanımdan qorxan deyiləm, ancaq mənim əhdim var, ona çata bilməyəcəm, ona görə ah çəkdim.

Zərqam soruşdu:

– Səni ah çəkməyə məcbur edən necə əhddir?

- Ey cavan, bil ki, mən yeddi ildir bu yol ayrıcındayam. Hələ heç kim mənim arxamı yerə vurmamışdı. Bu işi birinci sən etdin. Mənim də əhdim bu idi ki, kim məni yıxsa ona ərə gedim.Sən də görünür bunu istəmirsən, öldür, qanım halaldı.

Bu sözləri deyib Əsfəndiyar başından dəbilqəni götürdü, qulac telləri üzünə yayıldı. Zərqam tez qalxdı və onun əlindən tutub ayağa qaldırdı. Hamı sevinc içində Əsfəndiyarın qalasına daxil oldu. Zərqam bir neçə gün qalada qaldı, dincəldi. Sonra Əsfəndiyara bildirdi ki, Seystana – sevgilisi Əfruz Cahanın

arxasınca getməlidir. Əsfəndiyar istəyirdi ki, Zərqamı yoldan saxlasın, ancaq bilirdi ki, bu mümkün deyil. Ona görə də özlüyündə belə qərara gəldi ki, Zərqamı tək buraxmasın, onunla birlikdə Seystana getsin. Bir neçə gündən sonra Zərqam ilə Əsfəndiyar altdan geyib üstdən, üstdən geyib altdan qıfıllandılar, atların başını buraxdılar Seystana tərəf. Bir neçə gün at sürdükdən sonra sağ-salamat şəhərin kənarındakı şah bağçasına gəlib çatdılar. Əsfəndiyar Zərqamı başa saldı ki, şəhərə belə girmək olmaz. Razılaşdılar ki, Əsfəndiyar atlarla qalsın, Zərqam sazını çiyninə keçirib şəhərə daxil olsun. Bunlar burda qalmaqda olsunlar, İndi də al xəbəri Əfruz Cahandan.Neçə müddət idi ki, Əfruz Cahan eşq atəşində yanır, qovrulurdu. Dərdini kimsəyə aça bilmir, sevgilisinin yolunu gözləyirdi. Onun ürəyinə dammışdı ki, bütün çətinliklər aradan qalxacaq, sevgilisi gələcək. Lakin ayrılıq qəlbini üzürdü. Bir qədər rahat olmaq üçün hər gün qızlarla şəhərin kənarındakı şah bağında gəzməyə çıxar, dərdini yüngülləşdirərdi. Təsadüf belə gətirmişdi ki, bu gün də qızlar bağda gəzirdilər. Zərqam çiynində sazı bağa daxil oldu. Qızlar çiyni sazlı aşığı görən kimi yüyürüb onu dövrəyə aldılar. Xahiş elədilər ki, aşıq onlar üçün çalıb-oxusun. Zərqam gözünü dolandırıb qızlara baxdı, nəzərləri Əfruz Cahanın üzündə qaldı. Az qaldı ürəyi sinəsindən çıxsın. Aldı görək qızların xahişinə necə əməl etdi, öz vəziyyətini, kimliyini sevgilisinə nə cür anlatdı:

Gülşən bağçasında seyran edibən,
Qayıdan qızların qurbanı canım.
Əlvan çiçək dərib, dəstə bağlayan,
Gülü-nərgizlərin qurbanı canım.

Artıbdı hərarət, açılıb yaxan,
Geyinib zər-ziba, həmayıl taxan.
Ovçu görmüş maral kimi yan baxan,
O süzgün gözlərin qurbanı canım.

Zərqamın könlünü gəşdə eyləmək,
Gördüm yar camalın,müjdə eyləmək.
Qaşları mehrabım, səcdə eyləmək,
Tər lalə üzlərin qurbanı canım.

Söz tamama yetişdi, hər iki sevgili bir-birini tanıdı. Uzun illərin həsrətləri bir-birinə sarıldılar. Sevincindən göz yaşı axıdan Əfruz Cahan saçından üç tel ayırıb sinəsinin üstünə basdı, görək Zərqama nə dedi, Zərqam saz ilə sevgilisinin cavabını necə verdi.

**Əfruz Cahan:**

Uzaq yoldan gələn oğlan,
Dürr tökülür dillərinnən.
Oxu, bizi tərif eylə,
Nə ki gəlir əllərinnən.

**Zərqam:**

Ahəstə sallan nazənin,
Buy[1] götürüm güllərinnən.
Açginən zərrin koftanı,
Çünki sıxır bellərinnən.

**Əfruz Cahan:**

Aşıq, söylə haralısan?
Məşuqundan aralısan,
Necə tapdın qaralı sən,
Uzun, uzaq yollarınnan?

**Zərqam:**

Gözəl, yerim Səməngandı,
Yardan ayrı bağrım qandı.
Butam Əfruzu Cahandı,
Öldür kəndi əllərinnən.

---

[1] buy – ətir, qoxu

**Əfruz Cahan:**

Gözəllərin gözü mənəm,
Eşq odunun közü mənəm,
Cahan Əfruz özü mənəm,
Seystanın ellərinnən.

**Zərqam:**

Zərqam şahı qılma xəstə,
Mənəm sənə payi-bəstə.
Bas qədəmin sinəm üstə,
Ölüm fitnə-fellərinnən.

Bunlar burada oxumağında olsun, eşit Əsfəndiyardan. Əsfəndiyar bir az gözlədi, gördü ki, Zərqam gəlmədi. Ürəyi tab gətirməyib öz atına süvar oldu. Zərqamın atını da yedəyinə alıb qırğı kimi özünü bağa yetirdi. Zərqamla Əfruz Cahanın dünya yadından çıxmışdı. Onların belə ehtiyatsızlığını görən Əsfəndiyar qışqırıb dedi:

– Səsinizi toyunuza saxlayın, toyda oxuyarsınız, tez olun, getmək vaxtıdır. Tez Zərqam öz atına, Əfruz Cahan da Əsfəndiyarın tərkinə minib atların başını buraxdılar. Bu tərəfdən də Əfruz Cahanın başındakı qızlar qaçdılar Əmiri Sultanın yanına xəbərə. Sultana xəbər çatan kimi qoşuna tərpənmək əmri verildi. Qoşun tərpənməkdə olsun, al xəbəri Zərqamgildən. Bunlar bir xeyli at çapıb şəhərdən xeyli uzaqlaşdılar və gəlib bir gözəl çəmənliyə çatdılar. Qərara gəldilər ki, bu çəmənlikdə bir qədər dincəlsinlər.

Zərqam şah başını Əfruz Cahanın dizi üstə qoyub dərin yuxuya getdi, Əsfəndiyar isə onların keşiyində durdu. Eşit Əmiri Sultanın qoşunundan. Qoşunun sel kimi ağzı açıldı. Əsfəndiyar Zərqamın şirin yuxuda yatdığını görüb onu oyatmağa ürəyi gəlmədi. Quş kimi atın belinə sıçrayıb özünü qoşuna təpdi. Sağdan vurub soldan çıxdı, soldan vurub sağdan çıxdı. Sultanın qoşunu hələ belə əjdaha ilə qarşılaşmamışdı. Qırılan qırıldı, qalanlar qorxub geri çəkildilər. Bundan istifadə edən Əsfəndiyar görək Zərqam şahı necə oyadır.

Nə yatıbsan xabi-qəflət içində,
Oyan, bu diyardan varaq, şahzadə.
Qəvi düşmən ətrafını sarımış,
Oyan, bu qəflətdən varaq, şahzadə.

Xəbər getdi, gələr qurullu şamı,
İçirərlər bizə zəhərli camı.
Kəmərbəstə olan anlar ilhamı,
Oyan, bu diyardan varaq, şahzadə.

Şəhri-Seystana saldım vəlvələ,
Eylədim tarimar misli zəlzələ.
Ölər Əsfəndiyar xof etməz hələ,
Oyan, bu diyardan varaq, şahzadə.

Əsfəndiyarın belə yanıqlı oxuması Zərqamı yuxudan oyatdı. O, işdən halı oldu. Qoşunun geri çəkilməsindən istifadə edib atları tərpətdilər. Bir xeyli at çapdıqdan sonra gəlib Əsfəndiyarın qalasına çatdılar. Artıq qoşunun onlardan ötrü heç bir qorxusu yox idi. Belə qərara gəldilər ki, bir neçə gün qalada dincəlsinlər, sonra yollarına davam etsinlər. Bir neçə gün burda dincəldikdən sonra, nəhayət yola düşmək günü gəlib çatdı. Əsfəndiyara öz qalasından ayrılmaq çox çətin gəlirdi. Qalasına həsrətlə baxan Əsfəndiyar zülflərindən üç tel ayırıb sinəsinə basdı və görək öz qalası ilə necə vidalaşdı.

Yeddi il bəklədim səndə,
Sağı soldan karvan, qala.
İgidlər saldım kəməndə,
Necə ki qəhrəman, qala.

Sevərdim cəng ilə dava,
Necə ki Səyavyş, Gəva.
Sən idin mənzili-məva,
Mən sənə mehriban, qala.

Əsfəndiyar gedir səndən,
Ayrılır gül yasəməndən.
Halal-hümbət eylə məndən,
Çünki qaldın viran, qala.

Söz tamama çatdı. Hər üçü atlanıb yola düşdülər. Bir neçə gün at çapdıqdan sonra, nahəyət gəlib Qeysər Pərinin sarayına çatdılar. Qeysər Pəri gələnləri xoş üzlə qarşıladı, dincəlmələri üçün hər cür şərait yaratdı. Ancaq Zərqamı qızlarla görən Pərinin qaş-qabağı tutulmuşdu. Düzdür, qız bunu üzə vurmaq istəməsə də Zərqam işi başa düşmüşdü. Ona görə də çalışırdı ki, Qeysər Pərinin könlünü alsın. Zərqam götürüb üç kəlmə sözlə onun könlünü belə alır.

Dərdin alım, gözəl, sən ol təbibim,
Nuş edim dəstindən ağı, mənə ver.
Dünya çifəsində yoxdu tamahım,
Qoynunda gülşənli bağı mənə ver.

Sən bəlli gözəlsən, görüm min yaşa,
Dünya beyvəfadı əlindən haşa.
Doyunca hüsnünə qılım tamaşa,
Sonra da aranı, dağı mənə ver.

Zərqam qurbanıdı mahı-ənbəri,
Gördüm camalını, oldum sərsəri.
Elə sandım sınıb könlümün pəri,
Sarıyım zülfünlə tağı mənə ver.

Söz tamama yetdi. Qeysər Pərinin rəngi açıldı. Zərqam bir neçə gün qızlarla Qeysər Pərinin sarayında qaldı, yeyib-içib kef çəkdilər. Tək oğul olan Zərqamın ata-anasının gözü yollarda qalmışdı. Zərqam da tezliklə həsrətində olduğu ata-anasını görməyə can atırdı. Odur ki, qızlarla məsləhətləşib yola qoşulmaq qərarına gəldilər. Hər dördü atlara süvar olub yola düşdülər. Bir neçə gün at sürdükdən sonra Səməngan torpağının sərhədlərinə yetişdilər. Zərqamın gözünə vaxtilə at sürdüyü, kef çəkdiyi seyrangahlar görün-

dü. Onun ürəyi qəfəsdəki quş ürəyi kimi atlandı, az qaldı sinəsindən şıxsın. Aldı, görək üç kəlmə sözlə vətən torpağına nə dedi:

Şükür haqqa gördüm, vətən üzünü,
Görünən şahzadə seyrangah idi.
Qəlbdən düz olan yetər mərama,
Onuncündür könlüm tanır vahidi.

Baxırsan hər yana bənzər cənnətə,
Sidrətül – müntəha, şanı – şöhrətə.
İşlər qəflə-qatır hər məmləkətə,
Ağrının ətəyi səyyad rahidi.

Zərqamın arzusu yetdi yerinə,
Səcdə qıllam ərənlərin pirinə.
Əl atan xudanın gizli sirrinə,-
O da insanların bir ikrahidi.

Söz tamama yetdi. Zərqam üç gözəllə yoluna davam etdi. Bir qədər getmişdilər qarşılarına bir çoban çıxdı. Çoban gələnlərin yad adam olduğunu görüb, onlara yaxınlaşdı, kimliklərini soruşdu. Zərqam cavab verdi ki, o, Xarəzmşahın oğlu Zərqamdır. Çoban Xarəzmşahın qoyunlarını otarırdı və Zərqam haqda eşitmişdi. Gələnin Zərqam olduğunu bilən kimi az qaldıı sevincindən gözləri alışıb yansın. Zərqamgildən xahiş etdi ki, burada dursunlar, özü isə muştuluğa qaçdı. Zərqamgil buradakı çəmənlikdə dincəlməkdə olsun, eşit çobandan. Çoban özünü saraya yetirdi və şahın hüzuruna gəlib dili dolaşa-dolaşa şahı muştuluqladı. Şah oğlunun gəldiyini bilən kimi yerindən dik atıldı, sürünü muştuluq olaraq çobana bağışladı. Əmr verildi, hamı Zərqamın pişvazına çıxdı. Şəhər bayramsayağı bəzəndi. Şahın sarayında Zərqama qırx gün, qırx gecə toy oldu, hamı öz mətləbinə, muradına çatdı. Allah hamını mətləbinə çatdırsın.

***Dastanın yaradıcısı: Novruz Təhləli***
***Təqdim edəni:* Şair Allahverdi Təhləli**
**25 avqust 2012**

# İSMAYIL-QIZYETƏR[1]

## Ustadnamə

Könül, dolan bu dağları, zimistan qar olmamış,
Əgər bilsən əfsanədi sevgili yar olmamış.
Axtarsan aşkar olur, əslizatı bəlləni,
Bivəfaya bel bağlama, əhdi-ilqar olmamış.

Ziynət verir zülflərinə, tökülür soldan-sağa,
Göz yaşım qətrələnib, buluddan leysan yağa.
Üz çevirib qədəm qoysan vədəsiz girsən bağa,
Heç əsla nəf eyləməz səcərdə[2] bar olmamış.

Şair Nəbi, aç mətahın sal vəsfini bəyana,
Hal əhli ol, salam yetir, hər gördüyün insana.
Gəl xırd elə mətahını namın düşsün cahana,
Haçan bülbül səda verər, fəsli bahar olmamış?!

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun, düşmənin dərdi yekə olsun.

Mənasız-münasibsiz sözləri – bilməyin faydası nə?!
İzinsiz, təklifsiz yerə getməyin faydası nə?!
Necə nadanlar əlindən mən düşdüm qəm girdabına
Dalğası coşğun dəryaya dalmağın faydası nə?!

Yarı gördüm baxçasında söyləyir bülbül kimi,
Bir saat görməyəndə günüm keçir il kimi.
Bir könül ki, fərəhlənib, açılmaya gül kimi,
Arsız-arsız el üzünə gülməyin faydası nə?!

---

[1] Dastan ilk dəfə E.Məmmədlinin təqdimatında "Qobustan" incəsənət toplusunun №4 (64) 1984-cü il sayında nəşr olunub.
[2] Səcər – ağac

Şair Nəbi bu qəsdinən edər nəyin məthini,
Bircə horu fikir versən sən bilərsən zatını.
İnsan odu yaxşı bilə şəriətin şərtini,
İbadəti riya üçün qılmağın faydası nə?!

Ustadlar ustadnaməni iki yox, üç deyər biz də deyək üç olsun düşmənin ömrü pus olsun.

Dəli könül, qafil olma, başına bir çarə qıl,
Hər yetənə sirrin açma, dərdini dildarə qıl.
Deyillər ki, alçax, rəzil pis tamahdı dünyada,
Əməyi sev, işdən qorxma, zəhmət çək midara qıl.

Mala-mülkə bel bağlayıb çox da uçma yelinə,
Haqq işlərə "nahaq" demə, qadağa ver dilinə.
Axırında kor olacaq, xor baxanlar elinə,
Nadan sözdən nə anlayar, arifə işarə qıl.

Gecə-gündüz yalan döylü, doğulub ölmək haxdı,
Zülm eliyən zülmkarın çoxdan uçubdu taxtı.
Dərk eləyib, düşünməyən dəlidi, ya uşaxdı,
Ey Fəğani[1], annamaza düz yolu dübarə qıl.

Sizə hardan söhbət eliyək, kimnən söz açax, keçənnərdə Borçalı mahalının Faxralı şenliyində yaşayan İsmayıl Oruc oğlunnan. İsmayıl kimiydi, o vədələr onun başına nələr gəlmişdi?

İsmayıl Oruc oğlu Faxralı şenniyində «mənəm-mənəm» deyən cavanlardan idi. Özü Güllər nəslindən olduğuna görə ona o vaxtlar İsmayıl Güllər deyərdilər. İsmayıl Güllər çox sinədəftər idi. Onu da deyək ki, bacısı Pəri də söz qoşmaxda qardaşınnan geri qalmazdı. Ona da camahat Güllər Pərisi deyərdi. Bu bacı-qardaşın sədə-sorağı Borçalı mahalının hər yerinə yayılmışdı.

[1] Fəğani – Əlipaşa Fəğani Şəmkir rayonunun Qaracaəmirli kəndində yaşayıb-yaradıb. 1980-ci illərdə vəfat edib. Ərəb əlifbası ilə yazıb-yaratdığı şeirləri şəxsi arxivimizdədir (E.M.)

Diyəllər İsmayılın bir vaxtı idi ki, bığ yeri təzəcə tərliyirdi, gözləri qoşa bulax kimi qaynıyırdı, bir söznən, eşq atını minif–çapan vaxtıydı. Uşax vaxtlarınnan bir yerdə böyüdüyü Qızyetərin dərdinnən az qala dəli divanə olmuşdu. Əmə neynəsin ki, bir dərdini qanan, bir halına yananı yoxuydu. Qıznan gizdicə dilbir olub onun ürəyini ələ almışdı. Di gəl ki, mərdimazar adamlar aranı qarışdırdılar, nə qarışdırdılar. Qızyetərin gözünnən qan-yaş axıda-axıda istəmədyi bir varlı balasına nişanlamışdılar.

O günnən İsmayılın dərdi bir idi, indi beş oldu. İsmayıl bacısı Pəriynən dərdləşdi. Nəsə bir şey hasil olmadı. Bir müddət belə qanıqara dolaşdı, o vaxta kimi ki, oğlan öyü işdən duyux düşdü. Odu ki, Qızyetərin toy tədarükünə başladılar. Hazırlıx başlandı, nə başlandı. Oğlan öyünnən qız öyü danışıf-söydələşdi, toy günü müəyyənləşdi. Kəndə sədə düşdü ki, bəs deməzsənmi, iki günnən sora filankəsdərin toyudu.

Əhvalatdan xəbər tutan İsmayılın dərdi bir az da artdı. Həmən gecə sübhətənə gözünə yuxu gəlib bir çimir ala bilmədi. «İlan vuran yatdı, o yatmadı». Səhər açıldı, üzünüzə xeyirli sabahlar açılsın, İsmayıl kasıb komalarınnan çıxıb, bu işə əncam çəkməkdən ötəri bir ara adamı tapdı. Qızyetərə xəbər göndərdi ki, şər qarışana yaxın Qarabulağa[1] tərəf çıxsın, danışax görək başımıza nə çarə qılırıx. Bunu deyif İsmayıl bir kağız-qələm çıxardıf Qızyetərə bir namə də yazdı, Biz qulluğunuza ərz eliyək, görək namədə İsmayılın mətləbi nə idi:

Gedib deyərsiniz o nazlı yara,
Səhərdən çıxarıq dağlar başına.
Bülbül öz gülünnən ayrı düşərsə,
Məskənini salsın bağlar başına.

Görünsə gözümə çarpaz ətəklər,
Yetirrəm özümü bil ki, o dəmlər.

[1] Qarabulax – Faxralıda yer adıdır.

Ağlama gözünnən axmasın nəmlər,
Dolanaq bostanda tağlar başına.

Nola elçim bir şad xəbər gətirsin,
Sevgilimin cavabını yetirsin.
İsmayılın mətləbini bitirsin,
Açılmasın qalmağallar başına.

Ara adamı aparıb naməni Qızyetərə çatdırandan sonra İsmayıla xəbər gətirdi ki, arxayın ol, dediyin vaxt qız Qarabulağa gələcək.

Ara adamı gələnnən sora İsmayıl vargəl eliyə-eliyə günü axşam elədi. Elə ki, şər qarışdı Qarabulağa tərəf üz qoydu. Vədələşdiyi yerə çatıb Qızyetərin yolunu gözləməyə başladı. Bir müddət gözlədi Qızyetər gəlif çıxmadı. Bir daşın üstündə oturuf yenə gözləməyə başladı. Baxdı gördü ki, daha Qızyetər gələsi olmadı, əlacı kəsildi. Sinəsinə bir neçə bənd söz gəldi, zümzüməynən görək nə dedi:

Dizimdə taqət yox, gözümdə qara,
Gözləməkdən yollarını bir qızın.
Bəxtəfər başına kümbəzi kəmər,
Nə quxubsçan bellərini bir qızın?!

Tükənifdi səbrim, gəlmir qərarım,
Günü gündən artır dərdim-məlalım.
İlqarına xilaf oldu maralım,
Şana tutuf tellərini bir qızın.

İlqar verən ilqarına düz olsun,
İstəmiyən əlli olsun, yüz olsun.
Öz sözümüz aramızda düz olsun,
Dolanaydım çöllərini bir qızın.

İsmayılın başı çəkər qovğalar,
Sevgi sevən sevgisinnən zövq alar.

Çata bilməz laçın olsa qarğalar
Mən tutaydım əllərini bir qızın.

Söz tamama çatdı, İsmayıl da kor-peşman öylərinə qayıtdı. Əmə bir yerdə qərar tutub dayana bilmədi. Səhər açılan kimi axtarıf ara adamını tapdı. Tez onu Qızyetərin yanına göndərdi ki, gedif öyrənsin görsün axşam görüşə niyə gəlməyib.

Ara adamı qayıdıf xəbər gətirdi ki, qızın atası Məşədi Usuf işdən duyux düşüf, odur ki, Qızyetəri heç yana buraxmıyıf. Əmə qız söz verib ki, bu axşam nə təhər olursa-olsun həmən yerə gələcək.

Deyəllər: «Nağıl dili yeyrəng, ozan dili yüyrəy olar». Vədələşdikləri vaxt İsmayılnan Qızyetər görüşüf söhbətləşdilər. Belə qərara gəldilər ki, toy gecəsi qız oğlan öyünnən qaçıf Qarabulağa gələjək, ordan da İsmayılnan qaçıf Türkiyəyə keçəjəklər.

Əlqərəz, eləcə də elədilər. Şan-şöhrətnən oğlan öyünə köçənnən sora Qızyetər hələ camaat dağılışmamış bir bahanaynan eşiyə çıxdı, ordan da «şeytana ləhnət» – deyib tüpürdü dabana. Bir baş Qarabulağa yollandı. Bir vaxtda gəlib çatdı ki, İsmayıl bir at altında, biri də yedəyində onu gözdüyür.

Göründüyü kimi, hər şey qabaxcadan hazırlanmışdı, odu ki, Qızyetər də ata minif bir baş meşə yoluynan Türkiyəyə yollandılar.

Bu iki sevgili yola düşüf getməkdə olsun, görək toy öyündə nə təşviş düşdü.

Qızyetərin başına yığılan qız-gəlinnər bir az gözdədilər, gördülər gəlin gəlif çıxmadı. Arıya pıçhapıç düşdü. Aradan bir saat da keçdi, baxdılar gördülər, yox, balam, bu xına o xınadan döylü, işin içində iş var. Odu ki, başı papaxlılara xəbər çatdı. Qızyetərin nişannısı zəhərnən sulanmış xəncər kimi atılıf-düşməyə başdadı. Az bir vaxtda kəndi ələk-vələk elədilər, heç yerdə Qızyetəri «gördüm» – deyən olmadı.

Bu vaxt camaata bir şey də məlum oldu ki, İsmayıl da itgin düşüf. Deməli, bərabər qaçıf harasa gediflər. Bunu bilən oğlan tərəfin adamları yaxın kəndlərə atlı saldılar. Guman gələn öylərə

gedif İsmayılnan Qızyetəri axtardılar. Oları heç yerdə tapa bilməyif, kor-peşman dala qayıdıblar. Başladılar İsmayılgilin evinə basqın eləməyə, ata-anasını, qardaş-bacısını döyüf-incitməyə.

Səhəri Borçalı qəzasının hökumət adamları tökülüb gəldi, İsmayılın atasının mal-dövlətini hamısını talan elədilər, atasını tutub dustaqxanaya saldılar. Yazıxların başına olmazın oyun açdılar.

Bir müddət beləcə keçdi, hər gün basqınnan-davadan başı açılmayan İsmayılın ana-bacısı bir hala düşmüşdü ki, gəl görəsən. Qardaşının itgin düşməsi Güllər Pərisini elə hala salmışdı ki, dilnən deyiləsi döyüldü. Gecə-gündüz ana-bacı bir-birinə qarışıb dil-dil ötdülər. Qardaş həsrətinnən saralıf-solmuş Pəri, saçınnan üç tel ayırıb qardaş haraylı, qardaş ünnü bir neçə xanə söylədi, görək nə söylədi.

Gecə-gündüz intizarda qalmışam,
Bilmirəm nə oldu, halı qardaşın.
Gəlmədi heç yerdən sədə-sorağı,
Yarəb, hara düşdü yolu qardaşın.

Yoxdu bir kimsənə halımıza qalan,
Zalımlar əlində olmuşuq talan.
Xəbər gələ, biz də olaq şadiman,
Gedə başdan qeylü-qalı qardaşın.

Qəm çəkir Pərinin bacı-qardaşı,
Dərdini deməyə yoxdu sirdaşı.
Bildiyin unuduf olufdu naşı,
Düşüfdü başının teli qardaşın.

Divan-divanxana İsmayılnan Qızyetəri axtarmaqda olsun, Pəri də qardaşının intizarını çəkməkdə. İndi görək bu iki sevgilinin başına nə iş gəldi, güzarannarı nə təhər keçdi.

Onda ki, İsmayılnan Qızyetər gəlib Türk torpağına çatdılar, İsmayıl atdarı bazara aparıf dəyər-dəyməzinə satdı, bir az xərc-

lik düzəltdilər. Bazardan çıxıf gəzə-gəzə özdərinə qalacax yeri axtarmağa başladılar. Xeyli dolanannan sora gəlif bir kasıf kişinin komasında özlərinə yer elədilər. Kişi çox ürəyi açıx olduğunnan buları çox gülər üznən qarşıladı. Öz daxmasının birini İsmayılgilə verdi. Özü də dedi ki, oğlum, o ki, sən qərib eldən bura pənah gətirifsən, hələ özünə bir iş tapanatan mənim külfətim nə bişirsə bizim uşaxlarnan bir yerdə yeyif içərsiniz. Yaman günün ömrü azdı, özünə bir iş tapar, pul qazanarsan, sora ayrı dolanarsan. İsmayılnan Qızyetər bu söhbətdən çox xoşhal oldular, kişiyə razılığ elədilər.

Sabahsı gün İsmayıl qızı öydə qoyuf iş axtarmağa getdi. Çox gəzif dolaşdı, axşama yaxın özünə münasif bir iş tapıf, sevincək öyə qayıtdı. Bu işdən öy yiyəsi də, Qızyetər də çox sevindi.

Öy sahibi arif adam idi, dedi: «Oğlum, o ki bir günün içində özünə iş tapa bildin, onda halaldı bu qız sənə, de durun düşün yanıma gedək qazının yanına kəbininizi özüm kəsdirəcəm».

Həmən axşam öy yiyəsi bunların kəbinini kəsdirdi, komalarına qayıdıf öyün qarısına tapşırdı ki, bir yaxşı plov bişir balalarımızın toyunu eliyək.

Əlqərəz, plov bişdi, süfrə açıldı. İsmayıl utana-utana öy yiyəsinə dedi ki, əmican, sinəmdə bir neçə kəlmə sözüm var, qoy cürəmi köynəyinnən çıxardıf bir-iki ağız oxuyum, siz də qulaq açın, Qızyetər də.

Kişi dedi: «Bu nə sözdü, öy sənin öyündü, a bala, izindi, oxu». Odu ki, İsmayıl telli sazı bağrına basıf görək nə oxudu:

Bir zaman eşqinlə gəzib dolandım,
Getmədi əməyim boşa, sevgilim.
Ömrüm baharını birlikdə gəzək,
Yaşayax bərabər qoşa, sevgilim.

Gecələr yuxudan oyanıb andım,
Düz ilqar – imanda tək səni sandım.

Basmadım söyüncüm, basmadım andım,
Mən ölsəm, sən qalıb yaşa, sevgilim.

Qoy kəsib ömrümnən versinlər sənə,
Yetmişəm muraza bu bəsdi mənə.
Baxmadım kənardan hey yana-yana,
Yetirdim mətləbi başa, sevgilim.

Kim qoyub adını sənin Qızyetər,
Yanıram oduna Sənandan betər.
Hər kim ki yanından qəzəbnən ötər
Yığvalı toxunsun daşa, sevgilim.

İsmayıl Güllərəm, Türkə düşmüşəm,
Yad eldə bir qərib mülkə düşmüşəm.
Qar qalın olubdu, kürkə düşmüşəm,
Dözərəm şaxtaya, qışa sevgilim.

İsmayılnan Qızyetər burda bu minvalnan yaşamaxdan olsunnar. Eşit qızı axtarannardan. Qızyetərin atası, qardaşdarı bir yannan, bir yannan da həmən nişanlısı tərəf axtarıf-aramadıxları yer qalmadı. Aradan bir il keçənnən sonra Türkiyəyədən Borçalıya səfərə çıxan bir türk taciri cuğulluq eliyif İsmayılın yerini oğlan öyünə xəbər verdi. Bu xəbər gəlif qəza rəyisinə çatdı, İsmayılın yerini yerli-yataxlı öyrənənnən sora iki nəfər divan işçisini möhürlü kağıznan Türkiyəyə göndərdi ki, harda var, harda yoxdu, gedin o məlunları tapın gətirin.

Məxləs, bu iki nəfər yola düşüf Türkiyə torpağına gəldilər, o yerdə ki, İsmayıl olurdu, həmən yerin divanxanasını axtarıf tapdılar. Divan paşası işdən xəbərdar olan kimi, cin atına mindi, adamlarını çağırıf ağzına gələni olara dedi ki, siz nə işnən məşğulsunuz ki, bizim burnumuzun altında bir ildən artıxdı ki, qaçqınlar yaşayır, ama sizin xəbəriniz yoxdu. Tez olun oların ikisini də mənim hüzuruma gətirin!

Bu o vaxt idi ki, Qızyetər ana olmağa hazırlaşırdı, İsmayıl da azdan-çoxdan qazanıf-dolanırdı. Bircə çətinlikləri Vətən həsrəti idi, qohum-qardaşdan ötəri burunnarının ucu göynüyürdü.

Əli dəyənəkli fərraşlar onda İsmayılı haxladılar ki, daxmada əyləşif Qızyetərnən şirin-şirin söhbət eliyirlər. Daxmaya girdiklərinnən İsmayılın qolunu bağlamaxları bir oldu. İstədilər Qızyetərin qolunu da bağlasınnar, baxıb gördülər ki. qız boyludu. Odu ki, vicdannarına sığışdırıf elə şey eləmədilər. Hər ikisini də qabaxlarına qatıf Şərif bəyin hüzuruna gətirdilər.

İçəri girən kimi Şərif bəy İsmayılın üstünə qışqırmağa başladı. Fərraşa əmr elədi ki, bu məlunu yaxşı kötəklə, özünü də arxasınca gələn adamlara qat aparıb getsinnər.

Bu yerdə İsmayılın könlü qübar elədi, gözünün qabağına qarannıx həbsxanalar, bir də bu həbsxanalarda Qızyetərsiz keçirəcəyi ağır günnər gəlif dayandı. Üzünü Şərif bəyə tutub «bəyim, bilirəm, məni bu yaramazlara qatıf vətənimə göndərəcəksən, məni öz sevgilimnən ayırmağa bayis olacaxsan, bu öz işindi, ama getməmişdən qabax sinəmdə deyiləsi sözüm var, izin ver oları deyim, sora gənə də ixtiyat sahibisən. Bəy baxıb gördü ki, əyə bu kasıb balası ərşdən-gürşdən dəm vurur. Deyəsən əldə ölən oğlana oxşamır. Odu ki, ürəyinə rəhm gəlib, İsmayıla söz verdi.

İsmayıl bu yerdə aldı görək nə dedi:

Baş götürüf vətənimnən gəlmişəm,
Aman bəyim, məni geri yollama.
Canımı canana qurban vermişəm,
Aman bəyim, məni geri yollama.

Rusiyadan gəldim Türkün yerinə,
Türk cuğulu məni verdi ölümə.
İstəyirsən göndərəsən yerimə
Aman bəyim, məni geri yollama.

Bizim yerdə qalın-qalın meşələr,
Həvəs yerə sizin dağlar aşalar.
Müxənnətdi burda bəylər, paşalar,
Şərif bəyim, məni geri yollama.

Balyoz (fərraş) qabağında qolu bağlıyam,
Təbib yox dərdimi deyib-ağlıyam.
İsmim İsmayıldı, Oruc oğluyam,
Aman bəyim, məni geri yollama.

Şərif bəy baxıf gördü ki, ayə bu heç kişilikdən döylü. İki cavanın bədbəxtliyinə bayıs olmax istəmədi. Dedi, oğlum, görürəm aşıxlığın-şairliyin də var, odur ki, səni sınamaq istiyirəm. Əgər bizim bu mahalın bir aşığı var, adlı-sanlı aşıxdı, onunla deyişib üstün gəlsən dalınca gələn bu adamları əliboş qaytaracam Borçalıya. Yox, əgər bizim türk aşığı sənə üstün gəlsə, onda göndərəcəm gedəsən bunlarnan. İsmayıl bu şərtə razı oldu. Bir azdan aşıq da gəlif çıxdı, deyişmə başladı. Bu deyişmədə İsmayıl qalib çıxdı. Şərif bəy baxıf gördü ki, İsmayıl haqq aşığıdı. Borçalıdan gələn adamlara dedi ki, mən heç cür belə nakişiliy eliyib iki sevgilini sizə vermərəm. Özü də görürəm ki, İsmayıl da keçiləis cahıl döylü, belə bir oğlanı divan əlinə vermək mənim kişiliyimə yaraşmaz. Nə qədər kefi istəsə yaşasın bizim torpağımızda, bəlkə düşmənnəri də bir az sakitdəşə. Bunu deyib əlaltılarına əmr verdi ki, Borçalıdan gələnnəri ötürün getsinnər.

Bəli, İsmayılı aparmağa gələnnər qayıdıf əli-ayağı boş qəza rəyisinin yanına gəlib əhvalatı ona danışdılar, onu işdən halı elədilər. Qəza rəyisi bir az hirsləndi, əsif-coşdu, axırda onu dedi ki, vətənnən uçan quşun bir gün yuvasına qayıtmağı da olajax. Onda baxarsınız ona nə divan tutajam.

Güllər Pərisi qardaşının dalınca adam gedif onu gətirmək istədiyini bilirdi. Eşidəndə ki, İsmayılı gətirə bilmiyiflər çox sevindi ki, İsmayıl hökumət əlinə düşmədi. Əmə qardaşınnan ötürü xəstənin xətri nar istiyən kimi darıxırdı. Özü yazı-pozu

bilirmirdi ki, götürüf İsmayıla bir kağı yazsın. Bir də yadına düşdü ki, kəndin mirzəsinə nə gəlif, aparıf arpadan-buğdadan bir az verərəm yazar. Pəri elə də elədi. Gəldi mirzənin yanına ki, qadan alım, ay Mirzə, sinəmdə bir neçə bənd sözüm var, götür kağızı yaz göndər İsmayıla. Mirzə qələmi əlinə alıb Pəriyə qulaq asa-asa yazmağa başladı.

Qarsa doğru baxıb-baxıb ağlaram
Yıxaydım könlündə qalalr, qardaş.
Sinəm üstün çalın-çarpaz dağlaram,
Dolanır qəlbimdə haralar, qardaş?!

Eşqin badasını yaman içifsən,
Rusiyadan Türk elinə köçüfsən.
Qohumnan-qardaşdan niyə keçifsən,
Divan işə baxıf, aralar, qardaş.

Yenə saxlar nəzərində yaradan,
İnşallah, çıxarsan qorxu-qaradan.
Sıra dağlar çəkilsəydi aradan,
Görünərdi gözə oralar, qardaş.

Pəriyəm, dərdinə dözə bilmirəm,
Savadım çatmayır, yaza bilmirəm.
Sənsiz bu dünyada gəzə bilmirəm,
Gəlməsən bacılar saralar, qardaş.

Söz tamama yetdi. Pəri namənin içinə Gözəldağının ətəyindən dərdiyi ətirli çiçəklərdən də bir neçə ləçək qoyuf ağzını yapışdırdı.

Türk elində günnərin bir günü həmən bu namə gəlif İsmayılın əlinə çatdı. Bu o vaxt idi ki, Qızyetərin qaraqaş-qaragöz bir oğlu dünyaya gəlmişdi. Kağızı açan kimi çiçək ləçəklərinin ətrənbəri onu məst elədi, o bir müddət dolxusunmuş yerindəcə qaldı. Vətənin ətri, güllü-çiçəkli yamacları, gen dərələri, sıx meşə-

ləri yadına düşdü, yamanca qubarlandı, bir yandan da Pərinin məktuvu onu lap haldan çıxartdı. Daxmaya girif həmən naməni bir də Qızyetərə oxudu. İkisi də dolu döymüş əriy çiçəyi kimi büzüşdülər. İsmayıl baxdı gördü ki, Qızyetər ağlamaqdan özünü gücnən saxlyır, göz yaşı odu ki, kirpiklər arasında düymələnif süzülmək istəyirdi. İsmayıl qızın göz yaşını dəsmalnan silif, ona təskinlik verməyə başdadı.

Bu günnən Faxralıya qayıtmax fikri onu tərk eləmədi. Öz-özünü məzəmmət elədi, çox götür-qoydan sonra dedi: «Can nə qədər şirin olsa da Vətən onnan da şirin olmalıdı, şükür yaradanın birliyinə artıq murazıma çatmışam. Məni əvəz eliyəsi oğlum da var, bunnan sonra bir gün də qalmaram qürbətdə, qismətdən artıq yemək olmaz».

Həmən günü gecəni qalıb, səhərsi öy yiyəsinnən halallaşıf, öpüşüf-görüşüf ayrılıf getməyə üz qoydular.

O vaxt gəlif Faxralıya çatdılar ki, qarannıx qarışmışdı. Damın qapısını döyüf içəri keçdilər. İsmayıl baxıf gördü ki, anasınnan bacısı Pəri taxtın üstündə qabax-qabağa oturub «İsmayıl» deyən ağlıyırlar. Pəri qapıya tərəf baxan kimi İsmayılı tanıdı, tez duruf boynuna sarmaşdı, öyün külfəti bir-birinə qarışdı. Gülən kim, söyüncəyliydən ağlayan kim. İsmayılın təzə dünyaya gəlmiş körpəsinnən oynuyan kim.

Bular burda öpüşüb-görüşməkdə olsun, eşit cuğuldan.

Bir cuğul axşam-sabah İsmayılglin öyünün həndəvini kəsdirmişdi, gözdüyürdü ki, İsmayıl gələn kimi tez gedif xəbər versin, bəlkə əvəzində ona bir şey verdilər. Elə bu axşam da bu tərəflərə hərlənməkdə məqsədi o idi. İsmayılın gəldiyini yəqin eliyən kimi qaçıf tez Qızyetərin əvvəlki nişanlısına xəbər verdi. O da baxıb gördü ki, qohum-qardaşı götürüb basqına getsə, bunun axırı yaxşı olmaz, yaxşısı odu ki, gecəynən qəza rəyisinə bir xəbər göndərsin, özləri neyniyir, eləsin. Bir yannan da təzəjə öyləndiyinnən, bu işə o qədər baş qoşmax istəmirdi.

Xəbər qəza rəyisinə çatdı, atdılar bir-birinə calanıf Faxralıya üz qoydu. İsmayılı gəlif qolu bağlı rəisin hüzuruna apardılar. Məhkəmə günü müəyyən oldu.

Güllər Pərisi də gənə həmən mirzəni tapıf qardaşınnın bağışdanmasını bir neçə bəndnən xahiş elədi. Məhkəmə günü gətirif həmən məktuvu qəza rəyisinə verdi, özü də dedi ki, orda yazılannar dilcavabı sinəmdədi. İzin ver deyim. Qəza rəisi Güllər Pərisinin cürətli qız olduğundan xoşu gəlif ona icazə verdi:

Hökümdarsan hüzuruna gəlmişəm,
Amandı, qardaşı mənnən ayırma.
Qocalıb anamız gözü yoldadı,
Elliyib sitəmi cannan ayırma.

Tapılmırdı vətəninnən qaçmışdı,
Tərlan idi yuvasınnan uçmuşdu.
Yad ölkədə qəribliyə düşmüşdü,
Bağışla, cavandı, eldən ayırma.

Mən Güllər Pəriyəm gəldim minnətə,
Amandı, qardaşı salma zillətə.
Çəkib cəzasını, düşüb zillətə,
Sevib-seçdiyini onnan ayırma.

Bu sözdəri deyənnən sora qəza rəyisinin könlünə insaf gəldi, özü də baxıf gördü ki, burda elə bir ciddi iş də yoxdu tutub İsmayılı dama bassın. Odu ki, İsmayılı həbsdən azad elədi.

İsmayıl 10-15 gün olardı ki, həbsxanadaydı, odu ki, üzü tüklənmişdi, sevimli Qızyetərdən ötrü lap darıxmışdı. Qızyetər də İsmayılın dərdini çəkməkdən heç yarı qalmamışdı. İsmayıl bunu belə görəndə ürəyi gənə də pərvazlandı, götürdü görək nə dedi:

Ayrılıq yamandı dözə bilmirəm,
Yarımın yanağı gülməz, a gözlər.
İnsafdımı onu mənnən alalar
Vermərəm özgəyə, olmaz, a gözlər.

Mən onun ucunnan düşdüm çöllərə,
Varı-dövlətimi verdim sellərə.
Bir quş tək atıldım qürbət ellərə,
Daha qeyriləri, almaz, a gözlər.

İsmayılam, dərdə dava bulanda,
Məlul könlüm şad oluban, güləndə,
Dost-tanışdar görüşümə gələndə,
Düşmənnər qırılar, qalmaz, a gözlər.

Hə... İsmayıl dost-qardaşnan öylərinə gəldi, göz aydınnığına gələnnərin ardıarası kəsilmədi. Pərinin qardaşına qurbannıx saxladığı qoçu gətirif Qızyetərnən İsmayılın ayağı altında kəsdilər. Gözəl bir məclis qurdular, elə bu məclisdə bə balaca körpənin adını Hüseyn qoydular.

Deyəllər kəndin aşığı da bu məclisdə idi, o da bu söhbəti götürüf bir müxəmməsnən tamamladı:

Könül uçdu dost bağına,
Bağçası yetgin bağ ola.
Ətrafı tər bənövşə,
Tamam laləzar ola.
Açılmış köksün bağı,
Təzə yağmış qar rola,
Baş vermiş sinəsindən,
Bir cüt qönçə-nar ola.
Nar yetirib dərməlidi,
Qaşı-gözü sürməlidi.
Açıb üzün görməlidi,
Üzü lalə, ləbi qaymaq
Heç olurmu ondan doymaq?
Mən gəzmişəm neçə oymaq
Bu misalda bir yar ola.

Yar məndən aralıdı,
Gül rəngim saralıdı.
Bağrım başı yaralıdı,
Qaraxaçın maralıdı.
Maral qaçar dağ dalına,
Arılar işlər barına.
Qızıl biləzik qoluna
Həna yaxıbdır əlinə.
Əlindən tutmalıdı,
Qol-boyun yatmalıdı.
Naz-qəmzə satmalıdı,
Arada beh-bazar ola.

Qulluğunda durar nökər,
Bazarında qəndi şəkər
Hərə bir tərəfə çəkər.
Məni də qoydu bekər,
Kəklik kimi daşda çəkər,
Sürməsini qoşa çəkər,
Çalmasını başa çəkər,
Düyməsini döşə çəkər.
Döşünün növbərini,
Hər kəs ki, dərsə barını,
Qırma ürəymin pərini,
Şair Nəbinin axır sözü,
Budur ki, etibar ola.

***Yaradıcısı və söyləyəni:*** Faxralı kənd sakini 65 yaşlı el şairi İsmayıl İsmayılov. Dastanın qəhrəmanı İsmayıl Oruc oğlunun oğul nəvəsi).

***Qələmə alan – Elxan Məmmədli***
***1983-cü il***

# SƏLİM BƏY

Sizə haradan danışım, kimdən söyləyim, İsfahan şəhərindən. Belə rəvayət eləyirlər ki, İsfahan şəhərində iki qardaş yaşayırdı. Böyük qardaşın adı Bəkil Əziz, kiçik qardaşın adı isə Nağı xan idi. Bu qardaşlar çox varlı-hallı yaşayırdılar, amma hər iki qardaşın züryatı yox idi.

Günlərin birində Nağı xan toydan evə gəlirdi. Yolda qoca bir qarı Nağı xanın qabağını kəsdi. Salam verdi. Nağı xan onun salamını aldı. Qarı nənə dedi:

- Oğul, bu dünyaya belə gəlib getməyin axırı nə olacaq? Siz ölüb gedəndən sonra yurdunuza, malınıza-dövlətinizə kim sahib olacaq? Gedərsən qardaşın Bəkil Əzizə deyərsən ki, bir xeyriyyəxana aç, qarınları doydur, çılpağı geyindir, borclunun borcunu verib onu dardan qurtar, hər ağızda bir dua var. Camaat səni dualayar, bəlkə sizin niyyətinizi Allah qəbul eliyər. Sizin də hərənizin bir züryəti olar. Bu sözü qarı nənə deyəndən sonra söz Nağı xanın ağlına batdı. Nağı xan qarıdan ayrılıb evinə gəldi. Bu məsələni başdan-ayağa qardaşı Bəkil Əzizə nəql elədi. Bu sözlərə Bəkil Əziz də razı qaldı. Odur ki, bu qardaşlar bir xeyriyyə ocağı açıb, acı doyurdular, çılpağı geyindirdilər. Borclunun borcunu verib borcdan azad elədilər. Camaat hər iki qardaşa dua elədilər. Allah tərəfindən hər iki qardaşın diləkləri qəbul olundu. Hər iki qardaşın arvadları boylu oldular. Aradan doqquz ay, doqquz gün keçəndən sonra Bəkil Əzizin arvadı barı-yükünü yerə qoydu. Bir gün ondan sonra isə Nağı xanın arvadı da yükünü yerə qoydu. Bir oğlan da onun oldu. Belə bir söz var, deyərlər ki, rəncbər uşağı zəhmətlə, pis günlə böyüyər, yekələnər. Amma varlı uşağı isə şirniyyat, kişmiş, ləbləbi yeyib böyüyər. Nağıl uşağı isə dilinən böyüyər, yekələnər. Aşığın borcu da ki, nağıl uşağını bir gecədə doğura, böyüdə, toyunu edə, sonra yata. Yoxsa günahı aşığın boynunda qalar.

Uşaqlar yeddi yaşa çatdılar. Bəkil Əziznən, Nağı xan uşaqlara yaxşı bir sünnət toyu elədilər. Uşaqların sünnət toyuna, ağalar, xanlar, bəylər, sultanlar çağırılmışdı. Buraya həm də İsfahan şəhərinin ən yaxşı mollası, ən usta dəlləyi gəlmişdi. Molla uşaqlara ad qoydu. Bəkil Əzizin oğlunun adını Səlim, Nağı xanın oğlunun da adını Rasim bəy qoydular. Toy qurtardıqdan sonra uşaqlar səkkiz yaşına keçdilər. Onlar üçün gülşən baxçasında məktəb açdılar. Uşaxları kamil bir mollaya tapşırdılar. Uşaqlar səkkiz il dalbadal oxudular.

Günlərin bir günü Səlimlə Rasim yenə də məktəbə gəldilər. Gördülər ki, molla hələ məktəbə gəlməyib. Oturdular xeyli məktəbdə. Səlim bəy Rasim bəyə dedi:

- Qardaş, get çarhovuzdan bir az su gətir içək!

Rasim əmisi oğlunun sözünü yerə salmadı. Əlinə küzə götürüb suya getdi. Rasim suya getməkdə olsun, sizə kimdən danışım, Səlim bəydən. Rasim suya gedəndə Səlim bəy məktəbdə yatar. İndi isə nəql edək Qırxlar Pirindən. Qırxlar Piri Tur dağından enib məktəbə gəldilər. Ayaqlarını yerə vurub Səlim bəyə dedilər:

- Səlim, oğul, oyan, aç gözlərini gör dünyada nələr var?

Səlim oyandı. Gördü ki, başının üstə əlində bir piyalə dolu nurani bir qoca durur. Qırxılar piri dedi:

- Oğul, bu badəni nuş elə!

Səlim bəy aldı ki, nuş eliyə, Qırxlar Piri onun əlindən tutub dedi:

- Badəni elə içməzlər. Bir sağlıq de, Allaha dua elə, sonra nuş elə!

Səlim bəy dedi: -

Ağam sağ olsun, bağışlayasınız, mən cahil uşağam toyda, məclisdə, kefdə olmamışam, mən haradan bilim ki, dua nədi, sağlıq nədi?

Belə deyəndə Qırxılar pirləri dedi:

- Oğul, zərər yoxdu. Sən bilməsən də biz nə deyəciyik, sən onu təkrar elə, xeyir-dua ver sonra iç!

Dedilər:

- Oğul, deynən "bu sağlıq olsun özü bir, adı min bir, yernən göyü yaradan Allahtalanın eşqinə!".

Səlim bəy dedi:

- Özü bir, adı min bir, yeri-göyü yaradan o qadir Allahın sağlığına nuş edirəm! Bunu deyib dolu piyaləni başına çəkdi. Qırxlar pirləri ikinci badəni doldurub Səlim bəyə verəndə Səlim dedi:

- O badəni də biz – Qırxılar pirlərinin sağlığına nuş elə! O, Qırxlar pirlərinin sağlığına ki, fağırı dövlətə yetirir, yetimi murazına, qürbətdəkini də vətəninə yetirir. "Dilərəm Allahtaladan ki,hər kimin qürbət eldə adamı var, Rəbbim onları öz ailəsi ilə qovuşdursun!".

Səlim bəy bu sözləri deyib nuş elədi. Qırxlar pirləri üçüncü badəni doldurub dedilər:

- Oğul, al bu badəni də nuş elə!

Səlim bəy soruşdu:

- Ağa, bu badəni kimin eşqinə içim?

Qırxılar piri dedi:

- Oğul, bu badəni, Hindistan şəhərində vəzirin qızı Gülbahar xanımın eşqinə nuş elə. Səlim bəy də təkrar etdi ki, bu sağlığı Hindistan şəhərində vəzirin qızı Gülbahar xanımın eşqinə nuş eliyirəm. Səlim bəy üçüncü badəni içəndən sonra ürəyi dəmirçi kürəsi kimi alışıb yandı və ağasına dedi:

- Ürəyim yandı, mənə bir əlac.

Qırxlar piri dedi:

- Oğul, yanmazsan, iki barmağımın arasından bax gör nə görürsən?

Səlim bəy ağasının iki barmağının arasından baxanda Qırxlar piri soruşdu:

- Oğul, nə görürsən?

Səlim dedi:

- Bir gülşən bağ görürəm.

Qırxlar piri dedi:

– Oğul, daha nə görürsən?

Səlim bəy dedi:

-Gülşən bağında qırx incə belli qızlar görürəm. İçində də bir mələkmisallı nazənin bir xanım görürəm.

Qırxlar piri dedi:

– Oğul, gördüyün şəhər Hindistan şəhəridi. O mələk misallı qız vəzirin qızı Gülbahar xanımdı. Onu sənə, səni də ona buta verirəm. Gedin xoşbəxt olun.

Səlim bəy Gülbahar xanımı görəndə bir könüldən min könülə ona vuruldu, Gülbahara aşiq oldu. İndi isə xəbər verək kimdən, Rasim bəydən.

Rasim bəy sudan gəlib gördü ki, Səlim bəy yatır. Ağzından da köpük aşıb tökülür. Rasim Səlim bəyi bu vəziyyətdə görəndə bir yanıqlı ah çəkib başladı ağlamağa. Rasimin ağlamaq səsinə molla içəri girdi. Gördü ki, Rasim ağlıyır. Soruşdu:

- Oğul, niyə ağlıyırsan?

Rasim dedi:

- Necə ağlamayım. Səlim bəy gör nə hala düşüb.

Molla Səlimə baxdı, onu bu vəziyyətdə görəndə Rasimə dedi:

- Get Səlimin ata-anasını bura çağır!

Rasim getdi. Səlimin ata-anasına xəbər verdi ki, Səlim bu dərəcədədi. Bəkil Əziz, Nağı xan, arvadları və bütün qohum-əqrəbaları ağlıya-ağlıya üz-gözlərini yola-yola məktəbə sarı axışdılar. Bəkil Əziz oğlunu bu vəziyyətdə görəndə uşaq kimi hönkürüb ağlamağa başladı. Oraya toplaşan ağsaqqallar-qara saqqallar, dünya görmüş kişilər dedilər:

– Bəkil Əziz, niyə ağlayırsan? Şükür Allahın böyüklüyünə. Səlim bəyə nə olub ki, ağlayırsan? Allah eləməsin düşündüyün olsa bizim şəhərimizdən adlı-sanlı mollamız var, Səlimin üstə dua yazar və onu bu dərddən azad edər.

Bəkil Əziz soruşdu:

– Bu nə şəərdir?

Dedilər:

– Bəli, dünyada üç şəir var, bunlardan biri də sevgi şəridir. Çətindir o şəri oyatmaq. Yeddi molla ola, yeddi qazı o şəri oyada bilməz. Oyatsa, söyda anaxtarı oyadar.

Bəkil Əziz dedi:

– Bəs sevdə anaxdarı nədir?

Dedilər:

– Sevdə anaxdarı sazdı. Gətirin bir cürə sazı Səlimin yatan yerdə qulağının dibində sazın telinə barmaq vurun. Əgər oyansa onda bilərik ki, sevdə şəridir. Getdilər bir cürə sazı gətirdilər. Səlimin yatdığı yerdə qulağının dibində çaldılar. Səlim də gözlərini açib öksürərək ayağa qalxdı. Atası Bəkil Əziz dedi:

- Oğlum, dərdin nədir, söylə bizə.

Səlim bəy dedi:

- Atayi-mehriban, başıma gələnləri, gözümə görünənləri diliminən desəm dilimə od düşüb yanar. İzin ver başıma gələnləri sazla deyim.

Səlim bəy bu sözü deyəndə Bəkil Əziz ağlamağa başladı və dedi:

- Oğul, sən hara saz hara? Sən ki, iki sözü calaşdırıb söyləyə bilmərsən. İndi saz səsi verirsən ? Yenə də Ağsaqqallar məsləhət elədilər ki, qoy dərdini sazla bəyan etsin. Səlim bəyə bir saz gətirdilər. Səlim bəy sazı köklədi. Saz bülbül kimi cəh-cəh vurdu. Sazı götürüb sinəsinə, düşdü eşqin binəsinə. Görək orada Səlim bəy nə dedi, orda olanlar nə eşitdi.

Biz burada Səlimin tərəfindən zəhmət çəkib deyək, eşidən dostlar şad və xoşbəxt olsun. Aldı Səlim sazı görək nə dedi:

Yuxuda eşitdim həsrət sədəsi,
Üstümə xışmınnan gəldi də getdi.
Tez ayırdı məni, qoydu qəmlərdə,
Az vaxtı yanımda qaldı da getdi.

Bir zaman çək dedi eşqin qəmini,
Kimə sildireyim çeşmin nəmini?
Dəstindən içirdi pirlər cəmini,
Eşqin sevdasına saldı da getdi.

Hinddən[1] doğdu mənim üçün bir ulduz,
Səliməm sevdasız yasanmam hərgiz.
Bağçanın içində göstərdi bir qız,
Ağlımı başımdan aldı da getdi.

Səlim atasına sazla dediyi kimi sözlə də dedi:

-Ata-ana necə ki, mənə vergi verildi, mən gedər oldum buralardan. Yol çörəyimi görün. Ata-ana soruşdu:

– Hara gedirsən, oğul, biz qoymarıq gedəsən.

Səlim bəy dedi:

–Ayə, genə bunlar başa düşmədilər, ay ata, dinlə bax gör mənə nə verildi.

Aldı görək Səlim bəy nə dedi, ata-anası nə eşitdi.

Məktəbdə sevdaya düşdüm,
İtirdim ixtiyarımı.
Necə ki, sağam-yaşaram,
Bullam könlümün yarını.

Didələrim doldu yaşdan,
Əl çəkdim, qohum-qardaşdan.
Geri dönmərəm bu işdən,
Bulmayınca o dilbəri.

Al bu tası, iç dedilər,
Layıx irava gördülər.
Səlimə buta verdilər,
Hindistanda Gülbaharı.

---

[1] Hinddən – yəni Hindistandan

Səlim bəy ata-anasına ikinci dəfə deyəndə ata-anası işi başa düşdülər.Səlimin ata-anası Səlim bəyə dedi:

- Oğul,nə iş bacarırsan?

Uzaq səfərdən uşağı yayındırmaq üçün hər peşəni dedilər, amma Səlim bəy inadından dönmədi ki, dönmədi. Axırda dedilər:

- Oğul, gəl ovçuluq elə.

Səlim bəy ovçuluğa razılıq verdi. Səlimin atası Bəkil Əziz qardaşı Nağı xanın oğulu Rasimi çağırıb dedi:

- Oğul, Səlimi bu sevdadan uzaqlaşdırmaq üçün silahlarınızı da götürüb ova çıxın.

Səlimnən Rasim yay-oxlarını götürüb ova çıxdılar. Həmin günü bircə dənə qaranquş vurdular.

Rasim dedi:

- Səlim, ona mənim oxum dəyib.

Səlim də dedi:

- Yox əmioğlu, mənim oxum dəyib.

- Yox, Səlim, xətrinə dəyməsin. Sən məndən bircə gün böyük olduğuna görə sən məndən sərrast atırsan, doğurdan da quşa sənin oxun dəyib. Onlar razılaşıb evə gəldilər. Axşam oldu, xörək-çörəklərini yeyib yatdılar. Yenə günlərin bir günündə Gülbahar Səlim bəyin yadına düşdü. Anası soruşdu:

- Oğul, Səlim, sənə nə olub ki, düşünürsən, dərdin nədir?

Səlim bəy dedi:

- Ana, dərdimi sözlə desəm dilimə od düşüb yanar, izin ver sazla deyim. Anası Səlimə rüsxat verdi. Səlim sazı götürdü, düşdü eşqin binəsinə, görək nə dedi, anası nə eşitdi.

Baxçada gördüyüm Gülbahar xanım,
Məleykə insandı xoş xislətlidi.
Mina boy, qara qaş, gözləri qara,
Aya bənzər qızdı, xoş sufatlıdı.

Kəklik yerişlidi sinəsi yumşaq,
İncə bel, ağ bədən, şirin dil dodaq.

Sarılmağa gərdan, önməyə yanaq,
Daha tərif olmaz, çox ləzzğtlidi.

Mənə göstərdilər o Hindistanı,
Gülbahar Səlimin dini-imanı.
Sizə deyim öz gördügüm cananı,
Hökməti vəzirin öz övladıdı.

Səlim bəy dərdini anasına deyən kimi anası da gedib ərinə xəbər verdi. Dedi:

- Səlim yenə çalıb-çağırır. ağlayır, elə hey Gülbahar deyib, Gülbahar eşidir.

Səlimin anası Rasimi yenə yanına çağırdı, onları ova-quşa yolladı. Yenə də Səlim və Rasim ova-quşa getdilər. Gedib şəhərin qırağına çıxdılar. Orada iki yolun qırağına çıxdılar. Bu iki yolun arası da dağdı. Dağın sağ tərəfinə bir yol gedirdi. Rasim Səlim bəyə dedi:

- Əmioğlu, o zaman ova ox atanda ,ovu vuranda mən dedim: “Səlim, mənim oxum dəydi”, sən də dedin: “Yox mənim oxum dəydi”. Aramızda mübahisə oldu. Amma indi iki yoldu. İstər sağ, istərsə də sol tərəfə get.

Səlim bəy sol tərəfə, Rasim isə sağ tərəfə getdi. Səlim bəy Rasim bəydən on-onbeş sərcin[1] aralandı və qarşısına bir ceyran çıxdı. Səlim bəy ceyranı qova-qova dağın ətəyində bir qaranlığa girdi .Səlim bəy burada gözəl bir mənzərəyə rast gəldi. Gördü ki,o dağın ətəyində bülbüllər ötür, güllər açır, quşlar da cəh-cəh vurur, bənövşələr baş qaldırıb, nərgizlər ətir verir. Səlimin diqqətini bir bülbül, xüsusilə cəlb etdi. Gördü ki, bir bülbül gül yarpağını havaya qaldırıb buraxır, sonra da onu tutmağa cəhd edir, o beləcə məşğul olur. Bülbül gül yarpağını bir dəfə də göyə qaldırır buraxır və yarpaq gəlib qara tikana girir. Bülbül də özünü qara tikana vurub, canını sevgilisi gülün eşqinə qurban verir.

[1] sərcin – məsafə anlamındadır.

Bu mənzərəyə Səlim bəy xeyli diqqətlə baxır. Sonra öz-özünə fikirləşir ki, ey gidi dünya, mənim bir quş qədər etibarım yoxdu? İşə bax ki, bülbül öz canını sevgilisi uğrunda qurban verdi, mən isə burda ovçuluq edirəm başımı qatmaq üçün. Elə ordaca Səlimi qəm basdı. Yay oxunu saz əvəzinə sinəsinə basıb, aldı görək yana-yana nə dedi. Biz də deyək eşidən dostlar şad olsunlar.

Bənövşəni gördüm artdı əfkarim
Gülbahar yadıma düşdü bu yerdə.
Sərim dümannandı, qəm basdı məni,
Gülbahar yadıma düşdü bu yerdə.

Bənövşə qızarıb gül olmuş xəndan,
Sallanıb-saralıb eyləyir firqan.
Oy quşu neynəsin sövdaya yanan,
Gülbahar yadıma düşdü bu yerdə.

Səlim bəyəm, bir yol göstərdi ağam,
Yolumu gözləyir sevdalı aşnam.
Öz maralım, hintdə maral araram,
Gülbahar yadıma düşdü bu yerdə.

Səlim bəyin bu bağırıb-çağırmasını Rasim eşidib gəlir. Görür ki, Səlim elə haldadı ki, heç olmayan kimi. Təzədən Rasim Səlimi evə aparır.

Səlimin atası Bəkil Əziz oğlunu bu vəziyyətdə görəndə oğlundan soruşur:

- Oğul, sənə nə olub ki, bu kökə düşübsən, hələ bir dərdini söylə.

Səlim bəy atasına dedi:

- Mən öz dərdimi dilnən deyə bilmərəm, izin ver dərdimi sənə sazla deyim. Atası Səlim bəyə izin verdi. Səlim bəy sazı elə köklədi ki, saz qumru-göyərçin kimi ötməyə başladı. Səlim sazı götürdü sinəsinə, düşdü eşqin binəsinə. Görək atasına nə dedi, atası nə eşitdi.

Daha durmaq olmaz, gedirəm ata,
Nə üçün əyilirsən bu qədər məni.
Budu iltimasım ver duan gedəm,
İzin ver, yola sal, ya pədər[1] məni.

Can dayanmaz, görsən ceyran çağında,
Qırx incə bel qız var solu-sağında.
Şeyda bülbül təki kəndi bağında,
Ağlar, arar, gəzər nazlı yar məni.

Səliməm istəməm ayrılam səndən,
Yarın eşq atəşi can üzər təndən.
Sevda kəməndini sarmış hər yandan,
Bağlamış çəkiyor Gülbahar məni.

Səlim sazla dediyi kimi sözlə də atasına dedi:

- Ata, mən getməliyəm, artıq qala bilmərəm.

Atası izin verdi. Səlim bəy anasına dedi:

- Ana, mənə ki, getmək var,durmaq haramdı. Mənim azıx-tozuğumu, yol çörəyimi gör, mən gedər oldum.

Səlimin anası ağlaya-ağlaya Səlimin yol tədarükünü gördü. Səlim azıx-tozuğunu götürdü ki,gedə,anası ağlamağa başladı. Səlim anasının ağlamağını görən kimi sazını götürdü sinəsinə, düşdü eşqin binəsinə. Aldı görək nə dedi:

Anam, mənə dua söylə,
Hindistana gedər oldum.
Getməyə tədarük eylə,
Hindistana gedər oldum.

Bayramda gördüm o yarı,
Tərk elədim mülkü-varı.
Görmək üçün Gülbaharı,
Hindistana gedər oldum.

[1] pədər – ata

Səlim bəyəm, dərdim çoxdu,
Sevda ürəyimizdə oxdu.
Gedəcəyəm, çarə yoxdu,
Hindistana gedər oldum.

Anası gördü ki, Səlimin ətəyindən daşı tökmək mümkün deyil, çox müşküldü. Odu ki, anası da izin verdi, xeyir-dua eləyib yola saldı. Səlim anasından da izin alandan sonra Rasim bəyin yanına gəldi. Onun ürəyini yoxlamaq üçün aldı görək nə dedi, Rasim ona nə cavab verdi.

**Aldı Səlim bəy:**

Qürbət eldə qərib igid,
Köməyi yaradan ola.
Düşmənləri qarşısında,
Yoldaşı qəhrəman ola.

Səlim bəy bu sözləri deyən kimi Rasim aldı görək Səlimə nə cavab verdi.

**Aldı Rasim bəy:**

Sayma məni qorxaq cocuq,
Ayrılmam səndən, Səlim bəy.
Namərd qoyar yoldaşını,
Ayrılmam səndən, Səlim bəy.

**Aldı Səlim bəy:**

Yoldaşdı –yoldaşın dalı[1],
Geymişəm aslan misalı.
Qılınc çala dəli-dolu,
Davada davranan ola.

**Aldı Rasim bəy:**

Aslan təki daldan gəlləm,
Kürz atıb düşmənə dallam.

[1] dalı – arxası, köməyi, söykəyi

Qorxma Səlim qadan allam,
Ayrılmam səndən, Səlim bəy.

**Aldı Səlim bəy:**

Bu dünyanın fənəsinə,
Qarşı dura davasına.
Qürbət elin cəfasına,
Səlim tək dayanan ola.

**Aldı Rasim bəy:**

Rasimə haramdı cahan,
Səndən ayrı saxlasa can.
Bəy əmimin bir oğlusan
Ayrılmam səndən, Səlim bəy.

Səlimnən Rasim deyişdikdən sonra yaraqlanıb – yasaqlanıb, atlanıb düşdülər Hindistan yoluna. Az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar. Gecə-gündüz yol getdilər, dağlar aşdılar, dərələr keçdilər. Nəhayət bir uca dağa çatdılar. O uca dağda bir kürd çobana rast gəldilər. Çobanın adı Başqıran Dəli Həso idi. Başqıran Dəli Həso onların qabağını kəsdi. Rasim istədi dava eliyə, Səlim bəy qoymadı dedi:

-Sən hələ dur, mən üç bənd söz deyim, əgər, o sözdən qanmasa onda sən bilərsən, qılıc bilər.

Aldı görək Səlim bəy Başqıran Dəli Həsoya nə dedi,o nə eşitdi

Ey Başqıran Dəli Həso,
Bizə gəstər Hind yolunu.
Qəribik, bir yaxşılıq et,
Bizə göstər Hind yolunu.

Bu dağların sərdarısan,
İgidlər bərabərisən.
Qəriblər havadarısan,
Bizə göstər Hind yolunu.

Səlim bəyəm bu yerlərdə,
Çaşdım qaldım bu yerlərdə.
Yar hərdən söylər dilində.
Bizə göstər Hind yolunu.

Səlim bəy bu sözünü tamam edəndən sonra Başqıran Dəli Həso onları öz binəsinə apardı. Bir erkək kəsdi, yedilər-içdilər.

Sonra Dəli Həso dedi:

- Aşıqlar, mənim bir qızım var, ona tərif deyin.

Səlim bəy dedi:

- Ay Dəli Həso,aşıq gördüyünə tərif deyər, deynən qızın gəlsin gözümüz önündən keçsin, boybuxununu görək sonra tərif deyək.

Başqıran Dəli Həso qızını-Fəti xanımı çağırıb dedi:

- Fəti xanım, gəl bu aşıqların gözünün qabağından keç, sənə tərif desinlər.

Fəti xanım pərdənin arxasından çıxıb aşıqların gözünün qabağında gəzindi.Aşıq Səlim sazı götürüb görək Fəti xanımı necə tərif elədi:

Tərifini eşit, davul başlı nazəni,
O, sac qulaqlarını tərif eləyim.
Annı sivri, qaşı bəd rəngli nazəni,
O, çil yanaqlarını tərif eləyim.

Çuxur gözlü, burnu toxumluq xiyar,
Əyri çənələri tərifə uyar?
Hər bir dişi vardır bir qazma qədər,
Kərpic dodaqları tərif eyləyim.

Qısa boylu,yansızdır o dalın,
Bir örkən dolanmaz o incə belin.
Tuluq məməlisən,yarmaca qolun,
Kobud barmaqlarını tərif eləyim.

Eşit tərifini Səlim aşığın,
Qol, ayaq, bel, bir-birnə uyğun.

Donuz paçalısan, baldırı yoğun,
Mərtək ayaqlarını tərif eyləyim.

Səlim bəy tərifi dedikdən sonra gecə yatdılar Dəli Həsonun binəsində. Gün aşdı Qafdan, dağlar baş verdi girdi libasına. Hər quş, hər əsnəf yerinnən tərpənən zaman xeyirli sabahlar üstümüzə açılsın. Hava işıxlandı. Qalxdılar, üst-başlarını geyindilər, əl-üzlərini yudular,xörək-çörəklərini yedilər. Başqıran Dəli Həso Hindyolunu onlara göstərdi. Sağollaşıb düşdülər yola. Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər. Dərələrdən sel kimi, təpələrdən yel kimi, Əmzeyi pəhləvan kimi gedib Misir şəhərinə çatdılar. Şəhərin qırağında bir gülşən bağçasına rast gəldilər. Bağın qırağında bir abi-həyat bulaq var idi. Səlim Rasimə dedi:

- Qardaş, gəl əl-üzümüzü yuyaq, çörək yeyib bir balaca dincələk. Bunlar çörək yeməkdə olsunlar sizə hardan və kimdən xəbər verək Misir şəhərinin paşasından.

Paşanın adı Şakil paşa idi. Həmən o, gülşən baxçası da Şakil paşanın qızı İnci xanımın idi. İnci xanım bu vaxt qırx ceyrə[1] ilə gəzməyə çıxmışdı.İnci xanım sirr yoldaşı Ağca qıza dedi:

– Ağca qız, get o bulaqdan su gətir!

Ağca qız sənəyi götürüb suya getdi. Suya gedib bulağa çatanda Səlim bəylə Rasim bəyi görüb bir yanıqlı ah çəkdi və dedi:

- Oğlan, sizi doğan anaya canım qurban olsun. Kaş ki, sizin kimi on oğlan doğaydı.

Soruşdular:

- Niyə?

Dedi:

– Çünki, biriniz xanın qızını alardız, biriniz gizirin, biriniz vəzirin, biriniz vəkilin. Elə sən yazığa da mən yazıq qismət olaydım. Eh nə bilim, vallah gedəndə də elə belə sənin kimi oğlana ərə gedəsən ki,...yoxsa da avaraya-uvaraya getməkdənsə heç getməsən ondan yaxşıdı. Qız bu fikirlə sənəyi suya saldı.

[1] ceyrə – əslində "cariyə"dir, xidmətçi, qarabaş mənasındadır.

Gözünü oğlanlardan çəkmədi. Sənəyin alt tərəfi islansa da heç içinə su getmədi. Sənəyi boş götürüb qayıtdı İnci xanımın yanına İnci xanım dedi:

- Ay çəpəl, sudan niyə belə gec gəldin?

Ağca qız İnciyə cavab verdi və dedi:

- İnci xanım, allaha şükür, eylə ki, mən gördüyümü gördüm salamat qayıtdım, amma sən olsaydın salamat gəlməzdin.

- Deyəndə İnci xanım dedi:

- Ay qız, kimi gördün?

Ağca qız dedi:

- Çarhovuzun qırağında iki növcavan oğlan çörək yeyirdilər, onları gördüm. Ağca qız belə deyəndə İnci xanım əlini atıb cibindən bir az xərclik pul çıxartdı və dedi:

- Apar ver bunu aşıqlara bizə tərif desin.

Ağca qız pulu gətirib verir aşıqlara deyir:

- Aşıqlar, bizim xanımımız Şakil xanın qızı İnci xanım sizdən tərif istəyir.

Səlim bəy dedi:

– Ay qız, get xanımına de ki, aşıq gördüyünü tərif deyər, heç olmasa çarhovuzun başına çıxsın,boy-buxununa tamaşa edək, sonra layiqli bir tərif deyək. Ağca qız aşıqların sözlərini İnci xanıma dedi. İnci xanım qırx incə bellə çarhovuzun başına gəldi. Özü hovuzun künbəzinə qalxıb əlində olan yelpəyini əlinə alıb gah sağ, gah da sol tərəfə yellədi. Bunu Səlim bəy gördü, götürdü sazı görək necə tərif eləyir.

Rasim, bir qız bizdən çalğı istəyir,
İsmi İnci,səri çığalı xanım.
Qırx nazənin sarımış sağı-solunu,
Oturmuş ortada aynalı xanım.

Nazlı-nazlı valasını sallayır,
Şahin təki kəkliyini qovlayır.
Əl-cib pulu bizə xərclik yolluyur,

Keyfdə-keyfiyyətdə safalı xanım.

Bax Rasim, baxdıqca artar din-iman,
Əbru kimi kirpik kaman,can alan.
Səlim bəyə gəlin olsun İnci xan,
Gülbahara uyğun simalı xanım.

Səlim bəy İncini sazla tərif eliyən kimi sözlə də tə"rif elədi və dedi:

-Rasim, bil ki, İnci xanımı sənin üçün alacağam.

Səlim bəynən Rasim oradan Misir şəhərindəki, qəhvəxanaya getdilər. O qəhvəxanadan aşıq Rahib adlı bir aşıqla rastlaşdılar. Bu vaxt aşıq Rahib Səlim bəyi aşıq bilib deyişməyə başladılar.

**Aldı Aşıq Rahib:**

Şaşqın durna kimi uçdun bu yerə,
Edəməzsən burda kar, aşıq Səlim.
Əcəm aşıqları bekarə olar,
Qaçacaqsan geri dar, aşıq Səlim.

Aşıq Səlim aldı görək onun cavabında nə dedi:

Düşüb güzarımız Misir elinə,
Lazım deyil simüzər Aşıq Rahib.
Sənin tək aşıqdan beş-on dənə də,
Atamın yurdunda var, aşıq Rahib.

**Aldı aşıq Rahib:**

Biz çətin bilirik İran adamın,
Adamnan saymazıq bizlər əcəmi.
Ağzı böyük söylər bilməz əncamı,
Sizdə olsa namus-ar, aşıq Səlim.

**Aldı aşıq Səlim:**

Nədir istədiyin qorxunca toyuq,
Gen şalvar, dar ürək, başları sarıq.

Beş-on arşın qurşaq al, çabuq-çabuq,
Üşümədən başını sar, Aşıq Rahib.

**Aldı aşıq Rahib:**

Sən ki İsfahandan gəldin bu yana,
Aç gözlərini indi ustadın tanı.
Rahibəm, gör indi sancaram səni,
Necə ilan sancar, mar aşıq Səlim.

**Aldı aşıq Səlim:**

Əzrayıl tək mən də girərəm qəsdən,
Alacağam canın xəbər ver dosta.
Səliməm duman tək çökərəm üstən,
Yağdıraram başana qar, aşıq Rahib.

Səlimnən Rahib deyişdikdən sonra Səlim qabağa düşdü və aldı görək nə dedi:

Zey-əlif, fey-əlif, rey aşiq Rahib.

Səlimin bu sözlərinə aşıq Rahib cavab verə bilmir və başını aşağı salaraq deyir:

-İkinci xananı da de, hər ikisinə birdən cavab verərəm.

Aldı Aşıq Səlim ikinci bəndi görək necə dedi:

Bu dünya fanidi, eylik qədimdi,
Haqqın qulu dəgil, hər kim zalımdı.
İndən belə bulki, sənə lazımdır,
Mim-əlif, zey əlif, fiey aşıq Rahib.

Aşıq Rahib gördü ki, cavab verə bilmədi. Odur ki, lovğalanaraq dedi:

- Üçüncü bəndi de, qara kotan kimi üçünü də birdən çıxaracam. Aldı aşıq Səlim üçüncü bəndi görək necə dedi:

Söylə Rahib, nə istərsən Səlimdən,
Xəstəisən məlhəm istə həkimdən.

Qurulmuş dünya əhli alimdən,
Qab elif, dal-əlif, fiey aşıq Rahib.

Onlar orada deyişməkdə olsunlar sizə kimdən xəbər verim İnci xanımdan. İnci xanım Rasimi görəndə öz dərdini anasına dedi:

Anası da atası Şakil paşaya xəbər verdi:

-Qızın sevdaya düşdü.

Aşıq Rahib Səlimə cavab verə bilmədi gözünü döyə-döyə yerə baxdı. Xəbər catdı Şakil paşaya:

-Öyün yıxılsın aşağını bağlayıb qoydular başmağa.

Şakil paşa o zaman qəhvəxanaya çatdı ki, sözləri Səlim bəy deyib,aşıq Rahibdən cavab gözləyir. Rahib isə gözlərini döyə-döyə yerə baxır. Şakil paşa Səlimdən soruşdu:

– Oğul, siz kimsiniz, hardan gəlib, hara gedirsiniz?

Səlim dedi:

– Paşa, rüsxat ver, haralı olduğumu sazla deyim.

Paş dedi:

– Rüsxatdır, buyur!

**Aldı aşıq Səlim:**

İran mülkündənəm, Paşa əfəndim,
İsfahan mülkünə sakinətəm mən.
Bir ocaqzadəyəm degiləm gədə,
İranı zəbt etmiş malım-dövlətim.

Əmim Nağı xandı, atam Bəy Əziz,
Qulluguna gəlir Xoynan Təbriz.
Aşpazlar yeməyin dağıdır təmiz,
Tökülür sufraya şəhtu şərbəti.

Səlim bəyəm, ayrılmışam o dəmdən,
Zərəfşən otaqda dolu möhmindan.
Gülbaharı bulmeyinca bu dəmdən,

Qurtarıb dağılmaz marağım mənim.

Səlim paşa sazla dediyi kimi, dilnən də dedi:

-Paşa, biz ki,varıx İsfahanlıyıx.

Paşa soruşdu:

-Bəs səfəriniz haradı?

Səlim bəy dedi:

-Kandan gəlib, makana gedirik.

Şakil paşa dedi:

-Bala, bir de görüm kan nədi, məkan nədi? Sən bir tikə uşaqsan.

Səlim bəy dedi:

-Paşa əfəndim, kan bu dünyadı, məkan o dünya.

Paşa dedi:

-Oğul, indi gedişatınız haradır?

Səlim bəy cavab verdi:

-Paşa əfəndi, İsfahandan gəlib Hind şəhərinə gedirik. Şakil paşa bunları evinə dəvət elədi. Xörək gətirdilər, çörək gətirdilər. Yeyib-içdikdən sonra Şakil paşa məsələni açıb danışdı ki:

-Mənim bir qızım var, onu sənin əmin oğluna vermək istəyirəm.

Səlim dedi:

-Gətir, qızına baxaq!

Şakil paşa İnci xanımı çağırdı. Səlim bəy İnci xanımı görən kimi güldü. Bunun bu gülməyi paşaya yaman ağır gəldi. Paşa soruşdu:

-Oğul, niyə güldün? Mənimi bəyənmədin, yoxsa qızımı?

Səlim bəy dedi:

-Paşa sağ olsun, qızına güldüm. Sənsiz mən də onu bağda ikən Rasim üçün gözaltı eləmişəm, ancaq ondan ötrü güldüm.

Qıznan oğlanın razılığını biləndən sonra kef məclisi toya çevrildi. Yeddi gün, yeddi gecə toy çalındı. Səkkizinci axşam qızı tapşırdılar oğlana. Vaxt gəlib araya yatmaq vaxtı düşdü. Yatarkən Rasim qılıncı sıyırıb özüylə qızın arasına qoydu. Gecə

düşdü, səhər açıldı. Üstünüzə xeyirliklə açılsın hər vaxt səhərlər.Qızın anası qızından soruşdu:

-Qızım,axşam Rasimlə necə yatdın?

Qız gözlərinin yaşını töküb dərdini anasına danışdı və dedi:

-Ana, yatan zaman Rasim qılıncı aramıza qoydu.

Rasimin bu hərəkətindən qızın anası pis oldu. Gedib əri Şakil paşaya dedi:

-Bəs, məsələ belədir. Rasim belə bir iş görüb.

Şakil paşa Rasimi çağırdı və dedi:

-Oğul, niyə yatanda qılıncı araya qoydun. Bəlkə qız xoşuna gəlmədi, ya.. Rasim paşaya cavab verdi:

- Paşa əfəndim, qızına da, özünə də qurbanam, amma mən qılınc zoru ilə gedirəm əmim oğluna gəlin gətirməyə. Ona görə də İnci xanımla o gecə bacı-qardaş kimi yatdıq. Nə vaxt tanrı özü əcəldən macal verib sağ salamat qalsam, geri gələndə qızın mənimdi, qızını bax, onda aparacam.

Rasim belə deyəndə Şakil paşa dedi:

– Oğul, gəl sən qal, İnci xanımın yanında.Səlim bəy Hindistana tək getsin. Paşa belə deyəndə Rasim aldı sazın görək nə dedi:

Şakil paşa, o nə sözdü,
Səlim yalqız vara Hində.
Qalam İnci xanımnan,
Səlim yalqız vara Hində.

Əmim duysa məndən küsər,
Atam duysa məni asar.
Bıçaq ürəyimə basar,
Səlim yalqız vara Hində.

Səlim məniynən qardaşdı,
Hər bir səvgümdən o, başdı.
Mən Rasimə arkadaşdı,

Səlim yalqız vara Hində?!

Rasim sözünü tamamladı. Sonra dilnən də dedi:

-Paşa sağ olsun, qoymaram Səlim Hində tək gedə.

Şakil paşa razılıq verdi. Rasimlə Səlim bəy onlarla halallaşıb Hind torpağına rəvan oldular. Az getdilər, çox getdilər, çox gedib az dincəldilər, az gedib çox dincəldilər. Dağlar aşdılar, dərələr keçdilər, günün bir günündə gəlib dərin bir dərəyə düşdülər. Onların qabağını qəddar bir harami kəsdi. Rasim bəy istədi ki,bir qılınc çəkə.Səlim bəy qoymadı.

Dedi:

-Olmaz, Rasim, qoy əvvəlcə sazla deyim,əgər qansa lazım deyil, qanmasa sən bilərsən qılınc bilər.Aldı görək Səlim bəy nə dedi:

Sevdəgərik Hində səfərimiz var,
Bizdən uzaq dolan, hərami ərəb.
Pirilərin quluyuq, gəl dəymə bizə,
Bizdən uzaq dolan, hərami ərəb.

Mərd igidsən kimsə gəlməz tay sənə,
İkimizi qardaşlıq say sən, sənə.
Əgər dəyərsənsə bizə – vay sənə,
Bizdən uzaq dolan, harami əcəm.

Nə küpləndin çıxdın sən də sol yandan,
Xatanı satın al Səlim aslandan.
Qılınc çalsam bölünərsən ortandan,
Bizdən uzaq dolan, hərami ərəb.

Hərami ərəb bunlara yoldaş olur. Hərami ərəb deyir:

- Madam ki, siz qılınc zoruyla qız gətirməyə gedirsiniz, mən də oluram sizə yoldaş. Dostunuzla dost, düşməninizlə varam.

Hərami ərəb onları götürüb öz mağarasına aparır, yedirdib-içirdir. Az gedib-üz gedib, dərə-təpə düz gedib; dərələrdən sel kimi, təpələrdən yel kimi, gəlib Hindistana çatdılar. Onlar orada

qoca bir arvadla rastlaşdılar. Salam verib, əleykə salam alandan sonra qarıdan soruşdular:

-Ay nənə, imanına qurban olum, olarmı bu gecə sizdə qonaq qalaq.

Qoca nənə dedi:

– Oğul, qonaq Allahın qonağıdı, qonaq olmayan evə zülm qonsun. Allaha da qurban olum, sizə də.

Qarı nənə bunu deyib onların hər üçünü də evə də”vət elədi.

Sonra dedi:

-Ay oğul, sizə nə danışım, nə gizlədim, yatmağa yerim olsa da, amma, yeməyə heç nəyim yoxdu.

Səlim bəy əlini cibinə salıb xeyli xərclik çıxarıb qarıya uzadıb dedi:

-Ay nənə, al bu pulu bazara get, ürəyin nə istəyir al gətir bişir. Sən də ye, biz də.

Nənənin bazara getməsi ilə qayıtması bir oldu. Yemək gətirib hazırladı, stol açdı. Yeyib-içdikdən sonra nənədən soruşdular:

-Ay nənə, bu Hindistan şəhərində təzə nə xəbər var? Nənə dedi:

-Oğlum, nə olacaq, hökuməti-vəzir öz qızı Gülbahar xanımı əsgər başı Bəkir Minbaşıya ərə verir.Amma,qız inadlaşıb ərə getmək istəmir.

Səlim dedi:

-Ay nənə,qız o Bəkir Minbaşıya niyə ərə getmir?

Qarı dedi:

- Oğul, ona görə getmir ki, qızın gözlədiyi var. Ona getmək istəyir.

Səlim dedi:

Anacan, bəs onun gözlədiyi adam kimdi?

Nənə cavab verdi:

– Oğul,deyirlər ki, onun gözlədiyi İsfahan şəhərindən Bəkil Əzizin oğlu Səlimdi.

Səlim dedi:

-Anacan, o dediyin Səlim bəy mənəm ki, varam. Sən deyən Gülbahar xanım haradadır?Bir mənə göstərməzsənmi?

Qarı dedi:

– Oğul,dəliha deyilsən? Bu işıqlı dünyanı mənə niyə dar eləmək istəyirsən? Belə deyəndə Səlim bəy ona xeyli xərclik verdi. Nənə qızılı görəndə ət görmüş ac pişik kimi gözləri parıldadı. Hərami ərəblə Rasim bəy nənənin evində qaldılar. Qoca nənə Səlimlə Gülbaharı görməyə getdilər. Odu ki, qarı Səlim bəynən Gülbaharın seyrinə çıxdılar. Nənə Səlimi aparıb bağı göstərdi. Özü geri qayıtdı. Nənə geri qayıtmaqda olsun, indi də sizə xəbər verim Gülbahar xanımdan.

Gülbahar qaravaşlarına dedi:

– Qızlar, ürəyim yaman darıxır, bir az deyib-gülmək istəyirəm. Siz Allah, əgər bir aşıq-zad görsəniz bura çağırın. Bir az mahnıya-saza qulaq asaq, eynimiz açılsın.

Qızlar dörd göz oldular. Səlim bəyi qızlar bağın yanında hərrənən görüb, qırsaqqız olub əl çəkmədilər. Dedilər:

- Aşıq, səni bizim xanım görmək istəyir.

Səlim bəyi Gülbaharın hüzuruna apardılar. Səlim bəy salam verdi. Gülbahar əleyk aldı. Səlim bəy Gülbaharı görəndə cuşə gəldi. Sədəfli sazını bağrına basıb görək nə dedi:

**Aldı Səlim bəy:**

Sallanıb gəzərsən bağda sebgilim,
Deməzsən aşığim gəlmədi, hanı?
Yaxın gəl bir soruş halımdan xanım,
Üç aydı gəzirəm mən çölüstanı

**Aldı Gülbahar xanım:**

Arzulardım səni şükür ki, gördüm,
Bu dəm qonağımsan buyur, Səlim bəy.
Gizlin-gizlin daldalardan baxarsan,
Bu dəm qonağımsan, buyur, Səlim bəy.

**Aldı Səlim bəy:**

Mən ovçuyam, maral, ovkağım sənsən,
Çəkdiyim dərdiynən-fərrağım sənsən.
Ağır bəzirganam, matahım sənsən,
Gəlmişəm aparım İrana səni.

**Aldı Gülbahar xanım:**

Vağyamda görmüşdüm səni ay, oğlan,
Sən gəldin sevindi baği-gülüstan.
Canımnan bərabər bağ sənə əfşan,
Bu dəm qonağımsan, buyur, Səlim bəy.

**Aldı Səlim bəy:**

Geyinifsən yaşıl üstündən bəyaz,
Sevdalı bülbül tək eylərəm pərvaz.
Səlim bəy də deyər gəl eyləmə naz,
Yaxın gəl sevindir ürəgim mənim.

**Aldı Gülbahar xanım:**

Qulun qurbanınam gözləri məsdan,
Yaxın gəl, verəyim dəstimi dəstan.
Bu gün Gülbaharı çıxatdın yasdan,
Bu dəm qonağımsan, buyur, Səlim bəy.

Səlim bəylə Güllübar xanım bir-biriylə deyişən zaman Gülbahar xanımın cəyrəbaşı[1] Ağca qız qızın atasına xəbərə qaçdı. Ağca qızın atası da şuğul adam idi. Odur ki, hökümıəti Vəzirə şuğulladı ki:

- Gülbahar xanım Xas bağçada Səlim bəylə gəzir. Deməzsənmi öpüşün biri bir pud kartofa; o da, nisyə payız xırmanı vaxtına. Bu sözü eşidən hökümıəti Vəzir hökm elədi ki, Səlim

[1] cəyrəbaşı – baş qarabaş

bəyi tutun gətirin!

Cəlladlar Səlim bəyi tutub qabaqlarına qatıb gətirdilər. Höküməti Vəzirin hüzuruna. Vəzir hökm elədi:

- Onu öldürün!

Vəkil-vəzir, gizir qoymadı. Dedilər:

- Olmaz, öldürməyək, hələlik zindana salaq. Hələlik Gülbahar xanımdan da öyrənək. Bəlkə bu işdə o da günahkardı.

Höküməti Vəzir hökm elədi ki, elə isə Səlim bəyin qollarını bağlayıb zindana salın!

Səlim bəy dedi:

- Vəzir, izn verin dilimə üç xana söz gəlib, onu deyim, sonra məni zindana sal. Əlindən ki, alan yoxdur.

Vəzir izn verdi. Səlim bəy sədəfli sazını bağrına basıb aldı görək yana-yana nə dedi:

- Ya Allah, sən mərd yaxasını namərd əlinə giriftar eyləmə. Amin, inşallah!

**Aldı Səlim bəy:**

Quş keçməz dağlardan aşdım da gəldim,
Dilimdə Gülbahar, ürəkdə Allah.
İçirtdi badəni nurənin qoca,
Hindistan mənimçün oldu qibləgah.

Məni İsfahandan Hində gətirən,
Qəzadan, qorxudan, dərddən ötürən,
Ağalar ağası, mətləb bitirən,
Gələr köməyimə, gələr, inşallah.

Səlim bəyəm, yalan deməm şahıma,
Yalan desəm qərq olaram ahıma.
Çatasıyam Gülbahar tək mahıma,
Mən haq aşiqiyəm vallahi-billah.

Səlim bəy sözünü qurtaranda Hökuməti Vəzir hökm elədi:

- Səlimi zindana salın!

Səlim bəyi zindana saldılar. Onlar burada qalmaqda olsun, gəlin sizə Gülbahar xanımdan xəbər verim.

Gülbahar xanım Səlim bəyin tutulmaq xəbərini eşidən kimi getdi anası Zeynəb xanımın yanına. Ağlayıb-sızlayıb görək anasına nə dedi:

Eşidənlərə Allah uzun ömür versin.

**Aldı Gülbahar xanım:**

Ana bil yoxdu ovladın,
Səlim bəgə kədər olsa.
Hax bərbad etsin axretin,
Səlim bəgə kədər olsa.

Baş alıb gedərəm gəlməm,
Bəkir Minbaşını almam.
Zəhər içərəm sağ qalmam,
Səlim bəgə kədər olsa.

Dilərəm saxlasın tanrı,
İsfahandan gələn yarı.
Partçalayın Gülbaharı,
Səlim bəgə kədər olsa.

Gülbahar xanım anasına saznan dediyi kimi söznən, dilnən də dedi. Sən demə Gülbaharın anası zindanın böyüyü imiş. Öz-özünə düşündü ki, qız ki, Səlim bəyi sevir qızının xətrini niyə qırsın. Gedim zindanın qapısını açım, bir baxım görüm Səlim bəy necə oğlandı. Gedib baxıb gördü ki, bu həqiqətən də canlara dəyən bir oğlandı. Qızını da bura çağırıdı, Səlim bəyin əl-ayağını açdı, zindandan çıxartdı. Gülbaharın əlini Səlim bəyin əlinə verdi, Allah mübarək eləsin! – deyib xeyir-dua söylüyüb hər ikisini alqışladı və “ Gedin oğullu-qızlı, bağlı-bağatlı olun!” dedi.

Səlim bəy Gülbahar xanımı alıb Zeynəb xanımnan salamatlıq aldı, gəldi həmən o qoca qarının evinə. Hərami ərəb, Rasim bəy, Səlim bəy hər üçü girdilər xas baxcadan Yasəmən xanımı

Ərəb üçün gətidilər. Ərəb Yasəməni, Səlim bəy Güllübarı gətirməkdə olsun, görək sonra nə oldu? Ərəb Yasəməni, Səlim bəy Güllübarı tərkinə alıb, Rasim bəy də tək atlanıb oradan İsfahan şəhərinə rəvan oldular. Qonaqlar getməkdə olsunlar, sizə xəbər verək qarabaş şuğuldan, Bəstidən.

Şuğul Bəsti minbaşıya xəbər verdi ki, evin yıxılsın, toyu kimə edirsən?

Bəkir Minbaşı dedi:

Necə yanı kimə? Özümə!

Bəsti Vəkil Minbaşıya dedi:

- Bəs, qızı Səlim bəy apardı.

Bu sözü eşidən Bəkir Minbaşı qoşunu götürüb düşdü bnların dalınca qoşun gəlib bunlara çatdı. Bəkir Minbaşının daldan çatmasını görən Rasim bəy Səlimə dedi:

- Səlim bəy, dava etməli olacam.

Hərami Ərəb dedi:

- Səlim bəy, mən də dava edəcəm.

Səlim bəy bunların sözünə razı olmadı. Dedi:

- Hələ bir dayanın! Mən Bəkir Minbaşıya üç kəlmə söz deyim. Aldı Səlim bəy görək Bəkir Minbaşıya nə dedi:

Bəkir Minbaşı nə eşitdi və görək Bəkir Minbaşı Səlim bəyə nə cavab verdi:

**Aldı Səlim bəy:**

Əsirmiş-köpürmüş daldan gələrsən,
Geri qayıt, gəlmə, Bəkir Minbaşı.
Susuzdun qanıyan şaşkın müsibət,
Geri qayıt, gəlmə, Bəkir Minbaşı.

**Aldı Bəkir Minbaşı:**

İran ölkəsinin miskin əcəmi,
Qoymam sağ gedəsən İrana səni.
Sən nəsən ki, burdan qız aparasan,
Qoymam sağ gedəsən İrana səni.

**Aldı Səlim bəy:**

Gürləyib nə tez qaçdın o yana,
İgid lazım bu meydanda dayana.
İndi çöllərini boyaram qana,
Geri qayıt gəlmə, Bəkir Minbaşı.

**Aldı Bəkir Minbaşı:**

Sən ki, İsfahandan Hində gəldin,
Tülküsən tərlanı bu yerdən çaldın.
Gedərsən, amma ki, salamat qalsan,
Salamat qoymam İrana səni.

**Aldı Səlim bəy:**

Xəbər alsan Səlim bəyin halınnan,
Şaşkın-şaşkın nə gələrsən dalınnan.
Qarğa ov ovlamaz şahın əlinnən,
Geri qayıt, bir də gəlmə, Minbaşı.

**Aldı Bəkir Minbaşı:**

Eşitmədin Hinddə Minbaşı Bəkir?
Sadlığın tasına tökərəm zəhir.
Hazır ol ölümə, eylə bir fikir,
Qoymam sağ gedəsən İrana səni.

Səlim bəy sözünü tamam elədi. Sazdan bir kar çıxmadı. Əl atdılar qılınca. Qanlı Ərəb bir yandan, dəli Rasim bir yandan düşdü. Hər ikisi sağdan düşdülər düşmənin qoşununu qıra-qıra sol tərəfədn çıxdılar. Sol tərəfdən vurub sağ tərəfdən çıxdılar. Bəkir Minbaşını diri tutdular. İstədilər öldürsünlər. Gülbahar xanım qoymadı, dedi:

- Öldürməyin, atasının bir oğludu. Atanı övladsız qoymayın.

Bəkir Minbaşını buraxdılar, o kor-peşman geri qayıtdı. Səlim, Rasim, Hərami Ərəb, Gülbahar və Yasəmən xanım düzəldilər İsfa-

han şəhərinə tərəf yol getdilər. Gəlhagəl, gəlhagəl gəlib çıxdılar Misir şəhərinə. Onlar Şakil paşanın evinə getdilər. İnci xanım onları xoş məramla qarşılamağından Gülbahar xanım küsdü. Aldı görək Səlim bəy Gülbahara nə dedi, Gülbahar xanım nə eşitdi.

**Aldı Səlim bəy:**

Nədən belə məlul oldun, sövdügüm,
De görüm bu dəm də nə qəsəvətdir?
Söylə dərdin, mən də bərabər çəkim,
Yalnız dərd çəkmək məgər ədətdi?

Sövgü, sövdügünü məzə-dad eylər,
Gah sevinər, gah sevdirər, şad eylər.
Gah naznan küsər, yarı yad eylər,
Bu naz dilbərlərə nə xasiyyətdir.

Səlim bəyə zatı başdan, bəxti kəm,
Yetər çəkdicəyim bunca dərdi-qəm.
Məni sevməyəni mən də istəməm,
Könülsüz yar sevmək belə ləzzətdir.

Söz tamama yetəndən sonra Gülbahar xanımı saznan da, dilcavabınan da başa saldı ki, İnci xanım Rasim bəyindir. O, gecə qaldılar Şakil paşanın evində. Gecə keçdi. Səhər açıldı. Səhər yeməyindən sonra Şakil paşadan icazə alıb düzəldilər yola. Yəni İsfahan şəhərinin yoluna. Nəhayət günlərin bir günündə gəlib çatdılar İsfahan şəhərinə.

Xəbər çatdı Bəkil Əzizə, Nağı xana. Hər ikisi oğullarının pişvazına çıxdılar. Ata-bala, gəlin qaynana öpüşüb görüşdülər. Analar gəlinləri dalınca apardı, ata isə toy tədarükünə hazırlaşdı. Qırx gün, qırx gecə toy elədilər, Gülbaharı Səlim bəyə, İnci xanımı Rasim bəyə, Yasəməni də Hərami Ərəbə verdilər. Hər üçü murazlarına çatdılar. Səlim bəy bu duvaqqapmaynan toylarını başa çatdırdı:

Sövdügümü Hinddən çəkdim gətirdim,
Şükür, muradımı verdi yaradan.

Əməkdar arkadaş, Hərami Ərəb,
Yasəmən, Gülbahar, Rasim, İnci xan.

Qohum qardaşlara eyləyin xəbər,
Yığılsın cəm olsun, türfə gözəllər.
Qızıl taslarınnan əzilsin şəkər,
Qəndinən içənnər etsin nuşican.

Şükür olsun gördüm düzənnin xanam,
Sevindi pədərim[1], şad oldu anam.
Səlim tək murada yetsin hər adam,
Hər adam dövranın sürsün bir zaman.

**Dastanı söylədi: Aşıq Moysi Narıni**
**Dastanı qələmə aldı: Şamil Şəfəqli**
**Yazıya alınıb: Gürcüstan Respublikası,**
**Dmanisi r-nu, Sarıgineti kəndi, 1995,**
**İnstitutun arxivinə 1997 təqdim edildi**
**İnstitutun arxivi,**
**İnv. № 746**

[1] pədər – ata

# PƏRİ-HÜRÜ

Ustadlar belə nağıl eliyillər ki, bir vaxt Gürcüstan diyarının adı Başacıx olub. Bu diyar günəşli, çiçəkli işıqlı bir diyar olub. Bu diyarda müsəlmanlarla yanaşı qonşu xiristiyanlar da yaşayıb. Vilayətdə bir kişi yaşayırdı. Nə xan idi, nə ağa, nə də bəy. Onun adına Qara dədə deyərdilər. Adi sənətkar idi. Qılınc düzəldirdi. Onun qılıncına zaval yoxuydu. Hətta arvadlar alxış verəndə deyirdi: "Qara dədənin qılıncı kimi bəxdin kəsərli olsun". Kim Qara dədədən qılınc alsa qurana əl basardı ki, mənim aldığım qılınc yalnız düşmən başı kəsməlidi. Əgər and içməsələr acınnan ölsə də qılıncını satmazdı. İran, Turan, İrəvan hamısı onu tanıyardı. Eldə çox böyük hörməti var idi. Arvadı lap gənc vaxtı uşaq üstə ölmüşdü. Nə qədər qohum, qardaş demişdi, Qara, evlən Qara evlənməmişdi. Onun dini-imanı bircə qızı var idi. Adı Hürüydü. Hürü nə mələklər mələyidi, nə də gözəllər gözəli. Ancaq elin-günün hörmətini qazanmış, atasına layiq qız idi. Onun suyu o qədər şirin idi ki, hamı ona bal Hürü deyirdi. Atası qızınnan nəfəs alırdı. Onların qonşusu milliyyətcə açar idi. O qonşunun da bir oğlu var idi, adına Piri deyirdilər. Oğlan elə yanıqlı tütək çalırdı ki, daha demə. Onu da hamı sevirdi. Atasının dükanı var idi. Dükanın qabağında axşama qədər tütək çalardı. Çaldığı havalar azərbaycanlıların havaları olardı. Atası gündə bir yol qızını həmin dükana gətirərdi. Ürəyi istəyənnən alardı. Bu səhər yenə ata-bala gəldilər. Piri Hürünü görəndə elə bil huşu getdi, özünü zorla divara söykədi. Qız aldığını alıb çıxdı. Oğlan o günnən kəndin bir şiş qayası var idi, onun düz təpəsinə çıxıb gecə-gündüz tütək çalardı. Yavaş-yavaş kəndi səs bürümüşdü. "Piri Hürüyə aşiq olub". Bir gün Hürü özü də bilmədən düz qayanın dibinə gəldi. Hürünün gəlişi oğlanı dəhşətə gətirdi. Tütəyi elə çaldı göydə quşlar qanad saldı. Yoldan gedən-gələn danışmırdı, səssiz-səmirsiz oğlanı dinliyirdi. Hürü bilirdi ki,

oğlan onun dərdinnən çalır. Yenə özünü bilməməzliyə qoyurdu. Oğlan birdən başladı oxumağa.

Ay ala gözlü yarım,
Başına dönüm dolanım.
Müsəlman olmasam da
Dinimdən dinim-dinim.

Ciyarım od alıbdı,
Canıma od salıbdı,
Bıçağım dad alıbdı,
Doğruyur dilim-dilim

Paşadı, xandı gedən,
Neşdərsiz qandı gedən,
İnsaf elə, candı gedən,
Yaxın gəl gülüm-gülüm.

Xəbər ildırım sürətinən mahala yayıldı. Hamı qayanın dibinə toplaşmışdı. Elə bil görülməmiş iş görürdülər. Müsəlman arvadları üzlərini cırırdılar. Xəbər Qara dədəyə çatdı. Qara dədənin bir şəyirdi var idi. Adı Musa idi. Qara dədə çəkici, zindanı arıyıb xeyli durdu. Sonra birdən elə bil kişinin saçlarına, qaşlarına kipriyinə qar yağdı. Musa bunları gözüynən görürdü, ürəyi qubar elədi. Aldı görək nə dedi:

Vur çəkici zindanına alışsın,
Alovlandı canım yandı, ay dədə!
Dərdini de, dərdlilərə danışım,
Gələr-gedər bu dövrandı, ay dədə!

Allah ona bəla verib bəladı,
Şaxta vuruf, çovğunnu sazaxdadı.
Qan-qan demə vallah bəxti qaradı,
Dini ayrı müsəlmandı, ay dədə.

O boranlı qar başına qurbanam,
Gözdən axan al yaşına qurbanam.
Bu ellərin dağ-daşına qurbanam,
Nadan deyil, Musa candı, ay dədə.

Qara dədə dedi:

- Musa kürkümü geyindir. Gedək ölən günümdü.

Musa Qara dədəni geyindirdi, qolunnan tutdu yavaş-yavaş getdilər. Qara dədə özünün qarşısına məqsəd qoymuşdu. Çatan kimi Hürünün başını kəsməli idi. Qara dədə o yerdə özünə gəldi ki, öz həyətindədi. Dəli kimi çığırdı. Hürü qız tələsik özünü yetirdi. Atasının gözlərində qan çanağını görəndə diz çöküb yalvarmağa başladı. Dədə, sənə qurban olum, vallah mənim günahım yoxdu. Öldür sənə qurbanam, ancaq ad çəkmə. Mən səni belə görmək istəmirəm. Birdən Qara dədə canını dişinə tutuf qılıncı çəkdi. Vurmaq istəyəndə qız havada tutdu, gileyli üzünə baxdı. Sən mənə beləmi söz vermişdin. Qara dədə dəli kimi çığırdı rədd ol, gözümün qabağından. Qız başını dədəsinin önündə əymişdi, saçları pərişan kürəyinə tökülmüşdü sanki, daşa dönmüşdü. Birdən ağlaya-ağlaya aldı görək nə dedi:

Bu nə işdi dərdim aşıb başımnan,
Aman qızım, məni zaval eyləmə.
Gülməmişəm gülüm, əzəl yaşımnan
Günü günnən dərdimi zor eyləmə.

Xəbər çatar İravanın xanına
Bir at minər çapar gələr yanına.
İnsafa gəl bir od salma canıma,
Aman qızım, günümü zor eyləmə.

Nələr deyər, tənə edər el bizə,
Molla Piri daş yağdırar Tiflisə.
Bu ləkədi mənsəbmizə, dinimizə,
Aman qızım, atanı xar eyləmə.

Hamı bu dərdə ağlıyardı. Bir an bundan əvvəl Hürüyə nifrət eliyənnərin ürəyinə insaf gəlmişdi. Hamı pərişan idi. Hürü özü yaxşı bilirdi ki, hər şeyə dözməlidi. Aldı görək nə dedi:

Canım ata, gözüm ata, imdat et,
Məni belə qaralama amandı.
Dərdim-sərim başdan aşıb onsuz da,
Ürəyimi paralama, amandı.

Baş götürüb bu diyardan gedərəm,
Görünmüyüf ilim-ilim itərəm.
Bənövşəyəm, kol dibində bitərəm,
Yaralıyam, yaralama amandı.

Ağa durar, paşa gələr, xan gedər,
Qan tökülər, qanlar axar, qan gedər,
Ürək qalar, getsə quru can gedər,
Canı cannan aralama, amandı.

Söz tamama yetdi, ata-bala ağlaya-ağlaya meydanda qaldılar. Elin dəliqanlı cavanları axşaç Qara dədənin yanına gəldilər ki, icazə ver onu biz tikə-tikə doğruyaq. O bilmir ki, heç vaxt müsəlman qızı xiristiyana ərə gedə bilməz. Qara dədə yaşının bu vaxtında qan tökdürmək istəmirdi, ona görə də icazə vermədi. Cavannar küsüb getdilər. Qara dədə düz qırx gün evdən bayıra çıxmadı. Hamı ona minnətə gəldilər ki, işinə qayıt. Hürü günnən-günə saralırdı.

Bir gün atasının Qarsda yaşayan dostu gəlmişdi. Qız onlara çörək düzəldirdi. Gəldi ki, süfrəni sala, gördü atasınnan dostu onnan danışır. Deyir ver ya Türkə, ya İrana, ya da Bağdada, birinə unudub gedər, sən də eşidərsən balan sağ-salamatdı, yarıyıb, yaşayır. Heç olmasa öləndə rahat öləsən. Hürü heç nə demədi. Qonağın çörəyini verib abı leysan kimi gözlərinnən yaş axırdı. Ona ayrılıq, vətənnən didərginnik ölümdən ağır gəlirdi. Qara dədə qonağını yola salıb evə döndü. Gördü Hürü bir haldadı himə

bənddi, dindirsən qan ağlıyar. Ehmallıca ona yaxınlaşdı, başını sinəsinə qoyub ağladı. Haradan əsdi bu qara külək, balam. Bizə tanrı nə bəla gətirdi. Hürü saşlarını saz eyləyib aldı görək nə dedi:

Qara dədə, yalvarıram qan demə,
Qulam qurban eylə obama məni.
İranlıya, Türkə, Bağdada vermə
At yanım qış günü sobana məni.

Sovrulub, sovurub yelə verincə,
Yazda su daşınca selə verincə,
Bağdad xəlifəsinə ərə verincə,
Ver qalım yurdumda çobana məni.

Ağsaq dovşan kimi tarlada qalım,
Saxla məhbus kimi qalada qalım,
Qıyma ömrü boyu qarada qalım,
At yesin zığlıqda qabana məni.

Söz tamama yetdi. Hürü söznən də dedi:

– Dədə, sənə qurban olum, məni qərib eyləmə. Qürbət öldürər məni.

Bunlar burada qalmaqda olsun, sizə kimnən deyim Piridən. Piri günü-gündən havalanırdı. Atası, anası qohumu nə qədər eyləyirdi Piri dediyinnən dönmürdü. Öləcəm Hürünü alacam. Molla, keşiş, loğman ona əlac edə bilmirdilər. Bu yannan da iki nəsil, iki millət arasında ədavət başlayırdı. Hürü məəttəl qalmışdı. Suya düşəndə su aparırdı, oda düşəndə od yandırırdı. Hürü fikirrəşdi ki, qoy mən onu gedib bir yaxşı başa salım ki, olası iş deyil. Əgər doğurdan da məni sevirsənsə əl çək bu niyyətdən. Piri yenə şiş qayanın tən ortasında oturub yana-yana tütək çalırdı. Hürü qayanın yanına gəldi. O tərəfə bu tərəfə boylanıb heç kəsi görməyəndə özünü oğlanın yanına yetirdi. Oğlan yerinnən dik atılıb Hürünün ayaqlarına düşdü. Başladı yalvarmağa, Hürü onu başa saldı ki, çəkdikləri əbəsdi. Bu iş baştutası deyil.

Burda millət məsələsi var. Hürü dedi: mən məzardaşımda elin töhmətində qoya bilmərəm. Piri aldı görək nə dedi:

Qaşların mildi Hürü,
Yanağın güldü Hürü,
Dinimiz ayrıdısa
Dilimiz birdi Hürü.
Qaşın hilaldı Hürü,
Dodağın baldı Hürü.
Kipriyini yavaş çax,
Canımı aldı Hürü.

Qaşın qaradı Hürü,
Gözün aladı Hürü,
İnsaf et gəl cəm olax,
Məni taladı Hürü.
Səndəki bir cüt məmə
Dərdə dərmandı Hürü.

Hürü gördü ki, nə qədər desə də oğlan öz dediyinnən dönmür. Ona görə naəlac yana-yana ona belə cavab verdi:

Çəməndə güldü Hürü,
Gözdən axan seldi Hürü,
Axtarma, gəl axtarma
Elə bil öldü Hürü.

Qaşları qara Hürü,
Çəkilir dara Hürü,
Bir yolsuz yolda qalıb,
Axtara çara Hürü.

Qaşı hilaldı Hürü,
Dodağı baldı Hürü.
Dindirmə dinə bilməz
Dili var laldı Hürü.

Hürü dedi mənim sənnən axır görüşümdü. Mənnən əlini üz. Gəl iki millət arasında qan salma, axırı pis olar. Mənə yazığın gəlsin. Bil sənin həsrətinnən ölərəm, ancaq bu bədnam adı üstümə götürə bilmərəm. Əl çək inadınnan. Elə bil Pirini alov bürüdü. Aldı görək nə dedi:

Gəlmişəm hüzuruna qalarım,
Ya at o dəryaya, ya saxla məni.
Demirəm ki, sən anama gəlin ol,
Yara tək sinənə yaz, ağla məni.

İgidin sərvəti bil etibardı,
Ən uca dağların zirvəsi qardı.
Xaliqimin özü bu dərdə saldı,
Basıb yar köksünə köz, ağla məni.

Canım viranxana, məkanım yoxdu,
Təbibim ki sənsən, dərmanım yoxdu.
Əlimdə möhürlü fərmanım yoxdu,
Verdir fərmanımı, yüz ağla məni.

Hürü gördü kü, bu bir dəhşətdi. Onnan əl çəkən deyil. Dədəsi də Hürüdən üz çevirir. Ona görə başına belə bir ağıl gəlir. Çıxıb evdən getsin. Piriynən hallaşıb ayrıldı. Qayanın başınnan düşəndə Hürü sürüşdü. Piri əlini dəsmalına büküb ona uzatdı. Dedi:

- Hürü, əlim sənə dəyməsin vücudum yanar, həm də günaha bataram. Hürü gördü kü, Pirinin də onu xar eləmək fikri yoxdu. Bu sevda haqdan gəlib, Haqqın özü də qurtarmalıdır. Ona görə Hürü evə gəldi. Əynini dəyişib oğlan paltarı geyinib yola rəvan oldu. O, Piriyə demədi ki, mən bu mahaldan gedirəm. Qara dədə evə axşam dönəndə Hürünü evdə görmədi. Həyat bacanı axtardı tapmadı. Kişinin ürəyi az qalırdı partlasın birdən taxçanın üstündə gözü bu naməyə sataşdı:

Qara dədə, Allah amanında qal,
Mən gedirəm, ağla bəxti qarana.

Eşitsən ki, qurda-quşa yem oldum
And verirəm peyğəmbərə, arama.

Gündə yüz yol boşalınca, dolunca,
Çiçək kimi saralınca-solunca,
Yurdda qalıb başa qaxanc olunca,
Qismət oldum qoy yollarada harama.

Üç gün sonra tədarükü görərsən,
Qırx gün keçər qırxımı da verərsən.
Axırıncı gün məzarlığa gedərsən
Olanları danışarsan anama.

Qara dədə naməni ağlıya-ağlıya oxuyub düşdü yorğan-döşəyə. Ağzına su da alımırdı. Qız uşağı, başına yolarda nə gələr, nə gəlməz deyib qan ağlıyırdı.

Hürü evdən çıxıb gəldi Piri tütək çaldığı yerə. Halal-hümbət eylədi yolu aldı əlinə. Gəldi yaxın kənddə bir sonsuz bibisi yaşayırdı onun evinə. Qapını döydü. Bibisi qapını açdı. İkisi də hönkür-hönkür ağladı. Bibisinin əri səsə gəldi. Hürü, xoş gəlibsən, de görüm niyə tək gəlibsən qız uşağı? Hürü bütün əhvalatı nağıl elədi və dedi mənə bir tədbir. Yalvarıram mən artıq o kəndə qayıtmayajam. Atamın əzablarına dözə bilmirəm. Mən heç kəsə ərə gedə bilmərəm. Biz nə yaman bəxti kəm bacı-qardaş olduq. Bibisinin əri çox ağıllı kişi idi, dedi:

- Hürü, sən əynini dəyiş oğlan paltarı geyin, mən də gedim atı yəhərləyim. Səni Qarsda yaşayan əmim oğluna aparıf bir övlad kimi tapşıracam. Hürü əynini dəyişdi, başına da bir yağlı dəri çəkdi. Bibisiynən qucaqlaşıb, doyunca ağlayıb ayrıldılar. Kişi atı yəhərləyib gəldi Hürünü də tərkinə alıb yola düşdü. Arvadına tapşırdı ki, heç kəsə bir söz deməsin. Hürü yavaş-yavaş eldən ayrıldı. Ürəyi qübar eylədi, aldı görək nə dedi:

Mən gedirəm çöllər, ona deyin ki,
Tütəyini yana-yana çalmasın.

Qara dədəm qeyzə gələr amandı,
Qan eyliyər, düşər qana çalmasın.

Gələr keçər yəqin bu bir həvəsdi,
Qulağına gələn görsün nə səsdi?
Çəkdikləri vallah, billah əbəsdi,
Yazıx dönüb Şeyx Sənana çalmasın.

Telli Hürü əzəl başdan baş oldu,
Geri dönməz əldən uçan quş oldu.
Öldü deyin məzarlıqda daş oldu
Ömrü-günü yetdi sona çalmasın.

Kişi qotur dərəni keçəndə külək Hürünün örpməyini atdı havaya. Külək bir az yellədi saldı bir çırpının başına. Kişi özü belə elədi ki, Hürünü el-oba ölmüş bilsin. Piri birdən düşər axtarmağa biyabır olarıq deyə kişi belə elədi. Hürünün ürəyinin üstündən bir möhnət daşı gedirdi.

Hürü getməkdə olsun, sizə eldən-obadan, Qara dədədən, Piridən xəbər verim. Bir çoban qızın örpəyini tapıf evə gətirdi. Artıq yeddi gün idi ki, Hürü evdən çıxmışdı. Qara dədə hər yanı axtardı. Gördüm deyən yox idi. Yeddi kənd qızın taleyindən danışırdı. Kim deyirdi havalanıb, kimi deyirdi qaçaq-quldur aparıb, kimi deyirdi ölüb. Xəbər örpəyi tapan çobana çatdı. Örpəyi gətirib təhvil verdi. Örpək qanlı idi. Hamı Hürünü ölmüş hesab etdi. Ağlaşdılar ehsan verdilər, qəbir qazdılar qanlı örpəyi basdırdılar. Hamı deyirdi yazıq qız qurda-quşa yem oldu. Pirinin dədəsi hamıya yalvardı ki, qızın ölümünü ona deməsinlər. Piri hər gün ac-susuz şiş qayanın düz təpəsində yana-yana tütək çalardı. Hamı bu iki bəxtsiz cavana ağlıyırdı. Piri məəttəl qalmışdı. Hürü onun tütəyini niyə eşitmirdi. Bir gün yenə səhər tezdən şiş qayanın yanına gəldi. Aldı görək nə dedi:

A şiş qaya, torpağına qurbanam,
Bir cavab ver mənim yarım hardadı?

Əsib yellər, tufan qopuf qəlbimdə,
Dəli könlüm borandadı, qardadı.

Mənim yarım tez açılan qönçədi,
Mənim yarım bənövşədi, incədi,
Bu obanın yanı Qazax, Gəncədi
Bir de görüm mənim yarım hardadı?

Ay şiş qaya, yatım baş qoyum sənə,
Mən nə deyim, qaya, daş qoyum sənə,
Töküm gözlərinnən yaş qoyum sənə,
Bir cavab ver, bəlkə yarım dardadı?

Elə bil daşın qəlbi bu aha-amana tab gətirmədi. Sal qaya parçalandı. Gurultu-xırıltı qopdu. Bütün kəndin camahatı qaya-nın yanına toplaşdı. İki kəndin iki milləti mat qalmışdı. Qaya Piriyə cavab verdi:

Cavan oğlan, nə divana gəzirsən,
Mən bilirəm sənin yarın hardadı.
De boş yerə canı niyə üzürsən
İnnən belə başın, canın qaldadı.

Yalan yerə dərə keçib, dağ aşma
Oba-oba, oymaq-oymaq dolaşma!
Daş yarılar, dərdin daşa danışma
Əzəl günnən gülün meyli xardadı.

Eşqin közü alovlanar, od alar,
Eşqə düşən Kərəm kimi ad alar.
Görübsənmi dini-İslam yad alar
Günah-təqsir nə səndə, nə yardadı.

Söz tamama yetdi. İki kəndin xalqı belə fikirrəşdilər ki, Piriyə qızın qəbrini göstərsinlər. Görər, ümüdünü üzər. Pirinin atası dedi:

– Oğul, gəl sənə Hürünün yerini göstərim.

Piri dəli kimi çığırdı:

- Qurban olum ata, doğru deyirsən?

Hamı yerbəyerdən doğru deyir dedilər.

Ata-bala qabaqda, camahat onların dalınca ağır-ağır gedirdilər. Elə bil hamı tabut aparırdı. Qəbirstanlığa çatanda Piri atasına döndü və dedi:

- Ata, məni aldatmaq istəyirsən ki, Hürü ölüb?

Atası ağlıyırdı ölüb bala, indicə gözünlə görərsən və inanarsan. Piri qəbrin yanına çatanda duruxdu. Hamı heyrət içində ona baxdı. Birdən qollarını saz edib aldı görək nə dedi:

Bir öpməyə cəsəd deyib, can deyib
Yar ölmünə inanımmı, ay dədə.
Ellər məni daşa qalaq eyləsə,
Bu qınaqda qınanımmı, ay dədə.

Su sonası göldən ayrı düşübdü,
Mənim gülüm güldən ayrı düşübdü.
Yazıq Hürü eldən ayrı düşübdü,
Bu məzarı qoy dolanım, ay dədə.

Məni niyə yaradıbdı yaradan,
Libas verib yar əynimə qaradan.
Topla mənə bir az puldan-paradan
Bu yollarda tək sınanım, ay dədə.

Söz tamama yetdi. Hamı gördü oğlan Hürünün ölmünə inanmır, yola düşüb dağlışdılar. Xəbər Qara dədəyə çatdı. Kəndin ağsaqqalının yanına gəlib əhvalatı ona danışdılar. Piri əgər Hürünü axtararsa bu biabırçılığı heç kim götürmüyəcək. Kəndin ağsaqqalı gedib şikayət elədi. Pirini qalaya saldılar. Piri qalada da tütəyini yerə qoymurdu. Hey çalırdı. Atası gəlib hər gün yalvarırdı. Daşı ətəyinnən tök, oğul, gəl inadınnan əl çək. Sən bilirsən müsəlman qızları namusa möhkəmdi. Sənnən ötəri ölsə

də Hürü sənə arvad olmayacaq. Piri yenə dediyinnen dönmədi. Mən onu axtaracağam, tapacağam. O mənim olmalıdı. Həm də mənimdi. Kişi kor-prşman evə döndü. Bir gün qala bəyi Piriyə dedi:

– Piri, aşiqsənsə Başıaçığa[1] bir tərif de. Piri aldı görək nə dedi:

Başaçıqda ala gözlü bir sona,
Çaldı məni, aldı məni haradan?!
Gəlməyəydim sənsiz olan dünyaya,
Kaş ki, onu verməyəydi Yaradan.

Başaçıqda bir yolçunun yolu çən,
Bir səyyadın toru kədər, ovu qəm.
Bir aşiqin ürəyi dərd, gözü nəm,
Bəxt yığvalı don geyinib qaradan.

Başaçığın sultanı o, xanı o,
Sevən könlün təbibi, dərmanı o,
Qan-qan deyən buyruğu, fərmanı o,
Tapammıram, tapım, Allah haradan?

Qala bəyi Piriyə baxdıqca ürəyi yanırdı. Dedi:

- Mən tünel qazmışam gecə qaçaq gedək qızın atasınnan soruşaq qızın yerini. Onlar gecə qaladan qaçdılar. Gəlib Qara dədənin qapısını döydülər. Qara dədə qapını açanda Pirini gördü. Kişinin Piriyə yazığı gəlirdi. Ona görə də dedi:

- Piri, niyə gəlibsən çıx get. Onsuz da Hürü ölüb.

Qala bəyi dedi:

- Kişi, çox o yan bu yan danışma. Qanın tökərəm, qızın yerini deməsən səni iki bölərəm.

Qara dədə ixtiyar vaxtında qan eləmək istəmirdi. Ona görə yenə mülayim dedi:

- Bala çıx get, Hürü qəbirdədi. Get qəbirstanlıqda görərsən. Qala bəyi hirsli xəncəri çəkib Qara dədəni vurdu. Piri elə bildi

---

[1] Başıaçıx – Gürcüstanın qədim adıdır.

xəncəri kişiyə yox Hürüyə dəydi. O da qala bəyini vuruf öldürdü. Qara dədə can verirdi. Piri başını dizinə almışdı. Qara dədə Piriyə and verirdi ki, axtarma mənim balamı. Məni biabır eləmə, çıx get yad bir ölkəyə.

Haya-haraya hamı gəlmişdi. Piri əlləri qanlı yenə tütək çalırdı. Arvadlar üzlərini cırırdı ki, bu işin axırı pis olacaq.

Qara dədə dedi:

- Onu burdan çıxarın rahat ölüm. Piri oxuya-oxuya gedirdi.

Ay qız, adın Hürüdü,
Duman dağı bürüdü
Dərdini bil çəkməkdən
Yazıq canım çürüdü.

Ay qız, adın Hürüdü,
Gülüm kimin gülüdü?
Eşqinnən bil bu aşiq
Divanədən dəlidi.

Ay qız adın Hürüdü,
Qalan ocaq gülüdü.
İnandığım, inamım,
Məhəmməddi, Əlidi.

Qara dədə ölmüşdü. El yana-yana ağlayırdı. Pirini də yenə qalaya salmışdılar. Hər gün sonsuz bacısı Qara dədəinin qəbrinin üstünə gələrdi. Doyunca ağlayıb gedərdi.

Halayı-hablı qardaş,
Qızıldan qablı qardaş,
Bəzirgən getməz, xoca satmaz
Bə hardan tapmalı qardaş.

İndi sizə kimdən deyim Hürüdən. Kişi Hürünü gətirib əmisi oğluna bir balası kimi təhvil verdi.

Hürü oğlan paltarı geyinirdi. Hamı onu oğlan kimi tanıyırdı. Çölə bəzən mal-qaranı otarmağa da gedirdi. Hürü kişinin qızlarından xalça toxumağı öyrənib gözəl xalçalar toxuyurdu.

Hamı onun əl işini bəyənirdi. Adını Qızbəşir qoymuşdular, çünki onu oğlan bilirdilər. Hürü sazı elə çalırdı dağların daşı yumuşalırdı. Hər gün səhər tezdən ağlıya-ağlıya sazı çalıb oxuyardı:

Yerdən-göydən üzülübdü,
Ay camaat, əlim mənim.
Alçal, alçal, uca dağlar,
Qoy görünsün elim mənim.

Bir sonam göldə qalıbdı,
Ceyranım çöldə qalıbdı,
Söhbətim dildə qalıbdı,
Vaxtsız solub gülüm mənim.

Yaman halda pərişanam,
Harda qalıb-atam anam?!
Obasına gün dolanan
Lal olubdu dilim mənim,

Ev yiyəsinin Hürüyə yazığı gəlirdi. Xətrini dünyalar qədər istəyirdi. Həmişə Qarsın meydanında aşıqlar yarışanda Hürünü də apardı. Kişi öz balalarından Hürünü seçmirdi. Lakin gələn bir günnən Hürünün yanağının qırmızısı solmuşdu. Hürü qürbətə dözə bilmirdi. Yağış yağanda, şimşək çaxanda, günəş çıxanda səhər-axşam hər vaxt vətən deyirdi. Gələnlər-gedənlər Hürüyə Qara dədənin ölümünü demirdi. Kişi Qarsa yaymışdı ki, Vətən oğlu Qara dədənin bacısı oğludu. Hürünün bibisinin əri hərdən bir gəlib qızı yoxluyurdu. Lakin olan işlərdən ona heş nə danışmırdı. Gələndə əmisi oğluna möhkəm-möhkəm Hürünü tapşırırdı. Hürü də onnan xəcalət çəkib Pirini soruşmazdı. Lakin canı qalardı ki, görəsən necə olub.

Bir gün evin yiyəsi gəlib dedi ki, hazırlaş Vətən oğlu, sizin dağlardan Qarsa bir neçə aşıq gəlib, səhər deyişmə olacaq. Hürü bütün gücəni sevindiyinnən yatmadı. Səhər tezdən oyanıb sazını kökləyib yola düşdü. Meydan camahatnan dolu idi. aşıqlar deyi-

şirdi. Hürüyü görən kimi hamı yerbəyerdən Vətən oğlu dedilər. Hürü sazı köynəyinnən çıxarıb aldı görək nə dedi:

A dağlardan gələn aşıq,
Darıxmışam, elimnən de.
Ölən kimdi, qalan kimdi
Hal-əhvalı dərinnən de.

Şam düyədən, Qır dağınnan,
Sənəkuçan oylağımnan,
O yurd yeri yaylağımnan,
Şinditəki Pirimnən de.

Məni Qara qul verdirən,
Ürəymi yarı böldürən,
Hürüyü Pünhan öldürən
Açılmayan sirrimnən de.

Aşıq arif adam idi. O saat Hürünü tanıdı, axı şayə gəzirdi ki, Hürü sağdı. Ürəyi qübar eylədi, Qara dədə yadına düşdü. Sazı "İbrahimi" üstə kökləyib bir xeyli çaldı. Sonra görək nə dedi:

Qürbət eldə solan gözəl,
Sizin ellər yerindədi.
Aşıq deməz yalan, gözəl,
Dərdin elin dilindədi.

Məcnun kimi çölü gəzər,
Hürü deyər, Hürü gəzər,
Divanətək Piri gəzər,
Yazıq yaman zülümdədi.

Ya bir yolluq al canını,
Ya da göndər dərmanını.
Ver eşqiyin fərmanını
İxtiyarı əlindədi.

Hürü bülbülə dönmüşdü. Dərd adamı dəli yox, zay eyliyər. Sazı çala-çala meydanı dolandı. Aldı görək dərdini cəmi xalqa necə bəyan eylədi:

Aşıq qardaş, mənim müşkül halımı
Nağıl eylə sal dastana, de gəlsin.
Özüm zənən, əynimdə yad libası,
Qürbət eldə gəldim cana de gəlsin.

Bütün məclisin camaatı heyrət içində qalmışdı. Aşıq dövr eliyif gəlib durdu tən ortada. Aşıq:

Vətən oğlu, vətən qızı vətənnən,
Kimlər saldı səni cuda, de gəlsin?
Qara dədə mərdə satdı qılıncı
Səni kimlər saldı oda, de gəlsin.

**Hürü:**

Mənim atam ərənlərin əriydi,
Meydanında əyilməyən nəriydi.
Köhnə hədəm başı idi, eliydi
Belə qaldım yana-yana, de gəlsin.

**Aşıq:**

Bir sərsəri nələr çəkdi əlinnən,
Kam almadı müşküəmbər telinnən,
Mən bilirəm niyə çıxdın elinnən,
Ömrün getdi niyə bada, de gəlsin.

**Hürü:**

De axarmı Sərf dərənin selləri,
Açılıbmı yurd yerinn gülləri?
Kaş gəzəydim biçənəkli çölləri,
Dönəm sultan Süleymana, de gəlsin.

**Aşıq:**

Atan-anan məzarlıqda uylayır,
Fələk dərdi dərdlilərə paylayır.

Bütün oba sənnən ötrü ağlayır
Hardan tapdı səni qada, de gəlsin.

Hamı yerbəyerdən əhsən dedi. Məclisin ağsaqqalı sual verdi ki, burda bir sirri var. Bizi də agah elə. Hürü aşığın dediyinnən duymuşdu ku, atası ölüb. Elə bil qədd-qaməti yavaş-yavaş əyilirdi. O birdən əl atıb başını açdı. Hamı dəhşətə gəldi. Hürü elə bil ömrünün son dəqiqələrini yaşayırdı. Hamı onu tanımışdı, axı onun sevgi dastanı dillərdə əzbər idi.

Hürü gördü kü, onun elinnən gələn aşıqlar onu üzük qaşı kimi araya alıb. Aldı görək də dedi:

Tərəfimnən ərz eyləyim dinləyin,
Soruşana vətən baldı deyərsiz.
Dizləri tutuldu bir beynəvanın
Onunçun qürbətdə qaldı deyərsiz.

Bir gözəlin sona yetdi xətası,
Yaşayarmı ölüb bəy tək atası.
O ellərin əsən badi-səbası,
Bir qərib çiçəyi soldu deyərsiz.

Bütün ömrü boyu qalada qalar,
Özü də bilmiyən harada çalar?
Təpədən dırnağa yardan çalan,
Piriyə Hürünü öldü deyərsiz.

Hürü sözünü sona yetirib ömrünü sizə tapşırdı. Hamı bu talesiz gözəli ağlıyırdı.

**Dastanı düzüb-qoşanlar: Aşıq Sona (80 yaşlı), Borçalı mahalı Beşkeçid rayonu, Hamamlı kəndi və şairə Səadət Buta – 1985**
**Arxivə təqdim edəni: Şairə Səadət Buta**
1996

# QUL ƏHMƏD

Sizə hardan xəbər verim Cam şəhərinnən, Cəmşid şahın zamanınnan. Bu şəhərdə Kərim adında kasıf bir kişi yaşayırdı. Kərim kişinin varı-dövləti bir bircə oğlu varıydı. Amba min oğula baravar. Bir oğlanıydı, adı da Əhmədiydi.

Bir gün Cəmşid şahın gəlver (vergi) yığannarı Kərim kişinin qapısını kəsdilər. Dedilər, kişi, bu gün şahın anmbarına otuz put təmizdənmiş buğda təhvil verməlisən. Kərim kişi dedi, a başına dönüm, mən şahın torpağınnan havaxt istifadə elədim ki, indi də otuz put buğda tələb eliyirsiniz mənnən?!

Vergi yığan dedi, kişi çox naqqallıx eləmə, tez ol taxılı bura çıxart görək. Kərim kişi dedi, heç bir kirvəngiyə də güjüm çatası döylü. Vergi yığan baxdıkin Kərim taxılı xoşduxnan vermək istəmir. Yanında gətirdiyi fərraşa əmr eylədi:

– Fərraş, tez bu məlunu unnan yumşax elə, qoy huşu başınnan getsin, onda baxar görər şahın əmrinə tabe olmamax nə deməkdi.

Cavan fərraş təpiknən, şallaxnan Kərim kişiyi döydü, havldan saldı. Bu vaxt Kərimin qarısı özünü ərinin üstünə saldı, ağladı, sızdadı, vergi yığanı da, fərraşı da yamannadı.

– Ay taxtınız tarmar olsun, yazıq qojuyu niyə öldürürsünüz? – dedi.

Fərraş bu sözdən qəzəblə doldu, qarının başınnan bir elə təpik ilişdirdi kin, yazıx beçərə bir göz qırpımındaja dünyasını dəyişdi. Fərraş belə baxanda gördü kün Kərim kişi də o dünyalıx oluf.

İndi sizə deyim Əhməddən. Əhməd onda özünü həyətə çatdırdı kın, atasının da, anasının da meyitdəri ortalıxdadı, vergiyığan fərraşdar da aradan çıxmax istiyirlər. Qonum-qonşular da bir vay-şoyən qopardıflarkin gəl görəsən. Əhməd çaşdığınnan vergi yığannan fərraşın başını tutuf bir-birinə elə zərbnən toqqaşdırdı kin ikisinin kəlləsinnən bir kəllə hasil olmadı. Bular da belə cəhənnəmə vasil oldular.

Şahlığa xavar çatdı, gəldilər leşdəri də apardılar. Əhmədin də qollarını bir-birinə çatıf qavaxlarına qatdılar.

Qonum-qonşu Əhmədin halına ajıyıf ağlaşdılar, özünə də dedilər sən ata-anayın dəfni sarıdan narahat getmə biz onu özümüz öz ölümüz kimi öz qaydasında torpağa təhvil verəjiyik. Sən çalış özünü şahın qannı çəngəsinnən bir təhər xilas selə.

Bu qannı xavar bütün şəhər əhlinə yayıldı, ürəyi yanan nəkin kişi, zənən, ahıl, cahıl varıydı yığışıf Kərim kişiynən onun qoja qarısını layıxlı dəfn elədilər, şaha da, onun zülmkar cəlladlarına da lənətdər yağdırdılar. Dəfn mərasimi başa çatannan sonra şah haramzada qırmızı geyinif taxta çıxdı. Əmr elədi Əhmədi hüzuruna gətirdilər. Üzünü vəzirə tutdu, dedi vəzir, bu gün Kərim kişinin bütün nəsli yer üzünnən silinməlidi. Vəzir dedi, şahım, Kərim kişi bir arvadıydı, bir özü, bir bu oğulları. İndi ər-arvad bilirsən ki, döyülə-döyülə öldürülüf. Qalıf oğulları bu gördüyün Əhməd. Onu da mən belə məsləhət eliyərdim ki, gərək öldürmüyəsən. Mana belə gəler ki, cinayətkar adamın ən yüngül cəzası ölümdü. Bir qılış vurdun başına cəhənnəmə vasil oluf getdi. Sənin yerinə olsam, şahım, onu hər gün öldürüf diriltdərəm. Şah dedi: vəzir, olma ağlın azalıf, zalım oğlu, ölüm bir dəfə olar, boynu vuruldu, öldü də getdi, daha onu nejə dirildəjəksən, heç bilirsənmi nədi dediyin?

Vəzir dedi, şahım, mən o ölümnən demədim kin. Dediyim odukun bunu qatax qulların arasına, hər gün əzab-əziyyət verək, günnəngünə saralıf öləjək. Mən belə ölüm deyirəm. Şah vəzirin təklifini çox bəyəndi. Qullar ağasını çağıtdırdı hüzuruna. Dedi, apararsan bu vələdiznanın boynuna qul xaltası keçirif harda çətin, ağır iş var, ona verərsən. Qoy bir-iki aya canı çıxsın. Qullar ağası baş üstə deyif təzim elədi, baş üstə deyif Əhmədi də qavağına qatıf apardı.

Qul ağası yolda gələ-gələ Əhmədin boyna-buxununa baxdı, gözəlliyinə, pəhlivan cüssəsinə göz gəzdirdi. Öz-özünə fikirləşdikin bunnan deyəsən qul kimi işdiyən olmuyajax. Gəldilər qulların olacağına, gejeyi yatdılar, üstünüzə xeyir savaxlar açılsın,

savax açıldı, qul ağası Əhmədi çağırıf çox ağır işə göndərdi. Bir ay sərasər qul Əhmədi beləjə işdətdi.

Bir gün şah vəziri çağırıf dedi, vəzir, gedək qullara baş çəkək, görək təzə qulumuzun ölümünə çoxmu qalıf.

Gəldilər, nə gördülər? Gördülər qul Əhməd əvvəlkinnən iki qat artıx yoğnuyufdu. Tez qullar ağasına qışqırıf dedi, zalım balası, mən bunu bura ölənətən işdəməyə göndərmişəm, bə bu nədi, bukun günü-gündən kökləir. Yoxsa, bunu işdətmirsən, ya da harda yaxşı yimək var buna yidirdersən? Qullar ağası baş təzim eliyif dedikin şah sağ olsun, onun görüf-götürdüyü gündə yarım arpa çörəyi, bir cəm də sudu, and olsun sənin cah-cəlalına bu dediyimnən savaya ona bir tikə də yemək verilmir.

Nəsə, şahın ürəyində bir şübhə qaldı, amba qullar ağasına da heç bir şey demədi. Əl altan adam tayın elətdi ki, hər gün qul Əhmədin yeyif-içməsinə göz qoysunnar, görsünnər ona kim nə verir kin gəlif şahın zindanında bir belə kökəler. Xülasə, şah vəzirnən çıxdı getdi saraya. Qul Əhməd qullar ağasının yanına gəlif dedikin, ey kərəmli insan, gəl mana icazə ver qonşumuzda bir dostum var, ona bir məktub yazem, gedif öyümüzdən mənim sazımı götürüf gətirsin, onda baxarsınız saznan sizə nə kef verə-rəm. Qullar ağası da bular kimi quluydu, intahası şahın gözünə yaxşı dəydiyinnən ona bu işi etivar eləmişdi. Bu qullar ağası öz-özünə fikirləşdikin yazıx qulların belə yaşamağı başdan-başa qan irindi, odukun qul Əhməd icazə verdi. Əhməd tələsik bir məktuf yazdı qonşularındakı dostuna sazını istədi. Təcili bir nə-fər tapdılar. Qaça-qaça gedif qul Əhmədin sazını gətirdi. Saz gə-lif çatan kimi qul Əhməd öz körpə balası kimi sazı oxşuya-oxşu-ya sinəsinə basdı, siminnən, sinəsinnən, qolunnan öpə-öpə zili-ni-zil, bəmini bəm elədi, bir qədər qullara göz gəzdirdi. Gördü-kün hamı eləjə himə bənddi, hamının gözdəri doluf qul Əhmədi gözdüyürlər. Oydukun Əhməd üzünü bulara tutuf görək nə dedi:

Firoyun[1] ox atdı əriş-əlaya,
Kəm oldu ol haqqa xudayam dedi.
Zərrəcən qorxmaram var qəzəbinnən,
Endir nə bəlan var burdayam dedi.

Birinci bəndi deyif qurtarannan sonra qullar bir-birinin üzünə baxdı. Qullar ağası dedi görəsən bu zalım oğlu belə sözdəri hardan biler? Qul Əhməd götürdü görək daha nə dedi:

Şah da bizi kimi oluf anadan,
İbrahim kəbeyi yapdı binadan.
Biz islam yarandıx qallu-bəladan,
Əli Zülfüqarnan yektayam, – dedi.

Zülm içində qalmış biz niyə qulux,
İxtiyar əldə yox, məlul-müşkülük.
Hax nəzər yetirsə vəzir-vəkilik
Əhməd də öyünnən cudayam,– dedi.

Qul Əhməd sözünü tamama yetirdi. Üzünü qullara tutuf dedi, qardaşdar, məni yandıran odu ki, biz hamımız anadan eyni cür doğulorux, heç kim anadan şah, vəzir, ya da cəllad doğulmor. Bə niyə bu boyda adamlar bu yaramaz şahın əlində zəlil olmalıyıx? Gəlin bizə divan tutanların qavağınnan qaçmıyax, hamımız ayağa durax, bu zülmkar şaha meydan oxuyax bu günnən sonra.

Qul Əhməd burda qullarınnan sözdə, söhbətdə olsunnar, eşit cuğuldan. Atalar derkin cuğul nə ölmüyüf, nə də öləsidi. Biri öldümü savah beşi də onun yerində bitəsidi. Hardansa bir cuğul qul Əhmədin qullarnan elədiyi söhbəti aparıf Cəmşid şahın oycuna qoydu. Cəmşid şah gənə də özünnən çıxdı, vəziri, vəkili çağırıf bir əncam çəkməyi tələb elədi. Tələbi də bu oldukun təcili qul Əhmədin boynu vurulsun. Vəzir ayağa duruf baş əydi, dedi, şah sağ olsun, Əhmədi qul eləməmişdən qavax öldürə bilərdin, amba indi öldürməyə ixtiyarın yoxdu. Bütün dünyada

[1] Firoyun – Firona işarədir.

biavır olarıx, deyəllər Cəmşid şah gör nə günahkar şahdı ki, öz qulunu edam elətdirer. Gənə də çalışıf onu harda ağır iş var, orya salmax lazımdı, bəlkə bu yolnan tələf oluf gedə.

Şah irazı oldu. Qullar ağasını gənə də yanına çağırıf möhkəm-möhkəm tapşırdı ki, o məluna heç dincdik, irahatdıx vermə, qoy yuxuya həsrət qalsın, çalış yeməyini də azalt.

Bir neçə gün keçmişdi. Gənə qullar tərəfindən gizlin bir şikayət gəldikin, pəs şah sağ olsun, Qul Əhməd gənə də göylərnən əlləşir, fikri zikri qulları sənin üstünə qaldırmaxdı.

Gənə şah əmir verdi, qul Əhmədi hüzuruna gətirdilər. Şah dedi: əyə dəyyus oğlu dəyyus, sən bir kəmtər qul ola-ola şahlığın işinə niyə qarışersan. Neçə dəfədi vəzirin, vəkilin məsləhətinnən səni cavannığına baxıf öldürtməmişəm. Bu dəfə heç kimin sözünə baxası döyləm, boğazına qurğuşun tökdürəjəm. Belə deyəndə vəzir yavaşca şaha yaxınnaşdı, qulağına astadan pıçıldadı. Dedi, qibleyi aləm, sənin onu öldürməyə gənə də ixtiyarın yoxdu. Şah dedi, vəzir, sən gənə də məni dağa-daşa salma. Hökm yerinə yetməlidi. Üzünü qul Əhmədə tutuf dedi, tez ol son sözünü de, vəsiyyətini elə. Qul Əhməd dedi, şahım, icazə ver sinəmə bir neçə xana söz gəlif, sazı alım deyim. Götürdü görək nə dedi:

Zülm, zəncirini taxdın boynuma,
Qoyufsan doyuncax nana[1] həsrətəm.
Mən də sənin kimi insan oğluyam
Həqiqətə, azad cana həsrətəm.

Xaltaynan qalmışam ömür tustağı,
Sinəmə çəkifsən dağ üstdən dağı.
Nə vaxt keçər zülmkarın çırağı,
Arzum budu, o zamana həsrətəm.

Bu sözdən sonra şah qəti qərara gəldikin gərək hökmən bunun boynunu vurduram. Götürdü qul Əhməd son bəndi:

---

[1] nan – çörək

Tarixə yazılsın Əhmədin sözü,
İnsan nə qoyundu, nə dəkin quzu.
Kim əkif, kim biçif, hökmdar, bizi
Ürəyimdə ata-ana həsrətəm.

Söz tamam oldu, şah əmr elədi, fərman hazırradılar, dar ağacı quruldu. Fərraşdar, cəlladdar cəm oldular. Vəzirnən vəkil şahın fərmanınnan boyun qaçırtdılar. Vəzir dedi, şah həzrətləri, mən bəyax sənə dedimkin bu cavanı öldürməyə haqqımız yoxdu, sən üstünnən keçdin, fikir vermədin. Bil və agah olkun bu cavanın qullar arasında qalmağı da günahdı. Onun əlində elə bir vəsiqə var kin o həmin vəsiqəynən böyük-böyük işlərdə işdiyə bilər. Şah dedi, vəzir, nə vəsiqədi o elə, mənim xavarım yoxdu. Vəzir dedi, şahım, al özün bax, Əhməd sərkərdəlik məktəbi bitirif. Biz onnan belə hasandıxnan üzləşə bilmərik, qoy biliyini – bacarığını bizim öz qoşunumuza sərf eləsin. Şah vəsiqiyə baxıf gördükün bura qızıl qələmnən qol çəkilif, qızıl möhür basılıf. Gənə də şah sözünnən dönmədi. Qul Əhmədə ölüm tələb elədi. Onda vəzir gənə də razı olmadı. Dedi şahım, onda gərək azı üç ölkənin şahını, vəzirini dəvət eliyəsən, onların irazılığını alasan, sonra öldürəsən. Şah hökmə hirsdənif, amba vəzirin sözündə bir həqiqət görüf dedi, onda bura çağırın Qəndaharın şahını, vəzirini, bir də Həbəşin şahınnan vəzirini, özümüz də üçüncü ölkə. Belə də elədilər. Bir neçə vaxt gözdəməli oldular. Günnərin bir günü dəvət olunan şahlar da gəlif çatdılar, işdən halı oldular. Əhmədi günahsız saydılar. Qonax şahlar qul Əhmədi görüf yazıxları gəldi, heç biri onun ölümünə qol çəkmədi. Cəmşid şahın bunnan çox ajığı tutdu, əmr elədi cəllada, Əhmədə gənə də son söz verildi, götürdü bu yerdə belə dedi:

Sən agah ol, zümlkar şah,
Tacın-taxtın dönər bir gün.
Zülmün axrı bərbad olar,
Çıraxların sönər bir gün.

Fələk tor eylər yolunu,
Sındırar güjdü qolunu.
Xəzan eyliyər gülünü
Balaların ölər bir gün.

Qul Əhmədin bu nalası
Dağıdar şahın qalasın!
Qulların sönmüş çırası
Şölə verif yanar bir gün.

Qul Əhməd sözünü başa çatdırdı. Həbəş şahın onnan çox xoşu gəldi, dedi. Oğul, bir söz gənə oxu, könlümüz açılsın. Əhməd baş üstə deyif sazı sinəsinə basdı, görək nə dedi, tərəfinnən ərz eyliyək sizdərə cansağlığı.

Bu dünya çox yola salıf neçə yüz min şahları,
Zaman keçdi, vaxt dolandı, onlardan nişan qalmadı.
Hökm elədi, mənəm dedi, lərzə saldı cahana,
Quşların dilini bilən Həzrət Süleyman qalmadı.

Göydən yerə Quran endi, Osman yazdı kitaba,
Kəlmə-kəlmə, zərrə-zərrə özü düzdü kitaba.
Din-İslamı yaydı ərzə Məhəmmədəl-Mustafa,
Bəndələrə şəfa verən həkimi-Loğman qalmadı.

Bu dünya fani dünyadı, hər bir gələn köçməli,
Haram yola tovba deyif, doğru yolu tutmalı.
Qul Əhmədə zülm eliyən cəzasına çatmalı,
Haqq yolunda qurban verən heç pərişan qalmadı.

Söz tamama yetdi. Həbəş şahı dedikin belə qulu öldürmək olmaz. Əyər Cəmşid şah istiyerkin bunnan canını xilas eləsin, onsuz da mana belə bir qul lazımdı, satın, qiymatını verif götürrəm. Cəmşid şah irazıdaşdı, dedi, bunun qollarını bağlıyın, qoyun Həbəş şahı aparıf getsin. Qul Əhməd dedi, ay Cəmşid şah, sən elə bilməginən mən sənin qavağında çox atılıf düşmürəm, özümü fağır göstərirəm. Amba onu bilkin mən öz torpağımızda

ölərəm, yad elində qul olmaram. Belə deyəndə vəzir Əhmədə işarə elədi, him-cimnən bildirdi kin, azaddığa çıxmax istəyirsənsə irazı ol, çıx get. Həbəş şahı Əhmədi fikrinnən döndərə bilmədi. Ona görə üzünü Cəmşid şaha tutuf görək nə dedi:

Yüz min parça edif endirdin xaka,
Məni yad ellərə satmaynan, şahım.
Bu doğma yurdumnan, isti yuvamnan
Qoyuf sapandına atmayın, şahım.

Dolanar döyrannar belə də qalmaz,
Vurduğun yaralar məndə sağalmaz.
Ağa öz qulunu nəzərdən salmaz,
Şeytanın felini tutmaynan, şahım.

Söz qurtarmamış şah əmr verdi, tez qollarını bağlayın. Bu ara Qul Əhməd möhlət istədi, dedi, şahım, izin ver heç olmasa sözümü başa yetirim. Şah başıynan buyurdu, de.

Bağlama qolumu, taxtı tarımar,
Gen dünyanı sana eyliyərəm dar.
Bir gün Qul Əhmədə keçər ixtiyar
Oyan bu qəflətdən, yatmaynan, şahım.

Sözünü qurtardı. Vəzir işara verdi ki, getməlisən. Əhməd işaradan başa düşdükün vəzir bunun xeyrinə deyir, irazılıx verdi. Dedi amba sizdən bir xahişim var, mümkünsə pütün qullar yığılsın, yaxşı döyül bir yerdə duz-çörək yemişik, halallaşax, ayrılax. Belə də oldu, əlli nəfər qulun əllisi də dalvadal düzülüf gəldilər, qullar ağası Kamal da başda. Əhməd götürdü bulara ayrılıx məqamında nə dedi, tərəfinnən ərz eliyək, sizdərə cansağlığı:

Zülümnən ayrıldım obadan, eldən
Getməz bu sinəmin dağı-gözdəyin.
Zimistannar keçər, bahar-yaz gələr
Sizdərə nur saçan çağı gözdəyin.

Tərlan könlüm qanad açar asmana,
Gedər belə qalmaz çarxı-zaman.

Bir gün şahın taxtı boyanar qana,
Üstünə yeriyər yağı, gözdəyin.

Qul Əhmədəm, zalım durub qəstimə,
Qəni mövlam əl uzadar dəstimə[1].
Mən ölsəm də ərşə çıxa tüstüm də,
Mənsiz gələn xoş nöyrağı gözdəyin.

Qul Əhməd sözünü tamama yetirdi. Qonax şahlar, vəzirrər də vətənnərinə yola tüşdülər. Gedif hər kəs öz paytaxtına çatdı. Hələb şahı Qul Əhmədi yanına çağırdı. Onu da özüynən hərəmxanasına apardı, kürsü üstə əyləşdilər. Yemə-içmə başdadı. Yedilər-işdilər. Şah baş qaravaşı yanına çağırtdırdı, dedi. Əhmədi apar zərrin otaxda irahatdansın. Baş qaravaşın adı Nərgiziydi. Nərgiz qaravaş dedi, şah sağ olsun, ajığın tutmasın, qul hara, zərrin otaxda yatmax hara. Şah qeyzə gəlif Nərgiz qaravaşın üstünə qışqırdı, dedi, belə filan qızı sən kimsən mana qusur tutursan, sana nə derəm onu da yerinə yetir. Nərgiz dinməz-söyləməz Əhmədi özüynən zərrin otağa apardı. Yer körgəzdi, bir qədər otaxda əylənif söhbət elədi. Doyuncax Əhmədə tamaşa elədi. Öz-özünə dedi. Şükür sənin qələmiyin qüdrətinə ey gözəgörünməz, bu gözəllikdə oğlanmı olar?

Nərgiz qaravaş otaxdan təzəcə çıxıf getmişdi ki, otağa bir qulam daxil oldu, dedi qul qardaş, dur mənnən gedək. Əhməd sorğu-sualsız qulamın arxasınca tüşüf getdi. Qulam Əhmədi bir baş hamama apardı, suya saldı. Əhmədə bir dəst təzə-tər şahzada paltarı gətirif verdi. Əhmədin qul paltarını götürüf od vuruf yandırdı. Gənə də gəldi zərrin otağa. Canına bir dinşdik gəldi, qu tükünnən yorğan-döşək, ətir-ətriyat Əhmədi bihuş elədi. Yatağa uzanmağıynan yuxuya getməyi bir oldu. Deyəllər Əhməd üç gün, üç gejə yatdı. Dördüncü gün durdu, yuyundu, darandı ədəbərkannan gəlif şahın hüzurunda dayanıf salam verdi. Şah yer körkəzdi, əyləşdi, yemək-içmək gətirdilər. Əhməd neçə günün aj

[1] dəstimə – əlimə

adamı doyunca yedi. Əlhəmdullah deyif sufradan əl götürəndə şah dedi, oğlum, bir ay bu şəhəri gəzərsən, yatmağa öz otağına dönərsən. Şəhərdə heç yerdə sənnən pul istəməzlər, harda ajdın orda yeyif-içərsən. Amba bir öyüdümü eşit. Bircə Gülşan bağının qavağınnan keçmə!

Elə də oldu, bir ay keşdi. Şah Əhmədi yanına çağırtdırdı, dedi, oğlum, indi bil və agah ol, bu günnən sənin vəzifən buduku mənim yüz baş quluma qullar ağası olasan. Əhməd ayağa duruf ədəfnən təzim elədi. Dedi, şahım, mən özüm insan ola-ola bir belə adama zülm eliyə bilmərəm, mümkünsə mana başqa bir iş ver. Şah buna çox qəzəfləndi. Dedi mən deyənə irazı olmasan səni ömrün boyu burda saxladacam. İlan-çayana yem olajaxsan. Qul Əhməd dedi, ixtiyar sahibisən, küllü-ixtiyarsan, nejə eliyərsən elə də eləginən. Şah dediyi kimi də elədi, iki nəfər cəllad çağırtdırdı. Tapşırdı ki, bu məlunu qırx arşın quyunun divinə sallayın, qoyun orada da qalsın, gündə üç dəfə yeməyini tullayın başınnan qoy ağlı özünə gəlsin. Xülasə, Əhmədi salladılar qırx arşın quyunun divinə. Der, məsəl var, suda boğulan saman çöpünnən yapışar, kömək umar. Əhməd də ümüd pənahı umudu gəldiyi ağamızın adını dilinə gətirif görək nə dedi. siz də nə eşidirsiniz:

Zülümkar əlinnən cana gəlmişəm,
Səy eylə dərdimə çara, ya Əli!
Nə müddətdi mən zülmətdə qalmışam,
Əlim çatmır bir diyara, ya Əli!

Yerim nəmli, özüm qəmli, neyliyim
Gəlsən dada, dərdim sana söylüyüm.
Əlacsızam, kimnən pənah gözdüyüm,
Ədalətdən yox işara, ya Əli!

Qul Əhmədi duşman yıxdı, ayağa,
Tut qolunnan özün qaldır ayağa.

Gecə-gündüz yalvarıram, ay ağa,
Bir divan tut zülmkara, ya Əli!

Yetim Əhməd sözünü tamamladı. Qəm yuxusu gəldi, nə gəldi. Nə qədər yatdığını demək çətindi, amba nə görsə yaxşıdı, gördükün başının üstündə iki nəhəng ilan durufdu. İlannarın biri qaradı, biri şahmardı. Əhməd belə tüşündükü yəqin bu ilannarı qəsdən, məni çaldırmaxdan ötəri bu quyuya atıflar. Qara ilan istiyir Əhmədi çalsın, şahmar qoymuyur, bu vəziyyətdə görək Qul Əhməd qara ilana nə dedi:

Ovsunçu deyləm, mən tutam səni,
Vurma məni o şahmara bağışda.
Atı Düldül, qulu Qəmbər ağamın
Əlindəki zülfüqara bağışda.

Şah zülüm eyliyif yazıx quluna,
Siz getməyin müxənnətin felinə.
Gəlin, baxın haqqın doğru yoluna
İrəhm eylə günahkara, bağışda.

Qul Əhmədəm, nejə olmuşam zəlil,
Sana sığınmışam, Cabbarı-Cəlil.
Mənim diləyimi sən eylə qəbul,
Yeddi yığnax o xublara bağışla.

Sözünü qurtarıf üzünü sol yana çöyürdü, nə gördü? Gördü qara ilan qarayanız bir oğlana, Şahmar ilan da gözəl bir qıza çöyrüldü. İlahı pərvərdiyar, elə bil qədir allah coşa gələndə birinci bu qıza qələm çalıfdı. Qız baxıf gördü bu Qul Əhməd buna çox ayıl-mayıl olur, oduku dedi, cavan oğlan, bil və agah ol, mən ilannar padşahının qoşun sərkərdəsiyəm, mənim hökmümə yeddi min yeddi yüz yetmiş yeddi ilan tabedi. Özüm də səni sevirəm, məni bu günnən özünə söygülü yar hesab elə. Bütün başına gələnnəri də oycumun içi kimi bilerəm, sana söz verirəmkin yeddi günün tamamında qoşunumu çəkif Cam şəhərini üzük qaşı kəsəjəm. Cəmşid şahı qanına qəltan eliyif o məmləkətin

ixtiyarını sana verəjəm. İndi mana cavaf ver görüm, məni özünə həmdəm sayarsanmı? Qul Əhməd dedi, can başnan sən deyənə irazıyam, amba məni bura saldıran Həbəş şahına nə cavaf verəjəksən, ikinci də məni bu quyunun dibinnən çıxartmağa sizin güjünüz çatarmı? Qız dedi, Həbəş paccahı sarıdan heç niyaran olma, səni burdan elə aparajıyıx ki, heş onun xavarı da olmuyajax. Qaldı quyudan çıxmağına, indi gör nejə çıxajaxsan? Bunu deyif əlini əlinə vurdu, bu vaxt yüzdən çox ilan bir-birinə qarmax oluf nərdivan düzəltdilər. Sallandılar quyunun divinə. Qız dedi, Əhməd, indi bu nərdivannan çıx. Yazıx Əhməd bu nərdivana ömründə bir dəfə əlini-ayağını ilan-çayana vurmamışdı, elə ki əlini uzatdı, ilana toxunan kimi əti ürpəşdi. Ayağını ilan nərdivana qoydu. Qorxudan ayağında zoqqultu hiss elədi. Qız baxdı ki, Əhməd ilannardan eymənir, tez bir göz qırpımında özü qabağa düşüf Əhmədə dedi ki, yapış mənnən, mən səni dartıf çıxardajam. Beləjə də oldu. Qız Əhmədi işıxlı dünyaya çıxartdı. Eşiyə çıxcaq Əhməd gördü kü üç ərəb atı duruf, üçünün də belində zərrin yəhər, yəhərin də üstündə o zamanın silahları asılıf, qılınc, qalxan, şeşpər, yaydı, belə-belə silahlardı. Nə başınızı ağrıdım. Silahlandılar, atdara süvar oldular, üz qoydular Cəm şəhərinə. Qız yeddi gün demişdi, beş günün tamamında gəlif şəhərə çatdılar. Bu o vaxtıydı şah, vəzir, vəkil, qoşun böyükləri, hamsı bir yerdə Gülşan bağında, hovuz kanarında al şaraba «gəl» deyif vurordular. Birdən Cəmşid şah başını yana əydi, gördü, əzizdərim, iki nəhəng ilan, bir də pəhlivan başının üstünü alıflar. Şah qeyzə gəldi, dedi, vəzir, bunlar nə karadı gəlif daxil oluflar. Vəzir dedi: tanımadın, bu Qul Əhməddi. Bə nə tez yadınnan çıxardıfsan onu. Şahın dili tutar-tutmaz qoşun başçılarını harayladı ki tutun buları. Vəzir dedi: şahım, yatıfsan fil qulağında qoşunun təmiz tərkisilahdı, sən artıx təslimsən, şəhərin ətrafını ilan bürüyüf, ananı ağlar qoymağa gəliflər. Birdən Qul Əhmədi gördü, Cəmşid şahın halı yaman pərişan oldu. İrəngi üstünnən qaçdı, odukun Qul Əhməd yaxınnaşıf Cəmşid şaha dedi:

– Nə tez unutdun məni, zalım oğlu? Hələ bir qulaq as gör nə deyirəm. Götürdü görək nə dedi:

Ox atdın ömrümə, taxtı-tarımar,
Getdi zülmün indi dövran mənimdi.
Qoşunun tab etməz zərbi-zoruma,
Alaram qisası meydan mənimdi.

Tarix tamam oldu, döndü növrağın,
İndi xəzan tutdu bu güllü bağın.
Uçdu tacı-taxtın, söndü çırağın,
Yanan çırax, qızıl şamdan mənimdi.

Bütün qullar azad olsun dünyada,
Polad qılınc cövlan etsin havada.
Qul Əhməd də nərə çəksin davada,
Ətrafı bürüyən ilan mənimdi.

Qul Əhməd sözü tamama yetirdi, ayağını polad üzəngiyə dirədi. Bir göz qırpımında atın belinə sıçradı. Əlini qılıncın dəstəsinə apardı, üzünü Cəmşid şaha tutuf dedi:

– Məlun, çıxart tacı başınnan. Taca qılınc vurmax günahdı, öz əlinnən qoy vəzirin başına.

Şah əsə-əsə tacı başınnan çıxartdı, vəzirin başına qoydu. Tacı vəzirin başına qoydu, sonra Cəmşid şah başdadı ağlamağa.

Qul Əhməd soruşdu:

– Əyə, məlun, niyə ağlıyırsan, kişi döyülsən?

Şah cavaf verdi:

– Ölməyə ağlameram, ona ağleram ki. səksən min qoşunu olan bir şah sənin kimi yetim bir oğlanın əlində ölümə məhkum olur.

Qul Əhməd qeyzə gəldi, dedi:

– Ay haramzada, səni mən öldürmərəm, səni pis əməllərin, zülmün-sitəmin öldürör, səni tarıx öldürör.

Bunu deyif şahın kəlləsinnə elə bir qılınc vurdu ku, şahın şaqqa olmuş bədəninin hərəsini şəhərin bir başınnan asdılar. Cəmşid şahın meyidini qurd-quş didişdirif axırına çıxdı.

Qul Əhməd ata-anasının qəbri üstə gəldi, dua oxudu, «rahat yatın, atam-anam, qisasınızı zalım şahdan aldım» – dedi.

Qul Əhməd qəbristannan birbaşa saraya gəldi. Qulları azad elədi, vəziri şah təyin elədi, özü də qoşun başçısı oldu.

Şaddıx məclisi quruldu. Pərzadnan Qul Əhmədin diləkləri hasil oldu. Hamınızın diləyiniz hasil olsun. Əhməd bütün qulları, qaravaşdarı topladı, üç Telli sazı sinəsinə müstəkəm eliyif görək nə dedi:

Çox şükür Xudanın bir varlığına,
Mən ki muradıma çatdım, qardaşlar.
Zülmkarı öz qanına boyadım,
Arzu-murazıma yetdim, qardaşlar.

Zülmdə, zəncirdə mən bir qul oldum,
Yandım, yandım o zülmətdə kül oldum.
Təzə açdım, bir növrəstə gül oldum,
Babamın yurdunda bitdim, qardaşlar.

Qul Əhmədəm, qurtarmışam möhnətdən,
Sandım ki, içmişəm abi-həyatdan.
Dolanıban keçdim bağı-cənnətdən,
Şeyda bülbül kimi ötdüm, qardaşlar.

Söz tamama yetdi, sərkərdə Əhmədi çox alqışdadılar. Bütün məclis şadyanalığa qərq oldu. Hamı azad olmuşdu.

Şadyanalığın bu yerində bir elçi gəlif xəbər verdi ki, deməzsənmi, qırx nəfər atdı məclisə təşrif gətirmək istəyir.

Əhməd sərkərdə izin verdi. bir də gördü gələn Həbəş şahıdı, başında da qırx atdı.

Əhməd əvvəlcə istədi ki, qoşuna əmr eləsin qovalasınnar, sonra fikrinnən daşındı, dedi, qoy gəlsinnər, qonağı qovmazdar.

Həbəş şahı məclisə daxil oldu, yeyif-içmək məclisi təzədən başdadı. Heç kimin də heç nədən xəbəri yoxuydu ki, bu burya nəyə gəlif?

Badələr doldu, təzə şah Həbəş şahının sağlığına badə qaldırmağı təklif elədi. Hamı içdi, təkcə Əhməddən başqa.

Həbəş şah dedi:

– Oğul, bil və agah ol. Sənin bu torpaxdan götürüf aparan da, səni quyunun divinə saldıran da, quyuya iki ilanı göndərən də, səni quyudan xilas eliyən də mənəm. Qoy hamı bilsin, quyuya sallanan ağ ilan sənin sevgilin Pərzaddı ki, bu gün qoşa oturufsunuz. Qara ilan onun qardaşı Gümrah baladı, o da mənimdi, sənin yaxşı oğlan olmağını gördüm, mən sana bu köməyi elədim. İndi mən bu sarayda yığışannarın hamısının sağlığına nuş eləmək istiyirəm. Qoy bu azad olmuş qulların sağlığı olsun, təzə seçdiyiniz şahın, vəzirin, vəkilin sağlığı olsun. Bir də mənim balalarım, sizin sağlığınız olsun, bir-birinizi sevin, haqqı-ədaləti tapdıyannarnan barışmaz olun.

Məsələ aydın oldu, təzədən öpüşmək-görüşmək, şaddıx-şadyanalıx, hara çatar.

Beləcə Qul Əhməd – Əhməd sərkərdə kimi əmr elədi, Pərzad xanımnan ömr sürdü, oğullu-uşaxlı, nəvəli, nəticəli günnər keçirdilər. Aşıq bu dastanı bir bayatıynan belə tamamladı:

Mən aşığam, nə qaldı,
Nə qovğadı, nə qaldı?
Yaxşı, sana irəhmət,
Yaman, sənə nə qaldı?

**Söyləyən: Aşıq Alxan Qarayazılı (Ömərov)**
**Yazıya alanı: Elxan Məmmədli**
**Qarayazı eli, Kosalı kəndi**
**noyabr, 1993**

## YETİM OĞLU MƏHƏMMƏD

### Ustadnamə

Dedim könlüm, içmə eşqin camını
İçsən, dünya sənə dar olacaxdı.
Nə zəhmətdən inci, nə də ki, dost ol
Dost yolunda boran-qar olacaxdı.

Unutma üqbanı, uyma dünyaya,
Kəsb eylə özünə halaldan maya.
Zinakar, haramxor yetişməz baya,
Dosta xayın çıxan kor olacaxdı.

Ələsgər, bilmədin dünyanın sirrin,
Zülmətə işıx var, acıya şirin.
Gen gündə harayla mərdlərin pirin,
Dar günündə sənə yar olacaxdı.

Ustadlar ustadnaməni bir yox, iki deyər, biz də deyək iki olsun, düşmənin rəngi kül kimi solsun:

Bir mənzilə varanmasan başatan,
Ya sən onda karvan olsan nə fayda,
Bir dilbərin məqamına qonmamış,
Xəyalına heyran olsan nə fayda.

El içində şirin dilin olmasa,
Bülbülə layiqli gülün olmasa.
Əsli mərifətdə əlin olmasa,
Dava ilən Sultan olsan nə fayda.

Ey Summanı, yaradan zikr elə,
Gecə-gündüz həmd eləyib şükr elə.
Hər bir işi əvvəlindən fikr elə,
Sonra dönüb peşman olsan nə fayda.

Ustadlar ustadnaməyi üç deyər, biz də deyək üç olsun, müxənnətin ömrü puç olsun.

Bu yerlərin tarlanıyam, sara minnət eyləməm,
Üz döndərsə o beybafa yara minnət eylməm.
Bülbül kimi qan ağlaram zimistanda zarı-zar,
Bircə aylıx gül ucundan xara minnət eyləməm.

Mən özüm də dərd əhliyəm hər bir dərdi qanaram,
Əgər dosta yalan satsam dərd edib utanaram.
Heç bir kəsə sirr açmaram, punhan-punhan yanaram,
Bu canım oda da yansa nara minnət eyləməm.

Qarayazılı Alxanam həqiqət yolun mənim,
Nəfsimə bəli demərəm toxdu xəyalım mənim.
Yüz il yaşasam da belə qarşıda ölüm mənim,
Hökm eyləyib aparsalar dara minnət eyləməm.

Sizə hardan danışax, kimnən söz açax, ustaddar qövmünnən, keçmiş zamannan. Keçənnərdə Şəhrizər şəhərində Yetim adda bir kişi yaşayırdı. Əmbə çox ağır güzəran keçirirdi, çətinnik, korrux amanını kəsmişdi. Ər-arvad bir gün oturub söhbət eliyirdilər. Yetimin arvadı Mürəstə dedi, ay kişi, nə oloydu allah kərəm eliyeydi bizə bir gözəl qız vereydi, biz də onu bir varrıdöylətdi oğlana vereydik, kasıflığın daşını ateydıx, arpa cadı yeməkdən də canımız qutuloydu. Yetim arvadına dedi, ay Mürəstə, bizim kimi çirkin adamnan gözəl qız olarmı, nədi danışdığın?

Söhbət arasında qapıya bir dərviş gəldi. Dərviş salam verdi. Yetim salam aldı. Dərvişə yer körkəzdilər, oturdu. Yetim dərvişə baxıf hönkür-hönkür ağladı. Dərviş baba dedi, ay kişi, niyə belə durduğun yerdə ağlamağa baştadın, sana nə oldu, belə?

Yetim cavaf verdi – nejə ağlamıyım, bircə arpa çörəyimiz varıydı onu da sən gəlməmiş ər-arvad yedik. Bir az tez gəlmədin ki, sən də biznən bir tikə çörək yeyəsən. İndi bəs mən sana yeməyə nə verim, ona ağlıyıram.

Dərviş dedi, ay Yetim, mən pay alan dərvişdərdən döyləm, pay verənnərdənəm. Dur göz yaşını yu, gəl arvadınnan yanaşı oturun. Mən nə desəm sinənizə yazın, yaddan çıxarmayın. Yetim üz-gözünü yudu, gəlif Mürəstə arvadıynan yanaşı oturdu. Dərviş baba sözə başladı:

– Allah tala sizə bir oğul payı verəjək, amba gözəllikdə tayı-barabarı olmıyajax. O uşağın üzündə nur olajax. Uşax yer üzünə düşəndə əvəçi (mamaça) çağırmayın, köbəyini özünüz kəsin, beş yaşında sünnət çaldırın. Dəllək gələndə uşağı külə-kömürə elə bulandırarsınız ki, onun gözəlliyini hiss eləməsin. Uşax yeddi yaşa çatanda onu qara örtük dalında saxlayın. Gejə bajanıza qara keçə tutun işıx bayıra çıxmasın. Oğlanın adını Məhəmməd qoyuram, adı mənim, dadı sənin olsun. Məhəmməd hansı kitabı, hansı quranı istəsə tapın gətirin, öz-özünə oxuyajaxdı. Məhəmməd iyirmi yaşına çatanda başına çox xatalar gələjək. İyirmi səkkiz yaşınnan sora öz murazına çatajax. Dərviş bu nəsyətdəri eliyənnən sora civinnən bir qırmızı alma çıxartdı, əbasının ətəyinnən silif dedi:

– Bu almıyı tən yarı bölüf yeyərsiniz, doqquz ay keçər inşallah Məhəmməd dünyaya gələr.

Yetimnən Mürəstə bu almanın gözəlliyinə ayıl-mayıl oldular. O ona verdi, bu buna verdi ki, tamaşa eləsinnər, bir də başdarını qaldırdılar ki, bıy, ey dili qafil, Dərviş bava qeyv oluf. Ər-arvad dərvişin belə qeyv olmasına çox hayıfsındılar, bir tərəfdən də şaddığa bələndilər, tez almıyı kəsif tən yarı yedilər, baş qoydular təxt-xaba. Nağıl dili yüyrək olar deyiflər. Vaxt gəldi, vədə yetişdi, doqquş ay, doqquz gün, doqquz sahat, doqquz dəqiqə gəlif yetişdi, Məhəmməd dünyaya gəldi, özü də Dərviş deyən nişanda, vallahı kı, gözəlliyi aləmə səs salar.

Ata-ana başdadılar dərvişin dediyinə əməl eləməyə. Birinci əvəçi çağırmadılar, uşağın kövəyini özdəri kəsdi, bir az böyüyənnən sora, yanı beş yaşına çatanda külə-kömürə bəliyif sünnətini çaldırdılar, yeddi yaşa çatanda onu qara örtük dalında saxla-

dılar, istədiyi kitafları axtarıf gətirdilər, Məhəmməd öz-özünə oxumağa başdadı. Nəhayət, gün oldu, Məhəmməd iyirmi yaşa çatdı. Günnərin bu günü Mürəstə atası öyünə getdi, axşam gej gəldi, baja açıx qaldı. Bir imansız qarı bajadan çıxan işığı görüf çıxdı bajadan baxdı; nə gördü, ilahi Məhəmmədin bu hüsnü-camalı, üzünün işığı qarıyı heyran elədi. Oydu ki, heç kim görməsin deyə tez burdan aralandı. Səhər sübhdən tasını götürüf kəsdi şahın qapısını. Şəhərin də şahı Eyzan şahıydı. Şah gejə pis yuxu görmüşdü, vəzir də sübh tezdən yuxu yozan axtarırdı. Gəldilər keşikçilər vəzirə xavar verdilər ki, bəs deməzsənmi, sarayın qapısının ağzını bir qarı kəsdirif əlində də tas, der şahın yuxusunu yozmağa gəlmişəm. Vəzir əmr elədi, qarıyı[1] padşahın hüzuruna gətirdilər. Qarı salam verdi, təzim elədi, şah salamını aldı. Şah dedi, ay qarı nənə, xeyir ola belə tezdən?

Qarı dedi, ey şahım, qırx gündü ağzı oruca sənin haqqında tasa baxıram. Şəhərin kənarında qıvla tərəfində bir oğlan zühür oluf. Tasda körükörkü bir ilə kimi həmən oğlan sənin taxtı-tacına sahib olajax. Onu da deyək ki, keçənnərdə şahlar münnəcimə, falçıya çox inanerdılar. Oydu ki, Eyzən şah da bu fırıldaqçı qarıya inandı. Məhəmmədin yerini-yatağını dürüst öyrənnən sora qarıya bir xeyli qızıl-gümüş, pal-paltar – ənam verdi. Qarının gözdəri söyündüyünnən qəssab pişiyinin gözdəri kimi parıldamağa başdadı. Pay-püşünü də götürüf öz xaravasına vasil oldu.

Gejənin bir aləmi həmən nuranı Dərviş Məhəmmədin yanında hazır oldu. Dedi, oğlum, səni çox işgəncələrə, zulumlara salajaxlar, məni dilinnən qoyma, axırın çox yaxşı olajax, inşallah. Bu sözdəri deyif, dərviş yoxa çıxdı.

İndi sizə kimnən danışax Eyzan şahdan. Şah vəziri, vəkili bir neçə cəlladı hüzuruna çağırdı. Dedi: Gedin Yetimin oğlunu mənim hüzuruma gətirin. Vəzir dedi, şah sağ olsun, Yetimin qonşusunnan sorğu-sual elətmişəm, deyəsən qarı bizi aldadıf.

---

[1] qıvla – qiblə

Yetim sonsuzdu, onun oğlu-qızı heç yoxdu. Şah dedi, vəzir, uzunçuluq eləmə, qarı mana yalan sata bilməz, gedin Yetimin öyünü axtarın, oğlanı tapın gətirin.

Vəzir, vəkil, cəlladlar hamısı şahın hüzurunda təzim elədilər, «baş üstə» dedilər, gəldilər Yetimin öyünə. Məhəmmədi tapdılar, içəri girəndə oğlanın gözəlliyinnən hamsı eyməndi, ayılmayıl qaldılar kı; ilahi bu boyda da bəni-insanda gözəllikmi olar, buna verifsən. Nəsə, əlqərəz Məhəmmədi gətirdilər şahın sarayına! Üstəlik də Məhəmmədin bir at yükü kitabını da yığışdırıf götürdülər özdəriynən şahın hüzuruna. Amba vəzir Məhəmmədin bu gözəlliyini, ata-anasının bu ağır güzəranını görüf çox hayıfsındı, dedi nə yolnan olarsa olsun gərək qoymuyam şah bunu tələf eləməyə, özümü gərək ölümə verəm ki, belə növcahana qoymıyam tələf olsun.

Bunnar şahın hüzuruna getməkdə olsunlar, görək Yetimnən Mürəstə nə halda qaldılar?

Eləkin şahın adamları Məhəmmədi qabağına qatıf qolu bağlı apardılar. Yetimnən Mürəstənin göz yaşdarı qurumadı. Mürəstə ağlıya-ağlıya dedi, ay Allah-tala, verməyinə verif bizi söyündürmüşdün, bə niyə bu söyünməyi bizə axıra kimi qıymadın? Sora da Dərvişin sözdəri yadına düşdü ki, iyirmi yaşında Məhəmmədin başına çətinliklər gələcək. Odu kun Yetimnən Mürəstə bu sözdən bir qədər təsəlli tapdılar.

Bunnar burda qalsın, Məhəmmədi gətirdilər şahın hüzuruna. Şahın gözü qaldı Məhəmmədin üzündə, bəlkə də iki sahat dili söz tutmadı. Çox götür-qoydan sora şah əmr elədi Məhəmmədi zindana saldılar. Məhəmmədi zindana saldırannan sora şah baş vəzirdən onun öldürülməsinnən ötrü tədbir istədi. Vəzir dedi, şahım, sən bu cavanı öldürtsən hamının qəzəbini qazanmış olarsan, bir də özünü gülünc eliyərsən, diyəllər şah bir Yetimin oğlunnan qorxdu, onu öldürdü. Kasıf oğlandı, onun sənin tacı-taxtınnan malı-mülkünnən nə işi var, onun arxası yox, qoşunləşkəri yox, nəynən o sənin taxtı-tacına sahif çıxa bilər? Şah sağ

olsun gəl belə bir xeyirxah iş gör, gəl Məhəmmədi məcbur eliyək öyləndirək. Öylənsə başı qarışar, fikri-zikri arvadına cəm olar, sora da uşaqları olar, təmiz başı qarışar, bir də şahlıx iddiasında olmaz, öz kasıfçılığınnan məşğul olar, başını dolandırar.

Məhəmmədi danışığa çağırdılar. Şah dedi, Məhəmməd, sənin iki yolun var – ya gərək öylənəsən, ya da ömürlük qazamatda çürüyərsən, özün seç. Razı olsan səni vəkilin qızı Sücahət xanımnan öyləndirərik, özünə də sarayda bir yaxşı iş verərik.

Məhəmməd dedi, heç mənnən ötəri narahat – olmuyun, mən heç kimnən öylənəsi döyləm, ömrüm boyu qazamatda çürüsəm də siz deyən olmuyajax. Məhəmməd belə deyəndən sora Eyzan şah sərəncam verdi ki, aparın atın bu məlunu zindana, qoyun ağlı başına gələnə kimi çürüsün. Məhəmmədi apardılar zindana saldılar. Bu minvalnan zimistan dolanda, üstünüzə xeyirli yazdar gəlsin – yaz gəldi. Bir gün Məhəmmədi genə də şahın yanına danışığa gətirdilər.

Eyzan şah dedi, Məhəmməd, öz ürəyin kimi istəyir gəl onu da sana alax, yoxsa vədən tamamdı səni dar ağacınnan astırajam. Bu dəfə də bir şey hasil olmadı. Məhəmməd dediyinnən dönmədi ki, dönmədi.

Apardılar təzdən saldılar qəzəmətə.

İndi sizə kimnən deyək, dərvişdən. Gejənin bir vədəsi Məhəmməd yatan qəzəmətin qapısı açıldı. Dərviş içəri girdi.

– Oğul, nə yatıfsan, oyan, dur, bu piyalanı nuş elə. Bu badəynən sana Günəş xanım adında bir padşah qızını buta verdim. Məhəmməd badeyi içdi, gördü Dərviş yoxa çıxdı, ordaja Məhəmmədi huş apardı, özünnən getdi.

Gün gəldi Məhəmmədi genə danışığa çağırdılar, özünə də şah dedi ki, bu axırıncı dəfədi, ya gərək öylənəsən, ya da ölməlisən. Məhəmməd dedi: – İxtiyar versən, bura bir saz gətirsinlər dərdimi saznan deyim. Şah əmr elədi bir beş telli saz gətirdilər. Məhəmməd sazı sinəsinə basdı, görək nə dedi:

Şahda insaf olar, həm də həqiqət,
Neylədim çəkirsən divana məni.
Gəl özün divan kəs, hax divanınnan,
Nahaxdan buyurma fərmana məni.

Məhəmməd belə deyəndə vəzirin ona yazığı gəlif dedi, Məhəmməd, gəl daşı ətəyindən tök. Öylənməyə irazı ol, yoxsa arada qanın batıf gedəsidi, arxan yox, köməyin yox. Məhəmməd götürdü ikinci bəndi:

Zənana üzünə baxmaram, haşa,
Takı elm oxuyuf çıxmayam başa.
Şahım, salma məni yanar ataşa,
Həsrət qoyma bağa-gülşana məni.

Bu sözdən Eyzan şah belə başa düşdükün Məhəmməd deyir mən şah olmasam arvad almaram. O tüşünməyində olsun, görək Məhəmməd sözü nejə tamamlayır:

Məhəmmədəm, şahım, qolu bağlıyam,
Qəmlər tustağıyam, yolu bağlıyam.
Qəzəbinnən gejə-gündüz ağlıyam,
Zülmnən salıfsan zindana məni.

Söz tamama yetdi, vəzir şaha yalvardı kın, şahım, amanın bir günüdü, qıyma Məhəmmədə, asdırma onu, qoy həmişəlik zindanda qalsın, havax öylənməyə irazılıx verər onda azad eliyərsən. Şah vəzirin sözünnən irazılaşdı, Məhəmmədi təzədən qəzəmətə göndərdilər.

Vəzir xəlvətə salıf zindanbaşına tapşırdı kin Məhəmmədə yaxşı baxsın, vaxtı-vaxtında çörəyini, suyunu versin, əziyyət çəkməyə qoymasın. Bu minvalnan bir zimistan da dolandı, gənə də yaz gəldi. Bir gejə Məhəmmədin yuxusuna ağa Dərviş gəldi. Məhəmməd yuxudan sərsəm ayıldı, sazı götürüf görək nə dedi, siz nə eşidirsiniz:

Qəmlər otağında tək-tənha qaldım,
Yetiş imdadıma ya ağa mənim.
Heyva tək saraldım, gül kimi soldum,
Yetiş imdadıma, ya ağam, mənim.

Zaman bəddi hax-nahaxdan seçilməz,
Pünhan dərdim heç bir kəsə açılmaz.
Qanadım da olsa burdan uçulmaz
Yetiş imdadıma, ya ağam, mənim.

Məhəmməd çağırar Ədalət şahı,
Zəlillər gümanı qədir allahı.
Adı bəlli mərd iyidlər pənahı,
Yetiş imdadıma, ya ağam, mənim.

Məhəmməd sözünü tamama yetirdi, başını söykəyif təzdən yuxuya getdi.

Eşit Bərbər şəhərinnən. Bərbər şəhərində kimnən – Kərəmli şahdan.

Kərəmli şah yeddi iliydi ki, şahıydı. Bu yeddi ildə camahat tamam vergidən, töycüdən azad olmuşdu. Kərəmli şah səxavətdi, əliaçıx oldğuna görə Allah-tala ona iki züryət verdi, biri oğlan, biri qız. Qız o qədər gözəliydi kin, günnən xarac alırdı. Adı Günəş pəriydi. Günəş pəri həm quvallı pəhləvanıydı, həm də həkimiydi. Vaxt yetişdi. Günəş pəri iyirmi beş yaşına çatdı. Günnərin bir günü həmən ağa Dərviş Günəş pəriyə badə içirtdi, Məhəmmədi ona buta göstərdi. Qız eşq ataşına dayana bilmədi, atasına sifariş göndərdikin onu qəbul eləsin. Atası irazılıx verdi. Günəş pəri atasının hüzurunda altı qədəmdə dizə çökdü, yeddi qədəmdə qolu bağlı ayağa duruf dedi, ateyi mehribanım, ey qibleyi aləm, dünya seyrinə çıxmaq istiyirəm, mümkünsə yox demə. Kərəmli şah əlini öpdü, gözünün üstünə qoydu, dedi övladım, özünnən nə götürmək istiyirsən? Qız dedi, ata, bir zərin kəjava, bir də dili lal qoca bir sarvan, yanıkın sir saxlıyan olsun.

Təmanna yerinə yetirildi, Günəş pəri öz gəcavasıynan düşdü yolun turabına. Nə qədər yol getdi, onu demək çətindi. Yazın elə vaxtıydıkın bülbüllər təzəjə yuva tikirdi. Çatdılar Şəhrizanın kənarına. Bura Məhəmməd yatan qazamatdan bir ağac aralı olaolmuya. Günəş pəri əmr elədi kacava əyləndi. Kacavadan endi, o

yana-bu yana baxdı, dedi, qoca sarvan, sən burda dincəl, mən görüm buralarda dava-dərman düzəltməkdən ötəri hansı ottar, çiçəklər var. Sarvan dedi, buyurun övladım, Günəş pəri əmr elədi kacava əyləndi. Kəcavadan endi, o yan, bu yana baxdı dedi, qoca sarvan, sən burda dincəl, mən görüm buralarda dava dərman düzəltməkdən ötəri hası ottdar, çiçəklər var. Sarvan dedi, buyurun övladım. Günəş pəri gedəndə qoja sarvan gördükün qızın qucağında uşax qundağına bənzər ağa bükülü bir şey var. Sarvan öz-özünə qaldı mətəl, «hancarı iyirmi gündü yol gəlerəm, bu uşax bu neçə vaxtda bircə ağlamadı, səsi gəlmədi, həm də Günəş pəri bakirə qzdı, bu uşax ona hardandı?» Bu fikir qoja sarvanı dinc buraxmadı, durdu yavaş-yavaş Günəş pəri gedən səmtə getdi, gördükün qız ağ qundağa bənziyən şeyi açdı, arasınnan on dörd qulaş hörüyü çıxardıf daraxlamağa başdadı.

Sarvan gördüyünə çox xoşxal oldu. Sən demə Günəş pəri qulaş hörükləri yolda toza bulaşmasın diyən ağa büküfmüş.

Qız saçını daradı, gənə də ağa büküf başına yığdı, başdadı bir qədər gül-çiçək yığdı qayıdıf sarvanın yanına gəldi. Axşam tüşdü, bir azdan Günəş pəri baxıf gördükün yaxındakı qalaçadan ətrafa səs yayıler.

Qoca sarvan da qıznan baravar qalaçaya sarı baxırdı. Günəş pəri dedi kin, ay mənim qoca sarvan babam, mən o qalaçıya gedif yoxlamax istiyirəm, sən kəcavamızın yanında dayan gözdə, həm də istirahət elə. Qız bunu deyif gənə də hörüklərini ağa pükdü, dəstələdi, bərkitdi. Üz qoydu qalaçaya tərəf. Gəlif qalaçanın qapısına çatdı, gördü qapıda cəmi bir cəllad durur. Cəllad nə qədər istədi danışa, xavar alakın nə istiyirsən, kim lazımdı, qızın gözəlliyininin şoxunnan dili tutuldu. Cəllad əvvəlcə elə bildi Məhəmməd eşiyə çıxıf, belə şoxu Məhəmməddə görmüşdü. Bu vaxt Günəş pəri dilləndi:

– Ey möhtərəm cəllad, salamməleyküm.

Cəllad dili tutar-tutmaz salam aldı, ürəyi yerinə gəldi dedi. Övladım, nə məqsədə gəlifsən. Günəş pəri dedi, nəyin bahasına

olursa-olsun, mən gərək bu qalaçaya girəm, buranın sirrinnən halı olam. Cəllad tez əlini qılıncın qəbzəsinə yetirdi. Günəş pəri əlini atdı civinə bir ovuc qızıl çıxardıf "buyur, ənamdı", dedi. Cəlladın imanının kirişi qırıldı. Qızılları qızdan alıf dedi. Bir şərtnən ki, tez qayıdasan. Günəş pəri tez qalıya daxil oldu. İçəridə nə gördü, ağası göstərən oğlan budu burda! Günəş pəri Məhəmmədi görüf tanıyan kimi bu ilmi ölüfsən, bildirmi. Huşunu itirdi. Gejə olduğunnan Məhəmməd də yatırdı, xavarı yoxuydu qızın gəlişinnən. Cəllad bir müddət gözdədi gördü qız içəridən qayıtmadı, başı alovlu özünü qalaçaya saldı. Nə görsə yaxşıdı, gördü qız bihuş halda uzanıf yerə. Tez suya qaşdı. Cəllad su gətirdi, qızın üzünə çilədi. Günəş pəri özünə gəldi. Cəllad dedi ay qız, buraya ölməyəmi gəlmişdin, yoxsa mənim öyümü yıxmağamı? Tez ol, amanın günüdü çıx get, məni xatıya salma. Günəş pəri dedi ey xeyirxah insan, sinəmə üç xana söz gəlif qoy deyim, sora gedərəm. Cəllad irazı oldu, götürdü Günəş pəri:

Nə yatırsan qəmi-fəryad içində,
Oyan, oğlan xətti xalın qurbanı.
Ağlımı başımnan təğair etdi,
Hüsnü canım gül cəmalın qurbanı.

Cəllad dedi, ay gözəl qız, tez ol, mənim öyümü yıxdırma. Qız götürdü sözün o biri bəndini:

Gözəllər şöləsi, çırağıyam mən,
Bu məlul yatışın tustağıyam mən,
Şirin kəlmələrin muştağıyam mən,
Bircə danış şirin dilin qurbanı.

Adım Günəş – Bərbər şəhri məkanım,
Səni gördüm, yandı dinim, imanım.
Mən gedirəm, səndə qaldı dərmanım,
Gözdərəm gəlginən, yolun qurbanı.

Günəş pəri sözü tamama yetirdi. Həmən sözü bir kağıza yazıf Məhəmmədin köynəyini açıf qoynuna qoydu. Üzünnən bir

busə götürüf qazamatı tərk elədi. Gəldi çatdı qoja sarvanın yanına. Əmr elədi gecava düzəldi yola. Qız öz məkanına çatıf Məhəmmədi gözdəməkdə olsun, indi görək Məhəmmədin işi nə yerdə qaldı.

Bəli, Məhəmməd iki gün yatdı, üçüncü gün yuxudan durub əlini qoynuna apardı, gördü nəsə kağız şakkıltısı gəlir. Götürdü gördükün namədi. Oxudu, oxuduğunnan da özünnən getməsi bir oldu. Bir qədər beləjə qaldı, ayıldı. Ayılannan sora öz-özünə ağlamağa başdadı. O qədər ağladıkın, göz yaşı bütüncə bədənini istatdı.

Cəllad içəri girdi. Məhəmmədi belə gördü, kağızı alıf əlinə, od vurdu, yandırdı. Şahın əlinə tüşsə, atasını yandırardılar.

Məhəmməd bu günnən divana halına düşdü, halı özündə olmadı. Cəllad bunu belə görüf özünü yetirdi şahın hüzuruna. Salam verif baş əydi. Dedi qibleyi-aləm, Yetimin oğlu dəli oldu. Bu sözü eşidən vəzir özünü saxlaya bilmədi, hönkür-hönkür ağladı. Vəzir dedi, Eyzan şah, sən agah olku Məhəmmədin ahnaləsinnən bizim taxtı-tacımız paymal olajax. Şah əmr elədi, dedi, üç molla, üç nəfər də dünyagörmüş qarı götürün gedək onun dərdinə bir əncam çəkək. Elə də oldu, hamısı yığılıf qazamata gəldilər. Məhəmməd yeri qoyuf göynən əlləşerdi. Vəzir dedi. Oğlum, söylə görək sənin başına nə iş gəlif ki, bu kökə tüşüfsən? Məhəmməd dedi vəzir sağ olsun, izin versəniz saznan deyərəm. İzin verildi, Məhəmməd sazı götürdü sinəsinə görək öz halını nejə bəyan elədi:

Mən yatmışdım xabi-qəflət içində,
Gəlifdi üstümə bir can gedifdi.
Bir namə yazıfdı mən dərdiməndə,
Hürülər qızıymış, pünhan gedifdi.

Məhəmməd belə deyəndə hamı dönüf cəlladın üzünə baxdı. Cəllad gördükün iş şuluxladı, üzünü xəlvətcə Məhəmmədə tutuf işareynən qandırdıkın mənim bu işdən xavarım yoxdu, amanın bir günüdü, məni xataya salma. Odukun Məhəmməd götürdü o biri xanədə görək nə dedi:

İstəyif işkarın alsın bu qəmdə,
Məni qoyuf ahızarda, bu qəmdə.
Gözdüyüfdü, çox durufdu bərəmdə,
Şikar adın o şux tərlan gedifdi.

Məhəmmədəm, indi qəmdə, yasdayam,
Sözüm keçmir, neynim dil şikəstəyəm.
Nə zamandı dərd əlindən xəstəyəm,
Loğman gəlif əldə dərman gedifdi.

Söz tamama yetdi. Eyzan şah üzünü baş mollaya tutuf dedi, molla, bu cavanın dərdinə nə əlac verə bilərsən. Molla cavab verdi. Şah sağ olsun, mana yeddi dənə göyrüş çuvuğu lazımdı. Yeddi çərşənbə soyunduruf döyməliyəm bunu. Hər çərşənbə çuvuğun biri gərək bunun bədənində qırıla. Şah üzünü qarılara tutdu, dedi qarılar bir məsləhət eləsin, görək onlar nə əncam çəkirlər bu işə. İlan vuran qarı irəli gəlif dedi, şahım, yeddi çərşənbə bunun başına kül ələmək lazımdı.

İman quran qarı dözmədi, üzünü baş mollaynan ilan vuran qarıya tutuf dedi. Sizin ikinizin də imanınıza qorxax tula bağlıyım. Kaşkı mənim yeddi oğlum oloydu, yeddisi də bu xəstəliyə tutuloydu. Bunun dərdi eşq dərdidi, ona buta veriflər, qoyun çalıf-oxusun, özü də öz dərdini hamımızdan yaxşı bilir. Məhəmməd sazı sinəsi üstə müstəkəm elədi, dedi bu mollalardan, qarılardan kim istiyir, kimin güjü çatır qoy mana cavab versin:

Lovğa-lovğa danışmağın görün nə faydası var,
Bu sinəmdə coşa gəlir eşqimin dəryası var.
Min bir ayat bir surada oxumuşam tamam mən,
İstiyirsiz bəyan edim onun bir cümləsi var.

Bu bəndi qurtarannan sora Məhəmməd soruşdu, kim cavab verər? Heç kimnən səs çıxmadı. Dedi onda bu dəfə hasandını deyəjəm bəlkə ona cavab verəsiniz. Götürdü görək nə dedi:

Yüz on dörd meçid görmüşəm, birdi onun minbəri,
Kimləriydi cəfa çəkdi, bəs kim tutdu, xeybəri,

Yüz iyirmi dörd min kərpicdən yapılırdı bir-biri,
Yetmiş iki usta işlər amba bir bənnası var.

Məhəmmədə kamal verən elm, ayatdı bil.
Mərd haqqı nahaqa verməz, şahım, ədalətdi bil.
İyirmi birə qərar qoydu ol xuda yaratdı bil,
Siz iblisə baş əyməyin hər dərdin davası var.

Sözünü tamam elədi. Hamı bildi ki, Məhəmməddə dəlilik nişanəsi yoxdu. Bunun dəliliyi eşq-məhəbbət dəlisiydi. Vəzir dedi, şahım, biz özümüz də allahdan arzulayırdıxkin, Məhəmməd öylənsin. Allaha şükürkü biz deyən gün gəldi çatdı, buraxax getsin, sevgilisini tapsın, bir-birinə qovuşsunnar. Elə də elədilər, Məhəmmədi qazamatdan azad elədilər...

Məhəmməd üz qoydu Bərbər şəhərinə. Günəş xanımın sorağınnan yola tüşdü. Doqquz gün yol getdi, gəldi çatdı Lalalı dağa. Gördü bulağın başında qız-gəlin, qoja-cavan hər cür insan var. Bir tərəfdən bəzirgannar, xojalar süfrə açıf, yiyənə bax, içənə bax, hamı Məhəmmədin əlində saz görüf yığıldılar başına. Qoja sövdayar dedi, oğlum, bizim bu Lalalı dağa bir tərif de, Məhəmməd götürdü burda görək nə dedi:

Açılıf lalası, gülü, nərgizi,
Başı ərşə dəyif, ucalı dağlar.
Hər tərəfdən ləli-köyhər çəkilir,
Qolu bəzirgannı, xocalı dağlar.

Hərdən üz döndərir, boran eyləyir,
Qəriblər könlünü viran eyləyir,
Qızı, gəlinnəri seyran eyləyir,
Ahallı, cahalı, qocalı dağlar.

Mən səni çağırram, yaradan-xuda,
Qızıl balıxların oynaşır yuda.
Çox iyidlər məskən salıfdı burda,
Gələnnən, gedənnən bac alı dağlar.

Məhəmməd sözünü tamama yetirdi. Məsim adlı bir sövdəyar varıydı bu camaatın içində. Çox insan adamıydı. Məhəmməddən soruşdu, oğlum, mənzilin haradı, bala?

Məhəmməd dedi, Bərbər şəhərinə gedirəm. Sövdəyər dedi, oğlum, heç fikir eləmə, səni düz Bərbər şəhərinnən səkkiz ağac aralı Zülal çayına kimi aparajam. Ordan sora işin çox hasand olar.

Karvan yola tüşüf getməkdə olsun. Sizə kimnən deyək, kimnən söz açax, Günəş pəridən. Günəş pəri ürəyində nəkin sirri saxlancı varıydı istəkli bajılığı Lalazar xanıma danışmışdı. Günəş pəri Məhəmmədi Lalazar xanıma elə tərif eləmişdinkin, Lalazar Məhəmmədi görməmişdən ona aşıq olmuşdu. Fikirrəşirdi ki, gərək elə bir əncəm çəkəm kin, Məhəmmədi özüm ələ keçirəm. Lalazar bu fikirdə olsun, görək söydakarın karvanı harda qaldı?

Karvan gəldi tüştü Zülal çayının kənarına. Bir söyüd ağacının altında tüşərgə saldılar. Nahar elədilər, karvan da bir solux dincəldi. Məsim söydəkar dedi, oğul Məhəmməd, həmən dediyim Zülal çayı bu çaydı, o uzaxdan görükən də Bərbər şəhəridi. Bunu dedi, sora Məsim soydakar Məhəmmədnən öpüşdü-görüşdü, karvan üz qoydu getməyə.

Məhəmməd başını ovucu içinə alıf fikrə dalmışdı; bir də gördü bir atdı gəler, ona yaxınnaşer. Atdı gəldi çatdı, salam verdi, salam aldı. Məhəmməd baxdı gördü kin bu nizamı bir pəhlivandı, bu kim ola, kim olmuya həmən Laləzar xanımın qardaşı Fikrət ola. Fikrət Məhəmmədi görən kimi, fikirrəşdi ki, bajımın salıx verdiyi həmən o gözəl oğlan elə bu olajax. Fikrət soruşdu, oğlan, mənzilin haradı belə? Məhəmməd dedi, ya pəhləvan, mənim mənzilim elə buratandıkı gəlif çıxmışam. Fikrət heç bir şey demiyif atını sürüf getdi. Şəhərə qayıtdı. Məhəmmədin gəlməsi xavarını əvvəlcə gedif Lalazar xanıma xavar verdi. Sora atını sürdü bir baş Kərəmli şahnan vəzirin dincəldiyi kef çəkdiyi məclisə gəldi. Belə vaxtlarda Fikrət həməşə şahın kef məclisinə yaxşı oy (yəni ov) eliyənnən sora gələrdi. Oyduku şah gördü

Fikrət əliboş gəlif, dedi, Fikrət, bala, bu gün oyun nejə keşdi? Dedi, şah sağ olsun, bu günkü ovum xoşa gəlmiyən oldu.

– Oğul, olmuya pələngə zada irast gəldin?

– Xeyir, qibleyi-aləm, pələngə irast gəlməmişəm, əmbə qərib bir oğlana irast gəldim, elə gözəl oğlan heç görməmişəm.

Hayıflar olsunku belə gözəl oğlanın ağlı zayıymış. Getdi özünü çamıra saldı üst-başı palçığa batdı, istədim qolunnan tutam qaldıram, mənim də üst-başımı palçığa bulaşdırdı. Düzü istədim şilküt eliyim, sora fikirləşdim dedim: «dəliyi allah vurub, üstünnən də mən vurmuyum». Kərəmli şah ikinci vəzirinə göstəriş verdikin, hər kimsə onun dərdinə əlac eləmək lazımdı. Vəzir təzəjə yola çıxmışdıkı Məhəmmədnən qarşı-qarşıya gəldi. Oğlanı görəndə ayıl-mayıl oldu, ilahi, dedi, belə də gözəllikmi olar? Dili tutar-tutmaz Məhəmmədnən salamlaşdı, bildikin Fikrət dediyi oğlan bu özüdü. Oduku dedi, oğul. Buyur mənnən gedək, şah səni öz hüzuruna çağırır. Məhəmməd ədəbnən baş üstə deyif vəzirnən baravar şahın məclisinə daxil oldu: Şahın hüzuruna gələndə ədəblə əllərini döşündə çarpazdadı. Təzim elədi. Şah yer göstərdi. Məhəmməd əyləşdi. Fikrət əyilif şahın qulağına pıçıldadı kı həmən dəli oğlan budu. Şah hər şeyi başa düşmüşdü. Əmr elədi Məhəmmədi hamama saldılar, şahlibas paltar geydirdilər. Şah buyurdu Məhəmməd məclisin yuxarı başında əyləşdi. Məhəmməd burda əyləşməkdə olsun eşit Günəş xanımnan. Günəş eşitdi ki, Məhəmməd gəlif, özü də atasının məclisində başda əyləşif. Tez qaravaşdarına sərəncam verdi bir kef məclisi qurdurdu. Vəzirin qızı Lalazar, həmin xayın qız da saqı seçildi. Yazıx Günəş pəri nə bileydi kin Lalazar belə mazaratdı. Lalazar gördükün Məhəmməd Kərəmli şahın xoşuna gəlif, Fikrətin də cəhd eləməsi bir hasıla çıxmadı, dedi da keçif. Gərək Günəş pəriyi zəhərliyəm. Başdadı zəhər hazırramağa.

Qızdar burda kefdə olsun, sizə danışax Kərəmli şahın məclisinnən. Məclisdə əyləşən ağalar, bəylər gözdərini Məhəmmədin üzünnən çəkə bilmerdilər. Məhəmməd də onların belə bax-

masınnan utanerdi, puçur-puçur tər tökürdü. Şah dedi, oğlum, utanma, bir belə məclis əhli sənin başına yığılıf, sazını çıxart, ceylan elə, nə təmənnan var istə utanma. Fikrət qırışmal gənə də şaha tərəf əyildi, "şah sağ olsun, üz vurma, dəliliyi tutar məclisi biavır eliyər" – dedi. Şah bunun sözünə gənə də fikir vermədi.

Məhəmməd ayağa qalxdı, sazın zlini zil, bəmini bəm elədi, aldı görək nə dedi:

Əzəl başdan bir məclisə varanda.
Sakit əyləş, sakit danış-yaxşıdı.
Bir iyidin olsa dünyacan varı,
Dövlət-vardan bircə tanış yaxşıdı.

Bu bəndi qurtaran kimi şah dedi, oğlum, mana Kərəmli şah deyəllər, ürəyin nə istir deginən, heç çəkinmə, həvəsnən oxu. Götürdü Məhəmməd şaha nə dedi:

Qəriblikdə həvəs olmaz insanda,
Xoş halına dostu ola hər yanda.
Qəza tutub dar ayağına varanda.
Etibardı bir murğu-quş yaxşıdı.

Xəsis adam dövlət-varı istiyər,
Güldə bafa olmaz xarı istiyər.
Məhəmməd sevdiyi yarı istiyər,
Müxənnət deməz ki, bu iş yaxşıdı.

Məhəmməd sözünü tamam elədi. Kərəmli şah onun həm sözünə, həm də özünə heyran kəsildi, ürəyində fikirrəşdi ki, nooloydu qızımın belə bir əri oloydu. Bu vaxt Fikrət bir kağız götürüf bu dəfə kağıznan şaha bildirdi ki, bunun başını burax, bu qədər ona qiymət vermə. İndi yıxılıf özünnən gedəjək. Hamımızı da peşman eliyəjək. Şah Fikrətin yazısına gözucu baxdı, gənə də əhəmiyyət vermədi, işin axırını gözdədi. Bu vaxt Məhəmməd götürdü dübarə görək nə dedi:

Hər zülmə tab gətirə bilmərəm,
Tutsa məni boran, çovğun bir də yaz.

Dəsti sınmış goru əzəb seyrab
Əsirgəmə, canın çıxsın, bir də yaz.

Bu bəndnən Fikrətin şaha kağız yazmasına işarə eliyirdi Məhəmməd. Hərə bir tərəfdən afərin dedi ona, götürdü mabədimi görək Fikrətə daha nə tazyanələr endirir:

Eşq əsərin başda olsa, qaynıyarsan, coşarsan,
Ayax yalın, başı açıx qarlı dağlar aşarsan.
Gen qaz, dərin qaz deyiflər, axır özün düşərsən,
Quyu qazan ço cəfa çək dərin qaz.

Bu sözü deyəndə məclisdəkilər hərə bir tərəfdən “ey gözəl insan yüz yaşa” deyə qışqırışdılar. Məhəmməd götürdü sözün möhürbəndini:

Namərd oğlu, namus-arı istəməz,
Məhəmməd də özgə yarı istəməz.
Badə içən dövlət-varı istəməz,
Bir həqiqət, bir mərifət, bir də qız.

Söz tamam olan kimi Fikrət ayağa qalxıb üzünü Kərəmli şaha tutdu, dedi. Şahım, görürsən, dedim buna çox üz vermə, dəlinin biridi, ağzına gələni oxuyur, heç kimi saymır. Bu sözdən sora Kərəmli şah qəzəflənif ayağa qalxdı, dedi, Fikrət, bir də belə həyasızlıq eləsən, səni zindana atdırıf, ayağına kündə saldırajam. Nə düşüfsən bu yazıq oğlanın üstünə, səhərdən gül kimi sözdər oxuyur, ona paxıllığınmı tutur, yoxsa aranızda bir ədavətinizmi var, mənim xavarım yoxdu. Fikrət kor-peşman bir küncə qısılıf şahın gözünnən gizdənməyə çalışdı. Şah üzünü Məhəmmədə tutdu, dedi, oğul, söylə görüm, sənə nə üz verif, başına nələr gəlif, bu məkana nə niyyətnən gəlifsən? Oyduku Məhəmməd götürüf belə dedi:

Fələk yazıb tərki-vətən olmuşam,
Yön çevirif bu diyara gəlmişəm.
Atadan, anadan qohum-qardaşdan,
Mən olmuşam baxtı qara gəlmişəm.

Məhəbbət bağının şirin barı var,
Uca dağ başının bəyaz qarı var.
Hər kəsin özünün bir dildarı var,
Aşiq olub bir nigara gəlmişəm.

Məhəmmədəm, itirmərm huşumu,
Fələk bu qürbətə atdı daşımı.
Ya budu cəllada kəsdir başımı,
Ya da eyləginən çara gəlmişəm.

Söz tamama yetdi. Şah dedi məsələ aydındı, oğlum, de görüm mənim bu qızım bu saat neçənci otaxdadı, otağında nəyi var, paltarı nədəndi, boyunbağı necədi? Məhəmməd haqq aşığıydı, dedi. Şahım mənim gözüm üstə. Şah dedi, əyər düz deməsən boynun qıldan nəzikdi mənim əlimdə. Götürdü Məhəmməd:

Yeddinci otağa xublar yığıbdı,
Bir zalım olara sağıdı-sağı.
Gülgəz kalağayı, atlas koftası,
Otuz cüt boynunun bağıdı-bağı.

Şah dedi, zalım oğlu, oları sənmi alıfsan, yoxsa mənmi, belə düz deyirsən, Məhəmməd götürdü görək nə dedi:

Astanası mərmər, tufarı dürdən,
Səkkiz gül ağacı, dördüdü xəndən.
Məcmeyi gümüşdü, qızıldan şamdan,
Seyraquf orada yağıdı-yağı.

Məhəmməd can verər, yarın yolunda,
Bircə xal var yanağının solunda.
Tezcə gedin Lalazarın əlində
Piyala doludu, ağıdı-ağı.

Tez cəllad özünü yetirdi qızdarın məclisinə. Gördü Lalazar zəhəri Günəş pəriyə verhaverdi. Tez piyalanı əlinnən alıf şahın hüzuruna gətirdi. Baxdılar gördülər yoxladılar, təsdiq elədilər ki, Lalazar doğrudan da Günəş pəriyə zəhər hazırlıyıbmış. Hamı

Məhəmmədin haqq aşığı olmasına inandı. Ona pənah gətirdi. Şah əmr elədi Fikrəti də, Lalazarı da zindana saldırdı. Vəziri də işdən çıxartdı. Dedi belə qəlbi qara övlad böyüdən ata mənim ölkəmdə gərək yaşamasın, başını götür hara istiyirsən köç get. Şahın bu sərəncamınnan sora Məhəmmədə bəy libası geyindirdilər, hamı xeyir-dua verdi. Günəş pəri də gəlinnik libasına girdi. Başdadı toy. Həmişə öyünüzdə-eşiyinizdə toylar olsun. Yeddi gün, yeddi gejə toy çalındı. Şülənnər qırıldı, kavaflar pişdi, puloy qazannarı doldu-boşaldı. Vaxt gəldi Günəş pərinin başını bəziyif Məhəmmədin otağına aparmax vədəsi çatdı.

Lalazarın bir qoja nənəsi varıydı. Sarayda bir neçə imansız qarıynan dilbir oluf xəlvətcə Günəş pəriyə bihuşdarı verdilər. Qız yuxuya gedənnən sora aparıf otaxların birində gizlətdilər. Onun əvəzinə gözü kor, əli şil, beli də fır bağlamış bir qarımış qızı bəzədilər. Üzünü düvadılar. Apardılar gəlin otağına. Məhəmməd gəlin otağına gedəndə cavannardan biri ona yanaşdı, dedi, ay təzə bəy, Günəş pərinin tərifini de, elə biz də eşidək. Aldı Məhəmməd:

Əziz bəylər, qulaq asın,
Bir gözü kordu gəlinin.
Dili laldı, əli çolax,
Qulağı kardı gəlinin.

Bu sözü deyəndə Günəş pərinin qardaşı elə qeyzə gəldi ki. az qaldı xəncəri sıyırıf Məhəmmədi doğrasın. Əl saxladı, dedi, əyə, beyinsaf, sən Günəş kimi qıza nədi belə ağzına gələni dedin? Məhəmməd dedi səbr elə. Axırına qulax as:

Dünyada yalan bilmərəm,
Nalayıx qızı söymərəm.
Necəsini heç demərəm,
Əlli yaşı var gəlinin.

Heydər bəy lap cinə doldu. Məhəmməd dedi, səbrin olsun, gör nə deyirəm:

Məhəmmədi sınağa saldın,
Ağlını əlinnən aldın.
Mana nejə layıx qıldın,
Belində fırdı gəlinin.

Söz tamama yetdi. Heydər bəy əyağını dirədi ki. rübəndi qaldırın görün mənim bajımda o eybəcər tərifdən bir nişana varmı? Gəlinin rübəndini götürdülər. Nə gördülər? Bu bir şikəst, qozbel, lal, kar, kor bir qızdı. Arıya çaxnaşma düşdü. Günəş pəriyi axtardılar otaxların birində bihuş halda tapdılar. Bir azdan qız özünə gəldi. Vüsal otağına daxil oluf muraz verdi. Qarıyı da, şikəst qızı da, onnara kömək eliyən bir neçələrini də aparıf qazamata Lalazarın yanına atdılar.

Məhəmmədnən Günəş pəri bir-birinə «can» deyə-deyə şirin-şirin ömr eləməyə başdamışdılar. Qışı əlvan otaxlarda, yazı güllü baxçada, yayı göy yaylaxlarda keçirmişdilər. Elə ki payız gəlif yetişdi. Məhəmmədin günnərin birində vətən yadına düşdü. Atasınnan-anasınnan ötrü burnunun ucu göynədi. Günü günnən qəm dəryasına batdı. Günnərin birində Günəş pəri Məhəmmədin belə qəmli halına dözmədi. Nə elədi. Nejə qılığına girdisə də Məhəmmədin üzü gülmədi. Dedi heç olmasa səbəbini söylə, görəm niyə qanın qaradı. Günəşi ağlamax tutdu. Məhəmməd söygülüsünün gözündə yaş görəndə qəlbi yumşaldı. Ustaddar demişkən kişilərin ürəyini bircə xanımların göz yaşdarı yumşaldar.

Məhəmməd dedi, mənim əziz söygülüm, sən mənim dünyalarca söydüyüm canım-gözümsən, əmbə onu da bilməlisən kin mən vətənimi, ata-anamı da sənnən az istəmirəm. İndi özün söylə, mən olarsız burda. Bu uzax ölkədə necə qala bilərəm. İstəyim odu ku, səni də götürüf yaxın günnərdə vətənimə gedim. Gedək gerdə qalan ömrümüzü də atamın qazma küməsində yaşıyax, özümüzə öz əlimiznən, əməyimiznən ömür-gün qazanax.

Günəş pəri dedi, mənim əziz ərim, sənin atayın kasıb koması mənnən ötəri şah babamın qızıl sütunlu sarayınnan üstündü. Sən hara desən mən də sənnən bir yerdə ora getməyə hazı-

ram. Onsuz da qız bir vətənsiz quşa bənzər. Nə qədər atan-anan sağdı, yığışıf gedək, mən də onların ixtiyar çağlarında bir gəlin kimi qulluxlarında dura bilim. Bəli, bular öz aralarında irazılığa gəldilər. Günəş pəri dedi, indi mən bir namə yazım şah babama verim təzə vəzir aparıf versin. Onun da irazılığını alax. Sora allahın izni ilə yol tədarükü görərik.

Günəş pəri elə də elədi. Təzə vəziri yanına çağırıf məktubu ona verdi. Kərəmli şah məktubu oxudu. Məhəmmədi də, qızını da yanına çağırtdırdı. Hər ikisi ədəblə əlləri döşündə şahın hüzuruna gəldilər. Şah yer göstərdi, oturdular. İkisi də günahkar adamlar kimi başlarını aşağı salmışdılar. Şah dedi, övladlarım, Vətənə getmək fikri sizin hansınızın ağlınıza gəldi? Məhəmməd ayağa duruf dedi, şahım, mənim ağlıma gəldi. Şah da ayağa duruf gəldi, Məhəmmədin gözdərinnən öpdü, dedi, oğlum, Vətən qədrini bilən, namusunun da qədrni bilər. On günə kimi sizin getmək tədarükünüzü gördürərəm, gedin dincəlin. Hər ikisi deyə-gülə otaxlarına gəldilər.

Şah əmr elədi. Qırx dəvə yükünnən, bir qırx da pəhlivannar seçildi. Nə ki lazımdı dünyanın bütün naz-nemətlərinnən gəcavələr düzüldü. İki sarvan təyin olundu karvana. Pəhlivannara Şirdət pəhlivan başçı təyin olundu. Kərəmli şah bu ayrılıx vaxtı böyük bir qonaxlıq təşkil elətdirdi. Yedilər, içdilər, halal-hümbət elədilər. Şahın gözdəri yaşnan doldu. Əlini Məhəmmədin kürəyinə qoyuf dedi, oğlum, Günəş balamı sana, səni da allaha tapşırıram. Bu dəmdə Məhəmməd götürdü görək nə dedi:

Kərəmli şah, bir qulax as ərzimə,
Bu dünya heç kimə bafadar olmaz.
Uca dağı tüstü-boran tez tutar
Alçax dağda boran, nə də qar olmaz.

Haqqınnan dost olan insanı satmaz,
Halal mayasına, heç haram qatmaz.

Şeytana baş əyif sözünü tutmaz,
Ölüncən düz olar, ziyənkar olmaz.

Məhəmmədəm, bir halallıx dilərəm,
Dara düşsəm öz Ağamı səsdərəm.
Bu qəlbimdə şaha hörmət bəsdərəm,
Ağlım düzdü, məndə kəmilqar olmaz.

Söz tamama yetdi, görüşdülər, öpüşdülər. Təbillər çalındı, balaban vuruldu. Şirdət pəhlivan özünün dəstəsiynən atdara süvar oldular. Gəcavələr tərpəndi. Karvan yola düzüldü. Məhəmməd Günəş pəriynən öz gəcavələrində əyləşdilər, yola başladılar. Üz tutdular Şəhrizargilin vilayətinə tərəf getməyə. Az getdilər, çox getdilər. Axşama yaxın gəlif qalın bir meşənin içinə çatdılar. Bir çayın kənarında gejələmək qərarına gəldilər. Yemək-içmək öz qaydasında, sufralar açıldı, kəmərrərini bərkitdilər, od-ojax qaladılar, gejənin bir müddətinə kimi dedilər güldülər, pəhlivannar güştü tutdu, qılınc oynatdı. Gejə beləjə keşdi, səhər açıldı. Məhəmməd Günəş pəriyə dedi, gəl bu pəhlivannara əziyyət vermiyək. Günəş pəri də bu fikrə irazı qaldı, Şirdəti yanına çağırdı dedi ki, çox sağ olun, hamınızdan irazıyıx, amma bunnan belə sizə əziyyət vermək istəmirik. Qırx pəhlivanını da yığ başına dala qayıt. Şah babama deyərsən ki, sizi mən qaytardım. Şirdət pəhlivan dedi ki, xanım, onda şaha bir namə yaz ki, sən bizi qaytarıfsan. Günəş pəri Kərəmli şaha bir məktub yazıf Şirdət pəhlivana verdi. Dəli-dolular atdanıb yola düşdülər. Şirdət pəhlivan Bərbər şəhərinə gəldi. Şahın hüzurunda təzim eliyif Günəş xanımın məktubunu verdi, həm də dil-cavabı dedi ki. şah sağ olsun, bizi qızın özü geri qaytardı ki, özümüz gedirik. Kərəmli şah bir şey demədi. Fikirrəşdi, yaqın belə məsləhətmiş.

İndi sizə danışax karvannan. Karvan bu sıx meşəliknən yola başdadı, bu minvalnan üç gün də yol getdi. Meşəlik, yağış, mənzərə, gül-gülü çağırır, bülbül-bülü, çaylar şırıldayır, ağaclar pıçıldayır, bir yannan da dəvələrin zınqıroyu meşəni başına

götürür. Gəlif bir yerə çatdılar ki, elə bil gözəllikdə cənnətin bir guşəsidi. Bura çatanda Günəş pəri dedi, Məhəmməd, gəlsənə bu gözəl yerdə bir qədər dincələk, mənim də yuxum gələr, bir az gözümüzün çimirini alax. Məhəmməd irazı oldu. Gəcavələr əyləndi, surfa açdılar. Qoca sarvanı da dəvət elədilər, oturdu bu-larnan şirin-şirin çörək yedi. Dəvələrə xıx dedi, otduyan otdadı, göyşüyən göyşədi, bir söznən müvəqqəti düşərgə saldılar, din-cəlməyə başladılar. Səhər tezdən yuxudan durdular, üz-gözdə-rinə su vurdular, bir az yemək yedilər, durdular ayağa gəzə-gəzə, gül-çiçək dərə-dərə, deyə-gülə karvannan aralandılar. Başdarı o cürə qarışdı ki, yollarını da itirdilər. Bir müddət gəzif-gəzif yoruldular. Gəlif çatdılar bir bulağın üstünə, qoca bir palıd ağa-cının gölgəsində oturuf dincəlməyə əyləşdilər. Günəş pəri çox yorulmuşdu, oturan kimi onu yuxu tutdu. Başını Məhəmmədin dizi üstünə qoyuf, şirin-şirin yuxuya getdi, yatmağa başdadı.

Qız yatmaqda olsun, Məhəmməd bir də başını qaldırdı gördü ki, başının üstə butağa bir gözəl qırqovul qonuf. Dedi, nə yaxşı oldu, elə otduğum yerdəjə bu qırqovulu vuraram, Günəş pəri yuxudan duranda ona peşkəş elyərəm. Oydu ki, yay-oxunu qoydu çilliyə, bu vaxt qırqovul uçuf qalın bir ormannığa qondu. Məhəm-məd yavaşca Günəş pərinin başını dizinnən götürdü. Çuxasını soyunuf başının altını irahladı. Düşdü qırqovulun dalınca. Qırqovul bu ağacdan o ağaca, bu dərədən o dərəyə uça-uça Məhəmmədi Günəş pəridən tamam araladı. Məhəmməd onda dayandı ki. gördü ey dili qafıl. Nə qırqovul vura bilif, nə də hara-hansı səmtə gedəjəyini bilmir. Öz-özünü möhkəm danladı, bir yannan Günəş xanımın əhvalı, tək meşədə qalması yer elədi, bir yannan da qoca sarvanın qəflə-qatırnan çaşbaş qalması onun halını möhkəm pozdu. Məhəmməd qızı axtarmaxda olsun, görək Günəş pəri nejə oldu? Aradan üş gün keşdi. Bir vaxt qız gördü oyandı, nə qədər yatdığını özü də bilmədi. Yana boylandı, gördü Məhəmmədin sazı yanındadı, özünün yayı-oxu da burdadı, əmbə Məhəmməd yoxdu. Bir qədər o tərəf bu tərəfə boylandı, bir az

gözdədi, gördü yox, Məhəmməd yoxdu. Sazı da götürdü, yayı da, oxu da çiynindən asdı, pəhlivan libasını bərkitdi. Məhəmmədin çuxasını da əyninə geyinif axtarmağa başdadı. Qarannıx meşədə çox axtardı, çox aradı nə Məhəmmədi, nə də karvanı tapa bildi. Getdi çıxdı bir axar çayın üstünə, bir kənarda oturdu, bir qədər köyrəldi. Gözünün qavağına Məhəmməd gəldi, xoş keçirdiyi günnər gəldi dayandı, sazı götürdü bu qəmli halında görək nə dedi:

Qannı fələk məni nə günə saldı,
Məhəmməd tək gözəl yarı itirdim.
Bu qəmli ürəyim intizar qaldı,
Əldən getdi bafadarı itirdim.

Qız birinci bəndi yanıxlı-yanıxlı oxuyanda qırx haramılar yaxınnıxda bulaq başında kef məclisi qurmuşdular. Birdən qızın oxumasını eşitdilər, hamısının loxması boğazında qaldı. Başçıları Əhməd haramı dedi, ədə, doğrudan da qız səsidi, Allah bizimkini yetirif. Üz tutdular səs gələn səmtə. Günəş pəri götürdü sözün o biri bəndini:

Gör nejə tuş oldu bəlaya başım,
Qarannıx meşədə yoxdu yoldaşım.
Bu günümdə gəleydi bircə qardaşım
Daha görməm umud varı itirdim.

Günəşəm, var dərdim yaralıyam mən,
İndi bildim baxtı qaralıyam mən.
Özüm də bilmərəm haralıyam mən,
Gözəl vətən, o diyarı itirdim.

Söz tamama yetdi, bu vaxt Əhməd haramı başı qıza sinçi[1] sala-sala az qala ağlı başınnan çıxa. Dönüf yoldaşlarına dedi ki, bu qıza kim pis göznən baxsa and içirəm o gözəgörünməzə qılıncdan keçirəjəm. Bu sözü deyif qızın yanına gəldi. Günəş pəri tez ayağa durdu. Əhməd haramı salam verdi. Qız salam

---

[1] Sinçi salmaq – diqqətlə baxmaq, xəlvət baxmaq

aldı. Qıza əl uzatdı kı dəsbədəs görüşsün. Günəş pəri haramının dörd barmağını elə sıxdı ki, barmaxlarının ucunnan qan damdı. Haramı utandığınnan özünü sındırmadı, amba barmaxlarının ağrısınnan az qaldı ürəyi getsin. Sora loyğa-loyğa (yəni lovğa-lovğa – E.M.) dedi kin, ay gözəl qız, səni mana yazana qurvan olum. Günəş pəri dedi, nə çərənniyirsən, dəli haramı, sən bir yol kəsən, öy yıxan yırtıcısan, mən bir şah qızı mən sana tay ola bilərəmmi? Əhməd haramı qızın dediyini heç saya salmadı, istədi onu əvvələn söznən, sora da zornan ram eləsin. Gördü kü buların heç birinnən bir kömək hasıl olmadı başdadı zəhlə tökməyə. Qız dedi, mana Günəş pəhlivan deyəllər, qavağınnan qaçsam şah babamın çörəyi mana haram olsun. Əmbə bir şərtim var, gərək ona ikimiz də əməl eliyək. Əhməd haramı dedi, nədi o şərt desən biz də bilək. Günəş pəri dedi, iyidliyin şərti üçdü: biri deyişmək, ikincisi qılınc çalmax. Üçüncüsü güləşmək. Kim-kimi yıxarsa başını bədəninnən götürər. Haramı dedi birinci fırsat kimin olsun? Qız dedi fırsat sənindi, aldı haramı:

Bir nərə çəkərəm, dilin lal olar,
Çolpasan gölümdə tutaram səni.
Zənandə qüvvət olmaz bilirəm,
Köhlən at döşünə qataram səni.

**Aldı Günəş pəri:**

İltimasım budu sana haramı,
Gəl eşqin bəhrinə dalma hayıfsan.
Sonrakı sözünü qabax söyləmə,
Belə gəc xəyala dalma hayıfsan.

**Haramı:**

Bir ummanam coşa gəlif çağlaram,
Sinən üstün çalın-çarpaz dağlaram.
Kəmənd atıf qollarını bağlaram,
İndi şan-şan edif ataram səni.

**Günəş pəri:**

Qəza vurar coşan ümman quruyar,
Xəzan dəyər gül-çiçəyin çürüyər.
Hökm eylərəm dağlar, daşdar yeriyər,
Həyasız, üstümə gəlmə, hayıfsan.

**Əhməd haramı:**

Əhmədəm, qənimlər atdan atmışam,
Şikarımsan, ovgahımda tutmuşam.
Çoxlarını qul eliyif satmışam,
Qul edif Hələfdə sataram səni.

**Günəş pəri:**

Günəşəm, meydanda mərdana durram,
Halaylar pozaram, ordular qırram.
Bu qılıncnan səni ikiyə bölləm,
Cavansan əlimdə ölmə, hayıfsan.

Sözdəri tamama yetdi, sözdən bir hasıl olmadı. İş çatdı qılınca. Nə qədər qılınc vurdular, bir-birinə üstün gələ bilmədilər. Axırda ikisinin də qılıncı pul-pul oldu. töküldü. Onu da deyək ki, otuz doqquz haramı cərgəynən bir qıraxdaja duruf bu iki pəhlivanın cənginə tamaşa eliyirdilər, elə bil ki. heç ölüm-qalım məsələsi döyül. Bəli, iş o yerə çatdı ki, qılıncdarının dəstələrini hərə bir tərəfə tulladılar. Başdadılar güləş tutmağa. Hər ikisi yeri kotan kimi əkməyə başdadı. Əhməd haramı Günəş pəriyə əl tutanda onun barmaxlarının güjünü görmüşdü. Ehtiyat eliyirdi kin birdən barmaxlarını qırar. Beləjə bir qədər çəkişmişdilər, birdən Günəş Əhməd haramıyı var güjünnən dala itələdi. Əhməd haramı gedif bir ağac kötüyünə ilişif az qaldı kəllə-mayallax olsun. Bu vaxt Günəş pəri ona badə içirdən dərviş babasını yadına saldı, ya Ağam, deyif bir dəli nərə çəkdi. Dağa-daşa bir səs düşdü, qayalardan qamqalax qopdu. Əhməd haramı bu səsdən çaş-baş qaldı, qulaxları tutuldu, özünü itirdi, sinir

damarrarı bürüşdü. Bu vaxt Günəş pəri haramıyı başına qaldırıf yerə elə sancdı ki, haramı zıqq elədi. Tez dizini sinəsinə dirədi, xancalı çıxardıf qoyun başı kəsən kimi Əhməd haramıyı kəsmək istədi. Bu vaxt Əhməd haramı yalvardı, ey pəhlivan, iyid bastığın kəsməz, amanın bir günüdü əfv elə məni. Günəş pəri dedi. Qıza əl qaldıran biqeyrət oğlanın başı bədənində durmamalıdı, cəzandı çəkməlisən. Uzunçulux eləmə, kəlmə şəhadətini oxu, səni gözdəməyə vaxtım yoxdu. Günəş pəri xançalı çəkif Əhməd haramının başını bədənnin üzdü, qulağınnan tutuf yeddi qədəm tulladı, dedi, məlun-haramzada indi get məni Hələfdə qul kimi sat. Otuz doquz haramı hamı bir nəfə kimi gəlib Günəş pərinin qarşısında diz çökdülər, dedilər, ey gözəl pəhlivan, Allah tala həmeşə sana belə güc-qüvvət versin, bizim də canımızı bu qan içənin əlinnən azad elədin. İndi əyər istəsən hamımız qardaşın kimi sana qullux eliyərik, istəməzsən burax bizi gedək, halal əməyimiznən, alın tərimiznən dolanax. Günəş pəri dedi, hər kəs öz öyünə-eşiyinə gedə bilər, ixtiyar özünüzdədi. Otuz doqquz haramı hərəsi Əhməd haramının üstünə bir neçə daş atdı üstünü torpaxlayıf, onu it leşi kimi basdırdılar, hər kəs öz yuvasına dağıldı. Günəş pəri də bulardan aralanıf Məhəmmədi axtarmağında olsun. Gəzə-gəzə çatdı yelli dəryanın kənarına. Gəldi düz gəminin bərəsinə. Gejəni bir təhər burda gejələdi, ertəsi gün gəmi gəldi. Qız qavağa çıxıf gəmiyə tərəf gedəndə gəmidəkilər hamısı qıza tərəf boylanışdılar, bunun gözəlliyinə təəccüf elədilər, belə də gözəlmi olar, ilahi? Bu arada gəmiçi Günəş pəriyə yaxınnaşdı, nə istəyirsən, bajı, bizdən təmannan nədi? Günəş pəri dedi qulaq as, gör nə deyirəm:

Başına döndüyüm, gəmiçi qardaş,
Burdan gəlif bir nöycavan keşdimi?
Şikar yad olurmuş öz oyçusunnan,
Gözü qannı bir şux tərlan keşdimi?

Gəmiçi dedi, ay bajı, sən çox qəliz danışırsan, mən heç şey başa tüşmərəm, açıx danış göröm nə dersən? Götürdü Günəş pəri:

Kimsəm yoxdu mənim dərdimi bilsin,
Fələk də mənim tək beymuraz qalsın.
Döyranı dağılsın, çarxı pozulsun,
Belə əyyam, belə döyran keşdimi?

Gəmiçi də, gəmidəki camahat da gördülər ki, nəsə bu qız yaman zuluma tüşüfdü. Əllərində, paltarında da qılınc yerrərini gördülər, laf kefləri pozuldu. Götürdü görək Günəş pəri daha nə dedi:

Beçərə Günəşəm dərddi-yaralı,
Cavan oyçu itirifdi maralı.
Ürək qəmli, özü başı balalı,
Qan ağlıyan, didə giryan keşdimi?

Sözünü başa yetirdi. Gəmiçi dedi, bajı, vallah, mən heç kimi görməmişəm. Əyər getmək də istəsən otu gəmidə, səni pulsuz-parasız apararam. Qız dedi, sizə yaxşı yol, siz gedin, mənim itiyim var, tapmasam gedəsi deyləm.

Qız gəmidən aralandı, təzədən üz qoydu qarannıx meşiyə. Gedə-gedə dərmən otlarınnan dərif yaralarına məlhəm elədi. Məhəmməd deyə-deyə meşiyi ələk-vələk elədi...

... Günəş pəri Məhəmmədi axtarmaqda olsun, eşit Məhəmmədin özünnən, görək onun başına nələr gəldi?

Məhəmmədkin yolu azmışdı. Əlacı ona qalmışdı ki, bu keçilməz meşədən bir açıxlığa çıxsın, kənddən, şəhərdən bir yerə çatsın. Elə də oldu. Başdadı üzü bir tərəfə hərəkət eləməyə. Bir müddət keçənnən sora gördü daha meşə qurtardı, uzaxdan kənddər görünör. Sən demə bu torpax olsun İzzət şahın torpağı. Məhəmməd tanımaza-bilməzə gəzə-gəzə gəldi çıxdı İzzət şahın qızı Gülgəz xanımın bağına. Keçdi bağa, gördü heç kim yoxdu. Ajdıx, susuzdux çox kar eləmişdi. Bir az almadan, armuddan yedi, axşam arıya tüştü, şər qarışdı. Məhəmməd komaların arasına uzanıf şirin yuxuya getdi. O yatmağında olsun, sizə kimnən deyək Gülgəz xanımnan. Gülgəz xanım yatmışdı, yuxusunda gördükün kimsə ağ gülü, qırmızı gülü dərif əlində tutuf ona uzadır. Savax üzünüzə xeyirliyə açılsın, savax açıldı. Gülgəz duruf tez

Səməngül qarabaşı çağırdı. Həmən yuxusunu Səməngülə söylədi. Səməngül dedi, ay xanım, xeyirdisə, şərdisə bu yuxuyu mana bağışda. Gülgəz xanım dedi, boğazında qalar. Heç ömrümdə belə yuxu görməmişəm. Bu iyirmi yaşımda qismətimə gül-çiçək tutanı gərək tapax. Ürəyimə damıf, nəsə bu xeyirri yuxudu. Özü də sana söz verirəm, qarabaş, işdi, doğurdan da bu yuxu xeyirri olsa sana bir boyunbağı alajam. Duruf hər ikisi də bağa gəldilər. Hər ikisinin ovçu vurmuş quş kimi ürəkləri titriyirdi. O yerə gəlif çatdılar ki, Məhəmməd arxası üstə puçurpuçur tər tökə-iökə yater. Gülgəz xanım oğlanı görən kimi az qaldı huşu başınnan getsin. Bircə onu dedi ki, Səməngül, qolumnan tut, qoyma yıxılam. Səməngül Gülgəzin üzünə gülab çilədi. Gülgəz özünə gəldi, dedi, ey gözəgörünməz, bu gözəl oğlanı hası xoş sahadında yaradıfsan? Bir az özünü toxtadı, birdən vergi verilmiş kimi ürəyinə bir neçə xana söz gəldi. Xurmayı saçınnan üç tel ayırıf saz əvəzi sinəsində müstəkəm elədi, görək nə dedi:

Şahın quş kimi məlul yatersan,
Oyan oğlan, dərdin dur mana söylə.
Qəm oxunu bu sinəmə atıfsan,
Oyan oğlan, dərdin dur mana söylə.

Bülbüllər görərsə ah-fəğan eylər,
Həkimlər çağırram tez dərman eylər.
Dərdin məni dəli-divana eylər,
Oyan oğlan, dərdin, dur mana söylə.

Mən Gülgəzəm, sən də onun dərmanı,
Gözəl canım sən oğlanın qurvanı.
Dur ayağa, gəzək bağı-gülşanı,
Oyan, oğlan, dərdin dur mana söylə.

Gülgəz sözünü tamamlayan kimi səsə qızdar yüyürüşüf gəldilər, gördülər Gülgəz xanım özündə-sözündə döylü. Məhəmməd hələ də yuxudan ayılmamışdı. Qızdar bunu belə görəndə

hamısı ayıl-mayıl oldular. Hərənin ürəyinnən bir arzu, bir istək keşdi. Gejdən-gejə Məhəmməd oyandı, ətrafında qızdarı görüf özünü yığışdırdı, haya elədi, Gülgəz xanım qızdarın hamsını qovaladı. Məhəmməd gördükün hamı dağılışıf getdi, təkcə bircə qız qaldı. Başa düşdükün bu şahın qızıdı. Dedi, xanım, bağışlayın, izinsiz, icazəsiz gəlif sizin bağınızda yatmışam. Başqa qalaçax yerim yoxuydu, nəsə bura gəldim. Qız dedi, oğlan, mən bu bağın sahıvı Gülgəz xanımam, İzzət şahın qızıyam. Mən sənin gəlməyini yuxuda görmüşəm, bu gejə söyündürüfsən məni. Gözüm üstə yerin var, sənin hər dərdiyin əlacıməndədi. Bunnan sora gejələr qalarsan mənim qonaq otağımda, səhərlər çıxarsan şəhəri gəzif dolanarsan. Buyur, götür bu açarı, qonaq otağının açarıdı, bu da qızıl sandığımın açarıdı, nə qədər istəsən xərclik götürərsən, öz dədə malın kimi xarşdıyarsan. Bir qədər söhbət elədilər. Gülgəz gördükün bu oğlanın heç gözdərinnən qəm əskik olmor. Nəsə başında bir qəza var bunun. Dedi, görürəm, heç mana məhəl qoymorsan, olmuya gözü yolda qalanın var? Məhəmməd dedi, xanım, çox düz tapdın, eləkin var. Belə deyif pütün başına gələnnəri Gülgəz xanıma nağl elədi. Qız dedi bu günnən sən oldun mənim qardaşım. Amba dediyimiz söz yerindədi. Bir neçə gün qal mənim qonağım ol, qonax otağımda dincəl. Şəhəri gözlə, bəlkə elə Allahın köməyinnən söygülün də gəlif bizim şəhərə çıxdı, burda görüşdünüz, inşallah.

Qız nejə demişdi, Məhəmməd eləjə də elədi. Gündüzdər gedif şəhəri gəzir, ətraf yerrəri dolaşıf gejələr gəlif Gülgəz xanımın qonax otağında qalerdı. Gejənin bir vaxtına kimi Gülgəz xanım başında bir neçə qıznan gəlif Məhəmmədin qəmini dağıder, başını qatıf yuxuya verənnən sora qayıdıf hər kəs otağına gederdi. Beləjə Məhəmmədnən Gülgəzin arasında bir bajı-qardaş məhəbbəti yarandı, Gülgəz fikirrəşdikin, ya gözə görünməz, mən elə bildim sən mana can sirdaşı göndərifsən, amba elə oldu ki. qardaş göndərdin. Nolar, qoy qardaş olsun, onsuz da qardaşım da yoxuydu. Bu kəréminə də çox şükür. Onda gərək

sən özün də kömək əlini əsirgəmiyəsən, ilahi, tezdiknən Günəş xanımı Məhəmmədə irast gətir. Bu minvalnan Məhəmməd özünə bir saz da almışdı. Qızdar dağılıf gedənnən sora öz dərdini sızıldaya-sızıldaya saza söylüyürdü. Səhər də sazı götürüf çıxırdı gəzməyə. Bir gün gənə Məhəmməd güllü baxçadan çıxanda, nəsə heç kimə fikir vermiyif hasarın üstünə çıxıf orda xeyli dayandı. Bu vaxt şəhərin baş mollası cuma namazına gederdi. Gördükün bıy, Gülgəz xanımın hasarının üstə bir nabələd adam oturuf. İmansız molla tez qaça-qaça baş cəlladın yanına gəlif xavar verdikin, bəs deməzsənmi Gülgəz xanımın hasarının üstünə bir nabələd adam çıxıf dayanıf. Bəlkə elə oğurruğa gəlif? Tez onu tutmax lazımdı. Cəllad tez gəldi, gördükün doğrudan da bir gözəl oğlandı. Əlində də saz tutuf. Gördü yox, bu saznan bu oğurruğa gəlməz. İstədi başını buraxsın, dəyif-toxunmasın. Qorxdukun molla gedər şaha da xavar verər. Oydukun Məhəmmədin qolunnan tutuf şahın hüzuruna apardı. Gəldilər şahın astanasına çatdılar. Gördülər bir tərəfdə neçə şikayatçı, bir tərəfdə də günahkarlar nizamnan dayanıflar İzzət şahın hüzurunda. Bu dəmdə şahın bağbanı əlində qəfəs, qəfəsin içində də bir bülbül fəğan eliyir, özünü o yan-yan bu yana çırper. Məhəmmədə bu mənzərə çox yer elədi, heç kimnən ixtiyar almıyıf, gözdərinnən qan-yaş tökə-tökə beş telli sazı sinəsinə basdı, mizravı qəm telinə çəkəndə, cəllad zalım Məhəmmədin əlinnən yapışdıkin, olmaz, ay belə filan oğlu, sən kimin hüzurunda ixtiyarsız saz çalersan. Bu vaxt elə bil qeyfdən bir səs gəldi. «Eşq əhlinə zaval yoxdu». Cəllad diksindi, az qaldı lal olsun. Əl götürdü. Məhəmməd sazı cöylana gətirif görək nə dedi, siz nə eşidersiniz?

Baharın gülşan çağında,
Niyə tüşdün tora, bülbül?!
Üstü şehli gül yarpağı,
Qismət oldu xara, bülbül.

Bü səsi eşidəndə İzzət danışığı kəsdi. Vəzirə dedi kimdi elə oxuyan? Vəzir dedi. qibleyi-aləm, təzə tutulan aşıxdı. Bu ara Məhəmməd götürdü o biri bəndi:

Mən ağlaram el ucunnan,
Əşrəfilər tel ucunnan.
Bircə aylıx gül ucunnan,
Batdın ahı-zara, bülbül.

Məhəmmədin qəmli çağı,
Qoymadılar gəzək bağı.
İkimiz də qəm tustağı,
Həsrət qaldıx yara, bülbül.

Sözünü tamamlıyan kimi İzzət şah Məhəmmədi yanına çağırdı. Şahın hüzuruna gələn kimi ədəblə əlləri döşündə, dizə çökdü. Şah ayağa duruf Məhəmmədin qolunnan tutuf qaldırdı. Yer göstərdi, otur, oğlum, – dedi. Məhəmməddən bir gözünü çəkə bilmerdi. Məhəmmədin gözlərinə baxıb onun bəni adam olmağına şübhə eliyirdi. Nəhayət şah, oğlum, sən kimsən, haralısan, nə dərdin var, utanma, mana de. Köməyim dəyər, dedi. Mən sən gördüyün zulumkar şahlardan deyləm, oğul. Məhəmməd götürdü görək nə dedi, öz halını nejə bəyan elədi:

Əziz şahım, nəzər yetir ərzimə,
Fələk məni ayrı saldı elimnən.
Baharım qış oldu, boran-qar tökdü,
Bülbül kimi ayrı tüşdüm gülümnən.

İzzət şah heyran-heyran Məhəmmədə qulaq aserdi. Vəziri çağırıf dedi, yaxşı sözdər oxuyur, götür bu sözdəri yaz. Vəzir uju qızıllı lələyi götürüf yazmağa başdadı. Götürdü Məhəmməd sonrakı bəndi:

Sonalar məskənin salar göllərə,
Gəmim qarq olufdu coşğun sellərə.
Varımı itirdim, tüştüm çöllərə,
Bu yaşımda göz açmadım zulumdan.

Bu sözdərdən İzzət şahın ürəyi qana döndü. Dedi, oğlum, bu dünyada heç fikir çəkmə, nə dərdin-sərin var, hamısına çara qılaram. Məhəmməd sözün tafşırmasına keçdi:

Məhəmmədəm, Mansır kimi dardayam,
Yarın həsrətinnən ahı-zardayam.
Huş gedif başımnan, bilməm, hardayam,
Gözəl sonam uşdu-getdi əlimnən.

Sözü tamam elədi. Başına gələn pütün macaraları İzzət şaha nağl elədi.

Şah üzünü vəzirinə tutuf dedi, vəzir, sən də bu beçərənin başına gələnnərdən halı oldun. Gərək bunun söygülüsünü göydə ulduzların arasına da çıxmış olsa endirmək lazımdı yerə. Vəzir dedi, qibleyi-aləm, Günəş pəri pəhlivandı, özü də qızdı. Onun üstünə kişi dəstəsi göndərmək olmaz. Gərək on-on beş qız pəhlivannar hazırlayax Günəş pəriyi soraxlamağa göndərək. Oğlan pəhlivan göndərsən qız inanmaz elə bilər ki, onu ələ keçirməyə gediflər, başdıyar dava-dalaş salar, arada nahaq qan olar. O saat Zərqələmi çağırdılar, o, qız pəhlivannarının başçısıydı. Zərqələm, özünü məclisə çatdırdı, şahın hüzurunda ədəbnən salam verif, əlini öpdü. İzzət şah tapşırıx verdi, on-on beş iyid qızları götür də Günəş pəriyi soraxlamağa yola tüşün! Zərqələm söz verdikin, şah sağ olsun, Günəş xanım göyün yeddinci qatında da olsa onu axtarıf tapajam. İzin istədi, ədəbnən üzü məclisə, arxası qapıya dal-dalı qapıdan çıxıf getdi. Gəlif on bir nəfər pəhlivan qıznan yola tüzəldilər. Qızdar yola davam eləməkdə olsunnar. İzzət şah əmr elədi Məhəmmədi cah-calalnan özünün qonağ otağına göndərdi, tapşırdıkın dünyanın nəkin naz-neyməti varsa sufrasını bəziyin qoyun qız tapılıf gələnətən başı qarışsın. Özü də aşvazdara çatdırdıkin mən hası xörəkdən yiyirəm Məhəmmədə də həmən qazannan verərsiniz. Xəznadarı çağırtdırdı, dedi, Məhəmmədə nə qadar pul, qızıl, xarşdıx lazımdı apar, qoy ürəyi istəyəcək qədər götürsün. Bütün saray əhli şahın belə saxavatnan iş görməyinə, göstəriş verməyinə alışmamışdılar. Nəsə, deyilən

tapşırıxlar yerini aldı. Məhəmməd Gülşan bağına gəldi, şahın qonax otağında dincəlməkdə olsun, Gülgəz xanım da tez-tez öz başının dəstəsiynən onu yoxlamaxda olsun, görək Zərqələm pəhlivanın dəstəsi Günəş pəriyi axtara-axtara hara çatdılar.

Eləkin on bir qızın hamısı pəhlivan livası geyindilər, atdarına suvar oldular. Neçə gün yol getdilər, demək çətindi, gəlif çatdılar həmən qarannıx meşiyə ki, Günəş tək-tənha qalmışdı, qoca sarvan qırx dəvəynən əli qoynunda, boynu burux göz yaşı tökürdü. Meşənin elə bir yerinə çatdılarkın elə bil gejədi, heç yerdən bir işıx izi görünmür. Zərqələm qızdardan soruşdu, kim qorxu hiss eliyirsə danışsın, desin. Qızdar hamsı bir nəfər kimi dillədilər ki, heç birimiz qorxmorux. Zərqələm xanım, dedilər qızlar, öldü var, bu yoldan döndü yoxdu. Günəş pəriyi tapmalıyıx vəssalam, nə qorxu, nə hürkü.

Bu arada meşədən bir səs gəldi. Səs gəldikcə yaxınnaşdı. Qızdar baxdılar, bir qoja kişidi, çiynində, heyvə, əlində hasa qızdarın yanına gəldi, salam verdi, salam aldılar. Sora dedi, ey gözəl pəhlivannar, bu meşəyə nə muraza gəlifsiniz, mana deyin, bəlkə köməyinizə çatdım. Zərqələm dedi, sənnən bizə nə kömək ola bilər ki, qoja kişisən. Qoja dedi, həlvət mənim də bir köməyim dəyər, qojalığıma nə baxersınız, arxamca gəlin. Kişi çör-çöpə ilişə-ilişə gedif çatdılar bir çayın kanarına. Gördülər çay bir dalğalı çaydı, hər dalğa vuranda 10-15 arşın göyə tullaner. Zərqələm dedi, qoja baba, bu dalğadan biz nejə keçə bilərikkin sən bizi buroynan gətirdin. Qoja dedi hamınız tüşün atdan. Hamı bir nəfər kimi atdardan tüşdülər. Qoja dedi, yumun gözünüzü. Yumdular. Dedi, açın gözünüzü. Açdılar. Nə gördülər, su oldu lay-lay daş. Qoja qavaxda, pəhlivannar dalda daşdıxdan keçif getdilər. Arxaya baxanda gördülər ki, həmən çay gənə əvvəlki kimi axer. Çaydan altı yeddi ağac aralanmışdılar bir gurultu qopdu, bir dolu yağdı, hər yerə qara çən tüştü. Pəhlivannar dedilər bizimki də burya kimi imiş. Qoca dedi, balalarım, siz heç qorxmuyun, qoca bavanız nə qədər siznəndi sizə zaval yoxdu.

Bunu deyif hasasını yerə vurdu, elə çığırdı ki, hər yan sakitdəşdi, dolu dayandı. Qoca barmağını qabağa tuşduyuf dedi, o gördüyün yeddi nəfər daş adamlar sizin axtardığınız karvanı çapıf aparan haramılardı. Mən onnarı daşa döndərmişəm. Gördüm kü haramılar qoca sarvanı öldürüf onu da, karvanı da, kəcavanı da daşa döndərdim. Günnərin bir günü Günəş pəri gəldi bu daş karvanın yanında dayandı, tamaşa elədi, mən onu da daşa döndərdim. Pəhlivannar dedi, qoja bava, nejə qıydın belə gözəl qızı da daşa döndərdin. Dedi, balalarım, mən bilerdim ki, bir gün gəlif onu axtarajaxsınız, sizin işiniz hasand olsun deyən onu daş elədim. İndi üzünüzü o tərəfə çöyürüf gözünüzü yumun. Qızdar gözdərini yumdu. Qoja əmr elədi, açın gözdərinizi. Açdılar, nə gördülər dəvələr də, Günəş xanım da hamsı dirildi. Dedilər bava, bə bu nə sirdi, bunu kim elədi belə, daşdan da adam olarmı, qoja dedi, balalarım:

Qurud aşı,
Yeməyə qurud aşı,
Fələyin könlü olsa,
Göyərər quru daşı.

Qoja dedi, övladlarım, sizə yaxşı yollar olsun, Allah amanınızda dursun, – deyif bulara kəsə yol göstərdi. İstədilər çox sağ ol desinlər, bir də baxdılar ki. qoja qeyvə çəkilif.

Pəhlivannar Günəş pəriynən şirin-şirin söhbət eliyə-eliyə gətirdilər Şam şəhərinə. Şəhərə yeddi ağac qalmış qızın biri atı səyirdif xavara getdi. Bir azdan qoşun, ləşkər, təbil, şeypur vuruldu, şəhər əhli hamılıxla Günəş pərinin pişvazına çıxdı. Qız Məhəmmədi görən kimi özünnən getdi, üzünə gülaf çilədilər. Qız ayıldı. İki söygülü bir-birinə sarıldı. Yemək-içmək başdadı. Üç gün, üç gejə şadyannıx oldu. Gülgəz xanım Günəş pəriyi bir bajı kimi pişvaz elədi, öpüşdülər, görüşdülər.

Bir neçə günnən sora İzzət şah Bərbər şəhərinə Kərimli şahın adına bir namə yazdı, əhvalatı ona bildirdi, özü də bildirdi ki, yaxın günnərdə yolunu gözdüyürük.

Çaparlar tüştülər yola, günə bir mənzil, teyyi- mənzil gedif çatdılar Bərbər şəhərinə. Şaha xavar verdilərkin Şam şəhərinnən elçilər gəlif, sizi görmək istəyirlər. Şah öz adətiynən elçiləri qəbul elədi, onnarın şərəfinə qonaxlıq verdi. Ertəsi gün yüz nəfər də özüynən iyid oğlannardan götürüf atdara suvar oldular. On səkkiz günə gəlif Şam şəhərinə çatdılar. İzzət şah özü Kərimli şahın pişvazına çıxdı. Qonaxlıx başdadı, bir yannan da İzzət şah Şəhriyara Eyzan şaha da namə göndərmişdi ki, bəs deməzsənmi hazırraşsın Kərimli şahnan bir yerdə ona qonax gəlirik. Eyzan şah nameyi alan kimi hazırrıx tədarükündə oldu, amba bu işə mətəl qalmışdı ki, bulardan xeyir olsun. İkisi birdən nə yaxşı görəsən gəlerlər? Bu fikirnən məktubu gətirənnəri yanına çağırıf al dilnən xavar aldı. Olar dedi biz heç şey bilmirik yaqın qonax gəlerlər. Odukun hazırrığa başdadı. Dünyanın bütün naz-nemətlərini aldırdı, elə bir toy hazırrığı görürdü. Bir gün çapar gəldikin qonaxlar gəler. Eyzan şah qoşun-ləşkərnən qonaxların pişvazına çıxdı. Görüşdülər, bir-birinnən hal-əhval tutdular. Amba hələ Məhəmmədi göstərməmişdilər. Bərbər şahı Kərimli şah üzünü Eyzan şaha üz tutuf dedi sənin şəhərində Yetim adında bir kasıf kişi var, onu bizə göstərə bilərsənmi? Eyzan şah çapar göndərdi, beynava Yetimi götürüf gətirdilər. Yetim əlini gözünə kölgə eliyif də qoşuna baxdı, şahlara baxdı. Öz-özünə dedi. Allah bu nə sirdi, məni bura niyə gətiriflər? Nejə deyəllər, ürək daş döylü, qan da su. Məhəmməd özünü saxlaya bilmədi, atasının üstünə atıldı, ey məzlum atam deyif ağladı. Ata- bala birbirinə sarıldılar. Bunnarı belə görəndə hər üç şahın qoşunu da önkür-hönkür ağlaşdı. Yetimin üzünə su səpdilər, özünə gəldi, ay oğul, çox şükürlər olsun, gəlif çıxdın, bizim də ixtiyar vaxtımızdı qapımızı açan tapılarmış. Gözünün yaşını sildi, – dedi. Anası Hürü üç gün özünə gəlmədi.

Hər üç şahın iştirakıynan məsələ açıldı. Eyzan şah pütün günahlarını boynuna aldı.

Məhəmməd üç şahnan gəlif atasının kasıf komasını ziyarət elədi. Qaynatasına dedi, allaha şükür, atamı, anamı gördüm, dərdim sərim, çəkdiyim pütün əziyyətlər yadımnan çıxdı. Qaynatası Eyzan şah dedi, oğlum, sən daha heç şeyin fikrini çəkmə, var-dövlətimin yarısı Günəş balamnan sənindi.

Gün gəldi Kərimli şahnan İzzət şah öz qoşunnarıynan qayıdıf vətənnərinə getdilər. Günəş pəriynən Məhəmməd xoş gün sürə-sürə, deyə-gülə yaşamağa başdadı. Eyzan şah böhtançı qarıyı axtarırdı kı, cəhənnəmə vasıl elətsin. Dedilər, çoxdan o dünyalıx oluf.

Üç aydan sonra Məhəmmədnən Günəş pəri Kərimli şahın imarəti kimi bir mülk tikdirdilər. Yetim kişiynən Hürü qarı da günü-gündən cavannaşdılar.

Məhəmmədnən Günəş pəri neçə uşaq dünyaya gətirdilər, xoşbəxt yaşadılar.

**Söyləyəni: Aşıq Alxan Qarayazılı (Ömərov)**
**Yazıya alanı: Elxan Məmmədli**
**Qarayazı, Kosalı kəndi**
**noyabr 1993**

## “KOROĞLU” DASTANINDAN “AĞCAQUZU” QOLU

*Aşıq Aslan Kosalının ifasında*

*III variant*

Sizə hardan xəbər verim, keçmiş əyyamnan, sabqiəl-dövrannan, ustaddar qovluğunnan, “Koroğlu”dastanının bir qolunnan. Hansı ki “Ağcaquzu” qolu deyillər.

Hasan paşa Koroğlunun atasının gözdərini oydurannan soyra, o vaxtı Koroğlunun adı Röyşən idi, hələ Koroğlulux yoxuydu. Rövşənnən atası gəlif bir məqamda, bir yerdə, bir köydə, Muradbəylidə əyləşən vaxtı Röyşən bu dərdə dözə bilmer. Xırda-xırda, bala-bala Hasan paşanın, Cəfər paşanın karvannarınnan vuror, gətirer. Atasına danışer, ata, belə elədim, elə elədim. Atası ah çəker:

– Oğul, adını qaçax-quldur qoyallar. Bu işdən əl çək. Qəzanın qədəridi mənim başıma gəlif.

– Baba, Allahıma pənahlanıf sənin hayıfını yüzdə minə onnan almasam, vallahi, mən dincələ bilmijəm.

Dünyadı, ömürdü, günüz gecəyi, gecə günüzü tamamlıya-tamamlıya kəndiri kəsir, ömür gedir. Alı kişi də belə. Oğlunu yanına çağırıf vəsiyyət elədi, ömrünü sizə tapşırdı. Koroğlu elnən, el adətinnən Çənlibeldə Qoşabulax deyirdilər, onun üstündə atasının məzarını qazdırıf, atasını islam ədətinnən, Qurani-Kərimnən, elnən-oboynan barabar necə var idi elə dəfn elədi. Üç gün təziyə saxladı. Dördüncü günü atasının məzarı üstünə gəlif, atasını xeyli ağladı. Gördü kü, gözdərdən yaş qutarmer. Bu məqamda Koroğlu elə bil yuxuya getdi. Bədəni titrədi, gördü bir gürültülü səs gəldi:

– Oğul, Röyşən, qılıncını aç, oturduğun daşın üstə qoy. Həm də mana fikir ver. Yeddi addım aralan.

Röyşən qılıncı daşın üstə qoyuf yeddi addım aralananda heş kəs gözünə görünmür. Ancax səs deyir:

– Bu saat ildırım çaxajax. O ildırım çaxan kimi qılıncını götürüf Qoşabulağın suyuna sal.

Koroğlu eşitdiyini elədi. Yeddi addım aralandı. Yeddi addım aralanan kimi göydən bir şimşək çaxdı. Şimşək qılıncı qıpqırmızı od elədi. Röyşən yüyürüf qılıncı götürüf Qoşabulağa saldı. Qaldırıf çıxardannan soyra gördü bir əl kürəyində gəzer:

– Oğul, mən sənin mətləbini verdim. Ata, ana hissiyyətini, ata qisasını necə almax istiyirsən, inşallah, alacaxsan. İnnən belə günün yaxşı olacax. Ağsaqqallara müraciət elə.

Röyşən mat-məəttəl qaldı. Qılıncını götürüf belinə bağlıyıf yavaş-yavaş köyünə endi, kəndinə endi. Atasının bir dostu var idi, nurani. Fərhad adında kişiydi. Kişinin yanına gəlif başına gələn əhvalatı söylədi.

Nurani kişi dedi:

– Oğul, sən onnarın başına çox işdər açıfsan. Hasan paşa, Cəfər paşa səni gəzer. Başını götürüf burdan itiynən[1].

– Baba, harıya gedem?

– Oğul, Təkətürkmənə qədər get, hancarı olmasa da türk oylaxlarıdı. Bir az təcrübən artar, bir az da olan işdər, olan müsibətdər yaddan çıxar.

Koroğlu Düratı həmən Fərhad kişiyə tafşırıf Qıratın belinə əyləşdi. Dedi gedem Təkətürkmənə. Əli adını çağırem, mənə kömək olar, inşallah. Hamınıza Allah kömək olsun. Xeyli yol getdi, at çapdı, bir də ağlına bir dəli fikir gəldi. Öz-özünə dedi: – Koroğlu, sən Təkətürkmənə boşmu gedəjəksən? Bunu deyif Qıratın ağzını saldı dərya kənarına, harda ki, Hasan paşanın ilxısı otduyurdu. Hansı ilxı kı, padşahlara, bəylərə, xanlara ordan ərmağan eleyerdi, bəxşeyiş eleyerdi atdardan. Atın bir neçəsini qavaxlıyıf Təkətürkmənə doğru atdarı çapıtmağa başdadı. Bir bazarda birini satdı, bir bazarda ikisini satdı. Aşıx dili yüyrək olar, Koroğlu gerdə qalanatdarı da qavağına qatıf bir neçə

[1] Burdan itiynən – yəni itil get, buralarda görünmə

günnən sonra gəlif Təkətürkmənə çatdı. Gejələməyə bir yer, bir karvansara axtardı, tafdı.

Savaxlarınız xeyirriyə açılsın. Savax açıldı. Bir neçə at qalmışdı, onnarı bazara çıxartdı. Gələn ata baxer. Atdar bir-bir satıler geder. Röyşənin əlində Qırat qalıf, bir də ərəb atı qalıf. Bir cavan oğlan yaxınlaşdı, Röyşənə salam verdi:

– Qardaş, bu yəhərri-yüyənni atını satersan, yoxsa bu çılpaq atını?

– Çılpaq atı satıram.

– Sən Allah, mənə deginən görüm, bu at mənim umudumu doğruldarmı?

– Nədi sənin umudun?

– Mənim umudun odu ku, savax Sultan xan Aladağın üstünnən qara quzu gətirdəjək. Qızının günortasınnan ötrü. Noyruz bayramıdı, gərək ordan ağzı qara quzu gəlsin. Sultan xanın qızı onnan günortalığını eləsin, çörəyini yesin.

Kim gedif həmən quzuyu tez gətirsə ona bir böyük bəxşiş veriler. Uzlaşdılar, qiymatdaşdılar, cavan oğlan Röyşənnən atı alıf getdi. Röyşən qaldı mat-məəttəl.

Savax açıler, bazar günüdü, şəhər qızılgülə bəzənif. Bir-birinin bayramını təbrik eliyənə bax, qızdarın qaqqıltısı, oğlanların səs-küyü, öküz göyüşdürən, at çapışdıran, it boğuşduran, xoruz döyüşdürən, yumurtta toqqaşdıran, qara zurnanın səsi də dünyöyü götürüf.

Röyşən mat-məəttəl qaldı. Ancax şükr elədi türk dünyasının belə gözəl adətdəri var. Karvansara sahibinnən xahiş elədi ona bir yer ayırsın bir neçə gün qalmağa.

Savaxlarınız xeyirrığa açılsın. Savax açılan kimi atdılar qatara düzüldülər. Padşahın əmrini gözdöyellər. Aladağın üstünnən qara quzuyu kim gətirəjək? Röyşən dedi, mən niyə duroram, bir baxtımı sınıyım, görüm Qırat nağayrer.

Yüzmü, iki yüzmü, atdar qatara düzüldülər. Atdar tərpəndilər Aladağa doğru. Röyşən də bunnarnan baravar. Atdar yolu

yarı getməmiş gördülər kü, Qırat Röyşən də belində, qara quzu da qucağında hamınnan qavax gəler. Qara quzuyu gətirif Sultan xan harda durmuşdu orda əylənif quzuyu yerə tüşürdü. Sultan xan yolçunun boyuna-buxununa baxıf dedi:

– Oğul, neralısan?

Dedi:

– Bəy, Muradbəylidənəm.

– Nə əcəb buruya təşrif gətirifsən?

Dedi:

– Gəlmişdim atdarım vardı, onnarı saterdım. Satdım qutardım. Gördüm burda elə xeyir iş var, oynamax, gülməh var, çatışmax var, at çapmax var. Mən də qoşuldum bunnara, atımı sınadım.

– Bərəkallah, oğul, bərəkallah.

Yanında duran sərkərdəsi idi deyən, Ərəb Reyhan adında bir şəxs, hündür, pəhlivan bir oğlan.

Sultan xan dedi:

– Reyhan, o bazubəndi gətir.

Qızıldan düzəlmiş qolçağı gətdilər Röyşənə:

– Oğul, bax bu sənin nəmərindi. Al.

Röyşənə qolçağı verməzdən qavax Ərəb Reyhan Qıratın dörd bir yanına hərrəndi, möhkəm fikir verdi.

Dedi:

– Oğlan, eşitmişəm sən at satersan.

– Bəli, sateram. Satdım qutardım.

– Bə bunu niyə satmersan?

Dedi:

– Xeyr, bu satılası döy, mənimdi.

– Qurvan olum, bu atda gözüm qaldı, atı sənnən alajam.

– Əfəndim, yox, ala bilmijəsən.

Sultan xan dedi:

– Oğlana nəmərini ver.

Ərəb Reyhan qolçağı öz əlinnən Koroğluyun sağ qoluna bağladı.

– Ancax gəl bu atı mana sat.

Koroğlu gözünün altınnan baxan vaxtı gördü ki, padşahın yanında dayanıfdı gözəllər sultanı, gözəllər xanı, Allah-təalanın könlünün xoş olan vaxtı yaranıf. Bir dənə qız durur. Ancax qızın adını nə bilsin? Onu bildi ki, bu padşahın qızıdı.

Göz gözə sataşdı, ikisi bir-birini başa düşən kimi, qızın da deмək meyli var imiş ki, qolçağa kim sahib olsa ona gedəsidi. Könlü beşdən beşə, onnan on beşə aşiq oldu. Neynəsin? Röyşənə nejə yaxınnıx eləsin? Röyşənə nejə tanışdıx eləsin? Ancax Ərəb Reyhan əl çəhmer, at hayındadı. Oğlan, bunu mana sat! Olmadı. Ərəb Reyhan fikrində dedi ki, bunu zornan bunun əlinnən alajam. Oğlannan mən güştü tutacam bu Noyruz günündə, bu gözəl gündə. Əyər bu oğlan yıxarsa mən ona qul olajam. Yox yıxaramsa bu atı onnan alajam.

Sultan xan dedi:

– Nolar, tamaşanın biri də artar. Əyər oğlan ixtiyar versə.

Röyşən belə fikir verdi, gördü özünnən xeyli cantıraxdı. Ancax Qoşabulağın üstündə kürəyinə əl çəkən şəxsiyyət gözünün qavağına gəlif dedi:

– İyid, sən deyən olsun. Güləşək. Yıxdın, atımı da verəjəm, özüm də sənin qulun olajam. Yox yıxdım, başın sənin döy.

– Olsun.

Əmr verdilər yollar, meydannar sulandı. Xalx da belə bir tamaşa gəzer. Röyşənnən Ərəb Reyhan tutaşdı. Tutaşdı nə tutaşdı. İki iyid meydanda, Sultan xanın sərkərdəsi Ərəb Reyhan, qəribqürbət eldən çıxmış Röyşən adında bir cavan. Tutaşma getdi. Camaat da bunu gəzer. Bunları elə halqaladılar ki. Bunların da ki tutaşması, ayaxları yer tutan kimi dizdəri yer yarer. Ərəb Reyhan üstələyən vaxtı Ərəb Reyhanın tərəfləri ura çəkellər, çığrışellar. Ancax Koroğlu onu altına alıf yıxmax istiyən vaxtı heş dillənən olmor. Onatan Bilqeyis xatun hündürdən çığırdı:

– Ey məxluqat, bu cavanı yalqızmı görüfsünüz, bunun da Allahı var. Mən də bunun tərəfini saxleram.

Röyşən elə ürəhləndi ki. Bir təpər verib dizinə, Ərəb Reyhanı qaldırdı göyə, endirdi yerə. Ancax bərk vurmadı, sinəsinə çöhdü, xançarı dirədi:

– Ayə, qoluna bağladığın qolçaxdan utanmadınmı məni kəsmək istersən?

– Ağzımızdan söz çıxıf – dedi qalxdı.

Qıratına minif tərpənmək istiyən vaxtı xan dedi:

– İgid, əylən, özün haqqında ətraflı danış, səni yaxınnan tanıyax.

Götürüf orda görək nejə deyir:

Əslim türkdü, türk oğluyam,
Muradbəyli elim mənim.
Çənlibeldə yurd salmışam,
Çoxdu qövlü-qalım mənim.

Müxənnətlik dizdən haşa,
Xeyr əməlik başdan-başa.
Qənimimdi bəynən paşa,
Pərişandı halım mənim.

– Oğul, necə qənimindi bəynən paşa? Bəyin biri də mənəm. Sənə mən neynəmişəm, o nə deməhdi?

Röyşən atasının gözünün oyulmasını, qaçax düşdüyünü, yalnız qaldığını, hamısını danışdı. Xan da qulaq aser, Bilqeyis xatun da qulaq aser. Ancax az qaler ki, camahatın ortasında gözdəriynən Röyşəni yesin. Röyşən götürüf görək sözsün axırıncı bəndini nejə deyir:

Adım Röyşən, uzaq görən,
Hər qovğaya sinə gərən.
Yaxşı dosta əlini verən,
Düşmanımdır zalım mənim.

– deyif xanın əlini öpdü. Xan Röyşənə baxıf boyuna-qamətinə, hikmətli sözdərinə heyran qaldı. Oğlannarı çağırıf dedi ki, bu Röyşəni bu gün müsafir eliyin.

Röyşəni müsafir elədilər. Ancax Bilqeyis xatun neyləsin? Hancarı Röyşənnən ilqar eləsin, söhbət eləsin?

Bəli, Röyşəni qonağ elədilər, gejə də saxladılar. Səhərsi Sultan xan Röyşəni yanına çağırıf dedi:

– Oğul, bu günnən bu ailə sənə qonax yeri yox, öz oğlum kimi, elə billəm oğlum iki döy, üşdü. Sərkərdəmin biri də artar, belə qüvvəli, belə qoçax oğlannan keçmək olarmı?

Bəli, dünyadı, həyatdı, Röyşən beş gün, on gün burda qaldı. Dediyimiz kimi Sultan xanın Bilqeyis adında gözəl bir qızı var idi. Röyşənə elə bir aşiq oldu ku, elə bil dünyasını buna bağışdıyıflar.

Ustad sözü yüyrəy olar, burda nə işdər oldu, nələr oldu, onu deyə bilmərəm. Günnərin bir günündə Röyşən bir neçə ağsaqqal göndərdi Sultan xanın hüzuruna. Bilqeyis xanıma elçi tüşdü. Sultan xan daş atıf başını tutdu. Vermədi qızı. Axırda Röyşən məcbur oluf, Bilqeyis xanımnan sözdəşif, onu Qıratın tərkinə alıf, gəlif İstanbula çatdılar.

İstanbul böyükdü, həməşə böyük olsun, İstanbul yaşasın, türk dünyasının fəxridi. İstanbulun dört yannarı dağlıxlar, mağaralıxlar, elədi ki, Muradbəyliyə çatan kimi Fərhad kişiyə gecənin birində yanaşdı:

– Babeyi-mehriban, gəldim.

– Oğul, xoş gəldin.

– Baba, tək döyüləm.

– Oğul, sən burdan gedəli casusdar, Hasan paşanın adamları hamısı səni axtarıllar. Hər kənddə üç adamın biri casusdu. Başına milyonnarnan pullar ayrılıf. O ilxıyı sən aparıf gedənnən soyra elə bil Hasan paşanın dərisinə od vurufsan. İndi sən elə yerdə yaşamalısan ki, bulunmuyasan.

Koroğlu İstanbul dağlarında mağaralarının birində yerrəşdi. Elə yerdə ki, oroyu qartallardan başqa heş kəs görmördü. Günüz oy[1] oyluyar, ceyran-cüyür vurar gətirər, Bilqeyis xanımnan

[1] Oy – ov.

kefnən yaşıyallar. Arada olan məhəbbət elə bir məhəbbətdi ki, heç səngimer ki, səngimer.

Bəli, həyatdı, dünyadı, vaxt gəldi, doqquz ay keçən vaxtı Bilqeyis xanım dünyaya bir evlad gətirdi. Allah-taala kimin yoxdu, nəsib eləsin, inşallah.

Arada mübahisələri tüşör Röyşənnən Bilqeyis xanımın: - Oğlanın adını Sultan qoyajıyıx. Koroğlu dedi: - yox, Alı qoyajıyıx. Bir həftə, bir ay bu mübahisə geder. Bilqeyis xanım Koroğludan inciyif. Koroğlu Qıratın belinə əyləşif aşağı endi çörəh dalınnan, nemət dalınnan. Gəlif bir qarının qapısında çörək istədi. Nə ki azuqə lazım idi götürənnən sonra qarıya dedi:

– Nənə, olarmı mənnən bir yerə gedək?

Koroğlu uşağın ad məsələsini Əsmər qarıya danışdı. Dedi:

– Qarı nənə, Pərzad belə deyir, mən də belə.

Qarı dedi:

– Atam-anam sizə qurvan olsun, qoy sən deyən də olsun, o deyən də olsun.

– Nətər yanı?

– Gədənin adı olsun Sultanalı. Həm Alının adı qoyulsun, həm də Sultanın.

Koroğlu dedi:

– Can nənə, Allah-tala sənə kömək olsun.

Bu işdən Bilqeyis də razı oldu. Uşağın adı qaldı Sultanəli. Uşax çiçəhlənif günü-günnən böyüməhdə olsun, indi sizə hardan xavar verək, Hasan paşadan.

Bəli, müxənnətin hər gejə anası beşini doğur. Özü də ekiz-ekiz doğur. Qandırdılar Koroğlunun yerini. Hasan paşa yanıxlı idi. Koroğlunun üstünə qoşun çəkif, harda ki Koroğlu mağarada dayanıf, oroyu mühasirəyə aldı.

Bəli, Bilqeyis xanım eşiyə çıxmışdı. Gördü dört yannarını qoşun alıf:

– Röyşən, Röyşən, bu nədi bizim dört yanımızı qoşun alıf?

Koroğlu işi başa tüşüf götürüf burda görək nə deyir:

Xotyar üstümüzə cari buyurdu,
Döyüşərəm, dönmərəm, edərəm cəngi.
Ac qarınqa kimi doyursa məni
Mən qəbul etmərəm bu naminəngi.

Koroğlunun səsini Hasan paşa eşidif:

– Ayə, oğlan, adın sənin Röyşən idi, atayın adı Alıydı. İndi adını Koroğlu qoyofsan. Sən Koroğlu döysən axı, korun oğlusan. Üstünə yüzdərnən pəhlivannar gətirmişəm, sənin ananı indi ağladajam.

Koroğlu deyir:

Əlli nədi, altmış nədi, yüz nədi,
Mən bilmərəm hərzə-hərzə söz nədi.
Qabağımda dərə-təpə, düz nədi,
Mənəm əsil girvələrin pələngi.

Hasan paşa dedi:

–İndi əmr verərəm, sənin pələng olduğunu pişiyə döndərərəm.

Götürüf Koroğlu burda görək bir bənd "Məmmədbağırı" qaydasına nə deyir, biz diyək, siz həməşə şad olun, inşallah.

Koroğluyam, xub yetişdim mən cana,
Kəllələri top eylərəm çovqana.
Varıban gedərəm Təkə-Türkmana,
Ollam Əli qullarının yekrəngi.

Söz cavabı yetirən kimi qoşun Koroğluya, Koroğlu qoşuna hücum eləməkdə, qılıncdar şaqqıldamaqda olsun. Koroğlu gördü yox, bunnan əl çəhmerlər ki, əl çəhmerlər. Qoç Koroğlu bir dəli narə çəkif, qılıncın qəbzəsinnən basıf Qıratı cövlan etdirdi o yana-bu yana. Qıratın ayaxları aana, Koroğlunun nərəsi baana, qılınc sıyırma, başdar kəsməh, neyləsin əlacsız Koroğlu? Canına qəsd eləməhdənsə düşmanı qırmax daha yaxşıdı. Qoşunun ortasından yarıf özünü həmən mağaranın qarşısına çatdırıf Bilqeyisi səslədi. Bilqeyis eşiyə çıxan kimi Bilqeyisi atın tərkinə salıf tərpəndi.

Koroğlu xeyli aralaner, qoşun yaxın tüşə bilmer. Gördülər qılışdan heç bir şey hasil olan döy, Hasan paşa əmr verdi

Koroğlunu oxa bassınnar. Oxa basan vaxtı namərdin birinin oxu Bilqeyisin geri yanınnan, kürəyinnən aldı.

– Koroğlu, bu nə işdi mən tüşdüm, geri yannan məni vurdular.

Koroğlunun Qıratı uçmağa başdadı. Qoşunnan xeyli aralanmış Koroğlu baxanda gördü kü, Bilqeyisin kürəyinnən ox sancılıf, neyniyə bilər? Qırat Qoşabulağın üstündə, Çənlibelin başında, Alı kişinin qəbrinin yanında dayandı. Bilqeyisi yerə tüşürdü. Gətdi Qoşabulaxdan bir oyuc su verdi.

– Ay Koroğlu,mənimki buruyatan imiş. Görünür, yazı belə yazılıf. Səni Allaha, o bir bala körpəmi Sultanəlini sana tapşıreram, – deyif, gözdərini Koroğlunun üzünə zillədi. Gözünnən yaş axa-axa dünyasını tərk elədi. Ömrünü Koroğluya bağışdadı.

Koroğlu döyünməhnən, of eləməhnən, ağlamaxnan əlinnən nə gələr? Koroğlunun da tək-tük tay-tuşdarı olardı o vaxtı. Bilqeyis xanımı Dədə Alının yanına dəfn elədilər.

Aradan bir-iki gün keçmişdi Koroğlunun yadına evladı tüşdü. Qıratı minif mağaranın ağzına gələndə gördü kü, bir ana canavar hərrəner. O ana canavar ki, Koroğlu oydan gələndə həməşə vurduğu maralınmı, ceyranınmı, cüyürünmü içini-içalatını qapıya tökərdi, həmən canavar gəlif burdan qidalanıb gedərdi. Koroğlunu görəndə uluya-uluya tərpəndi. Koroğlu gəlif içəri baxanda gördü lələ köçüf, yurdu qalıf, heç kim yox. Nə cin var, nə şeytan, nə oğlu var. Başına döyə-döyə dedi:

– Hə, canavar apardı getdi oğlumu.

Koroğlu qayıdıf gəlməkdə olsun, Çənlibeldə döyran quruf başına dəli yığmaxda olsun, öz işində olsun, sizə kimnən xəbər verəjəm Əsmər qarıdan. Əsmər qarı həftədən çoxuydu Koroğlugili yoxlamerdı. Bilqeyis xatunu yoxlamerdı. Mağaraya gələndə gördü kü, mağarada uşax arxası üstə, uşağın üstündə bir ana canavar uşağı əmizdirer. Arvad mat qaldı. Geri çəkilmək istəyəndə canavar uşaxdan aralandı. Qarı gəlif uşağı bağrına basdı, uşağı götürdü, söyünə-söyünə uşağın nəyi qalmışdı götürüf tər-

pəndi. Gəlif öz komasına çıxdı. Uşağı yuyub-yaxalıyandan sonra, uşağı uşax həddinə salannan sora onu qoyun südünnən doydurdu. Həmən günnən qarı qoyun südünnən yedizdirə-yedizdirə uşax dümağ ağarmağa başdadı. Ağ quzu kimi. Qarı da uşağı Ağcaquzum deyə-deyə, öpə-öpə uşağı başdadı saxlamağa. O günnən Əsmər qarı uşağa himayəlik eliyif uşağı saxlıyır.

Hasan paşa oya çıxmışdı. Əsmər qarıya qonaq olur. Görür kü, bir uşax hərrəner:

– Qarı, bu nəyindi?

– Nəvəmdi.

– Qarı, mənnən pay olsun deyif, bu uşağa bir xeyli pul verir.

Qarı bunlara hörmət eliyir, qayıdır. Bir ildən sonra uşağın neçə yaşıdı? – deyə soruşur Əsmər qarıdan. Deyir uşağın dörd yaşıdı. Bir ildən sonra qayıdıf gələndə deyir bu uşax hansı uşaxdı?

– Hasan paşa, keçən ilki uşaxdı.

Hasan paşa deyir:

– Bildir onun dört yaşıydı, indi neçədi?

– İndi beşdi.

– Mən buna on beş yaş deyərdim. Qarı, bu uşağı mana sata bilərsənmi? Qoşunum içində, gələcəyim üçün lazım olar.

– Satmaram, ancax saxlamağa verərəm. Bir şərtnən. Mən innən belə qocalıram, mənə sahablıx eləsin, mana yiyəlih eləsin.

– Əsmər qarı, ona söhbət yoxdu. Uşax havaxt böyüyər, sənindi ki, sənindi.

Hasan paşa beləlihnən Ağcaquzunu apardı. Ustad dili yüyrəy olar. Ağcaquzunu məktəbə qoydu, müəllimə öyrətdirdi, dərs oxutdu. Uşax on dört yaşına gəlif çıxan vaxtı pəhlivannıx öyrətmək lazım oldu. Pəhlivannar yanına qoydu, at çappax, qılınc oynatmax, suda üzmək, igidə nə ləyaxdı hamısını verer. Ağcaquzu elə götürür kü, elə bil irəlidən bunun banisi, ustasıymış. On altı yaşına çatıf, bunun şücaəti İstanbula yayılıf. Hasan paşanın qoşununda hamı bunu tanıyır. Ağcaquzu deyən çağırıllar.

Cəfər paşanın qızı Pərzad xanım. Pərzad xanım Ağcaquzuyu eşidif onu görmək arzusuna gəldi. Cəfər paşıya dedi:

– Baba can, əmim öyünə gedif-gəlmək isteyirəm.

– Qızım, get.

Ancax Pərzad xanım cadu məktəvini oxuyurdu. Hər bir məktəfdən qurtarmışdı. Çox da gözəl idi. Elə gözəl idi ki, türkün gözəli ələ keçmir, özünüz bilərsiniz.

Hasan paşanın iqamətgahına gələn vaxtı gördü qapıda bir oğlan hərrəner. Vallah, elə bil Allah-talanın könlünün xoş olan vaxtı yaradıf. Boy-buxun, gözəllih, insannıx, qara bığlar yenicə çıxıf, tərriyif yeri. Kənizdən soruşdu:

– O kimdi?

– Ağcaquzudu. Babeyin ən yaxın istədiyi şəxsdi.

Göz gözü görəndə halını soruşar, Pərzad xanım Ağcaquzuya vuruldu. Neyniyim, nə yolnan bunu yola gətirem? Yanındakı kənizdərə, özünün qarabaşdarına sirrini bir-ikisinə açıf dedi. Dedilər ki, aaz, bunu yanında məktəbə gətirginən, onda daha yaxın olarsınız.

Babası Cəfərnən baravar Hasan paşanın yanına gəlmişdilər.

– Babeyi-mehriban, bu oğlan hər bir iyiddiyi, dərdi-dərmanı biler, ancax cadunu bilmer. Mən istiyirəm əmoğlum mənnən baravar cadunu da öyrənsin.

Hasan paşa da razı oldu, Cəfər paşa da razı oldu. Bu günnən Ağcaquzuyu Pərzad xanım aparer mollasının yanına. Cadu sirrərini başdadılar öyrənməyə. Bir gün, beş gün, on gün, bir ay, bir il gəldi tamam oldu, Pərzad xanım içəridən özünü yeyer ki, bu caduynan, bu kütüynən belə şey olmuyjax, mən neyleyim ki, vüsalıma çatem?

Pərzad xanım bir gün cürətə gəlif əmoğlusuna dedi:

– Ağcaquzu, olarmı gəzməyə çıxax?

– Niyə olmur, xanım?

– Ancax bu şərtnən gəzməyə çıxax. Cadumuzu sınıyajıyıx, görək sənmi qüvvəlisən, mənmi?

– Olar, xanım.

Ancax Ağcaquzunun meylində vuruf-tutmax, asıf-kəsməh, at çapbax, qılış vurmax idi. Heç cadu beyninə girmerdi. Öyrənmişdi, o qədər öyrənməmişdi, xüləs, Pərzad xanımnan atdanıf meşiyə çıxıllar. Meşiyə çatan vaxtı Pərzad xanım beyqafıldan bir tülkü olor, atdan hoppanıf tüşör. Ağcaquzu belə baxer, bir pələng donuna girer, tülkünün dalınan yetirən vaxtı tülkü dönüf yekə bir fil olur. Bu vaxtı Ağcaquzu bir balaca siçan olor, hoppanır filin qulağına girir. Bu vaxtı darı olur, yerə səpiler. Bu vaxtı Ağcaquzu toyux olur bunu dənnəməyə. Bu vaxtı qız bir qırmızı alma olur. Bu vaxtı Ağcaquzu bir pıçax olur, başdıyır almeyi kəsməh istiyer. Xüləs, bir də qız dönör bir şahmar ilan olur. Ağcaquzu ilannan elə qorxor ku, gəl ki görəsən. Qorxuf geri çəkiləndə Pərzad xanım aslan libasına girif dedi:

– Ağcaquzu.

– Hə.

– Sən ta gəlif məni cadudan azad edif aparmamış mənnən sana yar oldu yoxdu. Məhəbbətin varsa gəl məni apar. Yoxdusa, aslannara ulaşıf çöllərə qarışeram ki, qarışeram.

Bəli, Ağcaquzu qaldı mat-məəttəl. Qayıdan vaxtı soruşdular:

– Oğul, Pərzad xanım hanı?

Başına gələn əhvalatı Cəfər paşıya danışdı.

Cəfər paşa dedi:

– Oğul, başarığın var qızı qaytar. Bir ay sana möhlət vererəm, qaytaranmasan, başın fərmandı.

Ağcaquzu xeyli fikirə getmişdi, bir nəfər şəxs gəldi Əsmər qarıdan qara xəbər gətirdi:

– Can üstədi, nənən səni axtarır.

Ağcaquzu o yerdə yetirdi ki, Əsmər qarı ömrünü dünyaya, Allahına tapşırıf. Ancax bir qolçax qoyuf ki, bunu ona çatdırarsınız. Qolçağı qoluna bağlıyıf, Əsmər qarıyı dəfn eliyif gəlif xeyli fikirrəşən vaxtı gözünə yuxu getdi. Yuxusunda gördü kü,

bir gözəl nurani kişidi. Əlini Ağcaquzunun kürəyinə sürtör, deyir:

– Oğul, qəm libasını geyinmə. Sənin dərdinə böyük dərman var. Ara, axtar, Qoç Koroğlu kimdi, onu tap. Dərdinə sənin o Qoç Koroğlu illac eliyər, özgə heç kim yox. Ancax onu tapbasan sənin dərdin düzələn döyü.

Diksinif yuxudan qalxanda gördü kü, kürəyində doğurdan da əl izi var. Ağcaquzu yuxudan durdu gəldi Hasan paşanın yanına. Pərzad bunun başına nə gətirif hamsını ona danışdı.

– Babeyi-mehriban, vardan-yoxdan nə varsa mana verərsənmi? Mən bir səyahətə çıxem. Göröm mən onu tapa billəmmi.

– Oğul, bu qatarnan dəvələr, bəzirgannar, kimi Bağdata geder, kimi uzax Çinə geder, kimi Maçinə geder, kimi bir tərəfə. Bax bunnarın hansını isteyirsən onun birinnən yola tüş get seyr elə, hareyi isteersən gəz.

Dedi:

– Yox. Baba, elə olsun mənim özümün də varım-döylətim olsun.

Bir neçə dəvələrə ayınnan-oyunnan yüklööf Ağcaquzuya verdilər. Ağcaquzu günə bir mənzil, teyyi-mənazil, günü-günnən yuxuyu görənnən bəri qüvvələner. Özündə böyük qürur hiss eleer. Gəlhagəl, gəlhagəl, Çənlibelin alt yanında Ağ qaya var, Ağ qayanın ətəyinə gəlif çatmışdı. Koroğlu baxırdı, gördü kü, kəcavə gəler, yeddi-səkkiz dəvədi. Ancax bircə nəfər var üstündə. Qeyri adam yoxdu. Qıratın belinə sıçrıyıf özünü yetirdi. Baxanda gördü dəvənin üstündə cavan oğlandı, Allahın könlü xoş olan vaxtı yaradıf. Oğlanı görən kimi dedi:

– Oğul, kimsən?

Dedi:

– Əlöyküsalam.

Koroğlu durdu:

– Oğul, salam Allahındı, gərək vereydim. Vermədim, səhv elədim. Kim olduğunu mana de.

Dedi:

– Kimliyimi neynirsən? Sana nə lazımdı?

– Harıya gedersən?

– Bax yönüm belə tüşüf, harıya isteerəm, oruya da gedeerəm.

– O ki yolun tüşüf, dəvələrinnən, varınnan-yoxunnan mənim himayəmə keçersən.

– Sən kimsən, kişi?

– Bilmersən kiməm?

– Xeyr, bilmerəm.

– Onda mən sana diyəjəm, bil. Gör mən kiməm, sənnən nə isteerəm? Onda biləjəsən kim olduğumu.

Koroğlu görək nejə dedi.

İstanbuldan şikar tüşdü əlimə,
Ver malını, qutar canını, çəkil get.
Bulayaram səni qızıl qanına,
Ver malını, qutar canını, çəkil get.

Ağcaquzu dedi:

– A kişi, sən buranın qoruxçususan, yoxsa qoçususan, nəyisən, mənim malımı niyə alersan? Dədəm dədənə borşduydu?

– Yekə-yekə danışma, sözümə əməl elə.

– Onda qoy sözümə əməl eliyim. Qulaq as.

İki iyit bir-birinnən üzdəşər,
Baş getməmiş malım sənə vermərəm.
Qılış vurram, yaraların sızdaşar,
Baş getməmiş malım sənə vermərəm.

Ağcaquzunun belə cavabı Koroğlunu yaman təşvişə saldı: "İlahi, bu nə cürətdi oğlandı, bu nədi ki, mana belə cavab verer?"

Koroğlu hirsinnən bir o yana, bir bu yana baxdı, beyqafıl zəhminnən Ağcaquzunun başına bir toppuz endirdi. Ağcaquzu toppuzun qavağında qalxan tutdu. Toppuz qalxana dəyən kimi toz-duman yeri-göyü bürüdü. Koroğlu öz-özünə dedi: "Vay bu cavanın halına, nahax bunu bədbaxt elədim". Toz gedən kimi

Koroğlu baxdı ayə, oğlan dimdik qavağında duruf, gözdəri yalab-yalab yaner, heç Koroğluyu vejinə almer. Koroğlu dedi, gəl buna çatdır ki, ay zalım oğlu zalım, qavağındakı tək döylü. Onun gör nələri var. Aldı görək Koroğlu Ağcaquzuya nə deyir, dilinnən biz diyək, siz şad olun, inşallah.

İndi dəlilərim gələr qurd kimi,
İki gözün birdən olar dört kimi.
Başın gedər, leşin qalar yurd kimi,
Ver malını, qutar canın, çəkil get.

Ağcaquzu gözlərinin altından baxıf gördü kü, qocanın işdahı yaman böyühdü. Özü də yaman qeyzə gəlif.

– A kişi, ajığın tutmasın, gör mən nə deerəm, qulaq as.

Koroğlu arif idi, dedi görüm bir bu cavan nə deyir?

**Ağcaquzu dedi:**

İgid gərək qürbət eldə atdana,
Qılınc vurram, bu yer dönər bostana.
Min tülkü neynəyər, bir ac asdana,
Baş getməmiş malım sana verməməm.

Koroğlu qeyzə gəlif dedi:

– Ayə, bu nə danışer? Gəl buna qandır deginən ki, zalım oğlu, mən Koroğluyam axı. Koroğlunun yanında sən nə anarıbəri danışersan?

**Aldı görək Koroğlu nə deyir?**

Koroğluyam, bu yerlərdə gəzərəm,
Uzaxdan uzağa şikar süzərəm.
Dartıf bədəninnən başın üzərəm,
Ver malını, qutar canın, çəkil get.

Ağcaquzu dedi:

– Ayə, bu kişi səyaxleer deyəsən, Koroğlunun adınnan məni tora salmax isteer. Fikri munun nədi? Gəl bunu başa sal ki, ay öyün yıxılsın, mən də Ağcaquzuyam, mən də iyidəm. Sən mana neyniyə bilərsən?

Ağcaquzuyam, hər yetənə enmərəm,
Müxənnətnən danışmaram, dinmərəm.
Mən heç səni ayax tozu da sanmaram,
Baş getməmiş, malımı sana vermərəm.

Ağcaquzu elə ki dedi "mən heç səni ayax tozu da sanmaram", bu söz Koroğluya yaman əsər elədi. İstədi qılınca, əmuda əl atsın, sonra əl saxladı, dedi:

– Allahın işini bilmək olmaz. Deyəsən burda nə isə bir sirr var. Bu sirri açmax üçün əl saxla.

– Oğul, sən Koroğlu adını eşidifsənmi?

Ağcaquzu dedi:

– Eşitmişəm, bəli. Koroğlunun adını eşidəndə göydə mələklər səyrişer.

– Oğul, o ki Koroğlu adını eşidifsən, bə niyə belə cavab verersən? Axı qarşında dayanan həmin Koroğludu. Koroğlu mənəm.

Ağcaquzu dedi:

– Mən inanmeram sən Koroğlu olasan. Sən əgər Koroğlu olsaydın, mənnən belə rəftar eləməzdin. Koroğlu iyiddi, Koroğlu kasıfların, arxasızdarın araxasıdı. Ancax sən mən tək oğlanın başına nə oyun gətirdin? O əmud ki, vurdun, onu qayaya vursan, darmadağın olardı. Ancax mən onun altınnan salamat çıxdım. Sən demədinmi məni saxlyıan qüvvə kimdi?

Koroğlu bir xeyli fikirrəşəndə başdadı dəfin o üzünə vurmağa.

– Oğul, o ki mənim Koroğlu olduğuma inanmırsan, qulaq as gör Koroğlu baban sənə nə deyir.

Aldı görək "Sultanı" qaydasında Koroğlu Ağcaquzuya nə deyəcək.

İki ləkə bir məclisə gələndə,
O məclisin halı pərişan olar.
İki iyid bir məclisə girəndə,
Bəzənər otaxlar, alışan olar.

– Ləkə, özünü bildirdin.
– Mən ləkə döyüləm, bəy. Mən iyidəm.
– Məni görən kimi zorrux işdətdin. Koroğlu gərək belə Koroğlulux eləmiyəydi. Gənə inanmeram sənin Koroğlu olduğuna.
– Oğul, hələ gör bir nələr eşidəcəhsən.
Aldı Koroğlu gənə:

Mərd iyidlər dolu badələr içər,
Dost yolunda şirin canınnan keçər.
Müxənnətdər dava günündə qaçar,
Kolların dalında pəhlivan olar.

Ağcaquzu dedi:
– Eyvallah, eyvallah, indi bildim ki, sən Koroğlusan. Deməli, sən mərddiynən bu karvanı mənim əlimnən almaq istiyirdin, eləmi? Deyirdin uşaxdı, qorxar, büdriyər.
Koroğlu dedi:
– Oğul, oğul, qulaq as.

Koroğluyam, haşa çəhmərəm mərddən,
Müxənnətdik əskik olmaz nəmətdən.
Bir keçi canını qurtarsa qurddan,
Baxar buynuzuna, kərgədan olar.

Söz tamama yetişdi, Koroğlu dedi:
– Oğlum, olma sən canını mənnən qutarmış sayırsan. Doğrudan, mən Koroğluyam.
Ağcaquzu dedi:
– Sən Koroğlusansa, onda məni mənzilinə apar. Əgər Koroğlu olmağını təsdiq eləsən, mən dəvənin üstündən tüşərəm. Əgər təsdiq eləməsən, mən dəvədən tüşən döyüləm. Özüm öz yolumnan gedəjəm, ağa Koroğluyu tapana qədər. Yoxsa sana mən baş vermərəm.
Koroğlu xeyli fikrrəşdi, dəyişdi. Dedi görəsən burda nə sirr var?
– Oğlum, görörəm, sən kiməsə arxayınsan. Ona görə başa tüşə bilmerəm. Sür karvanını arxamca gedək.

Ağcaquzu Koroğlunun arxasınca Çənlibelə sarı qalxdılar. Çənlibelə çatan kimi Niyar xanım həməşəki kimi Koroğlunun qarşısına çıxdı. Baxdı gördü Koroğlu özünnən bir oğlan gətirer. İlahi, bu cüssədə, bu gözəllihdə iyid bəlkə də heç Çənlibeldə yoxdu. Elə bil qüdrət qələminnən yaranıf, zalım oğlu dəvənin üstündə ağayana əyləşif, gözdər qayır-qayır qaynıyır. Niyar xanım Koroğluya baxıf dedi:

– Koroğlu, bu kimdi?

Koroğlu dedi:

– Sənin əmin oğludu. Hasan paşanın oğludu.

Niyar xanım dedi:

– Elə şey olmaz.

Koroğlu dedi:

– Özüdü kü var. İndi tafşır, tamam otaxlar bəzənsin, dəlilər hamısı cəm olsun.

Dəlilər hamısı cəm oldular, yığıldılar. Ağcaquzu gördü kü, bu doğrudan da Koroğludu. Dəvədən endi, dedi:

– A Koroğlu, bu yeddi dəvə yükü, var-döylət sənindi. Ancax mənim sənnən bir vacib işim var. Onun üçün gəlmişəm.

– Oğul, noolar, gəlifsən, Allah qonağısan. O ki bir-birimizi başa düşdük, inşallah hər iş düzələr.

Bəli, Koroğlu bu sözü deyif qurtarannan sora əmr verdi:

– Eyvaz xan, bu gecə bir məclis keçməlidi, heç Hasan paşanın öyündə də elə məclis olmasın. Ancax bu uşağı sınamax lazımdı, görək doğrudanmı Hasan paşanın oğludu? Fikri nədi? Bu bizi ələ almağa gəlif, satmağa gəlif, nədi? Koroğlu hələ heç nə bilmer.

Aşıx Cünun meydana çıxdı. Dədə Yadigardan, Dədə Heydardan, Dədəm Qorquddan, Yunis İmrədən gözəl-gözəl sözdər oxudu, məclisi şaddandırdı. Yedilər, işdilər, savağa qədər kef çəhdilər. Ağcaquzu da yuxuya getdi, Koroğlu da yuxuya getdi.

Savaxlarınız xeyirrığa açılsın. Savax açıldı, Koroğlu Ağcaquzuyu yanına alıf Ağ qayaya doğru gəzişməyə çıxıdılar. İkiciyi söhbət eliyə-eliyə gedən vaxtı Koroğlu dedi:

– Oğul, düzünü de, mənim yanıma nəyə gəlifsən?

Ağcaquzu köksünü ötürüf Pərzad xanım bunu necə alladıf məktəvə aparıf, mollaya aparıf, sehr öyrədif, iyiddihdən aralıyıf, özü də sonra aslan donuna girif, aslannara, canavarlara qoşuluf, hamısını dedi.

– Ay Koroğlu, yuxumda kürəyimə bir əl dəydi. Bir nəfər şəxs dedi ki sənin dərdini düzəltsə ağa Koroğlu düzəldəjək. Yoxsa o geri qayıdan qız dəyil.

– Oğul, sözün doğrudumu?

– Bəli, and içerəm Allaha, sənin qılıncına, sənin qalxanına. Xüləs, sənin varrığına and içerəm ki, elədi.

Bəli, Ağ qayanın həndəvərinnən qayıtdılar. Koroğlu göstəriş verdi, məclis qurulsun, meydan sulansın. Sulandı meydan. Aşıx Cünun, meydana gəl, bir neçə sözdər oxu. Ancax Koroğluyu fikir aparıf: "İlahi, mən nəynən Pərzad xanımın cadusunu qıra billəm? Qılınc kar eliyən döy, qoşun kar eliyən döy. Mən neynəməliyəm? Pənahım göydə Allahda, yerdə də özümdədi. Neyniyim? Mənə ilahi qüvvə verən şəxs, bir yol göstərər.

Onatan Aşıx Cünun meydana çıxdı, başdadı bir "Dubeyt" çalıb-oxumağa.

Gəl, səninnən həmdəm olax,
Oxu, mənim telli sazım.
Həm qaynıyax, həm dəm olax,
Oxu, mənim telli sazım.

Koroğlu baxdı gördü heş dərdinə çara tapa bilmer ki, bilmer. Aldı görək Aşıx Cünun:

Hamıdan yüksəkdə duran,
Şadyanalı məclis quran,
Sehr pozan, cadu qıran,
Oxu, mənim telli sazım.

Koroğlu “sehr pozan, cadu qıran” sözünü eşidən kimi elə sıçradı yerinnən, düz məclisin ortasına tüşdü.

– Aşıx Cünun, mənim sazımı simlə, pərdələ, tez ol.

– Ayə, mənnən nədi, deyişəcəsənmi, ay rəhmətdiyin oğlu?

– Yox-yox, sözünü qutar, sazı düzəlt.

Sən Cünunun dövlət-varı,
Könüllərin növbaharı.
Dədəm Qorqud yadigarı,
Oxu, mənim telli sazım.

Bəli, söz tamam olan kimi Koroğlu özünnən çıxdı:

– Aşıx Cünun, mənim sazımı simlədin, pərdələdinmi?

– Bəli, ağa.

– Niyar xanım, bir badə süziynən.

Niyar xanım başdadı badeyi süzən vaxtı, əlində belə tutanda Koroğlu aldı görək “Şahsevəni” qaydasına nə deyir, biz diyək, siz şad olun, inşallah.

Atdansın qoy qoçaxlarım,
Mənnən cannan keçən gəlsin.
Eyvaz xana canım qurvan,
Mərd əlinnən içən gəlsin.

Eyvaz xan bu badeyi Niyar xanımın əlinnən alıf:

– Ağa Koroğlu, mən sənin yolunda canımnan keçməyə hazıram. Badə nədi.

– Oğul, bilerəm sən keçməyə hazırsan. Gör o birisilər nə deyir.

Aldı sözün davamını, görək nejə dedi:

Libasın polad geyənnər,
Donnuğun mənnən yeyənnər.
Adına dəli deyənnər
Dostu-yarı seçən gəlsin.

Bəlli Əhməd, Halaypozan da Koroğluya yaxın gəldilər. Koroğlu, üç badə olsoydu hərəmiz birini götürərdik.

– Oğul, oğul, götürənə halal olsun, götürmiyən özü bilər. Al gör nə deyirəm.

Gəzək dağları, daşdarı,
Qırax tilsimli başdarı.
Koroğlunun qardaşdarı,
Yağı bağrın biçən gəlsin.

Xan Eyvaz, Bəlli Əhməd, Halaypozan, üçü də Koroğlunun arxasında dayandılar.

– Koroğlu, 7777 dəlinin hamısı sənin yolunda hazırdı. Elə o təzə gətirdiyin oğlan – Ağcaquzu da görörəm sana çox meyllidi. Özü də görörsən maşallah, nə qüvvəli, cüssəli oğlandı.

Koroğlu dedi:

– Əzizdərim, əziz dəlilərim, mən istəsəm əmr verərəm, bütün dəlilər arxamca gələr. Ancax bu döyüş döyü, bu tilsim qırmaxdı. Buna da dörd nəfər kifayət eliyər.

– Dəlilərim, heç narahat olmoyun, inşallah tezlihnən gedif qayıdarıx. Niyar xanım, Çənlibeli sana tapşıreram, Dəli Həsənə tapşıreram. Ağcaquzuyu da sizə sərkərdə seçerəm.

Ağcaquzu xeyli genəldi:

– Bu nətər olan şeydi? Bu ya dəlidi, ya da çox bilən adamdı. Beyqafıldan mana belə inam?!

Əlini döşünə qoyuf:

– Ağa Koroğlu, arxeyin ola bilərsən. Məni mətləbimə çatdırsan, Allah da səni mətləbinə çatdırar, inşallah.

Atdandılar, Ağ qayıya çatmışdılar, Eyvaz getmer.

– Bala, Eyvaz, niyə helə elersən? Sənin atın həmişə irəli gedərdi.

– Ağa, ixtiyar verərsən, Niyar xanıma bir söz deyif qayıdaram.

– Oğul, get, get, sənin xətrinimi qırajam?

Eyvaz qayıdıf, Niyar xanımı çağırıf:

– Anacan, sana qurvan olum, bavam düz eləmədi, bu yad adama etibar eləməh çətindi.

– Oğul, Koroğlu onun gecə özü dərsini mana keçif, sən işində ol.

Bəli, Eyvaz Ağ qayada bunnarın arxasınca çatdı. Gəlhagəl, bir böyük dağın ətəyinə çatdılar. Dörd nəfər atdı çatdılar bir dağın ətəyinə. Gördülər bir cavan oğlandı, bir sürü qoyundu. Qayda tütəkdə, çalır, öz-özünə həzz alır. Koroğlu yaxınnaşdı:

– Salam-əleyküm.

– Əleyküm-salam.

– Bərəkətdi olsun.

– Sağ ol, qardaş. Əgər ajdığınız varsa, tüşə bilərsiniz.

– Yox, oğul, sənnən bir şey soruşajıyıx. Bu dağın ətəyində nələr görörsən? Nələr olor?

– Heç nə. Nə olajax? Bax o meşəlih tərəfi görörsənmi?

– Bəli.

– Oruya gedə bilmerik.

– Niyə?

– Yazdan bəri burda bir əjdaha peyda oluf. Gedən kimi bizi qoyluyur. Ancax hərdən o tərəfdən bir adam gəler. Bir livada gəler, gündə bizdən çörək isteer. Geder binələrdən çörək aler gəler, varıf geder. Ancax heç kim ona yaxın tüşə bilmer. Bilmerik nə sirridi?

Koroğlu dedi:

– Hə, oğul, indi biz həmən yerə gedəjiyik.

– Bəy, oruya getmiyəjəksiniz, orda yaman əjdaha var, neçə dəfə dediyim kimi bizdəri, oruya gedənnəri qoyluyuf.

– Qorxma, oğul, Allah kərimdi, - deyib Qıratı tərpətdi.

Koroğlu getməhdə olsun, sizə deyim kimnən, Pərzad xanımnan. Pərzad xanım gündə bir dona girif, bir livaya girif, çobannan-çocuxnan, gələnnən-gedənnən çörək almaxnan yaşıyırdı. Dağların moruğunnan, gözəl-gözəl meyvalarıynan qidalanırdı. Bir də gördü kü, dörd atdı gəler. Bir qayanın üstünə çıxıf, hər yer görünör qayanın üstünnən, qayanın üstündə aslan libasına girib orda oturmağa başdadı. Koroğlu lap yaxınlaşdı:

– Ay uşaxlar, o aslanı görörsünüzmü?

Dedilər:

– Bəli.

– Heç bizdən çəkinmer. Heyvan ola, insannan qorxmuya. Nə vargəl eliyer, nə tərpəner, eləcə oturuf bizə tamaşa eliyer. Vallahi, burda bir sirr var.

Görək burda Koroğlu götürüf nə deejəh, biz diyəh, siz şad olun, inşallah. Bəlli Əhməd, Eyvaz xan Koroğluya baxer. Koroğlu görək bu yerdə nə dedi:

Uca dağların başında,
Mən bir aslana uğradım.
Yedim-işdim döyran sürdüm,
Bağa-bostana uğradım.

Dəlilər dedi:

– Bu nə bağ-bostan deer?

Bu vaxtı Pərzad xanım sehr oxuyuf üfürdü. Koroğlunun dörd yanını elə bir bağ-bostan elədi ki, yemiş, qarpız, gəl ki görəsən. Eyvaz xan istədi atdan sıçrasın, Koroğlu əlinnən vurdu ki, yavaş. Bir az dirənmişdilər. Həmən aslan dönüf nə olsa, bir gözəl telli xanım oluf, bulara boylaner. Aldı Koroğlu:

Bəridən gəl gözəl, bərdən,
Ürəymin yağın əridən,
Silkindi çıxdı dəridən,
Məməli aslana uğradım.

Əlbəttə, bu söz Pərzad xanımın xoşuna gəlmədi:

– Ay kişi, nəydi belə beyqafıldan sözünü çaşdırdın? Qadın əhlinin üzünə adam elə söz deyərmi?

Koroğlu dedi:

– Xanım, əlhəmdulillah, müsəlmanıx, türkük, sən özünə bir fikir ver, gör nə libasdasan.

Pərzad xanım əyilif baxanda gördü baa, yaxalar açılıf, bostan yemişi kimi, məmələr ikisi də eşiyə çıxıf. Məmələr görünör. Tez özünü yığışdırıf paltarını üstünə çəkən vaxtı Koroğlu görək

götürdü sözünü nejə davam elədi, biz diyək, siz şad olun, inşallah.

Koroğlunun var bir adı,
Hey gəlir dadı-fəryadı.
Görməmişəm belə cadı,
Firəngistana uğradım.

Koroğlu gördü kü, Pərzad xanım libasını dəyişdi, ancax anardan bəri bunnara yaxın gəldi. Qız dedi:

– Qəhrəman, sənin fikrin dağlara-daşdara.

Koroğlu dedi:

– Xeyr, gözəl. Mənim fikrim niyə dağlara-daşdara olur? Mən axı insannan danışeram.

– İnsannan belə danışmax olarmı? Danışırsan gözəl danış.

– Qulaq as, gör nejə danışajam, inşallah.

Bəli, Koroğlu xanımın gözəlliyinə mat qalıf. Doğrudan da gözəldi. Amma Pərzad xanım da gördü kü, qarşısındakı bir az yaştıraxdı. Bığlar qatdanıf bir yannan, boynunun arxasına ötürülüf. Ancax o birisilərə baxanda Eyvazı görüf dedi, İlahi, gör nə gözəl dünyada varrıx yaradıfsan, nə gözəl insannar yaradıfsan. Hancarı olmasa insandı. İnsan iddiyyəti var. Koroğlu düşündü kü, gəl buna "İbrahimi" qaydasınnan yumşax-yumşax de, gör nə başa tüşür:

Uca dağların başında,
Ləbli-ləbli qar görünör.
Mənim bu xəcil könlümə,
Alagözlü yar görünör.

Pərzad xanım dedi:

– Oğlan, bəyax mən sənə nə dedim? Sözün əvvəlini, axırını bil. Bu dağın kəlləsində sənin könlün nə yar istiyir? O ki yar xəyalına tüşüfsən, onda gərək sən bu yerdən salamat qayıtmıyasan. Ağlını başına topla. Gör bir mən nə deyirəm, sən nə eşidersən.

Aldı Pərzad xanım siyah tellərinnən üç dənə tel ayırıf, iki nar məməsinin arasınnan ötürüf, əyilif bir qızılgül yarpağı qırdı, tazanə əvəzinə, götürör görəh Koroğluya nə cavab verer:

Bağlar içində pencərəm,
Bu bağımda bar görünör.
İndi mən səni sancaram,
Ətrafın şahmar görünör.

Doğrudan da bir sehr oxuyur, elə bileynən dörd yanına, Allah göstərməsin, göydən ilan yağef. Şahmarrar qalxıf ayağının üstündə ağızdarını açıf. Koroğlu mat-məəttəl qaldı. Gözdərini sildi:

– Ayə, mənim gözümmü alacalaner?

Eyvaznan Bəlli Əhməd də titrəşellər. Andırın zəhmi yaman ağırdı.

Koroğlu dedi:

– Xanım, bir qulaq as. Qulaq as gör məni nəynən qorxutdun.

Bilmədim yarın fəndini,
Əmeydim ləbin qəndini.
Açeydim köksün bəndini,
Ağ sinəndə nar görünör.

Pərzad xanım ulduza çıxmadımı[1]?!

– Ayə, yekə kişisən, adamsan, insan oğlusan, genə də ağlına gələni danışersan. Ay zalım oğlu, deyən heç sənin qulağını buran olmuyuf. Nə danışersan? Nar nədi? Zad nədi? Qulaq as gör mən sana nə deyirəm, bil.

Zənbur çəkər bal olanda,
Halın yaman hal olanda.
Dayan, dilin lal olanda
Gözlərində tor görünər.

Koroğlu dəlilərin üzünə baxıf gördü kü, ayə, böyürlərinnən bir yer əmələ gəlif. Dərin dərədi, dəliləri sıxer. Hər tərəfdən şahmar başdarı. Uşaxların irəngi, Allah göstərməsin, dümağ ağarıf. Ayə, bu zalım qızının cadısu nətəhər cadıdu?! Gəl buna deynən ki, yekə kişi qızısan, belə işdərdən əl çək, adam ol, adamlara qarış. Məcbur eləmə ki, əlimi qılınca aparem, səni par-

[1] Ulduza çıxmax – yəni çox hirsləndi.

ça-parça eliyim. Mənim qılıncıma şahlar şahının əli dəyif. Ancax fikrinnən çəkindi. Qadın üstündə özünü öymək iyiddiyə yaraşmaz. Qadına özünü göstərmək iyidə yaraşmaz. Ancax gəl bir bunu qılıxla, görək cadu nədi, piti nədi, şahmar nədi? Aldı görək Qoç Koroğlu nə deyir, biz diyək, siz şad olun.

Qələm alıb yazammaram,
Bu cəbrə mən dözəmmərəm.
Yer üzündə gəzəmmərəm,
Dünya mana dar görünör.

– Ayə, zalım oğlu, zalım, genə ağlına yaramaz söz gəlməsin. Vallahi, səni bunnan da pis günə sallam.

Aldı Pərzad xanım:

Pərzad deyir, tanı məni,
Tərk etmişəm xanımanı.
Şahmar ollam, çallam səni,
Dünya sana mar görünər.

Koroğlu gördü kü, qız dediyinnən dönmüjək, dedi:

– Ay qız, adam balasısan, məni hövsələdən çıxartma. And olsun Allaha, əlimi Misri qılınca atsam, səni iki yerə parçalıyaram. Tez torpağı arala, uşaxları çıxart, incitmə.

Pərzad xanım baxdı gördü daha sınax bəs eliyir, bir sehr oxudu, dəlilər torpax məngənəsinnən azad oldular. İlannar çəkildi, dörd yannarı çiçəyə, gülə döndü. Necə də eləməsin, insan övladıdı. Pərzad xanım az qalıf iyirmi yaşa çıxsın. Həyatın quruluşu belədi.

Koroğlu dedi:

– Ay Pərzad xanım, sən yeddi qat yerin altında olsan da, genə səni tutub gətirəjəm. Qaçsan da, quş oluf uçsan da, nə dona girsən də sənnən əl çəkən döyüləm. Mana ağa Koroğlu diyəllər. Çox atım-atım atılma. Sən hələ Qırata bələd döyülsən. Səni Qıratın dırnaxlarının altında tapdıyaram. Nə qədər qaşsan, mənnən qutara bilməzsən.

Qız hərrəndi, bir ceyran libasına girdi, anardan bəri dönüf Koroğluya doğru baxanda ceyran nə olar? Ceyranın gözəlliyi Koroğluyu mat elədi. Bir xeyli baxannan sonra dedi:

– Bu insan övladıdı, bunu qovmaxnan nə çıxar? Diyijəhlər Koroğlu bu qızın başına bu işi gətirif, qızı tapdıyıb. Gəl incitmə zən[1] əhlini. Çünki zən əhlini incitdikcə sənnən zən əhlinin zəhləsi gedər. Zən əhliyi qılıxlamax yaxşıdı. Koroğlu dedi:

– Ay bala, bir mana yaxın gəl gör nə oxuyuram. Yönünü Çənlibelə doğru çöyürüf görək "Sarıtel" havasına nə deyəjəh, biz diyəh, inşallah, siz şad olasınız.

Yönü bəri duran dağlar,
Ellər səni bəzər bir gün.
Bir üzü bənövşəli bağlar,
Yarım səndə gəzər bir gün.

Koroğlu gördü kü, bəyax ceyran livasına girif özünü ceyran göstərən xanım anardan bəri gəler, ancax insan libasında gəler. Koroğluya yaxınnaşer. Nətəər olmasa da insandı. İnsan duyğusu var, insan düşüncəsi var. Telli sazın səsini eşidif mat-məətəl qalan Pərzad xanım qulaq aser. Koroğlu aldı görək burda ikinciyi nejə deyir, biz deyək, siz eşidin inşallah.

Hər iyiddə olmaz hünər,
Od olmasa ojax sönər.
Dövlətdidən dövlət dönər,
Ağıl başdan itər bir gün.

Baxıf gördü kü, bəyax qaçan qız lap yaxın gəldi. Özü də insan libasında, gözdəri də yaşarıf. Koroğluya boylaner. Aldı görək Qoç Koroğlu nə deer:

Koroğlu Çənlibellərdə,
Qalmışam fitnə-fellərdə.
Mən ölsəm qürbət ellərdə,
Kim qəbrimi qazar bir gün.

[1] Zən əhli – qadın tayfası.

Pərzad xanım lap yaxınlaşdı:

– Əgər sən Koroğlusansa, bu viranxana düzdərdə, bu dağlıxlarda nə gəzersən? Nə itirifsən?

Koroğlu dedi:

– Ay Pərzad xanım, dərdsiz aşığın ağladığını heç görüfsənmi? Axı mənim böyük dərdim var. O dərdin əlacı bircə səndədi, ona görə sənin yanına gəlmişəm.

– Əfəndim, düzünü de görək, sən niyə gəlifsən? Sənin fikrin nədi, mən səni anlıyım.

Bir daşın üstündə Pərzad xanım əyləşif gözdərini Koroğlunun üzünə zillədi. Bəlli Əhməd, Eyvaz xan, o birisi dəli birbirinə sıxılıf mat-məəttəl qalıflar. Bu qadında olan şücaətə, bu qadında olan hərəkətə mətəl qalıflar. Görək burda Koroğlu götürüf nə başa salacax, biz diyək, siz həməşə şad olun, inşallah. "Quba kərəmi" qaydasında Koroğlu Pərzad xanıma nə deyəjəh, Pərzad xanım Koroğluya nejə fikir verəjək?

Qız qulaxlarının ikisini də aşdı, gözünü də düz Koroğlunun gözünə zillədi.

Qoç Koroğluyam, çıxdım dalannan,
Ərzəmi götürdüm divanə gəldim.
Xotyarın oğlunnan peyman eylədim,
Fikrimi zay etdim, imana gəldim.

– Yanı nətəəri?

– Xanım, açıxlasam böyük olajax. İnşallah, özün görərsən. Niyə imana gəldiyimi sən biləjəksən.

– Hansı xotyardı? Kimnən söhbət geder?

Pərzad gözünü Koroğlunun gözünə zillədi. Əmbə Koroğlu gözünü çöyürüf Eyvaznan Halaypozanın üzünə baxdı. Gördü vallah, bir qız görəndə oynaxlıyan oğlannar indi elə bileynən ki, əsirdilər. Təmiz donuzdurub bunnarı, heç irəngləri üstərinə gəlmer. Bəlli Əhməd də qılıncını yerə qoyuf mat-məəttəl boylaner. Onacan aldı Koroğlu:

Bu dağların zirvəsinə varanda,
Qılınc çəkif düşman bağrın yaranda.
Samur qırağında məclis quranda,
Mey içdim, məst oldum, məstana gəldim.

– Ay iyid, düz danış, düz de. Çünki düzdük hər şeyi yenər, inşallah. Məqsədini, düzünü deynən, nəyə gəlifsən? Nədi işin mənnən?

– Qulaq as, bala:

Koroğluyam, sözüm qırma, küsərəm,
Bir yel oluf dağ başında əsərəm.
Getməsən də bil başını kəsərəm,
Səni aparmağa Mərvana gəldim.

Koroğlunun belə yumşax göynəməyi Pərzad xanımın çox xoşuna gəldi. Pərzad xanım elə bileynən on ildi Koroğlunun yanında mehtərriy eliyif. Lap yaxınnaşdı:

– O ki məni aparajaxsan, söylə görüm kimə aparajaxsan, a Koroğlu?

Ancax hərdən-hərdən Eyvazın üzünə baxer. Çünki Eyvaz buna ləyax oğuldu.

Koroğlu gördü kü, Pərzad xanımın əhvalı özündə döylü, bəyaxki cadu-pitikdən də əsər-əlamat yoxdu. Dedi:

– Qulaq as gör nə deyirəm.

Aldı görək nə diyijək, biz diyək inşallah, siz şad olun. “Bağdad dubeytisi”ynən görək necə dedi.

Ovçu olan ovun izlər,
Dur varax bizim ellərə.
Ağcaquzu yolun gözdər,
Dur, varax bizim ellərə.

Pərzad xanım Ağcaquzu adını eşidəndə bir xeyli diksindi. Dedi:

– Koroğlu, Ağcaquzu hara, sən hara? Ağcaquzu Hasan paşanın oğlu, hancarı siz dost oldunuz?

Dedi:

– Xanım, ajığın tutmasın, qulaq as.

Gözəl xanım, olma naşı,
Nə gəzersən dağı-daşı?
Ağcaquzu qoşun başı,
Dur, varax bizim ellərə.

Pərzad xanım dedi:

– Koroğlu, o, hansı qoşunun başçısıdı? O necə qoşuna başçılıx eliyer?

Koroğlu dedi:

– Qulaq as, gör dünyada nələr olajax, nələr var.

Aldı görək Koroğlu birin də:

Sona tərk etməz gölünü,
Xoryada verməz telini.
Koroğlunun öz gəlini,
Dur, varax Çənlibellərə.

Pərzad xanım mat qalıf:

– Bu nə işdi? Ağcaquzu hara, Koroğlu hara? Koroğlu, o ki sən məni özünə gəlin kimi aparajaxsan, onda gedərəm. Əmbə onu bil ki, Ağcaquzu sən deyən kimi iyid olmasa, onda zəhər içif özümü tələf eliyərəm.

Koroğlu dedi:

– Bala, heç darıxma, Pərzad xanım. Mana Qoç Koroğlu deyəllər. Mən səni zornan da aparardım. Əmbə bilerəm ki, sən zor işlədiləsi qız döyülsən. Hər şey sənin ürəyincə olacax. Bu günnən mən sənin qaynatanam.

Eyvaz atdan endi, Pərzad onun atına mindi. Üzü dağ aşağı yola başdadılar. Eyvaz atın yüyəninnən yapışıf özü payi-piyada geder, Bəlli Əhməd, Halaypozan, Koroğlu atın belində, Pərzad xanım Koroğlunun əlinnən gözünü çəkmer.

– Bala, deyən sənin mana deyəcəyin sözün var. Bir onu de.

– Qoç Koroğlu, bax o sənin əlindəki sazı istiyirəm.

– Ay bala, oxumax haçan fikrinə gəlif?

– Yox, sənin Koroğluluğun bir idisə, o sazın eşqi, o sazın səsi doğrudan da məni o yola gətirif. Mənim cadumu o saz pozdu.

Koroğlu mat-mətəl qaldı.

– Eşq olsun, Aşıx Cünun.

Vaxtikən Aşıx Cunun demişdi “saz cadu qırar”. Aşıx Cununun bu sözü Koroğlunun yadına gələn vaxtı dedi, qızım, bu saz bu günnən sana peşkəşdi. Allah qoysa, ürəyin nə ister, çalarsan, oxuyarsan.

Bəli, Pərzad xanım sazı əlinə alıf, sazın sinəsinnən öpdü.

– Ağa Koroğlu, doğurdan da mana birinci həmdəm verdin.

Gəlhagəl, söylüyə, danışa, Ağ qayıya yaxınnaşan vaxtı Koroğlu dedi:

– Bəlli Əhməd, Eyvaz, Halaypozan, siz bax burdan beləsinə o qoruxlardan, o gözəl güllərdən çələk düzəldərsiniz. Pərzad xanımı, atını, elə bəziyərsiniz ki, görənnər desinnər doğurdan da xan qızı gəler, toy olor. Ancax mən burdan kəsə yolnan Ağ qayanın altınnan addıyıf, Niyar xanmı muştuluxluyuf, dəliləri sizin pişvazınıza göndərəjəm, göndərəjəm ki, sizi toynan, zurnoynan, çalğıynan aparsınnar.

Sən saydığını say, fələk gör nə sayer. Bir az aralaşdılar, bunnar çəmənni, çiçəkli yerrərnən əylənə-əylənə, gül dəstəsi yığa-yığa getməhdə olsun, Koroğlu Ağ qayanın altındakı tək cığıra çatan vaxtı gördü kü, qarşıda bir atdı duruf. Ancax heç belə atdı buna rast gəlmiyif.

Bir zaman Hasan paşanın ən istəkli tacirini Koroğlu al qana buluyuf Niyar xanımın yanına gətirən vaxtı Niyar xanım Koroğluya belə bir atmaca demişdi:

– Ay səni Əliyə rast gələsən, bu yazığı niyə bu hala salıfsan? Babayi-Əmirə rast gələsən. İnsan özünnən gücsüzü bu hala salarmı? Allah-taala varrıya var verif ki, yoxsula baxsın, yoxsula əl tutsun. Allah-taala güclüyə güc verer ki, gücsüzü güjdülərdən qorusun.

Niyar xanımın dediyi o söz Koroğlunun yadına tüşdü. Ancax Koroğlu vejinə də almadı. Seviner. Böyük bir mətləbi yerinə yetirif Koroğlu.

Atdı yolda duror. Ancax Qıratın nə alt yannan, nə üst yannan addamağı baş tutmur. İstəmer atının ayağı xarav olsun, bir ağızdan salamsız-kalamsız:

– Ay mazarrat, yolu niyə kəsifsən?

Həmən atdı heç Koroğluya əhəmiyyət vermədi. Heç guya bunu görmör, eşitmer. Koroğlu bir hündürdən bağıran vaxtı gördü kü, Qırat altında titrədi. Qırata bir zopa vurmax istiyəndə gördü Qırat tərpənmer yerinnən. Ayə, bu mazarrat kim idi mənim yolumu kəsdi? Götürüf görək burda nə deyəjək, biz deyək, siz şad olun, inşallah.

Tatsan, kürdsən, nə millətsən,
En atınnan, Əcəm oğlu.
Yol kəsənsən, mazarratsan,
En atınnan, Əcəm oğlu.

Atın üstündəki dedi:

– Ayə, ağlını başına yığ, bu nədi salamsız-kalamsız məni sən təhqir eleersən. Mən niyə atdan tüşməliyəm? Niyə sana yol verməliyəm? Bax o yannan gediynən. Dədeyin yolu ha döy?

Koroğluyu od götürməsin, neyləsin? Koroğlu nağayırmalıdı? Özünə bir zor verdi, birin də:

Aslan kəsifdi qarşını,
Axıdajam göz yaşını.
İndi üzəjəm başını,
En atınnan, Əcəm oğlu.

Atdı qımışdı. Bu qımışanda Koroğlu daha da dəli olmadımı?! Ayə, deysən bu tufağı dağılmış məni tanımer. Gəl adını buna açeynan, deynən ki, mən Koroğluyam. Yoxsa bu atdan tüşüf eliyənə oxşamer. Məni buranın qoruxçusu sayer. Aldı görək Koroğlu nə deyer:

Qoç Koroğlu mənəm, mənəm,
Çətin dediyimnən dönəm.
Əlimnən şikar vermərəm,
En atınnan, Əcəm oğlu.

– Ayə, Qoç Koroğlusan, bağışda məni, tanımadım. Elə bildim buranın qoruxçusu-zadısan. Onunçun sana ajıxlandım ki, nə demək isteyirsən, ay Qoç Koroğlu?

– Atdan tüş. Gətir atının ciloyunu bağla mənim atıma. Yanıma tüş Çənlibelə aparajam səni.

– Ay Koroğlu, məni Çənlibelə nəyə aparersan?

– Səni özümə ram eləmək istiyirəm.

– Ay Koroğlu, axı mən ram olan döyüləm. Heç kim məni ram eliyə bilməz. Əgər atımı istiyirsənsə atdarı sürəyə qoyax. Sənin atın addıyar, mən atımı sana verrəm. Mənim atım addıyar, atını əlinnən alaram. Əyər iyidsənsə, düzdüyə əməl elə.

Koroğlu dedi:

– Baş üstə.

Koroğlu elə biler Qıratdan ayrı at yoxdu.

– Atımızı hardan sürək?

Koroğlu dedi:

– Bax bu qaratikənniyi, bu daşdığı görörsənmi?

– Bəli.

– Burdan baravarına Ağ qayıyı belə dolanax. Kim qavaxca mənim durduğum yerə gəlif çıxsa, o, qalib gəler.

Koroğlu Qıratı mahmızlıyan vaxtı gördü ayə, bu at gözdən itdi. Hələ bunun Qıratı yerinnən tərpənmiyif bu Ağ qayıyı dolanıf buna qarşı gəler.

– Ayə, bu atı bunun əlinnən alsam pütün dünya mənim ayağımın altda olmiyajaxmı?

Atdı yetirdi:

– Ağa Koroğlu, bəs sən atını tərifliyirdin ki, sənin atın mənimkini ötər. Nooldu? Atın heç yerinnən tərpənmədi?!

Koroğlu dedi yağın Qırat xəstələnif, keçər gedər. Onda gəl güləşək. Kim yıxsa at onundu.

– Baş üstə.

Üzü mübarək atınnan endi. Koroğlu gözünnən baxanda dedi:

– Ya Rəbbi, bu mələkdimi, yoxsa insandı? Bu nədi? Beləjə şəkildimi?

Mat qalıf. Anardan bəri gəlif bunnar güştü tutmax istiyən vaxtı Koroğlunun bir qaydasıydı, əlini biləyinə çəkərdi, "ya Əli, sənnən mədəd" deyərdi. "Ya Əli, sənnən mədəd" deyən vaxtı qavağındakı qımışdı, Koroğluya baxdı. Koroğlunun belinin qurşağından götürüb elə qolağazdadı ki, Koroğlu bir əlli metr burdan aralıya düşdü. Koroğlu işi başa düşdü ki, ha, Niyar xanımın qarğışı burda gəlif çatıf. Sürünə-sürünə, dodağı partdamış halda əlini döşünə qoyuf "Allahuməsəlli əla seyyidinə Muhəmmədin və ali seyyidinə Muhəmməd" – deyif buna yaxınlaşan vaxtı həmən şəxs də salavat çöyürdü. Özü də gözdəri yaşardı. Dedi:

– Koroğlu, iyiddiyi sana mən vermişdim, mən də almıram. Get bir az farağat dolan. Ancax yaxşı iş görüfsən. İki cavanı bir-birinə qovuşdurufsan.

Əlində qamçısını oynada-oynada bir göz qırpımda yox oldu. Koroğlu mat-məəttəl qalıf, dizdəri titriyir. Bu atdı gözdən yox olan kimi Qırat kişniyif özünü düzəltdi. Ancax Koroğlu yerinnən qalxa bilmer. Qırat gəlif Koroğlunun yanına çatdı. Birtəhər aşırma atın belinə mindi. Niyar xanım Qıratın tappıltısını bilerdi. Niyar xanım eşiyə çıxanda gördü ki, ayə, yanında dəlilər yox, Eyvaz yox, Pərzad xanım yox, ancax Koroğlu atın belində aşırma gəler.

– Ya Allah, ya Allah, bu nə olan işdi, bu nə oyundu?!

Koroğluyu belə görüf özünü yetirdi, dizdərinə döyə-döyə:

– Ayə, bu nədi, bu nə işdi?!

Koroğlu gəlif qapıya çatan vaxtı dəlilər tökülüf atın belinnən Koroğluyu endirdilər. Otrutdular Koroğluyu mizin üstə.

– Ağa Koroğlu, bu nədi?

Əmbə Niyar xanım görək burda nə deyir, biz diyək, siz şad olun, həməşə yaxşı gününüz olsun. Niyar xanım nə isteer Koroğludan? "Şirvan dubeyti"ynən görək nə dedi.

Niyə məlul-müşkülsən,
Hanı Eyvaz, xan Koroğlu?
Göz yaşım ümmana döndü,
Bağrım oldu qan, Koroğlu.

Koroğlu gözünün qulağınnan baxıf gördü kü, Niyar xanım gözünnən bahar buludu kimi axıder. Əlinin birini qaldırıf yağı qoruğuna doğru göstərdi ki, bu yannan gələjəhlər. Ancax Niyar xanım ah-vayda, ahu-zardadı. Götürüf birin də görək nə deer:

İrəngin dönüf löyünnən,
Sinəm dağlıdı düyünnən.
Qurvan kəsellər qoyunnan,
Sana qurvan mən, Koroğlu.

Koroğlu başını yırğaladı, dedi:

– Ay Niyar, sən mana niyə qurvan olasan?! Nooluf Allaha şükür, hər şey yerindədi.

Onatan uşaxlar göründü. Koroğlu dedi:

– Odu gəlellər, qorxma.

Niyar xanımın ürəyi bir az yerinə gələn vaxtı götürüf birin də dedi:

Tərlansan kəklik ovunda,
Yarıyın gözəl boyunda.
Pərzad xanımın toyunda
Sürək bir dövran, Koroğlu.

Söz təmama yetişdi, Koroğlu özünə gəlmer ki, gəlmer. Belə baxanda gördülər Pərzad xanımın kəcabəsi bəzədilif, gül-çiçək içində. Vallahi, elə bileynən Eyvaz dərədə-təpədə, qoruxda gül qalmıyıf, hamısını çələng qayırıf Pərzad xanımın başınnan ayağına qədər, atın hər bir yeri gül-çiçəkdi. Qara zurnalar səslənif gəlinin qabağına getdilər. Ancax Koroğlu özünə gəlmer ki,

gəlmer. Gözü elə Ağ qayıya doğru boylaner, üzünə salavat gətirer. Niyar xanım mat qalıf, bu nə işdi? Tez-tez üzünə salavat gətirer, Peyğəmbərin adını çəker, Həzrət Əlinin adını çəker. Allah-taalaya şükür-sənalar oxuyur ki, ya Rəbbim, sənin varrığına şükür, mən nə yaxşı salamat qutardım.

Tamam xalx mat qalıf, məəttəl qalıf. Onatan Eyvaz özünü yetirdi. Qadınnar töküldülər, Pərzad xanımı atdan endirdilər. Ağcaquzu mat-məəttəl qalıf ki, mənim ujbatımnan Koroğlu gör nələr çəker. Əmbə Pərzad xanımnan özünü gizdiyer ki, Pərzad xanım onu görməsin. Eyvaz yetirif Koroğlunun qarşısında durdu:

– Baba, sana nooluf? Sana kim neylədi?

Gözünü aana-baana gəzdirəndə şərab tuluxlarına baxan vaxtı Eyvaz yüyürdü bunun birini sürüdü gətdi. Tuluğu Koroğluya doğru uzadanda Koroğlu dodağını söykədi tuluğa. Bir xeyli əmənnən sonra özünə gəlif bir dərinnən nəfəs aldı, əyax üstə qalxdı.

– Baba, sənə nooluf, səni kim bu hala salıf?

– Ayə, aşıx Cünun, burya bir saz gəti.

Sazı verdilər Koroğluya.

Aldı görək Koroğlu “Köhnə qaraçı”qaydasınnan nə deyir?

Niyar xanım, bir ərəbə duş oldum,
Ağlımı başımnan aldı da getdi.
Qurumuş dilimnən hədyan söylədim,
Məni Ağ qayıya çaldı da getdi.

Eyvaz bir dərin nalə çəkdi:

– Ayə, zalım oğlu, sən nə danışersan? Səni kim Ağ qayıya çala bilər? 7777 dəliyi bu saat onun başına yığajam. Görüm o kimdi? Hansı səmitdədi?

– Ay oğul, qulaq as.

– Ağa Koroğlu, nə dedin, nə?

– Ay oğul, sən yeddi min dəli deyirsən, heç yüz min dəlinin də ona çatmaz gücü.

Yüz min dəlinin də yetişməz gücü,
Məğrubdan Məşruqa o vermir bacı.

Mardan qamçısı var, zəhərdən acı,
Oynatdı əlində, güldü də getdi.

– Nə yaxşı ki, bircə yol kürəyimə vurmadı, Allahıma şükür eleyirəm.

– A kişi, o kimdi, nədi? De görün nə danışersan? Sənnən üstün bu dünyada adam varmı?

– Ay bala, qulaq as.

Koroğlu özünü düzəldif dəlilərə baxdı, Ağcaquzuya baxdı, Pərzad xanıma baxdı. Eyvaz tirim-tirim titreyir:

– Baba, bu saat dünyöyü dağıdajam.

– Yox, oğul.

Koroğlum der budu sözümün sağı,
Hökmündədi onun Kövsər bulağı.
Adı Həzrət Əli, dinimizin dayağı,
Düldülünə süvar oldu da getdi.

Bəli, mənim əzizdərim, söz cəvabı tamama yetişdi, Ağcaquzu yaxınlaşdı:

– Ağa Koroğlu, adını eşitmişdim, hər yerdən soruşmuşdum sənin kim olduğunu. Hərdənbir Röyşən adında bir şəxsi nənəm Əsmər qarı mana xatırladırdı. Mən nəynən sənin bu xeyrini, sənin çəkdiyin əziyyəti, bu gördüyün işin əvəzini verə billəm? O yeddi dəvə, səkkiz dəvə yox, başımı da versəm qutara bilmerəm. Sənin qavağında günahkaram.

Koroğlu dedi:

– Oğul, sən buruya nə fikirnən gəlifsən? Mənim üçün tələmi qurmağa gəlifsənmi bu qızdan ötrü? Düzünü de.

Ağcaquzu bir hündür daşın üstünə çıxıf dedi:

– Dinliyin məni, ey camahat. Başıma gələni mən sizə söylüjəm. Əsmər nənəm məni filan mağaradan tapıf gətirif. Gətirif məni böyüdüf, Hasan paşanın himayəsinə verif. Hasan paşa məni hər nə cür varsa öyrədif. Hər bir pəhlivannığı, caduluğu, hər bir şeyi. Nə sirri var pəhlivannığın, hamısını mana öyrədif. Mən hərdən nənəmin yanına gəlerdim, Əsmər anam mana

deyirdi, ay canavar südü əmən, sən elə canavar kimi böyöyörsən, canavar kimi yırtıcısan. Nəqqədər soruşdum, Əsmər anam onu mana demədi. Axır vaxtı mana bazubəndi bağışdıyanda mağarada canavar məni əmizdirən yerdə tapdı, onu mana xatırlatdı.

Bu söz ağzınnan çıxan kimi Koroğlu dedi:

– Oğul, sənin üstündə bir nişana varmı?

– Bəli, qolumda qolçaq var.

Qolçağa baxıf Koroğlu iki əlini başına vurdu:

– Ay camaat, Allah-təbarəkətəala gör məni nəynən müjdələdi? Bu ki mənim oğlumdu. Oğul, sən Sultanalısan.

– Baba, o adı Əsmər qarı da deyirdi. Ancax bilə bilmerdim o nə deməhdi.

Koroğlu Pərzad xanımı çağırtdı:

– Qızım, gəl yaxın.

Pərzad xanım yaxınlaşdı.

Koroğlu dedi:

– Bu mənim oğlumdu, sən də mənim gəlinimsən. Allahtaala bizi belə müjdələdi. Bu günnən toyunuzu başdıyıram.

Ağcaquzu dedi:

– Yox, baba, o məni dünyaya gətirən ananın qəbrini ziyarat etməmiş nə toydu, nə zaddı.

Bəli, ağa Koroğlu indi anladı ki, ana nədi, oğul nədi, insan nədi. Ağcaquzunun üzünə baxdıqca Koroğlunun gözdəri alacalaner:

– Fələk, sən niyə o günü mənə verdin ki, mən o toppuznan bu uşağın başını belə vurdum. O toppuz bunun başını dağıtseydi, bu uşağın halı nə olardı? Mən evladsız qalmazdımmı?

Peşmançalığını çəker, belə gedir, belə gəler. Niyar xanım da harayler:

– A kişi, gör bu uşax nə deer? Toyu başda.

Dedi:

– Sənin nə halındı, mənim nə halımdı?

Gəler gənə Ağcaquzunun üzünə baxer. Gözdərinnən yaş tökülör. Onatan Aşıx Cünun yaxınlaşanda Koroğlu onun əlinnən sazı aldı:

– Aşıx Cünun, bir sazı mana ver görüm bu uşağın könlün nətər aleram.

Namərdliknən səni vurdum,
Oğlum, əllərim qurusun.
Ağrısını indi duydum,
Oğlum, əllərim qurusun.

Gözlərinnən leysan kimi yaş axer. Niyar xanım da məətəl qalıf. Görəsən bu kişi niyə belə eleer?

Özüm durdum öz qəstimə,
Ləkələr yaxdım üstümə.
Qurban boyunun şəstinə,
Oğlum, əllərim qurusun.

Aldı Koroğlu birin də:

Bu gördüyün döylət, varı,
Səndə döyül ixtiyarı.
Koroğlunun can-ciyarı,
Oğlum, əllərim qurusun.

Niyar xanım haray saldı:

– Kişi, mən sənin ömrüm boyu ağladığını görməmişəm. Bu nə ağlamaxdı?

İki qul var idi, qara qullar. Dedi:

– Bala, bir o toppuzu buruya gətirin.

İki adamın zornan güjü çatan toppuzu gətdilər Koroğluya. Ağcaquzuya dedi:

– Oğul, bir o daşın üstünnən tüş.

Ağcaquzu aralandı daşdan. Koroğlu geri çəkilif həmən toppuzu daşa vuran kimi daş ortasınnan iki bölündü.

– Ay Niyar xanım, mən güjnən göyə qaldırıf həmən toppuzu bax Sultanalının başına çaxmışam. Onu Allah saxladı. Heç bir şey olmadı.

Ağcaquzu gülümsəndi:

– Ağa Koroğlu, mənim sənin oğlun olduğunu bazubənd tasdıxlıyırsa, Əsmər qarının dediyi də tasdıxlıyır. İnnən belə mən sənin hüzurunda qulam. Nə əmr eləsən eliyəjəm.

– Oğul, mənim əmrim yoxdu. Mənim əmrim bu olardı ki, Pərzad xanımnan sənin qırx gün, qırx gejə toyunu eliyək.

– Babeyi-mehriban, toy eləməyinə bir şey demerəm. Pərzad xanım mənim gözümün ağı-qarasıdı, sevdiyim qızdı. Ancax anamın məzarını ziyarat eliyim, toya nə var.

Bəli, el ədətinnən Sultanalı, Pərzad xanım babaları Alı kişinin, Bilqeyis xatunun qəbrlərini ziyarət elədilər. "Yasin" oxudular, qayıdıf gəldilər. Toy başdandı. Qırx gün, qırx gejə toy çəkdi. Sultanalıyə ixtiyar verildi gəlinin otağına keşsin.

Pərzad xanımnan Sultanalı görüşdü. Üzağlığının muştuluğu gəldi. Koroğluynan Niyar xanım qucaxlaşdı. Deməк, Ağcaquzuynan, yəni Sultanalıynan biz bacanağıyıx – ata-oğul. Pərxad xanımnan ikiniz də Cəfər paşanın qızısınız deyəndə Niyar xanım dedi:

– Nə danışersan?

– Bəli, o, sənin bacındı, get bacınnan soruş.

Niyar xanım təzədən ayılıf işi öyrənənnən soyra Koroğluya dedi:

– Koroğlu, bu günnən soyra bir də bayram elə.

Allah-taala sizi, bütün türk dünyasını həmeşə bayramda eləsin.

Dastan burda tamam oldu. Aşıq Cünun toyu bir duvaqqapmaynan başa vurdu. Göydən üç alma tüşdü. Biri mənim, biri Aşıx Aslan Kosalının, biri də özümün. Tamam xeyir, tamam gözəllik, tamam bərəkət cümləmizə nəsib olsun, inşallah. Allahtəbarəkətəala həmmeşə üstünüzdə olsun.

## MEHRALI BƏY

Bəli, Sizə haradan, kimdən xəbər verim, xəbəri sizə göydə qartalı gözündən vuran, yağıların-yadların anasını ağladan, gavurlara qəbir qazan, Alosmanda, Qafqazda ad-san alıb, paşalara-sultanlarla Anadolu ağzında süfrə açıb məclis quran Borçalının – qarapapaxların şir-aslan balası Darvazlı Mehralı bəydən deyim.

Mehralı bəyin atası Məmli kişi Borçalı ağa-bəyləri içərisində ad-san sahibi idi. Məmli kişinin el-obada bir sözünü iki edən olmazdı. Bolusda məclislər yaraşığı idi. Allahverdi oğlu Məmlinin oğul-qız züryəti sarıdan da bəxti gətirmişdi. Məmli kişinin Mehralı, İsa, Məhəmmədəli, Alı adlı dörd oğlu, Hürü, Tükazban adlı iki qız züryəti vardı. Məmli kişi Bolusda əsl-nəsli, səxavəti ilə sayılan duz-çörəkli, olduqca qoçaq, vuran-tutan, dosta həlim, düşmənə qənim sayılan kişilərdən idi.

Ustad deyir ki, Borçalı yaylaqlarında gül-gülü, bülbül-bülbülü çağıran, borçalıların dəyə qurub yaylayan vaxtı idi. Bu o vaxtlar idi ki, Qazax, Şəmşəddin sultanlığı, Borçalı artıq Urusetin tərkibinə qatılmışdı. Hər yerdə ağalar, bəylər, tavatlar, naiblər xalqı ağır vergi verməyə məcbur edirdilər. Torpaq vergiləri xalqı müflisləşdirmişdi. «Dinmə ver» vergisi xalqı can-boğaza yığmışdı. O idi ki, Dağ, Bağ, Aran Borçalıda ardı-arası kəsilməz kəndli üsyanları baş verirdi.

Bu dövrlərdə Məmli kişininin böyük oğlu Mehralının da artıq bığ yeri tərləmiş, on səkkiz yaşlı, orta boylu, dolu bədənli, bənövşəyi bığlı qız qaytaran, dəliqanlı, özünü bozartmış bəynişan bir oğlan olmuşdu. Toy-nişanlarda, su suatlarında telli-toqqalı kəmər və bəstə-sultan nigar qızların gözaltısına çevrilmişdi. Mehralı tay-tuşları arasında ədəb-ərkanı ilə seçilirdi. Onun da atası Məmli kişi kimi ov-şöləndə atdığı güllə boşa çıxmazdı. Mehralıdan söz-söhbət düşəndə ağsaqqal-ağbirçəklər ürəkdolusu deyərdilər:

– Allah saxlasın. Əsil kişi oğlu kişidi. Alma budağından kənar düşmədiyi kimi, o da Allahverdi oğlu Məmli kişidən kənarda qalmamışdı. Mehralını görən ağbirçəklər, analar əl götürüb Tanrı-təaladan ona uzun ömür, xoşbəxtlik diləyərdilər. Çox anaların, nənələrin könlündən ılıq, kövrək, qızları, nəvələri üçün isti bir dilək də keçərdi.

Hə, mənim əzizlərim! Bayaq dediyimi davam etdirim, Qafqaz basarığının hər yerində olduğu kimi, adı hər yerdə car olan, neməti bol olan Borçalı mahalında və bu mahalın meşəli dağlar qoynunda yerləşən və dağların abu-havasını alan Darvaz kəndində də qarışıqlıq idi. Camaat uruslara qarşı tez-tez üsyan eyləyirdi. Çar qazaqlarının belləri Məmli kişidən bərk deyildi. O idi ki, hər necə olursa-olsun fürsət düşən kimi onu aradan götürmək qərarına gəlmişdilər.

Bəli, belə bir üsyan hərəkatında Allahverdi oğlu Məmli kişi qəhrəmanlıqla həlak oldu. Urus qazaqları Məmli kişinin ölüsündən də qorxaraq, onun meyidini kəndin qəbirstanlığında deyil, Darvazın qonşuluğundakı Örmeşən[1] kəndinin gavur-duxoborlar uyuyan xaçpərəst qəbirstanlığında dəfn etdilər. Məmli kişinin qəbrini qorumaq üçün iki qazaq əsgərini qaravul qoydular.

Məmli kişinin xristyan qəbirstanlığında dəfn edilməsi uruslara qarşı xalqın amansız qəzəbinə səbəb oldu. Ustad deyir ki, elə dəfn gecəsi Allahverdi oğlu Məmili kişi gəlib girdi oğlu Mehralının vayğasına. Başladı ona tənə-töhmətə:

– Utanmırsan, dörd oğul atası da gavur qəbirstanlığında uyuyarmı? Əgər üç günə qədər məni gavurların içərisindən çıxarıb müsəlman qəbirstanlığında dəfn etməsən verdiyim duz-çörək sənə haram olsun.

Yuxudan hövələng qalxan Mehralı gördü ki, anası Zöhrə xanım kəsdirib yastığının yanını. Mehralı anasına dedi: «Aneyi-

---

[1] O dövrdə iki Örmeşən kəndi olub, onların birində qarapapaqlar, digərində isə duxoborlar yaşayırdı.

mehriban! Atam məni vayğamda tənbeh edib dedi ki, oğul, əgər sən məni bu gavurların içərisindən çıxarmasan başıyın papağı sənə haram olsun. Bil və agah ol! Bu ata deynidi[1], ana! İndi razılıq səndən, qəbrin yerini dəyişmək məndən». Zöhrə xanım kövrəlib göz yaşlarını tökdü. Mehralı bəyin ürəyi qubar eylədi. Götürdü görək yuxusuna binəm anasına sözlə nə dedi, anası nə cavab verdi, biz deyək, sizə könül xoşluğu.

**Aldı Mehralı:**

Canım ana, bu gecə yuxu gördüm,
Atam nalə çəkir qəbir içində.
Onun o naləsi məni yandırır,
İnan, qalmayıbdı səbir içimdə.

**Aldı Zöhrə xanım:**

Canım-ciyərim, gəl çıxma sözümdən,
Getmə oğlum, getmə qoymaram səni.
Gəl, yazığam, ayrı düşmə gözümdən,
Getmə, oğlum, getmə qoymaram səni.

**Aldı Mehralı:**

Könlüm yasdan çıxmır, qəlbim qaradan,
Kömək olsun mənə ulu yaradan.
Atam dedi, çıxar məni buradan,
Qalmışam gavurla qəbir içində.

**Aldı Zöhrə xanım:**

Oğul, bu dərdimin çarası sənsən,
Vuran ürəyimin parası sənsən.
Görən gözlərimin qarası sənsən,
Getmə, oğlum, getmə qoymaram səni.

---

[1] deyin – borc, vəzifə, görəv, tapşırıq mənasında

**Aldı Mehralı:**

Mehralıyam, qəm dəryaya dalaram,
Pərvanə tək özümü oda salaram.
Gavurlardan qisasımı alaram,
Pərişan qalmışam abır içində.

**Aldı Zöhrə xanım:**

Gəl, yazıq Zöhrəni salma azara,
Tutulsan sinəmə vurarsan yara.
Yaradan dərdinə eyləsin çara,
Getmə, oğlum, getmə, qoymaram səni.

Söz tamama yetdi. Çox yalvar-yaxardan sonra Zöhrə xanım Mehralıya razılıq verdi. Elə Mehralıya da bu lazım idi. O altdan geyib üstdən, üstdən geyib altdan qıfıllandı. Götürdü yar-yasağını, gecənin oğlan çağı yetirdi özünü xristyanların qəbirstanlığına. Etdi hər iki qazaq gözətçisini qanına-qəltan. Çıxardı Məmli kişinin nəşini. Gətirib dəfn etdi müsəlmanlar uyuyan qəbirstanlıqda.

Nağılçıların dili yüyrək olar. Dan yeri qızaranda söz-söhbət yayıldı Darvaza. Urus saldatları qomarladılar Darvazı. Kəsdilər dağlara gedən bəndi-bərələri. Aldılar bütün Darvaz ətrafı kəndləri göz altına. Əhvalatı belə görən Mehralı anası, bacı-qardaşları ilə halal-hümmət etdi. Yatdı dar gününün gərəyi Qarakötük adlı atının yalmanına. Ya mədəd səndən deyib, üz qoydu pənahı Xram meşələrinə, Başkeçid dağlarına. Bir qədər dağlarda-ormanlarda gəzib-dolaşdı, adıbəlli qaçaq oldu. Günün bir günündə Allahın xoş saatında, xoş dəqiqəsində yaylaqdan endi Soyuqbulağın başına. Baxdı ki, tanrı-təala xoş anında hüsnü-camalına qələm çəkdiyi sərv boylu, maral baxışlı, ürkək yerişli bir qız gəldi bulaq başına. Qız nə qız?! Günəş xəcalətindən, ay utandığından üzünü bürüyüb. Ulduzların gözü olub qırpıq. Mehralının gözləri sataşdı qızın gözlərinə, ürəkləri söz alıb danışdı.

Mehralının kəsildi səbri-qərarı. Qızın xiffətini çəkməkdən saralıb sapa, incəlib ipə döndü. Öyrəndi atası Məmlinin dar gününün yaxın dostu, Keçəli kəndinin, düz çörəkli el-oba ağsaqqalı Əhməd ağanın evinin yerini. Üz tutdu Əhməd ağanın evinə.

Ustad deyir ki, Əhməd ağa dostu Məmlinin oğlu Mehralını basdı bağrına. Başladı duz kimi yalamağa. Əhməd ağa baxdı ki, ey dili-qafil qardaşoğlunun halı özündə deyil. Əvvəl-əvvəl elə bildi Mehralı ac-susuzdu. Oydu ki, yox olsun yoxsulluğu, kəsdi bordax bozuğu, çəkdi şişlərə. Əhməd ağa adına layiq bir süfrə açdı ki, kababın ətrindən yeməyənin də yeyəsi gəldi. Amma Mehralının halı düzəlmədi. Əhməd kişi Mehralıdan niyə kefsiz olduğunu soruşanda Qaçaq Mehralının dərdi tüğyan eylədi, halına binəm Əhməd ağaya utana-utana aldı görək nə dedi, tərəfindən biz deyək, sizə könül xoşluğu:

İstəyirəm sirrim sənə söyləyim,
Mənim bu dərdimi biləsən, əmi!
Bir gözəlin sevdasına düşmüşəm,
Bu dərdimə əlac edəsən, əmi!

Əhməd kişi dedi, oğul, başına dönüm, bu nə sirrdi, nə dərddi açıq de görüm. Aldı Mehralı:

Sevdiyim gözəlin ismi Bahardı,
Elə bil açılmış yeni səhərdi.
Gəl qıyma çəkməyə mənə bu dərdi,
Qəmimə bir qəmxar olasan, əmi!

Mehralıyam, mən çəkirəm qəhəri,
Yatammıram nə gecə, nə səhəri.
Canı-dildən mən sevirəm Baharı,
O dildarı mənə alasan, əmi!

Əhməd kişi gördü ki, qardaşoğlunun dərdi ayrı dərddəndi. O, dünya görmüş, çox belə işləri yorub-yozub yoluna qoymuşdu. Soraqlayıb öyrəndi ki, qardaşoğlunun könül verdiyi Bahar xanım kəndin mötəbər ağsaqqalı Osman katdanın qızıdır. Dedi:

– Qardaşoğlu! Bil və agah ol! Bir ölümə çarə yoxdu. Qalan dərdlərin çarəsi var. Fikir eləmə! Qoca əmin elə bu axşam ağsaqqallar ilə gedər Katta Osmanın evinə. Bir mübarək saqqal tərpədər. İnşaallah, hər şey olar ürəyincə.

Bəli, qaş qaralanda Əhməd ağa kəndin sözləri ötən ağsaqqalları ilə kəsdi Osman katdanın qapısını. Açdı gəlişinin mətləbini. Çaylar süzüldü, söz-söhbət uzandı. Çox söz-söhbətdən sonra razılıq əlaməti olaraq ortalığa iki rəngli çay gəldi, içdilər Mehralıyla Bahar xanımın şirin-şəkər şərbətini.

Gələn bahara toy tədarükünün görülməsi oldu məsləhət. Bu o vaxt idi ki, uruslar bildilər ki, Qaçaq Mehralı Əhməd ağanın qonağıdı. Qomardılar Əhməd ağanın evini. Mehralı gördü ki, işi çox çətinə düşdü, dedi, mənim atımı tövlədə yəhərləyin. Əhməd ağa fürsəti-fövtə vermədi keçdi evin arxasına. Tövlədə Mehralının atını yəhərləyib, yüyənlədi. Aynalı tüfəngini də keçirdi yəhərin qaşında bağlanan qancırğaya. Yol tədarükü üçün üç günlük azuqəni də qoydu heybəsinə. Çəkdi atını evin arxa tərəfindən cövlana. Qaçaq Mehralı bayaqdı qırğı kimi qondu Qarakötüyün yəhərinin qaşına, yatdı yalmanına, bir nərə çəkib aldı görək nə dedi:

Yağı düşman, nə düşübsən izimə,
Bu qovğadan dönsəm mənə ar olsun!
Düşmənimdən qisasımı almasam,
Qoy, bu geniş dünya mənə dar olsun!

Düşmənin qanından içsəm doymaram,
Qisasımı qiyamətə qoymaram.
On beş saldatdan beşini saymaram,
Təki, yaradanım mənə yar olsun!

Mehralıyam, hər savaşa dözərəm,
Qartal təki zirvələrdə süzərəm,
Tanrım yar olarsa, səflər pozaram,
Qoy, arxamda Xaliq mənə var olsun!

Mehralı sözünü qurtarıb atın qarnı altından çıxıb sırtı ustə qalxan kimi bir neçə saldatı öldürüb aradan çıxdı. Ya mədəd səndən deyib, üz qoydu qaçaqların, qoçaqların darda sığındığı dağların damanına. Çox keçmədi, yerli hakimiyyətin, ağa-bəylərinin, qazaqların əzab-əziyyətindən zinhara gəlmiş Dələverlı Mansur, Dovşanqulu oğlu Hüseyn, Kələ oğlu Hüseyn başının adamları ilə qoşuldular Mehralının dəstəsinə. Uzun müddət birlikdə gəzib dolandılar dağları. Mehralı bir gün üzünü tutdu qaçaq yoldaşlarına, dedi:

– Mənim əziz dostlarım! Bilin və agah olun. Qaçaqlıq asan deyil. Qaçaq olan həm özünü, həm silahdaşlarını, həm də müqəddəs ana torpağı yağılardan, yadlardan didəsi kimi qorumalıdır. Atalar yaxşı deyib: “Qaçaqdan nə naçaq, nə də qorxaq olmaz”. Odur ki, bir anlığa baxın gözlərinizin içinə. Göz qənimini daha yaxşı tanıyır…

Mehralı qaçaqlar haqqında bu söhbəti gəlişi xoş sözlər üçün deməmişdi. Mehralı hər bir insanın üzünə bir dəfə baxanda ürəyini, dölək-diləyini gözündən doğru-dürüst oxuyurdu. O, Dovşanqulu oğlu Hüseynin, Dələverli Mansurun namərd adamlar olduqlarını da üz-gözlərindən dürüst oxumuşdu. Mehralı yalnız yerliliyi Darvaz sunurunun kəndlərindən olan Kələnin oğlu Hüseynə inanırdı. O idi ki, Mehralı Kələ oğlu Hüseyni etmişdi özünə qulaq-həyan. Kələnin oğlu da öz növbəsində duymuşdu Mehralının fikrini. O bilirdi ki, Mehralı bu günlərdə Alosmana getməyə hazırlaşır. O idi ki, Kələnin oğlu söhbətin şirin yerində Mehralıya dedi:

– Qardaş, deyəsən uzaq səfərə hazırlaşırsan. Səfərin mübarək. Rüxsət versən uğur qabağı gedib ailəmlə görüşərdim. Ata-anamdan halallıq alardım. Uğurdu, sonra düşər-düşməzi olar.

Kələ oğlunun sözləri qara tikan olub yapışdı Mehralı bəyin ürəyinin başına. Gətirdi ana-bacılarını, qardaşlarını, sevgilisi Baharı gözləri önünə. O idi ki, verdi Kələnin oğluna rüxsət.

Hə, qardaşlar! Söz var deyərlər:

– Sən saydığını say, gör fələk nə sayır?! Çuğullar yatmamışdı. Kələnin oğlu evə yenicə çatmışdı ki, onun gəlişini çatdırdılar qazaqlara. Bayaqdı qazaqlar aldılar Kələnin oğlu Hüseynin evini mühasirəyə. İşin pis nəticə verəcəyini duyan Kələnin oğlu özünü verdi evin arxasındakı ot tayasına. Düzəltdi özü üçün bir sığınacaq yeri. Qazaqlar başladılar evi atəşə tutmağa. Vurdular ot tayasına od. İşin pisləşdiyini görən Kələnin oğlu ot tayasından çıxaraq bir neçə qazaqı sərdi yerə. Özü də oldu qazaqların gülləsinə tuş.

Ən sadiq dostu Kələ oğlu Hüseynin mərdliklə ölüm xəbəri sarsıtdı Mehralını. Vəfalı dostu hər vaxt tapmaq olmur, Hüseyn, umudum tək sənə gəlirdi, sən də belə oldun – deyə çox kədərləndi, ağladı. Bu münasibətlə götürdü görək nə dedi, ərz eyləyək qulluğunuza:

Zalım əcəl səni tez yaxaladı,
Alıb kəməndinə saldı, Hüseyn!
O müxənnət sitamkarın gülləsi,
Əzrayıl cənginə saldı, Hüseyn!

Deyirdim, dağları qoşa gəzərdik,
El yolunda hər cəfaya dözərdik,
Zalım qazaqların başın əzərdik,
Xəzan vurdu, gülün soldu, Hüseyn!

Yəqin haqq yolunda etmişəm günah,
Sən ol mənə dayaq, ey yaradan şah.
Ümidim sən idin, pənahım Allah,
Mehralı da sənsiz qaldı, Hüseyn!

Bəli, əzizlərim! Artıq gavurlara qarşı, Qafqazın hər yerində, Şəmşəddində, Qazaxda, Loruda, Qaraçöpdə, Qarayazıda, Başkeçiddə, Ağbabada Dəli ağanın, Kor İsmayılın, Mehralının, İskəndərin, Dəli Yusufun qaçaq dəstələri təki hökumətə qarşı çıxan dəstələr çar üsuli-idarəsindən təngə gələn kasıb-küsubların hesa-

bına günü-gündən artırdı. Mehralının şan-sədası artıq təkcə Borçalını deyil, Qars, Ərdahan, Çıldır, Şörəyel, Ağbaba, Axısxa, Axalkələk, Qazax, Gəncəbasar, Açıqbaş, Pənbək mahallarını də bürümüşdü. Tiflisdə, İstanbulda, Moskovada, Peterburqda, Ərzurumda çıxan qəzetlər hər gün Qaçaq Mehralının ən qorxulu düşmən olduğunu yazıb-yayırdılar.

Hökümət əsgərləri qaçaqların öhdəsindən gələ bilmirdilər. Odur ki, uruslar hiyləyə əl atdılar, Onlara qarşı günah-suçları nisbətən az olan qaçaqları əfv etdilər. Mehralını tutub onlara əsir verənləri çoxlu ənam, rütbəylə mükafatlandıracaqlarına söz verdilər.

Məsələni eşidən Mansurla Dovşanqulu oğlu xəlvəti danışığa girib, oldular hökümətə təslim və urusa dedilər ki, Mehralını tutmaq bizim boynumuza. Mehralı gördü ki, yoldaşları namərd çıxdı. Ona görə də Borçalıda durmayıb keçdi Alosmana, Çıldır mahalındakı qarapapaq dostlarının yanında özünə sığınacaq tapdı. Bunu bilən və Mehralının hünərindən lərzəyə gələn urus höküməti Osmanlı padşahı Sultan Əbdüləzizə bir məktub yazıb xahiş etdi ki, Mehralını təcili versinlər uruslara. Əbdüləziz Paşa sədrəzəmə, o da öz növbəsində Ərzurum valisinə göstəriş verdi ki, Paşanın əmri yerinə yetirilsin, Mehralı bəyi təcili tutub Urusetə versinlər.

Bunu eşidən Mehralı təzədən keçdi urusların əlindəki torpaqlara. O fürsəti-fövtə verməyib özünü verdi ailəsi ilə görüşmək üçün Darvaza.

Mehralının Uruset sunurlarına keçməsini duyan Dalaverli Mansur, Dovşanqulu oğlu Hüseyn, Musa Çavuş, Qərib ağa başladılar hər yerdə Mehralını qarabaqara izləməyə.

Günlərin bir günü, elə oldu ki, Musa Çavuş Mehralıyla üzüzə gəldi. Ancaq Mehralı istədi ki, döyüşdən yayınsın, dəfələrlə Musa Çavuşa bildirdi ki, etmə-eləmə. İstəmirəm əlim qanına bulaşsın. Bilirəm bu gavur uruslar sənə pul veriblər, gəl tamahına təp de. Məndən sənə xeyir gəlməz. Kimə deyirsən, Çavuş Musa ay qandı ha. İşin bəd gətirdiyini görən Mehralı dedi, gəl

buna bir neçə kəlmə söz de, əgər yenə qanmasa onda Allah ya ona verər, ya da mənə. Aldı Mehralı görək nə dedi:

Musa Çavuş, gəl əl götür davadan,
Kəsilər biləyin, əldən olarsan!
Alıb caynağıma tutaram səni,
Cənnət tək mahaldan-eldən olarsan!

Qartalın zirvədə olar yuvası,
Tülkünün aslanla olmaz davası.
Gəl mənimlə savaşmaynan, qadası,
Vuraram qılıncı, beldən olarsan!

Mehralıyam, indi girrəm meydana,
Koroğlu tək qılınc vurram hər yana.
Bir nərə çəkərəm Rustamzalyana,
Tutular qulağın dildən olarsan.

Söz tamama yetişər-yetişməz Musa Çavuş əl çəkməyib yenə həmlə edəndə Mehralı atının başını geri çəkib döndü və dönən kimi də ilk həmlədə Musa Çavuşu qılıncıyla yaraladı. Amma yenə rəhmi gəldi, təkrar zərbə vurub öldürmək istəmədi, atını çapıb sürətlə uzaqlaşdı. Musa Çavuş yaralanıb atdan yerə düşəndə onun dəstəsində olan əsgərlərdən yarısı atlarından enib başçılarının hayına qaldılar. Yarısı da Mehralının dalınca düşüb onu tutmaq istədi. Mehralı gördü ki, qabaqda bir yarğan var, ata bir acı təzyana vurdu. At elə sıçradı ki, yarğanın o tayına düşdü. Onu izləyən qoşunun isə çoxu yelini saxlaya bilməyib yarğandan uçub öldü. Sağ qalan atlılara Mehralı uçurumun o tayından dedi: «Mənim siznən heç bir işim yoxdu, siz də məni daha izləməkdən əl çəkin. Günah Musa Çavuşun özündə oldu, mən onu vurmaq istəmirdim, Allahdan diləyim odur ki, ona bir şey olmasın» və atını çapıb gözdən itdi. Kor-peşiman geri qayıdan bu atlı əsgərlər Musa Çavuşu yaralı vəziyyətdə öz kəndinə apardılar. Yolda çox qan itirdiyinə görə atasının və qardaşlarının yanında canını tapşırdı.

Bu işdən sonra Mehralını daha çox izlədilər, hökumət hər yanda onu gəzirdi. Günlərin birində, urusun puluna suslayıb namərdlik edən ata dostu Qərib ağanın dəstəsi ilə Mehralı üzləşdilər. Düzənlik olduğundan Mehralı gözdən yayına bilmədi. Yenə döyüşə girməyib davasız-şavasız aralaşmaq istədi. Ancaq Qərib ağa ondan əl çəkmədi. Elə oldu ki, Qərib ağaynan Mehralının atı yan-yana qaçdı. İşi belə görən Mehralı öz-özündə fikirləşdi ki, gəl buna da bir neçə kəlmə söz de, əgər baxmasa sonrasına baxaram. Üz tutdu Qərib ağaya:

Qərib ağa! Eşit mənim sözümü,
Gəl əl götür, bu davadan, geri dön.
Sənin ilə çox duz-çörək kəsmişik,
Gəl əl götür, bu davadan, geri dön.

Əzəlindən belə deyib babalar:
Çörək basan el gözündə xar olar,
Sənə yaraşmaz belə səs-sədalar,
Gəl əl götür, bu davadan, geri dön.

Gəl düşməynən Mehralının izinə,
Dözəmməzsən alovuna, közünə,
Bir qılınc vuraram sənin dizinə,
Gəl əl götür, bu davadan, geri dön.

Söz cavabını tamam eylədi. Qərib ağa elə hey dediyini dedi:

– Ya sən, ya da mən! Başqa cür ola bilməz.

Mehralı bəy dedi:

– Qərib ağa! Sən pulun əl çirki olduğunu yaxşı bilirsən. Urusların fitvasına getmə. Nə qədər istəsən pul verim sənə. Babamla duz-əppək kəsibsən. Aramızdakı haqq-salama and olsun, mən qan tökmək istəmirəm. Bu kişi sözümdür. Qərib ağaya heç nə kar etmədi, yenə dedi:

– Yox, Mehralı! Dağ, Bağ, Aran Borçalıda, qarapapaq ellərində iki qoçun başı bir qazanda qaynamaz. Ya sən, ya da mən.

Mehralı çox dedi, Qərib ağa az eşitdi. Qərib ağa nə qədər hücum çəkdisə, Mehralı əl qaldırmaq istəməyib hamısından sovuşdu. Mehralı axırda gördü ki, daha mümkün deyil, bunun gözünü qan örtüb, dedi:

– Qərib ağa, qoy birdi-bir olan Tanrı-Təala aramızda şahid olsun ki, mən əlimi sənin qanına bulamaq istəmirdim, o ki sən başa düşmədin, onda özündən küs. Səni gərək elə edəm ki, nə öləsən, nə də ki, sağ qalasan, bütün yaşadığına peşman olasan.

Sonra da – Ya rəbbim! Özün ol şahid – deyib, bayaqdı qılıncını hərlədi, Qərib ağanın sağ qıçını dizdən üzdü. Qərib ağanı qan götürdü. Gətirdilər evinə. Qərib ağa ayılanda dedi:

– Bu işdə Mehralının heç bir günahı yoxdu. Günah məndədir. Nəhlət gəlsin şeytana. O məni yoldan çıxartdı.

Bəli, Mehralı elə ki, Qərib ağanı etdi qanına qəltan, üz qoydu evlərinə. Ana, bacı-qardaşları ilə görüşdü. Anasına nişanlısı Baharı qaçırtmaq fikrində olduğunu dedi. Anası da cavabında dedi:

– Oğlum, bu işdən əl çək. Sənin başın hələ qalmaqaldadı. Qaçaqsan. Bahar orada durur, işin düzələndə sizə elə bir toy edərik ki, sədası Alosmandan, Ərəseydən gələr.

Anası, eləcə də kənd ağsaqqal-ağbirçəkləri çox dedi, Mehralı sözə baxmadı. Getdi nişanlısı Baharın yanına. Hər iki sevgili bir-birini görüb çox sevindi, Allah da hamınınzı sevindirsin. Bir qədər söhbətdən sonra Mehralının sinəsi dəmirçi kürəsi kimi od alıb, qəlbi coşa gəlib götürüb görək Bahara nə deyir və Bahar cavabında nə söyləyir, hər ikisinin tərəfindən ərz eyləyək, siz sağ olun.

**Aldı Mehralı:**

Sevgilim, gəl bu dağları,
Birgə gəzək qoşa sənlə.
Qartal kimi zirvələrə,
Çıxaq dağa-daşa sənlə.

Bahar xanım ipəyi saçından üç tel ayırdı. Basdı sineyi sandığa:

Sevgilim, məndən incimə,
Gedə bilməm hələ sənlə.
İşin hələ qalmaqaldı,
Çıxa bilməm yola sənlə.

**Aldı Mehralı:**

Gəl verək birgə əl-ələ,
Necə ki, biz sağıq hələ.
Düşmənə qurarıq tələ,
Ta dolunca yaşa sənlə.

**Aldı Bahar xanım:**

Demə, bu yoldan bezərəm,
Leyli tək səhra gəzərəm.
Hər cəfana mən dözərəm,
Düşsəm çöldən-çölə sənlə.

**Aldı Mehralı:**

Mehralının vəfadarı,
Unutmam əhd-ilqarı.
Bir dolanaq bu dağları,
Vuraq ömrü başa sənlə.

**Aldı Bahar xanım:**

Bahar dərdə dözmək istər,
Zirvələrdə gəzmək istər,
Sona kimi üzmək istər,
Əgər düşsə gölə sənlə.

Bəli, hər ikisinin sözü qurtardı. Bahar da anasının dediklərini dedi. Amma Mehralı, ağanı Allah saxlasın deyib Bahar xanımı bayaqdı Qarakötüyün aldı tərkinə, üz qoydu Alosmana. Bunu

eşidən düşmənlər sevindi ki, indi Mehralını tutmaq asan olacaq. Başladılar axtarışa. Bir gün elə oldu ki, Dovşanqulu oğlu Hüseyn bildi ki, Mehralı Qaraxaç yaylağındadı. Yoldaşları ilə gəlib yol qırağında iri daşların arxasında gizləndi. Bir də gördü ki, budu, Mehralıyla Bahar gəlirlər. Xəlvətcə çıxıb qılıncını Mehralıya endirdi. Bunu görən Bahar əlini qılıncın qabağına tutdu. Qılınc Baharın üç barmağını üzdü. Mehralı tez geri dönüb Hüseyni vurmaq istədi. Ancaq at yan qaçdı. Qılınc Hüseynin atının quyruğunu dibindən üzdü. Mehralı Dovşanqulu oğlunun yoldaşlarının bir neçəsini öldürdü. Özünün isə arxasınca düşsə də öldürə bilmədi. Bahar maneçilik etdi. Mehralının əl-ayağına dolaşdı.

Bu döyüşdə Mehralı yaralanmışdı. Buna görə də Baharı aparıb Çıldırdakı bir dostunun evinə qoydu və yarasını sarıyıb saxladı. Özü də ağır yaralı olduğundan bir yana tərpənə bilmədi. Atalar deyib: "Çuyğul nə ölüb, nə də öləcək". Gedib xəbər verdilər hökumətə. Mehralını yaralı olub əl-ayağını tərpədə bilmədiyi üçün aparıb saldılar Qars türməsinə. Mehralı o yerdə özünə gəldi ki, əl-qolu bağlı zindandadı. Burada istədilər ki, onun yarasını sağaldalar. Ancaq Mehralı qoymadı. Qorxdu ki, daha da zəhərli dərman qoyarlar, öldürərlər. Ona görə də özü ara parpısı eyləyib sarıdı.

Qalada məhbusların içində Əhməd adında bir aşıq var idi. Onun arvadı tez-tez onlara əppək gətirirdi. Mehralı bu qadından xahiş etdi ki, ona bir yeyə gətirsin. Qadın yeyəni çörəyin içində keçirdi. Mehralı başladı yeyə ilə qapını bir tərəfindən kəsməyə. Başqa bir yerdən də yeri eşib özünə pünhanı bir deşik açdı. Qapını kəsəndən sonra məhbusları öyrətdi ki, keşikçiyə hücum edib qaçsınlar. Məhbuslar Mehralının dediyi kimi edəndə, Mehralı da eşdiyi deşikdən qaçıb qaladan beş-on addımlıqda olan ot tayalarında gizləndi. Bildilər ki, Mehralı qaçıb, başladılar uzaqlarda onu gəzməyə. Ta nə biləydilər ki, dörd bir yanda arayıb-axtardıqları qalanın böyründəki ot tayasındadı. Sizə xəbəri verim Mehralıdan. Mehralı üç gün iki gecə həmin ot tayasında qaldı.

Sonra da fikirləşdi ki, artıq yat-küt olar. Gizləndiyi yerdən çıxdı. Ot tayasının yanında ən yaxşı cins atların saxlandığı tövlə var idi. Oradan özünə yaxşı bir at seçib minib tərpəndi. Ancaq gecə olduğu üçün heç özü də bilmirdi haraya gedir. Yarası tam sağalmamışdı. Üstündə yarağı-yasağı da yox idi. Hər an tuta bilərdilər. Özü də bilirdi ki, bu dəfə ələ keçsə, qalada üsyan təşkil edib qaçdığı üçün edam edəcəklər. Bir bulağın yanında atı saxlayıb aşağı endi. Əl-üzünü yudu. Sonra ötən günləri, bütün başına gəlmiş hadisələr gözünün qabağından keçdi. Bahar, ailəsi, qohum-əqrəbası, yurdu Borçalı, kəndi Darvaz yadına düşdü. Kövrəldi, ürəyi qübarlandı. Öz-özünə dedi, deyirlər insan dara düşəndə ərənlər pirini çağırır, o da dada yetir, gəl sən də çağır, bəlkə sənə də bir yol açıla. Üzünü göyə, Allaha tutub alır görək nə deyir:

Çağırdım adını, ya Şahi-Mərdan,
Dar günü dadıma yetiş sən mənim.
Sənsən, xəlq eyliyən aləm-cahanı,
Bu darda dadıma yetiş sən mənim.

Hayana gedirəm, əl çəkmir qada,
Cavankən ömrümü vermişəm bada.
Yetiş imdadıma, ya Şiri-Xuda,
Bu darda dadıma yetiş sən mənim.

Çağırram dadıma qadir-sübhanı,
O Xıdır Əlləzi Sahib-Zamanı,
Dağıldı atamın ol xanimanı,
Bu darda dadıma yetiş sən mənim.

Mehralının bəxti niyə yatıbdı,
Mən görürəm tale məni atıbdı,
Yoxsa cavan ömrüm başa çatıbdı,
Bu darda dadıma yetiş sən mənim.

Mehralı sözünü qurtarıb yoluna davam etdi. Dar cığırla bir az getmişdi ki, qarşısına geniş bir yol çıxdı. Bu yolu əlinə alıb bir az getmişdi ki, gəlib bir kəndə çıxdı. Həmin kənddə ilk qarşısına çıxan bir qapını döydü. Fələyin işinə bax ki, Mehralının gəlib çıxdığı bu kənd Maraslı kəndi, qapısını döydüyü ev də yaralayıb öldürdüyü Musa Çavuşun atasının evi idi. Baxdı ki, bir qoca nurani kişi çıxdı qapını açmağa. Mehralı bu kişidən xahiş elədi ki, onu Allahın qonağı eyləsin bir günlüyünə. Kişi də bunu çox mehriban qəbul eylədi, dəvət etdi evinə, tez buna süfrə açdı. Mehralı üç gün idi heç nə yeməmişdi. Doyunca yeyib aclığını öldürdü. Sonra adı Mustafa olan bu kişi Mehralını sorğu-suala tutdu. Gördü ki, bu oğlu Musanı öldürən Qaçaq Mehralıdır. Amma hələ ki, heç nə bildirmədi. Gətirib su qızdırdı, Mehralını yaxalayıb yaralarına məlhəm sarıdı. Sonra da yatağını salıb qonağını rahatladı. Mustafa kişinin Musa Çavuşdan başqa altı oğlu var idi. Mehralı yatandan sonra o, oğullarının hamısını başına yığıb qonağının kim olduğunu söylədi və tapşırdı ki, ona xəyanət etməsinlər. Çünki Musa Çavuşu yaralı halda evlərinə gətirənlər günahın Mehralıda yox, onun özündə olduğunu atasına və qardaşlarına söyləmişdilər.

Sübh açıldı, üstünüzə xeyirli sabahlar açılsın, Mehralı oyandı ki, yarası dincəlib. Çox keçmədən Mustafa kişi altı oğluyla birlikdə Mehralının yanına gəldi və özünü tanıtdı. Mehralı karıxdı, pərişan oldu. İşi belə görən Mustafa kişi aldı əvəzində görək ona nə dedi:

Tanrı saxlayana xətər toxunmaz,
Yaşayar hər zaman ölməz, ay oğlum!
Haqqın qəhərindən yayınmaq olmaz,
Bunları hər nadan bilməz, ay oğlum!

İnam bağla ərənlərin pirinə,
Qorxu gəlməz mərd igidin sərinə,
Səni qoyduq Musa Çavuş yerinə,
Bizdən sənə xəta gəlməz, ay oğlum!

Mustafayam, artıq ötübdü yaşım,
Qəzanın işidi, ağarıb başım,
Oğlanlarım olsun sənin qardaşın,
Mərdlərə heç zaval olmaz, ay oğlum!

Mustafa kişi sözünü qurtarıb dili ilə də dedi ki, oğlum, heç qəlbinə qaraltı gəlməsin, biz bilirik ki, günah mənim oğlumda olub, ona görə də biz səni Musa Çavuşun yerinə qoyduq, bundan sonra sən də mənim oğlum sayılırsan, bu oğlanlarım da sənin qardaşların sayılacaq. Mehralının minib gəldiyi at damğalı idi, Mehralını tez ələ verə bilərdi. Ona görə də Mustafa kişi oğullarına tapşırdı ki, aparıb bu atı azdırsınlar. Düz bir ay Mehralıya baxdılar. Sonra Mehralı daha burada qala bilmədi, vətən şirindi, vətəni yadına düşdü. Getmək üçün Mustafa kişidən izn istədi. Mustafa kişi dedi:

– Oğlum, mən səni başa düşürəm, bilirəm ki, darıxırsan. Amma sənə məsləhətim var. Eşitmişəm ki, uruslar sənin haqqında fərman verib ki, könüllü təslim olsan sənə çoxlu ənam verəcəklər, özünü də edəcəklər knyaz. Belə şeylərə oğlum Musa Çavuş kimi suslama. İnsanın şərəfi hər şeydən üstündür. Bu günə kimi qeyrətli ömür yaşayıbsan, bundan sonra da belə davam et. Heç kəsə boyun əymə. Yalnız ehtiyatlı ol. Ehtiyat igidin yaraşığıdı.

Sonra da Mehralıya yaxşı bir at, bir də Musa Çavuşun qılıncını verdi, xeyir-duasını əsirgəməyib Borçalıya yola saldı. Altı qardaş da Mehralıyı tək qoymadı. Ona qoşulub Arpa çayı keçdilər, vardılar Ağbabaya, ordan da dağlarla-dərələrlə yol gedib gecənin birində özlərini yetirdilər Darvaza. Kənd əhli onları toy-bayramla qarşıladı. Hamı qonaqlıq vermək üçün sıraya düzüldü. Mehralı bəyin gəlişinə ən çox sevinənlərdən biri o tutulduqdan sonra Darvaza, evlərinə gəlib çıxmış sədaqətli atı Qarakötük oldu.

Bu o vaxt idi ki, Uruset-Osmanlı davası təzə başlamışdı. Uruslar qaçaqları öz tərəflərinə çəkmək üçün dəridən-qabıqdan çıxırdılar. Bu məqsədlə Mehralıya da çoxlu məktublar göndərmişdilər. Amma Mehralı onların təkliflərini qəbul etmirdi, öz

din, dil qardaşlarına qılınc vurmaq, güllə atmaq istəmirdi. Ona görə də Osmanlı ordusunun başçısı marşal Muxtar Paşaya bir namə yazıb xəlvəti bir adamla göndərdi. Mehralı bu məktubda görək nə yazdı, biz deyək, eşidənlər şad olsun:

Muxtar Paşa, bir ərzim var sizlərə,
Qəbul qılsan bir arkadaş bilərəm.
İstəmirəm gavurlara qarışam,
İzin versən, sizin elə gələrəm.

Ta ölüncə vicdanımı satmaram,
Müxənnətin kölgəsində yatmaram.
Gavurlarla sizə güllə atmaram,
Verərəm özümü selə gələrəm.

Fələk qatıb Mehralının sərini,
Pünhan saxla, bilməsinlər sirrini.
Çağırmışam, ərənlərin pirini,
Ölsəm də, müsəlman-türk tək ölərəm.

Muxtar Paşa məktubu oxudu və əvəzində cavab yazdı ki, Osmanlı ordusunun sənin kimi igidlərə çox ehtiyacı var, ancaq əvvəlcə sənə Osmanlı Sultanının bir fərmanını göndərəcəm, onu Qafqazın quzeyində yaşayan müsəlman dağlılara çatdırmalısan. Əgər bu tapşırığı yerinə yetirsən, onda biləcəm ki, bizlərdənsən və o zaman gözümüz üstündə yerin var. Mehralı Muxtar Paşanın tapşırığını yerinə yetirmək üçün gəldi Qaraçöp mahalının Yor-Muğanlı kəndinə. Bir neçə gün orada atasının dostu olan mahalın hörmətli və mərd ağalarından Alı Ağakişi oğlunun evində qonaq qaldı. Sonra da onun köməkliyi ilə Dağıstan və Çeçenistan dağlarına qalxıb Osmanlı hökmdarının məktubunu çatdırdı oradakı naiblərə.

Bundan sonra Mehralı kəndinə dönüb Alosmana keçmək üçün başladı hazırlığa. Darvaz dərəsində qərar tutan 12 para kəndin ruhanisi Hacı Molla Məhəmməd, kənd ağalarından Rəfi

ağa, Bayram ağa, İdris ağa və Cəfər ağa, Darvaz kəndinin kəndxudası Eyyub oğlu Alı Mehralıya uruslar işgəncə verməsinlər deyə ən yaxın qohum-əqrəbasını özü ilə aparmağı məsləhət gördülər. Mehralı da bu ağsaqqalların dediyi ilə razılaşdı. Yır-yığışdan sonra Mehralının qəfləsi Darvazda Hərşənin ocağını və Boyalı pirini ziyarət etdi, nəzir-niyaz verdi və hava qaralan kimi kənddən Şindilər dağına tərəf yol aldı. Bir az gedib Quyubulaqda dayandılar. Mehralı – bəlkə sonuncu dəfədi – deyib Quyubulağın suyundan doyunca içdi və ovuc-ovuc üz-gözünə vurdu, buradakı ağacları, daşları öpdü. Mehralının Bahardan bir oğlu olmuşdu, adını Rüşdü qoymuşdu. Hələ çağa idi. Mehralı düşündü ki, uşaq yolda ağlayıb onlara çox maneçilik edə bilər, uşağın səsini duyub onlara zərər yetirə bilərlər. Ona görə də Bahara dedi ki, Rüşdünü aparmaq olmaz, bəlkə uşağın bələyinə çoxlu qızıl, pul-para qoyub saxlayaq bu qoca vələsin dibində, tapan olsa, pula görə uşağa dəyməsin. Sizi addadım Arpa çayının o tayına, sonra qayıdıb inşallah Rüşdünü apararam. Bunu eşidən Bahar ahu-nalə çəkib görək Mehralıya nə dedi:

Ay Mehralı, and verirəm Allaha,
Yalvarıram, gəl ayırma balamı.
Aləmi xəlq edən o gözəl şaha
Yalvarıram, gəl ayırma balamı.

Aləmin təbibi, ədalət şahı,
Külli aləmdə islamın pənahı,
Təmənnam budur ki, çəkdirmə ahı,
Yalvarıram, gəl ayırma balamı.

Əzizdir Vətənin torpağı-daşı,
Yunisi dəryadan qurtaran kişi,
Balam çox uşaqdı, körpədi yaşı,
Yalvarıram, gəl ayırma balamı.

Baharın bulud tək gözü dolubdu,
Ah-naləsi göyə bülənd olubdu,
Bu bəlalar bizə haqdan gəlibdi,
Yalvarıram, gəl ayırma balamı.

Mehralı dedi, indi bir çağadan ötəri bu qədər xalqı badamı verək? Bahar, eləcə də Mehralının qardaşı İsa, bacısı Hürü nə qədər yalvardılarsa Mehralı həmişə olduğu kimi dediyindən dönmədi. Uşağı sonra gəlib götürmək ümidi ilə vələs ağacının dibinə qoyub yaxınlarıyla Alosmana doğru yola düşdü. Qəfilə bir qədər gedib Şindilər dağının ətəyindəki Sınıq körpüyə çatanda Bahar çağanın ayrılığına dözməyib hönkür-hönkür ağlamağa başladı. Bunu görən baldızı Hürü gizlicə döndərdi atının başını geriyə və qoyduqları yerdən götürdü qundağı, uşağın dil-dodağına bal çəkdi. Uşaq hıçqırıb mışıl-mışıl yatdı. Sonra da Hürü qundaqla bərabər Mehralının gözünə görünmüyüb qarabaqara başladı köçü izləməyə. Qəfilə Osmanlı torpağını keçdi. Bir az dincəlmək üçün dayandılar. Elə bu vaxt Hürü uşağı gətirib Mehralının qucağına qoydu. Mehralı bacısını bağrına basdı. Onun üz-gözündən öpüb dedi, elə bil dünyanı mənə verdin. İndi gör ana necə olar da. Bahar Hürünün ayaqlarına döşəndi. Uşağını bağrına basdı, sevinci həddən aşdı. Bir az dincələndən sonra təzdən yola düşdülər.

Beləliklə, Mehralının köç qəfiləsi gəlib çatdı Çıldır mahalına, ustadlar-ustadı Aşıq Şenliyin kəndi Suxaraya. Bunları görən Aşıq Şenlik tez qarşılarına çıxdı, evinə dəvət eylədi. Ustad deyir:

– Suxarada Aşıq Şenlik qarapapaq qəhrəmanı Qaçaq Mehralının şərəfinə elə bir ziyafət düzəltdi ki, hələ indiyə qədər Alosmanda belə ziyafəti rüzgarın gözü görməmişdi.

Aşıq Şenlik bildi ki, Mehralı Osmanlıya kömək üçün gəlib, odur ki, – əfəndim, sinəmə bir neçə xanə söz gəlib, izn verin sizə ərz eyləyim – deyib basdı sineyi-sandığa imrandilli bülqurlu sazını. Aldı görək «Mehralı bəy atlıları» türküsündə nə dedi, biz deyək, siz şad olun:

Əhli-islam olan eşitsin, bilsin,
Can sağ ikən yurd vermənih düşmana.
İstər ki, Uruset nə var ki, gəlsin,
Can sağ ikən yurd vermənih düşmana.

Qurşanın qılıncı, geyinin donu,
Qovğa buludları sardı hər yanı.
Doğdu qoç iyidin şan almaq günü,
Can sağ ikən yurd vermənih düşmana.

Əsgər olan bölük-bölük bölünər,
Qars qalası sandınızmı alınar?
Boz atlar üstündə qılınc çalınar,
Can sağ ikən yurd vermənih düşmana.

Qovğa günü namərd sapa yer arar,
Ər olan köhsünü düşmana gərər.
Cəmi ərvah biznən meydana girər,
Can sağ ikən yurd vermənih düşmana.

Hələ Alosmanın görmüyüf zorun,
Din qeyrəti olan tədarük görün,
At təpin, baş kəsin, qazağı qırın,
Can sağ ikən yurd vermənih düşmana.

Men-Əsfərdi bilin urusun əsli,
Orman yabanısı, balıxçı nəsli,
Xınzır sürüsünə dalıf qurd misli
Can sağ ikən yurd vermənih düşmana.

Şennih, nə durursan, atları minin,
Sıyra qılınc düşman üstünə dönün,
Artajaxdı şanı bu Alosmanın,
Can sağ ikən yurd vermənih düşmana.

Şenlik bundan sonra zilə çəkib belə bir sicilləmə-bayatı da dedi:

Aşıq der, amanım var,
Canım var, imanım var.
Əhdim var, peymanım var,
Nəzrim var, qurvanım var,
Bu ah urusa qalmaz,
Qurtulmax gümanım var,
Şannı Alosmanım var!

Ustad deyir ki, söz tamam olar-olmaz, Mehralı həmin şeri yazıb götürdü ki, əsgərlərimə marş kimi əzbərlədib oxudacam, qoy ruh gətirsin. Elə də elədi. Mehralı Ağbaba, Çıldır, Şörəyel mahallarından öz ətrafına üç yüz qarapapaq igidi topladı. Onlara Borçalıdan da bir o qədər atlı gəlib qoşuldu. Sonra da əli qılınc, silah tutan Suxarada yatdılar səmənd atlarının yalmanına, günə bir mənzil-teyimənzil qırdılar yolun damarını. Dərələrdən sel kimi, təpələrdən yel kimi qaş qaralanda çatdılar Muxtar Paşanın barigahında çəkdilər səmənd atlarının başını.

Mehralının altı yüz atlıyla gəlişini Muxtar Paşaya xəbər verdilər. Ustad deyir ki, Muxtar Paşa çox hörmət-izzətlə qarşıladı Mehralı bəyi. Soruşdu:

– Əfəndim! Nasıl oldu ki, Qafqaz kimi cənnət məkan bir gülüstanı qoyub da Alosmana gəldin? Mehralı arif adam idi, oxudu Paşanın ürəyini.

– Paşam! Rüxsət versən sinəmə bir neçə xanə söz gəlib, ərz eyləyərdim mübarək qulluğunuza.

Muxtar Paşa dedi:

– İzindəsiniz, Əfəndim!

Götürdü görək Mehralı halına münasib Muxtar Paşaya nə dedi, ərz eyləyək qulluğunuza:

Canımız bir, qanımız bir bilib mən,
Ol səbəbdən sizə gəldim, əfəndim!

Rusu, ermənini qəbul qılmadım,
Sizi bizə arxa bildim, əfəndim.

Gavurlar çox susadılar qanıma,
İnan, qan qusdurdum mən düşmanıma,
Türkə güllə atmağı vicdanıma,
Namus-qeyrətə ar bildim, əfəndim!

Din yolunda əsirgəməm canımı,
Töksə də, qoy türklər töksün qanımı.
Qan qardaşım oxusun quranımı,
Qoy desinlər şəhid oldum, əfəndim!

Çox şükür, xudanın haqqı-sayına,
Ol kərəmin qismətinə, payına,
Aşıq Şenlik qonaq etdi öyünə,
Lütf eyləyib, ülfət qıldı, əfəndim!

Haqqın dərgahına şükür etmişəm,
Allahımın ətəyindən tutmuşam.
Mehralıyam, öz arzuma çatmışam,
Qismətimə qane oldum, əfəndim!

Söz tamama yetdi. Muxtar Paşa dedi:

– Əfəndim, belə cəsarətlə danışırsan, bu saat Qars mühasirədədi. Anadolu qarapapaqlarının səcdəgahı Qarsı erməni general Loris-Melkon gecə-gündüz qorxu altında saxlayır. Əhli-şəhər təşviş içindədir. Gavurları çaş-baş salmaq üçün ora qəflətən arxadan hücum etmək lazımdır. Gedə bilərsənmi?

Mehralı dedi: "Canla-başla hazıram, əfəndim". Muxtar Paşa dedi: "Haydı, onda sənin igidliyini görək. Səni Qarsa milis başkomandanı qoydum. Qarsı mühasirədən qurtarmağı sənə həvalə edirəm". Mehralı Muxtar Paşanın belə bir dar gündə Qarsın taleyini ona həvalə etməsindən vəcdə gəldi. Qeyrəti coşa gəlib üzünü tutdu silah yoldaşlarına:

Hay vurun hər yandan qoç igidlərim,
Dağıdın düşməni, diri qalmasın.
Qırın gavurları, aman verməyin,
Viran olsun, eli-yurdu qalmasın.

Meydana girəndə şir-aslan olun,
Düşmənin üstünü qurd kimi alın,
Ələ keçənləri atından salın,
Qoymayın, yüzündən dördü qalmasın.

Görməyiblər Mehralının dadını,
Çəkdirəcəm cəhənnəmin odunu,
Gavurlar duysunlar türkün adını,
Şad olsun Osmanlı, dərdi qalmasın.

Söz sona yetdi. Sonra Mehralı bir nərə çəkib yoldaşlarına hücum əmri verdi. Urusları eylədilər darmadağın, pərənlərini pozub qırdılar çoxunu, sağ qalanlar da zorla qurtardı canını. Bundan sonra Muxtar Paşanın Mehralıya inamı birə beş artdı. Ona minbaşı, qardaşı Alıya da yüzbaşı rütbəsi verdi. Ən çətin tapşırıqlara onu göndərdi. Çünki bilirdi ki, hər bir döyüşdən qələbəylə çıxacaq.

Ustad deyir, bir tərəfdən Mehralı öz dəstəsindəki qarapapaqlar ilə, o biri tərəfdən general Musa Paşa Kunduxov və 50 il Dağıstanda-Çeçenistanda uruslara qan uddurmuş Şeyx Şamilin oğlu Qazı Məhəmməd öz dəstələrindəki dağlı igidlərlə, digər tərəfdən də Qurd İsmayıl Paşa və Muxtar Paşa nizamlı qoşunlarıyla Qars ətrafında özlərindən sayları və silahları qat-qat üstün olan yağı düşmənə olmazın divan tutdular. Mehralı onların bütün əməllərini əvvəlcədən öyrənib bildi. Davanın ən qızğın çağında Tiflisin həndəvərinə qədər gəlib urusları saldı vəlvələyə, teleqraflarını kəsdi, ən yaxşı cins döyüş atlarını keçirdi türk tərəfə, nə qədər mühasirəyə düşsə də düşməni qırıb sağ-salamat qayıtdı geri. Mehralı satqınlıq edib uruslara gizli yolları göstərən

Hacı Vəli, Tülü Musa, Lətif bəy kimi müsəlmanları tutub Muxtar Paşaya təslim etdi. Satqınlıq edib uruslar tərəfdə vuruşan Dələverli Mansura da divan tutdu. Urusların komandanı erməni əsilli generallar Loris-Melkon və Kişmişov Mehralının əlindən zara gəlmişdilər, onun qorxusundan gecə-gündüz yatammırdılar. Elə bilirdilər ki, bu dəqiqə yanlarından çıxacaq.

Yerli camaat Mehralının xətrini çox istəyirdi. Ustad deyir ki, əli saz, dili söz tutan aşıqlar elə bil bir-biri ilə Mehralını tərif etmək üçün bəhsə girmişdilər. Qarslı Aşıq Sadıq da Qars qovğasından vəcdə gələrək sazını bəm-zil etdi, götürdü görək Mehralını necə öydü, tərəfindən biz deyək, siz şad olun:

Ey ağalar, bəylər, bizim ellərdə,
Qoçaqlıqdan yana birdi, Mehralı.
Cahallıq eyləyib dağlarda gəzdi
Epey zaman qaçaq durdu Mehralı.

İbtida gözündən düşdü dövlətin,
Sonu gözə girib buldu rəğbətin,
Cahana tanıtdı şanın, şövkətin,
Bir eşsiz namıdar, ərdi Mehralı.

Qan-qovğa qopanda Qarsın başına,
Doxsanüçdə baxdı yurdun işinə,
Dörd-beş yüz atlıyı aldı peşinə,
Moskovun cənginə girdi Mehralı.

Muxtar Paşa qıydı ona nişanı,
Başladı tökməyə xain düşmanı,
Şanı tutdu bütün Qafqazistanı,
Qoçaqlardan düzdü ordu Mehralı.

Orduyi-İslama rəhnümün oldu,
Tanrı Arslanı şad, məmnun oldu,

Düşmən güzərgahı həp pürhun oldu,
Leşlərini yerə sərdi Mehralı.

Komandir, qazağı həp bidar etdi,
Rahat yatammadı, can-bezar etdi,
Loris də əlindən əl-həzar etdi,
Gecə qərargahlar yardı Mehralı.

Moskov ordusuna çox dəhşət saldı,
Hər hərəkətlərin kəşf edib bildi,
Osmanlı əsgəri tədabir aldı,
Düşmana tuzağı qurdu Mehralı.

Adını dünyada rusun saldatı,
Qoparırdı «Mamaa» deyin fəryadı,
Moskova xof saldı mərdanə adı,
Gözlərin qurdunu qırdı Mehralı.

Rusu Şürəgəldə peşman eylədi,
Yollarını kəsib hüspan eylədi,
Taburların yerlə-yeksan eylədi,
Ən dilavərlərin yordu Mehralı.

Məlun Hacı Vəli gör nə iş tutdu,
Beş qəpiyə dinin, namusun satdı,
Qarsın təsliminə çox qayrət etdi,
Onu, sağ, Paşaya verdi Mehralı.

Mehralının davada göstərdiyi qəhrəmanlıqlar Sultan II Əbdülhəmidin də qulağına çatdı. O, cəbhədə ilk dəfə Mehralıya orden verdi, özünü də şəxsən İstanbula görüşə çağırdı. Mehralı iki həftəliyinə Qarsdan İstanbula Sultanın görüşünə yollandı. Sultan sarayı Dolmabaxçada Sultan II Əbdülhəmid Mehralı bəyi çox hörmət-izzətlə qarşıladı. Basdı onu bağrına. Mehralı orta boylu adam idi. Odur ki, Sultan dedi:

– Ey Mehralı! Ey Borçalı-qarapapax qartalı! Mən elə bilirdim sənin boyun etdiyin qəhrəmanlıqlar qədər ucadır. Gözlərimə inanmıram, oğlum, nasıl oldu ki, bu boy-buxunla, bu qədər şan-şərəfi Alosmanda qazandın?

Mehralı arif adam idi. Söz altında qalan deyildi. O idi ki, dedi:

– Sultanım! Sinəmə bir neçə xanə söz gəldi, icazə versəniz deyərdim.

Sultan II Əbdülhamid dedi:

– İzndəsən.

Aldı görək Mehralı halına binəm nə dedi, tərəfindən biz deyək, sizə könül xoşluğu:

Boyum qısadırsa, qolum uzundur,
Qılıncım hər zaman kəsir, əfəndim!
Düşmənin üstünə yeriyən zaman,
İnan, yarpaq kimi əsir, əfəndim!

Hayana üz tutdum, açıldı yolum,
Ərənlər piridir qanadım-qolum,
Qadir mövlam qoymadı ki, mən ölüm,
O, eyləyib məni cəsur, əfəndim!

Mehralıyam, haqq yoluna qalandım,
Türk oğluyam, türk adına dolandım,
Hər zaman düşməni biganə sandım,
Çoxlarını etdim yesir, əfəndim!

Bəli, Sultan II Əbdülhamid Mehralının sözlərindən məmnun qaldı. Onu yenidən basdı bağrına. Bəyin şərəfinə Dolmabaxça sarayında elə bir ziyafət verdi ki, rüzgarın gözü hələ Alosmanda belə şadyanlıq görməmişdi.

Bu görüşdən sonra Mehralı daha da ruhlanıb cəbhəyə qayıtdı, yenidən başladı qırıb tökməyə türkün düşmənini. Tezliklə rütbəsi yüksəlib miralay, general oldu. Ancaq ruslar öz əsgərlərinin və toplarının sayını birə beş artırdılar. Sonra Qarsa dörd

tərəfdən hücum etdilər. Əhməd Muxtar Paşa çox itgi verməmək üçün Ərzuruma doğru geri çəkildi. Uruslara bir ucdan kömək gəlməkdə davam eyləyirdi. Ona görə də onlar əl çəkməyib Ərzurumu da işğal etdilər. Ərzurum döyüşlərində Mehralı çox igidliklər göstərsə də ayağından yaralandı. Ondan sonra o axsadı. Mehralı yaralananda uruslar elə bildilər ki, o ölüb, ona görə də sevinclərinin həddi-hüdudu yox idi.

Ustad deyir ki, müharibə sona çatanda Sultan Mehralıya ismarladı ki, öz qarapapaqlarınla kefin Alosmanın harasında istəsə, orada binələnə bilərsən. Mehralı yurd salmaq üçün aşıqlar məskəni Sivas vilayətini seçdi. Çünki bura havasına, suyuna görə öz doğulduğu, boya-başa çatdığı yerin havasına-suyuna oxşar idi. Həm də müharibə dostu general Musa Paşa Qunduxov da burada yaşayırdı. Fikirləşdi ki, dar gündə bir-birimizə həyan olarıq. Sivas vilayətinin Qanqal qəzasında Mehralıya ucsuz-bucaqsız torpaq sahələri verildi. O burada altmış kəndə ağalıq etməyə başladı. Mehralı bəy burada özündən və özü ilə gəlmiş ən yaxın adamlarından ötəri bir kənd saldı və adını da qoydu Acıyurd. Ona görə ki, əvvəlcə Borçalıdan, sonra da Qarsdan ağrılı-acılı gəlmişdilər. Mehralı Anadolunun ən hörmətli, şöhrətli, nüfuzlu adamlarından biri hesab olunurdu. Hamı ona Mehralı Paşa deyirdi. Sivas əhli Mehralı bəy kimi adı dillərdə dastan olan qoçaq bir adamın onların obasında yaşamasına çox sevindi. Aşıq Püryanı Mehralı bəyin gəlişi münasibəti ilə aldı görək nə dedi:

Nasıl mədh etməyim Mehralı bəyi,
Sivas ölkəsinin bəyi gəlibdir.
O zalım düşmənin əlində qalmaz,
Sivas ölkəsinin bəyi gəlibdir.

Hər kəs qədərinə boynunu əyə,
Səsi yayılmışdı şəhərə, köyə,
Zərər-ziyan gəlməz Mehralı bəyə,
Sivas ölkəsinin bəyi gəlibdir.

Əcəm igididir, yaxşıdır, yaxşı,
Göstərir kəndini kamalı, şəxsi,
Əhbabı, yaranı gedərlər qarşı,
Sivas ölkəsinin bəyi gəlibdir.

Püryanı bu anda söylər, bitirər,
Haqqın birliyinə şükür yetirər,
Yurdun şərəfini bəylər artırar,
Sivas ölkəsinin bəyi gəlibdir.

Hə, mənim əzizlərim! Ustad deyir ki, Qarapapaqların şanlı oğlu Sivasda elə bir mülk inşa etdi ki, göz istəyirdi tamaşasına.

Bu malikanənin inşasında əhli-Sivas cani-dildən qol çərməmişdi. Bu inşada kasıb ustad Aşıq Ruhsəti də işləyirdi. Tanınmış aşıq olan Ruhsətinin əsil adı Mustafa idi. Sivas vilayətinin Acıyurdun qonşuluğunda yerləşən Dəlikdaş kəndindən idi, 12 yaşından yetim qalmışdı. O, sazı-sözü ilə inşaatçıların əl-ayağını güməşdirirdi. O idi ki, inşaatçılar Mehralı bəyə şikayət etdilər ki, Aşıq Ruhsəti onların başını qatır, ona görə də iş ləng gedir. Söz-söhbəti eşidən Mehralı bəy Ruhsətini işdən azad edir. Bunu görən Rühsəti qəhərlənir. Götürür halına binəm Mehralı bəyə belə bir dördlük söyləyir:

Adanada duydum: sıtmasıyla dərdi var,
Ağdağa getdim: tülküsü var, qurdu var,
Avşara getdim: çərkəzi var, kürdü var,
Burada da, bəyim, müzəvirin dördü var.

İşdən azad olunmağına baxmayaraq Aşıq Ruhsəti inşaatdan aralanmır, elə hey şeirlər söyləyib mahnılar oxuyur, gününü beləcə yola verirdi. Belə günlərdən birində Mehralı bəy Ruhsətidən xeyli aralıda ustalara göstəriş verirdi. Ruhsəti fikirləşdi ki, daha belə davam edə bilməz, ömrü yoxsulluq, aclıq, səfalət içində keçib, indi burada da işdən qovuldu, düşündü ki, gəl Mehralı bəyə vəziyyətini de, bəlkə yazığı gələ. Aldı görək dərdini nə təhər söylədi, ərz eyləyək qulluğunuza:

Vaqif ol halıma, mənim əfəndim,
Bir aclıqdan başqa deyəcəyim yox.
Yoxsulluq oduna yandım, alışdım,
Axşamdan sabaha yeyəcəyim yox.

Ah etməkdən bağrım başı sızıllar,
Loğman deyə gəldim, bəylər, qazılar!
Evdə mələşirlər körpə quzular!
Qazana bir ovuc qoyacağım yox…

Nə xəyala daldığımı bilmənəm,
Ruzu-şəb ağlaram, bir dəm gülmənəm,
Yol üstündə durub karvan vurmanam,
Mənim səndən başqa umacağım yox.

Bütün əhvalımı yazdım varağa,
Atma, Ruhsətini gözdən irağa,
Bir top bez istərəm, bir az nafağa,
Ölərsəm, qəbirdə geyəcəyim yox.

Bəli, Aşıq Ruhsəti Mehralı bəyə yazacağını yazdı, deyəcəyini sözlə də dedi. Ruhsətinin sözləri Mehralı bəyi aldı. Sonuncu bənd ona lap çox təsir etdi, yadına düşdü ki, aşığa bir at söz vermişdi, dediyinə əməl etmədiyi bir yana qalsın, hələ zavallını işdən də çıxarıb. Sanki Mehralı bəyin fikri Ruhsətiyə çatdı, bəyin pərişanlığını duyan aşıq aldı ucadan görək nə dedi:

Kəndi içərimdə neştərim mənim,
Hər qəzada vardır işdərim mənim,
Sivasdan da çoxdur müştərim mənim,
Bir kabab yedirib ətə, qıyammaz.

Yaz gəldi ortalıq güllük, gülüstan,
Yenə mənim başım qurtulmaz yasdan,
Mehralı bəyə də yazdım bir dastan,
İqrar verər, amma ata qıyammaz...

Ciddi bir adam olan Mehralı bəy bu yerdə özünü saxlaya bilməyib, ucadan qəhqəhə çəkdi, aşığı yanına çağırıb könlünü aldı:

– Aşıq, bilirsən ki, mən saza-sözə vurğun adamam, özüm də sənin xətrini çox istəyirəm, havalar yaxşı keçir, yağmur-filan başlamamış inşaatı tamamlamaq, evin üstünü çatmaq lazımdır. Bu sarayın həmişə gözlənilən və ən əziz qonağı sən olacaqsan, sənsiz, aşıqsız bu cah-cəlalın ləzzəti heç olar. İndi mənim çox xoşladığım o dastan-vaqeəni bir də söylə – dedi.

Mehralı bəyin dediklərini eşidən Ruhsətinin gözləri güldü, könlü açıldı. Qəribə bir yuxunu təsvir edən on iki bəndlik mənzum dastanı söyləməyə başladı. Bu dastanın son bəndini ərz eyləyək qulluğunuza, dinləyənlər var olsun:

Ruhsətiyəm, kəndi kəndimdən keçdim,
Bu gecə mənamda çox yerdən uçdum ,
Bir də, röya imiş, gözümü açdım
Bəyim, həvəs etmə bu rəzilkara.

Mehralı bəyin ürəyi açıldı, kefi duruldu, "Əhsən, ey vallah!" deyib Ruhsətiyə bir öküz bağışladı, ondan yenə nə istədiyini soruşdu. Ruhsəti çəkinməyib dedi:

– Bəyim, sənin mərd və sözünə düz adam olduğun hamıya bəllidir. Mənə Dəlikdaşa gedib-gəlmək üçün söz verdiyin atı istəyirəm, ayaqlarım ağrıyır, yola dözə bilmirəm. Bir də, külfətimi aclıqdan qurtarmaq üçün bir sağmal inək versən, ömrüm boyu sənə duaçıyam.

Mehralı bəy aşığa bir yəhərli-yüyənli at, xeyli əl xərcliyi, sağmal inək, bir də xeyli azuqə və əkin-səpin üçün toxumluq verdi. Dedi:

– Aşıq, hələlik bunları apar, Dəlikdaşda əhli-əyalına ver. Ək-səp, inşallah gələcəkdə vəziyyətin daha yaxşı olar. Səni heç bir şeydən korluq çəkməyə qoymayacam. Bu gündən sonra səni özümün ən yaxın dostlarımdan hesab edirəm və sarayın inşaatında işləyən ustaların başı üstünə nəzarətçi təyin edirəm.

Ustadlar deyir ki, elə o gündən Aşıq Ruhsəti ilə Mehralı bəyin arasında şirin və sədaqətli dostluq əlaqəsi yarandı. Ruhsəti Mehralı bəyin sarayının xeyrində-şərində məclisinin başında oturdu.

Mehralı bəyin oğlu Rüşdü bəy də atasına layiq igid, boylu-buxunlu, yaraşıqlı bir gənc idi. Mehralı bəy onu Sivasda yaşayan çərkəz Həmid bəyin qızı Pəmbə xanıma nişanlamışdı. Tədarük edib toya hazırlıq görülürdü. Toyun vaxtı da təyin edilmişdi. Alosmanın ən hörmətli paşalarına, bəylərinə dəvətnamələr paylanmışdı. Ancaq əcəl elə gətirdi ki, Rüşdü bəyin on beş yaşında olan nişanlısı qəflətən vəfat etdi. Toy tədarükü yas tədarükünə çevrildi. Toyu aparmağa dəvət olunmuş Aşıq Ruhsəti bu xəbərdən sarsıldı. Toyda söyləməyə hazırlaşdığı duvaqqapama əvəzinə yas mərasimində aldı görək hansı ağıyı söylədi:

Mehralının bir dənəsi
Oyan, nazlı xanım, oyan,
Rüşdü bəyin pərvanəsi
Oyan, nazlı xanım, oyan.

Cehizini sarıb denklə,
Beş yüz atlı gəlir cənglə,
Bahar anan gəldi, bəklə,
Oyan, nazlı xanım, oyan.

Qalx, dur salını-salını,
Rüşdü bəyin gör halını,
Mehralı bəyin gəlini,
Oyan, nazlı xanım, oyan.

Cümlə bəylər yasa gəldi,
Qara geydi, tasa gəldi,
Nişanlın Sivasa gəldi,
Oyan, Pəmbə xanım, oyan.

Nə enişin dibindəsən,
Nə yoxuşun başındasan,
Hələ on beş yaşındasan,
Oyan, gözəl xanım, oyan.

Donatdılar, bəzətdilər,
Bir taxtaya uzatdılar,
Axirətə gəlin etdilər,
Oyan, gözəl xanım, oyan.

Məzarına dikdilər daş,
Götürdülər yavaş-yavaş,
Rüşdü bəy başında göz yaş,
Oyan, nazlı xanım, oyan.

Ruhsət də bu dərdə şaşdı,
Qəzəvət qazanı coşdu,
Ellər gəldi halallaşdı
Oyan, nazlı xanım, oyan.

Mehralı bəy sarayında aşıqlarla yanaşı, pəhləvanlar da saxlayırdı, tez-tez cıdır yarışları, güləş yarışları keçirirdi. Onun sarayında yaşayan Sicimoğlu adlı pəhləvanın kürəyini heç kəs yerə qoya bilmirdi. Sivasda böyük torpaqlar, var-dövlət, şöhrət-hörmət sahibi olmasına baxmayaraq, Mehralı bəyin vətəni Borçalıdan, doğma kəndi Darvazdan ötrü burnunun ucu göynəyirdi. Amma heç cür oraya gedə bilməzdi. Çünki ruslara olmazın divan tutmuşdu. Ancaq hərdən bir Darvazdan Acıyurda gələnlər olurdu. Mehralı bəy onları böyük hörmətlə qarşılayırdı, Borçalıda nələr baş verdiyini soruşurdu, darvazlıların hamısının tək-tək kef-əhvalı ilə maraqlanırdı, hələ onlara mümkün qədər pul köməkliyi də edirdi.

Bəli, beləcə Mehralı bəyin gün-güzaranı Sivasda xoş keçirdi. Amma, onun da şöhrətinə ağız buranlar vardı. Bir gün qəza mərkəzində qonaqlıq idi. Mehralı bəy də bu qonaqlıqda idi. Bir

azdan Qanqal rəisi də gəldi. Hamı hörmət əlaməti olaraq ayağa qalxdı, Mehralı bəy isə qalxmadı. Rəis pərt oldu. Başladı Mehralı bəyə ağır-artıq deməyə. Mehralı bəy Qanqal rəisinin aşının suyunu verdi və dedi:

– Mən, gavurlarla ölüm-dirim döyüşündə olanda sən qalayçı yanında şəyird idin.

Bu cavabdan sonra rəis məclisdən başı alovlu üz qoyur vali Rəşid Paşanın yanına və deyir:

– Mehralı bəy Sivasın valisi siz Rəşid Paşanı əhli-məclisdə qalayçı, məni də sizin şəyirdiniz adlandırdı.

O idi ki, Rəşid Paşa əhvalatın üstünə artıq-əskik qoyub çatdırdı Şövkətli Sultan Əbdülhamid Paşaya. Rəşid Paşanın hirsini-hikkəsini görən Əbdülhamid Paşa dedi:

– Paşa, sən bilirsən ki, Mehralı bəy Alosmanın yenilməz, böyük qəhrəmanıdı. O Alosmanın ən hörmətli qarapapağıdır. Bizim məmləkətin qarapapaqları, Sivas vilayətində, Şərqi Anadoluda yaşayan müsəlmanlar onu çox istəyir. Elə mən də. Mehralı mənim sərbəst, azad aslanımdır. Bəyəm, bir igidi mənə çoxmu görürsən?!

Bəli, Sultan Əbdülhamiddən ağzı yanan Rəşid Paşa korpeşman qayıdır Sivasa. Bu əhvalatdan sonra Anadolu ağzında Mehralı bəyin bir sözü iki olmur. Amma, Rəşid Paşa da kinküdurətini unutmur.

Əhvalatı eşidən Aşıq Püryanı götürür görək Mehralı bəyin şəninə nə deyir, əvəzindən biz deyək, sizə könül şadlığı:

Nasıl mədh etməyim Mehralı bəyi,
Hər yerdə şərəfi, ünü söylənir.
Yapdığı igidlik ağlıma düşdü,
Üzərindən keçən günü söylənir.

Bəyin çoxdu anladarsaq davası,
Titrətdi əlində qoca Sivası,

Sürüyü saxladı Qanqal ağası,
Hər yerdə şərəfi, şanı söylənir.

Mehralı bəy ata minər, yürərdi,
Düşmən görsə, qorxusundan ərərdi,
Doxsan üçdə gələnləri qorardı,
Əsaləti, cinsi, dini söylənir.

Mehralı bəyimi bilənlər bilir,
Güclü idi bir orduya baş gəlir,
Ol hər yerdə qəhrəmanlıq söylənir,
Böylə qəhrəmanın halı söylənir.

Mehralı bəy səni nasıl duyuram,
İgidlərdən səni seçəm, ayıram,
Yaradandır səni böylə yaradan,
Püryanı bu gün də bunu söyləyir.

Sivasda tez-tez at yarışları keçirirdilər. Bu yarışlarda hey Mehralı bəyin Qarakötüyü birinci yeri tuturdu. Amma bu atın da bir tərs xasiyyəti varıymış, güllə atmasan yaxşı qaçmırmış. Qarakötüyün bu xasiyyətini Rəşid Paşa öyrənir və bir də at yarışı keçiriləndə şərt qoyur ki, güllə atmaq olmasın. Hamı razılaşır. Yarışda Qarakötük geridə qalır. Yarışa baxan Çopur Əhməd adında bir qarapapaq buna dözə bilmir. Öz-özünə fikirləşir ki, ayə, bu nə təhər ola bilər, Mehralı bəyin atı olsun, özü də geridə qalsın və piştoyunu çıxarıb göyə bir güllə buraxır. Qarakötük güllə səsini eşidən kimi yel təki götürülür və birinci yeri tutur. Bu əhvalatdan sonra Mehralı bəynən Rəşid Paşanın arası lap pis olur.

Ustad belə ərz eyləyir ki, Mehralı bəy Alosmanda onun şanına mübarək sözlərdən vəcdə gəlir. Sivasda Alosmana layiq şanlı süvari ordusu düzəldir. Bu orduya Qarapapaq Həmidiyyə Alayları deyirdilər. Hansısa bir vilayətdə dövlətə qarşı üsyan baş

verəndə o saat onu yatırtmaq üçün Mehralı bəyin bu alayını göndərirdilər.

Bir dəfə Bağdadda ərəblər Alosmana qarşı üsyan eyləyir. Üsyanın başında Cəfər adında amansız bir eşkiya dururdu. Ona görə də marşal Qurd İsmayıl Paşa sultanın tapşırığı ilə özünü yetirdi kömək istəmək üçün Acıyurda, Mehralı bəyin hüzuruna. Mehralı bəy Qurd İsmayıl Paşanı görüb çox sevindi. Ustad deyir ki, Sivasın, Qeysəriyyənin, Ərzincanın, Toqatın ən hörmətli paşalarını, bəylərini, ağalarını yığıb onun şərəfinə yeddi gün, yeddi gecə qonaqlıq verdi. Sonra bərabər Bağdada yollandılar. Bağdad valisi onları hörmət-izzətlə qarşıladı. Mehralı bəy eşkiya Cəfərə təslim olmaq üçün üç gün möhlət verdi. Cəfər Mehralı bəyin adını-sanını çox eşitmişdi. Ona görə də Mehralı bəyə ismarladı ki, əgər məni cəzalandırmasan ömrümün axırına kimi sənin sədaqətli qulunam. Mehralı bəy kişi sözü verdi ki, səni qurdalamayacam. Ondan sonra eşkiya Cəfər Mehralının yanına gəldi və ona ən yaxşı cins ərəb atları hədiyyə etdi.

O zamanlarda bütün Ərəbistan Alosmanın əlində idi. İngilislər türklərin gücündən qorxub Yəməndə aranı qatdı. Orada yaşayan ərəblər türklərə qarşı üsyan qaldırdılar. Çoxdandan qəlbində kin bəsləyən Rəşid Paşa Mehralı bəydən qurtulmaq üçün sultana yazdı ki, bu üsyanı yatırsa, yalnız Mehralı bəy yatıracaq. Sultan Rəşid Paşanın yazdığını oxuyub Mehralı bəyi görüşmək üçün ikinci dəfə İstanbula dəvət etdi. Yaşı altmışı ötmüş Mehralı bəy öz hərbi geyimini geyindi, qılıncını da bağlayaraq alayından üç-dörd nəfəri götürüb yollandı yeddi təpədə yerləşən İstanbula. Mehralı bəy Sultan sarayının mərmər pillələrini qalxanda, axsadığı üçün onun qılıncındakı gümüş ucluq pillələrə dəyib səslənirdi: «tıq», «tıq», «tıq», «tıq»,... Bu tıqqıltını Sultan Əbdülhəmid də eşitdi, gördü ki, gələn gözlədiyi Mehralı bəydir. Tez ayağa qalxıb onu qarşılamağa hazırlaşdı. Mehriban görüşüb xeyli səmimi söhbətləşəndən sonra Sultan dedi:

– Aslanım, düşmənlərimiz Alosmanı parçalamaq istəyir. Yəməndə ərəbləri üsyana qaldırıblar. Hamı deyir ki, bu üsyanı yatırtsa Mehralı bəy yatıracaq. Ona görə səni çağırdım ki məsləhətləşəm. Mən bilirəm ki, sən onsuz da məmləkətimiz üçün əvəzsiz işlər görübsən. İndi yaşının da o vaxtı deyil. Yəmən çox isti yerdir. Sən elə istilərə alışmayıbsan. Bu məsələdə sərbəstsən. İsəyirsən get, istəmirsən getmə. Kef sənindir.

Mehralı bəy Yəmənə getməyə «yox» deməyi şərəfinə sığışdırmadı. Sivasa qayıdıb alayını topladı. Hazırlıq işlərinə başladı. Mehralı bilirdi ki, bu səfər çətin səfərdi. Hamı deyirdi ki, Yəmənin istisi dözülməzdir, oraya gedən bəri başdan ölmüş sayılır. Odur ki, dedi, uzaq səfərdi, nə olar, nə olmaz, yaxşısı budur gəl qohum-əqrəbayla halallaş-vidalaş. Aldı görək Mehralı bəy yaxınlarına nə dedi, biz deyək, eşidənlər şad olsun:

Gəlin halallaşaq, qohum-qardaşım,
Uzaq yerə bir zamana gedirəm,
Ya qismət sağ gələm, ya da gəlməyəm,
İsti-sıcaq bir məkana gedirəm.

Mən ölsəm də vicdanımı atmaram,
Namərdlərin kölgəsində yatmaram,
Millətimi ərəblərə satmaram,
Əgər düşsəm çən-dumana gedirəm.

Mehralıyam artıq ötübdür yaşım,
Savaşdarda qovğalar çəkib başım,
Mənim ilə gedir igid qardaşım,
Ərəb eli o Yəmənə gedirəm.

Mehralı sözünü qurtarıb bütün qohum-qəlrəbəsi ilə görüşüb-halallaşdı. Sonra üzünü oğlu Rüşdü bəyə tutub dedi:

– Oğlum, bilirsən ki, Yəmənə gedənin çoxu geri qayıtmır. Şər deməsən xeyir gəlməz. İşdi gəlməsəm, çalış el içində hörmət-mərifət yiyəsi ol. Bu tərəfin qarapapaqlarından muğayat ol.

Onda mənim də ruhum şad olar. Əmin Alı bəy də mənlə getmək istədi. Ona görə də bu gündən məni bu torpaqlarda sən əvəz etməlisən.

Mehralı bəy Rüşdü bəyə öyüd-nəsihət verəndən sonra tullanıb ata mindi. Ordusuna nizamla düzülməyi əmr etdi. Mehralı bəyin özü rəsmi geyimdə alayın lap qabağında dururdu. Mehralı bəy tərpənmək istəyəndə həyat yoldaşı Bahar xanım gözlərinin yaşını abu-leysan kimi töküb onun qabağını kəsdi. Elə bil Bahara dedilər ki, Mehralı bu səfərdən qayıtmayacaq. Odur ki, siyah zülfündən üç tel ayırıb görək Mehralıya nə deyir və Mehralı nə cavab verir. Hər ikisinin tərəfindən ərz eyləyək, dinləyənlər sağ olsun.

**Bahar xanım:**

Sən gedirsən xudam üstünlə getsin,
Get, Mehralım, sağlıq ilə gələsən,
Yaradanım nicat versin işinə,
Get, Mehralım, sağlıq ilə gələsən.

**Mehralı bəy:**

Allahı çağırıb düşürəm yola,
Qorxma, yarım, sağlıq ilə gələrəm.
Talehimi fələk mənlə verərsə,
Qorxma, yarım, sağlıq ilə gələrəm.

**Bahar hanım:**

Sən gəlincə gözüm yolda olacaq,
Rəngim-ruhum saralacaq-solacaq,
Rüşdü bəyim sənsiz yalqız qalacaq,
Get, Mehralım, sağlıq ilə gələsən.

**Mehralı bəy:**

Yapışmışam ətəyindən Allahın,
İslamın pənahı o gözəl şahın,

Din yolunda götürmüşəm silahı,
Qorxma, yarım, sağlıq ilə gələrəm.

**Bahar xanım:**

Müşkül etdin mən Baharın işini,
Axıtdın gözündən qanlı yaşını,
Görürəm yanında qoç qardaşını,
Get, Mehralım, sağlıq ilə gələsən.

**Mehralı bəy:**

Qırx beş ildi nə ki qovğa etmişəm,
Allahımın ətəyindən tutmuşam.
Mehralıyam, artıq yaşa dolmuşam,
Qorxma, yarım, sağlıq ilə gələrəm.

Hər ikisinin sözü tamam olmuşdu ki, Mehralı bəyin aralıda durub gözləri yaşla dolmuş oğlu Rüşdü bəyi gözü aldı. Dedi ki, gəl bir-iki kəlmə sözlə bunun da könlünü al. Götürdü görək Mehralı bəy oğlu Rüşdü bəyə nə söylədi:

Mən gedirəm, Rüşdü bəyim ağlama,
Köz qoyub da ciyərimi dağlama,
Alay getdi məni burda əyləmə
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyilmi, vallah kimə nə?

Ta əzəl əzəldən yaslıyam, yaslı,
Çiftə al qılıncın ucları paslı,
Mehralıyı sorarsan, əzəldən yaslı
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyilmi, vallah kimə nə

Mən gedirəm, Rüşdü bəyim sənə bir nişan,
Susuzluqdan alayları pərişan,
Heç iflah olurmu Yəmənə düşən?

Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyil mi, vallah kimə nə?

Yəmən çölündə tabur qurayım,
Zalım düşmanlara hesab sorayım,
Fərman padişahdan orda öləyim,
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyilmi, vallah kimə nə?

Yəmən çölü viran olsun, dağ olsun,
Bizim ellər yaşarsın da bağ olsun,
Mən ölürsəm, Rüşdü bəyim sağ olsun,
Oğul köz, düşdüyü yeri yaxar, kimə nə?
Oğul, dərd mənim deyilmi, vallah kimə nə?

Mehralı bəy sarayında heç kəsin xətrinə dəyib-dolaşmırdı. Bütün işçiləri, mehtərlər, qulluqçular, kənizlər ondan razı idilər. Heç biri istəmirdi ki, Mehralı bəy Yəmənə getsin. Ona görə Bahar xanım bir yandan Mehralı bəyə yalvar-yapış eyləyib saxlamaq istəyəndə, qulluqçular, mehtərlər də bir tərəfdən alayın Yəmənə getməsinin qarşısını almaq istəyirdilər. Aldı görək baş mehtər Alı bəyi qardaşını Yəmənə getməkdən çəkindirməkdən ötəri nə təhər dilə tutmağa çalışdı, biz deyək, eşidənlər şad olsun:

Mehralı bəy Həmidiyyə alayı,
Düşmənlər çıxardı türlü bəlayı,
Nədir, Alı bəyim, bunun qolayı?
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Mehralıyı sokaklarda tutdular,
Ağamı da bir qurşuna satdılar,
Mehralıyı Yəmənə də atdılar
Yəmənə de, mənim ağam, Yəmənə,

Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Dövlətə bağlıdır onun bu başı,
Cahanda arasan bulunmaz eşi,
Zira altmışı ötübdü yaşı
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Ərəb atlar gəldi bağlanmaq istər,
Kömüşlərin gəldi yağlanmaq istər,
Rüşdü bəy böyüdü, evlənmək istər
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Qum təpəsi oldu görünməz otlar,
Aclıqdan ölürlər küheylan atlar,
Qardaş, şəhid düşdü neçə igidlər
Yəmənə de, mənim ağam, Yəmənə,
Endimola Mehralı bəy Yəmənə,
Qurdumola çadırları çəmənə.

Alay Yəmənə yola düşdü. Onların keçdiyi yerlərdə hamı yolun qırağına tamaşaya düzülürdü ki, Mehralı burdan keçəcək. Bir müddət sonra quru ilə, dənizlə gedib çatdılar Yəmən elinə. Orada da igidlik göstərib düşməni qırıb-çapdılar. Ancaq qarapapaqlar isti yerin havasına alışıq deyildilər. Ona görə də Mehralı bəy Ərəbistanın istisinə, susuzluğa dözməyib xəstələndi. Gördü ki, işi çox ağırdı. Bir gün elə oldu ki, su yoluna çıxdı. Bir də gördü ki, iki murğu quşu gəlib bunun qarşısına qondu və başladılar öz dillərində ötməyə. Mehralı bəy öz-özünə dedi, ey dili-qafil! Deyirlər bəzi hallarda mələyklər göyərçin, bir də ahu

olub bu donda adamın gözünə görükürlər. Olmaya bunlar da məleykədirlər, gəl Sivasa bir namə yaz at bunlara. Əgər məleykə olsalar bu naməni aparıb çatdırarlar. Yox əgər adi quşlardısa, onda məktubum qalar. Alır görək Mehralı bəy nə yazır, tərəfindən ərz eyləyək, eşidənlər şad olsun.

Murğu quşu, bir Allahın eşqinə,
Mənim halımı Sivasa yetirin,
Qohuma, qardaşa, dosta, yarana,
Yol gözləyən vəfadara yetirin.

İşdi gedər olsan bizim ellərə,
De ki, gözünü tikməsin yollara,
Həsrətin çəkdiyim şirin dillərə,
Vəfadarım o Bahara yetirin.

Xalqımın yolunda çəkmişəm cəfa,
Din-islamın zamınkarı qıl şəfa,
Dada yetiş Məhəmməd əl Mustafa,
Əli yollu ələmdara yetirin.

Özün məleykəsən murğu donunda,
Bəlkə sözün keçər haqqın yanında,
Yardım istəyərəm mənşər günündə,
Etmə məni günü qara, yetirin.

Mehralı çəkdiyi dad ilə ahdı,
Hər şeyi xəlq edən qadir Allahdı,
Mənim qayıtmağım haqqa pənahdı,
Acıyurddakı dostlara yetirin.

Mehralı bəy sözünü tamamlayıb dil cavabında bir neçə söz yazıb naməni büküb atdı həmin quşlara. Özü dönüb geri getdi. Quşların biri şığıyıb naməni aldı dimdiyinə, pərvaz edib uçmağa başladı. Gecəni gündüzə qatıb gəldi Sivas elinə. Məktubu aparıb düz Bahar xanımın oturduğu imarətin qarşısında yerə atdı, özü

isə ağaca qonub tamaşa eylədi. Naməni aparıb çatdırdılar Bahar xanıma. Bahar naməni oxuyub bilir ki, onu quş gətirib. Başına-dizinə döyə-döyə alır görək Murğu quşuna nə deyir:

Murğu quşu, bu naməni gətirdin,
Söylə görüm Mehralımı neylədin?
Gətiribən arzusuna yetirdin,
Söylə görüm Mehralımı neylədin?

Bir de görüm bu nə sual-sorğudur,
Bu yazılar haqdan gələn qurğudur,
Özün məlaikə, donun murğudur,
Söylə görüm Mehralımı neylədin?

Yetişdinmi sən ağzına, dilinə,
Söylə, nə vəsiyyət etdi elinə,
Mən yazığı niyə saldı zülümə,
Söylə görüm Mehralımı neylədin?

Eşitmədim vəsiyyətini, sözünü,
Ağlar qoydu bu Baharın gözünü,
Çoxmu solğun gördün onun üzünü,
Söylə görüm Mehralımı neylədin?

Bahar sözünü qurtarıb başladı ağlamağa. Qulluqçuları böyür-başına yığışıb sakitləşdirməyə başladılar. Dedilər ki, hələlik bir səda-soraq yoxdu, niyə ağlayırsan? Bahar da dedi ki, mən o naməni oxuyan kimi bildim ki, Mehralının başında qaranlıq var.

İndi sizə xəbər verim Mehralı bəydən. Mehralı bəy istiyə dözməyib ömrünü bağışladı oğluna. Onu Yəməndə dəfn etdilər. Mehralı bəyin alayındakı igidlərin çoxu da istiyə tab gətirməyib bu dünyadan köçdülər. Təkcə yüzbaşı Əhməd, çavuş Mahmud, çavuş Göyçə, çavuş Məhəmməd, Yetim İsmayıl, Turan Ağca və Quşqayası kəndindən Hüseyn sağ-salamat geri qayıtdılar.

Mehralı bəyin ölüm xəbəri hər yana ildırım təki yayıldı. Anadolu ellərində, Borçalı kəndlərində ehsanlar verildi. Acıyurda başsağlığına dövlət adamları gəldi. Aşıqlar, şairlər yas saxladı, ağılar dedi. Mehralı bəyin yaxın dostu, onun sarayının ən hörmətli qonağı, saraydakı məclislərdə daim başa çəkilən Dəlikdaşlı Aşıq Ruhsəti də bu xəbərdən sarsıldı, göz yaşlarını sel-su kimi axıtdı və aldı belə bir ağı dedi:

Bəlloldu getdiyin, mənim əfəndim,
İndelhan olanlar səni arayır.
Yıxıldı bir yanı qoca Sivasın,
Dərvişan olanlar səni arayır.

Pozuldu əlvanı uca binanın,
Qəmi artdı içindəki çobanın,
Kəsildi qisməti xanə viranın,
Cənnətdə qılmanlar səni arayır.

Yüklədi köçünü can Məmmədalı,
Bir zaman dillərdə söylənsin halı,
Mehralı qızının qırıldı qolu,
Axıtdı al qanlar, səni arayır.

Qayri-şahin uçdu, dalda yar qaldı,
Vəfasız dünyanın ömrü az qaldı,
Bağlar çiçək açmış, güllü yaz gəldi,
Baxçavan olanlar səni arayır.

Nə müxalif dəydi fələyin daşı,
Nasıl yaxdı ayrılığın atəş,
Yenə eşkiyalar qaldırdı başı,
Bəzirgan olanlar səni arayır.

Hanı sənin kimi ellərdə rəhbər,
Səndən ziya umar günlər, gecələr,

Çarşılarda əsnaf, köylərdə rəncbər,
Dağlarda çobanlar səni arayır.

Olanca muradın məhşərə qaldı,
Fələk bu bəlayı bizlərə saldı,
Aşıq Ruhsəti də məddahın oldu,
Neçə pəhləvanlar səni arayır.

Hə, mənim əzizlərim! O vaxtdan aylar keçdi, qərinələr, illər ötdü, bu sədalar çatdı qədim-qayım türk yurdu Borçalıda ömür sürüb gün keçirən Aşıq Məhəmməd Sadaxlıya. Aşıq Məhəmməd Sadaxlı da bir qədər qəmlənib-kədərlənib götürdü alim qardaşı, akademik Valeh Hacıların «Borçalı Mehralı bəy tarixi həqiqət-lərdə» kitabını oxudu və ondan təsirlənərək tanış olduğunuz "Mehralı bəy" dastanını düzüb-qoşdu, sonda da Mehralının əv-vəlcə igidliyini, sonra da ölümünü nəzmə çəkib bir duvaqqapma ilə görək nə dedi, biz söyləyək, eşidənlərə könül şadlığı:

İstəyirəm saz götürüb
Belə bir dastanı deyim!
Söyləyim mahallara
Eşitsin hər yanı deyim!
Öz mahalı Borçalıdı
Darvazdı məkanı deyim!
Əsil adı Mehralıdı,
Ləqəbi bəy, xanı deyim!
Dörd bir yana səda saldı,
Bir yan, Alosmanı deyim!

Borçalının igid oğlu,
Bir can qoydu bu cahana,
Çoxlarına divan tutdu,
Düşmən qaldı yana-yana,
Dolaşdı İran-Turanı,
Ordan keçdi Alosmana,

Dörd bir yana tel vurdular,
Çox axtardılar bəhana,
Xaliq özü pənahında,
Saxladı o canı deyim!

Ər oğlu tək ad qazandı
Aldı dağın havasını;
Qartal kimi zirvələrdə
Saldı məskən-yuvasını.
Uruslarla cəng eylədi
Qazandı hər davasını;
Belə qəhrəman igidlə,
Heç kim etməsin bəhsini;
Dağıdıb səfləri pozan,
Böylə bir aslanı deyim!

Köç eylədi qoç Koroğlu,
Çənlibel oylağı qaldı.
Rüstəm öldürdü oğlunu,
Sinəsində dağı qaldı.
Nə Nəbi, nə Qaçaq Kərəm,
Nə də Qandal Nağı qaldı.
Dağladın neçə sinələr,
Nə ürəyinin yağı qaldı,
Neçələrini yola saldın,
Alosman aslanı deyim.

Məmlinin qəhrəman oğlu,
Tək gəlmişdi bu dünyaya.
Gavurlara qan uddurdu
Düşmən qaldı yana-yana.
Ya ilahim, necə qıydın
Belə igid qəhrəmana.

Mehralı tək igid oğlu
Bir də doğacaqmı ana?
Vaxtsız getdi bu cahandan,
Etmirdim gümanı deyim.

Ey vəfasız fani dünya,
Söylə, səndə mürvət hanı?
Vaxtsız çox yola salıbsan
Neçə-neçə qəhrəmanı!
Tarix boyu kim unudar,
Mehralı tək bir insanı?
Ələsgər yazdı-yaratdı
Dəli Alıya dastanı,
Sadaxlı aşıq Məhəmməd
Qoşdu bu dastanı deyim!

## “QAÇAQ İSAXAN”

İnləyirəm dərd əlindən, təbib, dərmanım yoxdu,
Ədalətin carçısıyam, əldə fərmanım yoxdu.
Ey məxluqu xəlq eyləyən, özünə ki əyandı,
Sirri xuda pənahımsan, özgə gümanım yoxdu.

Mən yerlərdə haray çəkib, göydə sədan almışam,
«Rəbbim» deyə inləmişəm, hey yadıma salmışam.
Çox şeytanlar şər axtarıb, böhtanlarda qalmışam,
Amansız hakimlər gördüm, bir haqq divanım yoxdu.

Zahid deyər, zaman dönüb, bunu sənmi edirsən?
Yaradanım, o göylərdən özün yaxşı görürsən!
Öldürürsən, dirildirsən, bu nə yoldur gedirsən?
Mən sənə bir can borcluyam, iki ha canım yoxdu.

Ustadlar ustadnaməni bir demir, iki deyir, biz də deyək, iki olsun, namərd ömrü yekə olsun.

Əfsanə deyilsən, bil, həqiqətsən,
Danış dərdlərini, söylə, dastanım.
Gəlibdi nəsillər, səni dindirir,
Varsa şikayətin, eylə, dastanım.

Deynən, o zamanlar kim olubdu, kim?
Hər şeyi bilirsən, ey ali hakim!
Əvvəl bismillahir-rəhmanir-rəhim,
Kəlməni başla sən belə, dastanım.

Açıl varaq-varaq, çox dəhşətin var,
Zahid fəhm edəcək, qoy oxusunlar.
Fitnəkar iblislər, şərçi şeytanlar
Nə yaman işlədib hiylə, dastanım.

Ustadlar ustadnaməni iki demir, üç deyir, biz də deyək üç olsun, düşmən ömrü puç olsun. Götürək bir dodaqdəyməz cığalı təcnis:

Tarixlər danışır qərinələrdən,
Yazını yazdılar nə sinəsinə?
  Aşıq deyər, nə sinə,
  Yaxa açıq, nə sinə.
  Cəhd ilə qisas alan,
  Rast gəldim mən nəsinə.
Səyyadım qarşında atacaq səni,
Gedirsən izinnən nə sinə-sinə.

Naşı işarəni niyə kal andı?
Qandıranlar qananları kal andı.
  Aşıq deyər, kal andı.
  Kal eşitdi, kal andı.
  Zərgərlər zər axtarır,
  Xirdarında kalandı.
Aslan qarşısını yenə kal andı,
Çıxsa da yıxacaq nə sinəsinə.

Xəsislər də dinarını ha saya,
Artıq-əskik hər nə çıxsa, ha saya.
  Aşıq deyər, ha saya,
  Əğyar səndən ha saya.
  Sinnin keçsə, ay haray,
  Dirənərsən hasaya.
Yazıq Zahid illərini ha saya,
Yıxşırdı qalada nə sinəsinə?

Əzizlərim, sizə xəbər verim Gürcüstandan, Qarayazı mahalının Dəmirçihasanlı kəndindən. Dəmirçihasanlı hal-hazırda Kosalı, Nazarlı kəndləridir. Hər iki kənddə varlı-dövlətli kişilər çox olub. Bu var-dövlət sahibləri çox imanlı, vicdanlı

olublar. Hər il tutulan Oruc bayramında, Qurbanlıqda, Novruz bayramında dolanacaqdan çətinlik çəkən kasıblara yardım edib, var əllərini uzadarlarmış. Danəndə kişilər əziz bayramlardan bir-iki gün əvvəl erkəklər kəsdirər, arabalarla qapı-qapı düyü, yağ payladarlarmış. Özləri də deyərlərmiş ki, qoy kasıbların da qazanları qaynasın. Ona görə də Allah-təala bu insaflı kişilərin var-dövlətlərini başlarından aşağı tökərmiş.

Belə bir şəraitdə yaşayan Dəmirçihasanlının, Qarayazının, Borçalının, eləcə də bütün Gürcüstanın üstünü qara buludlar aldı. Eşitdilər ki, Leninin başçılıq etdiyi Bolşevik Kommunist Partiyası qələbə çalıb və Şura hökuməti bütün Rusiyanı, Orta Asiyanı, həm də Qafqazı özünə tabe edib. Qırmızı Ordunun bir generalı da Tiflisdə oturmuşdu. Varlı təbəqələr siyahıya alınaraq, var-dövlətləri əllərindən alınır, dövlətə qarşı çıxanlar, partiyanı pisləyənlər güllələnir, ailələri sürgün edilirdi. Bu yeni qanunu əllərində əsas tutan bəzi şərçi şeytanlar şəxsi qərəzliklər də edirdilər. Yeni hökumətin siyasətini həyata keçirən iki nəfər xain erməni də var idi. Birinin adı Səmi, o birisininki Ratxan idi. Xain ermənilərə qoşulmuş sapı özümüzdən olan baltalar da az qan tökmədilər.

***Şura hökuməti öz siyasətini həyata kecirməkdə olsun, sizə xəbər verim Hacıbayramlılardan.***

Hacıbayramlı tayfası Allahını sevən, ona inam gətirən, Həccə gedib-gələn, Allahın yolunda nəzir-niyaz paylayan insanlar olub. Allah-təala da bunların verən əllərindən kəsməyib. Hal-hazırda ellərdə, obalarda belə bir misal qalıb: «Mən sənə Hacıbayramlı deyiləm, o qədər hesabı verəm».

Hacıbayramlı Qurbana varına, dövlətinə, səxavətinə görə el arasında "Xozeyin" deyirdilər. Xozeyin o zaman gimnaziyanı qurtarmışdı. Çox savadlı idi. Ölkələrdə gedən gedişatları güzgüdə görən kimi bilirdi. Eləcə də xalqa hər şeyi başa salırdı. O danışırdı ki, Lenin bir neçə dəfə çar hökumətinə qarşı çıxıb, çar hökuməti də onu həbs edib. İndi isə

Leninin tərəfdarları çoxaldı və onlar qələbə çaldılar. Leninin silahdaşları Stalin, Molotov, Voroşilov, Kirov və başqaları hakimiyyəti ələ keçirdilər. Onlar varlılarla barışan deyillər.

1929-cu ilin əvvəllərində Qarayazı milis rəisi Xozeyini yanına çağırtdırdı. Xozeyin ata minib Qarayazıya yaxınlaşmışdı ki, gördü, bir nəfər piyada Kosalıya gedir. Atdan düşdü, atı ona verib, dedi: «Bu atı İmanı evindən kimi görsən, ona ver. De ki, Xozeyin verdi». Xozeyin bilirdi ki, bu çağırışdan geri qayıtmayacaq. Xozeyin gəldi milis idarəsinə, içəri daxil oldu. Gördü ki, rəisin otağında qırmızı örtüklü masanın arxasında çekist libaslı yüksək rütbəli adamlar oturublar. Xozeyin salam verdi, özünün kim olduğunu dedi. Onlar Xozeyini sorğu-suala tutmağa başladılar. Xozeyin bunların suallarına çox dürüst cavablar verirdi. Axırda bir nəfər Xozeyinə üz tutdu: «Sən çox savadlı, təmkinli adam olduğun üçün sənə güllələnmək vermirik, 10 il müddətinə sürgün edirik». Bu cəza Xozeyinə necə bir xətir kimi verildi.

***Xozeyin əzab-əziyyətlə Sibirə sürgünə getməkdə olsun, indi sizə xəbər verim Xozeyinin əmisi oğlu İsaxandan.***

Xozeyinin sürgün olunmasını eşidən İsaxan qarşısına məqsəd qoydu ki, bizə yalnız qaçaqlıq kömək edəjək. Atalar demişkən: «Dustaqlıqdan qaçaqlıq yaxşıdır. Qaçaqlıqdan ölüm yaxşıdır». İsaxan silahını, yarağını-yasağını götürüb, özünü atdı Qarayazı meşəsinə. Bunu eşidən qardaşı Astan, Sarıvəlli evindən Yasın, Qasdannı İsa, Haqqalannın Alı və qardaşı Abdulla, İmanıoğullarından İmanı, Əhməd, Başıoğullarından Məhəmməd, Allahverdioğlu Sədi, Hajıalıoğlu Molla Mustafa, Qaraseyiddidən Nuru, Aljannın Mustafa, Borçalıdan Sadıx Sadıxlı İsaxana qoşuldular. Onlar bir neçə dəfə milisə basqın edib, dustaqları azadlığa buraxıb, çoxlu silah, patron və milisin atlarını ələ keçirdilər. Az bir vaxtda İsaxanın adı hər tərəfə yayıldı. Hər tərəfdən İsaxanın başına qaçaqlar yığılmaqda idi. Onlardan: Faxralı Rüstəm, Qaraçöplü Mahmud, Daşlıqlardan Həmid, Əbdüləli, Rüstəm, Qazağın

Dilbozlu elindən Abdulla, xalq şairi Cəfər bəy, Samuxlu Hajı İlyas, qardaşı Çopur Məhəmməd, Qasımoğulları, Axund Ramazanoğullarından Rüstəm, Təhməz, Çaparlı İsak, Hətəmli İsgəndər, İnəkboğazlı Məlik, Buğanamazlıdan Səməd, Sultanoğullarından Məcid, Qıllı Musa, Poladoğullarından Musa, İbrahim, Mansır, Gədəbəydən Mustafa, İlməzlidən Hacıoğlu Cahangir, Zaqataladan Abdul, Məcid, İslam, İlyas, Adışirin, Şirimoğullarından Yunus, Göyçəlidən Qurban, Daşkənddən Sarı Qafar, Qarasuludan Qara Abdulbəkir, Bala Məhəmməd, Hinnioğlu Asdan, Qupesoğullarından Asdan, Hajıqaraoğullarından Adil, Güləmalılardan Məhəmməd, Cahangir, Alı, İsmayıl, Şəkidən Bəhram, Qadir, Adışirin, Qəssab Hüseyn, Kiçik Dəhnədən Söyün, İsrafil, Ulaşlıdan Qiyas, Köpərlidən Əbdülrəhim, Qasım, Hajı, Qasımoğullarından Məhəmməd, Firdinnidən Əhməd, Məhəmməd, Ceyranoğlu Kazım kimi igidlər silah əldə, xəncər beldə, sallama kəmər, papaq başda, at yedəkdə qaçaqlıq edirdilər. Bu qaçaqlar Qırmızı Ordunun başına müsibətlər açdıqca Tiflisdən əmr edən Beriyanı, Georqadzeni lərzəyə salırdı. Kolxoz quruculuğuna dair qarşıya qoyulan bütün planlar, yeridilən siyasətlər pozulurdu. Hökumət kolxoz qura bilmirdi. QPU (Dövlət Siyasi Idarəsi) Aşotyan adlı bir erməni çekisti Dəmirçihasanlıya kolxozun qurulması üçün təhkimçi göndərmişdi. Camaat yağışlı bir gündə Aşotyanı belnən, yabaynan palçığa batırıb öldürmək istəyirdi. Ləzgi evinin Binnətlə Əhməd onu camaatın əlindən alıb tövlədə gizlədir, sonra gejə vaxtı qaçırdırlar. Uzun müddət Dəmirçihasanlıda kolxoz qura bilmədilər.

1929-cu ilin dekabrından başlayaraq, təxminən, 3 ay vaxt ərzində Qarayazı ərazisində bir nəfər də olsun Qırmızı Ordu əsgəri, milis işçisi və ya hökumət adamı görünmədi. Qarayazıda qaçaqlar sərbəst, asudə gəzişirdilər.

1930-cu il martın 11-də qəflətən Qarayazının 14-cü qol dəmiryol dayanacağında hərbi zirehli qatar dayandı. Vaqonlardan Qırmızı Ordu əsgərləri töküldülər. Əsgərlər özləri ilə

bərabər gətirdikləri tankaoxşar, gödək lüləli səkkiz ədəd topu atlara qoşdular. Bir neçə at arabasının içində təkərli pulemyot və ağzı bağlı silah yeşikləri də var idi. Arabalar bataqlığı yarıb keçə bildilər. Atlar topları çəkə bilmədi, bataqlıqda dartına-dartına qaldı. Qırmızı Ordu hissələri hey Qarayazı meşəsi tərəfə hərəkət edirdilər. Kəndlilər eşidən kimi tökülüşüb Qırmızı Ordunu daşa tutdular. Burada qarşıdurma əmələ gəldi. Hər iki tərəfdən yaralananlar oldu. Camaat elə onu deyirmiş ki, bizim qaçaqları qırmağa gedirlər. Şuğullar özlərini əsgərlərin arasına saldılar ki, onları tanıyan olmasın. Bu vaxt camaat kəşfiyyatçı İsmayıla əsgərlərin gəldiyini xəbər verdi. İsmayıl kəsə yolla özünü Qarayazı meşəsində Palıdlığa çatdırdı, əsgərlərin gəldiyini İsaxana xəbər verdi: «Niyə durursan, üstünə ordu gəlir?». İsaxan cavabında deyir: «İsmayıl, Qırmızı Ordu Şura hökumətinə arxalanırsa, biz də Qarayazı meşəsində bu qoca palıdlara arxalanırıq. Di durmayın, mənim igidlərim. Bir palıd öz arxasında neçənizi saxlayacaq? Siz kollar arxasında yerlərinizi sahmanlayın».

Sonra qocaman, ulu palıdlara baxıb görək İsaxan nə deyir:

Ellər qara geyib, çöllər yas tutub,
Bizə dayaq olun, qoca palıdlar.
Sizin başınıza bəlalar gəlib,
Dözübsüz əzaba necə, palıdlar?

Zaman çox bəd gəlib, dəyişir yenə,
Top atılsa, sinə gərin düşmənə,
Biz pənah gətirib, sığındıq sənə,
Sən bizə həyan ol gecə, palıdlar!

İsaxan, qəlbini bu dəhşət sıxar,
Hürküb maralların meşədən çıxar,
İnilti, gurultu dağları yıxar,
Gəlin biz almayaq vecə, palıdlar!

Bu «Palıdlıq» deyilən yer Qarayazı mahalında, Qarayazı meşəsində ən məşhur yerdir. Bir yeri soruşanda deyirlər: «Palıdlığın alt yanında, yaxud Palıdlığın üst yanında». Ancaq indi el arasında deyirlər: «İsaxan Qırmızı Orduyu qıran Palıdlıqda» (Yer adları o yerdə olan hadisə ilə bağlı olur).

Palıdlığın üst tərəfi qızılçıx idi. Sarı əyri tikanı var, özü də moruq kimi sıx olur. İsaxan dedi ki, qoşun oradan keçə bilməyəjək.

Bir də gördülər ki, budur, qoşun meşəyə yaxınlaşır. İki nəfər xəfiyyə, yəni çuğul qabaqda zabitlərlə gəlir. İsaxan Cəfərri Qaçaq Şəmistana, Qaçaq Yunusa, bir də Nağıya zabitlərin vurulmasını tapşırdı. Çünkü onlar çox yaxşı atıcı idilər.

İsaxan öz tapşırıqlarını verdi: «Alt tərəfə keçmək istəyəni Qaçaq Mahmuda, Əliyə, Musaya, Yasına, Alıya tapşırıram. Üst tərəfi Zaqatalalı Məcidlə Abdulaya, Şəkili Hüseynə, Ulaşlı Qiyasa tapşırıram. İmanı, sən çox zirəksən, hardan patron istədilər, ora patron çatdır».

İsaxanın atəş səsi eşidildi. Hərdən davanın qızğın vaxtı yalnız İsaxan hündürdən qışqırırdı: «Güllələri boşa, hədər atmayın!»

Ancaq Cəfərri Şəmistan, Yunus, Nağı elə atırdılar ki, ley cücə dənləyən kimi zabitləri dənləyirdilər. Bu minvalla qaş qaralana kimi döyüş getdi. Qırmızı Ordu meşəyə girə bilmirdi. Qızılçıx tikanını yarmaq qeyri-mümkün idi. Qırmızı Ordunun komandiri əmr etdi: «Yuxarı gedin, yarı bölünün. Arxalarını kəsib, araya alaq, qaçaqları qıraq». İsaxan qışqırdı: «Onlar arxaya keçdilər. Bizim paltarlarımız da onların paltarlarındandır. Aradan çıxın Azərbaycan tərəfə, Almalıya doğru gedin». Qaçaqlar yavaş-yavaş aradan çıxıb «Almalı» deyilən yerə gəldilər. Orada onların atları saxlanılırdı. Ancaq qaçaqların üç nəfərini Qırmızı Ordunun əsgərləri vurmuşdu. Qasdanoğlu İsanın patronu tükənmişdi. Palıd kolunun arxasından xəncər əlində atılıb, bir nəfəri öldürüb silahını, patro-

nunu götürən vaxt arxadan vurdular. Dedilər, İmanı evinin Osmanın oğlu Əhməd, bir də Qaraismayıllının Sədi öldürülmüşdü. Atları saxlayanlar bu üç nəfərin ölümünə çox məyus oldular. İsaxan üç nəfəri özü ilə götürüb, döyüş olan yerə getdi ki, yoldaşlarının meyitini gətirsin. Amma meşə zülmət kimi qaranlıq idi. Tapa bilməyib əsgərlərin meyitlərindən çoxlu patrondaşlar açıb gətirdilər. İsaxan dedi: «Dostlar, səhərə kimi Qırmızı Ordu bir-birini qırıb qurtaracaq. Çünki onlar elə bilirlər ki, qaçaqlarla vuruşurlar». Meyitlərdən açdıqları qatar patronları atların xurcunlarına doldurub Keşiş dağına tərəf yola düşdülər.

***Qaçaqlar Keşişə tərəfə getməkdə olsunlar, sizə imdən deyim, Qırmızı Ordudan***.

Səhərə kimi Qırmızı Ordunun əsgərləri, zabitləri bir-birini qırdılar. Səhər açıldı. Səhəriniz üzünüzə xeyir gətirsin. Onların səhəri üzlərinə qara açıldı. Gördülər ki, leş-leş üstədi. Qaçaqlardan heç bir əsər də yoxdu. Özləri özlərini qırıblar. Deyilənə görə, 14-cü qol dəmiryoluna bir həftə at arabaları ilə meyit daşıyıb, vaqonlara doldurublar. Yaralıların da sayını bilmək olmazdı. Qaçaqların kimlərdən olduğunu bilmək üçün və onlar haqda müəyyən məlumatlar toplamaq məqsədilə zabitlər üç nəfər qaçağın meyitini ayrıca at arabasına qoyub Dəmirçihasanlıda gəzdiriblər ki, sahibini tapsınlar. Heç kəs, güya, onları tanımayıb. Axırda aparıb Göyəmli arxa atıblar. Sahibləri meyitləri gecə oğrunca aparıb suya çəkib, pak edib, gecə də dəfn ediblər. Qırmızı Ordu komandanlığı batan topları çıxarıb, meyitləri, yaralıları vaqonlara doldurub Tiflisə yola salırlar. Zabitlərdən sağ qalanları ordu komandanının yanına girib ona ədəb-ərkanla baş əyirlər. İsaxandan, onun başındakı qaçaqlardan elə danışırlar ki, komandan dəhşətdən az qala dəli ola. Qışqırır ki, bu qədər də qırğın olarmı, siz böyük bir qoşunun axırına çıxıbsınız!

Komandan qalsın burada, indi də sizə danışım İsaxandan və onun qaçaq dəstəsindən. Onlar Keşiş dağına, İsaxanın öz qoyun sürülərini saxlatdığı yerə gəlirlər. Erkəklər kəsib, yeyib-içib dincəlirlər. İki gün dincələndən sonra 10-cu qolun başına gəlirlər. Burada düşərgə qururlar. İsaxan gündüz saat 3 radələrində yenə milis idarəsinə bir neçə qaçaqla hücum edir, xeyli dustağı azad edir. Milisləri pərən-pərən edib, çoxlu silah ələ keçirib, milislərin atlarına yükləyib düşərgələrinə gətirirlər. Xəbər mərkəzə çatır, oradan qoşun gəlir. 10-cu qolun başında möhkəm döyüş gedir. Qırmızı Ordu yenə tələfata uğrayır. İsaxanın dəstəsindən 7 nəfər yaralanır. İsaxan Arxaşana gedir, orada məskən salır. Bu xəbəri eşidən komandan Qarayazı vağzalına güclü qoşun göndərir. Əsgərlər vaqonlardan boşaldılıb "Qaradüz" deyilən yerdə yerləşdirilir.

Qarayazı milis rəisi xəfiyyələri, yəni çuğulları çağırıb tapşırıq verir: "Harda olur-olsun, İsaxanın və eləcə də qaçaq yoldaşlarının yerini üç günə tapıb deməsəniz, sizi sürgün etdirəcəyəm". Alçaqlar, satqınlar böyük vahimə içində düşürlər dağlara İsaxanın yerini axtarmağa. Keşiş dağını gəzirlər, Emin düzünü, Cinni dərəni, Hacıvəlli dərəsini, At dolanı, Divsizi, Qurd dərəsini, axırda Cahangirdə Palıdlı bulağın alt yanında qaçaqların düşərgəsini görüb başıodlu özlərini milis rəisinin otağına salırlar. Qaçaqların yerlərini rəisə bildirirlər. Milis rəisi çuğulları Qaradüzdə yerləşən ordu komandirinin yanına göndərir. Orada hazırlıq edib ordunu iki hissəyə bölürlər. Birinin yolu çaylaqla düşür. O birisi Qarallı bulağının dərəsi ilə gedir.

Qırmızı Ordu hissələri çox geçikmişdi. Səhər öz nurlu camalını göstərdi. Kim bilirdi, bu səhər kimin üzünə necə açılacaqdı?!

***Xəfiyyələr Qırmızı Ordunu arxasınca gətirməkdə olsunlar, sizə kimdən deyim, qaçaqlardan.***

Qaçaqlar, adətən, səhərlər tez dururlar, axşamlar isə gej yatırlar. Tez duran qaçaqlar əl-üzlərini yuyub gəzinirdilər. Mərəkə bağlayıb, söhbətlər edirdilər. Birdən Nağı dedi: «Şəmistan, Yunus, gəlin bu dağın belinə çıxaq». Onlar çıxdılar dağın belinə. Nağı dürvündünü çıxarıb ətrafa baxdı. Sonra Şəmistanla Yunus da baxdı. «Bu çox yaxşı şeydir. Uzağı gözünün qarşısına gətirir». Nağı dürvündünü qutusuna qoyub enmək istəyirdi. Birdən Şəmistan gördü ki, Cahangirin çaylağı ilə ordu gəlir. Şəmistan təəccüblə dilləndi: «Ayə, ay Nağı, bu, yuxudumu?» Yunus təsdiqlədi: «Bu, Qarayazı meşəsindəki Palıdlıqdakı yuxudandı». Nağı isə gülümsəyərək mənalı-mənalı dilləndi: «Yuxudursa, gerçək yuxudur. Di tez olun, aşağıya düşək. Amma siz İsaxana bir şey deməyin».

Enirlər dərəyə, İsaxanın yanına. Nağı beşaçılanı saz kimi sinəsinə basıb deyir: «Əmioğlu, sinəmə üç bənd söz gəlib, qulaq as, deyim». İsaxan «Ay Nağı, kaş sənə vergi veriləydi»,- deyə bir Nağıya, bir də beşaçılana baxdı.

Aldı görək Nağı nə dedi:

Göy üzünü bulud alıb,
Üst tərəfdən yaman gəlir.
Atlar toplara qoşulub,
Yönü bəri yaman gəlir.

İsaxan: «Əmioğlu, bu dağlar çox möcüzəli dağlardı. Keçmişdə burada Qarabağlılar yaşayarlarmış. Damları yerdənqazma imiş. Burada dəhşətli külək əsərmiş və qapıları arxadan sovuruqla doldurarmış. Adamlar hər səhər bajadan çıxıb qapıların arxasını təmizləyərlərmiş. Həmin dəhşətli küləklə bərabər, gözlərinə cin, şeytan da görünərmiş. Onun azarından onlar yenə Qarabağa köçürlər. Nağı, olmaya, sənin də gözlərinə cin-şeytan görünüb?»

**Aldı Nağı:**

Top atılar, şimşək çaxar,
Bu dərədən qanlar axar,
Tufan qopar, sellər yıxar,
Çox pis dövran, zaman gəlir.

İsaxan Şəmistanı tənələdi: «Ayə, ay Şəmistan, Cinni dərə buradan çox aralıdır. Sizə nə olub?».

**Şəmistan: «Gerisinə qulaq as»:**

Nağı deyər, ağlım çaşıb,
Fikir-zikir başdan aşıb.
Dərdlər mənnən quçaqlaşıb,
Xəyal üstə güman gəlir.

İsaxan onları danladı: «Mən sizə demişəm, fikir eləməyin. Fikir adamı dəli-divanə edər». Nağı təklif etdi: «Əmioğlu, olarmı, bu dağın belinə çıxaq, o cini-şeytanı sənə göstərim?». Çıxırlar həmin dağın belinə. Oradan baxanda nələr görsələr yaxşıdı!

Qarayazı Təhləsi xoşuna gəlməyən adamla rastlaşanda deyər: «Elə bil, məni vuran ilanın üstünə çıxdım». İsaxana da Qırmızı Ordunun əsgərləri elə göründü.

Nağı təsdiqlədi: "Əmioğlu, elə mən sizə bu cin, şeytanı deyirdim". Atalar deyiblər: "Gözü ilə görən Allahdan irəlidir". Endilər dərəyə, İsaxan əmr elədi, bütün qaçaqlar bir yerə toplaşdılar. İsaxan silahdaşlarına müraciət etdi: «İndi də mənə qulaq asın, atı yolda sınayarlar, igidi darda».

Aldı görək Koroğlunun «Misri» havası üstündə İsaxan nə dedi:

Beşaçlan güllləsi leysana dönsün,
Yağdırın, qoy süzsün qoşa güllələr.
Düz atın, düşmənlər qana bələnsin,
Amandı, keçməsin boşa güllələr.

Qanla qurulubdu tarixin himi,
Ölüm qorxutmayıb igid nəslimi.
Yapışsın alına bir möhür kimi,
Çoxdandı, bələddi başa güllələr.

Müzəffər vaxtıdı, qələbə çalın,
Əvvəlcə sərkəri atından salın.

Amandı, atanda düz nişan alın,
Tuşlayın, ürəklər deşə güllələr.

İstər tufan olsun, istər yel gəlsin,
Baxsın bu səhnəyə, tamam el gəlsin,
Qanlar axsın, bu dərədən sel gəlsin,
Hay deyin, salınsın işə güllələr.

İsaxan görübdü belə davalar,
Bizi unudarmı ellər, obalar?!
Mərd girib meydana ata-babalar,
Daraşsın qurd kimi leşə güllələr.

İsaxan sözlərini tamam eləyib qaçaqlara tapşırıqlar verdi: «Qabaqda gələn zabitləri və topu, arabanı sürən əsgərlərin vurulmasını tapşırıram Nağıya, Şəmistana, Yunusa, Mahmuda. Di durmayın, yerinizi tutun». İsaxan Zamannın Musanı çağırdı: «20 nəfərlə get, qoşun dərəyə dolanda arxalarını kəsin!» Sonra o birilərinə üz tutdu: «Haqqalannın Alı, siz sol tərəfi, Zaqatalalı Abdul, eloğlun Məjid, İslam, İlyas, 25 nəfər də qaçaqlardan götürün, sağ tərəfi kəsin. Mən güllə atmasam, döyüşü başlamayın. Di durmayın, haydı!».

Bütün qaçaqlar qoşun dərəyə dolana kimi yerlərini hazırladılar. Qoşun doldu dərəyə, xəfiyyələr geri qaçdılar. Qaçaqların bağrı çatlayırdı: «İsaxan niyə atəş açmır?». İsaxan təmkinli və çox siyasətcil idi, bilə-bilə düşməni yaxına buraxırdı. Düşərgəni görən düşmən sakitjə gəlmək, onları mühasirəyə almaq fikrində idi. Qəflətən İsaxanın atəş səsləri eşidildi. Bunu eşidən qaçaqlar dərhal silahlarını işə saldılar. Əvvəljə Nağı, Şəmistan, Yunus, Mahmud zabitləri atdan saldılar. Topu, arabanı sürən əsgərləri dənlədilər. Qoşun hər yana vurnuxurdu. Qaçaqlar sağa, sola, arxaya, qabağa qaçan əsgərləri qırırdılar. Nağı Şəmistandan soruşdu: «Heç patronun qaldımı?» Şəmistan javab verdi: «160-dan qırxı qalıb, biri də boşa keçməyib». Bələdçilər atlarını sürüb

geriyə qaçırdılar. Nağı Şəmistana qaçanları göstərdi: «Şəmistan, onlara bax, neçə qaçırlar!». Yunus da onların söhbətlərinə qoşuldu: «Hayıf ki, güllə mənzili deyil. Rus atı da onların dalından çata bilməz, öz atlarımız uzaqdadı». Mahmud arxayın-arxayın dilləndi: «Sonra onlarla hesablaşarıq».

Qaçaqlar Qırmızı Ordunun fatihəsini verəndən sonra bir yerə toplaşdılar. İsaxan gördü ki, qaçaqlar özlərini zorla gətirir. Hərəsi, bəlkə, üç pud ağırlığında boğazına qədər qatar patronu asmışdı. İsaxan: «Öz gülləläri özlərinə qənim olajaq», - deyib başındakı qaçaqlarla dərəaşağı Saj dağı tərəfə getdilər.

***Qaçaqlar getməkdə olsunlar, sizə xəbər verim çuğullardan.***

Çuğullar gördülər ki, böyük döyüşdən sonra bir nəfər də olsun geri qayıdan olmadı. Başıodlu özlərini yetirdilər Qarayazı milis idarəsinə. Rəisə ordunun başına gələn müsibəti danışdılar. Rəis Tiflisə teleqram vurdu. Komandanla bərabər, yüksək rütbəli komissarlar da hadisə yerinə gəldilər. Komandan təəjjüblə dedi: «Mən ömrümdə belə qırğın görməmişəm». Hava isti olduğundan o, meyitləri döyüş meydanında basdırmağı əmr etdi və Tiflisə qayıtdı. Əsgərlər silah, top, araba və diri qalan atlarını geri apardılar.

Beriya, Georqadze, komandan məsləhətləşdilər ki, İsaxana ordunun gücü çatan deyil. Onu yalnız siyasətlə tutmaq lazımdı. Belə qərara gəldilər ki, QPU-nun işçilərini və Dəmirçihasanlıdan sözükeçən ağsaqqalları bir yerə yığaq. Qaçaqların yerini öyrənək, barışıq elan edək, İsaxana vəzifə verək. Qaçaqlar başından dağılandan sonra bir-bir tapaq, hamısını aradan götürək».

Axtara-axtara İsaxanın dəstəsini "Madaş" deyilən dağda tapırlar. Georqadze bir neçə nəfər QPU zabitiylə İsaxanla görüşüb onu dilə tutur: «Söz veririk ki, var-dövlətiniz özünüzdə qalajaq, özünüzə də vəzifə verəjəyik. Qayıdın ailənizin üstünə». İsaxan deyir: «Sizi öldürmürük. Sizinlə bizimki tutan deyil. Axırınjı damla qanımız qalana kimi vuruşajağıq». Hökumət adamları kor-peşman geri qayıdırlar.

1930-jü il martın 2-də Georqadze bir neçə nəfərlə gəlib İsaxanı Jeyrançöldə, Saj dağı həndəvərində tapır. Georqadze onu yenə dilə tutur: «Beriya ilə danışdıq. O söz verdi ki, mən başımla javabdehəm. Çəkilsinlər evlərinə. Var-dövlətlərində heç kəsin işi olmayajaq. Sənə silah, özünə də köməkçi və yaylaq milis rəisi vəzifəsi verəjəyini vəd edir. Bu davadan heç nə çıxan deyil, düşünün, razı olsanız, Tiflisdə barışıq məjlisi də düzəldərik». Yaxın silahdaşlarıyla məsləhətləşdikdən sonra İsaxan razılığını bildirir. Barışıq yerinin Tiflis şəhərində olmasına qaçaqlar razı qalmadılar. Dedilər ki, barışıq İsaxanın öz evındə olsun.

1930-ju il martın 25-də İsaxan kəndin həndəvərində qaçaqları düzdürdü. Ehtiyat edirdi ki, hökumət hiylə işlədər. İsaxan 250 nəfərlik ziyafət məjlisi təşkil etdirdi. Hökumət tərəfindən Georqadze, Vartanyan, Ciciquzi, Qaratəpə Nahiyə Şurasının sədri Məhəmməd Əliyev və başqa komissarlar da gəldilər. Dəmirçihasanlıdan isə ağsaqqallar iştirak edirdilər. Bu ziyafət məjlisinə Georqadzeni tamada seçdilər. Bir neçə sağlıq içiləndən sonra Georqadze Nağının sağlığına badə qaldırıb üzünü ona tutdu: «Biz indiyə kimi düşmən idik, innən belə dost olduq». Nağı badəsini götürüb javab verdi: «Bizim atalar deyiblər ki, özünüzü dostdan gözləyin, düşməndən qorxmayın». Georqadze ayağa qalxıb, az qala, yalvardı: «Nağı, Nağı, xahiş edirəm, bizim dostluğumuzu pozma».

Məjlis dağılandan sonra hökumət adamları İsaxan, qaçaqlar və ağsaqqallarla görüşüb ayrıldılar.

Sabahı gün İsaxanı milis idarəsinə çağırdılar, özünü yaylaq milis rəisi təyin etdilər və ona bir mauzer silahı, Ayrımlı Oruj adlı bir nəfəri də köməkçi verdilər. İsaxanda belə inam yarandı ki, daha arada hiylə olmayajaq.

***İndi də sizə xəbər verim Xozeyindən.***

Xozeyin Sibirdə bir neçə ay qaldı. Gördü ki, gündən-günə dustaqlardan 100-ə qədər ölən olur, onların meyitlərini daşıyıb atırlar bir yana. Ajından, şaxtadan ölənlərin sayı günbəgün artır. Belə

bir günü görən Xozeyinin ürəyi dəmirçi kürəsi kimi alışdı. Öz-özünə fikirləşdi ki, bu sürgün nə qədər haqsız adamların sonuna çatıb. Sovet ölkəsinə, onları idarə edənlərə nifrət etdi və görək nə dedi:

Sərt şaxtalar ölkəsisən,
Heç ərimir buzun, Sibir!
İnsanların qatilisən,
Doyajaqmı gözün, Sibir?

Qəddar dövrə zaman gülür,
Qüssəni dərd çəkən bilir.
Bir gejədə yüzü ölür,
Üzlər görüb üzün, Sibir!

Şaxtan kəsir, qarın yağır,
Dərd götürdüm dağdan ağır,
Mənliyimi etdin fağır,
Günahkarsan özün, Sibir!

Zaman çəkir çox çətinə,
Dözümün var yaman günə.
Xozeynin siyasətinə
İnnən belə dözün, Sibir!

Xozeyin cəsur, ölümündən qorxmaz bir adam idi. Bilirdi ki, bir gün bu ölənlərdən biri də o olajaq. Ona görə də qarşısına məqsəd qoymuşdu ki, qaçsın. Xozeyin özlüyündə ölçür-biçir, qaçmağa yol axtarırdı.

Xozeyin gözətçilərlə yeməkxanaya gedən yüksək rütbəli zabiti görüb, özünü onun yatdığı otağa saldı. Qoltuğunda gətirdiyi, günlərlə itilədiyi baltanı ev əşyalarının birinin arxasında yerləşdirdi. Xozeyin zabitin sərxoş gəlib, çarpayısında uzanıb yatmasını gözləyirdi. Zabitin xorultusunu eşidən Xozeyin gizləndiyi yerdən çıxıb, onun başını yarı böldü. Tələsmədən zabitin paltarını geyindi, silahını qurşadı, arxa pənjərədən düşüb bayıra

çıxdı. Xozeyin bir ata mindi, rabitə xəttindən oper-posta teleqram vurdu: «Yüksək rütbəli zabit yol üstədi, iki nəfər gəlsin, onu Sibir dəmiryoluna kimi yola salsın». Elə də edirlər. Sibir dəmiryolu qovuşacağında Xozeyin atdan düşdü və atı bir nəfərin yedəyinə verdi. Həmin adama tapşırdı ki, mən gələnə kimi bu atı saxla. Bunu deyib şalban daşıyan qatarın maşinistinin yanına mindi. Bu minvalla qatarları dəyişə-dəyişə Rostovun mərkəzi dəmiryoluna gəlib çıxdı. Orada qatardan düşdü. Dəmiryol rəisini yanına çağırtdırdı: «Bakıda müşavirəmiz var, gecikirəm, məni tez yola sal». Rəis Xozeyini neftdaşıyan qatarın maşinistinin yanına mindirdi. Axşamüstü o, Bakıda qatardan düşdü. Xozeyin zabit libasında gəzdikcə hamı ona baxırdı, çünki Xozeyin balaja boylu idi və paltar bir az şalax görünürdü. Xozeyin yaxşı bilirdi ki, paltara görə hamı ona baxır. O, dəmiryolçuların köhnə vaqonunun ağzını açdı. Gördü ki, dəmiryol işçiləri gediblər. Onlardan birinin köhnə paltarını götürüb zabit libasının üstündən geyindi və vağzala çıxdı. Bakı Xozeyinin gözünə xor göründü. Şəhərin işıqları solğun, camaatı məyus idi. Əhali sakit-sakit gəzişirdi. Öz-özünə düşündü: «İlahi, bu nejə zəmanədir, bütün camaat pərişan gəzir. Elə bil Bakı yas tutub». Əvvəllər Bakıya gələndə, elə bil, Bakı üzünə gülürdü, şənlik edirdi. Amma indi hər yanda məyusluq hökm sürürdü. Şəhəri belə görən Xozeyin aldı görək nə dedi:

İblislərin tilsimindən qaçmışam,
Ana yurdum, jan-jiyərimsən, Bakı!
Viran qalsın o şaxtalı Sibiri,
Məngənədən çıxıb gəldim mən, Bakı!

Deyən, sən də fikirlərə dalmısan?
Mənim kimi, bəlkə, məyus qalmısan?
Zaman döyüb, olmaya qojalmısan?
Çöküb gözlərinə zülmət, çən Bakı!

Nə baladır, bəlkə, göydən enibdi?
De, haqdanmı çıraqların sönübdü?
Bəd zamanın üzü bizdən dönübdü,
Dərdli gördüm bu gün səni mən, Bakı!

Xozeyinəm, qürbət çıxıb qarşıma,
Qəribliyə gedib düşən daşıma.
Bəd zamana qar yağdırıb başıma,
Saçlarıma daha düşdü dən, Bakı!

Bakının dərdi Xozeyinin dərdindən idi. Atalar demişkən, «Dərdli dərdlini tapar». Xozeyin çox istədiyi Bakı ilə vidalaşdı. O, gecə səhərə kimi yol gəldi. Səhər işıqlaşanda Ağstafa vağzalında düşdü. Bildi ki, Tiflisdə, ya da Qarayazıda düşsə, tutajaqlar. Odur ki, Ağstafa draxdınına (çayxana) girdi ki, çörək yesin. Əvvəlcə qapıdan girən kimi oradakıları nəzərdən keçirdi. Gördü ki, oturub çörək yeyən, çay içən hər kəs öz dərdindən, öz işindən danışır. Birdən o, çekist geyimli bir nəfərin bunu süzməsini başa düşdü. O saat bayıra çıxıb Ağstafa vağzalının bağındakı ağac şaxlarının arxasına keçdi. Öz-özünə belə qərara gəldi ki, əgər arxamca gəlsə, vurajam. Xozeyin şaxların arxasından baxıb gördü ki, həmin adam gəlir. Pistoleti çıxartdı və öz-özünə fikirləşdi: «Qoy lap yaxına gəlsin». Birdən arxadan səs eşitdi: «Ayə, ay Qurban, mənəm. Tatlı Bayramam». Baxanda gördü ki, QPU-da işləyən qardaşağası Tatlı Bayramdır. Hər iki dost bir-birilə qucaqlaşıb, öpüşdülər. Bir faytona minib Bayramın evinə getdilər. Bayram erkək kəsdirdi, Xozeyini üç gün evində saxlayıb, əyninə təzə paltar aldı, ona bir at da verdi. Xurcununa yeməklər doldurub, Kürün Poylu körpüsündən Qarayazı meşəsinə yola saldı. Xozeyin meşə yuxarı gəldi, Kosalıda etibarlı bir qohumunun evində pünhan oldu. Dəmirçihasanlıda, yəni Kosalı, Nazarlıda olan əhvalatdan halı oldu. İstədiyi adamları gecələr çağırtdırıb danışdırdı. Xozeyinin gəldiyini eşidən İsaxan da öz qaçaqlarıyla onun yanına gəldi.

Xozeyin onlara belə bir təkliflə mürajiət etdi: «Sovet hökuməti quruldu. Biznən də barışan deyil. Sürgünlərdə itib, batıb, ölməkdənsə, keçək Türkiyəyə. Orada asudə yaşayaq». İsaxan etiraz etdi: «hökumətlə barışıq elan etmişik, söz veriblər ki, heç kimə toxunmayajaqlar. Bundan sonra öz ana yurdumuzda istədiyimiz kimi yaşayajağıq».

Xozeyin İsaxana: «Dəfələrlə Qarayazı milis orqanına hüjum edib, adam öldürüb, dustaq buraxıb, silah anbarı yarıbsınız, Qarayazı Palıdlı meşəsində, 10-ju qolda Qırmızı Ordunu qırıbsınız, Jahangirdə ordunun axırına çıxıbsınız. Bu qanı heç vaxt kommunistlər sizə bağışlamayajaqlar. Bu, Şura hökumətinin siyasətidi, onlara inanmaq olmaz».

İsaxan öz inadından dönmədi: «Ölsəm də, vətəndə öləjəm, mən qürbətdə yaşaya bilmərəm». Xozeyin çox hirslənmişdi: «Özünüz bilin, mən Türkiyəyə keçirəm. Kim getmək istəyir, gəlsin». Bunu deyib, atını sürdü. Bir mənzil gəlmişdi ki, gördü arxası ilə xeyli qaçaq atını çapırdıb gəlir. Xozeyin atının başını çəkdi: «Malınızı, qoyununuzu əlaltından satdırın, çəkidən yüngül, qiymətdən baha nə varsa atların xurjununa doldurun. Kürün keçidində axşam məni gözləyin». Qaçaqlar razılaşıb dağıldılar.

Nağı çaşbaş qalmışdı. Nə İsaxandan, nə də qardaşından keçə bilirdi. Atını sürüb Qaraçöpə gəldi. Qohumlar, dostlar eşidən kimi Nağının görüşünə gəldilər. Bir də bir etibarlı dostu gəlib onunla görüşdü. Sonra Nağının xurjununu alıb öz atının belinə qoydu və ona dedi: «Qardaş, atımı sənə bağışlayıram». Nağı ona razılığını bildirdi.

Dostunun atını minib yola düşəndə gördü ki, bu, at deyil, qızılquşdu. Qaradüzü yarıya endirəndə görür ki, bir «Emadin» (M-1) gedir. «Emadin»də L.P.Beriya və hərbi komissarlar var idi. Qırmızı Orduya tapşırıqlar verməyə gəlmişdilər. Nağı görür ki, Böyük qolun ətrafında əsgərlər düzülüblər. Atını sürür Arxaşana tərəf. Dəmiryolunu keçəndə Qırmızı Ordu əsgərlərinin hər tərəfi tutduğunu görür. Kommunist Allahverdi də öz dəstəsi

ilə onların içində idi. Onlar Nağını milis idarəsinə gətirirlər. İdarədə Kommunist Allahverdi ona deyir: «Beriya «Emadin»lə keçəndə sizi həbs etmək üçün əmr verdi».

Kommunist Allahverdi özünü Beriyanın yanına yetirdi: «Yoldaş Beriya, o atlı adam budur». Beriya tapşırdı: «Allahverdi, mən Tiflisə gedirəm, təcili işim var, çağırıblar. Bu adamı mən qayıdana kimi saxla. Başınla cavab verəjəksən». Allahverdi «baş üstə» deyib tez növbədə duran zabiti çağırmağa getdi. Qayıdanda gördülər ki, nə at var, nə də Nağı. Allahverdi hər yana adam göndərdi. Heç bir xəbər çıxmadı. Sən demə, Nağı milis idarəsinin çəpərindən atılır, tat Kor Əlinin əkininə düşür. Oradan da tatların əkinlərini ayaqlayıb meşə tərəfə gedir. Sonra atı bir etibarlı dostunun tövləsində saxlatdırır, özü isə Kosalıda Fağırqardaşlı İsmayılın evinə gəlir və bir müddət burada qalır.

***Nağı burada qalmaqda olsun, sizə xəbər verim Cəfərrinin Qaçaq Şəmistandan.***

Şəmistan gejə atını sürüb gəldi evlərinə. Anası Anaxanım oğlunu sinəsinə basıb öpdü. Şəmistan Türkiyəyə keçəcəyini anasına deyə bilməyib, gözləri yaşla doldu. Anası onu gözüyaşlı görüb danladı: «Oğul, dara düşəndə qorxağın gözü, igidin isə alnı tərləyir. Sən özünü mənə niyə qorxaq göstərdin? Sənin dayıların -Meqi ilə Ması erməni-müsəlman davasında çoxlu erməni qırıblar. Meqi yaralanıb, onu gejə ilə kəndə gətiriblər. Ması tək qalıb. Ermənilər görüblər ki, səngərdə bircə nəfər qalıb. Onlar çatana kimi Ması özünü vurub. Ajıqlarından Ması dayını qol, bud, baş, ayaq doğrayırlar. Ması dayının doğranması xəbəri Sadıxlıya çatdı. Onun meyitini kişilər cəsarət edib gətirməyə getmədilər. Mən atla həmin yeri tapıb qardaşım Masının qol, bud, baldırlarını xurcuna doldurdum. Başı əlimdə Sadıxlıya qayıtdım. Sən niyə bir qaşıq qanından qorxub ağladın?».

Şəmistan tez özünü ələ aldı: «Ana, biz hazırlaşıb həmişəlik Türkiyəyə keçirik. Sənin burada qalmağına dözə bilməyib ağladım».

Anaxanım ona: «Oğul, məni burada qoyub getsən, südüm sənə haram olar. O ki gedirsən, məni də apar»,- deyir. Bu zaman xəbər gəldi ki, milis dəstələri kəndin həndəvərini mühasirəyə alıblar. Şəmistan atışa-atışa Qarayazı meşəsinə girdi.

***İndi də sizə xəbər verim Xozeyindən.***

Xozeyin malını, qoyununu əlaltından satdırdı. Həvillahlının Mərdan, Ələmpaşaoğlu Mirzə Cabbarxalıl, Qaracalardan Cəlal onun sürülərini satıb, nağd pul edib verdilər Xozeyinə. O, qohumları ilə görüşüb yola düşdü. Xozeyin yola düşəndə hələ gün batmamışdı. O, bir qədər gedəndən sonra atın yüyənini çəkib geri baxdı. Qarayazı yasa girmiş kimi görünürdü. Elə bil, torpaq dil açıb Xozeyindən gileylənirdi: «Mən sənin anan olmuşam, üstümdə səni bəsləmişəm, havamı udub, suyumu içmisən, şirin nemətlərimlə böyümüsən. İndi ananı, ana vətənini qoyub hara gedirsən, ay etibarsız?». Xozeyin xəyalında düşünürdü: «Məni səndən didərgin salırlar, məni sənin isti qujağında boğub öldürürlər, ay ana vətən!». Həmişəlik vətənindən ayrılan Xozeyin görək nə deyir:

Kosalı, Nazarlı həyəcandadı,
Heyrətə qərq oldun sən, Qarayazı!
Hıçqırtılar, hönkürtülər əlindən
İztirab çəkirəm mən, Qarayazı!

Ağlar qalıb, nalə çəkir yasdılar,
Nikolayı dara çəkib asdılar.
Peterburqu, Moskvanı basdılar,
İndi də səndədi çən, Qarayazı!

Amansız düşmənə Xozeyin neylər?
Dil deyir torpaqlar, ağlaşır göylər.
Qırdılar, qalmadı ağalar, bəylər,
Saldılar saçıma dən, Qarayazı!

Sözlərini bitirən Xozeyin vətən torpağını öpüb yoluna davam etdi. Keçidə gələndə gördü ki, bütün qaçaqlar onu gözlə-

yirlər. Xozeyin onlara üz tutub: «Dostlar, bir az da gözləyək. Çünki hər yana əsgərlər düzülüb». Şəmistan başına gələn əhvalatı söylədi. Anası Anaxanımın da getməsini təklif elədi. Xozeyin dedi: «Şəmistan, səfərimiz qorxuludu, zənən əhlidi, başına bir iş gələr. O da bizə bir dağ olar. Mən də öz həyat yoldaşımı aparmıram. Dedim, yolları yoxlayaq, sonra apararam».

Şəmistan onda qaçaqları Ağbabadan o yana sərhəddən keçirib qayıdacağını bildirdi: «Mən geri qayıdajam. Allaha təvəkkül, nə olar, olar».

Atlandılar, yola düşdülər. O gejə səhərə kimi yol getdilər. Doloy (Dolama) yolunun başında hava işıqlaşdı. Dəlidağa tərəf çınqıllıqda oturdular. Atları "Xram"da saxladılar. Xozeyin Doloyun başında iki nəfər gözətçi qoydu. Qaçaqlar axşamı gözlədilər.

Gözətçilərdən biri Xozeyinə xəbər gətirdi: «Doloyın ayağından bir «Emadin» qalxır, nə edək?» Xozeyin tapşırdı: «Özünüzü göstərməyin, qoyun gəlsin». «Emadin» gəlməkdə olsun, qaçaqlar maşın yolunun ətrafına sindilər. «Emadin» gəlib keçəndə Xozeyin əmr etdi: «Durun!». Hamı silah əldə durdu. «Emadin» arada əyləndi. Xozeyin bunlarla rusja, gürcücə hey danışdı. Sonra üzünü qaçaqlara tutdu: «Bunlar bizim ən qəddar düşmənlərimizdir. Onlar QPU-nun yüksək rütbəli zabitləri Sereteli, Naçkebiya, bir də Qriqoriyadır. Gedirlər sərhədləri bərkitməyə». Xozeyin mauzerini çıxartdı. Şəmistan silahını daşa söykədi, arxasını isə «Emadin»ə tərəf çevirdi və dedi: «Xozeyin, ya məni də bunlarla güllələ, ya da bunlara tapşır, məni üzə çıxarsınlar. Çünki mən anamı qoyub getməyəjəm». Xozeyin əlini aşağı saldı, silahdaşlarından soruşdu: «Siz nə deyirsiniz?» Hamı bir ağızdan Şəmistana tərəf danışdı: «Şəmistanın böyük zəhməti var». Xozeyin də onların sözlərini təsdiqlədi: «Doğrudur, o, çox etibarlı dostdu». Sonra üzünü QPU-nun işçilərinə tutdu: «Anası deyib, məni qoyub Türkiyəyə köçsən, südümü halal etməyəjəm. Sizi öldürməyib, bu adama bağışlayırıq. Sizin də insanlığınız varsa, ona kömək edin. Üzə çıxardın, anası ilə asudə yaşasın».

Bütün qaçaqlar Şəmistanla öpüşüb ayrıldılar, atlarını minib Ehram çayından Türkiyəyə yola düşdülər.

Şəmistan silahı daşın üstündən götürüb «Emadin»ə qoydu. QPU işçilərinin hamısının nitqi tutulmuşdu. Bilmirdilər, nə etsinlər. Şəmistan əli ilə sürüjüyə başa saldı ki, geri sürsün. Onlar geri qayıtdılar. Canbağçada dilləri açıldı: «Sənin anana qurban olaq. Bizi ölümdən xilas etdin».

Birbaşa Tiflisə gəldilər. Sereteli onu bir həftə evində saxladı. Seretelinin anası Şəmistana yalvarırmış: «Şəmistan, anan həm özünü, həm də məni oğul dağından qurtardı».

Bir gün Sereteli Şəmistana qırmızı vəsiqə verdi. Onu Qarayazıda milis dəstələrindən birinə rəis təyin etdi.

Şəmistanın evə gəlmək ərəfəsində anası Anaxanım yuxu görür. Görür ki, qardaşları onu çağırır, başına gülab suyu tökürlər. Sonra da bir nurani ağsaqqal kişi ona deyir ki, odur oğlun, söhbət edin. O, oğlunun səsini eşidir, amma görə bilmir. Sübh namazı yuxusunu danışır. Başı havalanmış kimi bu sözləri oxuyur:

Bu gecə yuxumda gördüm:
Meqim ilə Ması gəldi.
Başımdan gülab tökdülər,
Dərdimin davası gəldi.

Xudamın rəhmi olmasa,
Bilin ki, bataram yasa.
Ağ saqqallı, əldə əsa
O Xızır babası gəldi.

Siz baxın sinə dağıma,
Qəm yağıbdı yanağıma.
Aman Allah, qulağıma
Şəmistanın səsi gəldi.

Anaxanım deyər, canım,
Məndən qaçdı öz sultanım.

Gör gəlirmi Şəmistanım?
Burnuma nəfəsi gəldi.

Anaxanım qəflətən görür ki, qapıda bir «Emadin» dayandı. Şəmistan, yanında da bir neçə adam evə daxil oldular. Cəld Anaxanım ana oğlunu bağrına basıb, üz-gözündən öpdü. O elə bildi ki, Şəmistanın yanındakılar varlılardır. Onları da öpdü: «Tez olun, indicə milislər gələjək». Şəmistan anasına hal-qəziyyəni danışdı. Onunla gələnlərin hökumət adamları olduğunu bildirdi. Gələnlərdən Azərbayjan dilini bilən bir nəfər anaya müraciət etdi: «Ana, halal olsun sənə, oğlun bizi ölümdən qurtardı. Nə qədər ki Şura hökuməti var, biz sənin oğluna arxa duracağıq». Bu sözləri deyib yola düşdülər.

Sonra Anaxanım ana Şəmistana gileyləndi: «Sən qaçaq olandan bəri atını sənin qohumun minir».

Şəmistan rayon mərkəzində Qarayazı milis idarəsində işə başlamaq və orada işləyən qohumu ilə haqq-hesabı çürütmək üçün çiynində beşaçılan, belində patrondaş atı sürüb, Qarayazı milis idarəsinə gəldi, vəsiqəsini təqdim etdi. Onu görəndə milislər bir-birinə dəydi. Silahını əlindən aldılar. Lakin vəsiqəni görüb sakitləşdilər. Yuxarılara zəng edib məsələni öyrəndilər. Onun silahını özünə qaytardılar. O, atı yedəyində dost-tanışları ilə görüşə-görüşə evinə qayıtdı.

Şəmistan səhəri günündən işə başladı. Qohumunu işdən azad etdi.

***Şəmistan işinə davam etməkdə olsun, sizə xəbər verim İsaxandan.***

İsaxan 1930-cu ilin əvvəllərindən yaylaq milis rəisi təyin edilmişdi. Ona Borçalının Ayrım kəndindən Oruc adlı bir köməkçi də vermişdilər. İsaxanın binələri Qaraxaçda, Doloy yolunun ağzına, yol kənarına düşmüşdü. Binədən qonaqlar əskik olmurdu. İsaxan (Oruc də həmişə ondan əl çəkmirdi) həmişə qonaqlıqlarda olurdu. Çox adam bilirdi ki, bu Orucu İsaxanı izləməkdən ötrü qoyublar.

Nağı hələ Türkiyəyə getməmişdi. Əlaltından var-dövlətini satdırırdı ki, bilən olmasın. İki dəfə Türkiyəyə gedib orada Xozeyinlə görüşüb, yerini sahmanlayıb gəlmişdi. Günlərin bir günü Nağının binəsindən bir atlı gəlib İsaxana nəsə dedi. Oruc başa düşdü ki, Nağının binəsində qonaqlıq var. İsaxanla bərabər o da atını yəhərləyib getdi. Binəyə yaxınlaşanda gördülər ki, qazanlar qaynayır, samovarlar buğlanır. Güllü-çiçəkli yaşıllığın üstünə gəvələr, zililər döşənib, üstündə oturub yeyib-içənlərin sayını bilmək olmur. Bir cavan aşıq oxuyurdu, onun səsi nəinki insanı, hətta göydə quşları da valeh edirdi. Ətrafdakı gül-çiçəklər sanki aşığa boynunu büküb tamaşa edirdi. Aşığın sazından, sözündən təbiət gözəlləri də doya bilmirdi. Günəşin şəfəqi gül-çiçəyin üzərinə düşdükcə rəngarəng şüalar göz qamaşdırırdı. Ətrafdan vuran mehli külək kəkotunun, yarpızın ətrini oturanların burunlarına doldururdu. Aşığın uca dağlara yayılan məlahətli səsi, avazı təbiətə nur səpələyirdi. Cəh-cəh vuran quşlar susmuşdu. Sanki təbiətdə başqa bir aləm yaranmışdı. Ətrafdan boylanan çiçəklər bir-birinə pıçıldayırdı ki, bu aşıqda olan varlıq bir möcüzədi.

Lakin Orujun gəlməsi, elə bil, bu şənliyə bir zəhər gətirdi.

İsaxan bir neçə qızıl pul çıxardıb, aşığa verdi: «Mənim elimin sevimli oğlu, bir «Atüstü» oxu», - dedi.

Aşıq Alxan cavan olsa da, çox arif adam idi. Əyri-əyri Oruca baxıb, sonra da İsaxana Orucu işarə edib, oturanlara müraciət etdi: «Ay camaat, aşıqla balabançı yol gedirdi. Bir kəndin yaxınlığından keçəndə balabançı görür ki, bir qadın atın yanına uzunqulağı qoşub xırman döyür. Bu, balabançıya çox qəribə gəlir. Deyir, usta, ona bax, qadın vələ uzunqulağı qoşub atla xırman döyür. «Nə olsun, işini ki görür»,- deyə aşıq cavab verir. Balabançı and verir ki, usta, gəl yaxından gedək, o qadına sözüm var. Usta nə qədər onun başını qatmaq istəsə də, mümkün olmur. Çar-naçar razı olur. Xırmanın yanından keçəndə usta: «Bajı, bərəkətli olsun», - deyir. Qadın ona: «Sağ ol, ay qardaş».

Balabançı dinməz durmayıb qadından soruşur: «O atın yanındakı nədi, ay bajı?» Qadın cavab verir: «O da aşığın yanındakı balabançı kimi bir şeydir». Aşıq: «Ə, payını aldınmı, gəl gedək», deyə yollarına davam edirlər.

Aşıq Alxanın bu söhbətinə oturanların hamısı gülüşdü. Oruc özü də başa düşdü ki, ox hardan dəyir. Məclisdəkilər, az qala, Orucun gözünü tökmək istəyirdilər ki, müsəlman olasan, özün də İsaxan kimi adamın yanında duz-çörək yeyəsən və onu izləyəsən.

Sonra Aşıq Alxan sazını kökləyib, görək nə deyir:

Namərd ilə varma yola,
Dara düşsən atar səni.
Sirr sözünü açma ona,
Düşməninə satar səni.

Gələr-gedər axşam-səhər,
Dona girər təhər-təhər.
Üzə gülər, fel işlədər,
Tələ qurar, tutar səni.

Bax Alxanın yarasına,
Loğman tapın çarasına.
Məzlum qullar arasına,
Qabaqlayıb qatar səni.

Aşıq Alxanın bu sözlərinə qiymət verənlərin «əhsən» səsləri hər yana yayıldı. Bu sözlərdən mütəəssir olan İsaxan camaata üz tutub: «Mən ölsəm də, vətənimdə öləjəyəm. Qərib ölkədə yaşaya bilmərəm», -deyə Vətənini tərk etmək istəmədiyini bir daha hamıya vurğuladı. Sonra fikirli-fikirli öz binəsinə tərəf döndü.

Oruc İsaxanın yanında ola-ola qaçaqların olduğu yerləri əlaltından axtartdırırdı. O, İlməzli Keçəl Quluya deyir: «Sənə mal verəcəm, Dəlidağdan o yana qaçaqlar var, yerini öyrən, mənə de».

Keçəl Qulu da bir ata minib Dəlidağın dibində Dələnoğlu Məhəmmədin binəsində düşür. Dələnoğlu Məhəmməd heyvan

otarırmış. Əhnəllin Cahangir də binədə imiş, Keçəl Qulunu dəyəyə aparır, ona çörək yedirdir. Yola salanda ondan hara getdiyini soruşur. O, Qızılqoça getdiyini bildirir. Cahangir deyir: «Gec deyilmi?». Keçəl Qulu: «Atın əlində nə var, indi çataram»,- deyə onu arxayın edir.

Sən demə, Dələnoğlu buna göz qoyurmuş. O, uzaqdan görür ki, binəyə bir atlı gəldi, tez də çıxıb getdi. Sürünü atlıya tərəf gətirdi, onunla görüşdü, ondan kim olduğunu, hara getdiyini soruşdu. Keçəl Qulu ona da Qızılqoça getdiyini söyləyib, atını düz Oy dərəsinin başına, Çatağa tərəf çapırtdı. Orada qaçaqlar yerləşmişdi. Qaçaq Əli bunu çoxdan izləyirdi. Keçəl Qulunu dayandırdı və ondan buralara nəyə görə gəldiyini xəbər aldı. Keçəl Qulu: «Bir inəyimiz itib, onu gəzirəm»,-dedi. Qaçaq Əli ona arxasınca gəlməyi işarə etdi: «İnəyinin yerini bilirəm, atını arxamca sür». Onlar Dələnoğlunun yanına gəlirlər. Dələnoğlu onun paxırını açır: «Bu atlı mənə deyir, Qızılqoça gedirəm, sənə isə deyir, bir inək itirmişəm». Di qaçaqların qamçısı Keçəl Quluya dəydikcə o, Allaha da, qaçaqlara da yalvarır: «Məni öldürməyin, düzünü deyəjəm».

Görək Qaçaq Əli nə deyir:
Xınzır oğlu, haramzadə,
Qaçaqlara ilişibsən.
Nejəsən, başını kəsəm,
Bıçaqlara ilişibsən.

Quranımın sözü tutsun,
Çörəyimin duzu tutsun,
Görüm, səni qoru tutsun,
Ojaqlara ilişibsən.

Al zopanı verim, bağır,
Günahın var dağdan ağır,
Qaçaq Əli sevmir fağır,
Qaçaqlara ilişibsən.

Dələnoğlu xəncərin altından Keçəl Qulunu çıxardır. Amma deyir, düzünü de, deməsən, səni öldürəcəklər.

Keçəl Qulu hər şeyi açıb ağardır: «Məni Oruc göndərdi ki, Dələnoğlunun binəsinə qaçaqlar gəlir, onların yerini öyrən, de, sənə bir inək verəjəm. Bax sizə itirmişəm dediyim inək, həmən o inəkdir, indi məni buraxın, nə vaxt onun yanına getsəm, sizdən ona bir söz desəm, qanım sizə halaldı».

Qaçaqlar onu buraxırlar. Keçəl Qulu da Oruca heç nə deməmişdi.

***İndi də sizə xəbər verim Şura hökumətindən.***

Şura hökuməti özünü sevdirmək üçün hərdən camaata maşınlarla pulsuz un, parça, ayaqqabı, çay, şəkər paylayardı. Amma hökumət nə qədər yardım edirdisə, millət onu bəyənmirdi ki, bəyənmirdi.

Qızğın qoyun qırxının vaxtı idi. Taya-taya yunlar, tonlarla pendir, yağ heç İsaxanın eyninə də gəlmirdi. Elə bil bu var-hal onun deyildi. İsaxanın qəlbində çəkdiyini yazsalar, el də çəkə bilməzdi.

Dınqır Musa bir toğlu kəsmişdi. Oruc Musadan xahiş etdi: «Get, Sarıbulaqdan su gətir, bozartmanın üstünə su tökülsə yaxşıdır». Musa geri qayıdanda görür ki, beşaçılanın çaxmağı yoxdur. Musa ona tərs-tərs baxdı: «Oruc, dostluğun elə bura qədəriydimi?»

Oruc onu sakitləşdirir: «Musa, rahat çörəyini ye, çaxmağı özünə qaytarajam». Amma Oruc tez-tez saata baxırmış. Çörəyi yeyəndən sonra hərə bir işlə məşğul imiş. Alcannı Mustafa çayın üstə namaz qılırmış. O görür ki, Qırmızı Ordunun əsgərləri hər yanı kəsib. Oruc və əsgərlər Alcannı Mustafanı, bir də Zamannı Musanı Sarımsaxlı tərəfə qabaqlayırlar.

Bu zaman İsaxanı bir nəfər atlı çağırır. İsaxan görür ki, onu çağıran Qara Alının oğlu Məhərdir. Məhər İsaxana deyir: «Xozeyin Türkiyədən səni aparmağa gəlib. Özü də dedi ki, bu gün repressiya başlayacaq.

İsaxan: «Xozeyinə de ki, İmanı yoxdu, gəlsin, onu da gətirib gələjəm», - deyə Məhəri yola salır.

Məhər atını sürüb Xozeyinin yanına gedir, İsaxanın sözlərini ona çatdırır. Xozeyin Məhəri bir də göndərir. Ona tapşırır ki, İsaxana de, təcili gəlsin. Sonra Məhərə bərk-bərk tapşırır: «İsaxanı özünlə gətirməsən, geri qayıtma». Məhər yenə geri qayıdır. Binəyə yaxınlaşanda görür ki, bir çoban sürü otarır. Bu çoban da İmanı evinin Məhəmməd idi. Onlar görüşürlər. Məhər ona bildirir ki, Xozeyin onu İsaxanı aparmaq üçün göndərib. İmanı evinin Məhəmməd deyir: «Odur, binəyə bir qara maşın gəlib». Məhər atı sürür İsaxanın yanına: «Xozeyin yenə məni sənin arxanja göndərdi. Mənə tapşırdı ki, İsaxanı gətirməmiş gəlmə».

İsaxan cibindən dəftər-qələm çıxarıb, nə isə yazıb Məhərə verir: «Xozeyinə ver. Gözləməsin. Hər yan Qırmızı Ordunun əsgərləridi, özün də kəsə yolla get, yoxsa ələ keçərsən».

Məhər gördü ki, Borçalı Sadıqla, Haqqalannın Alı qara «Emadin»ə mindilər. Bir də bir nəfər atlı da gəldi. İsaxana xəbər verdilər ki, Haqqalannın Abdulla ot doldurduğu yerdə Qırmızı Ordunun əsgəri onu güllə ilə vurub. İsaxan: «Deyəsən, hələ çox şey görəjəyik»,- deyib «Emadin»ə oturdu. Məhər «Emadin» gözdən itənə qədər baxdı. Maşın Calaloğlu tərəfə döndü.

***İndi Məhər qayıtmaqda olsun, sizə deyim Dələnoğlu Məhəmmədən.***

Məhəmməd bir qazan ət, bir qalaq yuxa Göynəvillin Asdanla quluplaşıb Xozeyinin başınnan gələnlərə gətirir. Öpüşüb görüşəndən sonra süfrə açırlar. Şirin-şirin xörək yedikləri zaman Məhər kəsə yolla özünü ora yetirir. Kağızı Xozeyinə verir: «İsaxan Calaloğluna getdi, dedi, məni gözləməsin, Haqqalannın Abdullanı da vurdular. Sadıq, Alı da İsaxanla «Emadin»ə minib getdilər».

Xozeyin udqundu, tikə boğazında qaldı. Dələnoğlu Məhəmməd dedi: «Çörəyini ye, o vəzifəli adamdı. Nəsə bir tapşırıq verəjəklər, indi gələr». Xozeyin kağızı oxuyub, dərindən kök-

sünü ötürdü. Hamı ona baxıb çörək yemədi. Xozeyin fikirli-fikirli İsaxanın bu sözlərini oxudu:

Ordulara bac vermədim,
Tale yıxdı, əmim oğlu.
Zaman məndən üz döndərdi,
Əyri baxdı, əmim oğlu.

Nağıya de, aldım qanım,
Özüm kəsdim öz divanım,
Xozeyinə qurban canım,
Verdim taxtı, əmim oğlu.

Döyüşlərdə sinə gərdim,
Düşmənlərə cavab verdim,
Vətən idi mənim dərdim,
Əldən çıxdı, əmim oğlu.

Ana vətən İsaxana
Oğlum dedi yana-yana.
Ölməyə mərdü mərdana
Bu yol haqdı, əmim oğlu.

İsaxanın bu sözləri orada olanların ürəklərinə od qoydu, göz yaşlarını saxlaya bilmədilər.

***Hə, indi sizə xəbər verim İsaxandan.***

1930-ju il sentyabrın 11-də İsaxan yoldaşları ilə Calaloğlunda milis idarəsinin qarşısında düşdü. Sadıq ilə Alı bayırda gözlədilər. İsaxan Daneliyanın kabinetinə daxil oldu. İsaxan gördü ki, qırmızı örtüklü masa arxasında on iki nəfər yüksək rütbəli adam oturub. İsaxan salamından sonra tanıdığı milis rəisi Daneliyadan soruşdu: «Məni sizmi çağırtdırıbsınız?»

Daneliya cavab verdi: «Bəli, mən çağırtdırmışam. Bu adamlar mərkəzdən gəliblər. Sizinlə söhbət etmək istəyirlər. Sizə ayrı silah verəcəklər. Sizdəki silahı təhvil verin».

İsaxan gizlincə saxladığı öz silahını yox, hökumət verən silahı çıxarıb Daneliyanın stolunun üstünə qoydu. İsaxan gördü ki, onlar hiylə qurublar. Əmisi oğlu Xozeyinin dediyi sözlər yadına düşdü. Öz-özünə fikirləşdi: «Xozeyin deyən gün gəlib çatıbdır».

Orada oturanlar belə başa düşdülər ki, onun daha silahı yoxdu. Sevinib arxayın oldular. İsaxanın igidliyi mərkəzdə oturanları o qədər vahiməyə salmışdı ki, arxada pəncərə tərəfə tuşlanmış pulemyot da qurublarmış. Qarşısına pərdə çəkiblərmiş. Ona görə də arxayın idilər. Bayırda hər tində bir əsgər də durурmuş. Qonaqlardan bir nəfər ayağa qalxıb dedi: «Mən Gürcüstanın baş prokurorunun müaviniyəm. Gəlmişəm, siz törətdiyiniz cinayəti bağlayam. Hər şəxs öz cəzasını almalıdır. Qarayazı meşəsində, "Palıdlıq" deyilən yerdə 143 nəfərə qədər Qırmızı Ordu əsgəri qırıbsınız. Hələ yaralıları demirəm. Dustaqları buraxıbsınız. Candar tərəfdə, 10-cu qolun yanında 91 nəfər ölüb, hələ yaralıları demirik. Cahangirdə Palıdlı bulağın alt yanında xeyli miqdarda əsgər və zabit qırıbsınız. Hələ çox işiniz var. İstintaqda soruşulacaq. Sizin dəstənizdə olan qaçaqların hamısı haqqında bizə yazılı məlumat verməlisiniz». Bu sözləri deyib oturdu.

İsaxanın bir əli cibindəki silahda idi. Susmuşdu. Həmin adam yenə təkrarən dilləndi: «Cavab gözləyirəm».

İsaxan qəflətən cibindəki silahını çıxarıb onların üstünə sıxdı və ucadan: «Alın cavabınızı, köpək uşaqları», - dedi.

Sonralar janlı şahidlərin dediklərinə görə, oradakılardan 8 nəfər ölür. Daneliya isə qolundan və baldırından ağır xəsarət alır. İsaxan pəncərədən bayıra atılır. Lakin onun arxasında-pərdənin dalında olan pulemyotdan xəbəri yox idi. Güllə səsləri bir-birinə qarışdı. İşi belə görəndə İsaxanın bayırdakı silahdaşları atışmaya qoşuldular ki, İsaxanın köməyinə gəlsinlər. İsaxan öz dostlarıyla vuruşa-vuruşa Debet çayına tərəf çəkildi. Qaş qaralana kimi əsgərlər Debet çayının sahillərini əhatə edib atəş açdılar. Əsgərlər gejəni gözlədilər, səhər Debetin sahillərini axtardılar. Qaçaqların nə ölüləri, nə də diriləri tapıldı. Yaralı Daneli-

yanı Calaloğlundan Bolnisə yetirdilər. Ancaq İsaxan haqda heç bir məlumat yox idi.

***Sarallın Hajı Mehralı bu hadisələri belə xatırlayır:***

«İsaxanın Calaloğlunda vurulması sədası binələrdə böyük bir vahimə yaratdı. Camaat yığılıb İsaxanın cənazəsini almağa gəlirmiş. Sarallın Qıma Irvaham (İbrahim) İsaxanın bajısı Gülləri də göy rəngli furqona mindirir, camaata deyir ki, siz də getsəniz, basqın hesab edib bizi qıracaqlar, biz tək gedək. Furqonu sürür Mahmudun yolu ilə Calaloğluna. Milis idarəsinə yaxınlaşanda bir nəfər milis geyimli atlı faytonu dayandırır. Baxırlar ki, bu milis müsəlmandır. Milis onlardan hara getdiklərini soruşur. Güllər ağlaya-ağlaya deyir: «Qardaşım İsaxanı vurublar, onun cənazəsini istəməyə gəlmişik».

Milis oğlan deyir: «Ay xala, nə vurmaq, nə cənazə, İsaxan bolşeviklərin qənimi olub, 7-8 nəfəri burda öldürüb, hələ biri də ağır yaralıdı. Qayıdın, elə gedin ki, sizi görən olmasın. Siz də öz ayağınızla ölümə gəlibsiniz. Nə mən sizi görmüşəm, nə də siz məni. Di durmayın, gələn-gedən olmamış». Onlar faytonu geri hərləyib binəyə qayıdırlar, camaatı sakitləşdirirlər.

***Bu hadisələrdən sonra qaçaqların çoxu burada yaşamağın təhlükəli olduğunu görüb, əsas çıxış yolunu Türkiyəyə keçməkdə gördülər.***

Qarallın Binnət at arabası ilə Calaloğluna yun gətirirmiş. Bir nəfər erməni dostu rast gəlir və ona deyir: «Ayə, Binnət, hara gedirsən?» Deyir, Calaloğluna yun verəjəyəm. Deyir: «Ayə, İsaxanı vurdular. Qaç, səni də güllələyəjəklər». Binnət arabadan atı açır, gedir. Geri baxanda görür ki, onun arxasınca Qırmızı Ordunun atlıları düşüb. Atını elə sürür ki, Mahmudun yoluna çatanda at çatlayır, qalır. Düşür Mahmudun yolu ilə dik yuxarı. Allahı verir ki, çən gəlir. Şinelini çıxarıb bir daşın üstə atır, yüngülləşir. Binnət qaşa çıxanda görür ki, daşın üstündəki şineli güllə-barana tutublar. Əsgərlər yaxına gələndə görürlər ki, adam deyil, şineldi. Yenə qaşa tərəf hərəkət edirlər. Binnət Qələmillin

Süleyman, bir də Əhnəllin Cahangirlə rastlaşır. Süleymanın yapıncısını geyinir, papağını başına qoyur, çomağını alır. Deyir: «Gedin, yarım saatdan sonra binəyə gəlin. Məni tutmağa gəliblər». Süleymanla Cahangir təpəaşağı binəyə tərəf gedirlər. Binnət baxır ki, budur, əsgərlər gəlirlər. Soruşurlar: «Buradan adam keçdimi?» Deyir, görmədim. Hərlənib enirlər aşağı. Binnət də özünü binəyə çatdırır: «İsaxanı vurdular. Daha burda qalmaq olmaz. Mənə Zamanının Musanın atını gətirin. Nə istəsə verin. Məni Türkiyəyə yalnız o at apara bilər». Ocaxsızlının Nəsib atı gətirir. Xurcuna Allah verəndən qoyur. Oğlu Hacıkişinin, qızının üzündən öpür, sonra da məhlədəki qohum, el oğulları, el qızları ilə görüşüb, arvadı Mələyə deyir: «Sərhədi öyrənim, sonra gəlib səni də aparajağam». Atını minib gözdən itir.

Arvadı Mələk Binnət gözdən itənə qədər baxdı. Mələyi qəm-qüssələr yaman darıxdırdı. Ətraf dağlara, Binnət gedən yollara baxıb, hey ağlayırdı. Mələk bu ayrılığa dözə bilmədi ki, bilmədi. Göz yaşları sellərə döndü. Dəlidağa, Ağlağana baxdıqca fəryad qoparırdı. Qaraxaç yaylağı gözləri önündə bir xarabaya çevrilmişdi. Sanki qəm dəryasında boğulurdu. Bir gün belə qərara gəldi ki, məni bu bəladan qurtarsa, Binnətin xəncəri qurtaracaq. İki balasının üz-gözlərindən öpüb xənjəri gizlinjə nəmi dayasına (ərzaq məhsullarının saxlandığı köməkçi kiçik daya) gətirdi. Mələk ucadan: «Namusum kafir əlində olunca, çirkin ad alınca, şərəfli ölümü özümə xoş bilirəm»,- deyib xəncəri sinəsinə yeritdi. Bayırdakılar gələndə artıq gej idi, Mələk can verirdi. Yığışan qadınlar onu qujaqlarında məhsul saxlanan dayadan eşiyə çıxartdılar. Mələk üzünü Ağlağan dağına tutub dedi:

…Ağlağandı,
Qara xaç[1] ağlağandı.
Sən dərdli, mən yaralı,
Görək kim ağlağandı.

[1] Qara xaç – yer adıdır.

Binədən çıxan ah-nalələr dağlara yayıldı. Mələk zarıya-zarıya siyah zülfündən üç tel ayırıb görək nə deyir:

Niyə sızlayırsız, nə göynəyirsiz?
Dərindi, incidir yara, a dağlar!
Yasamı giribsən, a bəxti çaşqın?
Libas gey əyninə qara, a dağlar!

Şaxtalarmı vurdu, güllərin soldu?
Çiskinlər yaş oldu, gözümə doldu,
Analar ağladı, saçını yoldu,
Dərdimi söyləyim hara, a dağlar?

Vəlini gəzirlər, Binnətim qaçdı,
Ünümə baxmadı, dağları aşdı.
Mələyəm, ay ellər, taleyim çaşdı,
Bircə xəncər imiş çara, a dağlar!

Ətrafdan boylanan boynubükük çiçəklər sanki Mələyin yas yerinə ağlaşmaya gəlmişdilər. Cəh-jəh vuran quşlar lal olub sanki Mələyin yasını tuturdular.

Günəşin şüası işıq əvəzinə, Mələyin üzünə qaranlıq saçırdı. Qadınların qolları üstündə gəzən Mələyin gözləri əbədi olaraq yumuldu. Mələyin eltisi qızı Gülayar ağlaya-ağlaya görək elləri nejə köməyə çağırır:

Ay camaat, Mələk öldü,
Yığılsın ellər, ağlasın.
Göz yaşınız selə dönsün,
Dəhanda dillər ağlasın.

Yaslı olan qara bağlar,
Ruzgar inlər, zaman ağlar,
Qoy dil desin uca dağlar,
Çiçəklər, güllər ağlasın.

Gülayarın dərdli bəndi,
Zülmət endi, gələn çəndi.
Eşitsin Kosalı kəndi,
Sızlasın, tellər ağlasın.

Bütün binələr töküldülər Mələyin yas yerinə, onu Qırxbulağın suyunda pak etəyib, Hacıxəlil qəbiristanlığında dəfn etdilər.

***İndi də sizə xəbər verim Xozeyindən.***

Xozeyin başında da yoldaşları çox dərin fikirlə, atlar yedəklərində gəldilər Çırçır bulağının üstünə. O, ətrafdakılara öz sirrini açdı: «Mən gəncliyimdə həyat yoldaşım Türfə ilə bu bulağın üstündə əhd-peyman eləmişəm. Bu bulaq mənim sirdaşımdı». Əyilib su içmək istədi. Sanki bulaq da dilə gəlib dedi: «İçmə, göz yaşındı». Xozeyinin yanan ürəyi daha da odlandı, su içməyib ayağa qalxdı. Sinəsində böyüdüyü dağlardan ayrılmaq çox çətin idi. Bir vətən tərəfə baxdı, bir də Türkiyəyə, yanıqlı-yanıqlı dedi:

Ay Qaraxaç, intizarda
Qalırsan qal, mən gedirəm.
Ayrılığın havasını
Çalırsan çal, mən gedirəm.

Ana vətən düşdün bəmə,
Dərd doldurdun bu sinəmə.
İnnən belə qüssə-qəmə
Dalırsan dal, mən gedirəm.

Köməyim yox çata dada,
Yurdum-yuvam yandı oda.
Unutmayıb məni yada
Salırsan sal, mən gedirəm.

Xozeyinəm, gəlləm hərdən,
Bəlkə, qayıtmadım birdən.

Qisasımı düşmənlərdən
Alırsan al, mən gedirəm.

Xozeyin sözlərini tamam elədi. Həmişəlik Türkiyəyə keçdi. Elə o gedən getdi, bir daha geri dönmədi…

İsaxandan sonra Dəmirçihasanlıda, yəni Kosalıda, Nazarlıda repressiya başlandı. İki erməni - Səmi ilə Ratxan sapı özümüzdən olan baltalarla, çox sürgünlərdən sonra, 1931-ji il yanvarın 17-də kəndin içində bu şəxsləri güllələtdilər:

1. Təmən Omar oğlu;
2. Molla Mustafa;
3. Məhəmməd Balı oğlu;
4. Kazım Qələm oğlu;
5. Qarallın Vəli;
6. Qaraseyidlinin Nuru;
7. Çapıq Kərim;
8. İmanı evinin İmanı.

Düşmənçilik hayfı alan alçaqlar da ermənilərlə qardaş olub, əl-ələ verib nələr eləmədilər. Qanun çərçivəsindən çıxıb öz el-obasının qatili oldular. Xalqı sürgünlərə göndərtdilər. Vaqonlarda, gəmilərdə, qumlu səhralarda ölənlərin hansı birini deyim?! Sovet zindanının altından döyülmüş çıxan, böyük əziyyətlərlə təhsil alan varlı balaları Sovetə azmı xeyir verdilər?! Görkəmli filosoflar, elmlər doktorları, minlərlə alimlər Sovetlərin əzdiyi varlıların balaları deyildilərmi?! İkinci Dünya müharibəsində qələbə çalan, ölən, öldürən, sinəsi ordenli, nişanlı gələnlər Sovet tapdayan varlıların balaları deyildilərmi?!

Bəli, artıq təxminən 80 illik bir vaxt ayırır bizi o dövrdən. Amma Vətən, torpaq, el-oba yolunda canını qurban vermiş o igid oğullarımızı unutmur qədirbilən elimiz-obamız. Şeirlər yazır, dastanlar qoşurlar bu igidlərimizin şəninə. Ələmpaşalı Zahid də bir el şairi kimi bu olaylara biganə qalmadı, yaratdığı dastanı belə tamamladı:

İsaxanın haqq üsyanı
Tamam Rusetə yayıldı.
Borçalıynan Qazax, Şəmkir,
Xaldan, Samux, Qax ayıldı.
O Dilbozlu şair Cəfər,
Qopesli Asdan asıldı,
Alcannıdan o Mustafa,
Düzlüyə hər vaxt qayıldı.
Döyüşlərdə Rüstəm Zaldı,
Arxamızda var İsaxan!

Öz elmində bir dəryadı
Xozeyin, qardaşı Nağı.
Hünərinə biz bələdik,
Hay desə, tərpədər dağı.
Geyib general paltarnı,
Azad edib çox dustağı.
Zəkasından xof edibdi
Neçə düşmən, neçə yağı.
Berya səni tora salır,
Qurdurubdu dar, İsaxan!

Sarıvəlli evinin Yasın
Alovdan geyib libasın.
Haqqalannın bir Alı var,
Yerni tutub Şah Abbasın.
Borçalıdan igid Sadıq
Hər nə desə, qulaq asın.
Qasdanoğlu o İsanın
Qanlı görərsiz cidasın.
Üç aydı, dövləti yıxdın,
Adın olub çar, İsaxan!

Firdinnin deyim Vəlini,
Qeyrətlidi, pak vicdandı.
Dəli Əhməd, Qaçaq Mahmud
Etdikləri tamam qandı.
Cəfərri Yunus, Şəmistan
Atıcıdı, düz atandı.
İmanı evinin İmanı
Əhmədlə dada çatandı.
Halal olsun o dəstənə,
Düşmənindir xar, İsaxan!

Ulaşlıdan Qiyas gəlib,
Mətəl qalıb bu hünərə.
Təmənoğlu Dınqır Musa
Döyüşdə bənzəyir nərə.
Dəhnədən Şəkili Söyün
Koroğlutək çəkir nərə.
Göyçəlidən Qurban ağa
Pusquda da kəsib bərə.
Obalardan alqış gəlir,
Tale olsun yar, İsaxan!

Həm Madaşda, Sac dağında,
Ceyrançöldə oylağın var.
Göy Tomtu, Keşiş dağında,
Cahangirdə bulağın var.
Teymur dağı, Emin düzü,
Qaraxaçda yaylağın var.
Kürdən, Xramdan keçibsən,
Neçə-neçə çaylağın var.
Zülmət gecələr döyüşdün
Yağa-yağa qar, İsaxan!

Qələm əldə dərdli Zahid
Zamanın sirrini açır.
Zülmətlərdə döyüşənlər
Gələcəyə işıq saçır.
Mənəm deyən o namərdlər
Daldalanıb daha qaçır.
Bakımızdan ölkələrə
Neçə min təyyarə uçur.
Sazlı-sözlü dastanın var,
Səndən deyir tar, İsaxan!

Şair zamanla döyüşür, zamandan yazır! Qocalardan əhval soruşur, cavandan yazır! Allah rəhmət eləsin həyatda iz qoyub, ad alan kişilərə!

*Bu dastanı Nağı Hacıbayramlının Türkiyədən göndərdiyi "Xatirələr"indən götürüb, bir də Ulukişili Qaçaq Şəmistanın özündən eşidib şair.*

*Dünyagörmüş nənə-babalardan çox şey götürən, bu dastanı yaradan Zahid Ələmpaşalı illər uzunu zamanın çirkin əməlləri ilə barışmadı, öz elinin-obasının şənliklərində sevinib, yaslarında qəm çəkdi ...*

**Dastanın yaradıcısı hazırda Qarayazı elində – Kosalı kəndində ömrünün 90-cı illərinə qədəm qoyan el şairi Zahid Ələmpaşalıdır.**

## “QAÇAQ MAHMUD”

Qaçaq İsaxandan sonra başsız qalan qaçaqlardan Türkiyəyə keçən keçdi, ölən öldü, tutulan tutuldu. Qalanları – Türkiyədən geri qayıdan Cəfərri Qaçaq Yunus, Qaçaq Əli, Qaraçöplü Umud, Qaxetli Lado, Təhlədən «Qannı» Həsrətqulu, Qazaxdan İmran, Lətif, Samuxlu Eldar, Həsən, Borçalıdan Çopur Musa, Balakəndən Qaraçı Şirin, Tovuzlu Ləzim və başqaları. Ceyrançöldə, Qurd dərəsində Qaraçöplü Qaçaq Mahmudun başına toplaşdılar.

Mahmud üzünü qaçaqlara tutub öz məramını açıqladı: «A dostlar, İsaxan kimi oğulları torpaq yüz ildə bir yetirir. Onu yəqin bilin ki, o ölməyib, sağdı. Dəstəmiz həmin dəstədi, Mahmudu da İsaxan bilin».

Qaçaq Mahmud öz dəstəsi ilə uzun müddət Ceyrançöldə qaldı. Sonra belə qərara gəldilər ki, Qarayazı meşəsinə getsinlər. Belə də etdilər. Teymur dağının başında atların yüyənini çəkdilər. Mahmud Qaraçöpə, Yunus isə Qarayazıya tərəf baxdı. Uca dağ başında, atın belində, sinə coşmazmı?!

**Qaçaq Mahmud:**

Üstümüzdən yaman əsir
Qara yellər, qara yellər.
Bu zamandan qan qoxuyur,
Haray ellər, haray ellər.

**Qaçaq Yunus:**

Zamanımız çox zarıyır
Çara ellər, çara ellər.
Yaşıl dağlar libas geyib
Qara ellər, qara ellər.

**Qaçaq Mahmud:**

Bu dərd məni yaman didir,
Qəm ləşkərı təslim edir,

Üz döndərib bəxtim gedir
Hara, ellər, hara, ellər?

**Qaçaq Yunus:**

Çoxdu tapan öz qibləsin,
Geyinmişəm qəm libasın,
Məni də özünüz asın
Dara, ellər, dara, ellər.

**Qaçaq Mahmud:**

Dost bağıma iblis dolur,
Gülşənimi tamam yolur,
Tərlan quşlar təslim olur
Sara, ellər, sara, ellər.

**Qaçaq Yunus:**

Hiylələri biz qanırıq,
Baxa-baxa odlanırıq,
Alışırıq, hey yanırıq
Nərə, ellər, nərə, ellər.

**Qaçaq Mahmud:**

Mahmud, od aldı köynəyin,
Bəd zamana baş əyməyin,
Qeyrətinizi dəyişməyin
Vara, ellər, vara, ellər.

**Qaçaq Yunus:**

Yunus, ünlə fələyimi,
Eşitməyir diləyimi,
Cərrah ala ürəyimi,
Yara, ellər, yara, ellər.

Sözlərini tamam edib, atlarını sürüb gəldilər Qarayazı me-

şəsinə. Mahmud: «Ayə, ay Yunus, mənim bu meşədən başım çıxmır». Yunus: «Sizi bu meşə ilə tanış etmək mənim boynuma». Adətən, qaçaqlar gecə gec yatırlar, səhər isə tez dururlar. Bir səhər Mahmud bu meşədə nələr gördü!..

**Aldı Mahmud:**

Kolxoruzu qaqqıldaşıb,
Yuvasından uçub gedir.
Marallar da bizi görüb,
Baş götürüb, qaçıb gedir.

Dəymə çobanın şəstinə,
Duraq turacın dəstinə.
Biz çıxanda qurd üstünə,
Heç pəsinmir, keçib gedir.

Ayıların çoxdur kini,
Armuddur imanı , dini.
Kəkliyə bax, cücəsini
Arxasınca seçib gedir.

Ötür quşlar, ağarır dan,
Gözəlliyə oldum heyran.
Suya gəlib cüyür, ceyran,
Kür çayından içib gedir.

Doymaq olmur nəşəsindən,
Gözəlliyin guşəsindən,
Qarayazı meşəsindən
Qaçaq Mahmud köçüb gedir.

Qaçaq Mahmud gördü ki, yeməli quşlar, heyvanlar, meyvələr bu meşədədi. Bir qoca, qarnıyarıq palıdın dibindən Kür çayına qədər yerin altından lağım, yəni kankan atdılar. Bu da qaçaqların yataqxanası oldu. Maralı, qoyunu, malı yedikcə dərilərini yerə

döşəyib üstündə yatırdılar. Qaçaqlarla görüşən qasidlər də az deyildi. Bir gün xəbər gəldi ki, milisin zirzəmiləri dustaqla doludur. Mahmud dəstəsi ilə qapıları qırdı, dustaqları buraxdı. Milisin at talvarına, otuna od qoyub yandırdılar. Milis rəisi qorxusundan Tiflisə köçdü. Bir neçə dəfə milisin silah anbarını dağıtdılar, atlarını apardılar, rəisin otağına od vurdular. QPU-dan, mərkəzdən adamlar gəldi, gizlincə söhbət apardılar ki, bu böyük dəhşətdən qurtarmaq lazımdır. «İkinci İsaxan» bizim başımıza bəlalar gətirir. Axırıncı siyasətləri belə oldu: Azərbaycan dilini yaxşı bilən Aşot Manukyan adlı bir erməni çekisti qaçaqların dəstəsinə göndərirlər. O, deyir: «Mən Qaçaq Mahmudun yerini-yurdunu öyrənəcəm. Ondan sonra əhatəyə alaq, hamısını güllələyək». Erməni özünə Ərşad Məmmədov adını götürür.

Bir beşaçılan, cırıq-cındır paltar geyib, bir torbada quru yemək götürür, Qarayazı meşəsinə girir. Həmin günü onu Yunusla Umud tutub Mahmudun yanına gətirirlər. Deyir: "Adım Ərşaddır, familiyam Məmmədov. Tiflisdə beş nəfər milis işçisini öldürmüşəm. Kür çayı aşağı gəlib bura çıxmışam. Bilmirəm, bura haradı". Mahmud göstəriş verir ki, silahını özünə qaytarın, Yunusa tapşırır ki, gizlincə onu sən izləyərsən. Üzünü Ərşada tutub: «Daha sən bizim dəstənin üzvü oldun. Qorxma, səni biz dolandırarıq». Ərşad çox sevindi. Gecə tunelə düşdü. Qovurmadan yaxşıca yedi, dərilərin üstündə yatdı. Mahmud qaçaqlara dedi: «Kür tərəfə çıxacağımızı hələ buna bildirməyin».

Bu minvalla Ərşad bir neçə gün qaldı. Mahmud Yunusa Ərşadı sınaqdan keçirməyi tapşırdı və üzünü ona tutub: «Yunus, bizə duz, un, tənbəki lazımdı, get tap». O saat Ərşad da dilləndi: «Mən də gedim. Özümün pulum var almağa». Mahmud Yunusa Ərşadı da özü ilə aparmağı tapşırdı: «Tək getmə, bunu da apar».

Ərşad Yunusun yanına düşdü. Onlar Qaratəpəyə çatdılar. Yunus dedi: «Burada tatlar məni tanıyır, sən get, al, gətir. Mən səni burada gözləyim». O razı oldu. Yunus gördü ki, o, heç yana dönmədi, birbaşa milis idarəsinə girdi, on-on beş dəqiqə çıxmağı

çəkdi. Oradan tələsik çörək, un, duz alıb gətirdi. Bir az gəlmişdilər, Yunus ondan soruşdu: «Bəs tənbəki almadın?» «Ərşad»: «Yadıma düşmədi», - deyə cavab verdi. Yunus ona dedi: «Yaxınlıqdakı kənddə dostum var, gedək, alım». Gəldilər Cəfərriyə. «Ərşad» arxın altında durdu. Yunus özünü Şəmistangilə saldı. Gördü ki, Anaxanım evdədir. Yunusu görən kimi bir torba ərzaq şeyləri, bir torba da tütün yarpağı verdi. Anaxanım Yunusa təlaşla xəbər verdi: «Şəmistan dedi ki, Yunus gələndə de ki, Aşot Manukyan adlı erməni onların yerini öyrənməyə gedib qaçaq adı ilə. O, onların yerini öyrənib qırdıracaq. Yunusa da elə bu lazım idi. Tez gəldi, gördü ki, «Ərşad» onu gözləyir. Gəldilər öz yuvalarına. Bərxanaları tökdülər. Mahmudun yerini meşədə bilirdilər, yanına getdilər, əli dolu gəldiklərini bildirdilər. Mahmud onlardan razılıq etdi. Sonra da Yunus xəlvəti Mahmuda danışdı ki, Şəmistan dəstə rəisi işləyir. Orada qaçaqlara qarşı nə olsa, bunlara bildirirdi. Yunus Mahmuda dedi: «Biz Qaratəpəyə gedəndə «Ərşad» (Aşot) məndən 9-cu, 8-ci qolu (yəni kanalı) soruşurdu. Yəqin, ora da məlumat verdi. İyirmi dəqiqədən də çox milis idarəsində qaldı. Mahmud təsdiqlədi: «Yunus, özüdür ki, var. Gecə bunun «işinə baxarıq». Gecə vaxtı köçməliyik, yoxsa bizi qırarlar». Mahmud Yunusu tələsdirdi: «Di durma, tez onu tap, izlə». Yunus qaranlıq qarışan vaxtı gördü ki, Aşot ağaclara ağ əsgini (parça) cırıb yatdıqları yerə tərəf bağlaya-bağlaya gəlir. Axırıncı əsgini bağlayıb endi alaçığa. Onun arxasınca Yunus da düşdü. Yunus onun hərəkətini Mahmuda danışdı. Çörəklərini yeyəndən sonra Mahmud qaçaqları yığıb onları məlumatlandırdı: «Dostlar, içimizdə bir nəfər milis tərəfdən hazırlanıb göndərilmiş adam var. Boynuna alsa, öldürməyəcəyik». Bütün qaçaqlar bir-birinin üzünə baxdılar. Hamı soruşdu: «O, kim olar?» Heç kəsdən səs çıxmadı. Mahmud sualını bir də təkrar etdi. Yenə dillənən olmadı. Mahmud soruşdu: «Aşot Manukyan kimdir?». Heç kim dillənmədi. Mahmud yenidən sual verdi: «Ərşad Məmmədov kimdir?». Ərşad-Aşot qorxmuş halda ayağa

qalxdı. Mahmud "Ərşad"a üz tutub ondan soruşdu: «Bizim olduğumuz yeri nə vaxt mühasirəyə alacaqlar?». Aşot dinmədi. Mahmud: «Əkin sahəsindən qarnıyarıq palıda kimi kim budaqların görünən yerlərinə ağ əsgi bağlaya-bağlaya gəlib?». Aşot yenə dinmədi. Yunus hirslə: «Bu erməni bağlaya-bağlaya gəldikcə mən də onun arxasınca gəlirdim». Aşot yalvardı: «Allaha and için ki, məni öldürməyəcəksiniz, düzünü deyəcəm». Mahmud: «And içirəm»,- dedi. Aşot danışdı: «Səhər saat 6-7-i arası, yəni işıqlaşanda həmin ağ əsgilərin iziylə gələcəklər. Mən mərkəzdə birinci dərəcəli çekist idim, ancaq Qaçaq Mahmud məndən çox bilən adam imiş. Məni öldürməyin, dörd uşağım var. Onları yetim qoymayın». Mahmud dedi: «And içmişəm, öldürməyəcəyik». Oradaca Aşotu öz beşaçılanının ağzı sinəsinə tuşlanmış şəkildə palıdın gövdəsinə bağladılar. Beşaçılanın tetəsini (tətiyini) də iplə eşikdəki şaxa sarıdılar. Şaxa toxunulsa, atəş açılacaq və onu öldürəcəkdi. Qaçaqlar bütün bərxanalarını atlara yükləyib, keçdilər Kürün o tayına.

Bunlar burada qalsın, indi də danışım erməninin gətirtdiyi qoşundan. Həmin vaxt Qırmızı Ordu ilə xüsusi şöbədən adamlar da gəldilər, qarnıyarıq, qocaman palıdı tapıb həndəvərini mühasirəyə aldılar. Palıdın şaxına toxunan kimi içəridən atəş səsi eşidildi. Kankana (lağıma) enəcəyi güllələbaran etdilər. Gördülər ki, elə bircə dəfə atəşdən sonra atəş səsi gəlmədi. Bir nəfər qışqırdı: «Təslim olun, sizi bağışlayacağıq» və aşağı endi. Gördü, heç kəs yoxdu. Aşotun yuxarıdan aşağıya tərəf damcı-damcı qanı tökülürdü. Silahı da yanında idi. Xüsusi şöbənin işçiləri həmin lağımla, yəni kankanla Kür çayına qədər getdilər. Sonra qayıdıb Aşotun sarğısını açıb, bir atın belinnən aşırıb silahı ilə bərabər rayona gətirdilər. Bütün Qarayazı tamaşaya durdu ki, qaçaqlar çekist öldürüb. Tiflisdən vəzifəli hökumət işçiləri töküləb gəldilər. Çox təəccüb etdilər ki, Gürcüstanın ən sınanmış çekisti Aşot Manukyan kimi adamı Qaçaq Mahmudun dəstəsi öldürüb. Qaçaqların yerini xəbər verənlərə böyük mükafat

verəcəklərini vəd etdilər.

Qaçaq Mahmudun dəstəsi Əysipara, Ayrım meşələrini özlərinə məskən etdi. «Göylərə baş çəkən» (ifadə Səməd Vurğunundur) Göyəzən dağını gördülər. Bəzən buludlar üzünə pərdəsini çəkirdi. Qartallar qayalardan qaçaqlara çox diqqətlə baxırdı. Mahmudun bu meşələr xoşuna gəlsə də, amma Qarayazı meşəsindəki çölxoruzunun səsi, maralların hayqırtısı, oradakı meyvələr burada yox idi. Qaçaq Mahmud gördü ki, bu dağlarla Ceyrançöl dağları arasında çox böyük fərq var. Götürdü, görək Mahmud nə dedi:

Qürurlu baxışın bizə arxadı,
Pənah gətirmişik sənə, a dağlar!
Daşlı səngərlərin bizi üşütsə,
Bürünnük çiskinə, çənə, a dağlar!

Arxalandıq əvvəl Ceyrançölünə,
Sonra gəldik Qarayazı elinə.
Tarixçisən, al qələmi əlinə,
Yaz sinədəftərə yenə, a dağlar!

Mən Mahmudam, ürəklərin həkimi,
Teymur dağı bu dağların hakimi.
Durubsan qarşımda günahkar kimi,
Dinib, cavab versən mənə, a dağlar!

Qaçaqlar kəndlərlə əlaqə saxlayırdı. Xəbərlər gəlirdi ki, Bakıdan vəzifəli adamlar gəliblər. Kəndlərdə kolxoz qururlar. Bir xəbər də gəldi ki, bu gecə iclas edirlər. Mahmud dedi: «On iki nəfər atlanın, iki nəfər atları gözləyər, on nəfərimiz iclasa gedərik». Elə də etdilər. Mahmud, Umud, Yunus ön cərkədə oturdular. İclas çox qızğın gedirdi. Amma çoxusu yalandan danışırdı. Axırda dedilər: «Yaşasın Lenin, uraaa! Yaşasın Stalin, uraaa! Torpaq sizindir, uraaa! Su sizindir, uraaa! Kolxoz sizindir, uraa!» Sonra dedilər, kəndlilərdən kim danışmaq istəyirsə,

səhnəyə çıxsın. Qaçaq Mahmud cəld səhnəyə çıxdı: «Ay camaat, ruzunuzu Allahdan istəyin, Allah verəndə məhsul daşın üstündə də bitir. Sonra da deyir, yaşasın fəhlə, kəndli sinfi. Onlardan müftə ruzqu gözləyirlər, uraaa, hamı deyir, uraa, torpaq sizindir, uraaa, inanmayın, eşidin, inanmayın, heyvansınız, uraaa». Bakıdan gələn bir nəfər Mahmudun paltarından geriyə doğru çəkirdisə də, Mahmud dediyini deyirdi. Sonra Mahmud mauzerini çıxarıb bunları bir küncə qısdadı: «Əclaflar, bu xalqı niyə aldadırsınız?» Onlardan bir nəfər yaşlı kişi dedi: «Biz də belə yalançı təbliğatla maaş alıb uşaqlarımızı dolandırırıq». Qaçaqların hamısı çıxır Mahmudun yanına. Başlayırlar ona yalvarmağa, deyirlər: «Bizi o bir olan Allaha bağışlayın, balalarınıza bağışlayın. Körpə uşaqlarımıza yazığınız gəlsin». Mahmud deyir: «Bu xalqı düzgün başa salın, buraxım». İçlərindən qoca bir kişi dedi: «Ay camaat, bizə də sizə yalan danışmağımıza, yalan təbliğimizə görə maaş verirlər, irəli çəkirlər. Bizi bağışlayın». Camaat Mahmuda yalvardı ki, onları öldürməyin, buraxın. Mahmud fırıldaqçı kommunistləri buraxır. Sonra Mahmud camaatı danladı: «Ay camaat, biz belə fırıldaqçı kommunistlərin ucbatından qaçaqlıq edirik. Sizə nə deyirlər, yalanlara əl çalıb, uraaa deyirsiniz. Ona görə də mən də hövsələdən çıxdım, dedim, heyvansınız, uraaa. Məni bağışlayın, sizi təhqir etdiyimə görə», - deyib səhnədən düşdü. Qaçaqlar atlarına minib getdilər.

İndi də, əziz oxucular, bir misal qalıb ellərdə, obalarda. Deyirlər, Qaçaq Mahmud deyən kimi hər şeyə əl çalıb, ura deyirsən.

Qaçaq Mahmud Tovuz tərəfdən Qızılulğundan sonra Çobandağı aşıb getdi. O, Zaqatala, Balakən, Tianet dağlarında da az olmayıb. İkinci dünya müharibəsinə kimi qaçaqlıq edib. Onun silahdaşı Qaçaq Yunus çox mahir atıcı olub. Türkiyəni gedib-gəlməkdən su yoluna döndərmişdi. Dəfələrlə həbsdən qaçmışdı. Yeddinci qaçışı zamanı, hasardan atılan vaxt üçüncü mərtəbədən bir çekist qadın onu güllə ilə vurdu.

Haqq yolunda vuruşan ata, babalara Allah rəhmət eləsin!

***İndi də sizə Təmən uşağından deyim.***

Təmənuşağı Nazarlı kəndində yaşayırdılar. Sonradan analarını da götürüb Türkiyəyə qaçdılar. Nazarlı kəndinə Şüşəligöz Söyünü kolxoz sədri seçdilər. O, Nazarlıya gəlmə idi. Şüşəligöz Söyün deyirdi ki, Təmənuşağının yurdunda turp əkdirəcəm. Qasid bu sözü Türkiyəyə sahibinə çatdırır. Anaları deyir: «O sözü ona yedirtməsəniz, südüm sizə haram olsun». Təmənuşağı analarının sözündən çıxmazdılar. Atlanıb gəlirlər. Görürlər ki, 16-cı qolda iki nəfər yer sulayır. Yaxınlaşanda görürlər ki, biri Şüşəligöz Söyünün qayını Bilaldı, o biri də öz elliləri Hacıkişidir. Bunları silahın qabağına qatıb Şüşəligözün evini göstərtdilər. Şüşəligözü qabaqlayırlar, onları buraxırlar. O gediş Şüşəligöz yox olur. Kimi deyir, əl-qolunu bağlayıb Kürə atıblar, kimi deyir, yerə basdırıblar, kimi deyir, Türkiyəyə aparıb analarının yanında öldürüblər.

İndi isə sizə xəbər verim Ələmpaşaoğlu Hacıdan.

Ələmpaşaoğlu Hacı çox savadlı imiş. Ərəb dili, latın əlifbasında dərs deyən müəllim imiş. O, savadlı olduğundan Qarayazı Rayon İcraiyyə Komitəsində çalışırdı.

Hacını qəflətən QPU-ya çağırırlar: «Siz ərəb dili müəllimi olubsunuz. Sizi sürmürük, Türkiyəyə kəşfiyyata gedəcəksiniz». Ələmpaşaoğlu Hacı razılaşmağa məcbur olur: «Partiya hara göndərsə, mən hazıram». Nə edə bilərdi, hökumətin güllələdikləri, sürgün etdikləri gözünün qabağına gəldi. Onlar Hacıya ciddi tapşırdılar: «Get, çağıranda gələrsən. Amma heç kəsə sirr vermə. Ailənə de ki, mən Moskvaya oxumağa gedirəm, hökumət göndərir». Sonra Yesir Məhəmmədi QPU-ya çağırırlar.

Bu həmən Yesir Məhəmməddir ki, 1918-ci ildəki erməni-müsəlman davasında türk qoşunu azərbaycanlılara köməyə gələndə Məhəmməd türk əsgəri olub. Birdən Türk paşası əmr verir ki, qoşun təcili geri gəlsin, ingilislər gəmilərlə gəlib bizimlə müharibə etmək istəyirlər. Yesir Məhəmməd də aşpaz imiş. Odun qırmağa gedibmiş. Türk qoşunu atlanır, geri gedir. Mə-

həmməd gəlir, görür ki, heç kəs yoxdu. Necə deyərlər, lələ köçüb, yurd ağlayır. O tərəfə, bu tərəfə qaçır. Heç kəsi görmür. Qəflətən bir neçə erməni bunu tutur, bir sahibsiz evə salır, özləri də gözləyirlər ki, komandirləri gəlsin, cəzasını versin.

Axşamüstü o deyir: «Ay kirvə, məni su üstə burax». Erməni qışqırır: «Kəs səsini, kopak oqlu». Məhəmməd yalvara-yalvara: «Ay kirvə, bizdə nə günah var, günah bizi bir-birimizə vuruşdurandadı». Erməni Məhəmmədi süzür, görür ki, ayağında isti çəkmə var. Qapını açır, çəkməni soyundurur. Sonra da onu buraxır və deyir: «Get, tez gəl, kopak oqlu». Erməni çəkməni öz ayağına geyinənə kimi Məhəmməd özünü verir kalafa yerində bitən qalın otluğun altına. Erməni başını qaldıranda görür ki, türk yoxdu. Yoldaşlarını da çağırıb gecəyarı olana kimi gəzdilər, tapa bilməyib getdilər. Ancaq Məhəmməd ayağıyalın enişə tərəf işıqlaşana qədər qaçır. Bir kişinin heyvan otardığını görür. Kişi ondan soruşur: «Müsəlmansanmı?» Məhəmməd cavab verir ki, bəli, müsəlmanam. Kişi görür ki, Məhəmmədin barmağından qan tökülür, ayaqları cırıq-cırıq olub. Həmin adam tez öz çarığını çıxarıb Məhəmmədə verir. Məhəmməd ondan soruşur ki, Bakı hansı tərəfdədir? Kişi ona başa salır ki, qabaqda bir dayanacaq var. Üzüaşağı olan hər nə var, min, səni Bakıya aparacaq. Elə də edir. Sonra da Bakı-Tiflis qatarı ilə Tiflisə gəlir. Şeytanbazar draxdınında odun yaran, su gətirən olur.

Bir gün Nazarlıdan Nəğmət kişi draxdınçıya tərəvəz gətirib deyir: «Mənə ot daşımağa bir nəfər adam lazımdır». Draxdınçı Yesir Məhəmmədi göstərir: «Odurana onu apar, türk əsgəridir, ermənilərə əsir düşübmüş, qaçıb bura gəlib». Nəğmət kişi Məhəmmədi arabasına mindirib gətirir. Nəğmət kişi bir ermənini tək işlədirmiş. Həmin ermənini göstərir: «Bu erməni yerini bilir, 14-cü qolda mənim otum var, daşıyın». Məhəmməd: «Baş üstə», - deyib erməni ilə işləməyə gedir. Bir gün otu yaxşı daşıyırlar. İkinci gün yel qalxır. Erməni yükləyən, Məhəmməd yerdən ot verən imiş. Otu verdikcə arabadan onu yel atır. Erməni “Allah”

deyə aslanır. Yesir Məhəmməd yaba ilə vurub erməni yerə yıxır, başını əzir, öldürür. Sonra da qıçından tutub sürüyə-sürüyə qamışlığa atır. Gəlir, ot arabasını yarımçıq qapıya aparır. Nəğmət kişi Məhəmməddən soruşur ki, bəs erməni hanı? Məhəmməd sakit-sakit dillənir: «Öldürdüm». Nəğmət kişinin matı-qutu quruyur: «Ayə, onun yiyəsinə mən nə deyəcəm?» Məhəmməd deyir: «Özün bilərsən. Allahı söydü, mən də öldürdüm». Nəğmət kişini fikir apardı. Bu erməni Tiflisdə «Hallavardan (Avlabar) olan dostunun kiçik qardaşı imiş. Ona deyibmış ki, qardaşın on günlüyə mənə kömək etsin, hörmət edəcəm». Birdən qardaşı gəlir. «Nəğmət, mənim qardaşım hanı?» - deyir. Nəğmət yalan danışmağa məcbur olur: «Onu razı yola saldım, bəs evə getməyibmi?». Erməni, qardaşının evə gəlmədiyini bildirib, Tiflisə qayıdır. Yesir Məhəmməd bir müddətdən sonra Kosalıya gəlir. Onu evləndirirlər, oğullu-uşaqlı olur. Amma ürəyi daim vətən həsrətiylə döyünür. Bir neçə dəfə QPU-ya (Dövlət Siyasi İdarəsinə) ərizə yazır ki, məni öz vətənimə buraxın, gedim.

Bəli, Yesir Məhəmmədi QPU-ya çağırıb deyirlər: «Sən oralı olubsan, səni ora agent göndəririk. Tapşırığı bizə çatdırarsan. Sən türkdilli olduğun üçün bizə çox lazımsan». Bu da: "Baş üstə" deyib, geri- evinə qayıdır. Hər ikisini də bir gecədə, yəni 1938-ci il sentyabrın 11-də aparırlar. O vaxtdan Türkiyədə olurlar. Hacı öz el oğlusu Yolçuyev Nadirə, Xiyalov Şəmdinə, Qarayazıda Daşdəmirov Hacıya bu sirri açmışdı, uşaqlarını onlara tapşırmışdı. Bütün Kosalı, Nazarlı elə bilirdi ki, onlar Moskvada oxuyurlar. Bir də xəbər çıxdı ki, Ələmpaşallın Hacını, Yesir Məhəmmədi Türkiyədə agent kimi həbs ediblər. Dedilər, yalan söz çıxmaz. Sən demə, bu, doğru imiş. Türkiyə məhkəməsi onları dəfələrlə dindirir. Atalar demişkən, bir düz xətt əyriləri kəsir. Onlar bütün günahları boyunlarına alırlar: «Sovet kəşfiyyat orqanları bizi Türkiyəyə gəlməyə zorla məcbur etdilər, yoxsa bizi sürgünlə qorxudurdular. Biz də gəldik, daha geri getmədik». Hacı məhkəməyə cavab verdi: «Mən ərəb dili müəl-

limi olmuşam. Orada olan türk balalarına ərəb dilində dərs demişəm». Yesir Məhəmməd də türk əsgəri kimi Qafqazda vuruşduğunu və 1918-ci ildə ermənilərə əsir düşdüyünü bildirdi. Yesir Məhəmmədin dediklərini və Ələmpaşaoğlu Hacının Qarayazı Rayon Icraiyyə Komitəsində işləyib-işləmədiyini da yoxlayıb təsdiqlədilər. Ancaq Türkiyə cəza qanunlarına görə bu hərəkətləri müqabilində onlar yalnız xalq qarşısında asılmalı idilər. Asılmaq vaxtı gəldi çatdı. Ən çox meydana yığışanlar Sovet ölkəsindəki təqiblərdən yaxa qurtarıb Türkiyəyə qaçanlar idi. Xozeyinlə Nağı ön cərgədə oturmuşdular. Hamı məhbusları gözləyirdi. Düşünürdülər ki, görəsən, onlar kimdir? Bir də gördülər, polis işçiləri iki nəfər məhbus gətirdilər. Biri çox göyçək, ağsaçlı, o birisi qarabəniz, dolu adam idı. Əvvəlcə ağbənizli, nazik görünüşlü, ağsaçlı məhkumu dindirdilər. Ondan soruşdular: «Vəkil tutmaq fikriniz varmı?» O cavab verdi: «Vəkil tutmaq üçün bizim pulumuz yoxdu. Biz kimsəsizik». Məhkəmə başlandı. Hacı bu sözləri dedi:

Bilin, müsəlmanam, islam əhliyəm,
Gəlin tövbə deyim, günahım yoxdu.
Ana olan bala dağı görməsin,
Qəribəm, kəfənim alanım yoxdu.

Ələmpaşaoğlu Hacını məhbusluq çox dəyişmişdi. Onu tanımaq qeyri-mümkün idi. Başını qaldırıb yığılan camaata baxanda öz-özünə dedi: «Bütün İstanbul əhli bura gəlib ki». Ön cərgədə olan iki nəfərin ağlamasını görən Hacı bu bayatını dedi:

Əzizim, oda dağlar,
Yanmadın oda, dağlar.
Mən sinə dağı gördüm,
Sinəsi oda dağlar.

Bu bayatını eşidən didərginlər elə ağlaşdılar ki, sanki yas yerində idilər. Hacının gözünə məhkəmənin qarşısındakı "Quran" kitabı sataşdı. Dedi: "Qoyalar, bu kitaba and içəm. Assalar da sonra assınlar". Hacı "Quran" kitabına işarə etdi və dedi:

«Mən qarşınızdakı "Qurani – Kərim"in yolu ilə gedirəm. O yol ilə gedən haqlıdı». İkinci bənddə görək Hacı nə dedi:

Zülmət zirzəmidə çox axdı yaşlar,
Hicran ağrısından ağardı başlar.
Adı gözəl Məhəmmədə bağışlar,
Quranı yadına salanım yoxdu.

Hakim ayağa qalxıb dedi, bilirəm, bu kitabdan halısan, üç dəfə öpüb gözünün üstünə qoyub dedi: «Bu kitabdan nə tələb edirsən?» Ələmpaşa oğlu dedi: «Mənə bir gecə möhlət ver, o kitabı oxuyum, özümə xətm edim. Assanız, sonra asın».

Kitab hakimin əlində göz yaşıyla islandı. Elə onu dedi ki, neçə yaşın var?

Hacı cavabını bayatı ilə dedi:

Əzizinəm, yaşı çoxdu,
Mən qocanın yaşı çoxdu,
Gözlərimə baxıb ağla,
Gör bir kimin yaşı çoxdu?

Qazı ayağa qalxıb dedi: «Məhkum, sizə qarşı bizdə inam yarandı. Biz Allaha, onun peyğəmbəri Məhəmmədə və kitabı «Qurana» inanırıq. "Qurani-Kərim"in qarşısında diz çöküb, baş əyirik». Hacı dedi: «Günahsız müsəlman aləminin arasında asılmağıma razıyam. Çünki məni öz adətimizlə dəfn edəcəklər».

Hacının bu zaman cüt bacıları və ən çox istədiyi anası yadına düşdü. Bir bayatı da çəkdi:

Əzizinəm, ay ana,
Pərvanələr, ay ana.
Oğlun dara çəkilir,
Nə durursan, ay ana?

Məhkəməyə yığılanların hamısı ağlaşırdı. Hacı dedi: «Ey dərdməndlər, az ağlaşın, haqq ayaq üstədi». Aldı, görək Hacı nə dedi:

İztirablı, həyəcanlı anımda
Zaman namərd, bir dəlil yox yanımda,

Ana dərdi qövr eləyir canımda,
Fikir- xəyalıma dalanım yoxdu.

Xozeyin general rütbəsində idi. Nağı xaricə gedən nümayəndə idi. Hər iki qardaşı qəriblik kövrəltmişdi. Özlərindən xəbərsiz damcı-damcı gözlərindən yaş tökülürdü. Bir nəfər irəli çıxıb bildirdi ki, bu zalım oğlu bizi odsuz, ocaqsız yandırdı. Bu zaman hər iki qardaş bir-birinə baxdı. Nağı dedi: «Ayə, a qardaş, danışanın səsi mənə tanış gəlir. Amma özünü tanıya bilmirəm».

Hacı bir bayatı da çəkdi.

Əzizim, qara baxtım,
Dağlarda qara baxdım,
Baş götürüb səndən qaçdım,
Yenə baxdım, qara baxtım.

Bir nəfər irəli çıxıb bildirdi ki, bu müqəssirlərin parası lazım deyil. Mən bunlara vəkillik edərəm. Gəlib hər iki məhkumdan soruşdu: «Siz hansı ölkədən gəlibsiniz?» Hacı dedi: «Sovet ölkəsi bizi Türkiyəyə kəşfiyyata göndərdi. Ancaq biz geri qayıtmaq istəmirik, burada ölmək istəyirik».

**Hacı:**

Şura ki var, məzlumların qurdudu,
Əsas ordu bizi tutan ordudu.
Ulu babam Osmanlının yurdudu,
Eşidib ərzimi, bilənim yoxdu.

Öz xahişi ilə onlara vəkillik edən adam məhkəmə sədrinə üz tutub dedi: «Hakim, o adam Allahını sevən adamdı. Özü də deyir ki, mən "Qurani- Kərim"in yolu ilə gedirəm. Siz bu işə düz baxmasanız, haqq yolunda günahkar olarsınız».

**Hacı dedi:**

Sirr açmaram, Hacını güllələrlər,
Tilsimdəyəm, zülmətdəyəm, bilərlər,
Bacılarıma ünüm çatsa, gələrlər,
Yaş töküb, saçını yolanım yoxdu.

Birdən Nağı qışqırıb yerindən atıldı: «Ayə, Xozeyin, bu ki

Ələmpaşaoğlu Hacıdır». Özlərini Hacının üstünə atdılar. Öpüşub-ağlaşıb görüşəndən sonra Xozeyin yeridi məhkəmənin üstünə, məhkəməni dayandırdı. Onlara bildirdi ki: «Mən paşanın yanından gələnə qədər məhkəməni dayandırın».

Məhkəmənin sədri Xozeyinə dedi: «Mənim tərəfimdən də paşaya de ki, hər ikisi günahsızdır».

Xozeyin səhər getdi, hər ikisini də zaminə aldı və Hacını da, Məhəmmədi də azad etdirdi. Özlərinə də ev verdi. Əllərinə para verdi. Az müddətdə Hacı varlandı. Özünə də yaxşı vəzifə verdilər. Türkiyədə evləndi, bir qızı da oldu. Özü də orada rəhmətə getdi.

Vətəndən uzaqlarda ölənlərin hamısına Allah rəhmət eləsin!

Vətən torpağını qəbirlərin üstünə tökürlər. Yerləri nurlu, məkanları cənnət olsun!

**Dastanın yaradıcısı Qarayazı elinin Kosalı kəndində yaşayan el şairi Zahid Ələmpaşalıdır**

# DASTAN MÜƏLLİFLƏRİ HAQQINDA

**1. Şair Nəbi Borçalı.** 1873-cü ildə Borçalı mahalının Faxralı kəndində anadan olub. Körpə yaşlarından möhkəm yaddaşı, hazırcavablığı ilə həmyaşıdlarından seçilən Nəbi Oruc oğlu yeniyetmə vaxtlarından şeir söyləməyə başlayıb. Ailədə çətinlik və ağır güzəran görən balaca Nəbi 12-13 yaşlarından mülkədar malikanələrində nökər, çoban, mis mədənində fəhlə işləyərək ailəsinin gün-güzəranının yaxşılaşmasına çalışmışdır. Şair Nəbi çox gənc yaşlarından tanınmağa başlamışdır. Onun 14-15 yaşlarında Borçalının Quşçu kəndində nökər olduğu vaxtlarda Aşıq İsmayılla, Molla Abbasla deyişib qalib gəlməsi bu gənc şairin az bir zamanda bütün Borçalı mahalında məşhurlaşmasına səbəb olmuşdur. Onun sonrakı illərdə Ağstafada şair Abdulla, Tiflisdə Cənubi Azərbaycan aşıq Heyli, Borçalıda Çıldırlı aşıq Şenliklə deyişmələri bu gün də el şənlikdə aşıqlar tərəfindən ifa olunmaqdadır. Şair Nəbi Borçalı saz çala bilməsə də, o bir ustad və yaradıcı aşıq kimi yüksək səviyyədə məclislər aparmağı, zəngin xalq dastanlarımızı məharətlə söyləyib ifa etməyi bacarmışdır. Məlahətli səsi, şirin təhkiyyəsi ilə məclisdəkiləri feyziyab edən ustad sənətkar zaman-zaman Faxralı aşıq Həsən, Hüseyn Saraclı və Sarvan Bayramın müşayəti ilə məclisləri idarə etmişdir. Zəngin poetik yaradıcılığa malik olan Şair Nəbinin şeirləri ötən yüzilliyin 50-ci illərindən başlayaraq vaxtilə Faxralı orta məktəbinin direktoru vəzifəsində çalışmış mərhum tədqiqatçı-alim Hüseynqulu Məmmədli tərəfindən toplanmışdır. Onun kitabları 1991, 2003 və son olaraq 2013-cü ildə nəşr olunmuşdur.

Şair Nəbi Borçalı dastan yaradıcısı kimi də öz istedan və bacarığını göstərə bilmiş “Mehdi bəy” kimi klassik dastan ənənəsinə uyğun gözəl bir sənət əsəri ərsiyə gətirmişdir. Şairin anadan olmasının 130 illiyi 2003-cü ildə Azərbaycan yazarlar birliyində və ustadın doğulduğu Faxralı kəndində yüksək səviyyədə qeyd edilmişdir.

Şair Nəbi Borçalı 1945-ci ildə anadan olduğu kənddə dünyasını dəyişmişdir.

**2. El şairi Ağacan Cabbar oğlu Cabbarlı** 1876-cı ildə Şorayıl mahalında *(indiki Ermənistanda – E.M.)* anadan olmuşdur.

Şair Ağacan repressiya qurbanlarından biridir. Onu ilk dəfə 1943-cü ildə həbs etmişdilər. Həbsxanadan xalq şairi Səməd Vurğuna məktub yazıb imdad istəyən şair Ağacanı şairin xahişi ilə azad edirlər.

Lakin repressiya maşını altı ildən sonra yenə də Ağacanı Sovet hökuməti əleyhinə şeir yazdığına görə yenidən həbs edib Sibirə sürgün etmişdilər. Xoşbəxtlikdən şair-aşığın Sibirdə yazdığı şeir və dastanlarının əlyazmalarını qızı Göyçək xanım saxlayıb günümüzə çatdıra bilmişdir. Şair Ağacan 1951-ci ildə Sibirdə vəfat etmişdir. Şairin nəşi beş il sonra övladları tərəfindən bir qutuya yığılaraq Borçalıya gətirilmiş və el adəti ilə Qaçağan kənd qəbiristanlığında dəfn edilmişdir.

Zəngin poetik yaradıcılığa malik olan sənətkar, həm də öz yaratdığı dastan və deyişmələri ilə də məşhurdur.

Kitaba daxil etdiyimiz "Cahangir Mələksuma" dastanını 1981-ci ildə Borçalı mahalının Axıl-Mahmudlu kəndində yaşayan, çağdaş aşıq sənətinin, xüsusən də saz ifaçılığının inkişafında böyük xidmətləri olan, mərhum aşıq Əmrah Gülməmmədovdan yazıya almışıq.

Dastanın əsli Folklor İnstitutunun arxivində qorunmaqdadır.

**3. Təhləli şair Novruz.** 1912-ci ildə martın 22-də keşmiş Qarayazının *(indiki Qardabani – E.M.)* Qaratəhlə kəndində anadan olub. Atası Şahismayıl Məşədicəfər oğlu 1937-ci ildə "qolçomaq" damğası ilə Rusiyanın Orenburq şəhərinə sürgünə göndərilir və orada güllələnir. Yeddi il sonra, 1944-cü ildə şairin özünə də böhtan atılaraq "xalq düşməninin oğlu" kimi aldığı on illik cəzasının doqquz ilini qazamatda qalmışdır. Stalinin ölümündən sonra aministiyaya düşərək doğma el-obasına qayıtmışdır.

Şair Novruz yaradıcılığa gənc yaşalarından başlamışdır. Klassik aşıq şeirinin əksər forma və şəkillərində mükəmməl əsərlər yaratmışdır. Dövrünün adlı-sanlı sənətkarları ilə deyişib. Novruz Təhləli zəngin yaradıcılığında dastanlara da xüsusi yer ayırmışdır. Onun yaratdığı "Şam Şahzadə" dastanı AMEA "Elm" nəşriyyatında 5 cildlik "Azərbaycan Dastanları"-da 1965-ci ildə çap olunmuşdur. Sənətkarın digər dastanı "Zərqam şah" adlanır. Həmin dastanı şairin tədqiqatçısı və naşiri, istedadlı şair Allahverdi Təhləlidən əldən etdik. Həmin dastanı ilk dəfə "Borçalı folklor örnəkləri" kitabının 1-ci cildində nəşr etmişik. Dastanı geniş oxucu kütləsinin marağını nəzərə alıb bu kitabımıza da daxil etməyi məsləhət bildik.

Şair Novruz Təhləli 1960-cı ildə vəfat edib. Şairin şeirlərini Allahverdi Təhləli "Dağlar, əyil, yar görünsün" adı ilə 2003-cü ildə nəşr etdirmişdir.

**4. İsmayıl Güllər (İsmayıl Hüseyn oğlu).** 1914-cü ildə Borçalı mahalının Faxralı kəndində anadan olub. İkiillik Müəllimlər İnstitutunu bitirmişdir. Ömrünün əlli ilini gənc nəslin təlim-tərbiyəsinə həsr edib. Borçalı mahalında tanınmış el şairi kimi böyük hörməti var idi. Xalq dastanlarımızın mükəmməl bilicilərindən biri idi. Məclislərdə onu həmişə başa çəkər, hörmət qoyardılar. Aşıq yaradıcılığını, klassik aşıqların külliyyatını, xüsusən də Şair Nəbi Borçalının (həm də qohumluq əlaqələri vardı) yaradıcılığını əzbər bilərdi. İsmayıl Güllərin yaratdığı bir çox şeirləri, deyişmə və dastanları bu gün də dillərdə əzbərdir. İsmayıl Güllərin kitaba daxil etdiyimiz "İsmayıl-Qızyetər" dastanını onun dilindən 1983-cü ildə yazıya almış və ilk dəfə tərəfimizdən (E.M.) "Qobustan" incəsənət toplusunun №4 (64) 1984-cü il sayında dərc edilmişdir.

Şairin geniş yaradıcılığı "Faxralının torpağıdır bu yerlər" kitabında təqdim edilmişdir (Bakı: "Nurlan" nəşriyyatı, 1996). Unudulmaz el şairi ismayıl Güllər 2002-ci ildə öz doğma kəndində vəfat etmişdir.

**5. Aşıq Mose Narini.** Milliyyətcə yunandır. Azərbaycan aşıq sənətinin mükəmməl bilicilərindən və təbliğatçılarından olub. Gürcüstanın Başkeçid (Dmanisi rayonu) rayonunda – Sarıgineti kəndində yaşayıb-yaradıb. Əsasən Başkeçidin kəndlərində toylar yola salıb. Deyilənə görə böyük nüfuz və hörmət sahibi olub. Bu günəcən heç yerdə nəşr olunmamış "Səlim bəy" dastanını gözəl nasir, şair və publisist Şamil Şəfəqli 1995-ci ildə aşığın dilindən yazıya alıb və 1997-ci ildə Folklor İnstitutunun arxivinə təhvil verib. Hazırda həmin dastan İnstitutun arxivində saxlanılmaqdadır. Təəssüflər olsun ki, toplayıcının (Şamil Şəfəqlinin) Bakı şəhərinə köçməsi ilə əlaqədar olaraq aşığın anadan olduğu və vəfat etdiyi barədə əlimizdə məlumat olmadı. Ancaq Şamil Şəfəqlinin dediyinə görə o, dastanı yazıya alan zaman aşığın 70-dən çox yaşı varmış.

**6. Aşıq Sona.** Borçalı mahalının Bşakeçid (Dmanisi rayonu) rayonunun Hamamlı kəndində anadan olub.Onu tanıyanların dediyinə görə təxminən 1920-ci ildə anadan olub. Gənclik illərində uğursuz bir məhəbbətə ürcah olub. Qovuşa bilməyib. Ömrünün sonuna qədər heç kəslə ailə həyatı qurmayıb. Ömrünü-gününü telli saza bağlayıb. İlk dəfə ötən yüzilliyin 80-ci illərinin əvvəllərində "Aşıq Pəri" saz-söz məclisinin Başkeçidə səfəri zamanı istedadlı şairə Səadət Butanın bələdçiliyi ilə Aşıq Sona tanınmağa başlayıb. Onun varlığından mərhum xalq şairimiz Hüseyn Arif, Narınc Xatun və başqaları xəbər tutaraq tez-tez bu nakam sənətkar haqqında söz açıblar. Şairə Səadət Buta ilə mütəmadi yaradıcılıq əlaqələri olub. Belə yaradıcılıq ünsiyyətindən "Hürü və Piri" dastanı meydana çıxıb. Olmuş bir tarixi hadisədən bəhs edən "Piri və Hürü" dastanı həqiqətən də klassik dastan ənənəsinə sadiq olaraq son dərəcə oxunaqlı və maraqlı bir dastandır.

"Hürü və Piri" dastanı Aşıq Sona ilə şairə Səadət Butanın müştərək yaradıcılıq məhsulu kimi 1985-ci ildə araya-ərsəyə gəlmiş və Səadət Buta tərəfindən 1996-cı ildə Folklor İnstitutunun arxivinə təhvil verilmişdir.

**7. Aşıq Alxan Qarayazılı (Alxan Qurban oğlu Ömərov)** 1905-ci ildə Gürcüstanın Qarayazı bölgəsinin Kosalı kəndində anadan olmuşdur. Kiçik yaşlarında mollaxanada, mədrəsədə dini təhsil almışdı. Ancaq aşıq sənətinə dərin rəğbəti olduğundan bu sənətin dalınca getməyi qarşısına məqsəd qoymuşdur. Aşıq Alxan ötən əsrin 20-ci illərindən sənətin sirlərini öyrənməyə başlamışdır. Bu arzu ilə gənc Alxan Borçalının Kürüstü Kəpənəkçi kəndində yaşayan ustad sənətkar Aşıq Paşa Gülməmməd oğlunun yanında, onun oğlu – sonralar bu sənətdə böyük şöhrət qazanmış Əmrah Gülməmmədovla birlikdə 13 ildən artıq şəyirdlik etmişdir.

Aşıq Alxan yaradıcı aşıq idi. Onun zəngin poetik yaradıcılığı, böyük həvəs və şövqlə araya-ərsəyə gətirdiyi dastanlar bu gün də oxunmaqdadır.

Aşıq Alxan "Yetim oğlu Məhəmməd", "Qul Əhməd", "Ərəb qızı", "İsfəndiyar", "Canpolad-Fatma", "Gövhər" kimi dastanların müəllifidir. Adı çəkilən dastanlar vaxtilə aşığın dilindən 1989-1993-cü illərə qədər tərəfimizdən (E.M.) yazıya alınmış və redaktoru (həm də çapa hazırlayanı) olduğum "Təbiət Alxanı bir də yaratmaz" kitabına daxil etmişik (Bax: "Təbiət Alxanı bir də yaratmaz", "Çaşıoğlu" nəşriyyatı, Bakı: 2010, səh. 169-240).

Alxan Qarayazılı 1998-ci ildə – 93 yaşında doğulduğu kənddə vəfat etmişdir.

**8. Aşıq Aslan Kosalı.** 1929-cu il avqustun 15-də qədim Qarayazının Kosalı kəndində anadan olmuşdur. 13 yaşından aşıq sənətinə meyl göstərib. Elə həmin yaşlardan tez-tez aşıq məclislərinə gedər, saz çalıb-oxumağı öyrənər, daim öz üzərində çalışardı. Güclü hafizəsi, mükəmməl yaddaşı ilə hamını heyran qoyarmış (bu gün də belədir – E.M.). Onun sənətə gəlişi xoşbəxtlikdən Borçalıda sənətin intibah dövrünə təsadüf etmişdi və kimdənsə öyrənmək, kimdəsnsə nümunə götürmək baxımından onun bəxti gətirmişdi. Yeniyetmə Aslan Musa oğlu sənətə qədəm qoyanda özündən əvvəl aşıqlıqda dünya şöhrəti qazanmış Aşıq Sadığı, Aşıq Məmmədi, Xındı Məmmədi, Aşıq Əmrah

Gülməmmədovu, Aşıq Hüseyn Saraçlını görürdü, onları tez-tez məclislərdə müşahidə edirdi. Öyrənirdi, mənimsəyirdi, sənət yükünü artırırdı. Adını çəkdiyim ustadlardan heç də geri qalmayan Alxan Ömər oğlu isə lap elə qonşuluqlarında yaşayırdı. Az keçmədi gənc Aslan qərara gəldi ki, özünün də sevib bəyəndiyi, sənətinə pərəstiş etdiyi Alxan kişiyə qulluq etsə daha yaxşı olar. Elə də oldu. Ötən əsrin 50-ci illərinin əvvəllərindən 1998-ci ilə qədər bir yerdə oldular. Aşıq Aslan ustaddan öyrəndi, məclislər dolaşdı, hər yerdə ustadına dua eləyə-eləyə özü də ustad oldu. Bu gün onun 84 yaşı var. Yenə də sənətin qulpundan əl götürməyib. Bir yaradıcı aşıq kimi yazır, yaradır.

Kitaba Aşıq Aslanın dilindən yazdığımız, geniş oxucu kütləsinə az məlum olan "Koroğlu" dastanından "Ağcaquzu" qolunu daxil etmişik. Onu da qeyd etmək istərdim ki, Aşıq Aslandan həmin qolu 3 dəfə yazıya almışıq. Bu gün əlimizdə ustadın təhkiyəsində qolun üç variantı var. İlk dəfə 1989-cu ildə yazıya aldığımız variantı 1991-ci ildə "Qobustan" incəsənət toplusunda və "Azərbaycan folkloru külliyyatı"nın XXX cildində nəşr etmişik (Bax: "Azərbaycan folklor külliyyatı". XXX cild. Bakı: "Elm və təhsil", 2012, səh. 380-411). Qeyd edək ki, həmin qol (I variant) 2003-cü ildən bu yana həm rus, həm də Azərbaycan dilində nəşr olunan "Koroğlu" kitablarına daxil edilmişdir.

Qolun II variantını 2006-cı ildə yazıya almış və "Borçalı folklor örnəkləri" kitabında II variant kimi təqdim etmişik (Bax: "Borçalı folklor örnəkləri". Bakı: Elm və təhsil" nəşriyyatı, 2013, səh. 209-238).

Nəhayət, III variantı da aşığın öz xahişi ilə 2012-ci ildə iyun ayında yenidən yazıya almış və bu kitaba daxil etmişik. Qeyd edək ki, təqdim etdiyimiz hər üç variantda eyni aşıqdan yazıya almağımıza baxmayaraq, istər poetik nümunələrdə, istər süjet xəttində, istərsə də təhkiyə üslubunda müəyyən fərqlər mövcuddur. Bu da gələcək tədqiqatçıların maraq dairəsindən

asılı olaraq diqqəti çəkə bilər. Aslan Kosalı hazırda öz kəndində fəaliyyət göstərməkdədir.

**9. Məhəmməd Tanrıverdi oğlu Məmmədov Sadaxlı** 1930-cu ildə Gürcüstanın Marneuli rayonunun Mollaoğlu kəndində anadan olub. Orta təhsillidir. 1951-54-cü illərdə ordu sırasında olub. 1955-ci ildən başlayaraq Aşıq Xındı Məmmədə şəyirdik edib. 1968-ci ilə qədər Xındı Məmməddən sənətin sirlərini mükəmməl şəkildə mənimsəməyə çalışıb. Ustadından 20-dən çox xalq dastanlarımızı, zəngin saz havalarımızı, qədim aşıqlarımızın yaradıcılıq irsini qədərincə öyrənə bilib. Zəngin xalq ədəbiyyatını, dastanları, rəvayət və deyişmələri tamaşaçı və dinləyicilərə böyük həvəs və şövqlə təqdim edə bilən aşıq Məhəmməd özü də yaradıcı aşıq kimi məhsuldar fəaliyyət göstərmişdir. Onun fərdi yaradıcılığı bu gün də davam etməkdədir. Son 15-20 ildə aşığın dörd şeirlər kitabı "Fərman-Nəriman", "Rüstəm-Zöhrab", "Duman xan", "Aşıq Calalın Ceyrançöl səfəri" və " Mehralı bəy" və s. dastanları işıq üzü görmüşdü.

Aşıq Məhəmməd Sadaxlı 60 ildir ki, aşıq sənətini təbliq edir, yazır yaradır. Bu illər ərzində o, Aşıq Hüseyn Saraclı, Əmirah Gülməmmədov, Əhmıd Sadaxlı, Nürəddin Qasımlı ilə sənət dostluğu etmiş, birlikdə məclislər keşirmişdir. Aşıq sənətinin inkişafında və təbliğində göstərdiyi xidmətlərə görə Gürcüstanın sabiq prezidenti E.Şverdanzenin fərmanı ilə Şöhrət ordeninə layiq görülmüşdür. Hazırda öz doğma kəndində yaşayır və şəyirdlər yetirməklə məşğuldur. Kitaba daxil etdiyimiz "Mehralı bəy" dastanı aşığın yaratdığı sayca 7-ci dastandır. Dastanı ilk dəfə mərhum folklorşünas professor Valeh Hacılar yazıya almış və Folklor İnstitutunun "Borçalı-Qarapapaq folklor örnəkləri" kitabına daxil etmişdir.

**10. Zahid Mirzə oğlu Ələmpaşalı.** 1935-ci ildə Qarayazı (indiki Qardabani rayonu) elinin Kosalı kəndində anadan olub. Uşaqlıq illəri ağır müharibə illərinə düşüb, əziyyətlə böyüyüb.

Gənclik çağlarında da güzəranı istədiyi kimi olmayıb. Həyatda çox haqsızlıqlarla üzləşib, əziyyət çəkib.

Erkən yaşlarında zamanın haqsızlıqlarını, qarşılaşdığı ədalətsizlikləri şeirin dili ilə kağıza köçürüb. Uzun illərdən bəri yazıb-yaratdıqlarının bir qismini Gürcüstanda nəşr olunan qəzet və jurnallarda dərc etdirib. Sevindirici haldır ki, şair Zahid Ələmpaşalı bu illər ərzində öz yazdıqlarını kitab şəklində Bakı şəhərində nəşr etdirə biliub. "Qarayazı çiçəkləri" (şeirlər və dastan. Bakı: "Yazıçı", 1991), "Ellərə yadigar sözüm, söhbətim" (şeirlər. Bakı: "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı, 2004) və "Qaçaq İsaxan" (Bakı: Xəzər Universiteti nəşriyyatı, 2009), "Qaçaq Mahmud" (Bakı: Xəzər Universiteti nəşriyyatı, 2009) kimi kitabları dərin oxucu rəğbəti qazanmış və adı çəkilən kitablar haqqında dövrü mətbuatda məqalə və rəylər dərc edilmişdir.

Şair Zahid Ələmpaşalı doğma kəndi Kosalıda bu gün də yazıb-yaradır və onun yazdığı gözəl şeirləri el aşıqları həvəslə ifa edirlər.

# BAŞLIQLAR

**Tərtibçidən ........................................................ 3**
**Redaktordan ....................................................... 5**

Mehdi bəy ........................................................ 14
Cahangir-Mələksuma.............................................. 41
Sam Şahzadə ...................................................... 66
Zərqam şah ........................................................ 100
İsmayıl-Qızyetər .................................................. 126
Səlim bəy........................................................... 141
Pəri-Hürü........................................................... 171
Qul Əhməd ......................................................... 188
Yetim oğlu Məhəmməd ........................................... 203
“Koroğlu” dastanından “Ağcaquzu” qolu...................... 240
Mehralı bəy ....................................................... 281
Qaçaq İsaxan ...................................................... 328
Qaçaq Mahmud .................................................... 366

**Dastan müəllifləri haqqında...................................... 381**

**Borçalı folklor örnəkləri,**
**2-ci kitab (Dastanlar),**
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013.

Nəşriyyat direktoru:
Prof. **Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Vüsal Abiyev**

Korrektoru:
**Validə Bədəlova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ramin Abdullayev**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 390 səh.
Tirajı: 350

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.